Akademik
HÜSEYN MUSTAFA oğlu ƏHMƏDOV

SEÇİLMİŞ PEDAQOJİ ƏSƏRLƏRİ

XXX CİLİDDƏ

I CİLD

Bakı-ADPU-2026

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Akademik
Hüseyn Mustafa oğlu Əhmədov

SEÇİLMİŞ PEDAQOJİ ƏSƏRLƏRİ

Otuz ciliddə

I cild

(XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişafı tarixinə həsr edilmiş əsərlər)

Bakı-ADPU-2026

Hümeyir Hüseyn oğlu Əhmədovun ümumi rəhbərliyi ilə hazırlanmışdır.

Tərtib edənlər: BPA-nın həqiqi üzvü,
p.e.n. ***Fərrux Abbas oğlu***
p.e.n. ***Hümeyir Hüseyn oğlu***
p.e.n. ***Müslüm Hətəm oğlu***

Elmi redaktor: ***Həsən Bayram oğlu***

Akademik Hüseyn Əhmədov. Seçilmiş pedaqoji əsərləri. 30 ciliddə. I cild. Bakı: ADPU. 2026, 456 s. ***(təkrar elektron nəşr)***

Oxuculara təqdim edilən həmin əsərdə akademik Hüseyn Əhmədovun Azərbaycanda məktəb tarixi ilə əlaqədar məqalələri toplanmışdır. Kitab ali pedaqoji məktəbin müəllim və tələbələri, aspirant və magistrləri, həmçinin XIX əsr Azərbaycan tarixi ilə məşğul olanlar üçün dəyərli bir mənbə kimi faydalıdır.

Azərbaycan Beynəlxalq Universiteti Elmi Şurasının 2000-ci il 22 sentyabr tarixli qərarı (protokol №1) və rektorun 25 dekabr 2000-ci il tarixli 3/235 saylı əmri ilə çap olunur.

ISBN 978-9952-615-35-7

© Əhmədov

GÖRKƏMLİ ALİM, TANINMIŞ ELM TƏŞKİLATÇISI

Azərbaycanda təhsilin inkişafında, pedaqoji və elmi pedaqoji kadr hazırlığında böyük xidmətləri olan alim-pedaqoqlardan biri də pedaqoji elmlər doktoru akademik Hüseyn Mustafa oğlu Əhmədovdur. O, ibtidai məktəb müəllimliyindən akademikliyədək mə'nalı və şərəfli həyat yolu keçmiş, qəlbinin odunu və hərarətini, ömrünün qaynar və coşğun illərini millətin gələcəyi olan gəncliyin tərbiyəsinə həsr etmiş, fundamental monoqrafiyalar yazmış, proqram və dərsliklər hazırlamış, Azərbaycan məktəb tarixinin bütöv bir əsrlik (XIX) dövrünü araşdırmış, tədqiqatlarının nəticələrini yaxın və uzaq xaricdə təbliğ etmişdir.

Ötən əsrin 50-ci illərində elmi-pedaqoji fəaliyyətə başlayan akademik Hüseyn Əhmədovun pedaqoji yaradıcılığı çoxşaxəli və çoxistiqamətli olmuş, namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş, assistent, elmi işçi, baş müəllim, dosent, professor vəzifələrində çalışmış, nailiyyətlər qazanmış, keçmiş SSRİ PEA-nın, Beynəlxalq Pedaqoji Akademiyanın, Rusiya Federasiyası Təhsil Akademiyasının üzvlüyünə seçilməklə elm və təhsilin şərəfli bir mərtəbəsinə yüksəlmişdir.

Elmi yaradıcılığa tərbiyəşünaslıq problemlərinin tədqiqi ilə başlayan H.Əhmədov, 60-cı illərdən milli məktəb və pedaqoji fikir tarixi sahəsində axtarışlara başlayır. Moskvanın, Sankt-Peterburqun, Tbilisinin, Həştərxanın, İrəvanın, Bakının dövlət arxivlərində məktəb və mədəniyyət tariximiz üçün olduqca dəyərli sənədləri üzə çıxarır. O, sadəcə faktları toplamaqla, təsvirçiliklə kifayətlənmir, onları tarixi-müqayisəli şəkildə araşdırır ciddi ümumiləşdirmələr aparır, orijinal tədqiqat əsərləri yaradır. Akademik H.Əhmədovun tədqiqatları məktəb və pedaqoji fikrin inkişaf mərhələlərini dövrün sosial-fəlsəfi tə'sisatlar sistemi zəminində, ictimai-siyasi və pedaqoji fikir kontekstində öyrənməyin səmərəli və dəyərli nümunələridir. Xalqın mə'nəvi yaddaşını, onun millilik, vətəndaşlıq, vətənpərvərlik, insanpərvərlik, humanizm barədə görüşlərini, bitkin tərbiyə sistemini, milli-mə'nəvi dəyərləri, pedaqoji qaynaqları, müasir ictimai-pedaqoji fikrin hərəkətverici qüvvəsinə çevirmək, müasir təhsil sisteminə tətbiq etmək onun tədqiqatlarının əsas elmi-praktik məzmununu təşkil edir. O, tədqiqatlarında milli tarixi, pedaqoji nəzəriyyəni, didaktikanı, maarifi, iqtisadiyyatı və dövrün dünyagörüşünü elə ustalıqla əlaqələndirmişdir ki, düşüncəmizdə o, sanki həmin tarixi hadisələrin canlı şahidi kimi canlanır.

Onun "XIX əsr Azərbaycan məktəbi", "100 yaşlı Yuxarı Salahlı kənd məktəbi", "100 yaşlı Qarğabazar məktəbi", "150 yaşlı Şəki məktəbi", "N.Nərimanovun pedaqoji fikirləri" adlı monoqrafiya və kitablarını, "Seçilmiş pedaqoji əsərlərə"ə daxil edilmiş elmi məqalələrini on doqquzuncu yüzillikdəki Azərbaycan məktəb və pedaqoji fikir

tarixinin ensiklopediyası adlandırmaq olar. Fakt zənginliyi, hadisələrin tarixi-xronoloji və tarixi-müqayisəli şəkildə izahı və şərhi, səbəb və nəticə əlaqələrinin ümumiləşdirilməsi ilə fərqlənən bu istiqamətli, sistemli və ardıcıl tədqiqatlar pedaqogika elmində diqqətəlayiq hadisədir, qiymətli mə'xəz, dəyərli bir mənbədir. Onun məktəb və pedaqoji fikir tarixi ilə bağlı əsərlərində keçmişin mütərəqqi ən'ənələrinə, böyük və işıqlı zəka sahiblərinə məhəbbət hissi, onların əsərlərindəki işığı görmək, ona doğru getmək hissi talqin edilir. Azərbaycan məktəb və pedaqoji fikrinin bir əsrlik dövrünün tarixinin yaradılması onun elmi fədakarlığı, elmi məktəb yaratmaq bacarığıdır.

Respublikamızda Azərbaycan məktəb və pedaqoji fikir tarixinin prioritet istiqamət kimi formalaşması və ali pedaqoji məktəblərdə bir tədris fənni kimi bərqərar olması akademik Hüseyn Əhmədovun adı və fəaliyyəti ilə bağlıdır. O, Azərbaycan məktəb və pedaqoji fikir tarixinin aktual problemlərinin araşdırılması ilə kifayətlən-məmiş, həmkarlarından fərqli olaraq onun təbliği və tədrisinə xeyli əmək sərf etmişdir. Belə ki, onun təşəbbüsü və rəhbərliyi ilə 1977-ci ildə "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursundan tədris proqramı hazırlanmış, Azərbaycan və rus dillərində nəşr olunmuşdur. Həmin proqram əsasında xüsusi kurs indiki ADPU-dan başqa, Naxçıvan DPU-da, Tbilisi DPİ-də sınaqdan keçirilmiş, keçmiş SSRİ Maarif Nazirliyinin pedaqoji elmlər üzrə metodik şurasında bəyənilmişdir. Artıq həmin xüsusi kurs pedaqoji universitetlərimizin tədris planında özünə möhkəm yer tutmuşdur. H.Əhmədov həmin proqram əsasında 3 hissədən ibarət dərs vəsaiti də hazırlayaraq tələbələrin istifadəsinə vermişdir.

H.Əhmədov Azərbaycan məktəb və pedaqoji fikir tarixinin mahir tədqiqatçısı olmaqla yanaşı, layiqli təbliğatçısıdır. O, Moskvada nəşr edilən "Azərbaycan pedaqoji fikir antologiyası" adlı monumental əsərin, "SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklərin", "Rus pedaqoji eksiklopediyası"nın, həmçinin 10 cildlik Azərbaycan Sovet Eksiklopediyasının pedaqoji elmlər üzrə əsas müəlliflərindən biridir.

O, Azərbaycan pedaqoji elminin nailiyyətlərini nəinki keçmiş Sovetlər İttifaqın, həm xaricdə layiqincə təbliğ etmiş, beynəlxalq konfrans və sessiyalarda fəal iştirak etmiş, nüfuzlu, kəsərli, orijinal fikirləri ilə pedaqoqların rəğbətini qazanmış, fəaliyyəti beynəlxalq səviyyədə yüksək qiymətləndirilmişdir. Bunlar onun milli elm və təhsilimizin inkişafı yolunda gərgin və səmərəli fəaliyyətinin məntiqi nəticəsidir.

Azərbaycan, rus, gürcü, özbək və başqa dillərdə və çap olunmuş 400-dən artıq monoqrafiya, kitab, kitabça, dərs vəsaiti, metodik tövsiyə və məqalələri alimin yuxusuz gecələrinin, narahat gündüzlərinin sevinc payıdır.

Akademik H.Əhmədov həyatının mə'nasını xalqına, Vətəninə təmənnasız xidmətdə görən aydın zəkalı, dərin təfəkkürlü, milli mənafeyi

həmişə şəxsi mənafedən üstün tutan və bütün fəaliyyətini bu müqəddəs ideala həsr etmiş nurlu şəxsiyyət, müəllim-ziyalıdır. O, geniş erudisiyaya, qibtəedici hafizəyə, dərin məntiqə, aydın təfəkkürə malik tədqiqatçı olmaqla yanaşı, təkcə respublikamız üçün deyil, digər türkdilli xalqlar üçün elmi-pedaqoji kadr hazırlığında böyük xidmətləri olan alimdir. Onun rəhbərliyi ilə hazırlanmış onlarla elmlər namizədi bu gün pedaqogika elminin layiqli təmsilçiləri kimi bu sahədə müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Onun rəhbərliyi ilə 40-dan artıq elmlər namizədi, alim hazırlanmışdır.

Yüksək məqsədlərə dolayı vasitələrlə can atmağın yol verilməzliyini dərindən dərk edən, onu özünün həyat kredosuna çevirən Hüseyn müəllim müstəqil fikirli ziyalı kimi tanınmışdır. O, elmdə də bu prinsipə sadiq olmuş, ona ardıcıl riayət etmişdir. Məktəb və pedaqoji fikir tariximizin ən məşhur tədqiqatçısı kimi əsərlərində sadəcə "gözəl" yazmağa yox, dəqiq və düzgün yazmağa üstünlük vermişdir. Elmi həqiqəti hər şeydən qiymətli bir dəyər hesab edən, elmi axtarışlarında, şəxsi həyatında bu yüksək elmi və əxlaqi me'yara sadiq qalan akademik Hüseyn Əhmədov faktlara e'tinadsızlıq göstərməklə "xırda məqsədlərə", "maraqlı" nəticələrə, onların sün'i effektliyinə və ya hər hansı yollarla özünü irəli vermə formalarına heç zaman cəhd göstərməmişdir. O, belə hesab etmişdir ki, bu yollar son nəticədə labüd olaraq alimin mə'nəvi iflasına gətirib çıxarır. Akademik Hüseyn Əhmədov tədqiqatlarında alınan nəticələrin şişirdilməsinə və hətta faktların azacıq da olsa, təhrif olunmasına, bununla da elmi həqiqətin arxa plana sıxışdırılmasına qarşı çıxmışdır. Odur ki, o, həm elmin mövcudluğuna və nüfuzuna, həm də, alimin özünün mənafeyin mövqeyinə mənfi tə'sir göstərə biləcək bu yollardan son vaxtlarda pedaqoji mətbuat səhifələrində nəşr olunan sayca az, amma sanballı yazılarında istifadə etməyin əleyhinə çıxmışdır. Akademik Hüseyn Əhmədov elmimizin ağsaqqalıdır. Həyatda və elmdə qazandığı yüksəliş onun gərgin zəhmətinin, alim əməyini nəticəsidir, hazırladığı onlarla elmi-pedaqoji kadrlar, yazdığı əsərlər Hüseyn müəllimin parlaq zəkasının və xeyirxahlığının nəticəsidir.

Azərbaycan Beynəlxalq Universitetində onun adına təşkil edilən pedaqoji muzey, anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 55 illiyi ilə bağlı "Seçilmiş pedaqoji əsərləri"nin 5 cildliyinin çapa hazırlanması akademik Hüseyn Əhmədovun elmi-pedaqoji fəaliyyətinə verilən ən yüksək qiymətdir.

Pedaqoji elmimizin ağsaqqalına yeni-yeni yaradıcılıq uğurları arzulayıram!

Misir Mərdanov
Təhsil Naziri

SÖZÖNÜ

Azərbaycanda pedaqoji elmin inkişafında böyük xidmətləri olan görkəmli alim-pedaqoq, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ PEA-nun müxbir üzvü, Rusiya Təhsil Akademiyasının əcnəbi üzvü, Azərbaycan SSR-nin qabaqcıl maarif xadimi, Azərbaycan Respublikasının Əməkdar Ali məktəb işçisi, SSRİ-nin maarif əlaçısı, Beynəlxalq Pedaqoji Akademiyanın Y.A.Komenski adına Böyük Qızıl Medalının laureatı, Azərbaycan Beynəlxalq Universitetinin I prorektoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi pedaqogika kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor, əmək və müharibə veteranı Hüseyn Mustafa oğlu Əhmədov XX əsrin ikinci yarısı Azərbaycan məktəb və pedaqoji fikrinin yeni mərhələsinə və nəslinə mənsub ziyalılardandır.

Ötən əsrin 60-cı illərindən başlayan bu mərhələ indi yeni yüzilliyə şərəflə qədəm qoyur. Azərbaycan ictimai fikir tarixində «60-cı illər ədəbiyyatı», «60-cı illər ziyalıları», «60-cı illər nəsli» anlayışları formalaşmış və ictimai-humanitar düşüncədə novator hadisə kimi sabitləşmişdir.

Əslində bu anlayış təkcə ayrı-ayrı yazıçı, dramaturq, alim, ictimai-dövlət xadimlərinin yox, həm də onların simasında formalaşmış milli elitanı ehtiva edən epoxal əhəmiyyətli yeni oyanışı küll halında əhatə edir.

Bir az da geniş anlamda yanaşsaq, 60-cı illərdən XX əsrin sonunadək Azərbaycanın imperiya daxilində iri addımlarla beynəlxalq arenaya yön alması tarixi oyanış idi və haqlı olaraq bugünkü müstəqil dövlətçilik təfəkküründü mənimsəməkdə, onu yeni Respublika quruculuğuna uğurla tətbiq etməkdə bu illər ərzində toplanmış elmi, ictimai və maarifçi kapital öz sözünü deməkdədir.

Məhz bu nəzəri-tarixi konteksdən çıxış edərək cəmiyyətdə bu dövrün ədəbiyyatçıları, şairləri, alimləri, əmək fədailəri, gəncləri, müəllimləri, ziyalıları, siyasətçiləri... anlayışları sabitləşmişdir.

Akademik Hüseyn Əhmədov elmi pedaqoji fəaliyyəti ilə bu anlayışı zənginləşdirən yeni Azərbaycan məktəbini və pedaqoji fikrini təmsil edən ziyalı olaraq oyanışın bu mərhələsini öz araşdırmalarında, tədqiqatçı təfəkküründə və şəxsiyyətində təmsil edən klassik müəllimlərdəndir.

Şübhəsiz zəmanəmizdə Azərbaycan pedaqoji elminin öncüllərindən olan professor Hüseyn Mustafa oğlu Əhmədovun həyatı və elmi-pedaqoji yaradıcılığı müasir gənclərimiz üçün bir örnəkdir. Qərbi Azərbaycanın qərbi kəndlərindən birində dünyaya göz açan Hüseynin uşaqlığı və gənclik illəri sovetlər birliyinin qanlı-qadalı illərinin ağır, məşəqqətli dövrünə təsadüf etsə də, o bütün çətinliklərə – kolxoz quruluşunun əzabəziyyətlərinə, 1937-ci illərin tut-ha-tut dövrünün qorxunc günlərinə.

1941-1945-ci illərin alman-rus müharibəsinin çətinliklərinə, aclığa-yoxsulluğa, ən başlıcası isə yetimlik həyatına sinə gərmiş, çox erkən, 1941-ci ildən əmək fəaliyyətinə başlamış, orta təhsilini başa vurmamış, 1943-cü ildən doğma kəndlərində ibtidai sinif müəllimi və V-X siniflərdə erməni dili müəllimi vəzifələrində çalışmış və beləliklə də ibtidai məktəb müəllimliyindən SSRİ Pedaqoji Elmlər Akademiyasının müxbir üzvülüyünə qədər şərəfli bir həyat yolu keçmişdir.

Yaşadığımız 2006-cı il Hüseyn Əhmədovun həyatında ən yadda qalan illərdən biri, əslində birincisidir. Bu ilin iyul ayında onun anadan olmasının 80 ili tamam olur.

Bu günlərdə görkəmli alimin, respublika elmi-pedaqoji ictimaiyyəti arasında ilk dəfə olaraq seçilmiş pedaqoji əsərləri XII cilddə nəşr edilmişdir.

Azərbaycan elmi-pedaqoji fikir tarixində ilk təşəbbüs olaraq geniş oxucu mütaliəsinə təqdim edilən bu çoxcildlik zəhmətkeş alimin həyatı, elmi-pedaqoji və ictimai-publisistik fəaliyyətinin güzgüsü hesab edilə bilər.

Azərbaycan respublikası maarif naziri, Rusiya təhsil akademiiyasının akademik üzvü Misir Mərdanovun «Görkəmli alim, bacarıqlı elm təşkilatçısı» adlı ön sözü ilə başlayan I cilddə məktəb tarixinə dair məqalələri, bəzi məktəblərin yubileylərinə həsr edilmiş kitabları, II cilddə Pedaqoji fikir tarixinə, onun görkəmli nümayəndələrinin pedaqoji-maarifçi fəaliyyətlərinə dair məqalələri, eləcə də dövri-publisistik yazıları, III cilddə pedaqogika, onun nəzəri-təcrübi məsələlərinə dair məqalələri, həmçinin bu istiqamətdə dövrü-publisistik materialları, IV cilddə «XIX əsr Azərbaycan məktəbi» adlı monoqrafiyası, V cilddə pedaqoji fikir tariximizin müxtəlif dövrlərinə, eləcə də, Yuxarı Salahlı, Qarğabazar, Şəki məktəblərinin 100-150 illiyinə həsr edilmiş məqalələri, həmçinin Cəbrayıl rayonundakı M.Qorki adına məktəbin 100 illiyinə həsr edilmiş «100 yaşlı məktəb» kitabı (müəllifi K.Ağayev) haqqında rəyi, köhnə və müasir məktəblərin, klassik pedaqoji irsin müxtəlif problemlərinə həsr edilmiş məqalələri, VI cilddə «N.Nərimanov» adlı kitabı verilmiş, burada görkəmli maarifçiyə, onun maarifçiliyə-tibbi aid müxtəlif illərdə nəşr edilmiş məqalələri araşdırılmış, VII cildlərdə «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» dərsliyi, Azərbaycan və rus dillərində, IX cilddə görkəmli Azərbaycan mütəfəkkiri N.Tusinin əxlaqi görüşlərindən bəhs edən kitabı və son illərin məhsulu olan məqalələri, X-XI cildlərdə müəllifin rus dilində nəşr etdirdiyi əsər və məqalələri, o cümlədən müxtəlif vaxtlarda Moskva, Bakı, Tbilisi, Daşkənd, Səmərqənd, Həştərxan, Poltava, Samara şəhərlərində keçirilmiş elmi - praktik konfranslardakı çıxışları və ya orada nəşr edilmiş əsərləri, nəhayət XII cilddə

akademik Hüseyn Əhmədovun nəsli-nəcabəti, keçdiyi həyat yolu haqqında xatirə-memuarı və Ənvər Əhmədin hazırladığı şerlər kitabçası toplanmışdır.

Çoxcildiklərə nəzər saldıqca aydın görünür ki, görkəmli alim ömrünü sözün həqiqi mənasında məktəb və pedaqoji fikir tarixi yolunda şam kimi əritmiş, gələcək nəsillərə əvəzsiz elmi külliyat bəhs etmişdir.

Hüseyn müəllim bu gün də yorulmadan çalışır, hər gün arayıb-axtarır, hamıya əzmkarlıq nümunəsi göstərir. İnanırıq ki, o, yeni-yeni elmi axtarışları ilə oxucuları bundan sonra da heyran edəcəkdir.

Respublikamızın elmi-pedaqoji ictimaiyyəti, onun yarım əsrdən artıq (55 il) qüsursuz fəaliyyət göstərdiyi Azərbaycan Dövlət Pedaqoji Universitetində, habelə çalışdığı Azərbaycan Beynəlxalq Universitetdə bu hadisə ilə bağlı bəzi tədbirlər görməyə başlamışdır.

Bu işdə özəl ali məktəblərdən olan Azərbaycan Beynəlxalq Universitetinin Elmi Şurasının qərarı ancaq və ancaq alqışa layiqdir. Bundan 5 il əvvəl alimin anadan olmasının 75 illiyi ərəfəsində onun «Seçilmiş pedaqoji əsərləri»nin 5 cildliyi çap olunmuşdur. Bu əsərlər oxucular tərəfindən rəğbətlə qarşılanmış və mətbuatda diqqəti cəlb edən çoxlu yazı, rəy və resenziyaların dərc edilməsi fikrimizə sübutdur. Bu il isə akademikin əsərlərinin 12 cildə – 9 cildi Azərbaycan, 3 cildi isə rus dilində nəşrinə başlanmışdır. Bu cildləri nəşrə onun yetirmələri F.Rüstəmov, H.Bayramoğlu, M.İlyasov, M.Nəzərov, Ə.Zalov, övladlarından Hümeyr, Mehriban və Aytən, 30 ilə yaxın rəhbərlik etdiyi ADPU-nun ümumi pedaqogika kafedrasının dosenti İ.İsayev, ABU-nun müəllimi Mətanət Mustafayeva hazırlamışlar.

Əsərləri mövcud pedaqoji problemlər üzrə, müvafiq ardıcıllıqla sıralanmış, onların hər birinə şəxs adları və yer-yurd adlarının əlifba göstəricisi və səhifələr əlavə edilmişdir ki, bu həmin kitabları daha da oxunaqlı edir.

H.Əhmədovun əsərlərinin ardıcıllığı belədir: Məktəb tarixi, pedaqoji fikir tarixi, tərbiyə nəzəriyyəsi və pedaqogikanın aktual problemlərinə dair ayrı-ayrı məqalələr.

12 cildliyə daxil edilmiş əsərlər içərisində alimin üç əsərinin adını xüsusi qeyd etmək istərdim:

1) «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» /dərslik, Azərbaycan və rus dillərində/; 2) «XIX əsr Azərbaycan məktəbi» və 3) «Nəriman Nərimanov».

Bu əsərlər Azərbaycan pedaqoji elminin qızıl fonduna daxil olunmuşdur. 12 cildliyə daxil olan əsərləri vaxtaşırı çap olarkən respublikanın tanınmış alimləri ya ona ön söz yazmış ya rəy vermiş və yaxud da elmi redaktoru olmuşlar. Azərbaycan Milli Elmlər Akademiyasının akademik-

lərindən Hacıbəy Sultanov, Yaqub Mahmudov, Teymur Bünyadov, professorlardan T.Əhmədov, Z.Qaralov, Ə.Paşayev, F.Rüstəmov, N.Məmmədov və başqalarının əməyini ayrıca qeyd etmək yerinə düşərdi.

Prof. H.Əhmədovun əsərlərindən ibarət külliyyatın çapını respublikanın elmi və pedaqoji ictimaiyyətinin rəğbətlə qarşılayacağına əmin olmaqla, onun müəllifinə - yubilyara can sağlığı və yeni-yeni yaradıcılıq uğurları diləyirəm.

Həsən Bayramoğlu
Azərbaycan Beynəlxalq Universitetinin
Tərbiyə işləri üzrə prorektoru,
Pedaqoji elmlər namizədi, dosent
RF Pedaqoji və Sosial Elmlər
akademiyasını müxbir üzvü

06. iyun 2006, Bakı şəhəri

ÖN SÖZ

Azərbaycan Beynəlxalq Universitetinin elmi şurasının qərarı ilə akademik Hüseyn Mustafa oğlu Əhmədovun "Seçilmiş pedaqoji əsərləri"nin 5 cilddə nəşri Azərbaycanda pedaqoji ədəbiyyat nəşri tarixində yeni bir hadisədir, məktəb və pedaqoji irsimizin təbliğinə sayğı və məhəbbətin ifadəsidir.

"Seçilmiş pedaqoji əsərlər"ə akademik Hüseyn Əhmədovun Bakının, Moskvanın, Tbilisinin, İrəvanın, Səmərqəndin, Ulyanovskinin, Həştərxanın, Leninqradın (Sankt-Peterburqun) nüfuzlu elmi nəşrlərində, qəzet və jurnallarında çap olunmuş əsərləri, elmi-pedaqoji, tədris-metodiki xarakterli məqalələri daxil edilmişdir. Cildlər müəyyənləşdirilərkən materialların məzmunu və xarakteri nəzərə alınmış, müvafiq problemlər üzrə sistemləşdirilmiş, xronoloji ardıcıllıq gözlənilmişdir. I cilddə akademik Hüseyn Əhmədovun Azərbaycan məktəb tarixinə, II cilddə Azərbaycan və xarici ölkələrin pedaqoji fikir tarixinə, III cilddə pedaqogikanın elmi-nəzəri problemlərinə, IV cilddə pedaqogikanın nəzəriyyəsi və tarixinə (rus dilində) dair tədqiqatları toplanmışdır. V cilddə isə sələflərinin və müasirlərinin akademik Hüseyn Əhmədovun elmi-pedaqoji fəaliyyəti və yaradıcılığı ilə bağlı elmi və publisistik yazıları verilmişdir. İki hissədən ibarət olan bu cilddə akademik Hüseyn Əhmədovun həm şəxsiyyəti, həm də monoqrafik tədqiqatları ilə bağlı rə'ylər öz əksini tapmışdır.

Fikrimizcə, bu çoxcildlikdə akademik Hüseyn Əhmədovun çoxsahəli elmi-pedaqoji fəaliyyəti və yaradıcılığının bütün istiqamətləri tam və dolğun surətdə əhatə olunmuşdur. Şübhə etmirik ki, bu mənbə tariximizin hələ qaranlıq qalan və az öyrənilmiş səhifələrinə işıq salacaq, ümumiləşdirilmiş tarixi-pedaqoji əsərlərin yazılması üçün istiqamətverici bir amil olacaqdır. Çünki pedaqogika tarixi köhnəlmiş, həyatın rədd etmiş olduğu müddəalar, prinsiplər, qaydalar sistemi deyil, tə'lim-tərbiyə məsələlərinin müasir problemlərinin həlli üçün mühüm mənbələrdən biridir, keçmişdə diqqət verilməyib, kənara atılmış, köhnə, indiyə kimi yalnış hesab olunan ideyaların özü də bir çox hallarda müasir və mütərəqqi ideyalar üçün təkanverici rolunu oynaya bilir.

Təkcə bu günü deyil, sabahı – gələcəyi dərindən dərk etmək və qiymətləndirmək nöqteyi-nəzərindən də keçmişi yaxşı bilmək lazımdır. Keçmiş bu günlə bağlı olduğu kimi, gələcəklə də sıx

əlaqədardır. Bu gün dünənin, sabah isə bu günün bətnindən doğulduğuna görə bu gündə dünənin, sabahda isə bu günün izləri olur. Bir çox məsələlərdə gələcək üçün zəmin təşkil edən bu günün ağıllı, qabaqcıl fikirləri, keçmişin mütərəqqi irsi ilə sıx əlaqədardır. Həmin irs bu gün də insanın ağlına, zəkasına qüvvət verir. Eyni zamanda gələcək üçün perspektivləri daha yaxşı aydınlaşdırmaqda, tə'lim-tərbiyənin daha optimal üsul və vasitələrini tapmaqda ona yardım göstərir.

Akademik Hüseyn Əhmədovun "Seçilmiş pedaqoji əsərləri"nin tərtibi məhz bu istəkdən, xeyirxah amaldan doğmuşdur. Bu ilk təşəbbüsdür, özü də uğurlu və faydalı təşəbbüsdür. Bu ilk təcrübə gələcəkdə Azərbaycanda pedaqogika elminin təşəkkülü və inkişafında xidmətləri olan pedaqoq-alimlərin elmi-pedaqoji irsinin bu şəkildə nəşr olunmasına, gələcək nəsillərə küll halında çatdırılmasına təkan verəcəkdir.

Çoxcildlik tərtib olunarkən cüz'i ixtisarlar aparılsa da, tarixilik prinsipinin tələblərinə əməl edilmiş, məqalələrd redaktə işi aparılmamışdır. Məqalələrin sonunda onun hansı mətbuat orqanında və hansı ildə çap edildiyi dəqiq göstərilmişdir. Bu, tələbkar oxucularda əsər haqqında tam təsəvvür yaratmağa kömək edəcəkdir. Unudulmamalıdır ki, bu məqalələr, əsasən, 60-80-ci illərdə, totalitar rejimin hakim olduğu, marksizm-leninizmin yeganə düzgün ideologiya hesab edildiyi illərdə yazılmışdır. Bə'zi məqalələrdə bu ideologiyanın ruhu aydın hiss olunur. Bu da təbiidir. Ümumiyyətlə isə, marksizm tə'limini yararsız, gərəksiz bir şey hesab etmək olmaz. Çoxcildliyin latın qrafikası ilə nəşr olunması pedaqogika elminin gələcək inkişafı ilə bağlı narahatçılıqdan və məs'uliyyət hissindən doğur.

Akademik Hüseyn Əhmədovun yarım əsr ərzində pedaqogika nəzəriyyəsi və tarixi ilə bağlı apardığı fundamental tədqiqatların nəticəsi kimi meydana gələn bu çoxcildliyi pedaqoji ictimaiyyətin mühakiməsinə verir və onların intellektinə səmimi bir inam bəsləyirik.

Fərrux Rüstəmov
Beynəlxalq Pedaqoji Akademiyanın
həqiqi üzvü, akademik Mehdi Mehdizadə
və Gənc alimlər mükafatı laureatı

XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA XALQ MAARİFİ VƏ MƏKTƏB

Azərbaycanda xalq maarifi və məktəbin inkişafı çox zəngin və mürəkkəb bir tarixə malikdir. Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi, çarizmin məxvi məqsədindən asılı olmayaraq xalq maarifi və məktəb təhsilinin inkişafında yeni mərhələ təşkil edir.

Hələ keçən əsrin 30-cu illərindən başlayaraq Azər-baycanda meydana gələn yeni məktəblər bir çox tədqiqatçıların nəzər-diqqətini cəlb etmişdir. Onlar öz əsər və məqalələrində yeri gəldikcə məktəb tarixinə toxunmuş, ondan bəhs etmişlər.

XIX əsrin 80-ci illərində Zaqafqaziya təhsil dairəsinin müfəttişi L. Modzalevskinin «1802-ci ilə qədər Qafqazda tədris işinin gedişi»[1] adlı əsərində Zaqafqaziya təhsil dairəsinin nəşr etdirdiyi bir sıra sərəncamlarda, hesabatlarda, Qafqaz Arxeoloji Komissiyasının aktlarında, Azərbaycanda olmuş bir sıra hərbçilərin, səyyahların xatirələrində, dövri mətbuatda nəşr olunan bir sıra məqalələrdə Azərbaycan məktəbi və maarifi məsələlərindən bəhs olunur.

A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabi, C.Məmmədquluzadə, R.Əfəndiyev, F.Köçərli, N.Nərimanov, S.Qənizadə və bir çox digər görkəmli yazıçı və maarifçilərin əsərlərində məktəb və xalq maarifindən bəhs edilir.

Mərhum Ə.Cəfərzadə[2], prof. M.Mehdizadə[3], N.A.Tahirzadə[4], prof. A.Abdullayev[5] və başqaları bu sahədə ilk tədqiqatlar aparmış, maraqlı məqalə və elmi əsərlər yazmışlar. Bununla bərabər çox zəngin olan bu dövrün pedaqoji fikir tarixinin nisbətən ətraflı tədqiq edilməsinə[6] baxmayaraq, məktəb tarixi əsaslı surətdə öyrənilməmişdir. Ona görə də bu məqalədə XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi və məktəbin inkişafından bəhs etməyə çalışacağıq.

Çarizmin subyektiv məqsədlərindən asılı olmayaraq Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi, başqa sahələrdə olduğu kimi, xalq maarifi və məktəb sahəsində də obyektiv olaraq mütərəqqi nəticələrə səbəb olmalı idi. Mə'lum olduğu kimi, XIX əsrin əvvəllərində Rusiyada xalq maarif işini xeyli irəlilədən məktəb islahatı keçirildi. 1802-ci ildə Xalq Maarif Nazirliyi

[1] Bax: Памятная книжка Кавказского учебного округа с 1802 по 1880 г. Тифлис, 1880 г.
[2] Bax: Ə.Cəfərzadə. Azərbaycanda XIX əsrdə məktəb tarixi, Azərb. DETPİ-nin arxivi, Əlyazması.
[3] Bax: M.M.Mehdizadə. Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr, Bakı, 1959; yenə onun. İnqilabdan əvvəlki Azərbaycanda rus məktəblərinin rolu haqqında, «Azərbaycan məktəbi» jurnalı, 1951, № 3.
[4] Bax: N.A.Tahirzadə. XIX əsrin 30–40-cı illərində Azərbaycanda ilk qəza məktəblərinin yaranması məsələlərinə dair, Azərbaycan tarixi muzeyi əsərləri, 1961, IV cild.
[5] Bax: A.Abdullayev. Azərbaycan dilinin tədrisi tarixindən, Bakı, 1966.
[6] Bax: Prof. Ə.Seyidov. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən, Bakı, 1958.

tə'sis edildi. Bununla da məktəblərin idarə edilməsi mərkəzləşdirildi. 1803-cü ildə Xalq Maarif Nazirliyi tərəfindən «Xalq maarifinin ilkin qaydaları» nəşr olundu. 1804-cü ildə bu «Qaydalar» əsasında «Darülfünunların nizamnaməsi» və «Darülfünunların tabeliyində olan tədris müəssisələrinin nizamnaməsi» nəşr edildi. 1804–1805-ci illərdə Xarkov və Kazanda yeni darülfünunlar, Peterburqda Baş Pedaqoji İnstitut açıldı. Moskva Darülfünunu nəzdində bir sıra elmi cəmiyyətlər meydana gəldi. 1804-cü ilin nizamnaməsi mahiyyət e'tibarı ilə dvoryanlara xidmət edən məktəb sistemini yaxşılaşdırmağa xidmət etməsinə baxmayaraq bu nizamnamə və məktəb islahatı öz dövründə mütərəqqi hadisə olub, Rusiyada təhsil işinin inkişafına kömək etdi. Bu dövrdə Avropanın heç bir ölkəsində belə əsaslar üzərində qurulmuş dövlət məktəb sistemi yox idi.

Bu dövrdə Rusiya Şərqdə qabaqcıl ölkə rolunu oynayırdı. F.Engels yazırdı: «Rusiya Şərqə dair, həqiqətən, mütərəqqi rol oynayır», «Rusiyanın hökmranlığı Qara və Kaspi dənizləri və Mərkəzi Asiya üçün, başqırd və tatarlar üçün mədəniləşdirici rol oynayır...»[1].

Mütərəqqi Rusiya azərbaycanlılar üçün mə'nəvi ümid mənbəyi idi. Bahar çiçəkləri günəşə doğru boylandığı kimi, Azərbaycanın ən zəkalı nümayəndələri də Rusiyaya, qabaqcıl rus mədəniyyətinə meyl edirdilər.

Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra çarizmin müstəmləkəçilik məqsədindən asılı olmayaraq rus və Azərbaycan mədəniyyətinin qarşılıqlı inkişafı üçün geniş imkanlar yaranır. Belə ki, rus xalqının mədəniyyəti Azərbaycanda elmi biliklərin bir çox sahəsinin meydana çıxması və inkişafı üçün şərait yaratdı. Rus mədəniyyətinin qabaqcıl xadimləri vasitəsi ilə mütərəqqi ictimai ideyalar Azərbaycana nüfuz edirdi.

Mə'lum olduğu kimi, XIX əsrin əvvəllərində Azərbaycanda əsasən dini xarakter daşıyan və xalq tərəfindən «məktəb», «məktəbxana» və ya «mollaxana» adlanan tədris müəssisələri var idi ki, burada əsasən ibtidai savad və müsəlman təriqəti öyrədilirdi. Bu məktəblər əsasən məscidlərin nəzdində və ya mollanın evində yerləşirdi. Tədris işi ilə əsasən məhəllə mollaları məşğul olurdular. Qız məktəbləri çox az idi və bunu adətən mollanın arvadı açırdı. Müəllimlər üçün müəyyən təhsil senzi (təhsil hüququnu məhdudlaşdıran şərt) olmadığından məktəblərdə ən çox mədrəsə təhsili almış (və ya oranı bitirmiş) adamlar işləyirdilər.

Məktəblər əsasən əhalinin vəsaiti hesabına saxlanılırdı. Təhsil pullu idi. Şagirdlər cümə axşamları müəllimə-mollaya pul və böyük hədiyyə verirdilər. Şagirdlər qruplara bölünmür, məşğələ fərdi tə'lim xarakteri daşıyırdı. Uşaqlar məktəbə payız-qış fəslində, əsasən, 4-6 ay davam edirdilər.

[1] K. Marks və F. Engels. Əsərləri, XXI cild, 211 (rusca).

Bu məktəblərdə təhsil müddəti, əsasən 4 il və daha artıq idi. Yaş xüsusiyyətləri nəzərə alınmırdı. Bu məktəblərin rəsmi dərs cədvəli, stabil proqramı və müəyyən edilmiş tədris planı yox idi. İmtahanlar keçirilmir, məktəbi bitirməyə aid şəhadətnamə və ya attestat verilmirdi.

Bir sıra Yaxın Şərq ölkələrində və Orta Asiya Respublikalarında olduğu kimi, Azərbaycanda da ibtidai savad məktəblərindən başqa orta və ali orta məktəblər-mədrəsələr də mövcud idi ki, burada şəriət və müsəlman dərslərindən əlavə, həm də bir sıra dəqiq elmlər də tədris edilirdi.

Bir sıra şair, yazıçı, filosof, alim və həkimlər öz təhsillərini məhz mədrəsələrdə almışlar.

Tədris üsulunun çətinliyinə, təhsilin məzmunundakı bir sıra qüsurlara baxmayaraq, bu məktəblərin bir sıra müsbət cəhətləri də var idi. Orada oxuyanlar klassik Şərq ədəbiyyatını yaxşı öyrənirdilər. Uşaq savadlanan kimi ona Hafizin, Füzulinin və başqa klassiklərin divanını oxudurdular.

Azərbaycanın Rusiya tərəfindən istila edilməsindən sonra çar hökuməti bu məktəblərə e'tinasız qalmır, onların geniş yayıldığını nəzərə alaraq, bu məktəblərin hesabatını aparır, onunla maraqlanırdı.

Lakin çar hökuməti bu məktəblərə ilk nəzər saldıqda, bunlardan özünün siyasi məqsədləri üçün istifadə edə bilməyəcəyini görüb xalq maarifinin yeni sistemini yaratmaq zəruriyyəti qarşısında qaldı.

Yerli dillərlə bərabər rus dilini bilən və yerli hakimiyyət orqanlarında çalışan qulluqçular, ilk növbədə isə tərcüməçilər hazırlamaq və beləliklə də, çar Rusiyasının hökmranlığını möhkəmləndirmək üçün Zaqafqaziyada bir sıra məktəblər açmaq günün zəruri tələbi kimi meydana çıxırdı.

XIX əsrin lap əvvəllərində (1801) Gürcüstanın sülh yolu ilə Rusiyaya birləşdirilməsindən bir il sonra Tiflisdə ilk rus məktəbinin əsası qoyulur. «Tiflis nücəba məktəbi» adlanan bu tədris müəssisəsində əsasən Gürcüstan əsil-zadələrinin və rus çinovniklərinin uşaqları oxuyurdu.

Azərbaycanın Rusiyaya birləşdirilməsi ilə əlaqədar olaraq Azərbaycan dilinə, bu dili bilən tərcüməçilərə böyük ehtiyac hiss edilirdi.

Zaqafqaziyanın baş hakimi general A.P. Yermolov XMN-ə yazmışdı ki, Azərbaycan dili zadəganlara məxsus deyil, bütün sadə xalqın bu dildə danışdığına baxmayaraq, hal-hazırda istər Gürcüstan daxilindəki Azərbaycan xalqları ilə, həmçinin xarici qonşu hökumətlərlə saysız-hesabsız əlaqələr Azərbaycan dilini bilən bacarıqlı adamlar, tərcüməçilər olmadan mümkün deyil[1]. Ona görə də Tiflis nücəba məktəbində bu dövrdən başlayaraq Qafqazda ən geniş yayılmış olan Azərbaycan dili də tədris edilməyə başladı.

Çar hökumətinin rus olmayan xalqları itaət altına almaq, ruslaşdırma siyasəti yeritmək, xalqın çarizmə qarşı həyəcanlarının qarşısını almaq,

[1] Aktlar. 6-cı cild, səh. 135.

onları Rusiyaya yaxınlaşdırmaq məqsədi güdməsi də Azərbaycanda məktəblər açmaq meylini qüvvətləndirdi.

Admiral Mordvinov yazırdı ki, belə xalqları silah gücü ilə həmişəlik istila etmək mümkün deyil. Onun fikrincə, təhsilli xalqa nisbətən, vəhşilərə yaxın olan bir xalqı istila etmək üçün, onları Rusiyanın nə istehsal etməsinə və onları daim nə ilə təchiz etməyi bacarmasına öyrətmək lazımdır. Onların ehtiyac hiss etdikləri şeylərin miqdarını artırmaq gərək, onlarda yeni arzular, yeni ehtiyaclar, yeni adətlər yaratmaq gərək, onları bizim qaydalarla, bizim şəraitlə, vərdişlərlə, bizim əyləncələrlə tanış etmək gərək və beləliklə də, onların sərt əxlaqını yumşaltmaq, onları bizim təsəvvürümüzə, zövqümüzə, ehtiyacımıza yaxınlaşdırmaq, bizdən tələb olunan ev avadanlığı, paltara və hər cür qəribə mə'lumata yaxınlaşdırmaq lazımdır.

O vaxt nəinki onların sərhədlərində dostlaşacağıq, həm də onların daimi düşmənçiliyini artırmağa səbəb olan bizim süngü və mərmilərimizin heç bir vaxt çatmadığı sərvətli dağlarının zirvələrinə qədər nail olacağıq.

Admiral Mordvinov yazırdı ki, yerli əhalinin adətlərinə müvəffəqiyyətlə tə'sir etmək və bizim adət və qaydaları onların arasında yaymaq üçün gənc knyazların və xalq starşinalarının uşaqlarını tərbiyə etmək məqsədi ilə bizim məktəbləri şəhərlərə aparıb çıxarmaq faydalı olardı. Həm də bu məktəbləri elə təşkil etmək lazımdır ki, orada yerli əhali özünün adətini, qayda-qanunlarını görsün.

Onun fikrincə, bu yerlərin maarifinə 100 min manat pul xərcləməklə, sərhədləri qorumaq üçün lazım olan böyük miqdarda ordunu saxlamağa xərclənən milyonlarla manata qənaət edilər[1].

Beləliklə, Zaqafqaziyada hakimlik edən ordu generalları keçən əsrin 20-ci illərindən başlayaraq Zaqafqaziyada, o cümlədən Azərbaycanda məktəblər tə'sis etməyə xüsusi diqqət yetirirdilər.

Ölkəni gəzən general-adyutant Sipyagin yazırdı ki, istər yerli zadəganların, istərsə də digər silklərə mənsub olanların heç bir təhsil imkanı olmadığından onlar öz uşaqlarını oxutdurub, onlara vəzifələri haqda sadə təsəvvür təlqin edə bilmirlər. Ona görə də burada yaşayan əhaliyə həyat üçün zəruri olan şeyləri öyrətməyin yollarını axtarmağı özümə borc bilirəm. O deyirdi ki, tə'lim və tərbiyə ilə yerli əhalinin xasiyyətini yumşaltmaq, onların gedəcəyi yolları göstərməklə çoxlu fayda əldə etmək olar.

Bu dövrdə həmçinin yerli əhali içərisində təhsilə, rus dilini öyrənməyə meyl və həvəs oyanırdı.

Azərbaycanın bir sıra şəhərlərində olmuş general Sipyakin yazırdı ki, yerli əhali özləri də oxumağa böyük həvəs göstərir. Mən Şuşada olarkən Məhəmməd təriqətinə mənsub olan çoxlu uşaqların hökumətin icazəsi ilə

[1] Aktlar, 5-ci cild, səh. 952.

orada sakin olan Bazel missionerlərinin rəhbərliyi altında alman dilində məşğul olmalarına valeh oldum.

Müəllimlərdəki təkcə bir qüsur ondan ibarətdir ki, uşaqları rus dili ilə və bunun vasitəsi ilə Avropa adətləri və təsəvvürləri ilə tanış olmağa qoymurlar[1].

Hökumətin siyasətini və yerli əhalinin təhsilə olan həvəsini nəzərə alan Sipyakin Qazax nahiyəsində, Nuxada, Şuşa, Bakı və Qubada, Naxçıvan və Ordubadda məktəblər açmağı lazım bilirdi.

Həmin məktəblərdə Azərbaycan dilinin tədrisi, kənd təsərrüfatı kursu və bağçılığın öyrədilməsi təklif edilirdi. Bu məktəblərin hər birinə 2 müəllim tə'yin edilməsi,bunlardan baş müəllimə ildə gümüş pul ilə 300 manat, kiçik müəllimə isə 250 manat maaş tə'yin edilməsi məsləhət görülürdü.

Bu dövrdə Rusiya hökuməti xalqa yaxınlaşmaq üçün Zaqafqaziyada xalq maarifi və məktəb işinə diqqət yetirməli olmuşdu.

Rusiya xalq maarif naziri Şişkov 1825-ci ilin aprelində general Yermolova göndərdiyi xüsusi məktubunda onu əmin edirdi ki, maarif və məktəb vasitəsi ilə yerli əhalinin Rusiyaya məhəbbətini oyatmaq üçün ondan asılı olan hər şeyi edəcəkdir. O, həmçinin Yermolovun məktəb üçün pul vəsaiti tələbəni ödəməyi öhdəsinə götürürdü[2].

Beləliklə, 1830-cu illərdə xalq maarifi sahəsində irəliyə doğru daha bir addım atıldı. Belə ki, «Tiflis nücabə» məktəbi gimnaziyaya çevrildi (13 yanvar 1828). Hərbi qulluqçular hazırlamaq məqsədi ilə 150 nəfərin təhsil alacağı kadet korpusu tə'sis etmək qərara alındı (gimnaziyanı bitirənlər bura daxil ola bilərdilər). Sonralar burada rus və gürcülərlə bərabər, tək-tək azərbaycanlılar da oxuyurdu.

XIX əsrin 30-cu illərinə qədər xüsusi imtiyazlı məktəblərdən başqa Azərbaycanda dövlət tərəfindən açılmış heç bir kütləvi xalq məktəbi yox idi.

Yalnız Şuşada Bazel missionerləri tərəfindən 1827-ci ildə açılmış bir məktəb mövcud idi ki, burada əsasən fransız və alman dilləri tədris edilirdi[3].

L.Modzalevski yazırdı: Şuşada Bazel missionerləri rus hökuməti nümayəndələrindən əvvəl özlərinin məktəblərini açmışdılar ki, «burada hətta bir çox müsəlman uşaqları böyük həvəslə alman dilini öyrənirdilər»[4]. Nəhayət, 1829-cu ildə general Paskeviçin təşəbbüsü ilə Zaqafqaziya məktəblərinin ilk layihəsi hazırlanır. Qraf Paskeviç Rusiyanın maliyyə naziri knyaz Livenə göndərdiyi məktubunda yazırdı:

«Mənim hökmranlığım altında olan Zaqafqaziya ölkə sində xalq maarifinə kömək etmək həvəsində olduğumdan buradakı tədris

[1] Aktlar, 7-ci cild, səh. 68.
[2] Aktlar, 6-cı cild, I hissə, səh. 143.
[3] Bax: M.A.Santrosyan XIX əsrin birinci yarısında Şərq ermənilərinin məktəbi, Yevan, 1964, 280 (ermənicə).
[4] Xod uçebnoqo dela na Kavkaze s 1802 po 1880 q. Tiflis, 1880, 17.

müəssisələrinə qəyyumluq etməyi məmnuniyyətlə öhdəmə götürürəm və hökumətin nəzərdə tutduğu məqsədlərə çatmağa çalışacağam»[1].

Mərkəzi hökumət 1829-cu ildə avqustun 5-də qraf Paskeviçin tərtib etdiyi nizamnamə layihəsini təsdiq etdi. Bu nizamnaməyə görə Gəncə, Qazax nahiyəsi, Şuşa, Nuxa, Şamaxı, Quba, Bakı, Naxçıvan və Ordubadda qəza məktəbləri tə'sis edilməsi nəzərdə tutulurdu.

Qəza məktəblərinə hər cür azad ailəyə mənsub olanların uşaqları daxil ola bilərdilər. Bu məktəbləri tə'sis etməkdə məqsəd yerlərdə ilk savadı yaymaq idi (§ 28).

Qəza məktəblərinin hər biri iki sinifdən ibarət olub, iki müəllimə malik idi. Bunlardan biri Zaqafqaziya məktəbləri direktorunun tə'yini ilə həm də məktəbin nəzarətçisi vəzifəsini yerinə yetirirdi. Bunlardan başqa məktəbin ruhanilərdən ibarət şəriət müəllimi də var idi (§ 29).

Həmin nizamnaməyə görə qəza məktəblərində aşağıdakı fənlər tədris edilməli idi: 1) Şəriət və tarixi müqəddəs. 2) Qiraət. 3) hüsnxət. 4) hesabdan ilk dörd əməliyyat. 5) rus dili. 6) yerli dil (§ 32).

Qəza məktəblərinə daxil olanlardan savad və bilik tələb edilmirdi. Bu məktəblər öz hüquq və üstünlüklərinə görə Rusiyadakı müvafiq təhsil müəssisələrinə bərabər idilər.

Demək olar ki, Azərbaycanda xalq maarifi sisteminin tarixi bu nizamnamə ilə başlayır. Belə ki, bu vaxta qədər Azərbaycanda nə maarif nizamnaməsi, nə də xalq maarifinin ümumi sistemi, nə müəyyən büdcəsi və nə müvafiq orqanı var idi.

Zaqafqaziya məktəblərinin 1829-cu il Nizamnaməsi mahiyyət e'tibarı ilə, özünün ümumi cəhətlərinə, o cümlədən ştatları və müəllimlərin tə'limatı və tə'minatına görə Rusiya gimnaziyalarının 1828-ci il 8 dekabr tarixli nizamnaməsinə uyğun idi.

1829-cu il nizamnaməsi üzrə məktəblərin illik ştatı və büdcəsi belə idi

		Manat (əskinas ilə)	
		birinə	***Cəmi***
1.	I və II sinif müəllimlərinə	1000	2000
2.	Bunlardan birinə əlavə olaraq nəzarətçi vəzifəsi üçün	250	250
3.	İlahiyyat və ana dili müəlliminə	600	600
4.	Şagirdlərə mükafat üçün	—	50
5.	Kitabxana və tədris vəsaiti üçün	—	150
6.	Bina kirayəsi, xidmətçilər və digər xərc	—	750
7.	Hər məktəb üçün cəmi:		3800[2]

[1] Aktlar, 7-ci cild, 66.
[2] LMDTA, f. 733 s. 82, iş № 22 v. 78 arx.

Gördündüyü kimi, keçən əsrin 30-cu illərində Azərbaycanın bir sıra yerlərində, o cümlədən Şuşa, Nuxa, Bakı, Gəncə, Naxçıvan, Ordubad, Qazax nahiyəsi, Quba və Şamaxıda məktəblər açmaq fikri meydana gəlmiş və bu şəhərlərin hamısında qəza məktəblərinin tə'sis edilməsi təsdiq edilmişdir. Lakin bu və ya digər səbəblərə görə bu yerlərdə qəza məktəblərinin açılmasında tərəddüdlər olmuşdur. Belə ki, məktəb açılması nəzərdə tutulan şəhərlərin bə'zisinə pul vəsaiti buraxılmamış, pul vəsaiti buraxılan Şamaxı və Naxçıvanda isə məktəb açmaq məsələsi müxtəlif səbələrə görə müvvəqəti olaraq tə'xirə salınmışdır.

Qeyd etmək lazımdır ki, 1829-cu il Nizamnaməsinə görə Zaqafqaziyada cəmi 20 qəza məktəbi açılmalı idi ki, bunun da 9-u Azərbaycanda olmalı idi.

Lakin müxtəlif səbələrə görə ilk illərdə Azərbaycanda 9 əvəzinə 4 qəza məktəbi açıldı və bunları Şuşada, Nuxada, Bakıda və Gəncədə tə'sis etmək zəruri hesab edildi. İlk məktəblərin bu şəhərlərdə açılması hər şeydən əvvəl bu yerlərin iqtisadi, coğrafi şəraiti və mədəni səviyyəsi, ticarətin inkişafı, həmçinin inzibati mövqəyi ilə izah olunurdu.

Rusiyanın maliyyə naziri Liven 1830-cu ildə qraf Paskeviçə yazdığı məktubunda Zaqafqaziyada xalq maarifi üçün onun sərəncamında 109.700 manat pul ayrıldığını xəbər verirdi[1].

Mərkəzi hökumətin Zaqafqaziya xalq maarifinə xüsusi büdcə ayrılması təsadüfi deyil. Çar Rusiyası maarif, məktəb vasitəsi ilə yerli əhalini özünə yaxınlaşdırmaq və beləliklə də, öz hökmranlığını möhkəmləndirmək məqsədini güdürdü. 1829-cu ilə qədər Zaqafqaziyada xalq maarifinin illik büdcəsi 10.000 idi ki, bu da yerli mədaxildən-Balakən əyalətindən alınan bac-xəracdan ödənilirdi. 1830-cu ildən e'tibarən bu məbləğ xeyli artmış və dövlət xəzinəsindən ödənilmişdi.

Lakin ilk qəza məktəblərinin açılmasında bir sıra çətinliklər meydana çıxdı. Zaqafqaziya məktəblər direktoru Qruberin 1831-ci il üçün olan hesabatından aydın olur ki, 1829-cu il nizamnaməsi üzrə Zaqafqaziyada açılacaq qəza məktəbləri üçün Maliyyə Nazirliyi tərəfindən ayrılan pul mə'lum olmayan səbələrə görə gecikdirilmiş və yalnız 1830-cu ilin sentyabr ayında məktəblər idarəsinin sərəncamına verilmişdir. Bundan əlavə məktəblər üçün müvafiq binalar əldə etmək, Rusiyadan müəllim kadrları də'vət etmək məktəblərin tə'sisini müəyyən qədər ləngitməyə bilməzdi. Beləliklə, 1830-cu ilin sonlarına qədər Zaqafqaziyada cəmi 5 qəza məktəbi açıldı ki, bundan yalnız biri ilk dəfə Azərbaycanda açılmış Şuşa qəza məktəbi idi.

Şuşa əhalisinin rus dilində təhsilə daha meyilli olması, həmçinin 1827-ci ildən burada Bazel missionerləri tərəfindən məktəb açılması orada ilk qəza məktəbi tə'sis etməyə şərait yaratdı.

[1] Bax: Aktlar, 7-ci cild, səh. 68.

Şuşa qəza məktəbinin təşkilində bu məktəbin ilk Baş müəllimi Rusiyadan məktəblər rəisliyi tərəfindən Zaqafqaziyaya göndərilmiş titulyar məşvərətçi Nikolay Mixaylovskinin xidməti az olmamışdır. 1830-cu ilin dekabrında Şuşa qəza məktəbinə müəllim və ştat üzrə nəzarətçi vəzifəsinə tə'yin edilən N.Mixaylovski Şuşaya gələrək məktəb tə'sisi üçün lazım olan hazırlıq işləri apardı. Dekabrın 30-da Şuşa qəza məktəbi təntənəli surətdə açıldı. Leninqrad Mərkəzi Dövlət Tarix arxivində saxlınılan bir sənəddə deyilir:

«Gündüz saat 11-də bir sıra rəsmi dövlət nümayəndə-ləri və hərbi qulluqçular, həmçinin Qarabağın fəxri bəyləri məktəb üçün hazır edilmiş binaya toplandı. N.Mixaylovski Zaqafqaziyada tədris müəssisələri tə'sis etmək üçün əlahəzrət tərəfindən təsdiq edilmiş 1829-cu il Nizamnaməsindən qısa çıxarışı oxudu və Şuşa qəza məktəbinin tə'sisini e'lan etdi. Təntənə münasibətilə buraya toplaşanlar məzmunlu nitqi üçün müəllim N.Mixaylovskiyə öz təşəkkürlərini bildirdilər»[1].

Həmin gün I sinif açıldı və 19 şagirdlə tə'limə başlanıldı. İlk günlər I siniflə N.Mixaylovskinin özü məşğul olurdu. Sonralar Zaqafqaziyanın baş hakimi tərəfindən Moskvada C.Lazarevin erməni məktəbində təhsil almış və Tiflisdə erməni məktəbində işləmiş Nerser Araratov Şuşa məktəbinə I sinif müəllimi vəzifəsinə göndərildi. Çox keçmədən şagirdlərin sayı da artdı və ikinci sinif açıldı. Sonralar ikinci siniflə məktəbin nəzarətçisi N.Mixaylovski özü məşğul olurdu[2].

Məktəbin açılması münasibətilə ilk oxu üçün lazım olan kitablardan bir neçə nüsxə ianə edildi. Bundan əlavə məktəblər direksiyası Tiflis gimnaziyasının kitab mağazasından bir neçə dərslik vəsaiti göndərdi.

Məktəbin binası Şuşada olan Bazel missionerlərinin, Yevangel cəmiyyəti tərəfindən bir il müddətinə pulsuz olaraq verilmişdi. 2 sinif otağından və lazım olan digər ehtiyaclardan əlavə məktəbin binasında, həm də hər 2 müəllimin yaşaması üçün yaxşı şərait var idi.

Beləliklə, 1830-cu il dekabrın 30-da Şuşada açılan qəza məktəbi ilə Azərbaycanda ilk dünyəvi rus məktəbinin bünövrəsi qoyuldu.

Bundan sonra Azərbaycanın ayrı-ayrı şəhərlərində də hökumət tərəfindən rus dilində ilk məktəblər açılmağa başladı.

Zaqafqaziya məktəbləri haqqında olan əsasnaməyə görə hər biri 2 sinifdən ibarət olan bu məktəblərdə şəriət, rus və Azərbaycan dilləri, tədris edilir hesabdan isə ilk dörd əməliyyat keçilirdi.

Məktəbdə təhsil alan şagirdlərin böyük hissəsi yerli dvoryan və tacirlərin uşaqları idi.1831-ci ildə Nuxada, 1832-ci ildə Bakıda və 1844-cü ildə isə Gəncədə rus dilində ilk qəza məktəbləri tə'sis edildi. 1833-cü ilin mə'lumatına görə bu məktəblərdə şagirdlərin sayı və silki tərkibi aşağıdakı kimi idi:

[1] LMDTA, f. 733, s. 82, iş № 4, v 25–26.
[2] Yenə orada.

№	Məktəbin adı	Tə'sis edilmə vaxtı	Şagirdlərin silki tərkibi və miqdarı			
			Knyaz, dvoryan bəy və çinovnik uşaqları	Vətəndaş və tacir uşaq-ları	Digər silk-lərdən olanlar	Cəmi
1.	Şuşa qəza məktəbi	30.XII.1830	18	27	2	47
2.	Nuxa qəza məktəbi	30.XII.1831	8	21	_	29
3.	Bakı qəza məktəbi	17.I.1832	10	10	2	22
4.	Gəncə qəza məktəbi	18.II.1833	5	33		38
Cəmi:			41	91	4	136[1]

Cədvəldən göründüyü kimi, bu məktəblərdə oxuyan 136 nəfərdən 132-si knyaz, dvoryan, bəy, çinovnik və tacir uşaqları idi. Bu onunla izah olunur ki, çarizm ucqarlarda öz hakimiyyətini möhkəmləndirmək məqsədi ilə yerli bəylərə və mülkədarlara yaxınlaşmaq, onları özünə arxa, istinadgah etməyə çalışırdı. Qafqazın o zamankı (1881–1837-ci illər) baş hakimlərindən olan baron Rozen mərkəzi hökumətə təqdim etdiyi müraciətlərindən birində yazırdı: «Mən istər müsəlman və istərsə erməni əyalətlərində rus dvoryanlığından əlavə, yerli dvoryanların da yaradılmasını zəruri hesab edirəm: Bu yerli dvoryanlar dvoryanlıq mənsəbinin hüquq və üstünlüklərini hiss etdikdə və rus hökuməti tərəfindən miskinlikdən yüksək dərəcəyə qaldırıldıqda mütləq bu hökuməti sevəcəklər»[2].

Bütün bunlara baxmayaraq Rusiya və Azərbaycan xalqları arasında qarşılıqlı mədəni əlaqələrin inkişafında rus dilində açılan bu məktəblərin böyük rolu olmuşdur.

Yerli əhali bu məktəblərə rəğbət bəsləyir, hətta bə'zi yerlərdə məktəb üçün bina ayırır və ya bina kirayə etmək üçün pul toplayırdı.Məsələn, Şuşa məktəbi üçün gümüş pul ilə 5235 man. 16 qəpik, Nuxa məktəbi üçün 4613 man. 44 qəpik pul toplanmışdı.

Həmin məktəblərin Azərbaycanda xalq maarifi və məktəbin inkişafında böyük rolu olmuşdur.

***

1829-cu il nizamnaməsi üzrə Azərbaycanda cəmi 9 qəza məktəbi açılmalı idi. Lakin bu məktəblərin yalnız 4-ü tə'sis edildi. Qalan 5 məktəbin açılması tə'xirə salındı.

Xalq maarifi Nazirliyi ilə Zaqafqaziya məktəblər direktoru arasında gedən yazışmalarda bu məktəblərin açılması bir sıra səbəblərlə izah edilir:

[1] LMDTA, f. 733, s. 82, iş № 4, v 25–26.

[2] Колониальная политика Российского царизма в Азербайджане в 20-60 гг. XIX в., ч. I, изд. АН СССР, 1936, 280.

məs.: Ordubadda məktəb açılmamasının bir səbəbi orada sakin olanların kifayət qədər olmaması ilə əsaslandırılır. Lakin qeyd etmək lazımdır ki, 1830-cu illərdə Ordubadda cəmi 633 tüstü var idi ki, bunun da 567-si müsəlmanlardan ibarət idi.[1]

Ordubadda məktəb tə'sisinin tə'xirə salınmasının əsas səbəbi, Ermənistan vilayətinin rəisi general–mayor knyaz Beybutovun buna mane olması idi. Belə ki, Zaqafqaziyanın Rusiya tərəfindən işğal edilməsinin ilk dövrlərində meydana gəlmiş inzibati bölgüyə görə Naxçıvan Ermənistan vilayətinə tabe edilirdi. Knyaz Beybutov isə, «burada məktəbə hələlik ehtiyac yoxdur» deyərək Ordubadda açılmalı olan məktəbi Yeni–Bayazetdə indik Ermənistanın Kamo rayonunda açmağı təklif etmişdi.

Zaqafqaziya məktəblər direktoru 1833-cü il sentyabrın 26-da XMN-nin 4.VIII.1833-cü il tarixli məktubuna cavabında yazırdı: Knyaz Beybutov tədris müəssisəsini Ordubadın əvəzinə Türkiyə və İrandan gələn ermənilərin sakin olduqları Göyçə gölü yanındakı Yeni Bayazetdə açmağı daha faydalı hesab edir və qeyd edir ki, vaxtilə ola bilər ki, ora əhəmiyyətli şəhər olsun. Lakin bu daha bir sıra yaxın mühakimələr tələb edir[2].

Qazax nahiyəsində nəzərdə tutulan qəza məktəbinin açılmamasının səbəbi isə yerli dilləri bilən müəllim kadrlarının, burada şəhər və ya şəhər tipli bir mərkəzin və orada məktəb üçün müvafiq binanın olmaması ilə izah olunur. Zaqafqaziya məktəblər direktoru yazırdı: "Qazax nahiyəsində şəhər yoxdur. Ona görə də müxtəlif kəndlərdə yaşayan ağalar və bəylər, hansılar ki, uşaqlarının tə'limində üstünlüyə malikdirlər, onların öz uşaqlarını məktəbə göndərməyə imkanları olmayacaqdır"[3].

Şamaxıda qəza məktəbi açılmasının tə'xirə düşməsinə əsas səbəb, çox güman ki, 1830-cu ilin 28 avqustunda baş vermiş zəlzələ və yenə də həmin ildə Şirvanda yayılmış vəba xəstəliyi olmuşdu. 1830-cu il mayın 14-dən avqustun I-ə qədər Şirvanda vəba xəstəliyindən 1936 nəfər, o cümlədən 32 hərbi qulluqçu ölmüşdür[4].

Həm də 1824-cü ildən köhnə Şamaxı adlanan yerdə şəhər yenidən tikilirdi. Görünür, tikilməkdə olan şəhərdə yenidən zəlzələnin baş verməsi ilə əlaqədər olaraq qəza məktəbinin açılması da müvəqqəti olaraq tə'xirə salınmışdır.

Naxçıvanda məktəb açmağın tə'xirə salınması səbəbinə gəldikdə Zaqafqaziya məktəblər direktoru yazırdı ki, Naxçıvan əhalisi çox olan şəhərdir və əlbəttə, burada sakin olanlardan müəllimliyə və məktəb

[1] Bax: Статистическое описание Нахичеванской провинции, составленной В.Г., С. Петербург, 1833, 192.
[2] LMDTA, f. 733, s. 82, iş № 21, v. 3.
[3] Yenə orada.
[4] Aktlar, 7-ci cild, 315.

nəzarətçisi vəzifəsinə qabiliyyəti olan adamın olmaması burada məktəb açılmasını ləngitdi[1].

Ümumiyyətlə, müsəlman vilayətlərində yeni məktəblərin tə'sis edilməsi Zaqafqaziya məktəb rəhbərlərinin diqqətini xüsusilə cəlb edirdi. Zaqafqaziya məktəblər direktorunun fikrincə yalnız maarifi və xüsusilə rus dilini müsəlmanlar arasında yaymaqla onların zehniyyətlərinə qalib gəlmək və beləliklə də onları ruslarla, Rusiya hökuməti ilə yaxınlaşdırmaq olar.

Onu da qeyd etmək lazımdır ki, Şamaxıda, Naxçıvan və Qubada habelə Qazax və Ordubadda qəza məktəbləri açmaq xüsusi əhəmiyyət kəsb edirdi. Ona görə də bu məsələ istər baş komandanı, istərsə də Zaqafqaziya məktəblər direktorunu hərəkətə gəlməyə təhrik edirdi.

Bu illərdə Zaqafqaziya məktəblər direksiyasının Baron Rozenlə və Rusiya XMN-ilə olan yazışmalarından belə mə'lum olur ki, Rusiya XMN və Zaqafqaziyanın baş hakimi Naxçıvan, Şamaxı və Qubada qəza məktəbləri tə'sis etməyə icazə vermişdi. Baron Rozenin 13.IX.1834-cü ildə Zaqafqaziya məktəblər direktoruna göndərdiyi 5255 ¹-li məktubunda deyilirdi:

«Sizin 13.VI.1833-cü il tarixli 596 ¹-li raportunuza cavab olaraq Zaqafqaziyada tə'sis edilməsi nəzərdə tutulan 8 qəza məktəbindən Naxçıvanda, Şamaxıda və Qubada belələrini açmağa icazə verirəm.

Ordubadda və Qazax nahiyəsində isə məktəb üçün müvafiq bina tapmaq mümkün olmadığından, həm də nisbətən az əhalisi olduğundan, Zaqafqaziya ölkəsinin tədris hissəsini yenidən qurulmasına aid mənim layihəmdə izah etdiyim kimi, məktəb tə'sis etməmək»[2].

Bu məsələ başqa bir arxiv sənədində, Gürcüstan, Qafqaz və Zaqafqaziya vilayətlərinin baş hakim tərəfindən 13 sentyabr 1834-cü ildə Xalq Maarifi Nazirliyinə göndərilən 490 ¹-li məktubda da eynilə təkrar olunur. Baş hakim Baron Rozen həmin məktubda yazır ki, açılması nəzərdə tutulan 8 qəza məktəbindən hal-hazırda Naxçıvanda, Şamaxıda və Qubada qəza məktəblər direktoruna müvafiq sərəncam vermişəm»[3].

1829-cu il Nizamnaməsinə əsasən Baron Naxçıvanda, Şamaxıda və Qubada qəza məktəbləri açılmasını zəruri hesab edən həmin məktubunun üstündə belə bir qeyd var:

«C-b. Nazir əmr etdi: həmin məbləğin ödənilməsi M.N.(Maliyyə–Nazirliyinə,–H.Ə.) aid edilsin. 26 oktyabr, 1834»[4].

Qafqazın baş hakimi Ordubadda və Qazax nahiyəsində məktəb açılmasına razı deyildi. O yazırdı ki, bu yerlərdə hələlik məktəb açmağa şərait yoxdur. «Ordubadda şəhərin əhalisi az olduğundan burada hal-

[1] LMDTA, f. 733, s. 82, iş № 22, v. 3.
[2] Aktlar, 8-ci cild, 99.
[3] LMDTA, f. 733, s. 82, iş № 21, v. 17.
[4] Yenə orada, iş № 21. v. 19.

hazırda məktəb açmaq heç bir mənfəət verməz. Qazax nahiyəsi isə böyük əksəriyyəti yayda köçəri həyat keçirən tatarlar (azərbaycanlılar–H. Ə.) yaşayan okruqdan başqa bir şey deyildir. Bu okruqda isə nə şəhər, nə də xüsusi əhəmiyyətli kəndlər vardır və ümumiyyətlə, orada bilavasitə məktəb üçün bina tapmaq mümkün deyildir..."[1]

Beləliklə, 5 qəza məktəbindən üçünün açılması üçün müvafiq sərəncam verilmişdi.

Hətta Rusiya Xalq Maarifi Naziri S.Uvarov 1834-cü il oktyabrın 26-dan Maliyyə Nazirliyinə xüsusi məktub göndərərək 1829-cu il Nizamnaməsinə əsasən Şamaxı, Quba və Naxçıvan (həmçinin Dərbənd) qəza məktəbləri açmaq üçün yerli məktəblər rəisliyinin tələbi üzrə hər birinə 3.800 man. pul vəsaiti ayırmağı xahiş etmişdi[2]. 12 gündən sonra, 1834-cü il noyabrın 8-də maliyyə naziri özünün 5648 [1]-li məktubu ilə həmin məktəblərin tə'sisi üçün tələb edilən məbləğdə pul ayırdığını XMN-ə bildirirdi. Həmin məktubun üzərində belə bir qeyd də vardır: «C-B Nazir əmr etdi: Baron Rozenə xəbər vermək, 14.XI 1834»[3].

Eyni zamanda S.Uvarov noyabrın 18-də Zaqafqaziyanın baş hakiminə xüsusi məktub göndərərək Şamaxı, Naxçıvan və Qubada qəza məktəbləri açmaq üçün hər birinə 3.800 man. pul ayrılaraq onun sərəncamına göndərildiyini xəbər verirdi[4].

Lakin bütün bunlara baxmayaraq, bu illərdə yenə də Naxçıvan, Şamaxı və Qubada (Həmçinin Ordubadda və Qazax nahiyəsində) qəza məktəbi tə'sis etmək məsələsi mümkün olmamışdı.

Beləliklə, 1829-cu il Nizamnaməsi ölkədə xalq maarifinin tərəqqisinə, yerlərdə yeni məktəblərin meydana gəlməsinə kömək etdi. Yeni açılmış məktəblər çar hökumətinin konkret məqsədindən asılı olmayaraq özünün obyektiv mütərəqqi nəticələrini verməyə başladı. Tə'sis edilmiş məktəblərin 5 illik tərcübəsi və haqqında söhbət gedən məktəblərin açılması zərurəti nəticəsində 1835-ci ildə məktəblərin yeni Nizamnaməsi meydana gəldi.

Məqalə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun «Elmi əsərləri"nin (pedaqogika və psixologiya), XI-seriya 1967-ci il tarixli 3-cü sayında çap olunmuşdur. (səh.3–13).

[1] Yenə orada, vv. 17–18.
[2] Yenə orada. v. 22 .
[3] LMDTA, f. 733, s. 82, iş № 21, v. 23.
[4] Yenə orada, v. 24.

AZƏRBAYCANDA İLK QƏZA MƏKTƏBLƏRİ

Azərbaycanın Rusiya tərəfindən işğalı, çarizmin məxfi məqsədindən asılı olmayaraq, başqa sahələrdə olduğu kimi, xalq maarifi və məktəb sahəsində mütərəqqi əhəmiyyəti də oldu. Azərbaycan xalqının qabaqcıl rus mədəniyyətinə qovuşmasına, Azərbaycanda bir sıra maarif ocaqlarının yaranmasına və mütərəqqi əsaslar üzərində inkişaf etməsinə kömək etdi.

Azərbaycan və Zaqafqaziya Rusiya tərəfindən işğal edildikdən sonra, ilk məktəblərin nizamnaməsi təsdiq edildi.

Həmin nizamnaməyə görə Zaqafqaziyada 20 qəza məktəbi açılmalı idi ki, bunun da 9-u Azərbaycanda (Gəncə, Qazax distansiyası, Şuşa, Nuxa, Şamaxı, Quba, Bakı, Naxçıvan və Ordubadda) olmalı idi. 1830–1835-ci illərdə göstərilən məktəblərdən yalnız 4-ü açıldı ki, bunlar da Şuşa, Nuxa, Gəncə və Bakı qəza məktəbləri idi. Dövlət tərəfindən açılan bu ilk məktəblərdə şərait, qiraət, hüsnxət, hesabdan ilk dörd əməliyyat, rus dili və yerli dil tədris edilirdi.

Məktəbin müəllim kadrları əsasən Rusiyadan göndərilirdi. Şagirdlər yuxarı silklərə mənsub olanların uşaqları idi.

Hökumət bu məktəblərə çoxmillətli Zaqafqaziya ölkəsində xidmət etmək üçün bacarıqlı mə'murlar, ilk növbədə tərcüməçilər hazırlamaq nöqteyi-nəzərindən yanaşırdı. Bütün bunlara baxmayaraq, keçən əsrin 30-cu illərində qəza məktəblərinin meydana gəlməsi Azərbaycanda xalq maarifi və məktəblərin tərəqqisində mühüm rol oynadı.

Xalq maarifi sahəsindəki canlanma Azərbaycanda maarifçilik cərəyanının inkişafına, yeni milli məktəblər açmaq təşəbbüslərinə şərait yaratdı.

Dövrün qabaqcıl adamları mütərəqqi rus və Avropa mədəniyyəti ilə tanış olmaqla Azərbaycanda yerli mədəniyyəti inkişaf etdirməyə, yerli şəraiti nəzərə alaraq qabaqcıl rus və dünya pedaqoji əfkarının tə'siri altında xalq maarifi məsələləri ilə daha yaxından məşğul olmağa başladılar. Azərbaycanın qabaqcıl adamları hər vasitə ilə yeni məktəblərdən cəhalətə və mədəniyyətsizliyə qarşı mübarizə üçün isti-

fadə etməyə, bu məktəblərin şəbəkəsini genişləndirməyə, orada oxuyan azərbaycanlıların sayını artırmağa çalışırdılar. Bu cəhətdən Azərbaycan maarifçiliyinin ilk nümayəndəsi olan A.Bakıxanovun fəaliyyəti nəzəri cəlb edir. O, 1832-ci ilin əvvəlində Bakıda azərbaycanlı uşaqlar üçün dünyəvi təhsil məktəbi açmağın müfəssəl bir layihəsini tərtib edərək V.Q.Rozenə təqdim etmişdi. «Mayor Abbasqulu ağa Bakıxanovun 1832-ci il fevralın 20-də tərtib etdiyi müsəlman məktəbinin tə'sis edilməsi layihəsi adlanan bu sənədi baron Rozen öz şəxsi arxivinə atmaqla kifayətləndi.

Dövrün real imkanlarını və tələblərini nəzərə alaraq, XIX əsr məktəb tarixində rüşeym halında olan, lakin qabaqcıl Rusiyanın tə'siri altında inkişaf edən dünyəvi məktəb yaratmağa ilk cığır açan maarifçilər cərəyanının əsas nümayəndəsi olan A.Bakıxanovun bu layihəsinin həyata keçirilməməsinə baxmayaraq, onun fikirləri Azərbaycan məktəblərinin sonrakı inkişafına öz böyük tə'sirini göstərmişdir.

1830-cu ildən başlayaraq Azərbaycanda, eləcə də Zaqafqaziyada meydana gələn qəza məktəblərinin təcrübəsi bu məktəblərin müsbət cəhətləri ilə bərabər bir sıra qüsurlarını da aşkar etdi.

Qəza məktəblərinin iş təcrübəsi inandırıcı surətdə göstərdi ki, 1829-cu ilin Nizamnaməsi yerli əhalinin məktəbə olan ehtiyacını ödəmir və məktəblərin bu səviyyədə qalması ilə xalq arasında maarifi yaymaq olmaz.

Qəza məktəblərinin işindəki qüsurlar, hər şeydən əvvəl, təhsil müddətinin qısalığı, tədris edilən fənlərin məhdudluğu təhsilin məzmunundakı səthiliklə əlaqədar idi.

Zaqafqaziya məktəblər direktoru Qruber yazırdı ki, şagirdlər ikiillik təhsildən sonra, rus dilindən son dərəcə məhdud mə'lumatla, hesabdan isə yalnız ilk dörd əmələ aid biliklə məktəbi bitirdiyindən, onlar nəinki qulluq üçün yararsız olacaq, hətta özlərinin sonrakı həyatına da xeyir verməyəcəklər. Qruber qəza məktəblərində bə'zi yüksək biliklər verilməsini lazım bilirdi. Onun fikrincə, bu ölkədə sənaye və ticarətin inkişafına xeyli kömək edərdi. Bunu nəzərə alan Qruber xalq maarif nazirliyinə müraciət edərək qəza məktəblərində təhsil dairəsini genişləndirməyi, onları yenidən qurmağı, mövcud ikisinifli qəza məktəblərini Rusiya məktəbləri nümunəsində üçsinifli məktəblərə çevirməyi və orada ilahiyyat, rus dili (qrammatika

qaydaları və sintaksis də daxil olmaqla), yerli dillər, hesab və həndəsənin başlanğıcı, coğrafiya, tarixi icmal, hüsnxət və rəsm fənlərini tədris etməyi təklif edirdi. O, yuxarıda göstərilən fənləri tədris etmək üçün dörd müəllim tə'yin edilməsini lazım bilirdi. Bunlardan biri ilahiyyat və yerli dilləri öyrətməli, ikincisi I siniflə məşğul olmalı, üçüncüsü hesabdan və həndəsədən başlanğıc və rəsm, dördüncüsü isə rus dili, coğrafiya, tarix və hüsnxət dərslərini tədris etməli idi.

Tədris müddətinin 3 il müəyyən edilməsi və təhsilin məzmununa bir sıra həyati fənlərin daxil olunması ideyası ilk dəfə 1832-ci ildə A.Bakıxanov tərəfindən irəli sürülmüşdür. Lakin A.Bakıxanovun tərtib etdiyi layihənin əməli olaraq həyata keçirlməsinə şərait yaradılmasına baxmayaraq onun ideyaları həyati əhəmiyyət kəsb etdi. İstər Zaqafqaziya məktəblər direktorluğu, istərsə də Zaqafqaziyanın baş hakimi Baron Rozen Bakıxanovun irəli sürdüyü fikirləri təkrar etməli oldular.

Lakin A.Bakıxanov 3 illik təhsil müddəti təklif etmək və orada həyati fənlərin tədrisini zəruri hesab etməklə öz xalqına xidmət göstərmək istəyirdisə, qruberlər və baron rozenlər rus çarizminə, onun müstəmləkəçilik siyasətinə xidmət etməyi nəzərdə tuturdular.

Qəza məktəblərinin təşkilindəki çətinliklərdən biri və başlıcası müəllim kadrlarının olmaması idi. Bu məktəblər üçün Rusiyadan çağırılmış müəllimlərin tə'rifli attestasiyalarına və qulluq siyahılarına baxmayaraq, onların heç də hamısı bu məktəblər üçün yararlı deyildi. Onların bir çoxu özlərinin mə'nəvi keyfiyyətləri ilə məktəblər direktorluğunun e'timadını doğrultmadı və yerli əhalinin e'tibarını qazana bilmədi. Halbuki bu cəhət tədris hissəsinin müvəffəqiyyəti üçün ilk məktəblərin tə'sisi zamanı çox zəruri və vacib idi.

Xüsusilə, müsəlman vilayətlərində məktəb tə'sis etmək üçün Rusiyadan çağırılan müəllimlər özlərini doğrultmurdular. Zaqafqaziya məktəblər direktorluğu bu məsələyə xüsusi fikir verməyi, müəllim seçərkən və onları müsəlman əyalətlərinə göndərərkən daha ehtiyatlı olmağa xüsusi diqqət yetirməyi lazım bilirdi. Direktorluğun fikrincə, bu yerlərdə yalnız müəllimlərin nümunəvi davranışı və tamamilə əxlaqi hərəkəti yerli əhalini təhsilə cəlb edə bilərdi. Direktorluğun belə fikirdə olması heç də təsadüfi deyildi. XIX əsrin 30-cu illərində islam dininin dərin tə'siri altında olan əhali yeni yaranan rus məktəblərinə

xor baxır, xüsusilə də rus müəllimlərinin, həm də mə'nəvi cəhətcə qüsurlu müəllimlərin işlədiyi məktəblərə biganə qalır, ondan qaçırdı. Ona görə də məktəblər direktorluğu gələcəkdə müəllimliyə yerli əhalidən olanları cəlb etməyi daha faydalı hesab edirdi. Yerli əhalidən müəllim kadrları hazırlayan məktəb isə hələlik yox idi. Yeganə ümid yolu yerli dillərin tədris edildiyi Tiflis gimnaziyasını bitirənlər idi ki, burada da cəmi 40 nəfər təhsil alırdı. Bunların içərisində isə müsəlmanlar tək-tük idi. Onlar da məktəbi bitirdikdən sonra digər dövlət qulluğuna, tərcüməçiliyə və s. göndərilirdi.

Zaqafqaziya məktəblər direktorluğu müəllimlərə olan ehtiyacı tə'min etmək üçün Tiflis gimnaziyasında yerli millətlərdən olan dövlət təqaüdçülərinin sayını artırmağı və beləliklə də, gimnaziyanı bitirənlərin hesabına məktəbləri yerli müəllimlərlə tə'min etməyi zəruri hesab edirdi.

İlk qəza məktəblərinin təşkili işindəki çatışmazlıqlardan biri də müvafiq dərsliklərin, tədris vəsaitinin yoxluğu idi. İstər rus dilində, istərsə də ana dilində müvafiq dərsliklərin olmaması təhsil işinin keyfiyyətinə pis tə'sir göstərirdi.

Qəza məktəblərinin məqsədi rus dilini öyrətməkdən, Zaqafqaziyada yaşayan müxtəlif xalqları Rusiyaya qovuşdurmaqdan və beləliklə də yerli əhalidə Rusiya hökumətinə rəğbət yaratmaqdan ibarət idi. Ona görə də məktəblər tə'sisinin ilk günündən rus dilinin müvəffəqiyyətlə tədris edilməsinə xüsusi diqqət verilirdi. Bu işin müvəffəqiyyətlə aparılması isə dərslikdən çox asılı idi. O vaxtlar qəza məktəblərində istifadə edilən dərsliklər Maarif Nazirliyi Departamenti tərəfindən göndərilirdi. Bu dərsliklər Rusiya məktəbləri üçün və ruslar üçün tərtib edildiyindən Azərbaycan qəza məktəbləri üçün heç də əlverişli deyildi. Bu dərsliklər Azərbaycandakı qəza məktəblərinin tələbini ödəmirdi. Ona görə də qəza məktəblərində oxuyan şagirdlərin milli tərkibini nəzərə alaraq müvafiq dərsliklər yaradılması məsələsi təbii olaraq meydana gəldi.

Azəri dilinin tədrisi daha acınacaqlı vəziyyətdə idi. Buna əsas səbəb ana dilində tədris vəsaiti olmaması idi. Nəinki qəza məktəblərində, hətta Tiflis gimnaziyasında da Azərbaycan dilinin tədrisi üçün müvafiq vəsait yox idi.

Zaqafqaziya məktəb direktorluğu Tiflis gimnaziyasında çalışan müəllimlərin qüvvəsindən istifadə edərək dərsliklər sahəsindəki bu

çatışmazlıqları aradan qaldırmağa sə'y edirdi. Bu məqsədlə gimnaziyanın müəllimlərinə bir sıra dərsliklər, o cümlədən müsəlman lüğəti, azəri dilinin qrammatikası, ərəb və fars dillərindən ibarət müntəxəbat tərtib etmək tapşırıldı. Qruberin yazdığına görə, 1833-cü ilin sonuna yaxın bu dərsliklər artıq tərtib edilmişdi.

Qruber bu kitabların Tiflis mətbəəsində çap olunmasını faydalı hesab edirdi. O yazırdı ki, Peterburq və Moskvada Azərbaycan dili üçün korrektorlar olmadığından bu dildə olan dərsliklərin və dərs vəsaitinin Tiflisdə çap edilməsi məktəblər direktorluğu üçün çox əlverişli olub, onun nəşrinə nəzarət etməyi də asanlaşdırır.

Qruber dərsliklərin miqdarını, nəşrinə sərf ediləcək məbləği və kitab satışından əldə ediləcək gəliri də dəqiqliyi ilə müəyyənləşdirərək maarif departamentinə göndərmiş və bu kitabların nəşrinə icazə istəmişdi.

Arxiv sənədlərindən mə'lum olur ki, Qruber «Azərbaycan-rus lüğəti»ni çap üçün XMN-ə təqdim etmişdi. Lakin onun işdən götürülməsi ilə əlaqədar olaraq nazirlik bu lüğəti Qruberin yerinə tə'yin edilmiş Zaqafqaziya məktəblərinin yeni direktoru Qassen–Millerin mülahizəsinə qaytarmışdı.

Qassen–Miller də öz növbəsində «Azərbaycan–rus lüğəti»nə, həmçinin Tiflis gimnaziyasının yetirməsi Kinofontov tərəfindən tərtib edilmiş Azərbaycan dilinin qrammatikasına olan ehtiyacı bir daha qeyd edərək, onları 1835-ci il fevralın 4-də yenidən nəşr etdirmək üçün Maarif Nazirliyinə göndərmişdi. Lakin o, Azərbaycan dilini bilmədiyinə görə bu vəsaitlərin nə dərəcədə yararlı olub-olmadığını bir daha müəyyən etmək üçün, onları Şərq Dilləri İnstitutuna göndərməyi xahiş edirdi. Maarif Nazirliyi isə həmin əlyazmaları rə'y üçün Elmlər Akademiyasına göndərmişdi.

Elmlər Akademiyasının əməkdaşı adyunkt Şarmua hər iki əlyazma ilə tanış olaraq, lüğətdə düzəliş aparılmasını, qrammatikanın isə bu məqsədə yaramadığını göstərmişdir. Elmlər Akademiyası hər iki əlyazmanı 1835-ci il avqustun 9-da Xalq Maarif Nazirliyinə qaytarmışdı.

Həmin məktubun üzərində maarif nazirinin belə bir qeydi vardır: «Bu əlyazmaları əvəz edəcək kitablar haqda mə'lumat tələb etmək».

Elmlər Akademiyası əlavə mə'lumatında bildirirdi ki, «haqqında söhbət gedən əlyazmalarını əvəz edəcək kitablar yoxdur».

Beləliklə, XMN birincidə düzəliş aparmaq, ikincisini isə yenidən tərtib etmək üçün hər iki əlyazmanı yenidən Zaqafqaziya məktəblər direktoruna qaytarmışdı. Bu təşəbbüslərə və yazışmalara baxmayaraq, məktəblərin müvafiq tədris vəsaiti ilə tə'min edilməsi hələ də həll edilməmiş qalırdı.

Məktəb üçün müvafiq binanın olmaması da ilk qəza məktəblərinin tə'sis edilməsində qarşıya çıxan çətinliklərdən biri idi. İlk qəza məktəbləri tə'sis edilən zaman bina kirayə etmək üçün vəsait ayrılmışdı. Lakin bu vəsaitin cüz'i hissəsindən istifadə edildi (Yalnız Gəncə məktəbinin tə'mirinə təxminən 1.000 manat xərclənmişdi). Məktəb binaları əsasən dövlət xəzinəsinə toxunmadan şəhərlərin hesabına və ya ianələr hesabına əldə edilirdi. Məktəblər direktorluğu ilk illər məktəb binaları tikmək məsələsini tə'xirə salır və ölkədə təhsil işi gedişinin nə şəkil alacağını gözləyirdi.

Bir sıra yerlərdə əhali məktəb üçün bina ayırır və ya bina kirayə etmək üçün pul toplayırdı. Məktəblər direktoru da bundan sui-istifadə edərək məktəb binasına pul xərcləməkdən çəkinir, dövlətin mənafeyini güdür, məktəbləri bir çox yerlərdə şəhər tərəfindən ayrılmış binada və ya toplanmış ianələr hesabına kirayə edilən binalarda yerləşdirirdi.

Lakin bununla xalqın təhsilə ehtiyacını tə'min etmək olmazdı. Məktəb binalarının darısqallığı məktəb üçün müvafiq binalar tikmək məsələsini təbii olaraq meydana gətirdi və bu məsələ hökumət qarşısında qaldırıldı.

Bakı qəza məktəbi şəhər tərəfindən pulsuz ayrılmış ikiotaqlı binada yerləşirdi. Həmin bina çox darısqal və yararsız idi. Buna görə də buraya cəlb olunan şagirdlərin sayı az idi. Qruber yazırdı ki, əgər məktəbin özünün xüsusi binası olarsa, şəhər əhalisinə görə şagirdlərin sayının artacağına şübhə yoxdur.

Beləliklə, bir tərəfdən yerli əhalinin təhsilə olan marağı, digər tərəfdən isə dövlət qulluğuna yararlı adamlar hazırlamağa olan ehtiyac mövcud məktəbləri möhkəmləndirib inkişaf etdirmək üçün müvafiq tədris binaları tikmək zərurətini irəli sürürdü. Bu zəruriyyəti nəzərə alan Qruber məktəblər üçün bina tikməyi vacib sayırdı.

Zaqafqaziya məktəblər direktorunun mülahizələri baron Rozenin də diqqətini cəlb etdi. O, Rusiya imperiyasındakı təhsil dairələrinin ümumi quruluşuna müvafiq olaraq Zaqafqaziya tədris müəssisələrinin yenidən qurulmasının layihəsini tərtib edərək 1834-cü il fevralın 8-də Rusiya Xalq Maarif Naziri S.S.Uvarova təqdim etdi.

Layihədə Azərbaycanda mövcud olan 4 qəza məktəbini yenidən qurmaqla, Şamaxıda, Lənkəranda, Naxçıvanda və Quba-da üçsinifli qəza məktəbi açmaq nəzərdə tutulurdu. 1829-cu il Nizamnaməsi üzrə Qazax dinastyasında və Ordubadda açılması nəzərdə tutulan qəza məktəbləri isə məktəb üçün müvafiq bina tapmaq mümkün olmadığına və əhalinin azlığına görə hələlik tə'xirə salınmışdı.

Baron Rozenin layihəsində nəzəri cəlb edən cəhətlərdən biri də rus mə'murlarının uşaqlarını yerli dilləri əsaslı öyrənməyə sövq etmək məsələsi idi. Bunun üçün o, bir sıra rəğbətləndirici tədbirlər həyata keçirməyi, o cümlədən yerli dillərin öyrənilməsində fərqlənən şagirdləri məktəbi bitirərkən qızıl və gümüş medallarla təltif etməyi, kasıblardan olanları müəyyən məbləğ pul ilə mükafatlandırmağı təklif edirdi. Baron Rozen azəri dilinin bütün Qafqazda böyük rol oynadığını nəzərə alaraq onu Tiflis, İrəvan və Axaltsıx məktəblərinin tədris planına da daxil etmişdi.

Layihəyə görə, yerli dilləri tədris edən müəllimlər eyni zamanda şəriət dərslərini də aparmalı idilər. Yerli dilləri tədris etmək üçün ruhanilər silkindən müəllim olmadıqda, dünyəvi təhsil almış müəllimlərdən Tiflis gimnaziyasında sınaqdan keçirilməklə istifadə etməyə ali yerli müdiriyyətin təsdiqi ilə icazə verilirdi.

Məktəb binası məsələsinə gəldikdə isə baron Rozen də qəza məktəblərinin hamısının son dərəcə darısqal və yararsız binalarda yerləşdiyini göstərir və məktəb üçün müvafiq binalar tikməyə aid Qruberin fikirlərini təkrar edirdi.

Beləliklə, baron Rozen qəza məktəblərində təhsil dairəsini genişləndirmək üçün mövcud ikisinifli məktəbləri Rusiyadakı üçsinifli məktəblərin nümunəsində yenidən təşkil etməyi və Qruberdən fərqli olaraq hər bir məktəbin illik xərcinin də nəzərdə tutulmasını təklif edirdi.

Göründüyü kimi, Zaqafqaziyanın baş hakimi eyni zamanda Zaqafqaziya məktəblərinin baş rəisi olan baron Rozen yerli şəraiti, həmçinin hökumətin ehtiyacını və siyasətini ciddi nəzərə alaraq

Zaqafqaziya məktəb şəbəkəsini daha da təkmilləşdirməyə və genişləndirməyə cəhd etmiş və bir sıra faydalı təkliflər irəli sürmüşdür.

Beləliklə, Zaqafqaziya məktəblərinin keçmiş direktoru Qruberin mülahizələri və Zaqafqaziyanın baş hakimi baron Rozenin layihəsi əsasında 1835-ci ildə Zaqafqaziya məktəblərinin yeni nizamnaməsi meydana gəldi ki, bu da birinci Nizamnaməyə nisbətən irəliyə atılmış bir addım idi.

Məqalə «Azərbaycan məktəbi» jurnalının 1967-ci ildəki 9-cu sayında çap olunmuşdur. (səh. 54–58.)

XIX ƏSRİN 40-CI İLLƏRİNDƏ AZƏRBAYCANDA XALQ MAARİFİ VƏ MƏKTƏB

XIX əsrin 40-cı illərinə kimi Azərbaycanda xalq maarifi və məktəbi idarə edən xüsusi bir idarə və ya orqan yox idi.Azərbaycanın Rusiya tərəfindən işğalından sonra bu işlə əvvələr burada hökmranlıq edən çar ordu generalları, sonralar isə bilavasitə Zaqafqaziya məktəblər direktoru məşğul olurdu. Azərbaycandakı bütün tədris işləri Zaqafqaziya məktəblər direktoruna tabe idi. O isə bütün məsələləri baş hakimlə həll edirdi. Baş hakim isə öz növbəsində bilavasitə Rusiya Xalq Maarif Nazirliyinə müraciət edirdi.

Keçən əsrin 40-cı illərində Zaqafqaziyada artmaqda olan məktəb şəbəkəsi xalq maarifinə rəhbərliyi yaxşılaşdırmağı və Rusiyada olduğu kimi xüsusi təhsil dairəsi yaradılmasını tələb edirdi.

Mövcud komendant üsul–idarəsi artıq tam iflasa uğramaqda idi. O, çarizmin Azərbaycanda siyasi mövqelərini möhkəmləndərmək vəzifəsinə cavab vermirdi.

Məhz bunun nəticəsidir ki, 1840-cı il aprelin 10-da çar hökuməti Zaqafqaziyada inzibati islahat haqqında qanun verdi (bu qanun 1841-ci il yanvarın 1-də qüvvəyə mindi). Həmin qanuna görə ölkədə komendant üsul-idarəsi ləğv olundu və ümümrusiya inzibati sistemi tə'sis edildi. Zaqafqaziya mərkəzi şəhəri Tiflis olan Xəzər vilayətinə bölündü. Azərbaycan ərazisinin böyük bir hissəsi Xəzər vilayətinin tərkibinə daxil oldu.

Xəzər vilayəti Şamaxı, Şuşa, Nuxa, Lənkəran, Bakı, Quba və Dərbənd qəzalarına, qəzalar isə məntəqələrə bölünürdü. Azərbaycan ərazisinin bir hissəsi Gürcüstan İmeretiya quberniyasının tərkibinə daxil edildi. Bu, quberniyaya Yelizavetpol (Qazax və Şəmşəddil distansiyalarının ərazisi daxil olmaqla), Balakən (Car–Balakən vilayəti və İlisu soltanlığından təşkil edilmişdir) və Naxçıvan, Ordubad dairəsi daxil olmaqla) qəzaları daxil idi.

Zaqafqaziya ölkəsinin idarə olunmasına dair verilən qanun xalq maarifinin idarə olunmasında da öz tə'sirini göstərməyə bilməzdi.

Zaqafqaziya məktəblər direktoru bütün Zaqafqaziyanın maarif və məktəblərinə rəhbərliyi tə'min edə bilmirdi. Zaqafqaziyanın baş hakimi isə bilavasitə öz vəzifəsinə aid məsələlərlə başı qarışdığından,

maarif və məktəb məsələsi ilə məşğul olmağa nə vaxtı, nə də imkanı var idi. Heç də təsadüfi deyildir ki, Zaqafqaziyanın o zamankı baş hakimi Y.A.Qolovin 1839-cu ildə RXMN-ə etdiyi müraciətlərdən birində Zaqafqaziyada təhsil məsələsinə nəzarət etmək üçün popeçitel köməkçisi sifəti ilə bir çinovnik göndərilməsini xahiş etmişdi[1].

Zaqafqaziya məktəblərinin Xarkov darülfünununa tabe olması da işi çətinləşdirir və Xalq Maarifi Nazirliyi artıq oyanmaqda olan Zaqafqaziya ölkəsinin təhsil işinə yaxından rəhbərlik edə bilmirdi.

Beləliklə, Zaqafqaziyada təhsil hissəsinə yaxından rəhbərlik etmək üçün Rusiya nümunəsində xüsusi popeçitelin olması zəruriyyəti meydana gəldi.

1839-cu ildə Xalq Maarifi Departamentinin vitse-direktoru, mülki müşavir P.Qayevskinin Tiflisə gəlməsi ilə əlaqədar olaraq XMN S.S.Uvarov ona Zaqafqaziyada yeni təhsil dairəsi yaratmaq məsələri ilə məşğul olub öz mülahizələrini bildirməyi tapşırmışdı. S.S.Uvarov 1839-cu il avqustun 23-də P.Qayevskiyə yazmışdı: «Bu vaxta qədər Tiflis gimnaziyası və Zaqafqaziya qəza məktəbləri bilavasitə Gürcüstan və Zaqafqaziya vilayətlərinin baş hakiminin tabeliyindədir.

Qafqaz vilayətlərini birləşdirməklə bu məktəblərdən xüsusi təhsil dairəsi yaratmaq nəzərdə tutulur. Tiflisə getməyinizlə əlaqədar olaraq bu məsələni orada ölçübbiçməyi, Peterburqa qayıdarkən öz mülahizələrinizi mənə təqdim etməyi Sizə tapşırıram»[2].

P.Qayevski bu məsələ ilə əsaslı surətdə məşğul olaraq inanmışdır ki, həqiqətən də, baş hakim öz arzu və istəyindən asılı olmayaraq, Zaqafqaziya ölkəsinin genişliyi, ardı–arası kəsilməyən müharibələr onun maarif ilə yaxından məşğul olmasına imkan vermirdi.

P.Qayevski 1839-cu il noyabrın 30-da Xalq Maarif nazirinə yazdığı gizli mə'lumatında Zaqafqaziyada xüsusi təhsil dairəsi yaradılmasını lazım bilirdi. Bununla bərabər o, Rusiyadakı təhsil müəssisələrindən fərqi olaraq Zaqafqaziya təhsil dairəsi ştatının ilk əvvəl popeçitel və onun köməkçisindən, həmçinin bir neçə dəftərxana işçisindən ibarət olmaqla kifayətlənməyi lazım bilirdi. O, həmçinin təhsil dairəsinin Tiflisdə deyil, Stavropolda yerləşdirilməsini təklif edirdi[3].

[1] LMDTA, f. 733, s. 82, iş № 62.
[2] Yenə orada, iş № 64, v. 1.
[3] Yenə orada, V 2 arx.

P.Qayevski təhsil dairəsinin Stavropolda olmasını Stavropolun Tiflisə nisbətən məsafəcə paytaxta yaxınlığı, həmçinin orada təşkil edilməkdə olan gimnaziyaya nəzarətin gücləndirilməsi ilə əsaslandırırdı.

Zaqafqaziya məktəblər direktoru da öz növbəsində Zaqafqaziyada xüsusi təhsil dairəsi yaradılmasını zəruri hesab edirdi.

Zaqafqaziya məktəblər direktorunun baş hakimi Y.A.Qolovinə yazdığı raportunda təhsil dairəsinin Tiflis Ali məktəbindən (bu ali məktəb digər təhsil dairələrində olan universiteti əvəz etməli idi), Tiflis və Şamaxı gimnaziyalarından və mövcud qəza məktəblərindən ibarət olmasını təklif edirdi. O, Tiflisdə Şərq dilləri və hüquq şö'bələrindən ibarət xüsusi ali məktəb açmağı, Şamaxı qəza məktəbini isə gimnaziyaya çevirmək fikrini irəli sürürdü. Şərq dilləri şö'bəsini açmaqda əsas məqsəd bir tərəfdən savadlı tərcüməçilər hazırlamaq, digər tərəfdən də istər ölkə daxilindəki, istərsə də xaricdəki müxtəlif millətləri və tayfaları Rusiyaya yaxınlaşdırmaq idi. Bu şö'bəyə müsəlman uşaqlarının daha çox cəlb edilməsi lazım sayılırdı.

O, yazırdı: «Ali məktəbdə dövlət hesabına oxuyanların yarısının müsəlman uşaqlarından olması nəzərdə tutulur. Burada oxuyanlar həyata və insanlara aid yeni baxışlar və mə'lumatlarla zənginləşəcək, rus xalqının ruhuna alışacaq, yeni nəsil rus təhsilinin üstünlüklərini görəcək, öz vətəndaşları ilə daha yaxınlaşacaq, öz vətəninə hörmət edəcək və onu ürəkdən sevəcək. Beləliklə də, o, öz millətinə yeni ünsür daxil edəcək və özünün həmfikir qonşularından yuxarıda duracaq, onun təhsili və əqli baxışlarını da buradan öyrənməyə təhrik edəcək və beləliklə, güman etmək olar ki, Ali məktəb bu ölkənin təhsilinin zəruri bünövrəsinin mənbəyi olacaq və ola bilsin ki, vaxtilə bunun tə'siri müəyyən dövlətlərdə də özünü göstərsin.[1]

Zaqafqaziya məktəbinin direktoru Şərq dilləri şö'bəsində digər fənlərlə yanaşı, ərəb, fars, Azərbaycan və ya türk, erməni və gürcü dillərinin tədrisini də lazım bilirdi.

Şamaxı gimnaziyasına gəlincə Zaqafqaziya məktəblər direktoru, Zaqafqaziyada mövcud olan Tiflis gimnaziyasından əlavə, ikinci bir gimnaziyanın olmasını lazım bilir və bunu Xəzər vilayətinin mərkəzi olan Şamaxı şəhərində açmağı təklif edirdi.

[1] LMDTA, f. 733, s. iş № 64, v. 18-19.

O yazırdı ki, bu gimnaziyanı Şamaxı qəza məktəbinin binasında yerləşdirmək, həm də, bu gimnaziyanı hələlik dörd sinifdən ibarət, sonralar isə tədricən digər sinifləri açmaq lazımdır. O, gimnaziyanın açılmamış siniflərinə nəzərdə tutulan məbləği isə gimnaziya üçün bina tikməyə xərcləməyi, gələcəkdə ehtiyac olarsa Şamaxıda yenidən qəza məktəbi açmağı təklif edirdi.

Şamaxı gimnaziyasında tədris ediləcək fənlər, təxminən Tiflis gimnaziyasındakı kimi olmalı, burada gürcü dili əvəzinə erməni və fars dilləri, ərəb dili və ədəbiyyatı, şəriət öyrədilməli idi.

Zaqafqaziya məktəblər direktoru Tiflis gimnaziyasında olduğu kimi, Şamaxı gimnaziyasında da xüsusi hazırlıq siniflərinin olmasını lazım bilirdi. Nücabələr pansionu 40 nəfərlik nəzərdə tutulurdu ki, bunlardan 20-si müsəlman uşaqları olmalı idi. Pansionda oxuyanlar Tiflis pansionerləri kimi məktəbi bitirdikdən sonra Zaqafqaziya ölkəsinin tədris hissəsində ən azı 5 il işləməli idilər. Gimnaziyanın kurslarını bitirib bütün fənlərdən kifayətləndirici, rus dilindən isə yaxşı qiymət alanlara qulluğa qəbul edilərkən XIV dərəcə mülkü rütbə verilməsi təklif edilirdi.

Zaqafqaziya məktəblər direktorunun raportunda irəli sürülən məsələlərdən biri də Rusiya XMN-ə tabe olan digər tədris müəssisələri kimi, Zaqafqaziya məktəblərində də azad dinləyicilərdən təhsil haqqı tələb etmək idi. Yoxsul olmalarına görə yerli rəislərdən arayış təqdim edənlər müstəsna edilməklə ali məktəbdə oxuyan hər bir azad dinləyicidən ildə gümüş pulla 10 manat, gimnaziyada 3 manat, qəza məktəblərində isə 1 manat almaq və həmin pulları yoxsullardan olan şagirdlər üçün xərcləmək, onlara tədris kitablarının pulsuz verilməsinə sərf etmək təklif edilirdi.

Beləliklə, Tiflisdə xüsusi Şərq dilləri şö'bəsi olan məktəb, Şamaxıda isə gimnaziya tə'sis edilməsi və azərbaycanlıların buraya cəlb edilməsi fikri üçün mütərəqqi hadisə idi. Zaqafqaziya məktəbinin direktoru yazırdı: Ali məktəb yaratmağın zəruriyyəti, məndə belə fikrə inam yaradır ki, ölkənin müsəlmanlardan ibarət olan əhalisinin ruhlanmasına, təhsilə həvəs və meylin inkişafına şərait yaradacaqdır. Onun Zaqafqaziyanın baş hakiminə göndərdiyi bir izahatda deyilirdi: «Müsəlman gəncləri mə'lumatlarla, həyata və insanlara yeni münasibətlərlə zənginləşdikcə öz millətinə ünsürlər daxil edəcək, öz həmvətənlərinə daha sıx yaxınlaşacaq, Vətənini və

hökumətin himayəsini ürəkdən sevəcək, Rus təhsilinin üstünlüklərini görəcək və özünün həmməzhəb qonşularından yüksəkdə duracaqdır. Onun təhsili və əqli başqalarını da belə mə'lumat axtarmağa, elmli olmağa vadar edəcək və ola bilsin ki, ali məktəb bə'zi Asiya dövlətləri üçün də maarif mənbəyi olacaq və o ölkələrdən maarif üçün buraya gəlmək yaxın olacaqdır. Bundan əlavə ali məktəb erməni və müsəlman ruhani şəxslərinin azad dinləyici kimi o dillərdə əsaslı mə'lumat kəsb etmək arzularına imkan yaradar və onların elm təhsilinin başlanğıcını qoyar»[1].

Zaqafqaziya məktəblər direktoru yazırdı ki, Şamaxının müstəqil vilayət mərkəzi olması, orada gimnaziya açmağı tələb edir. O, gimnaziyanın nəzdində hazırlıq sinfinin olmasını, tələbələrin tərkibinin əsasən müsəlmanlardan olacağını nəzərə alaraq gimnaziyanın tədris planına latın dili əvəzinə ərəb dilinin daxil edilməsinin zəruriliyini göstərirdi. O həmçinin pansion nəzarətçisinin xaricilərdən deyil, rus dilinin daha yaxşı öyrədilməsi üçün ruslardan tə'yin edilməsini təklif edirdi.

Zaqafqaziya məktəblər direktoru qəza məktəblərinin birinci sinifdən başlayaraq dərslərin fənn müəllimləri tərəfindən aparılmasını təklif edirdi. Bundan başqa qəza məktəbləri nəzdində əlavə kurslar şəklində həm də real siniflər açmaq və burada təsərrüfat, kənd və manufaktura sənayesinə və texnologiyaya aid fənlərin başlıca əsaslarının öyrədilməsi lazım sayılırdı.

Heç şübhəsiz ki, Zaqafqaziya məktəblər direktoru bu məsələləri irəli sürərkən çar hökumətinin mənafeyini güdür, hökumət qanunlarının yerlərdə yerinə yetirilməsinə nəzarətin artırılmasını nəzərdə tutur və yerinə yetirilməsində özünə istinadgah, çarizmin siyasətini həyata keçirəcək adamlar, mütləqiyyət quruluşu üçün xidmət edəcək çinovniklər hazırlığını və bunların hökumətə xeyir verəcəyini, yerli xalqların Rusiya hökumətinə rəğbətini artıracağını nəzərdə tuturdu.

Bununla bərabər Zaqafqaziya üzrə xüsusi təhsil dairəsinin yaradılması sahəsində edilən təşəbbüs xalq maarifinin gələcək tərəqqisinə xeyli kömək etməli idi.

Beləliklə, Zaqafqaziya məktəblər direktorunun mülahizələrində Tiflis Ali məktəbindən, Tiflis və Şamaxı gimnaziyalarından, Zaqafqaziyadakı 13 qəza məktəbindən, o cümlədən Nuxa, Bakı, Şuşa, Gəncə

[1] LMDTA, f. 733, s. 82, iş №64, v. 143, arx.

və Naxçıvan qəza məktəblərindən (Şamaxı qəza məktəbinin isə gimnaziyaya çevrilməsi nəzərdə tutulduğundan buraya daxil edilmirdi) ibarət Zaqafqaziya təhsil dairəsinin təşkil edilməsi təklif edilirdi.

Beləliklə, Zaqafqaziya, o cümlədən Azərbaycan məktəblərinin artıq Xarkov təhsil dairəsinə deyil, bu məsələ ilə bilavasitə məşğul olan Zaqafqaziya məktəblərinin baş inspektoruna tabe edilməsi fikri qətiyyətlə irəli sürüldü.

Baş inspektor vəzifəsinin tə'sis edilməsi ölkədə xalq maarifinə rəhbərliyi yaxşılaşdırmalı, təhsilin tərəqqisinə kömək etməli idi.

Zaqafqaziya məktəblər direktoru, saray müşaviri N.Knopf tərəfindən tərtib edilmiş bu layihəyə görə yaradılacaq Zaqafqaziya təhsil dairəsi ölkədəki bütün tədris müəssisələrindən, o cümlədən Gürcüstan–İmeretiya quberniyasına daxil olan Naxçıvan və Yelizavetpol qəza məktəblərindən, Xəzər vilayətində isə vilayətin mərkəzi olan Şamaxıda bir gimnaziya və vilayət şəhərləri olan Şuşa, Nuxa, Bakı və Dərbənd qəza məktəblərindən ibarət olması nəzərdə tutulurdu.

Bu layihəyə görə Tiflisdə tə'sis ediləcək ali məktəb tələbələri dövlət hesabına oxuyanlar və azad dinləyicilər olmaq üzrə iki hissəyə bölünrdü. Azad dinləyicilər müxtəlif dərəcələrə mənsub ola bilərdilər. Dövlət hesabına oxuyan və hər cür azad vəziyyətə malik olan 30 tələbədən 15-i Məhəmməd təriqətinə mənsub olanlardan nəzərdə tutulurdu ki, bu 30 nəfərdən 10-u müəllimliyə, 20-si isə mülki qulluğa hazırlanmalı idi. Bunlardan əlavə tərcüməçiliyə lazım olan qədər tələbə dövlət xəzinəsi hesabına oxumalı idi (§ 44).

Müəllimlik vəzifəsinə hazırlanan tələbələr ümumi kursdan başqa, ədəbiyyat, riyaziyyat və pedaqogikadan müəllimliyə aid əlavə praktik çalışmalar almalı, sınaq mühazirələri oxumalı, professorun nəzarəti altında məktəblərdə nümunə dərsləri verməli idilər (§ 46).

Müəllimliyə hazırlanan tələbələrin təhsilinə nəzarət bilavasitə rus dili, fəlsəfə və sırf riyaziyyat professoruna həvalə olunurdu. Fəlsəfə professoru eyni zamanda pedaqogika müəllimi idi. Tədris etdikləri fənlərdən asılı olmayaraq ali məktəbin bütün professorları həftədə 2 saat bu tələbələrlə məşğul olmalı idilər (§ 47).

Layihəyə görə Şamaxı gimnaziyasının tə'sis edilməsində məqsəd: a) ali məktəbə daxil olmağı nəzərdə tutmayan və ya ali

məktəbə daxil olmağa imkanı olmayan gənclərə münasib təhsil verməkdən; b) Ali məktəbdə oxumağa qabil adamlar hazırlamaqdan ibarət idi[1].

Tiflis gimnaziyasından fərqli olaraq Şamaxı gimnaziyasının ştatı inspektordan, 5 baş və 6 kiçik müəllimdən, rəsm, rəsmxət və hüsnxət müəllimindən və provoslav, erməni–Qriqoryan və Məhəmməd təriqəti üzrə olmaqla 3 şəriət müəllimindən ibarət təklif edilirdi. Məhəmməd təriqəti müəllimi, eyni zamanda pansion nəzdində nəzarətçi idi.

Layihədə Şamaxı gimnaziyasının ştatı belə təklif edilirdi:

Tiflis gimnaziyası kimi Şamaxı gimnaziyası da pansiona malik olmalı idi. Təhsil kursu 7 sinifdən ibarət olub hər biri bir il davam edirdi (§ 32).

Birinci sinifdə tədris Lankaster üsulu ilə aparılmalı, ümumi təhsil fənlərindən başqa ərəb dili və ədəbiyyatı, fransız, erməni, fars və Azərbaycan dillərinin tədrisi nəzərdə tutulurdu (§33)

Göstərilən dillərin hamısı bütün millətlərdən olan şagirdlər üçün məcburi deyildi. Hər şagirdin yalnız üç dil öyrənməsi məcburi idi. Rus dilindən başqa, azərbaycanlılar Azərbaycan və ərəb dillərini öyrənməli idilər. Qalan dillərin tədrisi isə gimnaziya şurasının seçib təsdiq etməsindən asılı idi.

Rus və ərəb dili müəllimləri, həmçinin tarix və riyaziyyat müəllimləri böyük hesab edilərək onlara xüsusi rütbə–gimnaziyanın professoru adı verilir, digər fənləri tədris edənlər isə kiçik müəllim hesab edilirdi (§ 35).

[1] LMDTA, f. 733, s. 82 iş № 64, v. 164.

№		Çinovnikləri n sayı	Vəzifəyə görə rütbə	Geylm dərəcəsi	Əmək haqqı	Gümüş pul ilə	Mənzil kirayəsi	Gümüş pul ilə	Qeyd
	Birinə cəmi								
	İnspektor	1	VII	VII	1500	1500	–	–	Əlavə olaraq pansion pulundan 300 m
	Baş müəllimlər: a)rus ədəbiyyatı; b)riyaziyyat (2 n.); v)tarix; q)ərəb dili	5	IX	VIII	1200	6000	360	180	
	Kiçik müəllimlər: a)rus dili; b)coğrafiya	2	X	IX	600	1200	180	360	
	Dil müəllimləri: a)fransız dili; b)Azərbaycan dili; v)fars dili; q)erməni dili	4	X	IX	500	2000	150	600	
	Müəllimlər: a)rəsm və rəsmxət; b)hüsnxət	2	XII	X	300	600	90	180	
	İlahiyyat müəllimləri: a)Provoslav təriqəti; b)erməni-Qriqoryan; v)Məhəmməd (Əli təriqəti) (o. həmçinin pansion nəzdində nəzarətçidir.)	2	–	–	500	1000			
	Baş nəzarətçi (o cyni zamanda zəif şagirdləri öyrədəndir.)	1	IX	IX	550	550	165	165	
	Pansion nəzarətçisi (o cyni zamanda zəif şagirdləri öyrədəndir)	1	XII	X	500	500	150	150	
	Xəstəxana nəzarətçisi	1	XII	X	500	500	150	150	
	Həkim	1	–	–	300	300	–	–	
	İqtisadçı	1	XII	X	400	400	120	120	
	Kargüzar	1	XIV	–	300	300	90	90	
	Aşağı maaşlı katib	1	–	–	100	100	–	–	
	Dəftərxana ləvazimatı	–	–	–	–	70	–	–	
	40 dövlət təqaüdçüsünün saxlanılması	40	–	–	120	4800	–	–	
	Binanın saxlanılması, qulluqçular və digər xərclər	–	–	–	–	2000	–	–	
	Kitabxana üçün	–	–	–	–	250	–	–	
	Fizika kabinəsi üçün	–	–	–	–	100	–	–	
	Şagirdlərə mükafat	–	–	–	–	120	–	–	
	İlk tə'sis zamanı olacaqdır					22.790		3615	

Layihədə Şamaxı gimnaziyasının tədris planı aşağıdakı kimi təklif edilirdi.

	Tədris fənləri	Siniflər üzrə həftəlik dərs saatları							Həftəlik dərslərin cəmi	Həftəlik saatlar
		I	II	III	IV	V	VI	VII		
1.	İlahiyyat	2	2	2	1	1	1	1	10	15
2.	Rus dili və ədəbiyyatı	5	4	4	3	3	3	3	25	37,5
3.	Məntiq	-	-	-	-	-	2	2	4	6
4.	Riyaziyyat	4	4	4	4	3	2	2	23	34,5
5.	Fizika	-	-	-	-	-	2	2	4	6
6.	Tarix	-	-	-	2	2	3	3	10	15
7.	Statistika	-	-	-	-	-	2	2	4	6
8.	Coğrafiya	-	2	2	2	3	-	-	9	13,5
9.	Ərəb dili və ədəbiyyatı	-	-	2	2	2	2	3	11	16,5
10.	Fransız dili	-	-	-	2	2	2	2	8	12
11.	Fars dili	-	-	-	-	-	-	-	-	-
12.	Erməni dili	2	2	2	2	2	1	1	22	18
13.	Azərbaycan dili	2	2	2	2	2	1	1	22	18
14.	Rəsm və rəsmxət	3	2	2	2	2	1	1	13	19,5
15.	Hüsnxət	4	4	2	-	-	-	-	10	15
Cəmi:	**Dərslər**	**22**	**22**	**22**	**22**	**22**	**22**	**22**	**154**	
	Saatlar	**33**	**33**	**33**	**33**	**33**	**33**	**33**	**-**	**231**[1]

Cədvəlin sonundakı qeyddə deyilirdi: erməni dilinin tədrisi zamanı, bu dili öyrənməyən şagirdlər üç aşağı siniflərdə hüsnxətlə, üç yuxarı sinifdə (əslində dörd yuxarı sinifdə olmalıdır–H.Ə.) isə rəsmlə məşğul olmalı idi.

Gimnaziyada təhsil pullu idi. Kifayət dərəcədə varidatı olanlardan ilk 4 sinif üçün ildə hər bir şa-girddən 4 man., yuxarı 3 sinifdə isə ildə 8 man. alınması təklif edilirdi. Bu pulların yarısı fərqlənən müəllim-lərə, dörddə biri xalq maarifi departamentinə verilməli, digər dörddə biri yoxsullardan olan ləyaqətli şagirdlərin tədris ləvazimatına sərf edilməli, qalanı isə gimnaziya-nın ehtiyaclırına xərclənməli idi (§42).

Layihədə gimnaziyaya qəbul qaydası aşağıdakı kimi nəzərdə tutulurdu Birinci sinfə qəbul olunlar oxumağı, yazmağı bacarmalı, hesabdan ilkin qaydaları bilməli, xüsusilə rus dilində danışmağı

[1] LMDT A f. 733, s. 82, iş № 64, v. 220 arx.

bacarmalı idilər. Şagirdlər müvafiq imtahan verməklə birbaşa 2-ci, 3-cü və hətta 4-cü sinfə də daxil ola bilərdilər.

Qəza məktəbini bitirib, 3-cü və 4-cü sinfə daxil olmaq istəyənlər də həmçinin inspektor və böyük müəllimin iştirakı ilə imtahan verməli idilər (§ 43).

Birinci sinfə 9 yaşdan, 2-ci sinfə 10 yaşdan, üçüncü sinfə 11, 4-cü sinfə isə 12 yaşdan aşağı olanlar qəbul olunmurdu (§ 44)

Hər bir müəllim şagirdlərin dərsə davamiyyəti, müvəffəqiyyəti, davranışı haqda xüsusi qeydlər aparmalı idi.

Bu məqsədlə layihədə gimnaziyanın birinci sinif şagirdlərinin bu və ya digər fənn üzrə, hər ayda müvəffəqiyyəti və davranışını göstərən belə bir ümumi cədvəlin forması təklif edilirdi.

İllik kursu bitirdikdən sonra bütün şagirdlər imtahan verməli idilər. İmtahanlar dərs ilinin sonunda deyil, təqvim ilinin sonunda, noyabrın 20-dən aparılırdı. (İyulun 1-dən sentyabrın 1-nə qədər yay tə'tili verilirdi). Kursdankursa keçmə imtahanında fərqlənənlər qızıl və gümüş medallarla təltif edilir (rus çinovniklərinin uşaqlarına Azərbaycan dilindən müvəffəqiyyətinə, digər millətlərdən olanlara isə rus dilindən müvəffəqiyyətinə, üstünlük verilirdi) və pedaqoji şura üzvlərinin imzası və gimnaziyanın möhürü vurulmuş kitab və ya tə'rifnamə verilirdi. Şagirdlərin sayından asılı olaraq hər sinfə iki və ya üç mükafat verilə bilərdi. Kitab mükafatına layiq görülən yoxsullardan olan şagirdlərə elə kitablar verilməli idi ki, bu kitab gələcəkdə ona lazım olsun (§ 46).

Əlifba üzrə şagirdlərin adı və famil- yası	**Müvəffəqiyyəti**							**Əxlaqı**	**Tədris fənni nə qədər keçilib**
	İlahiyyat	**Rus dili**	**Hesab**	**Erməni dili**	**Azərb. dili**	**Rəsm**	**Rəsmxət**		
A.									
B.									
V.									
Q.									
D.									
E.									

Qeyd: Gimnaziyanın inspektoru hər iki ayda, ştat üzrə nəzarətçisi isə hər ayda bir dəfə təhsil dairəsi rəisinə bu cədvəl əsasında mə'lumat təqdim etməli idi.

Layihədə qəza məktəblərinin ştatı aşağıdakı kimi nəzərdə tutulurdu:

A. Naxçıvan, Nuxa və Gəncə qəza məktəblərində	Çinovniklərin sayı	Vəzifəyə görə rütbə	Geyim dərəcəsi	Gümüş pul ilə	Əmək haqqı	Mənzil haqqı	Gümüş pul ilə
1. Ştat üzrə nəzarətçi (o həm də müəllimdir).	1	IX	VIII	Birinə 700	Cəmi 700	Birinə --	Cəmi –
2. Elm müəllimi	1	XII	X	600	600	--	–
3. Erməni-Qriqoryan təriqəti üzrə ilahiyyat müəllimi (o həm də erməni dili müəllimidir).	1	–	–	350	350		-
4. Məhəmməd təriqəti müəllimi(o həm də Azərbaycan dili müəllimidir)	1	XII	X	350	350	–	–
5. Rəsm, rəsmxət və hüsnxət müəllimi	1	XIV	X	350	350		–
6. Bina və digər xərclər	–	–	–	–	350	–	–
7. Kitabxana və tədris vəsaiti	–	–	–	–	50	–	–
8. Şagirdlərə mükafat üçün	–	–	–	–	20		–
B. Şuşa və Bakı qəza məktəblərində							
1. Ştat üzrə nəzarətçi (o həm də müəllimdir)	1	IX	VIII	600	600		–
2. Elm müəllimi	1	XII	X	500	500	–	–
3. Erməni-Qriqoryan təriqəti üzrə ilahiyyat müəllimi (o həm də erməni dili müəllimidir).	1	–	–	300	300	--	–
4. Məhəmməd təriqəti müəllimi(o həm də Azərbaycan dili müəllimidir)	1	XIV	X	300	300		-
5. Rəsm, rəsmxət və hüsnxət müəllimi	1	XIV	X	300	300		–

Qəza məktəblərindən aşağıdakı fənlərin tədrisi nəzərdə tutulurdu.

1. İlahiyyat (təriqətlər üzrə) və müqəddəs tarix.
2. Rus qrammatikası.
3. Coğrafiya.
4. Tarix.
5. Hesab və stereometriya da daxil olmaqla həndəsə (sübutsuz).
6. Hüsnxət, rəsmxət və rəsm.
7. Yerli dillər (§ 174.)

Qəza məktəblərinin tədris planında nəzərdə tutulan fənlər siniflər üzrə aşağıdakı kimi bölünürdü:

Fənlər		**Həftə ərzində siniflər üzrə dərslərin sayı**			**Həftəlik dərslərin sayı**	**Həftəlik saatların sayı**
		I	**II**	**III**		
1.	İlahiyyat.	—	2	2	4	6
2.	Rus qrammatikası	4	4	4	12	18
3.	Coğrafiya	—	2	2	4	6
4.	Ümumi və rus tarixi	—	—	2	2	3
5.	Hesab və həndəsə	4	4	4	12	18
6.	Hüsnxət	4	3	1	8	12
7.	Rəsm və rəsmxət	2	1	1	4	6
8.	Erməni dili	3	2	2	7	10,5
9.	Azərbaycan dili	3	2	2	7	10,5
Cəmi:	Dərslər:	20	20	20	60	
	Saatlar:	30	30	30	—	90[1]

[1] LMDTA, f. 733, s. 82, iş № 64, v. 222.

Layihədə göstrilirdi ki, yerli şəraitə və ehtiyaca görə lazım bilinərsə, Maarif Nazirliyinin icazəsi ilə qəza məktəbləri nəzdində əlavə kurslar açıla bilərdi. Burada sənayə və kənd təsərrüfatının müxtəlif sahələri, o cümlədən kənd təsərrüfatı üzrə əkinçilik, bağçılıq, üzümçülük, meşəçilik, boyaq və təsərrüfat bitkiləri, ipəkçilik, qoyunçuluq, heyvandarlığa aid bimeklər sənaye üzrə: fabrika və sənaye manufakturası, ticarət, ev təsərrüfatı hesabdarlığın əsasları, təsərrüfat texnologiyasının əsasları, incəsənət və peşələrə uyğunlaşdırılmış rəsm, dülgərlik, xarratlıq, çarxçılıq, çəlləkçilik, dəmirçilik, çilingərlik, kərpiççilik, sobaçılıq və s. kimi peşələrə aid, həmçinin arxitekturanın başlıca qaydaları və mexanikanın əsaslarına aid biliklər verilə bilərdi (§ 147).

Əlavə kurslar həmçinin yerli məktəblərin baş rəisinin icazəsi ilə şəxsi adamlar və ya cəmiyyətlər tərəfindən də açıla bilərdi. Bu kurslarda qəza məktəb şagirdlərindən əlavə kənar adamların da dinləyici kimi iştirak etməsinə icazə verilirdi. Kursların məşğələsi həftədə iki və ya üç dəfə, həm də gündüz məşğələlərinə mane olmamaq üçün axşamlar ola bilərdi.

Qəza məktəbinin bu işi bilən müəllimləri ilə yanaşı kurslara əlavə olaraq müvafiq müəllimlər də cəlb oluna bilərdi.

Layihədə Gəncə, Naxçıvan, Nuxa, Şuşa və Bakı qəza məktəblərində iki yerli dillərdən–Azərbaycan və erməni dillərindən birinin tədrisi təklif edilirdi.

Azərbaycan dilinin həmçinin Tiflis, İrəvan, Axalkələk, Aleksandropol və Dərbənd qəza məktəblərində tədrisi təklif edilirdi (Şagirdlərin milli tərkibinə görə).

Qəza məktəblərində tədris işi bütün gün ərzində müvafiq rejimlə aparılmalı idi. Yalnız tək və şənbə günləri, günortadan sonra dərslər keçilmirdi. Arzu edən şagirdlər nəğmə və idmanla məşğul ola bilərdilər (§ 184).

Qəbul işi kursun başlanğıcında aparılmalı idi. Lakin yerli millətlərin uşaqları tədris ili ərzində də qəbul edilə bilərdi (§ 185).

Qəza məktəblərində təhsil pullu idi. Kifayət qədər varı olan valideynlərin uşaqlarından ildə gümüş pul ilə 1 man. alınır. Bu pullar yoxsullardan olan ləyaqətli şagirdlərin kitab və digər tədris vəsaitinə, qalanı isə məktəbin ehtiyacına xərclənirdi.

Birinci sinfə qəbul edilərkən heç bir təxmini bilik tələb edilmir, yuxarı siniflərə isə imtahanla, müvafiq biliyə malik olanlar qəbul edilə bilərdilər. Birinci sinfə 9, ikinci sinfə 10, üçüncü sinfə isə 12 yaşdan aşağı olanlar qəbul edilmirdilər.

Dərs tədris ili yox, təqvim ili ilə aparılır və kursdan–kursa keçmək və buraxılış imtahanları dekabrın 15-dən başlanırdı.

Gimnaziya və qəza məktəblərində müəyyən edilmiş müddətdən artıq qüsursuz işləyən müəllim və çinovniklərə bir sıra üstünlüklər verilirdi.

Zaqafqaziyanın baş idarə Şurası 1841-ci il avqustun 28-də Zaqafqaziya məktəblər direktoru saray müşaviri N.Knopf tərəfindən tərtib edilmiş Zaqafqaziyada xüsusi təhsil dairəsinin layihəsini müzakirə edərək Zaqafqaziyada xüsusi təhsil dairəsi yaradılmasını, ölkədə maarif işinə nəzarət edən xüsusi popeçitel vəzifəsinin tə'sis edilməsini lazım bildi. Bununla belə Baş idarə şurası Tiflisdə ali məktəb, Şamaxıda isə gimnaziya açmağın hələ vaxtı çatmadığına görə rədd etdi. Baş idarə Zaqafqaziyada universiteti əvəz edəcək ali məktəbin açılması fikrini rədd edərkən bir tərəfdən çarizmin ruslaşdırma siyasətini güdür, yerli əhalidən ildə 10–15 nəfər Rusiya daxilindəki kadet korpusuna və universitetlərə göndərməklə onları çarizmə sədaqət ruhunda tərbiyə etməyi daha üstün tutur, digər tərəfdən isə ali məktəb üçün illik 40.275 man. (bir dəfəlik isə 10.000 man.) pul xərcləməkdən çəkinməyə, dövlət xəzinəsinə mümkün qədər zərər vurmamağa çalışırdı. Baş idarə həmçinin Şamaxıda gimnaziya açmağı lüzumsuz hesab edərkən xalqın maariflənməsini deyil, hökumətin siyasətini əsas götürürdü. Həmin iclasın protokolunda deyilir ki, Şamaxı qəza məktəblərində isə (Bakı, Şuşa, Nuxa məktəbləri ilə birlikdə) cəmi 372 şagird təhsil alır ki, bu da Şamaxıda gimnaziya açmağa əsas vermir.[1] Lakin üç sinifdən ibarət olan bu məktəblərdə şagirdlərin azlığı, heç də xalqın təhsilə az meylli olmasından deyil, həmin məktəblərdə ruslaşdırma siyasətinin yeridilməsindən, ana dilinə az əhəmiyyət verilməsindən, bu məktəblərdə mə'nəvi cəhətdən qüsurlu müəllimlərin işləməsindən, nəhayət, məktəb binalarının darısqal olmasından, məktəbin silki və sinfi xarakterindən irəli gəlirdi.

[1] LMDTA, f. 733, s. 82, iş №65, v. 138 arx.

Keçən əsrin 40-cı illərində Azərbaycan qəza məktəbləri təhsilin məzmununa görə Rusiya qəza məktəblərindən hələ də geri qalırdı. Bu da, şübhəsiz ki, oxuyanların milli tərkibinin müxtəlifliyi və tə'limin rus dilində aparılması ilə əlaqədar idi. Bu məktəblərdə oxuyan azərbaycanlıların sayı hələlik nisbətən az idi.

Bunlara baxmayaraq, bu məktəblər xalq maarifi və məktəblərin inkişafında müəyyən obyektiv əhəmiyyətə malik idi.

Məqalə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi Əsərlərinin (pedaqoji-psixoloji elmlər seriyası). 1968-ci il tarixli, 3-cü sayında (səh. 3–5.) çap olunmuşdur.

AZƏRBAYCANDA KƏND ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ TARİXİNDƏN

Bu məqalədə məqsəd keçmiş Gəncə quberniyası timsalında inqilabdan əvvəlki məktəblərin meydana gəlməsi və inkişaf yolunu göstərməkdir.

1868-ci ildə təşkil edilən Yelizavetpol (Gəncə) quberniyasına müxtəlif vaxtlarda yaranmış Şuşa, Gəncə, Zəngəzur, Cəbrayıl, Cavanşir, Qazax və Ərəş qəzaları daxil idi. Quberniyanın mərkəzi Gəncə şəhəri idi.

Kəçən əsrin 60–70-ci illərinə qədər bütün Azərbaycanda olduğu kimi, Gəncə quberniyasında da düzgün təşkil edilmiş ümumtəhsil kənd məktəbi yox dərəcəsində idi. Yalnız 70-ci illərdən başlayaraq Azərbaycanın, o cümlədən Gəncə quberniyasının bir sıra kəndlərində rus dilində və ya rus dilində tədris olunmaqla iştirakı ilə ümumi təhsil verən ibtidai məktəblər meydana gəlməyə başladı.

Bir sıra qabaqcıl adamlar, maarifçilər müxtəlif yol və vasitələrlə azərbaycanlı uşaqları üçün ümumtəhsil məktəbləri açmağa, xalq maarifini və təhsili inkişaf etdirməyə cəhd edirdilər. Qabaqcıl rus ictimai mühiti, rus dili və ümumiyyətlə, rus mədəniyyəti ilə yaxından tanışlıq Azərbaycan kəndlərində də rus məktəbləri nümunəsində ümumi təhsilin meydana gəlməsinə təkan verdi.

Azərbaycanda ilk ümumtəhsil məktəbi 1875-ci ildə Gəncə quberniyası Qazax qəzasının Salahlı kəndində təşkil edildi. Bu məktəb milliyyətcə tatar olan Kazan sakini Tauxiddin Mamleyev adlı bir nəfər tərəfindən açıldı. T.Mamleyev 1870-ci illərdə nə münasibətləsə Tiflisə gəlmiş və 1872-ci il oktyabrın 28-də Qafqaz tədris dairəsinin (QTD) popeçiteli Y.M.Neverevə müraciət edərək Zaqafqaziya ölkəsindəki müsəlman kəndlərinin birində xüsusi məktəb açmağa icazə istəmişdir.

Rəsmi sənədlərdən onun Orenburq hərbi-ibtidai məktəbində təhsil aldığı mə'lum olur. Lakin müəllimlik şəhadətnaməsi olmadığından o, 1872-ci ilin noyabrında Tiflisdə imtahan vermək və sınaq dərsləri keçmək yolu ilə kənd məhəlli məktəbi və ibtidai xalq məktəbi müəllimi adı və müvafiq şəhadətnamə alır. O, məktəb açmaq üçün Salahlı kəndini seçir. Fikrimizcə, bu yerin seçilməsi, bir

tərəfdən, Salahlının Tiflis ictimai mühitinə yaxınlığı, əhalinin rus dilində təhsil tələbi ilə əlaqədar idi. Digər tərəfdən keçən əsrin 20-ci illərindən Qazax distansiyasında məktəb açmaq təklif edilirdi. Zaqafqaziya məktəblərinin 1829 və 1835-ci il nizamnamələrində Qazax distansiyasında xəzinə xərcinə qəza məktəbi açılması təsdiq edilmişdi. Lakin müxtəlif səbəblərdən burada məktəb açmaq baş tutmamışdı. Bütün bunlar Qazax qəzasının Salahlı kəndini seçməyə əsas verirdi. Mamleyev tərəfindən tərtib edilmiş əsasnaməyə görə məktəbin məqsədi rus dili öyrətmək və ibtidai savad verməkdən ibarət idi. Təhsil pullu idi. İldə hər şagirddən 18 manat təhsil haqqı alınırdı. Müəllimin mülahizəsi ilə kasıb valideynlərin uşaqları, mütləq kəndlilərdən olmaq şərti ilə, təhsil haqqından azad edilə bilərdi. T.Mamleyevin bu təşəbbüsü yerli hakimiyyət orqanları tərəfindən rəğbətlə qarşılandı. Məktəbin ilk tə'sisi üçün dövlət tərəfindən birdəfəlik 300 manat vəsait ayrıldı.

Beləliklə, 1875-ci il yanvarın 2-də Salahlı kəndində kənd sakinlərinin və yaxın kənd camaatının iştirakı ilə ilk kənd ümumtəhsil məktəbi açıldı. İlk dəfə məktəbə 23 şagird cəlb edilmişdi ki, onlardan 3-ü pulsuz qəbul olunmuşdu.

Məktəb dövlət binasında yerləşirdi. (Bu bina Qazax sahə müvəkkili üçün tikilmişdi. Lakin boş olduğundan Gəncə qubernatoru tərəfindən məktəbə verilmişdi). Ətraf kəndlərdən gələn şagirdlər üçün məktəbin nəzdində pansion var idi. Dərs ili sentyabrın 1-də, əhali yaylaqdan qayıtdıqdan sonra başlayır, mayın 1-də, əhali yaylağa köçən vaxt isə qurtarırdı.

Məktəbin tədris planına şəriət, Azərbaycan dili, rus dilində oxu və yazı, hesab, rəsmxət, təcrübi qrammatika (orfoqrafiya) və gimnastika daxil idi.

Salahlı kənd məktəbi Azərbaycan kəndində ilk rus– Azərbaycan məktəbi idi. Məktəbdə rus dili və digər fənlər T.Mamleyevin özü tərəfindən, şərait və Azərbaycan dili isə kəndin savadlı və hörmətli sakini olan Abdulla ağa Əfəndiyev tərəfindən tədris edilirdi. Hər ilin sonunda Mamleyevin xahişi ilə şagirdlərin imtahanında iştirak etmək və tə'limin düzgün qoyuluşunu müəyyənləşdirmək üçün Tiflisdən xüsusi metodist də'vət edilirdi. Qafqaz təhsil dairəsinin inspektoru, məşhur pedaqoq və metodist

Jelixovski 1875-ci ilin yazında bu məktəbə gələrək şagirdlərin imtahanında iştirak etmiş və çox razı qalmışdı.

Məktəb qısa müddət ərzində böyük şöhrət qazandı. O vaxt cəmi Qafqazda olan 78 ibtidai məktəb içərisində Salahlı kənd rus−Azərbaycan məktəbi ən nümunəvi məktəb idi. Bunu e'tiraf edən QTD-nin popeçiteli yazırdı ki, cəmi Qafqaz ibtidai məktəbləri içərisində yerli müsəlman əhalisi tərəfindən böyük rəğbətlə qarşılanan Salahlı rus—Azərbaycan məktəbi daha çox sevindirici hadisədir.

Bütün bunların nəticəsi idi ki, 1877-ci ildə bu məktəb Gəncə və İrəvan quberniyaları xalq məktəbləri direktorluğunun tabeliyinə keçdi. Təhsil haqqı ləğv edildi, məktəbin xərci zemstvo vəsaitindən ödənildi və məktəb birsinifli normal kənd məktəbi adlandırıldı. 1878-ci ildə burada 30 nəfər şagird oxuyurdu. Zaqafqaziya müsəlmanları içərisində rus dilini və ibtidai savadı yayan yeganə məktəb olan və azərbaycanlıların böyük rəğbətini qazanan Salahlı kənd məktəbi digər quberniyaların bir sıra kəndlərində də belə məktəblərin tə'sis edilməsinə əsas verdi.

QTD-nin popeçiteli 1875-ci ilə aid hesabatında Qafqaz canişininə yazırdı: Salahlı kənd məktəbinin müvəffəqiyyəti məni vadar edir ki, normal kənd məktəblərini ilk əvvəl Yelizavetpol quberniyasında açmağı Siz Ə'lahəzrətlərdən xahiş edim.

Hələ 1873-cü il noyabrın 22-də mərkəzi hökumət Zaqafqaziya ölkəsinə aid məsələ müzakirə edərək hər bir quberniya və ya vilayətdə xəzinə hesabına (vəsait əldə etdikcə) tədricən 3-ə qədər normal kənd məktəbi açmağa icazə verdi. 1875-ci il fevralın 18-də isə bu məktəblərin ştatı təsdiq edildi. Gəncə quberniya əhalisinin rus dilində təhsilə daha çox meyilli olması və hökumətin göstərilən qərarı əsasında Qafqaz canişini 1875-ci ildə digər quberniyalardan əvvəl məhz Gəncə quberniyasında 3 kənd məktəbi açmağa icazə verdi. Bu məktəblərdən birini Qazax qəzasında (Dağkəsəmən kəndində), digərini Zəngəzur qəzasının Gorus kəndində, üçüncüsünü isə Cəbrayıl qəzasının Cəbrayıl kəndində açmaq təklif edildi. Bu yerlərin seçilməsi həm sahə müvəkkillərinin və digər hökumət qulluqçularının bu yerlərdə oturması ilə, həm də yerli əhalinin maraq göstərməsi və məktəbə maddi yardım etməyi öhdəsinə götürməsi ilə əlaqədar idi. Həmin qəzaların kənd camaatı məktəb üçün verilən

layihə üzrə bina və müəllimlər üçün yaşayış evi tikməyi qərara almışdı.

Beləliklə, 1876-cı ildə Dağkəsəmən kəndində 2 sinifli, Cəbrayıl və Gorusda isə 1 sinifli normal kənd məktəbləri açıldı.

Dağkəsəmən mktəbinə ilk dəfə 40, Cəbrayıl məktəbinə isə 34 şagird qəbul edilmişdi. Məktəbə daxil olmaq istəyənlərin sayı daha çox idi. Lakin hər iki məktəbin yerləşdiyi binanın darısqal olması buna imkan vermirdi.

QTD-nin popeçiteli yazırdı: «Dağkəsəməndə camaat tərəfindən ayrılmış 2 otaqdan ibarət bir binada 40 nəfərdən artıq şagird yerləşdirmək mümkün olmadığından, Qazağın ətraf kəndlərindən gələn valideynlərin göz yaşları tökərək öz uşaqların qəbul edilməsini xəhiş etmələri nəticəsiz qaldı». Cəbrayıl məktəbində də vəziyyət belə idi.

Bu illərdə, ümumiyyətlə, Gəncə quberniyası müsəlmanları ibtidai təhsilə ciddi cəhd edirdilər.

Lakin çarizmin məktəb siyasəti Azərbaycan kənd məktəblərinin inkişafına böyük maneə törədirdi. Çar hökuməti hər vəchlə ucqarlarda kənd məktəblərinin inkişafının qarşısını alırdı.

Bütün bunların nəticəsi idi ki, 70-80-ci illərin irtica dövründə Gəncə quberniyasında rus dilində cəmi 4 kənd məktəbi (biri zemstvo, üçü dövlət xərcinə) fəaliyyət göstərirdi. Keçən əsrin 80-ci illərində Azərbaycan kəndlərində mollaxanalar, erməni kəndlərində isə kilsə – məhəllə məktəbləri yeganə təhsil müəssisəsi olaraq qalırdı.

80–90-cı illərdə kəndlərdə ümumtəhsil məktəbləri açmaq hərəkatı nisbətən genişləndi. Lakin azərbaycanlı müəllim kadrlarının yoxluğu bu işə böyük əngəl törədirdi. 1879-cu ildə Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyası (ZMS) nəzdində Azərbaycan şö'bəsinin təşkili və İrəvanda müəllimlər seminariyasının açılması müəllim kadrları hazırlığında xeyli dönüş yaratdı. Bu şö'bənin mə'zunlarının sayca az olmasına baxmayaraq, onlar bütün Zaqafqaziyada, o cümlədən Gəncə quberniyasında yeni-yeni məktəblərin açılmasında çox mühüm və həlledici rol oynadılar. Bunun nəticəsi idi ki, keçən əsrin 80-ci illərindən başlayaraq istər dövlət, istərsə də zemstvo vəsaiti ilə açılan kənd məktəblərinin sayı get-gedə çoxlamağa başladı.

Təkcə 1882-ci ildə 5 yeni kənd məktəbi açıldı. Bunlardan üçü Zəngəzur qəzasının Qubadlı, Arsevan və Qarakilsə, biri Ərəş qəzasının Ağdaş, digəri isə Qutqaşen kəndində idi.

Yeni kənd məktəbləri açmaqda şəkililər xeyli fərqlənirdilər. 1883-cü ildə kəndlilərin vəsaiti ilə Şəki qəzasında daha 5 kənd məktəbi (Aşağı Göynük, Qoxmux, Vəndam, Padar və Xaçmaz kəndlərində) meydana gəldi. Az sonra isə Vartaşen (1887) və Bum (1890) kəndlərində də məktəb açıldı. Vartaşen məktəbi iki, Bum məktəbi isə birsinifli idi. Bu kəndlərin camaatı məktəb üçün bina tikintisinə maddi vəsaitlə kömək edirdi.

Azərbaycan kəndlərində rus dilində məktəblərin açılması müəyyən mə'nada hökumət üçün də faydalı idi. Bu cəhəti nəzərə alan Gəncə qubernatoru knyaz Nakaşidze 1884-cü ildə yazırdı: Bu yerlərdəki ibtidai məktəblərin ümumtəhsil əhəmiyyətindən başqa, həm də dövlət əhəmiyyəti vardır. Belə ki, bu məktəblər yerli əhaliyə rus dilini öyrədən yeganə müəssisə olmaqla, həm də dövlət qanunlarının yerli əhali içərisində yayılmasına kömək edir.

Bununla belə kənd məktəblərinin açılması və artması, hökumətin istək və arzusunun nəticəsi deyil, təhsilə cəhd etməsinin və məktəbin maddi vəsaitini öz öhdəsinə götürməsinin nəticəsi idi.

ZMS-nin mə'zunları çoxaldıqca kənd məktəblərinin sayı da artırdı. 1883-1885-ci illərdə quberniyanın Şuşa və Cəbrayıl qəzalarında daha 7 kənd məktəbi açıldı. Bunlar Cəbrayıl qəzasının Qarğabazar, Hadrut kəndlərində, Şuşa qəzasının Ağcabədi, Ləmbəran, Gülablı, Ağdam və Tuğ kəndlərində idi. Bunlardan 4-ü birsinifli icma məktəbi, üçü isə (Hadrut, Ağdam və Tuğ) ikisinifli zemstvo kənd məktəbləri idi. Ağdam məktəbinin açılmasını xəbər verən bir mənbədə deyilir ki, oktyabrın 18-də Şuşa qəzasının Ağdam kəndində müsəlmanlardan olan 51 şagirdə malik 2 sinifli zemstvo məktəbi açıldı. Məktəbin açılışında xalq məktəbləri inspektoru, qəza rəisi, 12 kənd icmasının nümayəndələri və digər şəxslər iştirak edirdi. Yerli molla dua oxuduqdan sonra məktəbin müdiri təhsilin xalq əhəmiyyəti haqqında nəsihətli sözlərlə tatar (azərbaycanlı–H.Ə.) dilində xalqa müraciət etdi.

Cavanşir qəzasında ilk kənd məktəbi 1883-cü ildə Bərdə, Alpout və Kasapet kəndlərində, 1885-ci ildə Sarov, 1890-cı ildə Van

kəndində tə'sis edildi. Bərdə kənd məktəbi ilk dəfə 10 şagirdlə işə başlamışdı 1885-ci il oktyabrın 24-də II sinif açıldı.

Gəncə qəzasında ilk kənd məktəbi 1885-ci ildə Goran, Qaraçinar və Zəyəm kəndlərində meydana gəldi. İlk dəfə Goran məktəbinə isə 47 şagird qəbul olunmuşdu. Həmin ildə Çaykənd və Slavyan kəndlərində də məktəb açıldı.

Bu illərdə açılan məktəblərdən biri də Qazax qəzasının Yuxarı Şıxlı kəndində idi. Burada məktəb 1886-cı il martın 16-da açıldı. İlk dəfə məktəbə 37 şagird qəbul olundu. Şıxlı məktəbi 2 sinifli idi.

90-cı illərdə Şuşa qəzasının Hindarx və Zəngəzur qəzasının Minkənd kəndlərində də icma məktəbləri açıldı.

Beləliklə, keçən əsrin 80-90-cı illərində Gəncə quberniyasında zemstvo və icma vəsaiti ilə 8 ilin ərzində bir və ikisinifli olmaqla 32 kənd məktəbi meydana gəldi. 1892-ci ildə isə Gədəbəy mis zavodu nəzdində bir xüsusi məktəb açıldı.

1895-ci ildə 8 qəzanın daxil olduğu Gəncə quberniya-sında müxtəlif mənbələrdən əldə edilən vəsaitlə idarə olunan 37 kənd ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bundan əlavə, 402 məktəb və mədrəsə, 37 erməni məhəllə məktəbi var idi. Bu məktəblərə sərf edilən vəsaitin böyük əksəriyyətini ianələr və təhsil haqqı kimi yağılan məbləğ təşkil edirdi. Xəzindən buraxılan vəsait çox cüz'i idi.

V.İ.Lenin deyirdi ki, xalq maarifindən bəhs olunduqda Rusiya nəinki yoxsuldur, hətta dilənçidir. Amma mülkədarların idarə etdiyi təhkimçilik dövlətinin xərclərinə gəldikdə, polisə və qoşuna çəkilən xərclərə, fitnəkarlıq və qarətçilik siyasəti xərclərinə gəldikdə isə Rusiya çox zəngindir.

Gəncə quberniyasında zemstvo müəssisəsi yox idi. Lakin Qafqaz canişininin təsdiqi ilə quberniya zemstvo vergisindən yağılan məbləğin bir hissəsini ayrılıb bu vəsaitlə idarə olunan məktəblərə xərclənirdi. Həmçinin XMN-in vəsaiti ilə idarə olunan 3 dövlət məktəbindən də 2-sinin, zemstvo məktəblərindən də 7-sinin təsərrüfat xərcləri kənd icmaları tərəfindən ödənilirdi. Bu məktəblər pulsuz yanacaq və gözətçi ilə, 2 məktəb isə bina ilə tə'min edilirdi. Kənd icma məktəblərindən 23-ü camaatın könüllü öhdəçilikləri hesabına, yalnız biri – Gədəbəy mis zavodu nəzdində olan xüsusi məktəb zavodun vəsaiti və təhsil haqqı kimi toplanan pul ilə idarə olunurdu.

Dövlət zemstvo və icma məktəbləri ilə bərabər, keçən əsrin 80-ci illərindən başlayaraq kəndlərdə savad məktəbləri də meydana gəlməyə və artmağa başladı. Adından mə'lum olduğu kimi, həmin məktəblərdə ancaq oxu və yazı öyrədilirdi. İlk savad məktəbləri Cəbrayıl qəzasının Horadiz (1881-ci ildə), Böyük Bəhmənli (1891), Qarğabazar (1893) kəndlərində açıldı, 1895-ci ildə Horadiz savad məktəbində 52 (o cümlədən 2 qız), Böyük Bəhmənlidə 15, Qarğabazar savad məktəbində isə 33 nəfər (o cümlədən üç qız) oxuyurdu.

XIX əsrin sonlarında Şəki qəzasında və digər yerlərdə də savad məktəbləri açıldı. Savad məktəblərində təhsil pullu idi (hər şagird ildə 1 manat pul, özünün arzusundan və valideynin varından asılı olaraq əmtəə şəklində ianə verirdi), tə'lim hərf heca üsulu ilə aparılırdı.

Savad məktəblərini açanlar əsasən keçən əsrin 50-ci illərində Azərbaycanın bir sıra şəhərlərində müsəlman məktəbi adı ilə təşkil edilmiş məktəbləri bitirənlər, yaxud da ayrı-ayrı şəxslərin yanında xüsusi təhsil alanlar idi.

Azərbaycan, rus, ərəb və fars dillərində təhsil almış bu şəxslərin açdığı məhəllə — savad məktəbləri mollaxanalara nisbətən mütərəqqi hadisə idi. Tə'limin məzmunundakı səthiliyə baxmayaraq savad məktəbləri kəndlərdə ana dilində ümumtəhsil məktəbləri açmaq sahəsində ilkin addımlar idi.

Əsrin sonlarına yaxın kənd məktəblərinin nisbətən sür'ətlə inkişaf etməsi müşahidə olunur. Təkcə 1897-ci ildə Gəncə quberniyasında əsasən əhalinin xərci ilə idarə edilən 18 yeni ibtidai xalq məktəbi açıldı. Bu vaxt quberniyadakı ibtidai məktəblərin sayı 100-ü keçmişdi (102 məktəb).

Gəncə qubernatorunun 1898-ci ilə aid hesabatında deyilir: quberniya daxilində ildən–ilə xalq məktəblərinin artması sevindirici hal olub yerli əhalinin rus dilinə, bu dilin təcrübi əhəmiyyətinə olan tələbatından irəli gəlir.

Yeni məktəblərin açılması xalqın maarifə, təhsilə böyük ehtiyac hiss etdiyini göstərirdi. Lakin xalq məktəblərinin genişlənməsi maliyyə vəsaitindən çox asılı idi. Dövlət isə müxtəlif bəhanələrlə xalq maarifinə pul xərcləməkdən çəkinirdi.

Bu cəhəti açıqcasına e'tiraf edən Gəncə qubernatoru 1899-cu ildə yazırdı: təəssüf ki, vəsait çatışmazlığı çox vaxt xeyirli başlanğıcın

qarşısını alır. Belə ki, bu məsələdə hökumətin hərtərəfli köməyi çox lazımdır. Məktəb açmaq və onu saxlamağın bütün maddi ağırlığını əhalinin üzərinə qoymağın hələ vaxtı çatmamışdır. Çünki nə əhalinin iqtisadi vəziyyəti, ən başlıcası isə təhsilin fayda və əhəmiyyətini dərk etmək dərəcəsi bu xeyirli başlanğıc üçün heç bir əsas vermir.

Əhalinin fanatik hissəsi içərisində bu iş xüsusilə çətin idi. Fanatik ruhanilər rus dilinin yayılmasına manea törədirdi, əhalinin avam hissəsi də toxunulmaz dini fanatizmi müdafiə edirdi. İrsən keçmiş toxunulmaz dini adət və ən'ənələr, həyat tərzi geniş əhali kütləsinin rus dilini, dünyəvi təhsili mənimsəməsini xeyli ləngidirdi.

Bütün bunlara baxmayaraq, əhalinin ümumtəhsil məktəblərə meyl və marağı get-gedə artırdı. Təkcə onu qeyd etmək lazımdır ki, 1900-cü ildə Gəncə quberniyasında əsasən əhalinin köməyi ilə 28 yeni məktəb təşkil edildi. Gəncə qubernatoru müsəlmanların məktəb tə'sisi sahəsindəki ciddi–cəhdindən bəhs edərək yazırdı ki, bir il ərzində bu qədər çox məktəbin açılması Yelizavetpol quberniyasında xalq maarifinin yayılması tarixində misilsiz olmaqla bərabər, həm də fərəhlidir ki, bu məktəblərin xeyli hissəsi müsəlman əhalisinin payına düşür.

Kənd ümumtəhsil məktəbləri Rusiya XMN-nin bir və ikisinifli normal kənd məktəbləri proqramı əsasında işləyirdi. Bu məktəblərin tədris planına rus dili, şəriət, hesab, Azərbaycan dili daxil idi. Bə'zi məktəblərdə elementar həndəsə, hüsnxət, coğrafiya, tarix, təbiət və rəsm də tədris edilirdi. Lakin əsas fikir rus dilinin təcrübi öyrədilməsinə verilirdi. Bə'zi məktəblərdə şagirdlərin əqli, əxlaqi və fiziki inkişafına, tə'limin tərbiyəedici xarakterdə olmasına cəhd edilirdi. Tə'lim səs üsulu ilə aparılırdı.

Kənd məktəblərində istifadə edilən rus və Azərbaycan dili dərslikləri K.D.Uşinskinin «Vətən dili» və «Uşaq aləmi», Volperin «Rus dili», A.O.Çernyayevskinin «Vətən dili», Bunakovun «Əlifba», Kirpiçnikovun «Qrammatika», Martınovun «Müntəxabat» adlı və s. kitablardan ibarət idi. Hesab Yevtuşevskinin «Hesab məsələləri» və Popovun «Məsələlər məcmuəsi» əsasında tədris edilirdi.

Məktəblərin bə'zisində müəllimin istək və bacarığından asılı olaraq, əl əməyi, nəğmə və gimnastika keçilirdi. 1895-ci ilin mə'lumatına görə, ümumtəhsil fənlərindən 27-də nəğmə, 2-də

gimnastika, 3-də bağçılıq, 5-də bostançılıq, 23-də ipəkçilik və 1-də arıçılıq öyrədilirdi.

Məktəblərin bə'zisində ayrıca sənət şö'bəsi açılmışdı.

Tədris fənləri və sənət Dağkəsəmən, Salahlı və Şıxlı məktəblərində daha müvəffəqiyyətlə öyrədilirdi.

Gülablı kənd məktəbində xəttatlığa ayrıca fikir verilirdi.

Kənd məktəblərinin əksəriyyəti dərslik və dərs vəsaitindən, Tiflis, Peterburq və digər şəhərlərdə çıxan qəzet və jurnallardan ibarət kiçik şagird kitabxanasına malik idi. Bir çox məktəbdə əyani vəsait (coğrafiya xəritəsi, qlobus, müxtəlif kolleksiyalar) var idi.

Ətraf kəndlərdən gələn şagirdlərin gecələməsi üçün bə'zi məktəblərin nəzdində priyut (sığınacaq otağı) təşkil edilmişdi. Sığınacaq otağıda qalmaq üçün hər şagirddən ildə 6 manat alınırdı. Belə priyutlar Cəbrayıl, Şıxlı və b. məktəblərin nəzdində var idi. Cəbrayıl məktəbinin sığınacaq evində 1894-cü ildə 35 nəfər şagird yaşayırdı.

Kənd məktəblərində şagirdlərin milli tərkibi əsasən azərbaycanlılardan ibarət idi. Bə'zilərində ermənilər, çox az miqdarda isə ruslar və digər millətlərin nümayəndələri var idi. Şagirdlərin silki tərkibinə gəlincə əksəriyyətini kəndli uşaqları təşkil edirdi. Şagirdlərin demək olar ki, hamısı oğlanlardan ibarət idi. Bə'zi məktəblərdə oğlanlarla birlikdə tək-tək qızlar da oxuyurdu. Lakin bunların sayı çox az idi. Vəndam kənd məktəbinin müdiri Həsən Bağırov 1895-ci ildə yazırdı ki, kəndlilər hələlik qızları rus məktəbinə vermək istəmirlər. Buna baxmayaraq hər bir valideyn öz qızını evdə azərbaycanca oxutmağı özünə borc bilir.

Təhsilin əhəmiyyətini dərk edən bə'zi kənd camaatı qızlar üçün ayrıca şö'bə açmağı xahiş edirdi.

Beləliklə, kənd məktəbləri sayca az olsa da, yeganə ümumtəhsil müəssisəsi olub kəndlilərin qabaqcıl dəstəsinin rəğbətini qazanmışdı. Kənd məktəbləri kəndlərdə yeganə maarif və mədəniyyət ocağı idi.

Qutqaşen kənd məktəbinin müdiri Vaqifbəy Musabəyov 1895-ci ildə yazırdı:

«Məktəbin tə'sis edildiyi 1882-ci ildən bəri kəndlilər arasında 10 nəfərdən çox savadlı adam var ki, bu ancaq məktəbin nəticəsidir».

Yaşlı əhali arasında savadı yaymaq, rus dilini öyrətmək üçün bir sıra məktəblərin nəzdində bazar günü məktəbi və axşam sinifləri

təşkil edilirdi. Bu cəhətdən Dağkəsəmən məktəbi fərqlənirdi. Burada işləyən müəllimlərin təşəbbüsü ilə 1887-ci il noyabrın 1-də yaşlı müsəlmanlara rus dilini öyrətmək üçün axşam sinifləri açılmışdı. Bu cəhəti xüsusi qeyd edərək QTD-nin popeçiteli 1887-ci ildə yazırdı ki, burada indi yaşlı gənclərdən 8 nəfəri sə'ylə təhsil alır.

Digər kəndlərdə də bazar günü məktəbləri təşkilinə təşəbbüs edilirdi.

Kənd məktəbləri kənddə mədəni–maarif işi ilə bərabər səhiyyə işinin inkişafına da müsbət tə'sir edirdi. Bu məktəblərin bə'zilərində işləyən mütərəqqi müəllimlər hətta həkimlik vəzifəsini də öhdəsinə götürür, məktəbdə bə'zən «aptek» açırdılar. Belə «aptek»lərdən biri 1892-ci ildə Ağcabədi kənd məktəbi nəzdində təşkil edilmişdi. 1883-cü ildə Gəncə quberniya məktəblərini gəzən inspektor Ağcabədidə olarkən kəndlilər həmin məktəbin müdiri Ə.Muxtarova təkcə müəllim kimi deyil, həm də həkim əvəzində onlara xeyirli məsləhət verdiyinə və kömək etdiyinə görə öz təşəkkürünü bildirmişdilər. Həmin «aptek»dən ətraf kəndlər də istifadə edirdi.

1891-ci ildən Ağcabədi kənd məktəbi nəzdində həm də meteoroloji stansiya açılmışdı. Məktəbin müdiri Ə.Muxtarov tərəfindən atmosfer yağıntısı üzərində aparılan aylıq müşahidələr Peterburqa—Baş fizika rəsədxanasına göndərilir və orada çıxan illik jurnalda dərc edilirdi.

Kənd məktəblərində çalışan elm–fənn müəllimləri XIX əsr Azərbaycan müəllimlərinin böyük bir dəstəsini təşkil edirdi. Bunlar əsasən Qori və qismən İrəvan müəllimlər seminariyalarının, Tiflis müəllimlər institutunun, Stavropol və Tiflis Gimnaziyalarının, həmçinin qəza və şəhər məktəblərinin mə'zunları idilər. Şəriət müəllimlərinin bir hissəsi Şamaxı və Şuşa mədrəsələrini, sənət, kənd təsərrüfatı və əmək müəllimləri isə Gəncə Mixaylovski sənət məktəbini bitirənlər idilər.

Məqalə «Azərbaycan məktəbi» jurnalının 1970-ci il tarixli, 2-ci sayında (s.72–78) çap olunmuşdur.

ŞAMAXI MƏCLİS MƏKTƏBİ

M.F.Axundov, H.Zərdabi və onların məslək ardıcıllarının ana dili tə'limi ideyası uğrunda mübarizəsi nəticəsiz qalmadı. Bu ideya fars və ərəb dillərində köhnə ruhani təhsili görmüş ziyalılara da az–çox tə'sir göstərərək onların müəyyən qismində xalq maarifinə və mədəniyyətə meyl və rəğbət oyadırdı. Köhnə təhsil görmüş ziyalılardan bir qrupu elm və təhsil sahəsində müasirliyə meyl edir, bə'ziləri isə hətta ruhani təhsilinin əleyhinə çıxaraq müasir təhsil və tərbiyə, ana dilli məktəb uğrunda mübarizə aparırdılar. Bu qrup ziyalılar rus dilində təhsil almamalarına baxmayaraq, mütərəqqi rus ədəbiyyatı və mədəniyyətinin tə'siri ilə ana dilində qiymətli bədii əsərlər yazırdılar. Onlar rus məktəblərinin mütərəqqi təcrübəsindən geniş istifadə etməyə, öz həmvətənləri içərisində rus dilini, rus və dünya mədəniyyətini yaymağa çalışır, özlərinin açdıqları milli məktəblərin tədris planına rus dilini də daxil edirdilər.

Bu sahədə ilk mühüm addım S.Ə.Şirvaniyə məxsusdur. S.Ə.Şirvaninin adı ilə bağlı olan Şamaxı məktəbinin əsası 1874-cü ildə qoyulmuşdur.[1] Əvvəllər Şamaxı qəza məktəbi nəzdində fəaliyyət göstərən bu məktəb az sonra şəhərin azərbaycanlılar yaşayan hissəsinə köçürülmüşdür. Bu vaxt məktəbdə, əsasən, Azərbaycan və rus dilləri, hesab tədris edilirdi. Azərbaycan dili Şamaxı qəza məktəbinin Azərbaycan dili müəllimi, sonralar «Ziya» qəzetinin redaktoru Camal Əfəndi, rus dili və hesab isə erməni xüsusi məktəbinin müəllimi (sonralar Şamaxı məktəbinin inspektoru) Pirbudaqov tərəfindən məccani olaraq tədris edilirdi.

Heç bir yerdən köməyi olmayan bu məktəbin maddi vəsaitini yaxşılışdırmaq və onun işini daha faydalı etmək üçün məktəbin rəhbərləri Bakı ruhani (sünni) məclisinə müraciət edərək onu özünün himayəsinə almağı və məktəbi «məclis məktəbi» adlandırmağı təklif etdilər. Məclis həmin təklifi qəbul edərək məktəbi öz himayəsinə götürdü və məktəbin faydası üçün ianələr toplamağa sə'y etdi. Lakin bu, gözlənilən nəticəni vermədi. Buna baxmayaraq hər iki müəllimin sə'yi nəticəsində məktəb yaxşı vəziyyətdə olub, 60 şagirdə malik

[1] Bax: Gürc. SSR MDA, f. 422, s. 1, iş № 15221, v. 1-3; iş № 15136, v. 1; «Qafqaz» qəzeti, № 188, 1881-ci il.

idi.[1] Bir il yarıma qədər həmin məktəbdə işlədikdən sonra Camal Əfəndinin Tiflisə getməsi ilə əlaqədar olaraq onun əvəzinə Şamaxı şəhər məktəbinin Azərbaycan dili müəllimi S.Ə.Şirvani də'vət olundu. Az sonra Pirbudaqovun da Şamaxıdan getməsi ilə əlaqədar olaraq məktəbin hamiliyi bütünlüklə S.Ə.Şirvaninin üzərinə düşdü. Özünün maddi vəziyyətinin ağırlığına və məktəbi məcani idarə etməsinə baxmayaraq, Seyid Əzim ömrünün sonunadək həmin məktəbdə çalışmış və unudulmaz irs qoymuşdur. Məktəb maddi çətinliklərə baxmayaraq, məhz onun dövründə daha da şöhrət tapmış və Azərbaycan məktəb tarixinə S.Ə.Şirvaninin ana dilli məktəbi kimi daxil olmuşdur.

S.Ə.Şirvaninin məktəbi özünün zahiri görünüşü, tədris planı və proqramı ilə yeni tipli məktəb idi. Hər şeydən əvvəl bu mollaxana deyildi. Uşaqlar iki dizi üstə deyil, skamyalarda otururdular. Dərs otağında yazı taxtası var idi. Hər saatda 10–15 dəqiqəlik tənəffüs e'lan edilir, uşaqlar küçəyə buraxılırdı. S.Əzimin müasiri, məşhur pedaqoq H.Mahmudbəyovun (1864–1929) yazdığına görə "məzkur məktəb Azərbaycan və farsi olmaq üzrə iki şö'bədən ibarət idi".[2]

Burada şəriətdən əlavə Azərbaycan, rus, ərəb və fars dilləri, hüsnxət və rəsmxət, öyrədilirdi, tarix, coğrafiya, hesab və ərəb dilini S.Əzimin özü, rus dili, hesab, hüsnxət və s. fənləri isə şəhər məktəbinin VI şö'bəsinin tələbəsi Cəfər Nəsibbəyov və şəhər məktəbinin müəllimi Teymur Axundov tədris edirdi.[3]

1877-ci ildə «Əkinçi» qəzetində dərc etdirdiyi şe'rlərindən birində Şirvanda məktəb açılmasında və orda dörd dildə dərs verildiyindən bəhs edən Seyid Əzim deyirdi:

«İndi Şirvanda açmışıq məktəb,
Dərsimiz rusu, türkü, farsu, ərəb.
Zəhmətim çoxdu heç nə'fim yox,
Leyk haqqa ümidvaram çox
Kim bu zəhmətlər olmaya zaye
Bəlkə bu macəra ola şaye».

[1] Bax: Xuüesov İ.M. Medjlisskaə şkola v Şemaxi, qaz. «Kavkaz», 15 iölə 1881, № 188
[2] Bax: Müasirləri Sabir haqqında, Bakı, 1962, səh. 153.
[3] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 2859, v. 5 arx.

S.Əzimin Şamaxı məktəbi o vaxtlar ümumi təhsil fənlərinin, xüsusi ana dilinin tədris edildiyi ilk nümunəvi Azərbaycan məktəbi idi.

Məktəbin tədris planında ana dili əsas yeri tuturdu. Məhz ana dilinin öyrədilməsinə görə bu məktəb Azərbaycan məktəb tarixində ilk ana dilli məktəbi hesab edilir.

Rus dilinin tədris edilməsi bir tərəfdən o dövrdəki mövcud qanunlardan irəli gəlirdi. Belə ki, mövcud qanuna görə hər hansı bir yeni məktəb açmağa o şərtlə icazə verilirdi ki, orada rus dili də tədris edilmiş olsun. Digər tərəfdən isə S.Əzimin özü də rus dilinin öyrənilməsi zəruriyyətini nəinki lazım bilir, həm də onu təbliğ edirdi.

Ana dili və rus dili ilə bərabər, ərəb və fars dillərinin tədris planına daxil edilməsi isə onunla əlaqədar idi ki, o vaxtlar hələ də ərəb və fars dilləri Azərbaycanda el və ədəbi dil kimi öz nüfuzunu saxlayırdı. Klassik Şərq ədəbiyyatı ilə tanışlıq üçün də bu dillər böyük əhəmiyyət kəsb edirdi. Lakin bununla belə S.Əzimin məktəbi orada ərəb və fars dilləri tədris edildiyinə görə deyil, ana dili və rus dili öyrədildiyinə görə məşhurlaşdı.

Seyid Əzim məktəbinin meydana gəlməsi və məşhurlaşması onun həmfikirlərini sevindirdi. «Əkinçi»nin İrəvan müxbirlərindən olan Hacı Seyid Rza Əmirzadə (1848–1908) bu hadisədən fərəhlənərək yazırdı:

«Biz eşitdik əhaliyi — Şirvan
Uçqolla eləyibdilər salian
Şükür qıldıq xudayi — mənnanə
Oldu tofik əhli — Şirvan
Şiə və sünni cəm olublar tamam
Eləyiblər bu xeyir işə iqdam».[1]

Ana dili və xüsusilə rus dili tədris edildiyinə, həmçinin yeni üsul tətbiq edilməsinə görə çox keçmədən bu məktəb bə'zi mürtəce ruhanilərin hücumuna mə'ruz qaldı. Ruhanilər öz uşaqlarını bu məktəbə göndərənləri, məktəbə maddi yardım edənləri tə'qib etməyə başladılar.

S.Əzimin məktəbindən bəhs edən Seyid Hüseyn yazırdı:

[1] «Əkinçi» qəzeti, № 6, 1877.

«Hacı Seyid Əzim bu məktəblə Şamaxıya bir yenilik gətirdi. Şamaxı kimi mühafizəkar və mütəəssib bir mühitdə bu yenilik çox da hüsni–təvəccöhlə qarşılanmadı. İstər Şamaxının bə'zi mollaları, istər bazar əsnafı onun ziddinə danışmağa başlamışdılar. Ancaq Hacı Seyid Əzim çox cəsur bir adamdı. O, bir tərəfdən mollalarla mübahisəyə girişib onları sükuta məcbur etdiyi kimi, o biri tərəfdən bir qisim adamları da çox kəskin olan həcvləri ilə hədələyirdi. Bununla bərabər, Hacı Seyid Əzimin arxası da möhkəm idi. O, kimsənin hücumundan da qorxmurdu. Odur ki, Hacı Seyid Əzimin məktəbi böyük bir şöhrət qazandı».

Bu şöhrətin nəticəsi idi ki, Şamaxının bə'zi mühafizəkar adamları belə öz uşaqlarını mollaxanaya deyil, məhz S.Əzimin məktəbinə qoymağa başladılar. Dövrün mühafizəkar şəxslərindən biri olan Məşədi Zeynalabdin öz oğlu Ələkbəri (Sabiri) məhz mollaxanadan çıxarıb S.Əzimin məktəbinə qoymuşdu. Az müddət ərzində Seyid Əzimin məktəbi təkcə Azərbaycanda deyil, cəmi Zaqafqaziyada məşhurlaşdı. Mütərəqqi dərs üsuluna malik olan Şamaxı məktəbi maarif rəhbərlərinin də nəzərini cəlb etdi. Aqılmasından iki il sonra, 1876-cı ildə bu məktəbin vəziyyətilə tanış olmaq üçün Şamaxıya gələn Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktoru Seyid Əzimin dərslərinə qulaq asmış və onun pedaqoji ustalığını gördükdən sonra QTD-nin popeçitelinə yazmışdı: «Yuxarı sinif şagirdləri ilə Hacı Mir Seyid Əfəndi fars dili dərslərini yüksək səviyyədə keçir: əvvəlcə özü «Gülüstan»dan balaca bir hissəni oxudu, sonra şagirdlərə oxutdu,sözlərin mə'nasını soruşdu və sual–cavab vasitəsilə uşaqlara çatdırdı; həmin hissədə hər sözün, cümlənin, atalar sözlərinin mə'nalarını başa salıb nəql olunmasını şagirdlərdən tələb etdi. Cavab verərkən uşaqlar özlərini tə'rifəlayiq aparırlar. Müəllimin sualına cavab vermək üçün əlini qaldırmaqla icazə istəyib ayağa qalxan uşaq çox sakit halda tələsmədən danışırdı. «Gülüstan»dan diqtə edilən cümlələrdə ancaq bir nəfər bir səhv buraxmışdı»[1]. QTD-nin popeçiteli Xalq məktəblər direktoruna cavab məktubunda «Şamaxı məclis məktəbinin müəllimi Hacı Mir Seyid Əfəndinin faydalı fəaliyyətinə görə popeçitelin ona təşəkkür e'lan etdiyini bildirməyi» xahiş edirdi.

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 916, v. 517.

S.Əzimin məktəbində ana dilində şe'r oxunmasına xüsusi fikir verilirdi. Şagirdlərin öz vaxtlarının çoxunu şe'r oxumağa həsr etmələri göstərir ki, Şirvani onları bə'zən ana dilində şe'r yazmağa həvəsləndirirdi. Sinifdə fars dilindən ana dilinə şe'rlər yazırdılar. Şagirdlər içərisindən Sabir kimi talantlı şair çıxması da məhz bununla əlaqədardır.

S.Əzimin məktəbi yeni üsullu məktəb idi. Burada ana dili tə'limi, köhnə hərf-heca üsulu ilə deyil, yeni üsul ilə, «Ümumi–cədid» ilə aparılırdı. S.Əzim yeni üsulu təcrübi olaraq tədbiq etməklə bərabər onu təbliğ edir, yeni əlifba düzəltməyi, uşaqlara «Əlifbeyi–cədid» ilə dərs deməyi lazım bilirdi.

O şe'rlərindən birində deyirdi:

«Deyirlər ki, üfunət eyləyibdir beyzeyi-islam.
Gərək rəf'i-üfunətçün edək bu dərdə dərmani.
Bina tə'limi-ətfal əlifbayi-cədid etsin.
Götürsün müşkülatı, zahir etsin rəsmi-asani.
Gərək tazə üsul üzrə açılsın cümlə məktəblər,
Gətirmək tazə üslubə gərəkdir köhnə dünyani».

S.Ə.Şirvani ana dili ilə bərabər həyatın tələbindən irəli gələn rus dilinin tədrisinə də böyük əhəmiyyət verirdi. «Puşkin kimi öz zəmanəsinin hər bir həyati hadisəsinə tez cavab verən» (F.Köçərli) S.Əzim böyük məşəqqətlərə baxmayaraq, xalqını oyatmaq, mədəni millətlər cərgəsinə çıxartmaq üçün çalışırdı. Bu məqsəd üçün o öz məktəbinin tədris planına Azərbaycan, ərəb və fars dilləri ilə bərabər, rus dilini də daxil etmişdi. Ərəb dilinin yeganə elm-fənn dili olmadığını və məhz ərəb dilində təhsil almağın vacibliyini irəli sürənlərə qarşı e'tiraz edən S.Əzim oğluna nəsihətlərində deyirdi:

«Çatmayıb şərdən bizə bu xəbər
Ki, ərəbdən səva dil oldu hədər,
Nə ərəbdir xuda, nə rumu, nə zəng,
Nə həbəşdir, nə rusdur, nə firəng».

S.Əzim hər dilin öz yeri olduğunu göstərir, lakin rus dilinə ayrıca fikir verirdi. O, sevimli oğlu Cəfərə etdiyi xeyirxahlıq nəsihətində:

«Kim ki, bəs, bir dil eyləsə hasil,
Oldu bir ne'mətə o kəs vasil.
Cəhd qıl ne'məti-təmamə yetiş,
Elm təhsil qıl, məqamə yetiş.
Ey oğul, hər lisanə ol rağib,
Xassə ol rus elminə talib.
Çün ona ehtiyacımız çoxdur,
Bilməsək dil, əlacımız yoxdur»
deyirdi.

Dövrün cahil adamlarının rus dilini öyrənməyi günah hesab etmələrinə qarşı çıxan S.Əzim şe'rlərindən birində ana dili ilə bərabər rus dilini də öyrənməyin zəruriliyini bir daha göstərərək yazırdı.

«...Biri vacib bizə bilmək vətəndə söylənən
dildir,
Gərəkdir mətləbə biz eyləyək türk ilə ünvanı.
Biri həm rusidir, kim bilməyi bizlərə lazımdır
Ticarətin bilək, həm dərk edək qanuni-divani.
Zəbani-rusi bilmək, ya danışmaq qeyri dillərdə,
Şəriətdə bizə nəhy olmayıbdır, yoxdu bürhanı».

Pedaqoji işdə çalışması, şəhər məktəbinin müəllimləri ilə tanışlığı sayəsində rus dili və ədəbiyyətı ilə təmasda olması onun nüfuzunu artırırdı.

Seyid Əzim özü şəxsən rus dilini öyrənir, rus ədəbiyyatı ilə maraqlanır, tərcümələr edirdi
A.Zaxarov yazırdı:

«Yuxarıda göstərilən mollalardan yalnız biri, molla Hacı S.Ə. (Seyid Əzim–H.Ə.) rus dilində oxuyub-yazmağı bacarır. O, hətta rus ədəbiyyatı ilə maraqlanır. Puşkinin bir neçə şe'rini fars dilinə tərcümə etmişdir. Onun məktəbində arzu edənlər üçün rus dili öyrədilir; müəllim, şəhər məktəbinin altıncı şö'bəsində tatarlardan (azərbaycanlılardan–H.Ə.) olan şagirddir».[1]

Bütün bunların nəticəsidir ki, «heç bir Avropa təhsili almamış bu sadə Şamaxı Seyidinin» (F.Köçərli) açdığı məktəb təkcə Bakı

[1] SMOMİPK, Tiflis, 1890, vıp. 9, 27.

quberniyasında deyil, cəmi Qafqazdakı müsəlman ümumtəhsil məktəbləri içərisində şöhrət qazanmışdı.

QTD-nin popeçiteli 1876-cı ilə aid hesabatında yazırdı:

«Bakı direksiyasının direktoru Şamaxıda olan məclis sünni məktəbinin tə'rifəlayiq olduğunu söyləyir. Burada müəllimlərdən biri müvəffəqiyyətlə rus dili, hesab və hüsnxət tədris edir»[1]. Burada rus dili K.D.Uşinskinin «Vətən dili», hesab isə Yevtuşevskinin «Hesab» kitabı üzrə tədris edilirdi.

S.Ə.Şirvani özünün ağır maddi vəziyyətinə baxmayaraq, məktəbin tərəqqisi üçün daim çalışırdı. Şairin müasiri, görkəmli pedaqoq H.Mahmudbəyov «Uzaq keçmişlərdən əski xatirələr»ində yazır ki, S.Əzimin sə'yi və fəaliyyəti sayəsində «məktəb müntəzəm və gözəl şəklə girmiş; dərslərinin düzgün və müntəzim getməsilə məktəb az zaman içində gərək mütəşəbbüslərin, gərək sairlərinin diqqətlərini cəlb ilə e'tibarlarını qazanmağa müvəffəq olmuşdu. Seyidin yaxın dostlarından beş-altı nəfər tərəfindən məktəbin ziyarət edilməyən günü yox idi.

Gələnlər saatlara son siniflərdə otururlar, Seyidin gözəl bir tərzi-tədris ilə verdiyi fars dərslərini dinlərlər; cocuqların cəld və çapuq cavabları ilə maraqlanardılar. Məktəb cocuqları arasında ən çox diqqəti cəlb edən zəki və cəld cocuq Sabir idi»[2].

S.Ə.Şirvaninin Şamaxı məktəbində təhsil əvvəllər pulsuz idi. Məktəb bir qrup ziyalıların və dövlətlilərin maddi yardımı ilə idarə edilirdi. Sonralar S.Əzimlə mürtəce ruhanilər arasında meydana gələn mə'lum ziddiyyət nəticəsində məktəbə edilən maddi kömək tükəndi. S.Əzim əvvəlcə maddi yardım üçün Bakı-Dağıstan xalq məktəbləri direktoruna müraciət etdi. Direktorluğun işə qarışması və həmin məktəbə öz köməyini davam etdirməsini müsəlman məclisindən xahiş etməsi yenə də nəticəsiz qaldı. Doğrudur, 30 nəfər məclis üzvünün hər biri məktəbin xeyrinə ayda bir manat pul verəcəyinə qol çəkdi, ancaq heç kəs və'dəni yerinə yetirmədi[3].

Başqa bir sənəddə, Bakı-Dağıstan xalq məktəblər direktorunun 1877-ci ilə aid hesabatında deyilirdi: « Burada yeganə müsəlman

[1] Sirkulyar. KUO, № 7 –8, 1877, əlavə, QTD popeçitelinin 1876-cı ilə aid hesabatı, 21; na 1878 q., Tiflis, 1877 q., 316.
[2] Müasirləri Sabir haqqında, Bakı, 1962, 153-154.
[3] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 916, v. 230.

məktəbinin meydana gəlməsi elə bir hadisədir ki, dövlətin mükafatına layiq görülməlidir. Həm də ki, Hacı Seyid heç bir yerdən heç nə almır və ona heç kimin köməyi dəymir»[1].

S.Əzim məktəbi saxlamaq üçün cüz'i də olsa, təhsil haqqı tətbiq etməyi daha üstün tutdu. Təhsil haqqının miqdarı şagirdin valideyninin varından asılı idi. 1877-ci ildə hər şagirddən həftədə dörd, beş və on qəpik[2], 1887-ci ildə isə 15, 20, 25 qəpik miqdarında təhsil haqqı alınırdı[3]. Şagirdlərin üçündən təhsil haqqı alınmırdı.

Əlimizdə olan mə'lumata görə müxtəlif illərdə şagirdlərin sayı 30 ilə 52 arasında tərəddüd edirdi.

S.Əzim öz məktəbi ilə yanaşı Şamaxı şəhər məktəbində də müəllimlik edir və orada da Azərbaycan dilinin tədrisinə böyük əmək sərf edirdi. O, şagirdlərə Qur'an və şəriət kitabları əvəzinə özünün müasir ruhda yazdığı şe'rləri və Şərqin böyük klassiklərindən olan Sə'di, Hafiz və başqalarından etdiyi tərcümələri oxudurdu.

Ana dilində dərslik olmadığından S.Ə.Şirvani Sə'dinin «Gülüstan» və «Bustan» əsərlərindən, «Ziynətül-məcalisdən» və başqa fars mənbələrindən tərbiyəvi əhəmiyyəti olan bədii parçaları Azərbaycan dilinə tərcümə edir və özü də kiçik və maraqlı şe'rlər yazıb uşaqlara oxuyurdu. O, bir müddət bu qayda ilə dərs verdikdən sonra uşaqlara oxutduğu həmin parçalardan bir dərslik tərtib etmişdi. H.Zərdabiyə göndərdiyi məktublarından birində Şirvani yazırdı:

«...O biçarə tifilin (oğlu Cəfəri nəzərdə tutur–H.Ə.) təbiətindən vahiməni götürmək üçün öz türki lisanımızda (Azərbaycan dilində–H.Ə.) çox asan ibarələrlə bir türki kitab nəzm etmişəm, haman kitabdan bu bir neçə ə'şar ki, bundan sonra yazılacaq yazıb xidmətinizə irsal eylədim ki, ta çap edəsiniz ki, Sizin qəzetin məzmununda olan mətləblərə münasibdir»[4].

Başqa bir məktubunda isə yazırdı: «Əgər Sizin qəzetin hürüfatı ilə çap olsa məsləhətdir. Çünki çox yaxşı, aydın oxunan xətdir. Təvəqqə edirəm ki, əgər vaxtınız olsa, bu barədə mənə cavab yazasınız»[5].

[1] Yenə orada, v. 299.
[2] Yenə orada, iş 834, v. 67.
[3] SMOMİPK, Tiflis, 1890, vıp. 9, otd, 11, 26.
[4] H. Zərdabinin arxivi, № 3, İNV. № 179 (7676).
[5] Yenə orada, inv. 178.

S.Ə.Şirvaninin dərsliyə daxil etdiyi şe'rlərindən bir neçəsi « Əkinçi»də dərc edilmişdir.

S.Ə.Şirvani həmin kitabı çap olunmaq üçün 1878-ci ildə QTD-yə təqdim etmişdi.

Bakı–Dağıstan məktəblər direktoru QTD popeçitelinə göndərdiyi 8 iyul 1878-ci il tarixli 339 [1]-li məktubunda yazırdı:

«Əgər bu vəsait bəyənilib çap edilərsə, Hacı Seyid Əzim Seyid Məmmədov bu kitabdan əldə etdiyi pulu onun tərəfindən çox çətinliklə saxlanılan və maddi ehtiyacı olan Şamaxı məclis məktəbinin idarə olunmasına sərf etmək fikrindədir»[1].

Mövcud qanuna görə tədris vəsaitləri yalnız Rusiya XMN-in Elmi Komitəsi tərəfindən qəbul edilib bəyənildikdən sonra onun çap olunub məktəblərdə istifadə edilməsinə icazə verilirdi.

Seyid Əzimin həmin dərsliyinin əlyazması müzakirə üçün QTD popeçiteli tərəfindən 1878-ci il avqustun 7-də 2658 [1]-li məktub ilə RXMN departamentinə, oradan isə DİN-in ruhani işlər Departamentinə göndərildi[2].

DİN-in ruhani işlər Departamenti bu əsəri nəinki bəyənib qəbul etdi, əksinə, hökumət üçün zərərli hesab edərək onu rədd etdi. DİN-nin XMN-yə göndərdiyi 1879-cu il 16 aprel tarixli 1302 [1]-li cavab məktubunda deyilirdi:

«Həmin əlyazmasına aid alınan rə'ydən görünür ki, onun müəllifi Seyid Məmmədov həmin əsərdə tam bir qayda təklif edir ki, bunlar gələcək Rusiya vətəndaşlarının təhsilinə olan görüşünə və inamına siyasi cəhətdən pis tə'sir edə bilər». Bütün bu mülahizələrə görə S.Əzimin həmin dərsliyinin çap olunmasına icazə verilmədi. Onun dərsliyinə verilən rə'y hakim dairələrdə ona qarşı şübhə doğurdu.

Bakı–Dağıstan Xalq məktəbləri direktorunun 1879-cu il iyunun 15-də QTD-nin popeçitelinə yazdığı 891[1] li məxfi raportunda deyilirdi: «Xaricilərin dini üzrə ruhani işlər Departamentinin rə'yinin surətini alarkən mən Şamaxı şəhər məktəbinin inspektoruna təklif etdim ki,... Şamaxı şəhər məktəbinin müəllimi Hacı Seyid Əzim Məmmədovu səbəbini e'lan etmədən muzdla tutulma vaxtı qurtararkən, iyulun 1-dən e'tibarən işdən kənar etsin, sentyabr

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 1026, v. 1 arx.
[2] Yenə orada, s. 1, iş № 1026, v. 2-3.

ayından isə onu siyasi cəhətdən daha sədaqətli olan başqa müəllimlə əvəz etsin»[1].

Hökumət nəzərində siyası cəhətdən e'tibarsız və sədaqətsiz göründüyü üçün Seyid Əzim şəhər məktəbində müəllimlikdən azad edildi. Lakin az sonra ərizəsi və Şamaxı müsəlman məclisinin tə'kidilə, həmin il iyulun 11-də QTD popeçitelinin 2918 [1]-li tə'liqəsi ilə o, öz yerində saxlanıldı[2]. Lakin onun fəaliyyəti məhdudlaşdırıldı. Onun dərsliyi isə özünün sağlığında çap üzü görmədi. Buna baxmayaraq həmin dərsliyin materiallarından A.O.Çernyayevski özünün «Vətən dili» dərsliyində istifadə etmişdir.

S.Ə.Şirvaninin tərtib etdiyi dərslik haqqında F.Köçərli aşağıdakı mə'lumatı verir: «Mərhumun tərtib etdiyi kitabçadan bir nüsxəsi öz dəsti-xətti ilə yazılmışdır. Sabiqdə müsəlman şö'bəsinin inspektoru olan mütəvəffa Çernyayevskiyə göndərilmişdi. Həmin hekayələrdən bir neçəsini Çernyayevski öz «Vətən dili» kitabına salmışdır. Mərhumun Çernyayevskiyə göndərdiyi məcmueyi ə'lan bizdədir. Məcmuə üç dəftərdən ibarətdir. Əvvəlinci dəftərdə yazılıbdır Şeyx Sə'dinin «Gülüstan» və «Bustan» kitablarından və bə'zi hükəmanın əsərlərindən sadə və açıq türk (Azərbaycan–H.Ə.) dilinə tərcümə olmuş nəsihətamiz hekayələr, ikinci dəftər həmçinin bu qisim hekayələrdən və 51 öyüd və nəsihətlərdən əmələ gəlir. Üçüncü dəftərin mündəricatı nəzm ilə yazılmış əxlaq və ətvara dair təmsillərdən ibarətdir. Bunlardan əlavə bir para xırdaca məzhəkələr və gülməli hekayə həmin dəftərə yazılıbdır ki, onların hissəsi isə özləri tə'lim üçün yaramaz. Bu məzhəkələrdən və gülməli hekayələrdən başqa, üçüncü dəftərdə bir neçə gözəl qəzəl və aşura günü baş çapmaq barəsində Qudyal sakini kapitan hadi təxəllüsə nəzm etdiyi cavab və bir para qit'ələr və rübaiyyat yazılmışdır»[3].

S.Ə.Şirvaninin çox mühüm xidmətlərindən biri onun ana dili proqramı tərtib etməsidir. 1886-cı ilə qədər cəmi Qafqazdakı dövlət məktəblərində öyrədilən yerli dillərin, o cümlədən Azərbaycan dilinin proqramı yox idi. Bu dillərin tədrisinin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə QTD-nin popeçiteli K.Yanovski 1886-cı il mayın 10-da bütün məktəblər direksiyalarına sərəncam verərək

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş №15136, v. 5 və arx.
[2] Yenə orada, v. 9.
[3] F. Köçərli. Azərbaycan ədəbiyyatı tarixi materialları, II cild, Bakı, 1926, səh. 40.

qarşıdakı yay tə'tili zamanı yerli dil müəllimlərinin proqram tərtib etmələrini, həmin proqramları məktəblərin pedaqoji şuralarında müzakirə və təsdiq edildikdən sonra QTD-nə göndərilməsini tapşırdı. Popeçitelin bu sərəncamı ilə əlaqədar olaraq Bakı, Gəncə, İrəvan, Tiflis, Nuxa, Quba, Göyçay, Kürdəmir, Salyan və b. yerlərdə dövlət məktəblərinin Azərbaycan dili müəllimləri proqram tərtib etdilər. O cümlədən Şamaxı şəhər məktəbinin müəllimi S.Əzim də öz məktəbi üçün proqram tərtib etdi. Bu proqram həmin il oktyabrın 10-da Şamaxı şəhər məktəbinin pedaqoji şurasında təsdiq edilmiş və oktyabrın 16-da Bakı-Dağıstan məktəblər direksiyası vasitəsilə QTD-yə göndərilmişdi.

Proqramda şəhər məktəbinin ayrı-ayrı siniflərində keçiləcək materiallar ardıcıl, lakin çox qısa şəkildə şərh edilir. Məsələn, birinci sinifdə bütün il boyu əlifba keçilməsi, yazı qaydalarının öyrədilməsi, sadə və mürəkkəb sözlər haqqında mə'lumat verilməsi, hərflərdən söz, sözlərdən isə cümlə düzəldilməsi və s., ikinci sinifdə A.O.Çernyayevskinin «Vətən dili» kitabının (II hissə) oxudulması, əməli yazı qaydalarının, pul hesabının, ərəb rəqəmlərinin mənimsədilməsi, III sinifdən başlayaraq fars dilindən Azərbaycan, Azərbaycan dilindən rus dilinə tərcümələr etdirilməsi və s. göstərilir. Proqram sadədən mürəkkəbə prinsipi ilə tərtib edilmişdir.

Səs üsuluna əsasən tərtib edilmiş bu proqram o zamanlar şəhər məktəbinə tam münasib idi. Cəmi bir vərəqədən ibarət olan bu proqramın əsli hal-hazırda Gürc. SSR MDA-də saxlanılır[1].

S.Əzimin məktəbi təxminən 14 il fəaliyyət göstərdi. Mürtəce ruhanilərin təzyiqi, məktəbin ağır maddi vəziyyəti nəticəsində onun məktəbi 1887-ci ildə bağlandı. QTD popeçitelinin 1887-ci ilə aid hesabatında deyilir:

«İl ərzində 8 məktəb öz fəaliyyətini dayandırmışdır... Bakı quberniyasında Şamaxı şəhərində məclis şiə məktəbi»[2]. S.Əzimin məktəbi açılarkən hansı müvəffəqiyyətə və nüfuza malik idisə, bağlanan vaxt daha artıq müvəffəqiyyətə və nüfuza malik idi. Çox maraqlıdır ki, bağlanmasından bir il əvvəl, 1886-cı il martın 30-da bu məktəbdə olan Bakı quberniya xalq məktəblər direktorunun

[1] Gürc. SSR MDA, f. 422. S. 1, iş № 2909, v. 350.
[2] Sirkulyar, KUO, № 12, 1887, əlavə, QTD popeçitelinin 1887-ci ilə aid hesabatı, 162.

inspektoru məktəbin ümumi vəziyyətindən və şəxsən S.Əzimdən çox razı qalmış və yüksək fikirlər söylənmişdir.

S.Əzimin doqquz illik[1] əvəzsiz və yorulmaq bilmədən çəkdiyi zəhməti və cəhdi tə'rifəlayiq hesab edən inspektor onun mükafatlandırılmasını lazım bildi.

O, yazırdı: «Mənim fikrimcə, onu ciddi-cəhdinə görə sinədə daşınan qızıl və ya gümüş medal ilə təltif etmək lazımdır»[2]. Həmin sözlərin kənarında QTD-nin popeçiteli: «təklif edilsin. Müəyyən edilmiş formada lazımi siyahi təqdim edilsin» qeydini etmişdir.

Beləliklə, S.Ə.Şirvani uzun müddət qüsursuz işlədiyinə görə ölümündən bir az əvvəl 1886-cı ildə Stanislav lentində sinədə daşınmaq üçün üzərində «Sə'y göstərildiyinə görə» sözləri yazılmış gümüş medalla təltif edildi[3].

Nəticə e'tibarilə qeyd edək ki, S.Əzimin ana dilli məktəbi, onun yeni məktəb uğrunda gərgin və ardıcıl mübarizəsi XIX əsr Azərbaycan məktəb tarixində mühüm yer tutur. Unudulmaz maarifçinin gərgin əməyi və fəaliyyəti sonralar Azərbaycanın digər yerlərində də ana dilində yeni məktəblərin açılmasına təkan verdi.

Məqalə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi Əsərlərinin (pedaqoji-psixoloji elmlər seriyası) 1970-ci il tarixli 3-cü sayında (s.3–11) çap olunmuşdur.

[1] İnspektor onun yalnız şəhər məktəbində işlədiyini hesaba almışdır.
[2] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 2859, v. 6.
[3] Bu haqda bax: «Azərbaycan müəllimi» qəzeti, 9 may 1957-ci il, №19.

AZƏRBAYCANDA ORTA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MEYDANA GƏLMƏSİ TARİXİNƏ DAİR (XIX ƏSR)

Azərbaycanda inqilabdan (1920-ci il bolşevik çevrilişi nəzərdə tutulur— red.) əvvəlki ibtidai məktəblərin tarixinə aid az-çox məqalələrə rast gəldiyimiz halda, orta təhsil müəssisələrinin meydana gəlməsinə və inkişafına aid, demək olar ki, nəinki ayrıca tədqiqat əsəri, hətta məqalə belə yoxdur. Rusiya orta məktəblərinin tədqiqatçıları da Azərbaycandakı orta məktəblərə toxunmamışlar.

Rusiyada orta məktəb tarixinin tədqiqinə böyük əmək sərf edən mərhum prof. N.A.Konstantinov «Orta məktəb tarixinə dair oçerklər» adlı kitabında bu cəhəti e'tiraf edərək yazır ki, «...müəllif Qafqaz, Varşava tədris dairələri, Sibir və s. kimi «ucqarların» materiallarına demək olar ki, toxunmamışdır»[1].

Azərbaycan tədqiqatçılarının bə'zi əsər və məqalələrində Azərbaycandakı orta məktəblərə yalnız ötəri toxunulmuş, bə'zən isə təhriflərə yol verilmişdir, Məsələn: «Azərbaycan tarixi»nin 2-ci cildində 1870-ci ildə Yelizavetpol quberniyasının şəhərlərindən olan Gəncədə 3 klassik natamam gimnaziyanın mövcud olduğu göstərilir.[2] Halbuki 1870-ci ildə Gəncə şəhərində cəmi bir klassik natamam gimnaziya var idi ki, o da həmin ilin iyulunda Gəncə qəza məktəbinin bazasında yenicə təşkil edilmişdi.[3]

Həmin kitabda 1895-ci ildə Gəncə quberniyasında orta məktəb olmaq e'tibarı ilə 2 gimnaziyanın olduğu söylənilir.[4]

Halbuki bu vaxt cəmi quberniyada bir gimnaziya mövcud idi. Həmin kitabda 1895-ci ildə Gəncə quberniyasında 5 şəhər məktəbinin fəaliyyət göstərdiyi qeyd edilir. Əslində bu vaxt quberniyada cəmi 3 şəhər məktəbi var idi (Şuşa, Nuxa və Gəncədə).

Tarix elmləri namizədi Sabir Məmmədov «İlk Azərbaycan qız məktəbləri» adlı məqaləsində belə bir səhv müddəa irəli sürərək yazır ki, «1893-cü ildə Bakıda 4 orta məktəb, bir realnı məktəb, bir

[1] Prof. N.A. Konstantinov. Oçerki po istorii sredney şkolı, M., 1947, 5.
[2] «Azərbaycan tarixi», 2-ci cild, Bakı, 1964, 353.
[3] Bax: Gürc. SSR, MDA, f. 5, s. 1, iş № 1861, v. 8; Sirkulyar... KUO, 1870. № 6, 1.
[4] «Azərbaycan tarixi», 2-ci cild, Bakı, 1964, 353.

«Müqəddəs Nina» qız məktəbi, bir marinskaya qız gimnaziyası, bir də Pobedonotsev adına məktəb fəalliyyət göstərirdi».[1]

Əvvələn, 1893-cü ildə Bakıda 4 orta məktəb yox idi. Orta təhsil müəssəsi olmaq e'tibarı ilə yalnız iki məktəb fəaliyyət göstərirdi (Realnı mktəb və qız gimnaziyası).

İkincisi, Pobedonostseva (əslində Pobedonostsev olmalıdır) adına deyil, A.N.Pobedonostsevin təşkil etdiyi klassik progimnaziya kurslu birinci dərəcəli xüsusi məktəbin olduğu qeyd edilməlidir.

Bütün bunlar XIX əsr Azərbaycan məktəb tarixində özünəməxsus yer tutan məktəblərin tədqiq edilməməsindən irəli gəlir.

Azərbaycanda orta təhsil müəssisəsinin təşkili məsələsi keçən əsrin 40-cı illərinə təsadüf edir.[2]

Rusiya XMN sisteminə daxil olan tədris müəssisələrinin ümumi tərkibinə görə hər bir quberniya mərkəzində bir orta məktəb-gimnaziya təşkil edilməli idi. Belə ki, quberniya əhalisinin maarifpərvər hissəsini, əslində isə dövlət qulluqçularının əksəriyyətinin quberniya mərkəzində yerləşdiyindən və qəza mərkəzlərinə nisbətən quberniya mərkəzinin daha çox inkişaf etdiyindən hökumət quberniya mərkəzlərində daha yuxarı məktəb tipi açmağı qanunlaşdırmışdı. Bu nöqteyi-nəzərdən quberniya mərkəzi olan Şamaxı şəhəri (həmçinin İrəvan) Zaqafqaziyada müstəsnalıq təşkil edirdi. Yerli əhali də öz növbəsində qəza məktəbinə nisbətən daha yuxarı tipli məktəb tə'sis edilməsini tələb edirdi.

Orta təhsil müəssisəsinin təşkili qaydalarına aid mövcud qanun və 40-cı illərin inzibati islahatı zamanı Zaqafqaziyada xüsusi tədris dairəsi yaratmaq zəruriyyəti ilə əlaqədar olaraq Tiflis gimnaziyasından əlavə, ikinci bir gimnaziyanın olması lazım bilindi və bunu Xəzər vilayətinin mərkəzi olan Şamaxı şəhərində mövcud qəza məktəbi əsasında tə'sis etmək təklif edildi. Layihəyə görə Şamaxı gimnaziyasının tədris planına rus, Azərbaycan, erməni, ərəb, fars və fransız dilləri, məntiq, riyaziyyat, fizika, tarix, coğrafiya, statistika, rəsm, rəsmxət və hüsnxət daxil idi.[3]

[1] Bax: «Azərbaycan məktəbi» jurnalı, 1968, № 8, 49.
[2] Məqalədə yalnız oğlanlar üçün olan orta məktəblərdən bəhs edilir.
[3] LMDTA, f. 733, s. 82, iş № 64, v. 220 arx.

Hökumətin göstərilən qanuna və əhalinin tələbinə baxmayaraq QTD-nin popeçiteli Semyonov 1852-ci ildə mərkəzi hökumətə yazdığı raportlarından birində Şamaxı şəhərində (həmçinin İrəvanda) gimnaziya tə'sis etməyin hələ vaxtı çatmadığını bəhanə gətirərək, əslində isə xəzinəyə maddi zərər vurmamağı əsas götürərək, imperiyanın qərb quberniyalarında olduğu kimi, bu yerlərdə də gimnaziyanı 5 sinifli quberniya məktəbi ilə əvəz etməyi daha faydalı hesab etdi. 1853-cü il nizamnaməsi ilə Şamaxı qəza məktəbi ali 4 sinifli məktəbə çevrildi.

Beləliklə, XIX əsrin birinci yarısında Azərbaycanda orta məktəb açmaq cəhdi baş tutmadı.

Azərbaycan ərazisində orta təhsil müəssisəsi yalnız keçən əsrin 60-cı illərində meydana gəldi. Azərbaycanda orta təhsil müəssisələrinin meydana gəlməsi gimnaziya və progimnaziyaların 1864-cü il nizamnaməsi ilə əlaqədar idi. Bu nizamnamə mahiyyəti e'tibarı ilə əslində, 1861-ci il kəndli islahatının davamı idi. Mə'lum olduğu kimi, kəndli islahatının ardınca hökumət məhkəmə, idarə, yerli özünü idarə və s. sahələrlə yanaşı, orta məktəbdə də islahat apardı.

Beləliklə, 1864-cü il nizamnaməsi gimnaziyaların ümumi təhsil verən orta məktəblər olduğunu bildirdi. Orta məktəbin silkiliyi aradan qaldırıldı. Bütün silklərə məxsus müvafiq təxmini hazırlığa malik olan uşaqlar orta məktəbə o şərtlə qəbul oluna bilərdi ki, onun təhsil haqqı ödənilsin. Prof. N.A.Konstantinovun göstərdiyi kimi, «bu Nikolay hakimiyyətinin silki-məhdudluq siyasətindən sonra əsaslı dəyişiklik idi». [1]

Gimnaziya və progimnaziyaların 1864-cü il nizamnaməsinə görə Rusiyada 7 illik kursu olan 2 gimnaziya növü müəyyən edildi: 1. Bir və ya iki qədim dilli klassik gimnaziya; 2. Qərbi Avropa dillərini xeyli artırmaqla realnı gimnaziya.

Nizamnaməyə əsasən gimnaziyaların məqsədi burada oxuyan gənclərə ümumi təhsil verməklə bərabər onları universitetə və digər ali ixtisas məktəblərinə qəbul olmağa hazırlamaqdan ibarət idi (§ 1.)

Bununla belə həm nizamnamədə, həm də təcrübədə bu iki müxtəlif tipli gimnaziyanı bitirənlərə heç də eyni hüquq verilmirdi.

Klassik gimnaziyanı bitirənlər universitetlərə tam hüquqla daxil ola bildikləri halda, realnı gimnaziyanı bitirməyə aid şəhadətnamə isə

[1] Bax: N.A. Konstantinov, Oçerki istorii sredney şkolı, M., 1974, 8.

ali ixtisas məktəblərinə qəbul olunmağa heç bir xüsusi hüquq vermir, yalnız nəzərə alınırdı.

Mütərəqqi ictimai dairələri narahat edən məsələlərin belə yarımçıq həlli bir tərəfdən də ümumiyyətlə, 60-cı illərin orta məktəb həyatının xeyli canlanması ilə nəticələndi.

Əhalinin orta təhsilə olan tələbi və 1864-cü il nizamnaməsinin tətbiqi il əlaqədar olaraq 1865-ci il sentyabrın 13-də Bakı ali dörd sinifli realnı progimnaziyası 1867-ci ildə realnı gimnaziyaya çevrildi. Bakı realnı gimnaziyasının tə'sisi ilə Azərbaycanda orta təhsilin (dövlət tərəfindən açılmış rus orta məktəbinin) əsası qoyuldu.

Bakı realnı gimnaziyasının tədrisi planına digər fənlərlə bərabər beş dil (rus, fransız, alman, Azərbaycan və erməni dilləri) daxil idi. (Bax: cədvəl №1.)

1869-cu ildə məktəbin pansionunda yaşayan 50 nəfər dən 26 nəfərini azərbaycanlılar təşkil edirdi.

1871-ci ildə Bakı realnı gimnaziyasının 6 nəfərdən ibarət ilk buraxılışı oldu. İlk buraxılış imtahanlarında şəxsən iştirak edən QTD-nin popeçiteli burada tə'lim–tərbiyə işlərinin təşkilindən çox razı qalmışdı. Bakı realnı gimnaziyasında tə'lim işinin keyfiyyətinin yüksək olmasının nəticəsi idi ki, mə'zunların hamısı müvəffəqiyyətlə imtahan verərək, ali məktəblərə daxil olmuşdu.

Bakıdan sonra Azərbaycanda sayca ikinci orta məktəb Yelizavetpol (Gəncə) şəhərində tə'sis edildi. Çarın 1867-ci il 9 dekabr tarixli «Qafqaz və Zaqafqaziya ölkəsinin idarə olunmasının dəyişdirilməsi haqqında» adlı fərmanı ilə əlaqədar olaraq Zaqafqaziyanın nizibati idarələri yenidən quruldu. 1868-ci ildə Bakı, Tiflis və qismən İrəvan quberniyaları hesabına Yelizavetpol quberniyası yaradıldı. Bu quberniyanın mərkəzi Gəncə şəhəri idi.

Yelizavetpol quberniyasının təşkili ilə əlaqədar olaraq buraya 100-ə qədər rus çinovniklərinin ailəsi köçürüldü. Gəncədə isə orta məktəb olmadığından onlar öz uşaqlarının təhsilində ciddi çətinliklə qarşılaşdılar. Burada mövcud olan yeganə qəza məktəbi öz mahiyyətinə görə yalnız ümumi ibtidai bilik verirdi. Bütün bunlar Gəncədə orta təhsil müəssisəsinin yaradılmasını tələb edirdi.

Cədvəl [1]1. Bakı realnı progimnaziyasının tədris planı (1865-ci il)[1].

Fənlər	Hazırlıq sinfi	Siniflər				Cəmi
		I	II	III	IV	
1. Şəriət: provoslav erməni müsəlman	Ümumi əsaslar üzrə	*2*	*2*	*2*	*2*	*8*
2. Rus dili		*8*	*7*	*4*	*4*	*23*
3. Fransız dili		—	*5*	*4*	*4*	*13*
4. Alman dili		—	—	*5*	*5*	*10*
5. Erməni dili Paralel Azərb. dili		*2*	*2*	*2*	*2*	*8*
6. Riyaziyyat və fizika		*3*	*4*	*4*	*4*	*15*
7.Tarix		—	—	*3*	*3*	*6*
8.Coqrafiya		*2*	*2*	*2*	*2*	*8*
9. Təbiyyat tarixi		*3*	*3*	*3*	*3*	*12*
10. Hüsnxət, rəsm və rəsmxət		*4*	*3*	*1*	*1*	*9*
Cəmi:		***24***	***28***	***30***	***30***	***112***

QTD-nin 1869-cu ilə aid hesabatında deyilirdi: «Yelizavetpol quberniyasının yaradılması ilə əlaqədar olaraq Yelizavetpol şəhərində sakin olan rusların xeyli olduğunu nəzərə alaraq, oradakı qəza məktəbini progimnaziyaya çevirmək zərurəti meydana gəldi».

Gəncə qəza məktəbi 1870-ci il iyulun 1-dən klassik progimnaziyaya çevrildi.[2] Progimnaziyada təhsil müddəti 4 il idi.

Gimnaziya və progimnaziyaların 1864-cü il nizamnaməsi cəmi 7 il qüvvədə qaldı. 70-80-i illərin irtica dövrü orta məktəblərdə də özünü göstərdi. Sinodun ober prokuroru qraf. D.A.Tolstoyun xalq maarif naziri tə'yin edilməsi ilə maarif sahəsində siyasi irtica gücləndi. «Xalq təhsilini iki nazirliyin zərbəsi ilə əzən Tolstoy» (Uşinski) 1864-cü il nizamnaməsinin mütərəqqi cəhətlərini tamamilə

[1] Gürc. SSR, MDA, f. 5. S. 1, ş № 29, v. 7.
[2] Yenə orada.

rədd etdi. Onun ilk tədbirlərindən biri 1864-cü il nizamnaməsini dəyişmək oldu.

İctimaiyyətin ciddi e'tirazına baxmayaraq, 1871-ci ildə gimnaziyaların, 1872-ci ildə isə realnı məktəblərin yeni nizamnaməsi qəbul olundu. Beləliklə də, orta məktəblər klassik gimnaziya və realnı məktəb olmaqla iki yerə bölündü. 1871-ci il nizamnaməsi üzrə bütün oğlan gimnaziyaları yenidən qurularaq klassik gimnaziyaya çevrildi. Gimnaziyalarda qədim dillərin tədrisi gücləndirildi. Gəncləri müasir məsələlərdən ayırmaq, onları siyasi dərnəklərdə iştirak etməkdən, materializmdən uzaqlaşdırmaq bu nizamnamənin — Tolstoy sisteminin başlıca prinsipi idi. 7 sinifdən ibarət olan klassik gimnaziyanın məqsədi gəncləri universitetlərə və digər ali məktəblərə hazırlamaq idi.

Realnı məktəblərə gəlincə burada ümumi təhsil fənləri xeyli sıxışdırılıb, minimuma endirildi. 6 sinifdən ibarət olan realnı məktəblərin məqsədi gənclərə bə'zi texniki biliklər vermək idi. Oranı bitirənlər ancaq ali texniki və kənd təsərrüfatı məktəblərinə qəbul oluna bilərdilər.

Göstərilən nizamnamələr, cüz'i dəyişikliklə Qafqazda, o cümlədən Azərbaycanda da tətbiq edildi. Mövcud natamam orta və ali məktəblər klassik gimnaziya və realnı məktəb olmaqla iki istiqamətdə inkişaf etdi. Bakı realnı gimnaziyası realnı məktəbə, Gəncə progimnaziyası isə klassik progimnaziyaya çevrildi.

Keçən əsrin 70-80-ci illərində təhsil sahəsində çarizmin mürtəce siyasəti orta məktəblərin həm də keyfiyyətcə inkişafını ləngidir, ona ciddi mane olurdu. Bütün bunlara baxmayaraq əhali orta təhsilə cəhd edir, bu məqsəd üçün xüsusi vəsait ayırırdı.

Orta məktəb tələbi Şuşa şəhərində daha güclü idi. Şuşa camaatı 1874-cü ildə orada orta və ya natamam orta məktəb açmağı və bu məqsəd üçün şəhər vəsaitinin 5.000 man. ayırmağı qərara aldı.

Şəhər ictimaiyyətinin Gəncə qubernatoruna müraciətində deyilirdi:

«Vaxtı ilə müsəlman əyalətlərinin əqli mərkəzi olan Şuşa şəhəri son vaxtlar təhsil sahəsində digər şəhərlərdən geri qalır. Bunun səbəbi mə'lum olduğu kimi, maddi rifahı və çiçəklənməsi üçün zəruri olan təhsilə xalqın biganə qalması olmayıb, ondan ibarətdir ki, Şuşada orta məktəb olmadığından xalq öz uşaqlarına müvafiq təhsil verə

bilmir. Uşaqları orta təhsil üçün başqa şəhərlərə göndərmək isə bir sıra çətinliklərlə əlaqədardır».[1]

Şuşalıların bu tələbi Gəncə qubernatoru tərəfindən QTD-nin popeçitelinə göndərildi. QTD-nin popeçiteli şuşalıların tələb və xahişinə nəinki gömək etmədi, əksinə bu təşəbbüsü hələ rüşeym halında ikən boğdu. QTD popeçitelinin 1874-cü ilə aid hesabatında oxuyuruq:

«...Şuşa şəhəri qərar qəbul edərək orada progimnaziya açmağı xahiş etmiş və onu saxlamaq üçün hər il 5.000 man. vəsait verməyi öhdəsinə götürmüşdür. Lakin Şuşa əsasən sənayə şəhəri olduğundan həm də nisbətən çətin olmayan və əsasən təcrübi əhəmiyyət kəsb edən biliklərə daha çox ehtiyac hiss etdiklərindən müsəlmanlar, nə də ermənilərin çoxu çox çətin ki, qədim dilləri həvəslə öyrənməyə məşğul olsunlar».[2]

Bir tərəfdən özünün subyektiv mülahizələrinə əsaslanan, digər tərəfdən isə açılacaq məktəbə əlavə olaraq xəzinədən vəsait xərcləmək lazım gələcəyini nəzərə alan QTD-nin popeçiteli şuşalıların məktəb tələbini rədd etməklə toplanan vəsaiti iki məqsədə: yarısını ianə sifəti ilə kasıblardan olan şuşalıların Şuşa şəhərinin təqaüdçüsü kimi klassik təhsil almaları üçün Gəncə klassik progimnaziyası nəzdində olan pansiona verməyə, digər yarısını isə Şuşada yenicə açılmış üç sinifli şəhər məktəbində əlavə 4-cü sinif açmağa və Bakı realnı məktəbinin pansionunda Şuşa təqaüdçüləri tə'sisinə sərf etməyi təklif etdi.[3]

Orta təhsilə böyük ehtiyac hiss edən şuşalılar, bu təklifi qəbul etmədilər. Onlar şəhərdə natamam orta və ya orta məktəb açmaq cəhdini davam etdirərək, Qafqaz canişini qarşısında xüsusi məsələ qaldırdılar.

Şuşalıların orta məktəb tələbi Azərbaycan maarifçiləri tərəfindən müdafiə edilirdi. H.Zərdabi «Əkinçi» qəzetində Qarabağ əhlinin «öz şəhərində gimnaziya açmaq qəsdinə düşdüyünü» xəbər verməklə «açılan məktəbxanalarda öz dilimizi oxumağı» nəinki lazım bilir, hətta vacib hesab edirdi.[4]

---

[1] Gürc, SSR MDA, f. 416, s. 3, iş № 517, v. 1 arx.
[2] Sirkulyar... KUO, 1875, № 5-6. Otçet popeçitelə KUO za 1874 q., 7.
[3] Sirkulyar... KUO, 1875, № 5-6. Otçet popeçitelə KUO za 1874 q., 7.
[4] Bax: «Əkinçi» qəzeti, № 17 və № 19, 1876-cı il; H. Zərdabi. Seçilmiş əsərləri, Bakı, 1960, 102-103.

Şuşalıların orta məktəb tələbi, bunun üçün müvafiq bina və pul vəsaiti ayırmaq qərarı get-gedə güclənirdi. Əhalinin orta təhsilə ciddi sə'y göstərməsi cəmi Zaqafqaziyada diqqətəlayiq hadisə idi. Gəncə qubernatoru 1878-ci ilə aid hesabatında şuşalıların bu cəhdini yüksək qiymətləndirməyə məcbur olmuşdur.[1]

Şuşada progimnaziya tə'sisi sahəsindəki tələbin nəticəsiz qalmasını görən şəhər əhalisi 1880-ci ildə öz tələblərini dəyişdirərək realnı məktəb açmağı xahiş etdi. Əhalinin tə'kidi və tələbi nəticəsində Gəncə qubernatoru və Qafqaz canişini Şuşada realnı məktəb açmaq tələbini ödəmək məcburiyyəti qarşısında qaldı. Qafqaz canişini 1880-ci il iyunun 30-da Peterburqa, Qafqaz komitəsinə yazırdı:

«Şuşa şəhər sakinlərinin təhsilə olan ciddi-cəhdinə (şəhər məktəbində 400-dən artıq şagirdin oxuması bu cəhdi bir daha təsdiq edir) və şəhər ictimaiyyətinin arzusuna əsaslanan Gəncə qubernatoru Şuşa şəhərində 6 sinifli realnı məktəb açmağı xahiş edir. Şəhər ictimaiyyəti həmin məktəbi müvafiq bina ilə tə'min etməyi və ildə 7500 man. pul ilə kömək etməyi öhdəsinə götürür.[2]

Həmin ilin dekabrında Dövlət Şurası Şuşada 6 sinifli realnı məktəbin açılmasını qərara aldı.[3] Dövlət şurasının qərarı dekabrın 23-də imperator tərəfindən təsdiq edildi.[4]

Beləliklə, 1881-ci il sentyabrın 20-də şəhər ictimayyətinin iştirakı ilə Şuşa 6 sinifli realnı məktəbinin rəsmi açılışı oldu. Şuşa realnı məktəbi ilk dəfə hazırlıq və üç əsas sinifdən ibarət təşkil edildi. Məktəbə ilk dəfə 159 şagird qəbul edildi ki, onlardan 58 nəfəri azərbaycanlı, 91 nəfəri erməni, 10 nəfəri isə digər millətlərin nümayəndələri idi.[5]

1880-ci ildə həmçinin Gəncə progimnaziyasını tam gimnaziyaya çevirmək məsələsi qaldırıldı.

RXMN 1880-ci il oktyabrın 8-də bu məsələyə razılıq verdi.[6] Həmin ilin dekabrında isə Dövlət Şurası Gəncə 4 sinifli progimnaziyasının 8 sinifli gimnaziyaya çevrilməsini qərara aldı.

[1] Gürc. SSR MDA, f. 5, s. 1. İş № 5756, v. 12.
[2] LMDTA, f. 1152, s. 9, iş № 505, v. 2.
[3] Yenə orada, f. 1268, s. 25, iş № 150, v. 10.
[4] Yenə orada, f. 565, s. 2. İş № 5304, v. 6.
[5] Bax: Sirkulyar... KUO, 1881, № 11, 560.
[6] LMDTA, f. 1152, s. IX, iş № 1, v. 22.

1881-ci il martın 16-da həmin qərar imperator tərəfindən təsdiq edildi.[1] 1881-ci ildə Gəncə 4 si-nifli progimnaziyası 8 sinifli tam gimnaziyaya çevrildi. Beləliklə, XIX əsrin sonlarında Azərbaycanda cəmi 3 oğlan orta məktəbi (2 realnı məktəb və bir gimnaziya) var idi.

Orta təhsil sahəsində qıtlıq Bakıda özünü daha çox göstərirdi. XIX əsrin 80–90-cı illərində Bakı şəhərində kapitalist münasibətləri böyük sür'ətlə inkişaf edirdi. Şəhər əhalisinin sayı da durmadan artırdı. Bakıda ikinci bir orta məktəbə böyük ehtiyac hiss edilirdi. Bakı qubernatoru 1884-cü ilə aid hesabatında yazırdı ki, Bakı şəhərinin sür'ətli inkişafı heç olmasa bir klassik progimnaziya açmağı və onu tədricən genişləndirməyi tələb edir.[2]

XIX əsrin sonlarında Bakıda orta məktəb tə'sisi məsələsində 2 fikir hökm sürürdü. Klassik gimnaziyamı açmaq, yoxsa orta texniki məktəbmi tə'sis etmək? Şəhərin müxtəlif idarə rəhbərləri — çinovniklər öz uşaqlarına universitet təhsili vermək üçün ilk növbədə klassik gimnaziyanı lazım bilir və bunu möhkəm müdafiə edirdilər. Fabrik-zavod və neft–mə'dən sahibkarları isə sənayenin artmaqda olan tələbatını əsas götürərək, texniki məktəb açmağı tələb edirdilər. Hər iki məktəbin tərəfdarları bu və digər məktəb tipinə üstünlük verməklə, şübhəsiz ki, öz xüsusi mənafelərini güdür, öz sinfinin və mənsub olduğu silkin nöqtəyi–nəzərini müdafiə edirdilər.

Nəticədə Bakıda klassik gimnaziya açmaq fikri üstün gəldi. Bu fikri şəhər idarə başçılarından əlavə gimnaziyadan məhrum olan qonşu Dağıstan və Zakaspi vilayətləri də müdafiə edirdi. Zakaspi və Dağıstan vilayətlərindən, Bakı quberniyasından və Gəncə quberniyasının şərq hissəsindən gələn külli miqdarda ərizələr Bakıda klassik gimnaziya açmağın zəruriliyini tələb edirdi.

Bakıda yeni orta məktəb açmaq məsələsində şəhər idarəsilə RXMN arasında olan çoxlu yazışmalar uzun müddət nəticəsiz qaldı. Əhalinin orta təhsil tələbi isə bununla nəticələndi ki, Bakı realnı məktəbinin müəllimi A.N.Pobedonostsev tərəfindən şəhər vəsaitinin köməyi ilə 1891-ci ildə 6 sinifli klassik progimnaziya kurslu birinci dərəcəli xüsusi məktəb açıldı.[3] İlk dəfə 2 hazırlıq və bir əsas sinifdən ibarət olan bu məktəbə 110 şagird qəbul olundu.

[1] Yenə orada, f. 1268, s. 25, iş 190, v. 13.
[2] LMDTA, f. K-na, os, s. 1, iş № 6, v. 4.
[3] Bax: Sirkulyar... KUO, 1891, № 11, 736.

Bu məktəbin açılması ilə Bakı şəhərinin və ətraf vilayətlərin çoxdan bəri gözlədiyi zəruri klassik təhsil tələbatı xüsusi təşəbbüs yolu ilə da olsa, müəyyən dərəcədə edənildi.

Pobedonostsevin məktəbi silki xarakter daşıyırdı. Məktəbdə yüksək təhsil haqqı qoyulmuşdu, hazırlıq sinif şagirdlərinin hər birindən ildə 90, əsas sinif şagirdlərindən isə ildə 100 man. təhsil haqqı alınırdı ki, bunu da ancaq varlılar verə bilirdi.

Bakı qubernatoru 1892-ci ildə yazırdı: «Əgər təhsil haqqı nisbətən azaldılardısa, bu məktəbə daxil olmaq istəyənlərin sayı daha da artıq olardı».[1]

Pobedonostsevin xüsusi məktəbinin nüfuzunun və şagirdlərin sayının ildən-ilə xeyli artması Bakıda müstəqil gimnaziya tə'sisini tələb edirdi. Şəhərin orta təhsilə, orta təhsil vasitəsi ilə ali təhsilə olan tələbatı get-gedə artırdı. Bu vaxt şəhər əhalisi də sür'ətlə inkişaf edirdi. 1895-ci ildə şəhər əhalisi 100.00 nəfəri ötüb keçmişdi. Bunun müqabilində şəhərdə oğlanlar üçün yeganə orta məktəb bir realnı məktəbdən ibarət idi ki, orada da 550 nəfər oxuya bilirdi.

Şəhərin gimnaziya sarıdan böhran keçirdiyini dərk edən Bakı şəhər duması və onun məktəb komissiyası, nəhayət, 1896-cı il aprelin 2-də gimnaziyanın bütün xərcini öhdəsinə götürmək və onu III Aleksandrın adı ilə adlandırmaq şərti ilə Pobedonostsevin xüsusi məktəbini gimnaziyaya çevrməyi qərara aldı.[2] Şəhər dumasının məktəb komissiyasında H.Zərdabi kimi maarifçinin iştirakı bu məsələnin həllinə tə'sir etməyə bilməzdi.

Beləliklə, 1896-cı il mayın 28-də QTD-nin popeçiteli, iyulun 2-də isə Mərkəzi Hökumət Bakı şəhər dumasının qərarını təsdiq etməyə məcbur oldu. 1896-cı il sentyabrın 1-də A.İ.Pobedonostsevin xüsusi məktəbi əsasında imperator III Aleksandr adına Bakı oğlan klassik gimnaziyası təşkil edildi.[3] Yenicə təşkil olunmuş gimnaziyaya ilk günlər şagird axını başlandı. 1896-cı ildə buraya qəbul olunmaq üçün ərizə verənlərin sayı 600 nəfərdən çox idi.

Orta təhsilə olan tələbat nəticəsində 1897-ci ildə Bakıda müəllim İ.A.Lavrov tərəfindən progimnaziya kursu-na malik 4 sinifli daha bir

[1] Bax: LMDTA, f. K-na, os. s. 1, iş № 6 v. 109 arx.
[2] Bax: «Qafqaz» qəzeti, № 91, 1896-cı il.
[3] «Azərbaycan tarixi»ndə bu tarix səhvən 1886-cı ilə aid edilir (2-ci cild; 355.)

xüsusi məktəb açıldı Bakıda ticarət məktəbi, 1902-ci ildə isə yeni progimnaziya təşkil edildi.

Nəticə e'tibarı ilə XX əsrin ilk əvvəllərində Azərbaycanda oğlanlar üçün natamam orta təhsil müəssisələri olmaq e'tibarı ilə cəmi 7 məktəb fəaliyyət göstərirdi. Bunlar iki realnı məktəb (Bakıda və Şuşada), iki klassik gimnaziya (Gəncədə və Bakıda) iki progimnaziya və bir ticarət məktəbindən (Bakıda) ibarət idi. (Qızlar üçün isə bütöv XIX əsr ərzində yalnız bir orta (Bakıda) və bir natamam orta məktəb (Gəncədə) açılmışdır).

Azərbaycanda orta məktəblərin meydana gəlməsi ilə rus dilində orta təhsilə meyl get-gedə artırdı. Qısa müddət ərzində istər Bakı realnı məktəbi, istərsə də Gəncə klassik gimnaziyası şagirdlərin sayına görə Zaqafqaziyanın bir sıra orta məktəblərini ötüb keçirdi. Təhsil haqqının get-gedə artırılmasına baxmayaraq, əhalinin yaxarı təbəqəsi öz uşaqlarını orta məktəbə qoymaq işində xüsusi fəallıq göstərirdi. 1895-ci ildə orta məktəb şagirdlərinin ümumi sayı 1971 nəfər idi (o cümlədən 497 qız). Orta məktəb şagirdlərinin sayı Bakıda daha sür'ətlə artırdı (Bax: cədvəl №2).

1897-ci ildə 800 şagirdə malik olan Bakı klassik gimnaziyası şagirdlərin sayına görə Rusiyanın ən qabaqcıl gimnaziyaları ilə bir sırada dururdu.

Şagirdlərin ümumi sayı ilə bərabər, azərbaycanlılardan olan şagirdlərin sayı da get-gedə artırdı. Bunu çar mə'murlarının özləri də e'tiraf etməyə məcbur olurdular. QTD popeçitelinin 1876-cı ilə aid hesabatında deyilir:

Şagirdlərin ümumi sayı ilə bərabər, azərbaycanlılardan olan şagirdlərin sayı ildənilə artmaqdadır və 1876-cı ildə 1122 nəfərə çatmışdır ki, onlardan 541 nəfəri gimnaziya, realnı, şəhər və qəza məktəblərində, həmçinin hərbi məktəblərdədir».[1] Həmin heabatda müsəlmanların «Son vaxtlar uşaqlarını hətta öz xərcləri ilə gimnaziya pansionlarına qoymaq» sahəsində xeyli dönüş olduğu ayrıca qeyd edilirdi.[2]

Azərbaycanlı şagirdlərin get-gedə artımı Bakı realnı məktəbində özünü daha çox göstərirdi. Bu işdə həmin məktəbin müəllimi, məşhur maarifçi və pedaqoq H.Zərdabinin xüsusi xidməti olmuşdur. Mə'lum

[1] Bax: Кавказский календарь на 1878 г. Тифлис, 1877 г., 317.
[2] Yenə orada, 318.

olduğu kimi o, 1871-ci ildə «Cəmiyyəti-xeyriyyə» təşkil edərək azərbaycanlı uşaqlarının oxumasına kömək etmək işində unudulmaz fəaliyyət göstərmişdir.

Yeri gəlmişkən qeyd edək ki, cəmi Zaqafqaziyada kasıblardan olan uşaqların dövlət məktəblərində oxumasına maddi kömək etmək məqsədilə «Cəmiyyəti-xeyriyyə» təşkil etmək fikri ilk dəfə Azərbaycanda–Bakıda meydana gəlmişdir.

Bu sahədə ilk təşəbbüs H.Zərdabiyə aiddir. Onun bu fikri dərhal QTD tərəfindən bəyənilmiş və təqdirəlayiq hesab edilmişdi. Dairə popeçiteli 1871-ci ildə Qafqaz canişininə yazırdı:

«Zaqafqaziya ölkəsində ilk dəfə Bakıda, müsəlman mühitində belə bir fikir meydana gəlmişdir ki, gənc oğlanların tə'lim və tərbiyəsinə qayğı göstərmək yalnız həkumətin işi olmayıb, həm də cəmiyyətin vəzifəsinə aiddir».[1]

QTD-nin popeçiteli 1872-ci ilə aid hesabatında H.Zərdabinin bu təşəbbüsünü bir daha qiymətləndirərək yazırdı ki, bu hadisə həm də ona görə əhəmiyyətlidir ki, yerli əhalinin təhsili işində hökumətə kömək edən cəmiyyət təşkilinə aid ilk cəhd, xristianlar arasında deyil, məhz müsəlmanlar arasında meydana gəlmişdir və bu cəmiyyətin banisi, yerli real gimnaziyanın təbiyyat elmləri müəllimi Həsənbəy Məlikovdur.

Bütün bunlara baxmayaraq bir tərəfdən xalq maarifi sahəsində çarizmin mürtəce siyasəti və ucqar xalqların maarifinə e'tinasız münasibəti, digər tərəfdən də orta təhsilin rus dilində olması və təhsil haqqının çoxluğu, əhalinin geniş hissəsi içərisində dini-fanatizmin möhkəm kök salması və s. səbəblərə görə geniş əhali kütləsi orta təhsildən demək olar ki, kənarda qalırdı. Orta məktəblər Azərbaycanın yalnız üç şəhərində olduğundan digər şəhərlərin (hələ kəndlər bir yana qalsın) sakinləri öz uşaqlarına orta təhsil verməkdən məhrum idi. Bütün bunlara görədir ki, mövcud orta məktəblərdə təhsil alan azərbaycanlıların sayı şagirdlərin ümumi sayının 10–15%-ni təşkil edirdi.

1890-cı il yanvarın 1-nə olan mə'lumata görə Bakı realnı məktəbində oxuyan azərbaycanlılar 12,1%, Şuşa realnı məktəbində 16,6%, Gəncə gimnaziyasında isə 11,5% idi. (Bax: cədvəl №3).

[1] Sirkulyar... KUO, 1872, № 5-6, əlavə. QTD popeçitelinin 1871-ci ilə aid hesabatı, 25.

Cədvəl № 2

Orta məktəb şagirdlərinin sayını göstərən cədvəl

Məktəblər	İLLƏR										
	1869[1]	1871[2]	1872[3]	1873[4]	1882[5]	1883[6]	1884[7]	1885[8]	1890[9]	1895[10]	1900
Bakı realnı məktəbi	193	293	334	304	442	464	461	504	503	640	680
Bakı klasik gimnaziyası											1104
Pobedonostsevin progimnaziyası	—	—	—	—	—	—	—	—	—	277	—
Lavrovun I dərəcəli məktəbi											295
Gəncə klassik gimnaziyası		125	130	162	258	283	209	196	209	251	356
Şuşa realnı məktəbi					206	233	267	277	277	306	360
Bakı qız gimnaziyası					184	227	240	308	324	497	752
Cəmi:	193	418	464	466	1090	1207	1237	1285	1313	1971	3547

[1] Sirkulyar.... KUO, № 4, 1869, 16.
[2] Кавказский календарь на 1872, Тифлис, 1871, стр. 126, 128.
[3] LMDTA, f. 733, s. 202, iş № 702, v. 13.
[4] Yenə orada.
[5] Sirkulyar... KUO, № 11, 1883, 581.
[6] Yenə orada.
[7] Yenə orada, 1885, 420—421.
[8] Sirkulyar... KUO, № 12, 1887, əlavə, QTD popeçitelinin 1887-ci ilə aid hesabatı, 17, 46, 99.
[9] QTD popeçitelininin 1889-cu ilə aid hesabatı, Tiflis, 1890, 15, 39, 61 (rusca).
[10] LMDTA, f. 733, s. 166, iş № 162, v. 31, arx. 32 arx; sirkulyar.. KUO, 1900. № 11, 1154-1162.

16,6%, Gəncə gimnaziyasında isə 11,5% idi. (Bax: cədvəl № 3).

Orta məktəb şagirdlərinin milli və silki tərkibini göstərən cədvəl.
(1890-cı il yanvarın 1-nə olan mə'lumat).[1]

Orta məktəblər	Şagirdlərin sayı	Milli tərkibi							Silki tərkibi				
		Ruslar	Azərb.	Erməni.	Gürcü	Dağlılar	Yəhudi	Başqaları	Dvoryan	Ruhanilər	Tacirlər	Şəhərlilər	Kəndlilər	Başqa	Xaricilər
Bakı realnı məktəbi	503	204	50	193	11	11	9	25	252	8	3	210	23	1	6
% ilə		40,6	9,9	38,4	2,2	2,2	1,8	4,9	50,1	1,6	0,6	41,7	4,6	0,2	1,2
Şuşa realnı məktəbi	277	14	46	216	–	–	–	1	118	14	4	119	17	4	1
% ilə		5	16,6	78	–	–	–	0,4	42,6	5	1,4	43	6,2	1,4	0,4
Gəncə gimnaziyası	209	41	24	121	14	–	–	9	128	16	7	25	34	4	2
% ilə		19,6	11,5	57,9	6,7	-	-	4,3	61,3	77	-	11,9	16,3	1,9	0,9
Bakı qız gimnaziyası	324	189	1	80	6	–	17	31	171	4	2	113	18	-	16
% ilə		58,4	0,3	24,7	1,8	–	5,2	9,6	52,8	1,2	0,6	34,9	5,6	–	4,9

[1] Cədvəl QTD popeçitelinin 1890-cı ilə aid hesabatından götürülmüşdür.

Şagirdlərin silki tərkibinə görə dvoryanlar, şəhər sakinləri böyük üstünlük təşkil edirdi. 1890-cı ilin mə'lumatına görə Azərbaycandakı orta məktəblərdə oxuyan kəndli uşaqları Gəncə gimnaziyasında 1.9%, Bakı realnı məktəbində 4,6%, Şuşa realnı məktəbində isə 6,2% idi.

Əsrin sonlarında kəndli uşaqlarının sayının Şuşa realnı məktəbində nisbətən artdığı müşahidə olunur (1895-ci ildə 15,1%).[1]

Bütün bunlara baxmayaraq, orta məktəbdə təhsil almaları nəticəsində azərbaycanlıların bir dəstəsi Rusiyanın bir sıra ali məktəblərinə daxil olmuş və oranı bitirdikdən sonra Azərbaycanda xalq maarifi, elm və mədəniyyətin müxtəlif sahələrində unudulmaz xidmətlər göstərmişlər.

Məqalə V.İ Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi Əsərlərinin (pedaqoji-psixoloji elmlər seriyası) 1970-ci il tarixli 4-cü sayında (s. 25-35) çap olmuşdur.

[1] Bax: QTD popeçiteli 1895-ci ilə hesabatı, Tiflis, 1896, əlavə № 1. Səh. 135, (rusça).

XIX ƏSR AZƏRBAYCANDA QADIN TƏHSİLİ TARİXİNƏ DAİR

XIX əsrin 40-cı illərinə kimi Azərbaycanda xalq maarifinin ümumi və vahid sistemi olmadığı kimi, qadın təhsilinin də sistemi yox idi. Qadın təhsili məhdud dairədə olub, ruhani təhsil almış qadın mollalar tərəfindən evlərdə açılan məktəblərdə həyata keçirilirdi. Keçən əsrin 30-cu illərinə aid mənbələrdən birində Bakıda Qala şəhərində 2 qadın müəllimin-mollanın 25 qızın təhsili ilə məşğul olduğu göstərilir.[1] XIX əsrin ortalarına aid mənbələrdən birində isə Bakıda Məşədi Səkinə və Xırdaxanım adlı iki qadının öz evində xüsusi məktəb açması, burada dini kitablarla bərabər, dünyəvi fənlərin tədris edilməsi, ipək saplarla tikiş öyrədilməsi qeyd edilir. Xırdaxanım məktəbində olmuş N.S.Stepanova adlı müəllif yazır:

«Bakıda ikən Xırdaxanım adlı bir qadının öz evində təşkil etdiyi məktəbə getdim Çox gözəl, zərif, gənc bir qadındır. 5 qıza dərs verir. Dediyinə görə ana dili, hesab, fars dili, tarix, nəğmə, rəsm, quran və şəriət dərsləri keçir. Mənim xahişimə görə nəğmə dərsini keçdilər. Mən Şərq müsiqisini başa düşməsəm də, deyə bilərəm ki, müəllimə xanım qabil xanəndədir. Şagirdlər də gözəl oxuyurlar. Sonra qızların çəkdikləri şəkillərə, tikdikləri tikmələrinə baxdım, oxumalarına qulaq asdım. Adam inana bilmir ki, bu qızları öyrədən xanım müəllim deyil, adi ev qadınıdır».[2]

Belə məktəblər Şamaxı, Şuşa, Gəncə, Nuxa və b. şəhərlərdə də var idi. Keçən əsrin ortalarında Güllübəyim xanımın Şamaxıda açdığı xüsusi qız məktəbi özünün şöhrəti ilə cəmi Şamaxı quberniyasında məşhur idi. Burada şagirdlərə gözəl xətlə yazmaq, rəvan oxumaq öyrədilirdi. Onların çəkdiyi şəkillər, tikdiyi tikmələr, oxuduqları nəğmələr diqqətəlayiq idi.

Bu vaxt Gəncə şəhərində 11 qadın müəllimin (mollanın) xüsusi məktəbində 55 qız oxuyurdu.[3] Bə'zi mənbələrdə məscid yanındakı məktəblərdə oğlanlara bərabər, qızların da oxuması göstərilir.

[1] Bax: Обозрение Российских владений Закавказом, СПБ, 1836 г., ч. IV, 48.
[2] N.S. Stepanova, İki il Qafqazda, Qazan, 1858.
[3] Gürc. SSR MDA, f. 425, s. 1, iş № 502, v. 88 arx.

Oğlan məktəblərində olduğu kimi, qız məktəblərində də təhsil pullu idi. Təhsil haqqı valideynin varidatından asılı idi.

Azərbaycanın Rusiya tərkibinə birləşdirilməsindən sonra, burada qulluq edən hərbi və mülki qulluqçu ailələrinin sakin olması rus qız məktəblərinin meydana gəlməsi ilə nəticələndi. İlk rus qız məktəbi 1848-ci il aprelin 30-da Şamaxıda açıldı. «Müqəddəs Nina» qız məktəbi adlanan bu təhsil müəssisəsi eyni adlı qadın xeyriyyə cəmiyyəti tərəfindən açılır və saxlanılırdı. Cəmiyyətin işində azərbaycanlı qadınlar da fəal iştirak edirdi. Şamaxı «Müqəddəs Nina» qız məktəbi Rzabəy Hacı Rəhimbəy oğlunun xüsusi evində yerləşirdi. İlk dəfə oraya 16 şagird qəbul edilmişdi.[1] Burada rus dili, hesab tədris edilir, əl işləri öyrədilirdi.

Şamaxı «Müqəddəs Nina» qız məktəbi cəmi 11 il fəaliyyət göstərdi. 1859-cu il mayın 30-da baş verən zəlzələ nəticəsində məktəb öz fəaliyyətini müvəqqəti olaraq dayandırmalı oldu. Quberniya mərkəzinin Şamaxıdan Bakıya köçürülməsi ilə əlaqədar olaraq 1861-ci ildə həmin məktəb də Bakıya köçürüldü və Bakı «Müqəddəs Nina» qız məktəbi adlandırıldı.[2] Şamaxıda olduğu kimi Bakı «Müqəddəs Nina» qız məktəbinin saxlanılmasında azərbaycanlı qadınlar, Bakı, Şuşa, Lənkəran və s. yerlərin qabaqcıl adamları, varlıları da fəal iştirak edirdi. Şamaxıda olduğu kimi, Bakıda da məktəbin nəfinə həvəskarlar tərəfindən teatr tamaşaları verilir, lotereyalar təşkil edilirdi.

XIX əsərin 60-cı illərində təkcə Bakı quberniyasında deyil, Zaqafqaziyanın Şərq hissəsində rus dilində yeganə qız tədris müəssisəsi olan Bakı «Müqəddəs Nina» qız məktəbinin tədris planına rus dili, hesab, coğrafiya, tarix, fransız dili, musiqi, hüsnxət, əl işi və

[1] Bax: Кавказский календарь на 1849 г., Тифлис, 1848 г., IV отд., 64.

[2] Бакинское учебное заведение... св. Нины, Очерк его развития и современного состояния, сост. В.Абрамович, Баку, 1896, 9. «Azərbaycan tarixi»ndə yanlış olaraq Bakıda «Müqəddəs Nina» qız məktəbinin 1848-ci ildə açılması göstərilir (2-ci cild, 356). Bu yanlışlıq digər məqalələrdə də özünü göstərir: Məs: pedaqoji elmlər namizədi Ə.Cəfərzadə «Bakıda ilk məktəblər» («Bakı» qəzeti, 1969, № 228) adlı məqaləsində yazır:»1848-ci ildə Qafqaz təhsil dairəsinin (KOU) əmri ilə şəhərdə «Müqəddəs Nina» adlı qapalı qız məktəbi təşkil edildi». Əvvələn yuxarıda deyildiyi kimi «Müqəddəs Nina» qız məktəbi QTD-nin (həm də KUO deyil, QTD olmalıdır) əmrilə deyil, eyni adlı xeyriyyə cəmiyyətinin təşəbbüsü və vəsaiti ilə açılmışdır. İkincisi, göstərilən məktəb Bakıda deyil, Şamaxıda açılmışdır. Üçüncüsü də, həmin məktəb Şamaxıda tə'sis edilərkən QTD hələ yaradılmamışdı. (QTD məktəbin təşkilindən 8 ay sonra – 1848-ci ilin dekabrında tə'sis edilmişdir).

ilahiyyat daxil idi. Məktəbin maddi vəsaiti artdıqca yeni siniflər açılır, şagirdlərin sayı çoxalırdı.

1874-cü ildə Bakı «Müqəddəs Nina» qız məktəbi əsasında müstəqil gimnaziya tə'sis edildi.[1] 1880-ci illərdə Bakı qız gimnaziyası şagirdlərin sayına görə cəmi Zaqafqaziyadakı qız məktəbləri içərisində birinci yerdə gedirdi. 1896/97-ci tədris ilində burada 576 şagird təhsil alırdı. Qız gimnaziyası əlavə VIII sinfə — pedaqoji sinfə malik idi. Göstərilən məktəblərdə, əsasən, digər millətlərdən olan yuxarı təbəqələrin, dövlət mə'murlarının qızları oxuyurdu. Azərbaycanlı qızları demək olar ki, düzgün təşkil edilmiş təhsildən məhrum idi. Bu vaxta qədərki hökumət tədbirlərinin qadın təhsilinin həyati tələblərindən çox-çox uzaq olmasını dərk edən Rusiya XMN 1856-cı ildə, əhalinin vəsaiti ilə orta və yuxarı təbəqələr üçün olsa da, quberniya şəhərlərində gimnaziya kursuna yaxın qız məktəbləri təşkilinə aid mülahizələr toplamağa başladı.

RXMN-nin sorğusuna cavab olaraq Şamaxı qubernatoru göstərilən məktəbin əhəmiyyətini lazım bilməklə onu əhalinin vəsaiti ilə açmağı qeyri-mümkün hesab etdi. O, yazırdı: Təəsüf ki, xəzinəyə toxunmadan, qız məktəbi açmaq üçün mən heç bir mənbə nəzərə gətirə bilmirəm. Mənim tabeliyimdə olaq quberniya şəhərlərinin gəliri zəif olduğundan, onlar yerli polis idarəsinin və digər zəruri ehtiyacların xərcini belə çox çətinliklə ödəyirlər. Öz gəlirlərinin hər hansı bir hissəsini məktəbin saxlanmasına sərf etməyə tamamilə heç bir imkanları yoxdur».[2]

Bu mülahizələr yalnız onunla nəticələndi ki, 1858-ci ildə hökumət qız məktəblərinin ayrıca nizamnaməsini təsdiq etdi. Həmin nizamnamə 1860-cı ildə yenisi ilə əvəz edildi. Nizamnaməyə görə qız məktəbləri əsasən yerli vəsait, əhali-nin maddi yardımı hesabına açıla bilərdi. Bu məktəblər dərəcə e'tibarı ilə iki yerə bölünürdü. Birinci dərəcəli qız məktəbində təhsil müddəti 6, ikinci dərəcəlidə isə 3 il idi. Bu nizamnamələrdə yerli şərait nəzərə alınmırdı.

60-cı illərin ictimai-siyasi və pedaqoji hərəkatı nəticəsiz qalmadı. Bu tələb və ehtiyac nəticəsində 1864-cü il oktyabrın 1-də Zaqatalada

[1] Bununla əlaqədar olaraq «Müqəddəs Nina» məktəbi xeyli vaxt özünün müstəqilliyini itirdi. Yalnız 1888-ci ildə yenidən bərpa olundu və əsrin sonlarında XMN-nin qız gimnaziyası hüququna malik təhsil müəssisəsi kimi fəaliyyətini xeyli genişləndirdi. 1900-cu ildə burada 428, 1901-ci ildə isə 501 şagird təhsil alırdı.

[2] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 82, v. 10 arx.

2-ci dərəcəli qız məktəbi açıldı.[1] Təhsil pullu idi. Pansionda qalanlardan ildə 50, davam edənlərdən isə 12 man. təhsil haqqı alınırdı. Zaqatala qız məktəbinə ilk dəfə 33 şagird qəbul olunmuşdur. Tədris planına ilahiyyat, rus dili, hesab, hüsnxət, əl əməyi və təsərrüfat işləri daxil idi. Məktəb İlisu naibliyindən olan mayor Mahmud ağanın xüsusi evində pulsuz yerləşirdi. Zaqatala qız məktəbi az müddət ərzində yerli əhalinin rəğbətini qazandı. Zaqatatala qız məktəbi 1904-cü ildə 40 sinifli Marinski qız məktəbinə çevrildi.

Qadın təhsilinə olan tələbat Şuşada özünü xüsusilə göstərirdi. Şuşalılar qızların ana dilində təhsili ilə bərabər rus dilində də təhsil almasına cəhd edirdilər. Şuşa əhalisi 1875-ci ildə xeyriyyə cəmiyyəti təşkil edərək müstəqil qız məktəbi açmağı qərara aldı.

Cəmiyyətin nizamnaməsində deyilirdi:

«Cəmiyyətin məqsədi dini e'tiqadından və məişətindən asılı olmayaraq qızlara ibtidai təhsil verməkdən ibarətdir. Bu məqsədlə, cəmiyyət yoxsulların da təhsil hüququ saxlanılmaqla Şuşada qız məktəbi açır».[2]

1875-ci il oktyabrın 26-da Şuşada xeyriyyə cəmiyyəti tərəfindən qız məktəbinin əsası qoyuldu. Məktəb Ananevlərin iki mərtəbəli evində yerləşirdi. Tədris planına rus dili və hesab, ana dilində oxu və yazı, hüsnxət, rəsm, rəsmxət, ümumi coğrafiya, tarix, Şuşa qəzasının, Qafqazın və Rusiya imperiyasının xəritəsini çəkməklə ölkəşünaslıq daxil idi. Bunlardan başqa xorla milli mahnılar oxudulur, təbiyyat və fizikadan ümumi mə'lumat verilirdi. Təhsil pullu idi. Hər şagirddən ildə 1 man. təhsil haqqı alınırdı. Kasıblardan təhsil haqqından azad idi. Əlavə təhsil haqqı verənlərə həmçinin fransız və alman dilləri, musiqi öyrədilirdi. Rus dili K.D.Uşinskinin «Vətən dili» kitabı üzrə keçilirdi. Şuşa qız məktəbi 1894-cü ildə Marinski qız məktəbinə çevrildi. 1895-1896-cı ildə burada 147 nəfər təhsil alırdı. Məktəb tə'lim keyfiyyətinin yüksəkliyi ilə fərqlənirdi. İrəvan-Gəncə quberniyaları xalq məktəblər direktoru QTD-yə raportlarından birində yazırdı: «Şuşa Marinski qız məktəbi fəaliyyətə başladığı vaxtdan e'tibarən yerli əhalinin tam rəğbətini qazanmışdır. Məktəbin müdiri və müəllimləri işə ürəklə, həvəslə yanaşır, öz vəzifələrini bacarıqla icra

[1] LMDTA, f. 1268, s. 10, iş № 153, v. 1; Gürc. SSR MDA, f. 422, s. 1. İş № 6930 v. 10.

[2] Kavkazskiy kalendarğ na 1876 q. Tiflis 1875 q., 53.

edirlər. Bütün siniflərdə tə'lim və əl işlərinin müvəffəqiyyəti çox yaxşıdır».[1]

Rus dilində olan qız məktəblərindən biri də 1885-ci il yanvarın 14-də Gəncə şəhərində meydana gəldi. İlk dəfə cəmi 6 şagirdlə işə başlayan Gəncə «Müqəddəs Nina» qız məktəbi get-gedə inkişaf edərək 1899-cu ildə progimnaziyaya, 1902-ci ildə isə gimnaziyaya çevrildi.

Beləliklə, keçən əsr ərzində Azərbaycanda rus dilində cəmi 4-5 məktəb açılmışdı ki, burada oxuyanlar da əsasən qeyri millətlərin uşaqları idilər. Azərbaycanlılar bu məktəblərin təşkilində yaxından iştirak edir, maddi kömək edirdilərsə də, orada oxuyan azərbaycanlı qızların sayı çox-çox az idi. Azərbaycanlı qızların cüz'i hissəsi evlərdə təşkil edilən məktəblərdə, yaxud da ailənin böyük üzvlərinin yanında bu və ya digər təhsil alırdı.

1876-cı ilin mə'lumatına görə Gəncə-İrəvan quberniyaları xalq məktəbləri direksiyası üzrə xüsusi məktəblərdə 647, Bakı-Dağıstan quberniyaları xalq məktəbləri direksiyası üzrə isə 376 nəfər azərbaycanlı qız təhsilə cəlb edilmişdi.

Rus dilində olan düzgün təşkil edilmiş qız məktəblərinin azlığına, bu məktəblərə xəzindən vəsait buraxılmamasına, əsasən, xeyriyyə cəmiyyətləri və təhsil haqqında toplanan pul ilə idarə edilməməsi və tək-tək olsa da, müsəlman qızlarının da oraya daxil olması və onların sayının get-gedə az olsa da artması qadın təhsilinin sonrakı inkişafına xeyli tə'sir etdi. QTD popeçitelinin 1875-ci ilə aid hesabatında deyilir: «Müsəlmanların hətta qızları da ümumi təhsilə cəhd edir. Qadın gimnaziyaları görünməkdədir»[2].

Dövlət məktəblərinin, o cümlədən düzgün təşkil edilmiş qız məktəblərinin müvəffəqiyyəti azərbaycanlı qızlarının da dünyəvi təhsil ideyasının meydana gəlməsinə kömək etdi. Bir tərəfdən mütərəqqi rus məktəbi və pedaqoji fikrinin, dügər tərəfdən isə inkişaf etməkdə olan milli mədəniyyətin qüvvətli tə'siri və dövrün ictimai mədəni tələbi azərbaycanlı qızlarının dünyəvi təhsil ideyasını sür'ətləndirdi. Bu ideyanın ilk carçıları da Rusiyada təhsil alan gənclər oldular. Dünyəvi qadın təhsili ideyasının irəli sürülməsində ilk təşəbbüs, azərbaycanlılardan ilk ali təhsil almış H.Zərdabiyə

[1] LMDTA, f. 733, s. 203, iş № 2839, v. 8.
[2] Kavkazskiy kalendarğ na 1878 q., Tiflis 1877 q. 318.

məxsudur. Bu ideyanı ilk dəfə H.Zərdabi və onun «Əkinçi» qəzeti irəli sürdü və elmi surətdə əsaslandırdı. Zərdabi «Əkinçi»də dərc etdiyi məqalələrindən birində açıqca yazırdı: «Kişilər üçün nə qədər məktəb açsaq da, arzu etdiyimiz məqsədə çata bilməyəcəyik. Qadınlar elmdən və təhsildən kənarda qalırlar, halbuki gənc nəslin tərbiyəsində qadın böyük rol oynayır»[1].

Azərbaycan maarifçilərinin böyük bir dəstəsi qadınların dünyəvi təhsilini qızğın müdafiə edir, qadınların maariflənməsini onların cəmiyyətdə öz hüquqları uğrunda mübarizəsinin tərkib hissəsi, eyni zamanda yetişməkdə olan gənc nəslin tə'lim və tərbiyəsinin yaxşılaşmasına ciddi tə'sir göstərən mühüm amil hesab edirdilər.

Qadınların dünyəvi təhsili uğrundakı mübarizə nəticəsiz qalmadı. Keçən əsrin 70-ci illərində azərbaycanlı qızları uçün ayrıca məktəb açmaq sahəsində ilk təşəbbüs edildi. Bu təşəbbüs H.Zərdabinin arvadı Hənifə xanıma məxsusdur. 1872-ci ildə «Qafqaz» qəzetində dərc edilmiş bir mə'lumatda deyilir:

«Bakıdan yazırlar ki, cənab Həsənbəy Məlikovun arvadı Tiflis «Müqəddəs Nina» qız məktəbini bitirmiş Hənifə xanım müsəlman qızları üçün xüsusi pansion açmağa hazırlaşır»[2].

Həsənbəylə Hənifə xanım Məlikovların bu təşəbbüsü Zaqafqaziyanın digər şəhərdlərində ilk növbədə isə Zaqafqaziyanın həm inzibati, həm də mədəni mərkəzi olan Tiflisdə müsəlman qızları üçün rus dilində olsa da, ümumtəhsil məktəbi açmaq fikrini gücləndirdi. Hökumət mə'murları da bu məsələyə diqqət yetirməyə məcbur oldu. Qafqaz canişini vəzifəsini ifa edən knyaz Məlikov 1882-ci ildə Tiflis şəhərində Qafqaz müsəlman qızları üçün ayrıca məktəb açmağı mərkəzi hökumətdən xahiş etdi. Doğrudur, müsəlman qızları üçün məktəb açmaq məsələsində çar mə'murları tamamilə başqa mövqedən çıxış edirdilər. Qafqaz canişinliyinin mülki işlər üzrə Baş idarə rəisi Dondukov-Korsakov 1883-cü ilin martında Rusiya Xalq Maarif Naziri İ.D.Delyanova göndərdiyi məxfi məktubunda açıqca yazırdı ki, «Göstərilən məktəbin açılmasında məqsəd, əsasən müsəlmanların təhsilinə tərəfdar çıxmaq deyildir... Müsəlman qadınları arasında ümumi təhsilin yayılması bizə siyasi cəhətdən xeyir verə bilər, belə ki, onların öz arxamızla aparılmaması,

[1] «Əkinçi» qəzeti, № 11. 1876.
[2] «Qafqaz» qəzeti, № 134, 1872.

müsəlman ayrılığının zəifləşdirilməməsi ölkədə mülki işlərin inkişafına zərərli tə'sir edir»[1].

Çar mə'murları həm də həmin məktəbin xərcini dövlət xəzinəsindən deyil, yerli əhalidən toplanan vəsaitlə ödəməyi təklif edirdilər. Dövlət mə'murlarının məxfi məqsədlərinə baxmayaraq, müsəlman qızları üçün rus dilində də olsa, ümumi təhsil məktəbi açmaq fikri nəticə e'tibarı ilə obyektiv əhəmiyyətə malik idi. Bu xəbəri eşidən əhalinin qabaqcıl nümayəndələri öz qızlarını açılması nəzərdə tutulan məktəbə göndərməyə hazırlaşırdılar. Knyaz Dondukov-Korsakov nazirə göndərdiyi bir məktubunda yazırdı:

«Mən Şuşada olarkən Qarabağ xanının arvadı Üsmiyeva öz uşaqlarını mənə təqdim edərək, Tiflisdə açılması nəzərdə tutulan məktəbə qoymaq arzusunda olduğunu bildirdi».

Əhalinin məktəbə maddi vəsait toplanmasına, ona hər cür kömək etməyə hazır olduqlarını bildirmələrinə baxmayaraq, bu məsələ yalnız uzun-uzadı yazışmalardan kənara çıxmadı və beləliklə də, 12 il çəkən bu yazışmalar nəticəsiz qaldı. Çar mə'murlarından birinin e'tiraf etdiyi kimi «1883-cü ildən 1895-ci ilədək keçən 12 il ərzində çar hökuməti müsəlman qadınları arasında təhsil yaymaq işində heç bir tədbir görmədi»[2]. Məhz bunun nəticəsi idi ki, keçən əsrin 90-cı illərində təkcə Azərbaycanda deyil, cəmi Zaqafqaziyada yaşayan 800 min azərbaycanlı qadın hətta elementar təhsildən belə kənarda qalırdı.

Əsrin sonlarına yaxın azərbaycanlı qızlar üçün orta məktəb deyil, yalnız ibtidai məktəb açmaq fikri gücləndi. QTD-nin popeçiteli rus dilində olacaq bu məktəbin tədris planına şəriətdən əlavə, rus dili, Rusiya tarixi və coğrafiyası, hesab, rəsmxət və əl işi daxil etməyi təklif edirdi. Azərbaycan maarifçilərinin qabaqcıl dəstəsi də qız məktəbinin tə'sisinə böyük əhəmiyyət verir və onu müdafiə edirdilər. Dövrün məşhur maarifçisi F.Köçərli «Qadınların vəziyyəti və müsəlman uşaqlarının tərbiyəsi» adlı məqaləsində yazırdı ki, «müsəlman qız məktəbinin açılması Qafqaz müsəlmanlarının tarixində yeni dövrün başlanğıcı olacaqdır»[3]. Ayrı-ayrı quberniyaların əhalisi qız məktəbinin əhəmiyyətini dərk edərək ona maddi kömək etməyi

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 1576, v. 6.
[2] Gürc. SSR MDA, f. 12. s. 7, iş № 1091, v. 3 arx.
[3] «Novoe obozrenie» qəzeti, № 4115, 1895.

öhdəsinə götürürdü.[1]«Qafqaz» qəzeti yazırdı: «Nəinki təkcə Bakı müsəlman ailəsi, həm də göndərilən sorğulardan göründüyü kimi, cəmi Qafqaz bu yeni və orijinal tədris müəssisəsinin taleyi ilə maraqlanır»[2].

QTD tərəfindən irəli sürülən bu vacib məsələ Qafqazın mülki işlər üzrə Baş idarə rəisi dəftərxanası tərəfindən yaxşı qarşılanmadı. Dəftərxana məscidin vəqf vəsaitini qız məktəbi açmağa sərf etməyi qanunsuz hesab etdi. Xəzinədən vəsait buraxılmadığından, ianələrdən toplanan vəsait isə azlıq etdiyindən Tiflis müsəlman qız məktəbinin tə'sisi bir daha baş tutmadı.

Beləliklə, keçən əsrin 70-ci illərindən başlayaraq qadın təhsili uğrunda gedən mübarizə, ayrı təşəbbüs və cəhdlər bu və ya digər səbəblərdən baş tutmadısa da, nəticəsiz də qalmadı.

Qadın təhsilinin əhəmiyyətini dərindən dərk edən ayrı-ayrı mütərəqqi müəllimlər qızların məktəbə cəlb edilməsinə çalışır, özləri müstəqil qız məktəbi açırdılar.

Bu sahədə unudulmaz xidmət göstərənlərdən biri məşhur maarifçi-pedaqoq M.T.Sidqi idi. Mə'lum olduğu kimi, o, 90-cı illərdə Naxçıvanda ayrıca «Qız məktəbi» açmağa nail olmuşdur.

Əsrin sonlarına doğru qadın təhsilinin zəruriyyəti təkcə şəhərlərdə deyil, kəndlərdə də özünü göstərirdi. Bir sıra qabaqcıl kənd müəllimləri dərs dedikləri oğlan məktəblərinə qızları da cəlb edirdilər. Bu məsələdə görkəmli yazıçı və pedaqoq C.Məmmədquluzadənin xidmətləri unudulmazdır. 1890-1897-ci illər Nehrəm kəndindəki iki sinifli məktəbin müdiri vəzifəsində çalışan C.Məmmədquluzadə qızların məktəbə cəlb edilməsinə xüsusi sə'y etmiş və buna nail olmuşdur.

Dini fanatizmin möhkəm kök saldığı kəndlərdən biri olan Nehrəmdə qızların məktəbə, həm də oğlanlarla birlikdə rus dilində təhsilə cəlb edilməsi çox mühüm hadisə olub, yalnız C.Məmmədquluzadənin sə'y və ciddi-cəhdinin nəticəsi idi. Həmin məktəbə qızların da cəlb edilməsini xəbər verən C.Məmmədquluzadə 1893-cü il yanvarın 18-də İrəvan quberniyası və Kars vilayəti xalq məktəblər direktoruna göndərdiyi 10 [1]-li raportunda yazırdı:

[1] Bax: Gürc. SSR MDA, f. 422, s. 1, iş 5122, v. 15-27.
[2] «Qafqaz» qəzeti, № 291, 1896.

«Zati-alilərinə bunu hörmətlə bildirməyi özümə şərəf hesab edərəm ki, mənə tapşırılmış məktəbə bu il yanvarın 15-nə qədər oxumaq üçün 8 azərbaycanlı qız daxil olmuşdur»[1].

C.Məmmədquluzadə qızların adlarını da qeyd edirdi. Onlar aşağıdakılar idilər: 1) Adıgözəlova Şəhrəbanı,
2) Cahangirova Səkinə 3) Qazıyeva Ümbül, 4) Məmmədquliyeva Səkinə, 5) Mehdixanova Xədicə, 6) Mehdiyeva Zəhra, 7)Mirzəməmmədova Səkinə, və 8) Mirzəməmmədova Mina.

C.Məmmədquluzadə həmin raportun sonunda yazırdı: «Bununla birlikdə acizanə surətdə əlavə edib bildirirəm ki, həmin qızlardan xüsusi bir hazırlıq sinfi təşkil etdim və bu siniflə mən özüm dərs keçirəm».

Kənd camaatının əhval-ruhiyyəsini yaxşı bilən C.Məmmədquluzadə onların bu işə mane olmaması üçün məktəbə əvvəlcə öz bacısı Səkinəni, məktəbin fəxri nəzarətçisi Adıgözəlovun qızı Şəhrəbanını və şəriət müəllimi Qazıyevin qızı Ümbülü cəlb etmişdi.

Bu, cəmi İrəvan mahalında böyük hadisə idi. Onun bu sə'yi xalq məktəblər direktoru tərəfindən yüksək qiymətləndirildi. Xalq məktəblər direktoru 1893-cü il fevralın 2-də C.Məmmədquluzadəyə göndərdiyi 172 [1]-li xüsusi məktubunda yazırdı:

«Sizə tapşırılmış məktəbə oxumaq üçün 8 qızın daxil olduğuna dair bu il yanvar ayının 18-də yazdığınız 10 [1]-li raportla əlaqədar olaraq, hörmətli cənab, müsəlman qızları arasında savadı yaymaq üçün göstərdiyimiz qayğı-keşlik üçün Sizə səmimi təşəkkürlərimi bildirməyi özüm üçün xoş vəzifə hesab edirəm».[2]

Qızların oğlan məktəblərinə cəlb edilməsinə Nuxa qəzasının Vartaşen və Qarabulaq, Cəbrayıl qəzasının Qarğabazar kənd məktəblərində, Quba ibtidai məktəbində də rast gəlirik. Qarğabazar kənd məktəbində oxuyan şagirdlərdən 17-si, Qarabulaq kəndində oxuyan 60 nəfərdən 16-sı, Vartaşen kənd məktəbində oxuyan 80 nəfərdən 5 nəfəri qızlar idi. 1895-ci ildə Quba ikisinifli ibtidai məktəbi nəzdində qızlar üçün ayrıca şö'bə açılmışdı.[3]

Keçən əsrin 90-cı illərində oğlan məktəbləri yanında qızlar üçün xüsusi siniflər açılması təşəbbüsü get-gedə genişlənirdi. Belə

[1] Erm. SSR MDTA, f. 19, s. 2, iş № 698, v. 18.
[2] Erm. SSR MDTA, f. 19, s. 2, iş 698, v. 17.
[3] Bax: QTD popeçitelinin «Sərəncamları», 1895, № 12, 1202; 1898, № 3, səh. 193; Gürc. SSR MDA, f. 422, s. 1, iş5156, v. 16 arx; iş № 6315, v. 26 arx.

siniflərdən biri görkəmli müəllim və maarifçi Məmməd Şeyxzadə tərəfindən 1894-cü ildə Nuxada, onun dərs dediyi «Darüssüəda» məktəbinin nəzdində təşkil edildi. Qızların tə'limi ilə Şeyxzadənin qızı Şəfiqə xanım məşğul olurdu. Tə'lim yeni üsula aparılırdı[1].

Əsrin sonlarında məktəb və mədrəsələrin yenidən qurulması, oraya rus dilinin daxil edilməsi, «Rus-Azərbaycan» məktəblərinin genişlənməsi qadın təhsilinin tərəqqisinə də müsbət tə'sir edirdi. Bə'zi «Rus-Azərbaycan» məktəblərinin nəzdində ayrıca qız şö'bəsi də təşkil edilirdi. Qız şö'bələrindən biri 1901-ci ildə Bağmanlar «Rus-Azərbaycan» məktəbi nəzdində meydana gəldi. Burada 20 nəfər qız rus və Azərbaycan dillərində dünyəvi təhsilə cəlb edilmişdi.[2] Burada Azərbaycan dilini Baxşıyeva Ruqiyyə Avdı qızı tədris edirdi.

Bu vaxtlar Gəncə məscidi nəzdindəki «Rus-Azərbay-can» məktəbi yanında da ayrıca qız məktəbi təşkil edilmişdi[3] (başqa bir mənbədə 94)[4]. Birinci şö'bədə Şahsuvarov, ikinci şö'bədə isə məktəbin müdiri Sanayev məşğul olurdu. Hər iki müəllim gərgin əməklərilə qadın təhsilinin müvəffəqiyyətinə çalışırdı. 1904-cü ildə bu məktəbi təftiş edən Lopatinski Şahsuvarov haqqında yazırdı:

«Bu gözəl müəllim zirək və bacarıqlıdır. Onun işi, necə deyərlər, başından aşır». Ən əsası isə «əvvəllər rus dilində bir kəlmə belə bilməyən azərbaycanlı qızları indi rus dilində çox yaxşı danışırlar» Dairə inspektoru Sanayevi isə «çox gözəl müəllim» adlandırır, şagirdlərin cavabının qənaətbəxş olmasını qeyd edir, ən başlıcısı isə buraya 85 qızın cəlb edilməsini məktəbin və müəllimlərin böyük nailiyyəti hesab edirdi.[5]

XIX əsrin sonlarında Azərbaycan ziyalılarının qadın təhsili uğrunda mübarizəsi get-gedə genişlənirdi. Onların bir hissəsi öz həmvətənlərinin dini görüşlərini nəzərə alaraq qız məktəblərini, orada yalnız qadın müəllimlərinin dərs deməsi şərtilə açmağı məqsədə daha müvafiq hesab edirdilər. Ziyalıların bir dəstəsi isə bu

[1] Bax: Müəllim Əhməd Nəbiyevin xatirələri, səh. 56-57. Azərb. SSR Maarif Nazirliyi. Xalq maarif muzeyi, inv. № 1122; Sabir Məmmədov. İlk Azərbaycan qız məktəbləri, «Azərbaycan məktəbi» jurnalı, 1968, № 8, 51.

[2] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 7150, v. 13; iş № 6910, v. 66; iş № 7163, v. 4.

[3] Yenə orada, iş № 8703, v. 140.

[4] Yenə orada, v. 227.

[5] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 8703, v. 140,

sahədə praktik addım atmağa çalışır, imkan daxilində qızların düzgün təşkil edilmiş dünyəvi məktəblərə cəlb edilməsinə cəhd edirdilər.

Maarif və mədəniyyət sahəsində atılan yeni və müvəffəqiyyətli addımlar. Azərbaycan maarifçilərini bir qədər də cəsarətləndirirdi. Onlar necə olursa-olsun Azərbaycanda gözə görünən bir qız məktəbi açmağın lüzumunu daha çox hiss edirdilər. Bu işdə yenə də unudulmaz maarifçimiz H.Zərdabi xüsusilə fərqlənirdi. Bu vaxt Bakıda yaşayan və şəhər idarəsində məktəb komissiyasının üzvü olan H.Zərdabi oğlan məktəbləri ilə bərabər, qadın təhsili uğrunda da gərgin mübarizə aparırdı.

1896-cı il yanvarın 19-da Bakı qubernatoruna ərizə ilə müraciət edən H.Zərdabi Bakıda azərbaycanlı qızları üçün təhsil müddəti üç il olan bir sinifli məktəb açmağa icazə istədi. H.Zərdabi qız məktəbinin tədris planına aşağıdakı fənləri daxil etməyi nəzərdə tuturdu: 1)şəriət, 2)Azərbaycan dili, 3)rus dili, 4)hesab, 5)hüsnxət və rəsmxət və 6)əl işləri[1]. Zərdabinin təklif etdiyi tədris planına uyğun idi. H.Zərdabinin Bakıda qız məktəbi tə'sis etməyə hazırlanması xəbəri tez bir zamanda cəmi Qafqaza yayıldı. «Qafqaz» qəzeti 1896-cı ildəki 44-cü nömrəsində yazırdı: «Moskva universitetini bitirmiş müsəlman Həsən bəy Məlikov Zərdabski Bakıda qızlar üçün Rus-Azərbaycan məktəbi açmağa icazə istəməkdən ötrü Bakı qubernatoruna müraciət etmişdir».

Qəzet məktəbi xarakterizə edərək göstərirdi ki, qız məktəbi quruluş e'tibarı ilə Nazirlik məktəbi olacaqdır. Üç illik tədris müddətinə malik olan bu məktəbdə ümum–təhsil fənləri ilə bərabər, ailə həyatına faydalı olan əl işləri də öyrədiləcəkdir. Məktəbin nəzdində o qədər də böyük olmayan pansion nəzərdə tutulur ki, burada təhsil haqqı heç də yüksək deyildir. Məktəb hazır binaya və kifayət qədər azuqəyə malik olacaqdır. Bakı şəhərindən kənarda yaşayan qızlar da bu məktəbə daxil olmağa imkan tapacaqlar. Qəzet yazırdı ki, məktəbin müəllimliyinə Tiflisdə «Müqəddəs Nina» qız məktəbinin keçmiş mə'zunlarından birinin (Hənifə xanımın) tə'yin edilməsi nəzərdə tutulur.

Lakin Zərdabinin ərizəsinə müsbət cavab verilmədi. Zərdabinin dövlətə «Siyasi cəhətcə e'tibarlı olmasını» yoxlamaq üçün onun ərizəsi quberniya jandarma idarəsinə göndərildi. Göyçay qəza rəisi

[1] Azərb. SSR MDTA, f. 45, s. 2, iş № 257, v. 1-5.

1896-cı il fevralın 29-da Bakı qubernatoruna göndərdiyi xüsusi məxfi məktubunda Zərdabiyə şiddətli hucum edərək, onun «öz məqalələri və şifahi çıxışları ilə kəndliləri müntəzəm surətdə həyəcana gətirdiyini və bütün maddələr üzrə siyasi cəhətdən e'tibarsız və dövlət üçün təhlükəli» olduğunu qeyd edirdi. Bundan sonra Bakı qubernatoru heç bir səbəb göstərmədən H. Zərdabinin xahişini rədd etdi.

Xalq maarifi uğrunda mərd mübariz olan Zərdabinin qız məktəbi açmaq kimi mütərəqqi ideyası o vaxt həyata keçmədisə də, onun bu cəhdi və təşəbbüsü Bakıda qız məktəbi tə'sisinin zəruriliyini sür'ətləndirirdi.

Onu da əlavə edək ki, o dövrdə hökumət xalq maarifinə, onun tərəqqisinə lazımi vəsait buraxmadığından yerli ziyalılar bə'zən varlılara pənah gətirir, ümidlərini onlara bağlıyır və onları mədəniyyətin, maarifin inkişaf etdirilməsi işinə sövq və təşviq edirdilər. Varlılar, milli burjuaziyanın bə'zi nümayəndələri də xalq arasında şöhrət və nüfuz qazanmaq üçün xeyriyyə işlərində fəal iştirak edirdilər.

Azərbaycan milli burjuaziyasının görkəmli nümayəndəsi olan H.Z.Tağıyev bu işdə xüsusilə fərqlənirdi. O bir çox məktəblərə maddi kömək etdiyinə görə dəfələrə imperatordan mükafat, Qafqaz təhsil dairəsindən təşəkkür almışdır.

Azərbaycanda dünyəvi elmləri öyrədən ilk qız məktəbinin yaradılması da məhz yuxarıda göstərilən yol ilə meydana gəldi.

H.Z.Tağıyev 1896-cı il aprelin 24-də QTD-yə müraciət edərək, Bakıda onun vasitəsilə Rus-Azərbaycan qız məktəbi açılmasına icazə istədi.

Bakı milyonçusunun «təqlidə layiq olan bu hərəkəti» mülki işlər üzrə Qafqazın baş rəisi tərəfindən rəğbətlə qarşılandı. Tağıyevin dövlətdən heç bir vəsait tələb etmədən müsəlman qızlarına dünyəvi təhsil verən məktəb açmağa sə'y etməsi, məşhur kapitalist olmasına baxmayaraq, mühüm mütərəqqi hadisə idi.

1897-ci ilin yanvarında QTD-nin popeçiteli, 1898-ci il aprelin 24-də isə Rusiya XMN-i məktəbin açılmasına rəsmi icazə verdi. Məktəb 1867-ci il nizamnaməsinə əsaslanırdı. Bundan əlavə özünün 1898-ci il mayın 16-da Rusiya XMN tərəfindən təsdiq edilmiş xüsusi nizamnaməsi var idi. Nizamnaməyə görə məktəb Tağıyevin bu

məqsəd üçün dövlət xəzinəsinə qoyduğu 185 min man. pulun ianə faizləri hesabına idarə olunurdu. Məktəbin illik xərci 5 min man idi. Nizamnaməyə görə qız məktəbi qapalı idi. Lakin davam edənlərə də icazə verilirdi. Qız məktəbi mövcud qayda-üzrə yerli xalq məktəblər direktoruna və QTD-nə tabe idi. Məktəbə yalnız azərbaycanlılardan olan 7 yaşı tamam olmuş qızlar qəbul olunurdu (§ 5). Tədris planı və proqramı cəhətincə bir sinifli məktəbə bərabər idi. Lakin təhsil müddəti 4 il idi. 4-cü sinif əlavə sinif hesab edilirdi. Bu sinif sənət şö'bəsi adlanırdı. Məktəbin pansionu var idi. Buraya silkindən asılı olmayaraq ancaq kasıblardan olanlar qəbul olunurdu (20 nəfər). Pansionda öz vəsaitləri ilə yaşayanlar, bundan əlavə evlərdə yaşayıb məktəbə davam edənlər də var idi ki, onlardan təhsil haqqı alınırdı.

Məktəbə Tağıyev tərəfindən pedaqoji və hifz-səhiyyə tələblərinə cavab verən xüsusi bina tikilmişdi. Məktəbin binası keçmiş Nikolayev — indiki İstiqlal küçəsində yerləşirdi.

Nizamnaməyə görə məktəbin müdiri və müəllimləri mütləq azərbaycanlı qadınlardan olmalı idi (§ 12). Bu maddənin nizamnaməyə daxil edilməsi, xalqın o zamankı fanatik görüşlərindən irəli gəlib, məktəbin müvəffəqiyyətini tə'min etmək üçün idi.

Cəmi Qafqazda ilk dəfə olaraq müsəlman qızlarının Azərbaycan və rus dillərində dünyəvi təhsil alması, Azərbaycan və Rusiya mədəniyyəti ilə tanış olması məqsədilə tə'sis edilən və ilk şitillikdən ibarət olan bu məktəb 1901-ci il oktyabrın 7-də gündüz saat 12-də təntənəli surətdə açıldı. Məktəbin açılışında şəhər ictimaiyyəti, valideynlər yaxından iştirak edirdi. «Kaspi» qəzeti bu haqda dərc etdiyi bir məqalədə yazırdı ki, məktəbin açılışı günü məktəb binası bayraqlarla bəzədilmişdi. Məktəbin salonu adamlarla dolu idi. Məktəbin tə'sisi haqda mə'lumat verildikdən sonra çıxışlar oldu. Hamı məktəbin açılışını böyük bir hadisə kimi qiymətləndirdi. Məktəbdə tə'lim alacaq qızlardan düzəldilmiş xor dəstəsi bir neçə Azərbaycan mahnısı oxudu. Azərbaycanda bu ilk uşaqqız xorunu Bakı «Rus-Azərbaycan» məktəbinin müəllimi Mirzə Yaqub Əlizadə təşkil etmişdi.[1]

XIX əsrin sonlarında Bakıda xalq maarifi və məktəb sahəsində baş verən canlanma, «Rus-Azərbaycan» məktəblərinin müvəffəqiyyətli davamı, çar III Aleksandrın tac qoyması şərəfinə

[1] «Kaspi» qəzeti, № 219, 1901.

Bakı varlılarının şəhər və quberniya məktəblərinə az-çox ianə verməsi, kapitalist münasibətlərinin sür'ətli inkişafı əhalinin dünyəvi qız məktəbinin yaranmasına şərait yaratdı.

Qadın təhsilinin zəruriliyi o dövrdə özünün həllini gözləyən mühüm ictimai problemlərdən biri idi. Ona görə də bu məsələ bütün ictimaiyyəti, qabaqcıl ziyalıları narahat edirdi. Qız məktəbinin vacibliyi, həm də onda idi ki, o nəinki azərbaycanlıların ailəsinə ümumi təhsilə aid ibtidai mə'lumat daxil edəcək, həm də müsəlmanları «əsas ictimai bəladan» (M. Şahtaxlı) xilas edəcək idi. O bəladan ki, o həm bədənə, həm ruha əziyyət verir, insanları həm cismani, həm də mə'nəvi cəhətdən şikəst edir, onun fiziki cəhətdən inkişaf etməsinə, əqli cəhətdən təkmilləşməsinə mane olurdu. Bu bəla fanatizm, nadanlıq idi.

Bakıda «Rus-Azərbaycan» qız məktəbinin təşkili bu bəlanan aradan qaldırılması yolunda irəliyə atılmış ilk addım oldu.

Bakı qız məktəbinin təşkili Azərbaycanın bütün ziyalılarını sevindirdi. Onlar hər vəchlə əsrlərdən bəri həsrəti çəkilən bu maarif ocağının meydana gəlməsini alqışlayır, ona mə'nəvi kömək edirdilər. Məktəbin açılışı münasibəti ilə göndərilən teleqramlar, ünvanlar onun böyük həyati əhəmiyyətinə əyani sübut idi. Müsəlman ziyalı qadınları məktəbin açılışını öz həyatlarının mədəni bayramı, bütün bayramlardan və şənliklərdən ən əzizi sayırdılar. Teleqramlardan birində deyilirdi: «Biz nəslimizin və gələcəyimizin yaxşı olacağını görüb sevinirik və şadlığımızdan coşuruq».[1]

Azərbaycan ziyalıları tərəfindən tərtib edilən təbrik məktubunun altından ilk imzanı Azərbaycan ziyalılarının veteranı H.Zərdabi çəkmişdir.

Qazan müsəlmanlarının təbrikində Bakı qız məktəbinin Rusiyanın digər ucqarlarında yaşayan–müsəlman qadınlarının həyat yolunu işıqlandıracağı, bu məktəbin digər məktəblər üçün ana rolu oynayacağı ayrıca qeyd edilirdi.

Təkcə Azərbaycanda deyil, cəmi Qafqazda və Rusiyada nəşr edilən bir sıra dövri mətbuat Bakı qız məktəbinin açılışını böyük hərarətlə qarşıladı. Xarici ölkələrdə nəşr edilən kitablar belə Bakıda azərbaycanlı qız məktəbinin açılışını xəbər vermişdir.

[1] «Kaspi» qəzeti, № 219, 1901.

O vaxtlar Bakıda olmuş fransız səyyahı Baronde-Bay Parisdə nəşr etdirdiyi «Rusiyanın icmalı» adlı əsərinin «Dərbənddən Yelizavetpoladək» fəslində ilk «Rus-Azərbaycan» qız məktəbinin açılışını yüksək qiymətləndirərək yazırdı ki, bu ideya müasirdir, maraqlıdır, tə'sirləndiricidir. O, böyük çətinliklər hesabına meydana gəlmişdir.

İlk «Rus-Azərbaycan» qız məktəbinin müdiri H.Zər-dabinin arvadı Hənifə xanım Məlikova (Abbasova), rus dili və hesab müəllimi Mariya Mustafayeva, Azərbaycan dili və şəriət müəllimi isə Əsmə xanım Hafiz Məmməd Əmin Əfəndi qızı olmuşdur.[1]

Məktəb ilk dəfə 34 nəfər şagirdlə işə başladı. Az müddət ərzində şagirdlərin sayı artaraq 58 nəfərə çatdı. 1902-ci ildə onların sayı artıq 71 nəfər idi. Onlardan 35 nəfəri pulsuz oxuyurdu. Qəbul olunan şagirdlərin içərisində Şuşa və Tiflisdən, Zaqafqaziya və Qafqazın digər yerlərindən olanlar da var idi. Şagirdlər xüsusi məktəbli forması geyinirdi.

Qısa müddət ərzində məktəb geniş əhali kütləsinin hüsn-rəğbətini qazandı. Bakı «Rus-Azərbaycan» qız məktəbi digər yerlərdə də qız məktəblərinin meydana gəlməsinə qüvvəli tə'sir etdi. Onun mə'zunları isə xalq maarifinin, qadın təhsilinin carçıları, yeni məktəblərin açılmasında, gənc nəslin, ilk növbədə isə qızların təhsili sahəsində fəal mübarizlər oldular. İnqilabdan əvvəlki qadın ziyalılarının əsas dəstəsi Bakı qız məktəbinin yetişdirmələri olmuşlar.

Bakıda ilk azərbaycanlı qız məktəbinin təşkili cəmi Qafqaz ictimai həyatında bir canlanmaya səbəb oldu. Bu məktəbin müvəffəqiyyəti az sonra Tiflisdə, İrəvanda, Naxçıvanda və başqa yerlərdə də yeni qız məktəblərinin meydana gəlməsinə qüvvətli təkan verdi.

Məqalə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi Əsərlərinin (pedaqoji-psixoloji elmlər seriyası) 1970-ci il tarixli 6-cı sayında (s. 21–32.) çap olunmuşdur.

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 16780, v. 1–2.

XIX ƏSRDƏ AZƏRBAYCAN DİLİNDƏ DƏRSLİK VƏ TƏDRİS VƏSAİTLƏRİ TƏRTİBİ TARİXİNDƏN

Azərbaycanın məktəb tarixi ilə bərabər, Azərbaycan dilinin tədrisi, dərs vəsaitləri və dərsliklərinin tərtibi, onların nəşri tarixinin öyrənilməsi həmişə tədqiqatçıları maraqlandırmış, bu sahədə bir çox qəzet və jurnal məqalələrindən əlavə, son illərdə irihəcmli əsər və monoqrafiyalar da meydana gəlmişdir.

Arxiv sənədlərində Azərbaycan dilinin tədrisinə, dərslik və dərs vəsaitləri tərtibinə aid bə'zi yeni və maraqlı mə'lumatlara rast gəlirik. Bu sənədlər Azərbaycan dilində dərslik, dərs vəsaiti tərtibi və nəşri tarixi baxımından maraqlıdır. Oxuculara təqdim edilən bu məqalədə XIX əsrdə Azərbaycan dilində meydana gələn bə'zi dərslik və dərs vəsaitlərinin tərtibi və nəşri məsələlərindən bəhs edilir.

XIX əsərdə Azərbaycan dili təkcə Zaqafqaziyada deyil, bütün Yaxın Şərqdə böyük rol oynayırdı. «Fransız dili ilə Avropanı dolaşmaq mümkün olduğu kimi», Azərbaycan dili ilə də «Asiyanı başdan-başa dolaşmaq olardı» (Bestujev-Marlinski). Zaqafqaziya vilayətlərinin Rusiya vilayətlərinin Rusiya tərəfindən işğalından sonra, burada yerli əhalinin azərbaycanlılardan ibarət olan böyük hissəsini idarə etmək və onu Rusiyaya yaxınlaşdırmaq üçün çar mə'murlarının Azərbaycan dilini bilməsinə böyük ehtiyac var idi. Digər tərəfdən isə Azərbaycanda da geniş yayılmış fars dilinin, bununla da İran tə'sirinin qarşısını almaq üçün Azərbaycan dilinə üstünlük verilirdi.

General Yermolov bu ölkənin hakimi olduğu zaman azərbaycanlılar yaşayan yerlərə göndərdiyi əmrlərdə əhalinin farsca yazmasını qadağan edərək, öz yazı işlərini ancaq Azərbaycan dilində aparmalarını məsəhət görürdü. Bundan sonra hər yerdə müxtəlif qaydalarda olsa da, yazı işləri Azərbaycan dilində aparılmağa başlandı.[1]

Bütün bunların nəticəsi idi ki, cəmi Qafqazda ən geniş yayılmış olan Azərbaycan dili, təkcə Azərbaycanda deyil, Zaqafqaziyanın və Qafqazın bir sıra iri şəhərlərində, o cümlədən Tiflis, İrəvan, Dərbənd,

[1] Bax: M.F. Axundov. Əsərləri, 3-cü cild, Bakı 1962, 70.

Kutaisi, Axalkələk, Stavropol və Qori qəza məktəblərində, Tiflis gimnaziyası və ruhani seminariyasında tədris edilirdi. Xüsusilə də rusların bu dili təcrübi öyrənməsinə ayrıca fikir verilirdi.

Azərbaycan dilində müvafiq dərslik və dərs vəsaitinin olmaması ilk vaxtlar bu dilin müvəffəqiyyətlə öyrənilməsi işini çətinləşdirirdi. M.F.Axundov yazırdı:

«...Hər yerdə qəza məktəbləri açıldığı zaman hökumət başqa fənlərlə bərabər, bu məktəblərdə Azərbaycan dilinin öyrənilməsini də lazım bildi. Lakin bu dildə dərs kitabları olmadığına görə böyük çətinliklər meydana çıxdı».[1]

Azərbaycan dili üzrə dərs vəsaiti yoxluğundan bəhs edən Zaqafqaziya məktəblər direktoru, mülki müşavir Qruberin 1833-cü ildə Xalq Maarifi Departamentinə müraciətlərindən birində deyilirdi ki, «Keçmiş Tiflis əsilzadələr məktəbində olduğu kimi, indi də gimnaziyada tatar (Azərbaycan–H.Ə.) dilinin keçilməsinə aid dərs vəsaiti tamamilə çatmır. Halbuki bu dil Zaqafqaziya əyalətlərindəki yerli dillərdən ən mühümüdür və bu vaxtadək bu dildə nəinki çap şəklində kitab olmamış, hətta, necə deyərlər, əlyazması şəklində də heç bir kitab yoxdur»[2].

Yerli xalqları özünə yaxınlaşdırmaq, bu xalqların dilini, ilk növbədə isə Azərbaycan dilini bilən mə'murlar hazırlamağı qarşısına məqsəd qoyan hökumət, M.F. Axundovun dediyi kimi, bir çox tədbirlərlə yanaşı, Azərbaycan dilində ədəbiyyatın, ilk növbədə isə dərs vəsaitinin yaradılmasına da diqqət verməyə məcbur oldu.

Azərbaycan dilində ilk dərs vəsaiti və dərsliklər yaratmaq işində Tiflis qəza məktəbi və gimnaziyasının xeyli rolu olmuşdur.

Mə'lum olduğu kimi, XIX əsrdə Tiflis Zaqafqaziyanın inzibati mərkəzi olmaqla, həm də mədəni mərkəzi idi. Zaqafqaziya məktəblər direktoru ilk növbədə Tiflisdə çalışan müəllimlərin qüvvəsindən istifadə edərək Azərbaycan dilinin tədrisini yaxşılaşdırmağa dərslik və dərs vəsaiti çatışmazlığını aradan qaldırmağa sə'y edirdi.

Azərbaycan dilində sövti üsulla ilk dərslik yaratmağa cəhd edənlərdən biri M.F.Axundov olmuşdur.

[1] Yenə orada.
[2] LMDTA, f. 733, s. 82, iş 22, v. 36.

Mə'lum olduğu kimi, 1836-1840-cı illərdə Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi vəzifəsində işlədiyi zaman sövti üsulla yeni bir dərslik yaratmağa təşəbbüs etmişdi. Həmin məktəbin müdiri X.Abovyanın 1839-cu ildə tərtib etdiyi «Naxaşaviq» adlı erməni dili dərsliyinə alman dilində yazdığı müqəddimədə deyilir: «Bizim qəza məktəbinin tatar (Azərbaycan–H.Ə.) dili müəllimi Mirzə Fətəli Axundov öz vətəndaşları üçün bu üsulla (sövti üsul nəzərdə tutulur–H.Ə.) bir dərs kitabı tərtib etməyə başlamışdır»[1]. Çox təəssüf ki, elm aləminə, hələlik bu fikri təsdiq edən ikinci bir e'tibarlı mənbə yoxdur və çox güman, qəza məktəbi müəllimi vəzifəsindən çıxması və onsuz da çox olan qulluq işi ilə əlaqədar olaraq o, bu fikirdən daşınmışdır.

Lakin M.F.Axundov müəllimlik vəzifəsindən azad olmasına baxmayaraq, Azərbaycan dilində tərtib edilən dərslik və dərs vəsaitlərinin müzakirəsində fəal iştirak edir, rə'ylər yazırdı.

Leninqrad və Tbilisi şəhərlərindəki dövlət arxivlərində saxlanılan bir çox sənədlərdən aydın olur ki, XIX əsrin 30-40-cı illərindən başlayaraq bu sahədə az-çox iş görülmüşdüsə də, mətbəə yoxluğu üzündən həmin vəsaitlərin əksəriyyəti əlyazması şəklində qalmışdır. Maraqlıdır ki, bu dövrdə azərbaycanlılarla yanaşı, Azərbaycan dilini az-çox bilən və ya öyrənməyə cəhd edən digər millətlərdən olan müəllimlər də bu dildə dərs vəsaiti tərtib və nəşr etməyə təşəbbüs etmişlər. Onlardan biri də Tiflis gimnaziyasının inspektoru N.Dementyevdir.

Leninqrad və Tbilisi şəhərlərindəki dövlət arxivlərində saxlanılan bir sıra sənədlərdə onun 1838-ci ildə Azərbaycan dilində əlifba, qiraət kitabı, sərf-nəhv və lüğət tərtib etməsi göstərilir.

Zaqafqaziya məktəblər direktorunun Rusiya XMN-yə göndərdiyi bir məktubunda bu kitabların Zaqafqaziyanın baş hakimi tərəfindən bəyənilməsi və onların çap edilərək Zaqafqaziya məktəblərinin istifadəsinə verilməsi qeyd edilir.

N.Dementyevin əlifba və lüğətlə (biri Azərbaycan-erməni-rus, digəri isə Azərbaycan-gürcü-rus dilində olmaqla) birlikdə qiraət kitabı 1839-cu ildə Tiflisdə Arzanov qardaşlarının mətbəəsində çap olunmuş, əlifba kitabından 2 nüsxə, Azərbaycan-rus-gürcü lüğəti olan

[1] Ermənistan SSR Mədəniyyət Nazirliyi, Y.Çarens adına Ədəbiyyət və İncəsənət muzeyi, X.Abovyanın fondu, inv. № 26, v. 4 arx.

qiraət kitabından 16, Azərbaycan-erməni-rus lüğəti olan qiraət kitabından isə 60 nüsxə Peterburqa–Xalq Maarif Departamentinə göndərilmişdir.

N.Dementyev 1839-cu il mayın 18-də Xalq Maarifi Departamentinə yazırdı: «Vəsaitin məhdudluğu, xüsusilə bu sahədə mütəxəssislərin çox az olduğu və Zaqafqaziya ölkəsində mətbəə sənətinin ilk təcrübəsi kimi, bu nəşrlər, əlbəttə, öz zərifliyi ilə heç də tə'rifəlayiq deyildir.

Kitab öz texniki tərtibatı ilə ola bilsin ki, şərq-şünasları tamamilə tə'min etməsin, lakin hər halda Zaqafqaziya məktəblərində tatar (Azərbaycan–H.Ə.) dilinin tədrisində bir vəsait kimi faydalıdır».[1]

N.Dementyevin göstərilən dərslikləri son vaxtlaradək əldə edilmədiyindən bu kitablar haqqında mə'lumat yalnız arxiv sənədlərindən ibarət olaraq qalırdı. Apardığımız axtarışlar nəticəsində bu yaxınlarda həmin kitablardan biri Azərbaycan-erməni-rus dillərində lüğəti olan qiraət kitabının bir nüsxəsi əldə edilmişdir. Kitabın titul səhifəsində rus dilində: «Басни и повести для первоначального чтения Переводы с персидского языка и отчасти составлены вновь на татарском языке при Тифлисской гимназии. В пользу учащихся в Закавказских училищ. Тифлис, 1839 г. В типографии Л. и Д. Арзановых» yazılmışdır.

Hələlik yeganə nüsxə olan bu kitab hazırda Yerevan şəhərində Myasnikov adına Mərkəzi Dövlət Kitabxanasının nadir kitablar fondunda saxlanılır.

Kitaba müəllif tərəfindən «N.D.» imzası ilə rus dilində müqəddimə yazılmışdır. Orada deyilir: «Təqdim edilən bu kitab mənim bu yaxınlarda Zaqafqaziya məktəblərində oxuyan şagirdlərin faydalanması üçün rus dilində nəşr etdirdiyim tatar (Azərbaycan–H.Ə.) əlifbasının davamıdır. Cəmi Zaqafqaziya ölkəsində, İranın böyük hissəsində və qismən Türkiyədə işlədilən tatar (türk) dili (Azərbaycan dili nəzərdə tutulur–H.Ə.) özünün səlisliyinə və gözəlliyinə baxmayaraq, orijinal ədəbiyyat yoxdur və yaxud bu dildə yazılan əsərlər çox azdır».

Müəllif göstərir ki, o, öz vəzifəsi daxilində həmvətənlərinin, xüsusilə Tiflis gimnaziyasında oxuyanların Azərbaycan dilini

[1] LMDTA, f. 733, s. 82, iş 42, v. 22 arx.

öyrənməsini asanlaşdırmağa yollar axtararaq, Moskva imperator Universitetinin Şərq dilləri professoru A.Boldırevin 1826-cı ildə Moskvada nəşr etdirdiyi fars müntəxəbatından bu dili bilənlər vasitəsilə özünün rəhbərliyi altında bə'zi mətnləri tərcümə etdirərək öz kitabına daxil etmiş və hekayələr bölməsinə bə'zi mətnləri əlavə edərək çap etmişdir.

Müqəddimədə deyilir: «Mənim məqsədim bu vaxtadək Zaqafqaziya məktəblərində bu dilin (Azərbaycan dili nəzərdə tutulur–H.Ə.) ibtidai tədrisində bu vaxta qədər olmayan rəhbərlik yaratmaqdır».

Müqəddimənin sonundakı qeyddə müəllif göstərir ki, yerli müsəlmanların demək olar hamısının Şərq dillərində olan kitabları Avropa qaydası ilə oxumağa adət etmədiklərini, həmçinin Zaqafqaziya məktəblərində Şərq dillərindən dərs deyən müəllimlərin arzusunu nəzərə alaraq kitabdakı mətnlər Şərq adəti ilə sağdan sola düzülmüşdür.

Göstərilən dərslik 108 səhifədən ibarətdir. Kitabı quruluşuna görə iki hissəyə bölmək olar. Birinci hissə oxu mətnləri, ikinci hissə isə lüğətdən ibarətdir. Oxu mətnlərindən ibarət olan birinci hissənin ilk 20 səhifəsini təmsillər təşkil edir. Kitaba «Tülkü və qurd», «Tülkü, it və qurd», «Dəvə və tikan», «Siçan və cücə nağılı», «Dəvə və uzunqulaq», «Qarışqa və quş», «Tovuz, qarğa və tısbağa», «Bağban və bülbül», «Bülbül və qarınca» adlı 9 təmsil daxil edilmişdir.

Kitabın 20–44-cü səhifələrində 11 hekayə verilmişdir («Sövdəgər və höcətçi», «Zərgər və qoşun adamı», «Sövdəgər qızı və padşah», «Üç rəiyyət» və s.). Kitabın əsas hissəsini təşkil edən təmsillər və hekayələr Azərbaycan dilində olub, ərəb əlifbası ilə çap edilmişdir. 44-cü səhifədən sonra isə mətndə işlədilən sözlərin Azərbaycan, rus və erməni dillərində lüğəti verilmişdir.

Erməni sözləri erməni, rus sözləri rus, Azərbaycan sözləri isə ərəb əlifbası ilə yazılmışdır.

N.Dementyevin bu kitabı o vaxtlar Zaqafqaziya məktəblərində Azərbaycan dilinin təcrübi olaraq öyrənilməsi üçün nəşr edilmiş yeganə vəsait idi.

N.Dementyevin bu vəsaitlərindən Azərbaycandakı dövlət məktəblərində Azərbaycan dilinin tədrisi işində istifadə edilmişdirmi? Arxiv sənədləri bu suala müsbət cavab verir. Həmin

vəsaitlərin hər ikisindən Şamaxı qəza məktəblərində istifadə edilməsini təsdiq edən sənədlər saxlanmaqdadır. 1854-cü ildə Şamaxı qəza məktəbinin əsaslı kitabxanasında olan kitabların siyahısında (cəmi 181 kitab) digər kitablarla yanaşı, Dementyevin hər iki kitabı da vardır. Gürcüstan SSR MDA-də saxlanılan sənəddə Şamaxı qəza məktəbinin əsaslı kitabxanasının 2. IV.1854-cü ildə tərtib edilmiş siyahısında da hər iki vəsaitin adı göstərilir.

Digər qəza məktəblərində də bu kitablardan istifadə edilməsi şübhəsizdir.

N.Dementyevin göstərilən kitabları XIX əsrdə Azər-baycan məktəb tarixini, Azərbaycan dilinin tədrisi və Azərbaycan dilində kitab nəşri tarixini öyrənmək baxımından əhəmiyyətlidir.

Yeri gəlmişkən N.Dementyevə aid edilən digər bir tədris vəsaiti ilə əlaqədar olan fikir və mülahizələri də göstərmək lazımdır. Bu vəsait əlyazması şəklində 12 vərəqdən ibarət olub «Краткие правила для словесного употребления языка персидского (татарского), на коем говорят во всем Закавказском крае, в Азербайджане и почти по всей Персии» adlanır. Müəllifi mə'lum olmayan həmin əlyazması hazırda Ermənistan SSR Mədəniyyət Nazirliyinin Yerevan şəhərin-dəki Y.Çarens adına Ədəbiyyat və İncəsənət muzeyində məşhur erməni yazıçısı və pedaqoqu X.Abovyanın fondunda saxlanılır.

Rus dilində yazılmış «Краткие правила...»da Azərbaycan dilinin yeddi nitq hissəsindən (isim, əvəzlik, fe'l, fe'li sifət, zərf, söz önlüyü, bağlayıcı və nida) bəhs edilir.

Qeyd etmək lazımdır ki, son illərdə bə'zi tədqiqatçılar «Краткие правила...»nın X.Abovyanın arxivində saxlandığını və sövti üsulla tərtib edildiyini əsas götürürək onu X.Abovyana aid edir və bu sahədə mülahizələr söyləyirdilər.[1] Lakin son tədqiqatlar həmin mülahizələrin əsassız olduğunu göstərir. Filologiya elmləri doktoru, görgəmli abovyanşünas P.O.Akopyan uzun illər axtarışlar apararaq həmin əlyazmanın X.Abovyana deyil, N.Dementyevə aid olduğunu elmi dəlillərlə sübut etmişdir.[2]

---

[1] Bax: Ə.Ə.Seyidzadə. X.Abovyanın XIX əsrin qabaqcıl Azərbaycan fikir nümayəndələri ilə əlaqəsi; Azərbaycan SSR EA-nın xəbərləri, 1956, № 3, 63; yenə onun. X.Abovyanın və XIX əsrdə Azərbaycanın qabaqcıl nümayəndələri ilə onun əlaqəsi», Bakı, 1960, 52-56; Q.Antonyan. Erməni və Azərbaycan xalqlarının ədəbi əlaqəsi, Bakı, 1955, 45–46.

[2] Bax: P.O.Akopyan. Abovyanşünaslıq axtarışları. Ermənistan SSR EA-nın tarix-filoloji jurnalı, 1960, № 2 erməni dilində.

XIX əsrin ortalarında Azərbaycan dilinin öyrədilməsinə kömək edən daha bir sıra dərslik və dərs vəsaitlərinin meydana gəlməsi mə'lumdur. Kazan Universitetinin professoru M.Kazımbəyin «Türk-tatar dilinin qrammatikası», Tiflis gimnaziyasının Azərbaycan və fars dili müəllimlərindən M.P.Budaqovun «Türk-tatar dilinin əlifbası», L.Z.Budaqovun «Lüğəti-türki», M.Ş.Vazeh ilə İ.Qriqoryevin «Kitabi-türki», həmin gimnaziyanın ilahiyyat müəllimi P.İ.Romanovun «Tatarskiy bukvar», professor L.M.Lazarevin «Türk dilini müqayisəli müntəxəbatı» və b. Azərbaycan dilinin təcrübi danışıq qaydaları ilə bərabər, onun elmi cəhətdən öyrənilməsi işinə xeyli kömək etdi. Başqa millətlərin, ilk növbədə isə rusların bu dilin qaydaqanunlarını öyrənməsinə kömək etmək məqsədi ilə tərtib edilən bu dərsliklər, həmçinin mütərəqqi rus pedaqoji fikri və ədəbiyyatı nəticə e'tibarı ilə azərbaycanlı uşaqları üçün də yeni üsulla — sövti üsulu ilə yazılmış dərsliklərin tərtib edilməsinə şərait yaratdı. Bu sahədə ilk təşəbbüs edənlərin biri də Mirzə Ələkbər Elxanovdur (1828–1885). Ölkəmizin Moskva, Leninqrad, Tbilisi və Yerevan şəhərlərindəki Dövlət arxivlərində və kitabxanalarda saxlanılan bir sıra sənədlərdə onun pedaqoji fəaliyyətinə aid bir sıra maraqlı material saxlanmaqdadır. M.Ə.Elxanov keçmiş İrəvan qəzasının Uluxanlı kəndində anadan olmuş, İrəvan şəhərindəki Baş məscid nəzdindəki ruhani məktəbini bitirmişdir. O, 1856-cı ildə Tiflis gimnaziyasında imtahan verərək Azərbaycan dili (və şəriət) müəllimi adı almış və həmin ildə İrəvən şəhərindəki qəza məktəbinə Azərbaycan dili və şəriət müəllimi tə'yin edilmişdir. M.Ə.Elxanov azərbaycanlılardan ilk dəfə rəsmi müəllimlik hüququ alanlardan biri idi.

Dövrünün mühüm ictimai və mütərəqqi pedaqoji hadisələri ilə yaxından maraqlanan M.Ə.Elxanov rus dilini öyrənir, rus və Şərq dillərində olan kitablardan faydalanaraq öz mə'lumatını daim zənginləşdirirdi. Ömrünün sonuna qədər İrəvan qəza məktəbində, İrəvan progimnaziyası və gimnaziyasında müəllimlik edən M.Ə.Elxanov uzun müddət qüsursuz işlədiyinə görə 1878-ci ildə müsəlmanlar üçün tə'sis edilən üçüncü dərəcəli Stanislav, 1885-ci ildə isə üçüncü dərəcəli müqəddəs Anna ordenləri ilə təltif edilmişdir.

M.Ə.Elxanovun pedaqoji fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri, onun böyük rus pedaqoqu K.D.Uşinskinin pedaqoji

ideyalarını mənimsəyərək, «Vətən dili» kitabı nümunəsində «Azərbaycan dilinin əlifbası» («Азбука татарского языка») adlı dərslik tərtib etməsidir. Araşdırdığımız arxiv materialları içərisində onun dərsliyinin əlyazmasını hələlik tapa bilməsək də, əldə etdiyimiz bir çox rəsmi sənədlər həmin dərslik haqqında fikir söyləməyə imkan verir.

Sənədlərdən mə'lum olur ki, M.Ə.Elxanovun göstərilən dərsliyinin nəşr edilməsinə icazə almaq məqsədi ilə əlyazması 1883-cü ildə Qafqaz tə'lim dairəsinin popeçiteli tərəfindən Rusiya Xalq Maarif Nazirliyinə göndərilmişdir. Nazirliyin elmi komitəsi həmin il may ayının 2-də bu dərsliyin əlyazmasını müzakirə etmişdir. Əlyazmasına Peterburq universitetinin dosenti V.Smirnov geniş rə'y vermişdi.[1] Rə'ydən və digər sənədlərdən mə'lum olur ki, bu dərslik iki hissədən ibarət tərtib edilmişdir. 48 səhifədən ibarət olan birinci hissə giriş olub, rəhbərlik xarakteri daşıyırdı. Bu hissədə müəllif, o vaxta qədər ərəb əlifbasının sistemsizliyindən və Azərbaycan dilinin tədrisinə vahid tə'lim üsulunun olmamasından bəhs edir. Orada deyilir:

«Hər bir tatar (Azərbaycan–H.Ə.) dili müəllimi öz üsulu ilə dərs deyir, daha doğrusunu desək, heç bir üsul yoxdur. Dilin öyrədilməsindəki müvəffəqiyyətsizlik və çətinlik də bununla izah olunur» Bütün bunlar isə M.Ə.Elxanovu «tatar (Azərbaycan–H.Ə.) dilinin öyrənilməsi üçün rəhbərlik tərtib etməyə sövq etmişdir.»[2].

Dərsliyin 49-cu səhifəsindən sonrakı ikinci hissəsi K.D.Uşinskinin «Vətən dili» dərsliyi nümunəsində olub, oxu materiallarından ibarət idi. Buraya əhalinin həyat tərzinə və məişətinə aid olan sözlərdən ibarət mətnlər daxil edilmişdir. Dərslik tərtibində Uşinskinin ardınca gedən M.Ə.Elxanov dərsliyin tərtibi prinsipində ona istinad edərək, orijinal yol seçmişdir. Dərslikdəki mətnlərin məzmununa, rus məişətinə xas olan əşya adları əvəzinə Azərbaycan məişətinə xas olan əşya adları daxil edilmişdir. Uşinskinin «Vətən dili» kitabında olduğu kimi, M.Ə.Elxanov da hər bir növ əşya adlarından sonra müxtəlif növlərdən olan əşya adlarının qarşılığını da verir ki, bu da müəllimin şifahi yolla əşyaları qruplara

[1] Bax: LMDTA, f. 734, s. 3, iş № 46, 1883-cü il, 803-809.
[2] Bax: Ermənistan SSR MDTA, f. 1, s. 1, iş 322, v.2.

ayırmaq üçün şagirdlərin bilik və bacırığını inkişaf etdirmək məqsədindən irəli gəlirdi.

Azərbaycan dilində işlədilən müxtəlif və müvafiq zərbiməsəllərin seçilib dərsliyə daxil edilməsi kitabın üstün cəhətlərindən idi.

M.Ə.Elxanovun dərsliyi şagirdlərin oxu və yazı tə'limi üçün hazır material olub, müəllimlər üçün faydalı vəsait idi.

Rusiya XMN Elmi Komitəsinin 799 nömrəli jurnalından (protokolunda) çıxarışdan görünür ki, Komitə M.Ə.Elxanovun Azərbaycan dili dərsliyinin faydasını nəzərə alaraq onun nəşr edilməsini məsləhət görmüşdür.

M.Ə.Elxanovun «Azərbaycan dili» dərsliyinin çapa hazır olmasına aid digər bir rəsmi mənbə də vardır. Qafqaz tə'lim dairəsi popeçitelinin 1884-cü ildə nəşr edilən «Sərəncamlar» adlı aylıq məcmuəsinin 9-cu nömrəsində dairənin tədris müəssisələrində çalışan müəllimlərin əsərlərinin siyahısı nəşr edilmişdir. Həmin siyahıda oxuyuruq: «29. İrəvan gimnaziyasının tatar (Azərbaycan–H.Ə.) dili müəllimi Mirzə Elxanov. «Tatar (Azərbaycan–H.Ə.) dili dərsliyi», Uşinskinin «Vətən dili», kitabı nümunəsində tərtib edilmişdir. Kitab çapa hazırlanır».

Lakin M. Elxanovun ölümü onun hazırladığı dərsliyi nəşr etdirməyə imkan vermədi. «Sərəncamlar»ın növbəti nömrələrindən birində onun 1885-ci il martın 31-də vəfat etdiyi xəbər verildi (onun yerinə Zaqafqaziya müəllimlər seminariyasını bitirən məşhur pedaqoq Firidunbəy Köçərli tə'yin edildi).

Ömrünün 30 ilə qədərini xalq maarifinə həsr edən Mirzə Ələkbər Elxanov «Azərbaycan dili dərsliyi» adlı tərtib etdiyi kitabla XIX əsr Azərbaycan məktəbinə böyük xidmət göstərmişdir.

Məqalə «Azərbaycan məktəbi» jurnalının 1970-ci il tarixli 10-cu sayında (s. 75–80) çap olunmuşdur.

AZƏRBAYCAN MƏKTƏBLƏRİ XIX ƏSRİN ORTALARINDA

XIX əsrin ortalarında Azərbaycanda mövcud olan məktəbləri üç tipə bölmək olar: 1) məktəb və mədrəsələr; 2) dövlət məktəbləri; 3) müsəlman məktəbləri.

Məktəb və mədrəsələr orta əsrlər Azərbaycanının ən yaxşı mədəni ən'ənələri və pedaqoji nailiyyətləri əsasında inkişaf edirdi. Əvvələr olduğu kimi, XIX əsrin ortalarında da bu tip məktəblər ən çox yayılmış tədris müəssisələri idi. Məktəblər Azərbaycanın bütün şəhərlərində və demək olar ki, kəndlərinin əksəriyyətində mövcud idi.

Bu məktəblərin dəqiq hesabatı aparılmamasına baxmayaraq, müxtəlif mənbələrdən onların sayına və s. aid mə'lumat əldə etmək mümkündür. Məsələn, 1859-cu ildə təkcə Şuşa şəhərindəki 10 məktəbdə 280 şagird oxuyurdu. Hər bir məktəbdə oxuyan şagirdlərin sayı 16 ilə 51 arasında tərəddüd edirdi.[1] Qəza kəndlərində isə 18 məktəb fəaliyyət göstərirdi ki, burada 474 şagird təhsil alırdı. Hər məktəbdə oxuyan şagirdlərin sayı 11 ilə 53 arasında idi. Ən çox şagird Yuxarı Lənbəran məktəbində idi.[2]

Məktəb və mədrəsələrin daha çox mövcud olduğu yerlərdən biri Şamaxı idi. 1859-cu ildə Şamaxı quberniyasında 299 məktəb və mədrəsə var idi ki, burada 4700 nəfər təhsil alırdı. Bu məktəblərdən 37-i şəhərlərdə idi.[3]

1853-cü ilin mə'lumatlarına görə Nuxa qəzasında 163, 1854-cü ildə 195, 1858-ci ildə isə 168 məktəb var idi. Bu məktəblərin ayrı-ayrı sahələr üzrə yerləşməsi aşağıdakı kimi idi:

1853-cü ildə ən az şagird Xaçmaz sahəsinin Muxas və Nuxa sahəsinin Aşağı Göynük kəndində olub, hər birində iki nəfər idi. Ən çox şagirdli məktəb 28 şagirdə malik olan Qəbələ mahalının Vəndam kəndində, 1854-cü ildə isə ən çox şagird Qutqaşen kəndində idi (40 nəfər).

Bakı şəhərində və Abşeron kəndlərində məktəblərin sayına və əhalinin təhsilinə aid bir sıra maraqlı mə'lumatlar vardır. Mənbələrdən birində deyilir:—«Bakılılar təhsilin yalnız farsca, nadir

[1] Gürc. SSR MDA, f. 425, s. 1 iş № 502, v. 89.
[2] Gürc. SSR MDA, f. 425, s. 1 iş № 178, v. 13.
[3] Bax: Azərb. Tarixi, 2-ci cild, Bakı, 1964, 198.

hallarda isə ərəbcə yazıb oxumasına baxmayaraq, öz təhsilləri ilə Zaqafqaziyanın bütün digər sakinlərindən üstündür....

Sahələr	1853-cü il[1]		1854-cü il[2]		1859-cu il[3]	
	Məktəblərin sayı	Şagirdlərin sayı	Məktəblərin sayı	Şagirdlərin sayı	Məktəblərin sayı	Şagirdlərin sayı
Nuxa şəhəri	25	219	23	195	70	603
Nuxa sahəsi.	30	238	58	484	70	603
Xaçmaz sahəsi	21	208	31	223	21	177
Ərəş sahəsi	60	366	58	283	52	343
Qəbələ sahəsi	27	358	25	474	25	320
Cəmi:	**163**	**1389**	**195**	**1659**	**168**	**1443**

Bir çoxları Sə'di və Hafiz yaradıcılığına bələddir. Bakıda 20 molla 320 uşağın oxu və yazı tə'limi ilə məşğuldur. Bütün əyalətdə isə oxuyanların sayı 1000 nəfərə çatır. Bundan başqa Qala şəhərində 25 qız, həmçinin molla adlandırılan iki müəllimənin yanında təhsil alır.[4]

XIX əsrin ortalarında Azərbaycanın digər şəhər və kəndlərində də məktəb və şagirdlərin sayına aid bir sıra mə'lumatlar vardır.

1859-cu ildə Gəncə şəhərində 5 məktəb (36 şagird), Şəmşəddil sahəsində iki məktəb (10 şagird), Qazax sahəsində isə 7 məktəb (162 şagird) qeydə alınmışdır. Ən çox şagird Salahlıda (61 nəfər), ən az şagird isə Xılxına (2) və Xatınlıda (8) idi.[5]

Ayrı-ayrı mənbələrdə 1853-cü ildə Lənkəranda 4 məktəb (75 şagird), Salyanda 17 məktəb (166 şagird), 1865-ci ildə Ordubadda 5, Naxçıvanda isə 4 məktəbin olduğu qeyd edilir.

XIX əsrin ortalarında Azərbaycanda mövcud olan məktəblərin ümumi sayı 700-dən çox idi. Bu məktəblərin vahid tədris planı yox idi. Bir qayda olaraq dini kitablar oxudulur, Azərbaycan, ərəb və fars dilləri, hüsnxət öyrədilirdi. Məktəblərin bir çoxunda, xüsusilə Şamaxı və Şuşada oxu və yazı ilə bərabər Azərbaycan və Şərq ədəbiyyatı tədris edilir, poeziyaya həvəs aşılanırdı. Sə'di, Füzuli və Hafizin əsərləri əsas tədris vəsaitlərindən idi. Naxçıvan və Ordubad məktəblərində ərəb və fars dillərindən başqa, əlavə təhsil haqqı

[1] Gürc. SSR MDA, f. 425, s. 1, iş № 114, v. 4–9 arx.
[2] Yenə orada, v. 22–28 arx.
[3] Yenə orada, v. 76–77, iş № 178, v. 4–9.
[4] Obozrenie Rossiyskix vladeniy za Kavkazom, 4-cü cild, S.Peterburq, 1836, 47-48.
[5] Gürc. SSR MDA, f. 425, s. 1, iş № 178, v. 5-6 və arx.

almaqla əlkimiya, astrologiya (nücüm elmi, münəccimlik—uzduzlar haqda qədim sxolastik elm), magiya (sehrbazlıq, cadugərlik), ərəb farmokologiyası (dərmanların bədənə tə'sir etməsindən bəhs edən elm), müsəlman qanunşünaslığı və s. tədris edilirdi.[1] Tə'limin məzmunu orada müəllimlik edən mollanın biliyindən asılı idi. Çox vaxt məktəblərin əsasını lazımi pedaqoji hazırlığa malik olmayan mollalar qoyurdu. Məktəblər əsasən məscid nəzdində və ya şəxsi evlərdə yerləşirdi. Məktəb üçün bina seçərkən müəllim pedaqoji məqsəddən əlavə, bə'zən həm də ticarət məqsədini əsas götürürdü. Digər qazanc mənbəyi olmayan molla, öz güzəranını keçirmək üçün dərs deməkdən əlavə, həm də ticarətlə məşğul olurdu. Ona görə də məktəblər daha gediş gəmini çoxalan küçələrdə təşkil edilirdi. Çox vaxt məktəb binaları adi şəraitdən məhrum olub pedaqoji, səhiyyə və gigiyena tələblərinə cavab vermirdi.

Məktəblərdə dərs ilinin başlanması və qurtarmasının müəyyən vaxtı yox idi. Məktəbə qəbul il ərzində davam edirdi. Tədris fərdi xarakter daşıyırdı. Məktəbi bitirmək şagirdin bacarığından asılı idi. Təhsil müddəti bə'zən 6–8 il davam edirdi. Şagirdlərin tərkibi yaş e'tibarı ilə müxtəlif idi. 7-8 yaşlı uşaqla bərabər 15-16 yaşlı gənclər bir yerdə oxuyurdu. Şagirdlər yaş və bilik dərəcələrinə görə sinfə və ya qrupa bölünürdü.

Məktəblərdə təhsil pullu idi. Təhsil haqqının miqdarı şagirdlərin yaşından, ailə vəziyyətindən asılı idi. Adətən hər şagirddən həftədə 5 qəpikdən 20–25 qəpiyədək təhsil haqqı alınırdı. Bundan başqa müxtəlif vaxtlarda, xüsusilə bayramlarda mollaya hədiyyələr verilirdi.

Məktəblərdə fiziki cəza hökm sürürdü. Ən e'tibarlı pedaqoji tə'sir vasitəsi falaqqa sayılırdı. Tə'lim ən'ənəvi hərf-heca üsulu ilə aparılırdı.

Mədrəsələrə gəlincə bu ad altında ali müsəlman məktəbi nəzərdə tutulurdu. Mədrəsələr iki növə–ibtidai və ali dərəcələrə bölünürdü. Ali müsəlman mədrəsələri Rusiyanın xaricində yerləşirdi. Ali təhsil almaq istəyən tələbələr adətən bu mədrəsələrin yerləşdiyi Tehran, Nəcəf, Təbriz, Kərbəla və s. şəhərlərə gedirdilər. Mədrəsələrdə təhsil pulsuz idi və başlıca olaraq xeyriyyəçilik hesabına həyata keçirilirdi.

[1] LMDTA, f. K-na (os), s. iş № 116, v. 72.

Mədrəsəyə adətən 16-dan yuxarı yaşı olanlar qəbul olunurdu. Şagirdlərin sayı 40–50 nəfərdən ibarət idi. Daha böyük mədrəsədə 100–200 nəfər təhsil alırdı. Şərqdə ən böyük mədrəsə Nəcəf şəhərində idi ki, burada 7000 tələbə var idi. Mədrəsədə əsasən ərəb dili, müsəlman ilahiyyəti və hüquqşünaslıq öyrədilirdi. Bunlardan əlavə həmçinin dialektika, məntiq və psixologiya keçirilirdi. Bunlar qədim yunan fəlsəfəsinin kəsik-qırıqları olub Vizantiyadan götürülmüş və «Qur'an» tə'limi ilə uzlaşdırılma xatirinə xeyli təhrif edilmişdi. Mədrəsələrdə həmçinin tarix, coğrafiya tədris edilirdi. Bə'zi mədrəsələrdə bir sıra dəqiq elmlər, o cümlədən hesab, cəbr və həndəsə öyrədilirdi. Məktəblər kimi, mədrəsələrdə də tə'lim müddəti qeyri-müəyyən idi. Tədris tələbənin bacarığından asılı olub 6-8 il, bə'zən isə 10–15 il davam edirdi.

Arxiv sənədlərində mədrəsələrin Azərbaycanın Bakı, Naxçıvan, Ordubad, Şamaxı, Şuşa və Gəncə şəhərlərində, həmçinin İrəvanda yerləşdiyi göstərilir. 1895-ci ilə aid mə'lumatlarda təkcə Şuşa şəhərində 12 mədrəsə fəaliyyət göstərirdi ki, burada 484 tələbə var idi. Bu mədrəsələrdən birinin 1838, digərinin isə 1842-ci ildən fəaliyyət göstərdiyi qeyd edilir.[1] Bu mədrəsələrin bə'zilərinin rəhbərləri ərəb və fars dilləri və ədəbiyyətını əsaslı bilməklə bərabər, Avropa elmlərindən də xəbərdar idilər. Burada zoologiya və anatomiya da tədris edilirdi.[2]

Əvvələr olduğu kimi, XIX əsrin ortalarında да məktəb və mədrəsələr Azərbaycanda ən çox yaylmış təhsil ocaqları olaraq qalmasına baxmayaraq, onların əksəriyyəti çox az bilik verirdi.

Məktəb və mədrəsələrdə təhsil dini ehkamlarla əlaqədar idi. Lakin bununla bərabər burada Şərq tarixi, mədəniyyati və dilləri tədris edilirdi.

«Azərbaycan tarixi»ndə deyildiyi kimi, «bir sıra məktəb və mədrəsələr şagirdlərə Şərq dilləri və ədəbiyyatına dair mükəmməl bilik verirdi.[3] Azərbaycan mədəniyyətinin o dövrdəki bir çox görkəmli nümayəndələri ibtidai təhsilini məhz məktəb və mədrəsələrdə almışdır.

[1] LMDTA, f. 91, s. 3. İş № 381, v. 1, və arx.
[2] Gürc. SSR, MDA, f. 422, s. 1, iş № 7150, v. 7.
[3] Bax: Azərbaycan tarixi, 2-ci cild, Bakı, 1064, 108.

Məktəb və mədrəsə təhsili alanlardan bir qrupu realist maarifpərvər ədəbiyyata yaxınlaşır, elmi, maarifi təbliğ edirdi.

İkinci qrupa aid etdiyimiz dövlət məktəbləri, əsasən 1830-cu illərdən başlayaraq meydana gələn qəza məktəbləri idi. XIX əsrin ortalarında Azərbaycanda belə məktəblərin sayı cəmi 6 idi (Şuşa, Nuxa, Gəncə, Bakı, Şamaxı və Naxçıvanda). Zaqafqaziya məktəblərinin 1848-ci il nizamnaməsi ilə Azərbaycanda daha iki qəza məktəbi açmaq təsdiq edildi[1] (Quba və Lənkəranda). Lakin sonralar çar mə'murlarının bir sıra subyektiv mülahizələrinə görə göstərilən hər iki məktəbin tə'sisi tə'xirə salındı.

Mövcud qəza məktəblərində rus və Azərbaycan dilləri, şəriət, hesab, coğrafiya, hüsnxət tədris edilir, dəftərxana qaydaları öyrədilirdi.[2] Qəza məktəblərinin məqsədi: 1)yuxarı təbəqələrin uşaqlarına dövlət idarələrində qulluq etmək üçün təhsil verməkdən, 2)şəhər sakinlərinin uşaqlarına bə'zi bilik verməkdən, 3)yuxarı təbəqələrdən olanların uşaqlarını gimnaziyaya daxil olmağa hazırlamaqdan ibarət idi.[3] Bu məktəblər üç sinifdən ibarət idi. Birinci sinif hazırlıq sinfi idi. Hazırlıq sinfində tə'lim Lankaster üsulu[4] ilə aparılırdı. Qəza məktəblərinin hər birinin illik xərci 3210 manat olub xəzinədən ödənilirdi.[5]

XIX əsrin 50-60-cı illərində qəza məktəblərinin hər birində şagirdlərin sayı 46 (Gəncə) ilə 246 (Şuşa) arasında tərəddüd edirdi. Ən çox şagird Şuşa, Şamaxı və Naxçıvan qəza məktəblərində idi. (Bax: cədvəl № 1). Şagirdlərin milli tərkibi müxtəlif olub, azərbaycanlılar, ruslar, ermənilər və b. millətlərin nümayəndələrindən ibarət idi. 1858-ci il yanvarın 1-nə olan

[1] JMNP, fevral, 1849, 25.
[2] JMNP, fevral, 1849, 53.
[3] Yenə orada, 51.
[4] İlk dəfə İnglis pedaqoqu D.Lankaster (1778–1838) tərəfindən irəli sürülən qarşılıqlı tə'lim üsulu nəzərdə tutulur. Sonralar bu üsul ingilis pedaqoqu və keşişi A.Bell (1753–1832) və D.Lankasterin adı ilə Bell–Lankaster sistemi adlandırılmışdır. Bu sistemə görə ibtidai siniflərdə daha müvəffəqiyyətli və böyük yaşlı şagirdlər müəllimin köməkçisi sifətilə digər şagirdlərlə məşğul olurdu. Bu sistem XIX əsrin əvvələrində Rusiyaya da keçmişdi. (Bax: Pedaqoqiçeskaə gnüiklopediə v 4-x tomax, t.1, M., 1964, 176–177, t. 2, M., 1965, 580; Qerd, Zapiska ob otkrıtii pervoqo uçiliha vzaimnoqo obuçeniə v Rossii, «Jurnal dlə vospitaniə», 1858, № 2)
[5] JMNP, fevral, 1849, 60–70.

mə'lumata görə qəza məktəblərində oxuyan şagirdlərin milli tərkibi aşağıdakı kimi idi:

Məktəblər	Şagirdlərin sayı	Millətlər üzrə				
		azərb	rus	erməni	gürcü	farslar
1. Şuşa qəza məkt.	210	15	13	180	—	2
2. Nuxa qəza məkt.	76	25	5	44	2	—
3.Gəncə qəza məkt.	123	10	5	108	—	—
4.Naxçıvan qəza məkt.	112	10	9	93	—	—
5.Bakı qəza məkt.	61	10	5	46	—	—
Cəmi	**582**	**70**	**37**	**471**	**2**	**2**[1]

Şagirdlərin silki tərkibinə görə şəhərlərin (o cümlədən tacirlərin) uşaqları daha çoxluq təşkil edirdi.

Şagirdlərin silki tərkibini müəyyən etmək üçün 1840-cı illərdə Şamaxı qəza məktəbinə daxil olanlara nəzər salaq:

İllər	Məktəbə daxil olanların sayı	O cümlədən				Şagirdlərin cəmi sayı
		Şəhərli uşaqları	Bəy uşaqları	Ruhani uşaqları	Hərbiçi uşaqları	
1839[2]	50	23	9	5	13	50
1842[3]	35	10	5	15	5	85
1843[4]	45	33	4	3	5	105
1845[5]	33	16	9	2	6	126
Cəmi:	**163**	**82**	**27**	**25**	**29**	**366**

[1] Gürc. SSR, MDA, f. 422, s. 1. İş № 125, v. 11–15; Erm. SSR MDTA, f. 19, s. 1, iş № 31, müxt. Vərəqlər; N. Lordkipanidze, «K istorii Kavkazskoqo uçebnoqo okruqa», Trudı Tbilisskoqo qos. Ped. İnstituta im. A.S.Puşkina, t. XI, 1957 q. 469–470, M.H.Santrosyan. XIX əsrin birinci yarısında Şərqi ermənilərdə məktəb, Yerevan, 1964, 64 (ermənicə) və s.

[2] Azərb. SSR, MDTA, f. 321, s. 1, iş № 16, v. 20.

[3] Yenə orada, İş № 49, v. 46-47.

[4] Yenə orada, iş № 95, v. 32-33.

[5] Yenə orada, iş № 131, v. 3-5.

Cədvəl № 1.

Məktəblər	İllər										
	1850[1]	**1851**[2]	**1852**[3]	**1853**[4]	**1854**[5]	**1855**[6]	**1856**[7]	**1857**[8]	**1858**[9]	**1859**[10]	**1860**[11]
Şuşa qəza mək.	*110*	*131*	*171*	*191*	*180*	*246*	*175*	*210*	*210*	*185*	*185*
Nuxa qəza mək.	*61*	*66*	*65*	*54*	*62*	*81*	*80*	*76*	*76*	*83*	*83*
Bakı qəza mək.	*49*	*53*	*59*	*56*	*81*	*54*	*59*	*61*	*61*	*72*	*95*
Gəncə qəza mək.	*76*	*64*	*94*	*65*	*78*	*46*	*83*	*123*	*123*	*128*	*128*
Naxçıvan qəza mək.	*73*	*70*	*77*	*89*	*102*	*104*	*107*	*112*	*112*	*87*	*111*
Şamaxı qəza mək.	*102*	*150*	*155*	*137*	*125*	*158*	*158*	*144*	*144*	*82*	*82*
(1854-cü ildən 4 sin. Ali ibt. məktəb)											
Cəmi	**461**	**533**	**621**	**592**	**628**	**689**	**662**	**727**	**726**	**637**	**684**

Elm-fənn müəllimləri əsasən Rusiyanın daxili quberniyalarından də'vət olunanlar və qismən Tiflis gimnaziyasını bitirənlər, Azərbaycan dili (və şəriət) müəllimləri isə yerli ruhanilərdən idi.

XIX əsrin ortalarında qəza məktəbləri Azərbaycanda rus dilini və rus dilində dünyəvi təhsili yayan yeganə tədris müəssisələri idi. Çarizmin siyasətinə, təhsilin məzmunundakı səthiliyə, şagirdlərin yuxarı təbəqələrə mənsub olmalarına baxmayaraq, bu məktəblər

[1] LMDTA, f. 733, s. 202, iş № 1047, v. 89-91.
[2] Yenə orada.
[3] Azərb. SSR, MDTA, f. 845, s. 1, iş № 25, müxtəlif vərəqələr.
[4] Gürc SSR, MDA, f. 425, s. 1, iş № 91, v. 90; 100.
[5] Yenə orada, f. 4, s. 3, iş № 425, v. 78–86; Erm. SSR MDTA, f. 19, s. 1, iş № 31, başqa bir sənəddə—Şuşada 202, Nuxada 54, Bakıda 64, Gəncədə 66, Şamaxıda 155, Gürc. SSR MDA, f. 425, s. 1, iş № 115, v. 10, 13, 15, 36.
[6] Gürc. SSR, MDTA, f. 422, s. 1, iş № 84, v. 200–214, (başqa bir sənədə—Naxçıvanda 107, M.H.Santrosyan, Göstərilən əsər,64;1855-ci il martın 7-nə olan mə'lumata görə Şuşada 223, Nuxada 62, Bakıda 61, Gəncədə 75, Naxçıvanda 89, Şamaxıda 125, Aktlar, X cild, 721).
[7] Gürc. SSR, MDA, f. 425, s. 1, iş № 145, v. 17 arx; 67, 80, 109, 129; Erm. SSR, MDTA, f. 19, s. 1, iş № 31.
[8] Gürc. SSR, MDA, f. 422, s. 1, iş № 125, v. 11-15; M.H.Santrosyan, Göstərilən əsər, 469.
[9] Gürc. SSR, MDA, f. 422, s. 1, iş № 125; v. 11-15; Erm. SSR, MDTA, f.19 s. 1, iş № 31, N.Lordikipanidze, göstərilən əsər, 469 başqa bir sənəddə: Şuşada 182, Nuxada 75, Gəncədə 141, Bakıda 69, Şamaxıda 127; Gürc. SSR MDA, f. 425, s. 1, iş № 164, v. 32, 111, 113, 104; yenə orada, iş № 549, v. 15; Naxçıvanda 104, Erm. SSR MDTA. F. 20, s. 1, iş № 20, v. 13 arx.
[10] Gürc SSR, MDA, f. 425, s. 1, iş № 178, v. 160-168, iş № 559, v. 8–11.
[11] Kavkazskiy kalendarğ na 1861 q., Tiflis, 1860, 53-54.

Azərbaycanda xalq maarifinin yayılmasında müəyyən obyektiv əhəmiyyətə malik idi.

XIX əsrin ortalarında qəza məktəblərindən yalnız Şamaxı məktəbi 4 sinifli ali ibtidai məktəbə çevrildi.

Yeri gəlmişkən qeyd edək ki, 1840-cı illərdə Zaqafqaziyada aparılan islahat ilə əlaqədar olaraq Şamaxı şəhərinin Xəzər vilayətinin mərkəzinə çevrilməsi, həmçinin Zaqafqaziyada xüsusi təhsil dairəsi yaratmaq mülahizələri ilə əlaqədar burada orta məktəb–gimnaziya açmaq fikri meydana gəldi.[1] Lakin Zaqafqaziyanın Baş idarə şurası hələ vaxtı çatmadığını bəhanə edərək, Şamaxıda gimnaziya açmağı rədd etdi. Yalnız məktəblərin 1853-cü il nizamnaməsi ilə Şamaxıda gimnaziya əvəzinə 4 sinifli ali ibtidai məktəb açmaq təsdiq edildi (62)[2]. Bu məktəbin açılmasında çarizmin məqsədi gimnaziya tə'sis edilənədək imtiyazlı təbəqələrin ali və orta təhsil almasına az-çox şərait yaratmaqdan və özünü bu təbəqələrin mənafeyinin müdafiəçisi kimi göstərməkdən ibarət idi.

1854-cü il yanvarın 18-də Şamaxı qəza məktəbi 4 sinifli ali ibtidai məktəbə çevrildi[3]. Məktəb 4 əsas və bir hazırlıq sinfindən ibarət idi. Məktəbin nəzdində 50 nəfərlik pansion var idi ki, bunlardan 25 nəfəri dövlət hesabına saxlanılırdı (bunlardan 20 nəfəri yuxarı təbəqəyə mənsub olan müsəlmanlardan ibarət idi).

Nizamnamə üzrə burada aşağıdakı fənlər tədris edilirdi: 1) şəriət, 2) rus dili, 3) coğrafiya, 4) tarix, 5) riyaziyyat, 6) təbii tarix, 7) qanunşünaslıq, 8) Azərbaycan dili (ermənilər üçün erməni dili), 9) hüsnxət və rəsm[4]. Məktəbin illik xərci xəzinədən olub, gümüş pul ilə ildə 10.300 idi[5].

Şamaxı 4 sinifli ali ibtidai məktəb təkcə Azərbaycanda deyil, cəmi Zaqafqaziya və Qafqazda bu tipdən olan yeganə məktəb idi. Təşkilinin birinci ili buraya 118 nəfər qəbul edilmişdi ki, onlardan 17 nəfəri azərbaycanlı, 24-ü rus, 76 nəfəri erməni, 1 nəfəri isə yəhudi idi[6]. Şagirdlərin sayı get-gedə artırdı. 1857-ci ildə burada təhsil alan

[1] Bax: LMDTA, f. 733, s. 82, iş № 64, müxtəlif vərqlər.
[2] JMNP, çastğ LXXX, 1853, 48.
[3] JMNP çastğ LXXX, 1853.
[4] Çastğ LXXX, 1853, 50.
[5] Yenə orada, səh. 89.
[6] Azərb. SSR MDTA, f. 320, s. 1, iş № 3, v. 11.

195 nəfər şagirddən (32 nəfəri azərbaycanlı) idi[1]. 1857-ci ildə yeni qəbul olunan 36 şagirddən 11-i mülkədar, 12-si zabit, 2-si ruhani,11 nəfəri isə şəhər sakinlərinin uşaqları idilər[2]. Arxiv sənədlərində və dövri mətbuatda burada tə'limin müvəffəqiyyətinə aid xeyli maraqlı mə'lumat vardır.

Çarizmin məqsədinə, şagirdlərin əsasən yuxarı təbəqələrdən olmasına baxmayaraq Şamaxı 4 sinifli ali ibtidai məktəbi yerli əhali içərisindən yeni mütərəqqi ziyalıların yetişməsində xeyli rol oynadı.

Həmin məktəbdə təhsil alanlardan biri də gələcəyin məşhur maarifçisi və pedaqoqu Həsən bəy Zərdabi idi. O, həmin məktəbi bitirmək sayəsində Tiflis gimnaziyasına, sonra isə Moskva Universitetinə daxil olmuşdur.

Şamaxı 4 sinifli ali ibtidai məktəbi təxminən 6 il fəaliyyət göstərdi. 1859-cu ildə Şamaxıda baş verən zəlzələ nəticəsində məktəbi müvəqqəti olaraq ya Bakıya, yaxud da Şuşaya köçürmək lazım gəldi. İstər yolun yaxınlığı və rahatlığı, istərsə də ucuzluq cəhətincə Bakı daha əlverişli hesab edildi və həmin il oktyabrın 16-da məktəb Bakıya köçürüldü[3]. Məktəb Bakıda Abdulla Səlimbəy Kərimbəyovun mülkünün üst mərtəbəsində kirayə edilmiş 10 otaqda və bir böyük salonda yerləşirdi. Həmin ildə quberniya mərkəzinin də Bakıya köçürülməsi ilə əlaqədar məktəb də Bakıda saxlandı və Bakı 4 sinifli ali ibtidai məktəb adlandırıldı. Bakı qəza məktəbi isə Şamaxıya köçürüldü və Şamaxı qəza məktəbi adlandırıldı[4].

XIX əsrin ortalarında meydana gələn dövlət məktəblərindən biri də ibtidai məktəb adı ilə tə'sis edilən tədris müəssisələridir.

Zaqafqaziya məktəblərinin 1853-cü il nizamnaməsi ilə Azərbaycanda üç ibtidai məktəb açılması təsdiq edildi (§ III)[5]. Bunlardan biri Qubada, digəri Lənkəranda, üçüncüsü isə Ordubadda idi.

Yeri gəlmişkən qeyd edək ki, Zaqafqaziya məktəblərinin 1829, 1835 və 1848-ci il nizamnamələri ilə bu yerlərdə qəza məktəbləri açmaq təsdiq edilmişdi. Lakin yuxarıda göstərildiyi kimi, bu yerlərin heç birində qəza məktəbləri açılmadı. Bu şəhərlərin əhalisi isə rus dilini öyrənməyə, dünyəvi təhsilə sə'y göstərirdi. Xüsusilə Ordubad

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 125, v. 11.
[2] Azərb. SSR MDTA, f. 8, s. 1, iş № 118, v. 8-9.
[3] Gürc. SSR MDA, f. 8, s. 1, iş № 28, v. 4.
[4] Akt-lar, 12-ci cild, səh 1375.
[5] JMNP, çastğ LXXX, 1853, str. 58.

və Quba əhalisi bir çox ərizə və müraciətlərində məktəb açmağı xahiş edirdilər. Zaqafqaziya məktəbləri direktorunun 1846-cı ilə aid hesabatında ordubadlıların maarifə cəhd etməsi, heç olmazsa məhəllə məktəbi açılmasını xahiş etmələri ayrıca qeyd edilirdi[1].

İstər ordubadlılar, istərsə də qubalıların məktəb tə'sisi xahişi və tələbi uzun zaman nəticəsiz qaldı. Nəhayət, göstərilən yerlərdə yalnız ibtidai məktəblərin açılmasına icazə verildi. Cəmi bir sinifdən ibarət olan ibtidai məktəblərin tədris planına şəriət, rus və Azərbaycan dillərində yazı və oxu, hesab daxil idi[2]. Tə'lim Lankaster üsulu ilə aparılırdı.

İbtidai məktəblərə bütün təbəqələrdən olan 8 yaşlı uşaqlar qəbul olunurdu. Təhsil haqqı yox idi.

Azərbaycan ərazində ibtidai məktəblərin əsası 1854-cü ildə qoyuldu. Həmin il noyabrın 10-da Qubada, 24-də isə Ordubadda ibtidai məktəb açıldı[3].

Lənkəranda isə ibtidai məktəb 1856-cı il sentyabrın 21-də tə'sis edildi[4].

İbtidai məktəblərdə rus dili müəllimi vəzifəsinə gimnaziya mə'zunlarından, bunlar olmadıqda isə qəza məktəblərini bitirənlərdən tə'yin olunurdu. Məktəbin müdiri vəzifəsi bir qayda olaraq rus dili müəlliminə tapşırılırdı.

Azərbaycan dili (və şəriət) müəllimi yerli ruhanilərdən idi. Bu fənn Qubada Əlibəy Həsənbəyov, Lənkəranda Mirzə Səfər Məmmədov, Ordubadda Mirzə Əli Məmmədbəy Mirzəağa oğlu Əlixanov tərəfindən tədris edilirdi. (Ə.Hasınbəyov ilə M.S.Məmmədov Tiflisdə imtahan vermək yolu ilə ibtidai məktəb müəllimi adı alan ilk azərbaycanlılardandır)[5].

İbtidai məktəblərdə şagirdlərin sayı təxminən 30 ilə (Quba) 90 (Lənkəranda) arasında tərəddüd edirdi. Milli tərkibinə görə şagirdlərin əksəriyyəti azərbaycanlılardan ibarət idi. 1856-cı ildə

[1] Bax: Gürc. SSR MDA, f. 4. S. 3 iş № 996, v. 14.
[2] JMNP, çastğ, LXX, 1853, str. 59.
[3] Gürc. SSR, MDA, f. 4. S. 3, iş № 425, v. 8 arx; f. 422, s. 1, iş № 84, v. 209; 215; Akt-lar, XI cild, səh. 725, 968.
[4] Gürc. SSR, MDA, f. 425, s. 1, iş № 578, v. 21; Pamətnaə knijka KUO na 1879 q., Tiflis, 1879, 97.
[5] Gürc. SSR, MDA, f. 425, s. 1, iş № 378, v. 105; iş № 145, v. 161, aox. 170; f. 422, s. 1, iş № 2743, v. 3-5; f. 423, s. 1, iş № 177, v. 237.

Lənkərandakı 53 şagirddən 30-nu, nəfərini[1], 1957-ci ildə Ordubaddakı 32 şagirddən 19-nu nəfərini, 1858-ci ildə 39 nəfərdən 24-nu, 1859-cu ildə 36 nəfərdən 23-nu, 1860-cı ildə 53 nəfərdən 32-nu nəfərini azərbaycanlılar təşkil edirdi.[2] Silki tərkibcə şəhər sakinləri üstün idi. 1855-ci ilin əvvələrinə olan mə'lumata görə Quba ibtidai məktəbində oxuyan 46 şagirddən 41 nəfəri şəhərli, 5 nəfəri isə bəy uşaqları idi[3]. 1956-cı ildə Lənkərandakı 53 şagirddən 20 nəfəri dvoryan və bəy, 5 nəfəri ruhani, 28 nəfəri isə baş vergisi verənlərin uşaqları idi.

Təhsilin müvəffəqiyyətinə görə Azərbaycan ibtidai məktəbləri daha çox fərqlənirdi. QTD-nin popeçiteli 1858-ci ilə aid hesabatında yazırdı: «Lənkəran məktəbinin tə'sisindən sonra oraya ilk dəfə getməyim mənə böyük ləzzət verdi. Bu vaxtadək yalnız ibtidai məktəb dərəcəsində qalmasına baxmayaraq, bu məktəb Dairə məktəbləri içərisində şagirdlərin ümumi sayının yarıdan çoxunun müsəlman uşaqlarından ibarət olması çox sevindirici hadisədir. Belə mə'lum olur ki, Lənkəran müsəlmanları tə'limə böyük həvəs göstərir və şagirdlər arasında xeyli qabiliyyətli uşaqlar vardır»[4].

Məktəbin müvəffəqiyyətini nəzərə alan popeçitel, onu iki sinifli məktəbə çevrilməyi təklif edir və onun çox keçmədən qəza məktəbinə çevriləcəyinə ümid edirdi. 1860-cı ildə Lənkəran ibtidai məktəbini iki sinifli məktəbə çevirmək məsələsi qaldırıldı. Lakin gözlənilən islahatlarla əlaqədar olaraq həll edilməmiş qaldı.

Yerli əhali məktəbə tədris vəsaiti və maddi vəsait ilə kömək edirdi.

Üçüncü tipə aid etdiyimiz tədris müəssisələri—müsəlman məktəbələri adı ilə məşhur olub XIX əsr Azərbaycan məktəb tarixində ayrıca yer tutur[5]. Müsəlman məktəbləri özünün quruluşu ilə bir tərəfdən mövcud ruhani məktəblərindən, digər tərəfdən isə dövlət məktəblərindən fərqlənirdi.

«Müsəlman məktəbi» adı altında məktəb açmaq təşəbbüsü böyük maarifçimiz A.Bakıxanova aiddir. Mə'lum olduğu kimi, keçən

[1] Gürc. SSR, MDA, f. 425, s. 1, iş № 145, v. 167.
[2] M.H. Santrosyan. Göstərilən əsər, 65.
[3] Gürc. SSR, MDA, f. 425, s. 1, iş № 145, v. 167.
[4] Gürc. SSR, MDA, f. 8, s. 1, iş № 428, v. 22 arx.
[5] Bu haqda bax: N.A. Tahirzadə. XIX əsrin 40-cı illərinin sonu və 50-ci illərində Azərbaycanda müsəlman məktəbləri haqda. Azərb. Tarixinə dair materiallar, Azərb. Tarixi muzeyinin əsərləri, 1962, V cild.

əsrin 30-cu illərində həyatını bilvasitə xalq maarifi və məktəb ilə bağlayan A.Bakıxanov Bakıda azərbaycanlılar üçün məktəb açmağa aid müfəssəl bir layihə hazırlayaraq Qafqazın o zamankı baş hakimi baron Rozenə təqdim etmişdi. «Mayor Abasqulu ağa Bakıxanovun 1932-ci il fevralın 20-də tərtib etdiyi müsəlman məktəbinin tə'sis edilməsi layihəsi» adlanan bu sənəddə məktəbin quruluşu tədris planı, maddi vəsaiti, müəllim hey'əti və s. geniş şərh edilirdi[1]». Lakin unudulmaz maarifçinin bu təşəbbüsü çar mə'muru tərəfindən e'tinasız qarşılandı. Baron Rozen həmin layihəni öz şəxsi arxivinə atmaqla kifayətləndi. A.Bakıxanovun bu təşəbbüsü sonralar eyni adlı məktəblərin yaradılmasına tə'sirsiz qalmadı.

XIX əsrin ortalarında başqa məqsədlə də olsa, müsəlman məktəbi adlı məktəblər meydana gəldi. Hökumət və onun Zaqafqaziyadakı nümayəndələri çarizmin mövqeyini möhkəmləndirmək, yerli əhalini Rusiyaya yaxınlaşdırmaq, rus dilini yaymaq məqsədilə müsəlmanlara məxsus məktəb açmağa təşəbbüs etdi. Bu işdə Qafqazın o zamankı canişini M.S.Vorontsovun xeyli rolu oldu. O, müsəlmanların məişətinə, maarifinə rus tə'sirini daxil etmək məqsədilə Zaqafqaziyanın bir sıra iri şəhərlərində «müsəlman məktəbləri» adlanan məktəblər təşkil etməkdə ilk təcrübi addım atdı.

Müsəlman məktəblərinin şiə və sünni təriqəti üzrə olmaqla ayrıayrılıqda təşkil edilməsi lazım bilindi. Bu məktəblərin hər birinin xüsusi nizamnaməsi var idi. İlk dəfə 1847-ci il aprelin 18-də şiə məktəbinin nizamnaməsi təsdiq edildi[2]. Çox maraqlıdır ki, həmin nizamnamə layihəsi rə'y üçün A.Bakıxanovun mülahizəsinə verilmişdi. Layihəyə çox ehtiyatla yanaşan və öz fikrini çox mülayim şəkildə ifa edən A.Bakıxanov belə məktəbin açılmasını çox faydalı hesab etmişdir[3]. Nizamnamə həmçinin rus dilindən fars və Azərbaycan dillərinə M.F.Axundov tərəfindən tərcümə edilmişdi. M.F.Axundov nizamnamə layihəsinə öz münasibətini bildirməmiş, daha doğrusu ona fikir söyləmək imkanı verilməmişdir.

[1] Həmin «layihə» əlyazması şəklində Moskva Dövlət Tarix muzeyində Baron Rozenin arxivində saxlanılır (iş № 41, v. 211-216). Lahiyənin böyük elmi əhəmiyyətini nəzərə alan Ə.M.Əhmədov onu 1957-ci ildə S.M.Kirov adına ADU-nun «Elmi əsərləri»ndə (№7) çap etdirmiş və ona geniş izahat yazmışdır.

[2] Gürc. SSR MDA, f. 4, s. 3, iş № 303, v. 1-3.

[3] Gürc. SSR, MDA, f. 4, s. 3, iş № 33, v. 6 və arx.

İlk müsəlman (şiə) məktəbi 1847-ci il dekabrın 12-də Tiflisdə açıldı[1]. 1848-ci ildə bu məktəbin nümunəsində sünni məktəbinin nizamnaməsi də təsdiq edildi və 1849-cu il yanvarın 15-də Tiflis sünni məktəbi də açıldı[2]. Hər iki məktəb canişinliyin xüsusi vəsaiti ilə idarə olunurdu. Sünni məktəbinin nəzdində 10 nəfərlik pansion var idi.

Təcrübi məqsədilə açılan müsəlman məktəblərinin müvəffəqiyyəti və yerli əhali tərəfindən rəğbətlə qarşılanması digər yerlərdə də belə məktəblər açmağa əsas verdi. Azərbaycan ərazisində ilk müsəlman məktəbi 1849-cu il mayın 10-da Gəncədə açıldı. Məktəbin tədris planına Azərbaycan, rus və fars dilləri, hesab, coğrafiya və tarix daxil idi[3]. Az müddət ərzində məktəb özünün müvəffəqiyyəti ilə fərqləndi. «Qafqaz» qəzetində dərc edilən bir məqalədə deyilirdi: «Burada gənc müsəlmanlar qısa müddət ərzində rus, fars və tatar (Azərbaycan H.Ə.) dillərinin tədrisində təqdirəlayiq müvəffəqiyyətlər qazanmışlar»[4].

Müsəlman məktəbləri 1849-cu ildə Şuşa, Nuxa və Şamaxıda, 1850-ci ildə Bakı, Salyan və Lənkəranda, 1853-cü ildə isə Zaqatalada açıldı. Sonuncu canişinliyin xüsusi xərcilə (ildə 957 man.33 qəp.), digərləri isə əhalidən toplanan ianələrlə idarə olunurdu. Canişinlik yalnız rus dili müəlliminin əmək haqqını ödəyirdi. Bu məktəblər Tiflis şiə və sünni məktəblərinin nizamnaməsinə əsaslanırdı. İlk vaxtlar əhali bu məktəblərə rəğbət bəsləyir, maddi kömək edirdi.

Hüquq e'tibarı ilə qəza məktəblərinə yaxın olan bu məktəblərin əsas vəzifəsi rus dilini bilən «bacarıqlı mollalar» və qəza məktəblərində Azərbaycan dili dərsi demək üçün azərbaycanlılardan e'tibarlı müəllimlər, həmçinin dövlət idarələrində işləmək üçün sadiq qulluqçular hazırlamaqdan ibarət idi.

Tə'lim məzmun e'tibarı ilə Şərq və rus təhsilindən (ümumi təhsildən) ibarət idi. Şərq fənlərini, digəri isə rus dili və rus dilində digər fənləri tədris edirdi. Bə'zi məktəbələrin son siniflərində (bu məktəblər əsasən üç sinifdən ibarət idi) ərəb dilində məntiq, ritorika, kosmoqrafiya və metafizika keçilir, rus dilində dövlət qanunları, məhkəmə quruluşu və s. öyrədilirdi. Şərq dilləri üzrə əsas tədris

[1] «Qafqaz» qəzeti, № 51, 1847-ci il.
[2] «Qafqaz» qəzeti, № 5, 1849cu il.
[3] Kavkazskiy kalendarğ na 1854 q., Tiflis, 1853, 353.
[4] «Qafqaz» qəzeti, 11 iyun 1849-cu il, № 24.

vəsaiti kimi Sə'dinin «Gülüstan» və «Bustan», M.Füzulinin «Leyli və Məcnun», Hafizin poemaları, «Tarixi-Nadir» və b. istifadə edilirdi. Şərq dilləri yerli ruhanilər tərəfindən tədris edilirdi. Rus dilinə daha çox fikir verilirdi. Rus dili müəllimləri əsasən, dövlət məktəblərinin müəllimləri idi. Onların arasında yalnız bir nəfər azərbaycanlı var idi ki, o da Lənkəran müsəlman məktəbində işləyən M.Ə.Səfiyevdir. (M.Ə. Səfiyev Lənkəran məktəbinin təşkilində fəal iştirak etmiş, ilk illər məccani işləmiş, bunun üçün canişidən təşəkkür almış və qızıl saatla mükafatlandırılmışdır. O, 1853-1855-ci illərdə «Zaqafqazskiy vestnik» qəzetində müxtəlif məqalələrlə çıxış etmişdir)[1].

Müsəlman məktəbləri ilk vaxtlar şagirdlərin çoxluğu ilə diqqəti cəlb edirdi. Təkcə onu qeyd etmək kifayətdir ki, 1850-ci ildə cəmi Qafqazda müsəlmanlar yaşayan yerlərdə çoxdan bəri fəaliyyət göstərən 12 qəza məktəbində oxuyan azərbaycanlıların sayı yalnız 165 nəfər olduğu halda, yenicə təşkil olunmuş 11 müsəlman məktəbində onların sayı 581 nəfər idi. Şagirdlərin sayına görə Şamaxı, Lənkəran və Şuşa müsəlman məktəbləri daha irəlidə idi. (Bax: Cədvəl № 2). Şagirdlərin əksəriyyəti aşağı siniflərdə idi. Silki tərkibinə görə müxtəlif idi.

Sonralar əhalinin məktəbə maddi yardımı get-gedə tükəndi və M.S.Vorontsovun e'tiraf etdiyi kimi, bir tərəfdən vəsaitsizlik, digər tərəfdən müəllim kadrların çatışmaması «onların laxlanmasına səbəb oldu»[2]. 1857–1862-ci illərdə Azərbaycan ərazisində olan cəmi müsəlman məktəbləri (Zaqataladan başqa; Zaqatala müsəlman məktəbi 1862-ci ildə ibtidai məktəbə çevrildi) bir-birinin ardınca bağlandı.

[1] Gürc. SSR MDA, f. 2, s. 5, iş № 51, v. 94-95; f. 4, s. 3, v. 483; 617; 759; N.A. Tahirzadə. Göstərilən məqalə, 169.
[2] Aktlar, X cild, səh. 128.

Cədvəl № 2.

¹	Məktəblər	Tə'sis edildiyi il	İllər							
			1850	1851	1852	1853	1854	1855	1856	1857
1	*Tiflis şiə məkt*	*1847*	*55*	*35*	*35*	*35*	*34*	*42*	*30*	*30*
2	*Tiflis sünni məkt.*	*1849*	*26*	*46*	*46*	*46*	*43*	*15*	*15*	*15*
3	*Gəncə şiə mək.*	*1849*	*28*	*30*	*30*	*30*	*30*	*15*	*12*	*12*
4	*Şuşa*	*1849*	*58*	*58*	*58*	*58*	*58*	*54*	*53*	*53*
5	*Nuxa sünni məkt.*	*1849*	*m.j.*	*59*	*59*	*59*	*59*	*59*	*58*	*58*
6	*Şamaxı şiə*	*1849*	*82*	*78*	*78*	*78*	*78*	*78*	*77*	*77*
7	*Şamaxı sünni məkt.*	*1849*	*102*	*84*	*84*	*84*	*84*	*84*	*82*	*82*
8	*Bakı şiə məkt.*	*1849*	*50*	*54*	*54*	*54*	*54*	*54*	*52*	*52*
9	*Salyan məkt.*	*1850*	*55*	*33*	*33*	*33*	*33*	*33*	*33*	*33*
10	*Lənkəran*	*1850*	*72*	*72*	*72*	*72*	*72*	*72*	*70*	*70*
11	*Dərbənd sünni məkt.*	*1849*	*60*	*67*	*67*	*67*	*67*	*67*	—	—
12	*1856-cı ildən Teymur-xan-Şura*	*1856*	—	—	—	—	—	—	*66*	*66*
	Zaqatala müs. Mək.	*1853*	*Mə'*	*lu*	*ma*	*t*	*Yo*	*x*	*Du*	*R*
Cəmi:			***581***	***586***	***586***	***586***	***586***	***573***	***548***	***548***

Qeyd: Cədvəl «Kavkazskiy kalendar»ın müvafiq illəri üzrə tərtib edilmişdir. Rəqəmlərin ildən-ilə təkrar edilməsi şagirdlərin sayına aid mə'lumatın dəqiq olmadığını söyləməyə əsas verir.

Təhsilin məzmunundakı bə'zi qüsurlarına baxmayaraq, müsəlman məktəbləri xalq arasında təhsilin yayılmasında müəyyən əhəmiyyətə malik idi. Mərhum prof. Q.Y. Tavzişvili yazırdı: «Zaqafqaziyadakı müsəlman məktəbləri azərbaycanlıların arasında böyük nüfuza malik adi. Lakin çar hökuməti, ümumiyyətlə, rus olmayan xalqların, o cümlədən Zaqafqaziya müsəlmanlarının mənafeyi ilə hesablaşmadı»[1].

[1] Q.Y.Tavziaşvili. «XIX əsrin birinci yarısı və 60-cı illərində Gürcüstanda xalq təhsili və pedaqoji ideya». doktorluq dissertasiyası, Tbilisi, 1946-cı il, 209.

XIX əsrin 60-cı illərində Azərbaycanda ən'ənəvi ruhani məktəb və mədrəsələrdən əlavə, dövlət məktəbi olmaq e'tibarı ilə cəmi 5 qəza məktəbi, 4 sinifli bir ali ibtidai və bir sinifli 3 ibtidai məktəb və qız məktəbi olmaq e'tibarı ilə cəmi bir məktəb fəaliyyət göstərdi. (Sonuncu 1848-ci ildə Şamaxıda tə'sis edilən, 1861-ci ildə isə Bakıya köçürülən «Müqəddəs Nina» məktəbindən ibarət idi). Göstərilən məktəblər xalqın artmaqda olan təhsil ehtiyacını ödəmirdi. Xüsusilə kəndli balaları dünyəvi təhsildən kənarda qalırdı. Ölkənin ictimai həyatı kimi xalq maarifi və məktəb də yeni islahat tələb edirdi.

Məqalə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi əsərlərinin (pedaqoji-psixoloji elmlər seriyası) 1970-ci il tarixli, 2-ci sayında (s. 3–14) çap olunmuşdur.

AZƏRBAYCANDA SƏNƏT MƏKTƏBLƏRİNİN TƏŞKİLİ TARİXİNƏ DAİR

Azərbaycanda sənət məktəblərinin meydana gəlməsi XIX əsrin 70–80-ci illərinə təsadüf edir. Bu məktəblərin meydana gəlməsi Azərbaycanın mövcud iqtisadi həyatı, geniş yayılmış sənətkarlıqla əlaqədar idi. Əvvəllər olduğu kimi XIX əsrdə də sənətkarlıq paltar, ayaqqabı, ipək və pambıq parçalar, mahud, keçə, kəndir, məhsulları hazırlamaq, dəmirçilik, xarratlıq, dülgərlik, xamıtçılıq və dulusçuluq, metal şeyləri-əmək alətləri, qablar, müxtəlif silahlar və s. istehsalı xeyli inkişaf etmişdir.

Rəsmi mə'lumata görə 1843-ci ildə təkcə Xəzər vilayətində 8 mindən çox sənətkar, o cümlədən 4 minə qədər usta var idi. Şamaxı qəzasının Lahıc kəndi silah və mis qablar istehsalı, Nuxa ustaları gümüşü qara mina ilə bəzəmək işində şöhrət qazanmışdır.

Sənətkarlıqda xalçaçılıq, ipək sarıma, ağac üzərində naxış vurma geniş yayılmışdı. Hələ 1829-cu ildə Şəki əyalətində — Xanabadda ipək sarıma manufakturası meydana gəlmişdi. Əhali ipək sarımanın yeni qaydasını sür'ətlə mənimsəyirdi. Rəsmi mənbələrdən birində bu barədə deyilirdi: «Yerli əhali qısa müddət ərzində yaxşı əyirməyi öyrənir, halbuki Avropada yaxşı əyirici hazırlamaq üçün bir neçə il lazımdır».

1854-cü ildə Xanabad manufakturasında ilk dəfə dəzgahların bir hissəsini hərəkətə gətirən buxar maşını tətbiq olundu. Bütün bunlar ipəkçilik sənayesini inkişaf etdirmək sahəsində yeni kadrlar hazırlığını tələb edirdi. Bu tələb nəticəsində 1843-cü ildə Nuxada «Təcrübi ipəkçilik məktəbi» adlanan bir məktəb açıldı. 20 ildən artıq mövcud olan bu məktəbə 236 şagird qəbul olunmuşdu ki, bunlardan 117-si məktəbi müvəffəqiyyətlə bitirmişdi. «Azərbaycan tarixi»ndə deyildiyi kimi, bu məktəb təkcə Azərbaycanda deyil, eyni zamanda bütün Zaqafqaziyada ipəkçiliyin inkişafı üçün mühüm əhəmiyyətə malik idi[1].

Buxar maşınlarının tətbiqi ilə Avropa qaydasında ipək sarıma manufakturası Ordubad şəhərində də inkişaf edirdi. Azərbaycan sənətkarlarının məhsulları, xüsusilə xalçaçıların və ipəkçilərin şöhrəti bütün ölkəyə yayılmışdı. Hələ 1872-ci ildə Moskva Politexniki

[1] Bax: Azərbaycan tarixi, 2-ci cild, Bakı, 1964, 70.

sərgisində böyük müvəffəqiyyətlə nümayiş etdirilən Azərbaycan xalçaları, ipək malları və digər əl işləri ekspertlər və Moskva universiteti nəzdindəki təbiətşünaslıq həvəskarlarının imperator cəmiyyəti şurası tərəfindən yüksək qiymətləndirildi. Sərgidə iştirak edən xalçaçıların böyük bir dəstəsi, o cümlədən Şuşa qəzasından Bayram Məşədi Qurban oğlu, Kərbəlayı Əhməd Dəmir oğlu, Cabbar Hacı Əhməd oğlu yüksək keyfiyyətli və çeşidli xalça nümayiş etdirdiklərinə görə sərginin qızıl medalı ilə təltif edildilər. Başqa bir qrup isə gümüş medala layiq görüldü[1]. Ordubad ipəkçilərindən K.Babayev ilə B.Petrosovun ipək məhsulları sərginin qızıl medalını aldı[2].

XIX əsrin ikinci yarısında Rusiya öz tarixi inkişafının yeni bir mərhələsinə qədəm qoydu. Ölkə daha sür'ətlə kapitalist inkişafı yoluna çıxmaqda idi. Rusiyada kapitalizmin inkişafı nəticə e'tibarı ilə ucqarlara da tə'sir edirdi. Azərbaycanda neft, dağ-mə'dən və digər sənaye sahələrinin inkişafı genişlənirdi. Başqa milli rayonlar kimi, Azərbaycan da getdikcə daha artıq Ümumrusiya ictimai əmək bölgüsünə cəlb olunur və Ümumrusiya bazarına qoşulurdu. V.İ.Lenin yazırdı: «Mərkəzi Rusiyada sənayenin inkişafı ilə ucqarlarda ticarət, əkinçiliyin inkişafı bir-biri ilə qırılmaz surətdə əlaqədardır, bunlar bir-biri üçün bazar yaradır... Yalnız daxili və xarici bazarla sıx əlaqə sayəsində həmin yerlər iqtisadi cəhətdən belə sür'ətlə inkişaf edə bilmişdir...»[3]

İslahatdan sonrakı dövrdə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalı da artırdı. Kənd təsərrüfatı və sənayenin inkişafı gənc kadrlar tələb edirdi. Bu tələbi qismən ödəmək üçün mövcud qəza və şəhər məktəblərində əlavə fənn kimi şagirdlərə sənət; bağçılıq və kənd təsərrüfatına aid bə'zi bilik verilirdi. Lakin bu təcrübə o qədər də fayda vermirdi. Şagirdlərin yaşı və gücü də bunu əsaslı surətdə öyrətməyə imkan vermirdi. Bu tə'lim, əsasən, tərbiyəvi və idman xarakteri daşıyırdı. Qəza və şəhər məktəblərinin heç biri öz mə'zunlarına elə bir ehtiyat peşə təhsili, bu və ya digər sənət üzrə bilik və bacarıq vermirdi ki, şagird məktəbi bitirib öz mühitinə qayıtdıqdan sonra bu və ya digər sənət sahəsində yaşadığı cəmiyyətin

[1] «Qafqaz» qəzeti, 1872-ci il, № 134, 145, 146, 148.
[2] «Qafqaz» qəzeti, 1873-cü il № 7.
[3] V.İ.Lenin. Əsərləri, 3-cü cild, Bakı, Azərnəşr, 1948, 244.

tələbini ödəməyə qabil olsun. Bundan əlavə şagird qəza və ya şəhər məktəbini bitirdikdən sonra özünü öz həmvətəndaşlarından üstün tutur, xüsusilə kənd işlərinə, istehsalata e'tinasız yanaşır, aldığı təhsilə müvafiq digər məşğuliyyət növü, məsələn kənd və ya nahiyə katibi və ya buna bənzər iş axtarırdı. Belə iş tapılmadıqda isə öz vəziyyətindən narazı qalır və cəmiyyətin zərərli üzvünə çevrilirdi.

Bu zərərli tə'sirin qarşısını almaq üçün, həqiqətən, sənət öyrədən xüsusi sənət və kənd təsərrüfatı məktəbləri açmaq ideyası meydana gəldi. Təhsil müddəti iki il olan bu məktəblərə şəhər, qəza, iki sinifli kənd məktəblərinin aşağı siniflərini bitirənlərin qəbul edilməsi təklif edildi.

Sənət və kənd təsərrüfatı məktəbləri təşkil etmək ideyası, həm də çarizmin məxfi məqsədləri ilə əlaqədar idi. Bu məqsəd, az-çox savadı olan gənclərə sənət təmayülü vermək məqsədi,— gənclərdən yetişməkdə olan burjuaziya üçün əlavə qazanc gətirə biləcək adamlar hazırlamaqdan ibarət idi. Ən əsası isə gənclərin əqli təhsilini məhdudlaşdırmaqdan, meydana gəlməkdə olan proletariatın oyanmasının qarşısını almaqdan ibarət idi. 1878-ci ildə QTD-nin popeçiteli vəzifəsinə tə'yin edilmiş məxfi müşavir Yanovski özünün hesabatında bu münasibətlə açıqca yazırdı: «Ancaq bu yolla proletariatın əqli inkişafının qarşısını almaq olar, belə ki, onlar, Rusiyada mövcud qayda-qanunu pozmaq məqsədilə qarma-qarışıqlıq salmağa cəhd edirlər»[1].

Bütün bu mülahizələr bir tərəfdən mövcud şəhər məktəbləri nəzdində xüsusi sənət şö'bələri, digər tərəfdən isə ayrıca sənət məktəbləri təşkil etməklə nəticələndi.

Gənclərin sənət öyrənməsi tələbi də hökuməti öz məxfi məqsədini həyata keçirtməyə kömək edirdi. Bu cəhət Bakıda daha çox hiss edilirdi. Bakı qubernatoru 1869-cu ilə aid hesabatında şəhər əhalisinin texniki təhsilə olan ehtiyacını ayrıca qeyd edir və Bakıda sənət məktəbi nəzdində ayrıca bir şö'bə təşkil edildi. Hər vasitə ilə idarə olunan bu şö'bədə dülgərlik və xarratlıq öyrədilirdi. Sənət şö'bəsində məşğələlər sırf təcrübi xarakter daşıyır, ayrı-ayrı şəxslərdən və idarələrdən sifarişlər qəbul edirdi. Həmin şö'bə 1888-ci ildə müstəqil sənət məktəbinə çevrildi[2].

[1] Xod uçebnoqo dela na Kavkaze s 1802 po 1880 q., Tiflis. 1880 q. 91.
[2] LMDTA, f. 733. S. 165, iş № 371. V. 1–9.

Bakı sənət məktəbinin məqsədi varidatı olmayan valideynlərin uşaqlarına elə təhsil verməkdən ibarət idi ki, onlar Bakı şəhəri və onun ətrafındakı neft mə'dənlərində, zavod və fabriklərdə ikinci dərəcəli texnik vəzifələrində işləmək və ya müstəqil olaraq müxtəlif sənətlərlə məşğul olmaq imkanına malik olsunlar. Burada şagirdlərin sayı ilbəil artırdı. 1892-ci ildə orada 69 nəfər, 1893-cü ildə isə 135 nəfər oxuyurdu[1].

Xəzər dənizinin ən yaxşı limanlarından birinə malik olan Bakıda gəmiçilik də inkişaf edirdi. Xəzər gəmiçiliyini inkişaf etdirmək üçün 1881-ci ildə Bakıda ayrıca dənizçilik sinfi təşkil edildi[2].

Dənizçilik sinfinin məqsədi yerli əhaliyə «dənizçilik elmini öyrətməkdən» və Xəzər dənizində inkişaf etməkdə olan ticarət donanmasını dəniz işini bilən mütəxəssislərlə tə'min etməkdən ibarət idi. 1893-cü ildə orada 74 şagird oxuyurdu.

Sənət məktəblərinə olan ehtiyac digər şəhərlərdə də özünü göstərirdi. Zaqatala dairəsinin kənd sakinləri hələ 1877-ci ildə oğlan uşaqlarına kənd məktəblərinə, sənətə aid zəruri bilik verəcək bir məktəb tə'sis etmək məqsədilə hər tüstüdən 40 qəpik olmaqla pul toplamağı qərara aldılar[3]. Məktəbə silkindən asılı olmayaraq 12–15 yaşlı uşaqların qəbul olunması, dülgərlik, xarratlıq, dəmirçilik və çilingərlik peşəsi öyrənmələri nəzərdə tutulurdu. Məktəbin nəzdində pansion təşkili təklif edilirdi.

Zaqatalalıların bu cəhdi Qafqaz Ordusunun baş komandanı və Hərbi Nazir tərəfindən bəyənilsə də, Dövlət şurası tərəfindən rədd edildi[4]. Lakin əhalinin tələbi və ehtiyacı 1882-ci il mayın 15-də Zaqatalada sənət məktəbinin tə'sisi ilə nəticələndi[5]. Zaqatala sənət məktəbi mövcud qəza məktəbinin nəzdində olub, yerli əhalinin könüllü ianələri hesabına idarə olunurdu. Məktəbin 1882-ci ildə (2. VIII.) təsdiq edilmiş ayrıca nizamnaməsi var idi[6]. Sənət məktəbinin 20 şagirdi əhatə edən pansionu var idi. Burada dülgərlik, çilingərlik və dəmirçilik sənəti öyrədilirdi. Sənət məktəbinin şagirdləri qəza məktəbində tədris fənləri və rəsm, qəza məktəbinin şagirdləri isə

[1] Kavkazskiy kalendar na 1896 q., Tiflis, 1895, str. 123.
[2] LMDTA, f. 40, s. 1, iş № 29, v. 100–101.
[3] LMDTA, f. 1268. S. 22 iş № 61, v. 4.
[4] Yenə orada, v. 10–11.
[5] Sirkulyar... KUO, 1882, № 6, səh. 250; QTD popeçitelinin 1883-cü ilə aid hesabatı, Tiflis 1884, 121.
[6] Bax: Sirkulyar... KUO, 1882 № 9, 381—386.

sənət məktəbinin nümunəvi e'malatxanasında və fermasında sənət və kənd təsərrüfatını öyrənirdilər[1]. Əhalinin vəsaitilə sənət məktəbinə əlverişli tədris binası tikilmişdi. Zaqatala sənət məktəbi 1897-ci ildə yenidən təşkil edildi[2].

Gəncədə sənət məktəbinin təşkili keçən əsrin 70-ci illərinə təsadüf edir. Gəncə şəhər sakinləri hələ 1872-ci ildə ianə yolu ilə 3.000 man. pul toplayaraq şəhərdə ayrıca sənət məktəbi açmağa təşəbbüs etdilər. Gəncəlilərin bu təşəbbüsü ilə sənət məktəbi əlahəzrət imperator tərəfindən noyabrın 8-də açıldı və Qafqaz canişini Mixail Nikolayeviçin Qafqazda hökmranlığının 10 illiyi münasibətilə onun adı ilə Gəncə Mixaylovski sənət məktəbi adlandırıldı. Məktəb kənd və şəhər əhalisindən toplanan vəsaitlə təşkil edildi. Məktəbin məqsədi ibtidai təhsili yerli məişətdə zəruri olan peşə təhsili ilə tamamlamaqdan, başqa sözlə desək, ibtidai təhsili olan əkinçilər, bağçılar, şərabçılar, ipəkçilər, arıçılar və kənd təsərrüfatı ilə əlaqəsi olan bə'zi peşələr üzrə ustalar, o cümlədən ağac e'malı üzrə dülgərlər və xarratlar, metal e'malı üzrə dəmirçilər və çilingər hazırlamaqdan ibarət idi[3]. Məktəbin vəzifəsinə, həmçinin yerli əhalini nümunəvi bitkilər və nümunəvi kənd təsərrüfatı alətləri ilə təchiz etmək daxil idi. Məktəb qapalı olub 4 sinifdən ibarət idi. Burada peşə təhsili ilə bərabər ümumi təhsil fənləri də tədris edilirdi. Ümumtəhsil fənləri kursunun həcmi şəhər məktəblərinin kursuna bərabər idi. Sonralar ibtidai məktəb müəllimi adını almaq istəyənlər üçün əlavə 5-ci sinif də təşkil edildi. Məktəb hazırlıq sinfinə malik idi. Peşə təhsili əsas siniflərdə öyrədilirdi. Lakin şagirdlər hazırlıq sinfindən başlayaraq həftədə 15–20 saata qədər xarratlıq, çilingərlik, dəmirçilik, çəlləkçilik və təkərçilik e'malatxanasında işləyirdilər. IV sinifdə şagirdlər göstərilən peşələrdən birini seçir və həmin peşə üzrə ixtisaslaşırdılar. Məktəbin 10 desyatindən ibarət torpaq sahəsi var idi ki, şagirdlərin hamısı burada işləyirdi.

Gəncə Mixaylovski sənət məktəbi ilk dəfə 28 şagirdlə işə başladı. Sonralar şagirdlərin sayı artaraq 100 nəfəri keçdi (1895-ci ildə 125 nəfər). Məktəbin maliyyə vəsaitinin cüz'i hissəsi XMN-dən, əsas hissəsi isə zemstvo və kənd icmaları tərəfindən ödənilirdi. Bu

[1] QTD popeçitelinin 1883-cü ilə aid hesabatı, 121.
[2] LMDTA, f. 1152, s. XII , iş № 132, v. 13.
[3] LMDTA, f. 733, s. 160, iş № 157, v. 2; iş № 326, v. 17.

işdə Gəncə quberniyasının Gəncə, Qazax, Ərəş və Cavanşir qəzaları daha yaxından iştirak edirdi. Gəncə qəzasındakı hər tüstüdən ildə, 1 man., digər qəzalardan isə ildə 50 qəp. Toplanırdı. 1887-ci ildə əhalidən toplanan vəsait 23. 434 man. idi ki, bu da məktəbin illik xərcinin 78%-ni təşkil edirdi[1].

Gəncə sənət məktəbinin təşkilində və müvəffəqiyyətlə inkişafında yerli əhali yaxından iştirak edirdi. Məktəbin mə'zunları Bakı zavodlarında və dəmir yolu stansiyalarında asanlıqla işə qəbul olunur, kənd təsərrüfatı alətləri hazırlayırdılar. Onlar xüsusilə kəndlərdə peşə təhsilini yayır, kənd məktəblərində usta-müəllim vəzifəsində işləyirdilər.

Gəncə Mixaylovski sənət məktəbi 1895-ci ildə yenidən təşkil edildi. Təhsil müddəti 7 il müəyyənləşdirildi (1 il hazırlıq, 3 il ibtidai məktəb, 3 il ixtisas kursu). Şagird kontingenti kəndli uşaqlarının hesabına xeyli artırdı. Məktəbin 150 nəfərlik pansionu var idi. Tədris planında peşə təhsili verən fənlər, həmçinin ümumi təhsil fənləri artılırdı.

1884-ci ildən 1902-ci ilədək Gəncə Mixaylovski sənət məktəbinə cəmi, 586 şagird qəbul olunmuşdur. Bunlardan ancaq 110 nəfəri məktəbin tam kursunu bitirmiş, əksəriyyəti isə ehtiyac üzündən məktəbi bitirməmiş işləməyə getmişdi.

1895-ci ildən Gəncə Mixaylovski sənət məktəbi nəzdində yaşlılar üçün bazar günü kursları təşkil edilmişdi ki, burada yaşlılar sənət öyrənirdilər.

Beləliklə, əsrin sonlarında Azərbaycanda cəmi üç sənət məktəbi və Bakıda ayrıca dənizçilik sinfi fəaliyyət göstərirdi. Bu məktəblərdə 400-dən artıq şagird oxuyurdu. Şagirdlərin xeyli hissəsini kəndli uşaqları təşkil edirdi. 1805-ci ilin mə'lumatına görə Gəncə sənət məktəbində oxuyan 121 şagirddən 80, Bakıda isə 201 şagirddən 79 nəfəri kəndli uşaqları idilər.

Əsrin sonlarında peşə təhsili, həmçinin texniki təhsilə olan tələbat Bakı şəhərində daha çox hiss edilirdi. Zavod sənayəsinin və buxarla işləyən paraxodların artması, mexanika, neft məhsullarının e'malı kimya, Asiya ölkələri ilə ticarət əlaqələrinin inkişafı isə ticarət elmlərini bilən mütəxəssislər tələb edirdi. Ölkənin mineral bolluğu mə'dən işlərindən baş çıxaran savadlı adamlara ehtiyacı artırırdı.

[1] Yenə orada, iş № 236, v. 24 arx.

Bütün bunlar həm texniki, həm də ticarət məktəbi açmaq zəruriyyəti ilə nəticələndi. Lakin əvvəlcə mexanika və kimya şö'bəsindən ibarət aşağı texniki məktəb lazım bilindi. Aşağı texniki məktəb 1897-ci il sentyabrın 1-də, sənət məktəbinin bazası əsasında təşkil edildi. Texniki məktəbin təşkili ilə əlaqədar olaraq mövcud sənət məktəbi aşağı tipli sənət məktəbinə çevrildi və texniki məktəbin tabeliyinə keçdi. Texniki məktəbə şəhər məktəbini və ibtidai məktəbi bitirənlər, həmçinin realnı məktəbdə kursu bitirməyənlər qəbul olunurdu[1]. Məktəbə II Aleksandrın adı verilmişdi. Məktəbin tədris planında ümumtəhsil fənləri kimi hesab və rus dili, texniki fənlər kimi rəsm, rəsmxət və texnologiya daxil edilmişdi.

Tədris planının $^{2}/_{3}$ hissəsini təcrübi işlər təşkil edirdi (I və III siniflərin hər birində həftədə 35, II sinifdə 36, II sinifdə 36, IV sinifdə 51 saat). Sonralar tədris planına fizika da daxil edildi, rəsmxət və rus dili xeyli artırıldı. Texniki məktəb şəhər vəsaiti ilə idarə olunurdu. Məktəbin nəzdində hazırlıq sinfi var idi. Hazırlıq sinfində təhsil pullu idi. Texniki məktəbin hazırlıq sinfində təhsil haqqı ildə 50, sənət məktəbinin hazırlıq sinfində isə 20 man. idi. Texniki məktəbin əsas siniflərində oxuyanlardan isə ildə əvvəllər 20, sonra isə 30 man. təhsil haqqı alınırdı. Təhsil haqqının yüksək olması oxumaq istəyənlərin çoxluğu ilə əlaqədar idi. Hazırlıq sinfinə qəbul, bə'zən müsabiqə yolu ilə aparılırdı.

1900-cü ildə Bakı aşağı texniki məktəbinin kimya şö'bəsi inşaat şö'bəsi ilə əvəz edildi. Yaşlı əhali içərisində rus dilini yaymaq üçün Bakı texniki məktəbi nəzdində xüsusi kurs təşkil edilmişdi. Yalnız azərbaycanlılar üçün olan yaşlılar kursunun yüzdən artıq dinləyicisi var idi.

Əsrin sonlarında yerli əhalinin Maştağada da sənət məktəbi açmağa təşəbbüs etdiyini göstərən mənbələr vardır. 1896-cı ildə «Qafqaz» qəzetində dərc edilən bir mə'lumatda deyilirdi ki, Bakı qəza rəisi hal-hazırda Maştağa kəndində aşağı sənət məktəbi açmağa dair danışıqlar aparır və azərbaycanlılar böyük həvəslə bu işə pul vəsaiti ilə kömək etməyə hazırdılar[2].

Sonrakı sənədlərdə bu məktəbin açılmasına aid mə'lumat verilmir. Fikrimizcə, elə bu illərdə Maştağada rus-Azərbaycan

[1] LMDTA, f. 741, s. 1, iş № 49, hissə, 90.
[2] «Qafqaz» qəzeti, № 75, 1896-cı il.

məktəbinin təşkili və Mərdəkanda bağçılıq məktəbinin meydana gəlməsi ilə Maştağada sənət məktəbi açmaq məsələsi aradan qalxmışdır.

Beləliklə, XIX əsrin axırlarında Azərbaycanda bir texniki, üç sənət məktəbi və Bakıda ayrıca dənizçilik sinfi fəaliyyət göstərirdi. Sənət məktəblərindən ikisi (Bakı və Zaqatala) aşağı dərəcəli sənət məktəbi idi. Yalnız Gəncə sənət məktəbi tam kursa malik idi. 1900-cü ildə bu məktəblərdə cəmi 416 şagird təhsil alırdı. Şagirdlərin əksəriyyətini yenə də kəndli uşaqları təşkil edirdi.

Azərbaycandakı sənət məktəbləri kənd təsərrüfatı məhsulları yetişdirmək və ümumiyyətlə, şagirdlərə peşə öyrətmək sahəsində xeyli müvəffəqiyyət qazanmışdı. Gəncə və Bakı sənət məktəbləri, həmçinin Bakı dənizçilik sinfi 1889-cu ildə Tiflisdə təşkil edilmiş kənd təsərrüfatı sərgisində mükafata layiq görülmüşdü[1]. Gəncə sənət mktəbi həmçinin 1896-cı ildə Nijni-Novqorod şəhərində keçirilən Ümumrusiya sənaye və Bədii sərgisində iştirak etmiş və şagirdlərin əl işlərinə görə IV dərəcəli diplom ilə mükafatlandırılmışdı[2].

Gəncə sənət məktəbi xüsusilə bağ işlərinin təşkili və yüksək keyfiyyətli meyvələrin yetişdirilməsində daha gözəl nailiyyətlər əldə etmişdi. Məktəbin tədris-təcrübə sahəsində 6 növ ərik, 10 növ albalı, 61 növ üzüm, 33 növ armud, 5 növ əncir, 5 növ zoğal, 5 növ şaftalı, 12 növ gavalı, 9 növ gilas və 36 növ alma yetişdirilirdi.

1897-ci ildə Tiflisdə təşkil edilmiş bağ məhsullarının birinci Qafqaz sərgisində bu meyvə növlərinin hər biri ekspertlər tərəfindən yüksək qiymətləndirildi. Məktəb bir neçə medal və tə'rifnamə ilə təltif edildi[3]. 1898-ci ildə yenə də Tiflisdə keçirilən ikinci sərgidə də Gəncə, həmçinin Zaqatala sənət məktəbi qızıl və gümüş medallara layiq bilindi[4].

Mövcud sənət məktəbləri ilə Azərbaycanda peşə təhsilinin əsası qoyuldu. Bu məktəblərin müvəffəqiyyəti kənd ümumtəhsil məktəblərində də dərsdən sonra bağçılıq və bostançılığa aid bə'zi təcrübi biliklərin verilməsinə, hətta bə'zi məktəblərin nəzdində xüsusi sənət məktəbi və ya şö'bəsi açmağa xeyli tə'sir etdi.

[1] Bax: Sirkulyar... KUO, 1889 № 12. 630—646.
[2] Bax: Sirkulyar... KUO, 1898, № 1,131–133.
[3] Yenə orada, əlavə № 8.
[4] Yenə orada, № 3, 197–199.

Bir sıra kənd məktəblərinin qabaqcıl müəllimləri, o cümlədən B.İbrahimbəyov, H.Bağırov, R.Əfəndiyev, Ə.Muradxanov Tiflis ipəkçilik stansiyasına gedir, orada ipəkçiliyə aid mühazirələrə qulaq asır, sonra isə aldıqları bilikləri ipəkçilər, o cümldən şagirdlər arasında yayırdı.

Əsrin sonlarında Azərbaycanda iki kənd təsərrüfatı məktəbi meydana gəldi. Onlardan biri 1887-ci ildə təşkil edilən Quba bağçılıq məktəbi idi. Bu, Bakı quberniyasında yeganə bağçılıq məktəbi idi. Bu məktəb hazırlıq və bir əsas sinifdən ibarət olub, ikinci dərəcəyə mənsub idi[1].

Digər kənd təsərrüfatı məktəbi 1896-cı il oktyabrın 27-də Mərdəkanda[2] açılan bağçılıq və bostançılıq məktəbi idi[3]. Məktəbin məqsədi tədristəcrübə sahəsi vasitəsilə yerli bitkiləri inkişaf etdirmək və bu sahədə şagirdlərə təcrübi bilik vermək idi. «Qafqaz» qəzeti məktəbin müvafiq mebelə, tədris vəsaitinə, qulluqçular üçün mənzilə malik olmasını ayrıca qeyd edirdi. Mərdəkan kənd ictimaiyyəti tərəfindən ayrılmış 10 hektardan artıq tədristəcrübə sahəsində yerli şəraitə uyğun gülçiçək, ağac, dərman bitkiləri və texniki bitkilər əkilmiş, şitillik düzəldilmişdi. Məktəbin illik xərcinin cüz'i hissəsi əkinçilik və Dövlət əmlakı nazirliyi, əsas hissəsi isə Tağıyev tərəfindən ödənilirdi.

Mərdəkan kənd təsərrüfatı məktəbində tədris müddəti 5 il idi (2 il hazırlıq sinfi). Məktəbin tədris planına ümumtəhsil fənni olmaqla Azərbaycan və rus dilləri, hesab və hüsnxət, kənd təsərrüfatı biliyi vermək üçün isə bağçılığa, bostançılığa aid əsas anlayışlar daxil edilmişdi.

Məktəbə ilk dəfə nəzərdə tutulan 20 əvəzinə 40 şagird qəbul olundu. Şagirdlərin hamısı azərbaycanlılar idilər. Məktəbin nəzdində internat var idi. Mərdəkan bağçılıq məktəbindən bəhs edən Bakı qubernatoru 1896cı ildə imperatora hesabatında yazırdı: «Yalnız müsəlmanlar üçün nəzərdə tutulan bu məktəbin təşkili şagird axınına səbəb oldu və gözləniləndən daha çox şagird toplandı[4].

[1] LMDTA, f. 11k52, s. XII iş № 212, v. 10 Quba bağçılıq məktəbi az sonra şagird azlığı və nümunəvi bağ sahəsinin yoxluğu üzündən 1900-cü ildə bağlandı. Bax: LMDTA, f. K-na, (os) s. 1, iş № 6, v. 231 arx.

[2] «Azərbaycan Tarixi»ndə (II his. səh. 354) həmin məktəbin açılışının 1892-ci ilə aid edilməsi səhvdir.

[3] «Qafqaz» qəzeti, 1896-cı il, № 291; Gürc. SSR MDA, f. 12, s. 8, iş № 799, v. 42.

[4] LMDTA, f. K-na, (os) s. 1, iş № 6, v. 186 arx.

Arxiv sənədlərində bu məktəbin müvəffəqiyyətli başlanğıcı, valideynlərin tamamilə yeni olan bu məktəblə yaxından maraqlanması göstərilir. Valideynlər tez-tez məktəbə baş çəkir, çox diqqətlə və hər şeyi bilmək həvəsilə orada tətbiq edilən qaydalara, xüsusilə bağçılıq işlərinin təşkilinə göz yetirirdilər. Bakı qubernatoru yazırdı: «Bütün əsaslarla güman etmək olar ki, bütöv quberniyada yeganə növlü tədris müəssisəsi olan bu məktəb özünün faydalı nəticələri ilə nəinki bəraət qazanacaq, həm də ona bəslənən bütün ümid və arzuları ötüb keçəcəkdir"[1]. Göstərilən fikrin nəticəsini yoxlayıb imperatora mə'lumat verən Nazirlər Komitəsinin dəftərxanası qubernatorunun yuxarıdakı sözlərin təsdiq edərək, onun qarşısında «bəli» yazmışdır[2].

Bağçılıq və üzümçülüyə kömək etmək məqsədilə təşkil edilən Quba və xüsusilə Mərdəkan məktəbləri ilə Azərbaycanda kənd təsərrüfatı məktəblərinin bünövrəsi qoyuldu. Bu məktəblər, xüsusilə Mərdəkan məktəbi bağçılıq və üzümçülüyün inkişafında xeyli əhəmiyyətə malik idilər.

Əsrin sonlarına yaxın Azərbaycanda bağçılıq, üzümçülük, arıçılıq, meyvələrin konservləşdirilməsi, tərəvəzçilik və s. sahələr kadrlar hazırlayan ayrı-ayrı kurslar, siniflər və ibtidai məktəblər fəalliyət göstərirdi. Bunlar kənd təsərrüfatına aid təcrübi bilikləri yayırdı.

Məqalə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun «Elmi əsərləri"nin 1971-ci tarixli 3-cü sayında (s. 3–10) çap olunmuşdur.

[1] LMDTA, f. K-na, (os). s. 1, iş № 6, v. 186 arx.
[2] LMDTA, f. 1263. S. 2, iş № 5384. V. 202.

ANA DİLİ TƏ'LİMİ İDEYASININ MEYDANA GƏLMƏSİ VƏ İNKİŞAFI

XIX əsrdə Azərbaycanda məktəbin inkişafı tarixi, həm də ana dili tə'limi ideyasının meydana gəlməsi və inkişafı cəhətdən zəngin və mürəkkəb olmuşdur.

XIX əsrə qədər Azərbaycanda uşaqların ana dili tə'liminə e'tinasız yanaşılmış, Azərbaycan dili, assimilyasiya edilmişdir. Şərq ölkələrində olduğu kimi Azərbaycanda da ərəb və fars dilləri ədəbi dil hesab olunur, dini, elmi, ədəbi və bədii əsərlər əsasən bu dillərdə yazılırdı. Məktəb və mədrəsə tə'limində ərəb və fars dilləri əsas yeri tuturdu.

Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı öz ana dilini yadelli işğalçılardan mühafizə edib saxladı, onun lüğət tərkibi zənginləşdi və inkişaf etdi.

Azərbaycan dilinin mühafizə edilib saxlanması və inkişaf etdirilməsində bu dili sevən, bu dildə gözəl ədəbi-bədii əsərlər yaradan Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin — Həsən oğlu, İmadəddin Nəsimi, Xətib Təbrizi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Qövsi Təbrizi, Saib Təbrizi, Molla Pənah Vaqif, Molla Vəli Vidadi və başqalarının böyük rolu mə'lumdur. Bu şairlərin əsərlərinin məktəb və mədrəsələrdə şagirdlər tərəfindən oxunması da ana dilinin qorunub saxlanmasına kömək edirdi. Bununla bərabər uşaqların ana dilində tə'limi məsələsi mühüm bir problem kimi həll edilməmiş qalırdı. XIX əsrə qədər bu məsələnin həlli üçün hələ lazımi ictimai-iqtisadi və mədəni-siyasi zəmin də yox idi.

Ana dili tə'limi ideyasının meydana gəlməsində və inkişafında rus məktəbləri çox mühüm müsbət rol oynadı. Bu rol hər şeydən əvvəl onunla izah edilir ki, XIX əsrin 30-cu illərindən başlayaraq meydana gələn dövlət məktəblərinin tədris planına Azərbaycan dili müstəqil bir fənn kimi daxil edilmişdi. 1200 il ərzində ərəb və fars dilləri tərəfindən sıxışdırılan Azərbaycan dili yalnız rus məktəbləri sayəsində müstəqil fənn olaraq rəsmən tədris edilməyə başlandı.

Qafqaz və Zaqafqaziya məktəblərinin bütün nizamnamələrində o vaxtlar cəmi Qafqazda mühüm rol oynayan Azərbaycan dilinin tədrisi qanun ilə təsdiq edilmişdi. Doğrudur, Azərbaycan dilinin dövlət məktəblərində məcburi fənn kimi tədris edilməsi bir tərəfdən ölkədə

ərəb və fars dilinin tə'sir dairəsini zəiflətmək, ilk növbədə isə ruslardan olan şagirdlərin — ölkənin idarə edilməsi üçün hazırlanan gələcək çinovniklərin,—bu dili bilməsi zəruriyyətindən irəli gəlirdi. Bununla belə Azərbaycan dili tədrisinin dövlət məktəblərində məcburi fənlər sırasında olması, Azərbaycan dilinin təkcə Azərbaycanda deyil, cəmi Qafqazdakı bir çox ibtidai və orta məktəblərdə də tədris edilməsi bu dilin həyati əhəmiyyətini bir daha artırırdı.

Onu da qeyd edək ki, keçən əsrin 70-ci illərinin irtica dövründə mürtəce qraf. D.A.Tolstoyun maarif naziri tə'yin edilməsilə Azərbaycan dili, digər yerli dillər kimi məcburi fənlər cərgəsindən çıxarıldı. Lakin 1881-ci ildən mütərəqqi rus və Azərbaycan pedaqoji fikrinin tə'sirilə Azərbaycan dili, yenə də ibtidai məktəblərin tədris planında saxlanıldı. Əsrin sonlarında Azərbaycan dilinin öyrədilməsinə nisbətən az vaxt ayrılmasına baxmayaraq, onun tədrisi bu dilin həyati əhəmiyyətini qoruyub saxladı, bu dilin tədrisi sayəsində ən əsası isə milli müəllim kadrları hazırlamaq kimi çox vacib məsələlərin həllində ilk addımlar atıldı.

Azərbaycan dilinin tədrisi və ana dili tə'limi ideyasının sonrakı inkişafında Zaqafqaziya Müəllimlər Seminariyası çox mühüm və müstəsna rol oynadı. Təkcə Azərbaycanda deyil, cəmi Zaqafqaziyada və Qafqazda bu seminariyanın, ümumiyyətlə, xalq maarifi və məktəblərin inkişafındakı tarixi rolu, həm də onunla izah olunur ki, ana dili tə'limi nəzəriyyəçilərinin və onu təcrübi olaraq həyata keçirənlərin böyük bir dəstəsi, o cümlədən R.Əfəndiyev, S.Vəlibəyov, F.Köçərli, C.Məmmədquluzadə, N.Nərimanov, M.Mahmudbəyov, Ü.Hacıbəyov və onlarla başqaları məhz burada yetişmişdir. Bu seminariyada çalışan bir sıra mütərəqqi pedaqoqlar, xüsusilə də D.D.Semyonov, A.O.Çernyayevski müəllim kadrları hazırlığında, ana dilində yeni dərsliklər tərtib etmək və tələbələrə ana dili tə'limi ideyasının aşılanmasında böyük xidmətlər göstərmişdir.

Mə'lum ictimai-iqtisadi və mədəni tərəqqi əsasında, Azərbaycanda mütərəqqi adamların fəaliyyəti nəticəsində uşaqların ana dilində təhsili ideyası meydana gəldi. Azərbaycanın bir çox görkəmli nümayəndələri şagirdlərin ərəb və fars dilində tə'liminin orta əsr sisteminə qarşı kəskin mübarizəyə başladılar. Doğrudur, ana dili tə'limi ideyası uğrunda mübarizə kəskin siyasi xarakter daşımır,

bu mübarizə kortəbii xarakterdə olub, əsasən maarifçilik planda gedirdi. Bununla belə əsrin ikinci yarısında ana dili tə'limi mühüm pedaqoji problem kimi, Azərbaycan pedaqoji fikrinin diqqət mərkəzində idi.

Ana dilinin qorunub saxlanmasında ana dilində məktəb ideyasının rüşeym şəklində olsa da, meydana gəlməsində və əsaslandırılmasında bir sıra ədəbi məclislərin də mühüm rolu olmuşdur. XIX əsrdə Azərbaycanın Bakı, Şamaxı, Şuşa, Ordubad və başqa şəhərlərindəki bə'zi məktəblərdə gənclərdə doğma ana dilinə məhəbbət tərbiyə edən, onlarda Azərbaycan poeziyasına zövq aşılayan və gənc Azərbaycan şairləri yetişdirən ədəbi dərnəklər-məclislər mövcud idi. Ədəbi məclislər bir çox halda məktəblərin nəzdində, müəllimlərin yaxından iştirakı və rəhbərliyi ilə təşkil edilirdi.

Məhəmməd Tağı Sidqi Ordubaddakı «Əncüməni-şüəra» məclisinin fəal üzvlərindən idi. Şuşadakı «Məclisi-üns»ə məşhur şairə Xurşidbanu Natəvan, «Məclisi-Fəramuşan»a Mirzə Möhsün Nəvvab, Şamaxıdakı «Beytüs-Səfa»ya S.Ə.Şirvani rəhbərlik edirdi.

Bu məclislər yaradıcı gəncləri özünə cəlb edərək ana dilində şe'rə, sənətə məhhəbət hissi aşılayır, doğma ana dilinə məhəbbət tərbiyə edir, ana dilində yazan yeni şairlər nəsli yetişdirirdi. Məclisin gənc üzvləri vaxtlarının bir hissəsini ana dili dərslərinin müzakirəsinə həsr edirdilər.

Ədəbi məclislərin iştirakçıları həyatla, tarixi inkişafla ayaqlaşa bilməsələr də, klassik irsi yaşatmaq və yaymaqla bərabər gənclərin ana dilində tə'limi ideyasını əsaslandırır və genişləndirirdilər.

Ana dili tə'limi uğrunda XIX əsrin Azərbaycan maarifçi pedaqoqlarının mübarizəsi ayrıca təqdirə və tədqiqə layiqdir.

XIX əsri Azərbaycan maarifçilərinin ana dili məktəbi mübarizəsini iki dövrə bölmək olar. Birinci dövrdə maarifçiliyin əsas numayəndələri A.Bakıxanov ilə M.Ş.Vazeh, ikinci dövrdə isə M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov, A.O.Çernyayevski, M.Şaxtaxtlı, R.Əfəndiyev, F.Köçərli, C.Məmmədquluzadə, N.Nərimanov və b. olmuşlar.

Birinciləri ilk maarifçilər adlandırmaq olar. Onların yaşadığı dövrdə Azərbaycan maarifçiliyi hələ ibtidai şəkildə idi. Onun müəyyən məramnaməsi yox idi. Azərbaycan maarifçiliyi hələ

«Təhkimçilik hüququ və iqtisadi, ictimai və hüquq sahələrində onun doğurduğu nəticələr» (Lenin) əleyhinə qızğın, qət'i mübarizəyə keçmişdi. Maarifçilər feodalizmin ayrı-ayrı təzahürləri əleyhinə, zülm, istibdad, qadın hüquqsuzluğu, köhnə qanun-qaydalar, mədəni gerilik və s. əleyhinə mübarizə aparmaqla kifayətlənirdilər. Onların qarşıya qoyduqları ən zəruri məsələ xalq kütlələri içərisində maarifi yaymaq idi. Onlar maarifi avam kütlələrin qəflət yuxusundan ayılması, feodal qaydalarından və cəhalət buxovlarından azad olması üçün əsas vasitə hesab edirdilər[1]. Bu maarifçiliyin ən qabaqda gedən nümayəndəsi A.Bakıxanov «Kitabi-nəsihət» əsərində yazırdı: «Elmi hasil etməyi hamı şeylərdən əzizraq say, ondan ötrü ki hamı şeylər onun səbəbi ilə müyəssər olur». Başqa bir əsərində, «Təhzibül-əxlaq»da isə «Dünyada olan şeylərin hamısı bütün fəzilətlərin dövləti olan elmə bağlıdır» deyirdi.

Avam kütlələrin xoşbəxtliyini elm və maarifə bağlayan A.Bakıxanovun 1832-ci ildə Bakıda məktəb açmağa təşəbbüs etməsi də bununla əlaqədar idi. Sırf maarifçilik cəbhəsindən çıxış etməsinə baxmayaraq A.Bakıxanovun elmin bayrağını hər şeydən uca tutması, dünyəvi məktəb açmaq təşəbbüsü ana dilli məktəb ideyasının gələcək inkişafında müsbət rol oynadı. İlk maarifçilərdən olan Mirzə Şəfi də ana dilində maarifi yaymaq uğrunda mübarizə aparır, gəncləri ruhani təhsilindən uzaqlaşdırmağa və müasir elmləri təhsil etməyə çağırırdı. Onun ana dilində dərslik tərtib etməsi ana dili tə'liminin inkişafında mühüm mərhələ təşkil edir.

Ana dilli məktəb uğrunda mübarizə XIX əsrin ikinci yarısında daha da gücləndi. Mə'lum olduğu kimi 60-cı illərdə ana dili tə'limi ideyası, ictimai-siyasi hərəkatın tərkib hissəsi olmaqla Rusiyada geniş müzakirə obyekti olmuşdu. Rus mütərəqqi pedaqoji fikri çarizmin mürtəce siyasəti əleyhinə olaraq ana dili tə'limi ideyasını əsaslı surətdə irəli sürür və qızğın müdafiə edirdi.

XIX əsrin görkəmli rus mütəfəkkirlərinin dərin elmi fikirləri Rusiyanın ucqarlarında, o cümlədən Azərbaycanda ana dilinin tədris edildiyi milli məktəb ideyasının meydana gəlməsinə və inkişafına böyük təkan verdi. Azərbaycan xalqının mədəni geriliyi də bu məsələni qüvvətləndirdi.

[1] Bax: Azərbaycan ədəbiyyatı tarixi, II cild, Bakı, 1960 30.

60-cı illərdən başlayaraq Azərbaycanın bir çox görkəmli nümayəndələri tə'limin ana dilində aparılmasını nəinki lazım bildilər, həm də bu sahədə gərgin mübarizəyə başladılar. Bu mübarizədə M.F.Axundov şərəfli yer tutur.

XIX əsr Azərbaycan mədəniyyətinin ən böyük nümayəndəsi, maarifçi demokrat, görkəmli ictimai xadim və pedaqoq olan M.F.Axundovun ana dilli məktəb uğrunda mübarizəsi onun ərəb əlifbasının dəyişdirilməsi fikri ilə bilavasitə əlaqədardır. O, xalqın ümumi mədəniyyətini, o cümlədən ana dilinin inkişafında, xalq kütlələrinin savadlanması işində ərəb əlifbasının böyük əngəl olduğunu görmüş və tam 20 il bu əlifbanın dəyişdirilməsi uğrunda inadla mübarizə aparmışdır.

M.F.Axundov xalqın ümumi mədəni və iqtisadi geriliyinin əsas səbəbini ərəb əlifbasında görürdü. 1869-cu ildə yazdığı «Kəmalüddövlə və Cəlalüddövlə məktubları»na əlavədə o yazırdı: «Ərəblər, bizim min illik səltənətimizi yıxdılar, şan və şövkətimizi bərbad etdilər, vətənimizi elə xarabadan da xarab etdilər ki, bu günə qədər abad etmək mümkün olmadı. Üstəlik onlar bizim boynumuza elə bir yazı da bağladılar ki, onun sayəsində ümumi müyəssər olan savadı əldə etmək bizim üçün işlərin ən çətini olmuşdur»[1]. «Kəmalüddövlə» müəllifinin təlaş və arzusu xalqı əsrlərlə cəhalətdə saxlayan bu «mərdud və murdar yazının əlindən xilas etmək və cəhalət qaranlığından mə'rifət işıqlığına çıxarmaq» idi[2]. İstər dostlarına, istərsə də hökumət nümayəndələrinə yazdığı külli miqdar məktublarında o, ərəb əlifbasında dəyişiklik edərkən ancaq xalqın mədəni tərəqqisindən çıxış edirdi. O, xalqını Avropanın mədəni xalqları cərgəsində görmək istəyirdi. Hicri 1290-cı ildə Tiflisdən «Həqayiq» qəzeti redaktoruna göndərdiyi məktubda məqsədini belə izah edirdi: İslam xalqlarının hazırkı əlifbasını dəyişdirməkdə məqsədim, elmləri və sənətləri öyrənmək vasitəsini asanlaşdırmaq idi ki, bütün islam xalqları istər şəhərli, istər kəndli, istər oturaq, istər köçəri olsun, qadınlı–kişili, rus xalqı kimi savad öyrənməyə, elmlərə və sənətlərə yiyənlənməyə imkan taparaq, tərəqqi yoluna qədəm qoyub, mədəniyyət aləmində yavaş-yavaş özünü avropalılara

[1] M.F. Axundov. Əsərləri, 2-cild, Bakı, 1951, 120.
[2] Yenə orada, 121.

çatdırsın[1]. O, deyirdi ki, xarici ölkələrdə, xarici dillərdə təhsil alan beş–on nəfər ilə xalqın ümumi mədəni səviyyəsini yüksəltmək olmaz. Bu yol xalqı daim xaricilərə möhtac edər.

M.F.Axundov göstərdi ki, müsəlman xalqları içərisində elə bir uşaq tapılmaz ki, ərəb əlifbasına nifrət bəsləməmiş olsun. Çünki bu əlifbanı öyrənmək ona birinci günlərdə riyaziyyatı öyrənmək qədər çətin gəlir[2].

Ərəb əlifbasının çətinliyinin nəticəsi idi ki, köhnə məktəblərdə oxuyanların gəncliyi ancaq savad öyrənməyə sərf olunurdu. 20 ildə ərəb dili, 10 ildə fars dilini öyrənmək mümkün olmur, xüsusilə ərəb dilini öyrənmək sahəsində tələbələr çoxlu əziyyətə düçar olur, təhsili qurtardıqdan sonra isə, Axundovun dediyi kimi, qocalıb ruhdan düşür və heç bir şey bilmədən ömürləri hədər gedirdi. M.F.Axundov elə əlifba tərtib etməyi tələb edirdi ki, onu öyrənmək və yazmaq üçün şagird iki-üç həftədən artıq vaxt itirməsin.

M.F.Axundov çox uzaqgörənliklə deyirdi ki, müsəlmanların yazısındakı belə bir qeyri-təbii vəziyyət, tez və ya gec–aradan qaldırılmalıdır. Hətta 500 il bundan sonra olsa belə, bu əlifbada mütləq bir dəyişiklik əmələ gələcəkdir. M.F. Axundovun xidməti orasındadır ki, o, ərəb əlifbasında əsaslı islahat aparmağı elmi-pedaqoji cəhətdən əsaslandıran və onu təcrübi olaraq həyata keçirməyə ciddicəhd edən əvvəlinci mütəfəkkirdir. O, ərəb əlifbasının islahatı üzərində ciddi sə'ylə işləmiş, əlifbadakı bütün nöqtələri atmış, o vaxta qədər yazılmayan sait hərfləri əlifbaya daxil etmiş, onların hər biri üçün özünün dediyi kimi, gözəl şəkillər ixtira etmiş, durğu işarələri yaratmış, düzgün yazmaq və yazını asan üsul ilə öyrətmək üçün qaydalar göstərmişdir. Onun tərtib etdiyi əlifba o qədər mükəmməl idi ki, o vaxta qədər öyrənilməsi üçün illər tələb edən müsəlman yazısını bu əlifbanın köməyi ilə bir ayda öyrənmək olar.

Yeni əlifba uğrunda M.F.Axundovun mübarizəsi sözün tam mə'nasında, xalqın, geniş zəhmətkeş kütlələrin maariflənməsi və bunun nəticəsində onların azadlığa, işıqlı həyata çatması uğrunda mübarizə idi. O, illər uzunu xalq kütlələrinin savadlanması, ana dili tə'limi və əlifbanı dəyişdirmək uğrunda apardığı ardıcıl mübarizədən

[1] M.F. Axundov. Əsərləri, 3-cü cild, Bakı. 1962, 344.
[2] Yenə orada, 78.

əl çəkməmiş və ümidini itirməmişdir. O, illərdən bəri səpdiyi maarif toxumlarının bir gün məhsul verəcəyinə dərindən inanırdı.

M.F.Axundovun yeni əlifba uğrunda apardığı bu mübarizə, eyni zamanda ərəb əlifbası ilə yazan xalqların, o cümlədən Azərbaycan xalqının ana dilində təhsili, ana dilli məktəb, ana dilində kitab və mətbuatın yaranması və nəhayət, milli maarifin və mədəniyyətin inkişafı uğrunda mübarizə idi.

M.F.Axundov ana dili sahəsində təkcə nəzəri fikirlər söyləməmiş, o, həm də bu sahədə təcrübi fəaliyyət göstərmişdir. 1836—1840-cı illərdə Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi vəzifəsində çalışan Axundov bu dilin tə'liminin yaxşılaşdırılmasına sə'y etmiş, ana dilində dərslik tərtib etmək zəruriyyətini lazım bilmiş, tərtib edilən dərsliklərin müzakirəsində yaxından iştirak etmiş və orijinal fikirlər söyləmişdir.

M.F.Axundovun ana dili tə'limi uğrunda mübarizəsi nəticəsiz qalmadı. M.F.Axundovun mütərəqqi müasirləri və həmfikirləri bu ideyanın həyata keçirilməsi uğrunda onun başladığı işi davam etdirdilər. Bu işdə H.Zərdabi və onun «Əkinçi» qəzeti xüsusilə böyük rol oynadı.

Zərdabinin ən mühüm xidmətlərindən biri və birincisi budur ki, o, mövhumat və orta əsr geriliyinin hökm sürdüyü bir dövrdə maarif məş'əlini yandıranlardan biri olmuş və ömrünün sonunadək bu məş'əli yerə qoymamışdır. «Maarifdən, elmdən məhrum olan xalq işıqdan məhrumdur» — deyən Zərdabinin bütün həyatı xalqın maariflənməsi işi ilə bağlı olmuşdur.

Həsən Bəy Zərdabinin tarixi xidməti bir də bundadır ki, o, M.F.Axundovdan sonra ana dili tə'limi ideyasını inkişaf etdirərək yeni yüksəkliyə qaldırdı. Savad tə'limi ideyasını irəli sürən Həsən Bəy M.F.Axundovdan fərqli olaraq, uşaqların ümumi elmi təhsilini, ana dilində dünyəvi məktəblər yaratmaq ideyasını dövrün tələblərinə müvafiq olaraq elmi dəlillərlə əsaslandırdı.

Doğrudur, o, insan cəmiyyətinin inkişaf qanunlarını dərk etməkdə lazımi səviyyəyə qalxa bilmədiyindən ictimai həyatın sinfi mahiyyətini və onun geriliyinin səbəblərini açа bilməmişdir. Digər, maarifçilər kimi, Həsən Bəy də feodal-patriarxal münasibətlərə toxunmadan elmi-biliyi yaymaqla xalqın cəhalətdən xilas olacağına inanırdı. Bunlara baxmayaraq H.Zərdabi xalqın bəlalarını düzgün

başa düşür, onun iqtisadi-mədəni inkişafı üçün elmin faydasını görürdü. O, məqalələrindən birində yazırdı:

«Bizim zəmanəmiz dəyişilib. Biz elm sahiblərinə rast gəlmişik. Bizimlə zindəganlıq cəngini edən millətlər elm təhsil edirlər. Ona binaən gələrək biz də elm-təhsil edək ki, onlara zindəganlıq cəngində qalib olmasaq da, onların bərabərində dayanıb duraq»[1].

Əvvəlki illər kimi, XIX əsrin 70-ci illəri elə bir dövr idi ki, yalnız «namaz qılıb oruc tutmaq» müsəlmanlığa xas olan xüsusiyyət hesab edilir, xalqın tərəqqisinə çalışanlar, dünyəvi elm və məktəb tərfdarları isə avamlar tərəfindən sıxışdırılır, həcv edilirdi. Onun işi, zəhməti dinə zidd kimi təbliğ edilir, lənətlə qarşılanırdı.

Belə bir vəziyyətdə işləmək, xalqı irəliyə aparmaq işi nə qədər çətin olsa da, H.Zərdabi yenə də bu işdə inadla çalışmağı məsləhət görür, məktəbdarları ruhlandırırdı. O, ziyalılara müraciətlə deyirdi: «Ey millət təəssübü çəkən qardaşlar!... Ey elm təhsil edən cavanlarımız? Doğrudur, bizim vətən qardaşlarımız ilə üns tutmaq çətindir. Siz danışdığınızı onlar başa düşməyib, əhvalınızı şəriətə namüvafiq hesab edib, sizə kafir deyib incidəcəklər. Doğrudur, qeyri millətlər sizin kəmalınızı görüb sizə artıq rütbə verəcəklər. Amma insaf deyil ki, beş gün ömrün ləzzətindən ötrü millət qardaşlarımızı atıb onları kor və sərgərdan qoyasınız. Pəs ləzzəti-dünyaya təmə etməyib öz qardaşlarınızı əməli-xeyrə vadar edin. Qoy şüəralar sizi həcv etsin. Mollalar lənət oxusun. Əvamünas daşa bassın». Eybi yoxdur, bu müvəqqəti haldır. Siz «vaxt keçməmiş elm kitabları gətirib, məktəbxanalar bina edib öz dilimizdə təhsili üləmə məşğul olun...». Zərdabi inanır və inandırırdı ki, millət üçün zəhmət çəkənlər, millət balalarına ana dilində təhsil və tərbiyə verənlərin zəhməti hədər getməyəcək, bir vaxt gələcəkdir ki, onların əməyi öz bəhrəsini verəcək və «Gələcəkdə millətin gözü açılanda sizi şahid hesab edib sizə rəhmət oxuyacaq»[2].

Həsənbəy Zərdabi ana dilli məktəbləri ilə bərabər, dünyəvi təhsil uğrunda mübarizə aparırdı. Moskvada təhsil alarkən, ola bilsin ki, o, 60-cı illərdə Rusiyada klassik və real təhsil tərəfdarları arasında gedən mübarizədən xəbərdar idi. Lakin onun «Əkinçi» qəzetində «elm-əbdan» və ya «elm-ədyan» haqqında qaldırdığı məsələ,

[1] Həsənbəy Zərdabi. Seçilmiş əsərləri, Bakı, 1960, 71.
[2] Həsənbəy Zərdabi. Seçilmiş əsərləri, Bakı, 1960, 92.

Azərbaycan xalqının həyatından irəli gəlirdi və Rusiyada gerən mübarizənin Azərbaycanda özünəməxsus bir növ in'ikası idi.

H.Zərdabi başda olmaqla «Əkinçi» qəzeti və onun mütərəqqi müxbirləri M.F.Axundovun ideyalarını inkişaf etdirərək öz məqalələrində «elm əbdanı», «elm ədyanı», dünyəvi elmlərin öyrənilməsini ilahiyyatçılıqdan ayırmağı tələb edir, mövcud məktəblərlə dünyəvi elmlərin tədris edilməsini təbliğ edirdilər.

«Əkinçi» səhifələrində «elmi-əbdan» barədə açılan mübahisə təsadüfi deyildi. Bu mütərəqqi ziyalıların düşünülmüş təşəbbüsü idi. Müzakirənin məqsədi dünyəvi elmlərin vacibliyini göstərməklə ona xalq arasında rəğbət hissi oyatmaq və ana dilində yeni üsullu məktəblər açıb həmin fənlərin tədrisinə rəvac verməkdən ibarət idi.

M.F.Axundovun «Əkinçi» qəzetinin 1877-ci ildəki 2-ci nömrəsində çap edilmiş məşhur məktubu və bununla əlaqədar olaraq qaldırılan geniş müzakirə ana dilli məktəb və dünyəvi elmlərin tədrisi məsələsinin həyati əhəmiyyət kəsb etdiyini sübut etdi. M.F.Axundovun məktubunda irəli sürülən üç mühüm məsələ: 1) Kütləvi xalq məktəblərinin olması, xalq müəllimlərinin olması, tə'limin ana dilində olması, o dövrdə yeni məktəb—ana dilli məktəb təşkilinin qarşısında duran çox mühüm və həll edilməsi zəruri olan vacib pedaqoji problemlərdən idi. Göstərilən məsələlər barəsində «Əkinçi» nin açdığı geniş müzakirə ana dili məktəb ideyasının sonrakı inkişafına tə'sirsiz qalmadı.

Əsrin sonlarına doğru ana dili tə'limi Azərbaycan pedaqoji fikrini düşündürən ən ciddi məsələlərdən idi. Bu işdə dövrün məşhur maarifçi və pedaqoqlarının xidmətləri unudulmazdır.

M.Şahtaxtlı «Qafqaz» qəzetində dərc etdirdiyi «Müsəlmanların məktəb həyatı» adlı silsilə məqalələrində təhsilin, xüsusilə ibtidai təhsilin yalnız ana dilində aparılmasını zəruri hesab edirdi[1].

Məşhur maarifçi və pedaqoq F.Köçərli isə yazırdı:

«Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mə'nəvi diriliyidir; həyatının mayəsi mənziləsindəndir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir»[2].

[1] Bax: «Qafqaz» qəzeti № 160, 1882-ci il.
[2] F. Köçərli. Seçilmiş əsərləri, Bakı, 292.

F.Köçərli ana dili məsələsində iki cəbhədə mübarizə aparırdı. Bir tərəfdən ruslaşdırma siyasəti yeridən ilminskiləri, miropiyevləri, levitskiləri, digər tərəfdən isə Əlibəy Hüseynzadə kimi doğma ana dilimizə «pozğunluq -salanları» kəskin təndiq atəşinə tuturdu. Əlifba məsələsindəki qüsurları da bunun üstünə gələn Köçərli yazırdı:

«İndiyədək mə'nəvi tərəqqimizə mane olan millət bir isə, indi iki olur. Bir tərəfdən hürufat qüsuru, digər tərəfdən dil qürusu əlimizi və ayağımızı bağlayıb qoymur ki, irəli gedək»[1].

Ana dili tə'limi ideyasının sonrakı inkişafında, xüsusilə də onun təcrübi olaraq həyata keçirilməsi işində S.Ə.Şirvani, M.T.Sidqi, N.Nərimanov, C.Məmmədquluzadə və başqaları mühüm rol oynadılar. Onlar bir tərəfdən Azərbay-can dilində dərsliklər tərtib edir, bu dərsliklər vasitə-silə ana dilinin yeni üsulla tədrisini yaxşılaşdırır, digər tərəfdən də nəzəri məqalələrilə ana dilinin tə'lim və tərbiyəvi rolunu müdafiə və inkişaf etdirirdilər.

Məqalə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi Əsərlərinin (pedaqoji-psixoloji elmlər seriyası) 1971-ci il tarixli 5-ci sayında (s. 3–10) çap olunmuşdur.

[1] Yenə orada, 294.

XIX ƏSRİN 60-cı İLLƏRİNDƏ RUSİYADA MƏKTƏB İSLAHATI VƏ AZƏRBAYCANDA MƏKTƏB TƏHSİLİNİN YENİDƏN QURULMASININ BƏ'Zİ MƏSƏLƏLƏRİ

XIX əsrin ortalarında bütövlükdə Rusiya və Zaqafqaziyada olduğu kimi, Azərbaycanda da xalq maarifi və məktəbin inkişafı ölkənin ümumi iqtisadi, ictimai və siyasi vəziyyətindən asılı olub, əsaslı islahat tələb edirdi. Bu islahat isə ilk növbədə Rusiya ilə bağlı idi, XIX əsrin ikinci yarısında Rusiya öz tarixi inkişafının yeni bir mərhələsinə qədəm qoydu. Ölkə daha çox kapitalist inkişafı yoluna çıxmaqda idi, təhkimçi münasibətlər isə kapitalizmin inkişafını ləngidirdi. Çarizmin məğlubiyyətə düçar olduğu Krım müharibəsi və 60-cı illərdə kəndli hərəkatının artması təhkimçilik hüququnun tə'xirəsalınmaz surətdə ləğv edilməsi zərurətini tam aydınlığı ilə nümayiş etdirdi. Bütün bunlar və inqilabi-demokrat hərəkatın genişlənməsi nəticəsində çar II Aleksandr 1861-ci il fevralın 19-da Rusiyada təhkimçilik hüququnun ləğvi haqqında manifest imzaladı.

1861-ci ildə Rusiyada təhkimçilik hüququnun ləğvi kapitalist istehsal münasibətlərinin bərqərar olması üçün əlverişli şərait yaratdı. Təhkimçilik qalıqlarının törətdiyi maneəyə baxmayaraq, islahatdan sonra sənaye kapitalizminin inkişafı xeyli sür'ətləndi. V.İ.Leninin göstərdiyi kimi, islahat «...Rusiyanı burjua monarxiyasına çevirmək yolunda atılan bir addım idi. Kəndli islahatı burjua məzmunlu idi... 61-ci ildən Rusiyada kapitalizm elə sür'ətlə inkişaf etdi ki, Avropanın bə'zi qədim ölkələrində əsrlər ərzində baş verən dəyişikliklər Rusiyada on illər ərzində əmələ gəlmişdir»[1].

Rusiyanın mərkəzi quberniyalarından fərqli olaraq Azərbaycanda kəndli islahatı bir qədər gec həyata keçirildi. Rusiyadakı islahatdan 9 il sonra, 1870-ci ildə çar hökuməti Azərbaycanda feodal asılılığını ləğv etməyə məcbur oldu. Lakin kəndlərin bəy və mülkədarlardan şəxsi və hüquqi asılılığının ləğv edilməsi təhkimçilik münasibətlərini aradan qaldırmadı. Bakı müstəsna olarsa, Azərbaycanda yenə də köhnə feodal-patriarxal münasibətləri qalmaqda davam edirdi.

Kəndli islahatı Azərbaycanın ictimai-iqtisadi həyatında mühüm hadisə idi. Bütün məhdudiyyətlərinə baxmayaraq o, hər halda,

[1] V.İ. Lenin. Əsərləri. 17-ci cild, Bakı, 1951, 108.

kapitalizmin inkişafına kömək edirdi. Kəndli islahatının ardınca Azərbaycanda məhkəmə və şəhər islahatları keçirildi. İnzibati quruluşda və məktəb təhsili sistemində bə'zi dəyişikliklər edildi. Bu dəyişikliklər ilk növbədə Rusiya məktəb sistemində aparılan islahat ilə sıx surətdə bağlı idi.

Mə'lum olduğu kimi, 1861-ci il kəndli islahatının ardınca, hökumət, 60-cı illərin ictimai-pedaqoji hərəkatının güclü tə'siri nəticəsində məktəb təhsilinin qeyri-mükəmməl sisteminin bütün sahələrində islahat keçirməyə məcbur oldu. 1864-cü il iyulun 14-də «İbtidai xalq məktəbləri haqqında əsasnamə» və həmin il noyabrın 19-da isə «Gimnaziya və progimnaziyaların nizamnaməsi» qəbul edilərək təsdiq edildi. Hökumət ictimaiyyətin tələblərinə güzəştə getməyə məcbur oldu[1].Bu tə'sir Qafqazda da özünü göstərdi; Qafqaz canişini xalq maarifi sahəsində bə'zi tə'cili tədbirlər görməyə başladı.

1865-ci ilin əvvəllərində Qafqaz və Zaqafqaziya məktəb direktorlarının Tiflis şəhərində konfransı keçirildi. Layihə 1867-ci il iyunun 25-də mərkəzi hökumət tərəfindən sınaq məqsədi ilə üç il müddətində təsdiq edildi.

1867-ci il nizamnaməsi üzrə ilk dəfə olaraq təhsil haqqı tətbiq edildi. Qəza məktəbləri nəzdində pansion təşkili lazım bilindi ki, buraya əsasən yerli əhaliyə mənsub imtiyazlı təbəqələrin uşaqları qəbul olunurdu.

1867-ci il nizamnaməsi ilə Qafqaz tədris dairəsi nəzdində ayrı-ayrı məktəblər direksiyası yaradılmalı idi. Lakin bu direksiyalar əsasən 1876-cı ildən fəaliyyətə başladı.

İrəvan—Yelizavetpol quberniyası xalq məktəblər direksiyası 1876-cı il aprelin 1-dən, Bakı—Dağıstan quberniyası xalq məktəblər direksiyası isə iyulun 1-dən tə'sis edildi.

Bakı quberniyası və Dağıstan vilayət xalq məktəblər direksiyasının inzibati mərkəzi Bakı şəhərində idi. İrəvan və Gəncə quberniyaları xalq məktəblər direksiyası isə İrəvan şəhərində yerləşirdi. Lakin ümumtəhsil məktəbləri, o cümlədən dövlət məktəbləri, İrəvan quberniyasına nisbətən Gəncə quberniyasında daha çox olduğundan, bu direksiyanın inzibati mərkəzi 1877-ci

[1] Bu haqda bax: Smirnov V.Z. Reforma naçalğnoy i sredney şkolı v 60-x qodax XIX v, M. 1954.

ildə İrəvandan Gəncə şəhərinə köçürüldü. Azərbaycan ərazisində olan məktəblərin böyük əksəriyyəti bu direksiyalara tabe idi. Yalnız Zaqatala dairəsi bir müddət Kuban vilayəti xalq məktəblər direksiyası, sonralar isə Tiflis məktəblər direksiyası tabeliyinə keçdi. Məktəblərə rəhbərliyin bu sistemi əsrin sonlarına qədər dəyişilməmiş qaldı.

Məktəblər direksiyasının təşkili xalq məktəblərinin inkişafına xeyli kömək etdi. Direksiya təkcə mövcud məktəblərə rəhbərlik etməklə kifayətlənmir, kənd və şəhər ictimaiyyətini yeni-yeni məktəblər açmağa təhrik edirdi.

60-cı illərin orta məktəb islahatı Azərbaycanda təhsil müəssisələrinin inkişafına tə'sir etdi. Əhalinin orta təhsilə olan tələbi və 1864-cü il nizamnaməsinin tətbiqi ilə əlaqədar olaraq, 1865-ci il sentyabrın 13-də Bakı ali dörd sinifli məktəbin əsasında ilk natamam orta məktəb—realnı progimnaziya təşkil edildi.

Əvvələr yalnız iki aşağı sinifdən ibarət olan Bakı progimnaziyası 1867-ci ildə realnı gimnaziyaya çevrildi. Bakı realnı gimnaziyasının tə'sisi Azərbaycanda orta təhsilin (dövlət tərəfindən açılmış rus orta məktəbinin) əsası qoyuldu və tədricən gimnaziya sinifləri açıldı.

Bakıdan sonra Azərbaycanda sayca ikinci orta məktəb Yelizavetpol (Gəncə) şəhərində tə'sis edildi. Hökumətin 1867-ci il 9 dekabr tarixli «Qafqaz və Zaqafqaziya ölkəsinin idarə olunmasının dəyişdirilməsi haqqında» fərmanı əsasında müstəqil Yelizavetpol quberniyasının yaradılması və Gəncənin quberniya mərkəzinə çevrilməsi ilə əlaqədar olaraq Gəncə qəza məktəbi 1870-ci il iyulun 1-dən klassik progimnaziyaya çevrildi[1]. Sonralar isə gimnaziya sinifləri də təşkil edildi.

1870-ci illərdə Rusiya imperiyası üzrə bir sıra məktəb nizamnamələrinin, o cümlədən gimnaziya və progimnaziyaların 30 iyul 1871-ci il, realnı məktəblərin və şəhər məktəblərinin 15 may 1872-ci il nizamnamələrinin meydana gəlməsi ilə Zaqafqaziyada ayrıca məktəb nizamnamələrinin mövcud olması

[1] Gürc. SSR, MDA, f. 5, s. 1, iş № 1861 v. 8. «Azərbaycan tarixi»nin 2-ci cildində səhv olaraq bu progimnaziya kimi qələmə verilir (səh. 355).

aradan qaldırıldı. Beləliklə, Qafqazla bərabər, Azərbaycan maarif sistemi də Rusiya imperiyasındakı sistemə daha da uyğunlaşdırıldı, məktəblər bilavasitə imperiya daxilindəki nizamnamələrlə idarə edilməyə başladı.

Hökumətin 22 noyabr 1873-cü il qərarı ilə Qafqaz ölkəsinin xalq maarifi birdəfəlik olaraq imperiya daxilindəki məktəb şəbəkələrinin ümumi ailəsinə daxil oldu. Yerli dillərin tədrisi xeyli məhdudlaşdırıldı. Ali məktəblərə daxil olanlara verilən üstünlük aradan qaldırıldı. Rus dilinin tədrisi daha da gücləndirildi.

1874-cü ildə şəhər, 1875-ci ildə isə kənd normal məktəblərinin nizamnaməsi qəbul edilərkən yenə də ümumrusiya məktəb sistemi əsas götürüldü.

Rusiyanın daxili quberniyalarından fərqli olaraq Zaqafqaziyada zemstvo müəssisələrinin, habelə ümumi əskəri mükəlləfiyyətin olmaması, əhalinin milli-dini xüsusiyyətlərinin müxtəlifliyi və ictimai-iqtisadi həyatın özünəməxsus bir çox cəhətləri məktəb təhsilinin inkişafına müəyyən dərəcə mane olurdu. Bununla belə ölkədə iqtisadiyyatın tərəqqisi, xalqın təhsilə olan ehtiyacı Azərbaycanda mövcud məktəblərin yenidən qurulması və yeni məktəblərin açılması, dövlət məktəb şəbəkəsinin əvvəlki illərə nisbətən daha çox genişlənməsinə xeyli kömək edirdi. Xalq maarifi sahəsində az-çox tərəqqi və canlama hiss edilirdi. Bu tərəqqi həm də azərbaycanlılardan olan şagirdlərin get-gedə artmasında özünü göstərirdi.

Qafqaz tədris dairəsi popeçitelinin 1873-cü il hesabatında deyilir:

«Keçən ilki hesabatımda göstərdiyim kimi, dövlət məktəblərində müsəlman şagirdlərinin sayı da artmaqdadır. Bu artım bu il də davam etmiş və hesabat ilində 730-a çatmışdır. Onlardan 105-i əsasən Bakı və Vladiqafqazda olmaqla realnı məktəblərində, 80-i gimnaziyalarda, qalanları isə qəza və ibtidai məktəblərdə oxuyur. Bunlardan 250 nəfəri dövlət hesabına pansionda yaşayır»[1].

[1] Otçet popeçitelə Kavkazskoqo uçebnoqo okruqa za 1873 q., Tiflis, 1874, 27.

Azərbaycanlıların dövlət məktəblərində get-gedə artmasından bəhs edən L.Modzalevski yazırdı: «Belə bir fərəhli hadisənin əhəmiyyətini e'tiraf etməmək olmaz ki, tədris dairəsinin əhatə etdiyi məktəblərdə (1876-cı il yanvarın 1-nə olan mə'lumata görə) uzun müddət Avropa məktəblərinə yabançı olan dağlılardan və müsəlmanlardan 762 şagird (o cümlədən 15 qız) təhsil alır»[1].

Pansionda yaşayan şagirdlərin sayına görə də müsəlmanlar irəlidə gedirdi. Tədris dairəsi üzrə 1249 pansionçunun əksəriyyətini dağlılar və müsəlmanlar təşkil edirdi.

60-cı illərin məktəb islahatı qəza məktəblərinin həyatında da əsaslı dəyişiklik etdi. 1874-cü ildə ilk dəfə Şuşa, sonralar isə Şamaxı, Gəncə, Nuxa, Naxçıvan və Zaqatala qəza məktəbləri şəhər məktəbinə çevrildi»[2].

60-cı illərin kəndli islahatı ibtidai məktəblərin də inkişafına müəyyən tə'sir etdi. 1876-ci il nizamnaməsilə Qafqazda, o cümlədən Azərbaycanda, bir və ikiillik təhsil müddəti olan ibtidai məktəblərin təşkili təsdiq edildi.

Məktəb həyatında əmələ gələn canlanmadan bəhs edən L.Modzalevski yazırdı: «Bu dövrdə ölkənin təhsil işində ümumi canlanma o qədər böyük idi ki, Şuşa, Aleksandropol, (Gümrü —H.Ə.) Zaqatala, Poti, Axalkələk, Rac və b. yerlərdən Qafqaz canişininin yanında deputatlar hey'əti gəlir və ya ərizələr göndərərək yeni məktəblar açmağı tələb edirdilər. Hətta kəndli icmaları da bu işə qoşulur və bu faydalı iş üçün xeyli ianələr toplayırdı»[3].

Azərbaycan ərazisində rus dilində ilk kənd məktəblərinin meydana gəlməsi keçən əsrin 60-cı illərinə təsadüf edir. İbtidai xalq məktəbləri adlanan bu tədris ocaqları vaxtı ilə Rusiyadan köçürülmüş rusların sakin olduqları kəndlərdə (Astraxanka, Nikolayevka, Prişib, Xılmıllı, Mərəzə və s.) kənd icmaları tərəfindən açılmışdır. A.O.Çernyayevski (1840–1894) tərəfindən

[1] L. Modzalevski. Xod uçebnoqo dela na Kavkaze s 1802 po 1880 qq., Tiflis, 1880, 83.
[2] Bax, Sirkulyar KUO, 1874, № 5–6, səh. 114, 1887, № 2, 31, 35 və 157; 1879, № 3, səh. 107; № 4, səh. 179; 1884, № 10, 390–391; 1888, № 1, 2.
[3] L.Modzalevski. Xod uçebnoqo dela na Kavkaze s 1802 po 1880 q. Tiflis, 1880, 50.

əsası qoyulan Mərəzə məktəbi böyük şöhrət qazanmışdı[1]. 1870-ci illərdən e'tibarən Azərbaycan kəndlərində də tə'limin rus dilində aparıldığı ibtidai məktəblər meydana gəlməyə başladı. Bu məktəblər 1873-cü il 22 noyabr tarixli nizamnamə əsasında tə'sis edilirdi.

Azərbaycan kəndlərində ilk dövlət məktəbləri Dağkəsəmən, Gorus, Cəbrayıl, (hər üçü 1876), Göyçay (1879), Altı-ağac (1879) kəndlərində və Salyanda (1880) açıldı[2].

Göstərilən məktəblərin hər birinin meydana gəlməsi o dövrdə Azərbaycan kəndində mühüm mədəni hadisə idi. Əhali bu məktəblərə böyük rəğbət bəsləyir və maddi yardım edirdi[3].

Lakin 1870–1880-ci illərdə çarizmin mürtəce siyasəti Azərbaycanda kənd məktəblərinin inkişafına böyük maneə törətdi. Halbuki şəhərlərdə olduğu kimi, kəndlərdə də əhali rus dilində dünyəvi təhsilə böyük ehtiyac hiss edirdi. Qafqazda, o cümlədən Azərbaycanda qeyri-rus xalqlarının nümayəndələrinin özləri məktəblərində uşaqlara rus dilini öyrətməyə çalışırdı. Araşdırdığımız külli miqdar arxiv sənədləri göstərir ki, ayrı-ayrı kənd və qəza əhalisinin kollektiv şəkildə ərizələr yazaraq rus dilində məktəb açmaq tələbi nəticəsiz qalırdı. Azərbaycan kəndlərində rus məktəblərinin yayılması, həm də müəllim kadrları ilə əlaqədar idi. 1879-cu ildə təşkil edilən Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycanı şö'bəsi bu sahədə mütərəqqi rol oynadı.

Çarizmin ucqarlarda xalq maarifi sahəsindəki mürtəce siyasətinin nəticəsi olaraq Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycanı şö'bəsinin Azərbaycan şəhərlərindən birində deyil, Azərbaycandan uzaq bir yerdə Qoridə açılmasına baxmayaraq, onun təşkili XIX əsrdə azərbaycanlılardan müəllim kadrları hazırlığı işində mühüm mərhələ təşkil edir. Bu şö'bə təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyadakı azərbaycanlı kənd məktəbləri üçün xalq müəllimləri hazırlığında mühüm rol oynadı. Bu seminariyanın mə'zunları

[1] Bu haqda bax: Q. Axmedov. Stansionnıy smotritelğ, «Bakinskiy raboçiy» qəzeti, 21 yanvar 1968-ci il, Üirk... KUO, № 6, 1868, 13–14.

[2] Gürc. SSR MDA, f. 416, s. 3, iş № 527, v. 1; yenə orada. F. 5, s.1, iş № 6088, v. 31; V.Mustafazadə «XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda ibtidai təhsilin tarixinə dair» adlı namizədlik dissertasiyasında. Dağkəsəmən və Göyçay məktəblərinin 1834-cü ildə açıldığını göstərir ki, bu da əsassızdır (həmin dissertasiya, 25).

[3] V.İ. Lenin. Əsərləri, 19-cu cild, 373.

Azərbaycanda xalq maarifinin məşhur carçıları oldular. Azərbaycanda XIX əsr xalq maarifi və məktəb, biyyatın bir çox görkəmli nümayəndələri məhz həmin seminariyada təhsil almışlar (F.Köçərli, R.Əfəndiyev, S.Vəlibəyov, N.Nərimanov, C.Məmmədquluzadə, M.Mahmudbyov, F.Ağazadə, Ü.Hacıbəyov, M.Maqomayev, S.S.Axundov və onlarla başqaları). Bu şö'bənin təşkilində və onun tərəqqisində şö'bənin uzun müddət inspektoru olan A.O.Çernyayevskinin (sonra isə F.Köçərlinin) xüsusi xidməti olmuşdur.

Göstərilən şö'bənin fəaliyyəti Azərbaycan kəndlərində xalq məktəblərinin genişlənməsinə böyük kömək etdi; 1880-ci illərdən başlayaraq kənd məktəblərinin sayı sür'ətlə artmağa başladı. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, keçən əsrin sonunda yalnız Bakı və Gəncə quberniyalarında 172 ibtidai xalq məktəbi fəaliyyət göstərirdi ki, onlardan 160-ı son iki on illikdə açılmışdı. Bu məktəblərdə 11.400 şagird, o cümlədən 2.472 qız təhsil alırdı[1]. Naxçıvan qəzası və Zaqatala dairəsində də xalq məktəbləri ləng olsa da, inkişaf edirdi. 1904-cü ilin mə'lumatlarına görə, Naxçıvan qəzasında 29 ibtidai xalq məktəbi fəaliyyət göstərirdi ki, onların əksəriyyəti (26-sı) kəndlərdə idi.

Nəticə e'tibarı ilə qeyd edək ki, XIX əsrin 80-ci illərindən başlayaraq meydana gələn və inkişaf edən xalq məktəbləri xalqın ümumi ibtidai təhsil işində xeyli rol oynadı. A.O.Çernyayevski xalq maarifi sahəsində əldə edilən nailiyyətləri Azərbaycandan 300 il əvvəl Rusiya tərkibinə daxil olmuş Qazan müsəlmanlarının (tatarların) təhsil səviyyəsi ilə müqayisə edərək yazırdı ki, «Rusiya tabeliyində olan bütün müsəlman tayfaları içərisində Qafqaz müsəlmanları irəlidir» və o, bu cəhəti sevindirici hal hesab edirdi[2].

Xalq məktəblərinin təşkili orta və natamam orta məktəblərdə də azərbaycanlıların sayının artmasına xeyli tə'sir etdi. 1894-cü ildə bütöv Qafqazda yaşayan 2.886.000 nəfər müsəlmanlardan 438 nəfəri (o cümlədən 9 qız) orta, 578 nəfəri şəhər, 2.336 nəfəri isə xalq məktəblərində təhsil alırdı. Bundan əlavə 23.900 nəfər (O cümlədən 2.199 qız) məktəb və mədrəsələrə davam edirdi. Bu vaxt məktəbyaşlı

[1] Gürc. SSR MDA, f. 422, s. 1. İş № 6937, v. 98; Otçet popeçitelə KUO o sostoənii uçebnıx zavedeniy za 1900, q. Tiflis, 1901, 536–537; 566; 574–575.

[2] A.O. Çernyayevski. «Qafqaz müsəlmanları xalq təhsilinin yekunları», Bax, «Qafqaz» qəzeti, № 24, 1895.

uşaqların 27.252 nəfəri bu və ya digər məktəbdə təhsil alırdı. Orta hesabla əhalinin hər 106 nəfərinə 1 şagird düşürdü[1].

Azərbaycanın bə'zi qəzaları daha yaxşı vəziyyətdə idi. Əsrin sonlarında xalq məktəbləri təkcə kəmiyyətcə deyil, həm də keyfiyyətcə artırdı.

Xalq məktəbləri kənd əhalisi arasında rus dilini, dünyəvi təhsili yayan yeganə ümumtəhsil məktəbləri idi. Bu məktəblərin meydana gəlməsi Azərbaycan dili və ədəbiyyatının teatr və incəsənətinin bir çox sahələrinin inkişaf etməsində də çox mühüm rol oynadı. Kənd məktəblərinin xalq müəllimləri bu işdə böyük xidmət göstərir, özlərinin çox cəhətli fəaliyyəti ilə xalq maarifi, məktəb və milli mədəniyyəti inkişaf etdirirdilər. Təhsilin məzmunundakı səthiliyə baxmayaraq, xalq məktəbləri geniş əhali kütləsi içərisində yeganə ümumtəhsil ocaqları olub, əhalinin qabaqcıl dəstəsinin hüsn–rəğbətini qazanmışdı.

Bakı, Yerevan, Tbilisi və Leninqrad dövlət arxivlərində saxlanılmış bir çox rəsmi sənədlərdə, habelə dövrü mətbuatda bu məktəblərin təhsil əhəmiyyətinə aid çoxlu maraqlı faktlar vardır. Məsələn, Qutqaşen kənd məktəbinin müdiri V.Musabəyov 1895-ci ildə yazırdı: «Məktəbin tə'sis edildiyi 1882-ci ildən bəri kəndlilər arasında 100-dən artıq savadlı adam var ki, bu ancaq məktəb təhsilinin nəticəsidir»[2].

Salahlı, Göyçay, Ağdam, Bərdə, Ağdaş, Qubadlı, Cəbrayıl, Ağcabədi, Şıxlı, Dağkəsəmən kənd məktəblərində tə'lim-tərbiyə işləri daha müvəffəqiyyətli idi. Şıxlı kənd məktəbinə aid bir sənəd daha xarakterikdir. Orada deyilir:

«Kənddə məktəb açılana qədər əhali oğurluq və adam öldürmək kimi kütləvi cinayət törədirdi. Məktəb açılandan sonra bunlar azalıb, məişətdə yaxşılığa doğru xeyli dəyişiklik olub. Əhali öz uşağını böyük həvəslə məktəbə qoyur. Hətta qızlar üçün də ayrıca şö'bə açmağı xahiş edirlər»[3]. Bir sıra məktəblərin nəzdində yaşlıların rus dilini və savad öyrənməsi üçün axşam kursları təşkil edilmişdi.

Kənd məktəblərində şagirdlərin milli tərkibi əsasən azərbaycanlılardan ibarət idi. Bə'zilərində ermənilər, az miqdarda rus və digər millətlərin nümayəndələri də var idi. Bə'zi məktəblərdə oğlanlarla

[1] A.O. Çernyayevski "Qafqaz müsəlmanları xalq təhsilinin yekunları" Bax: "Qafqaz" № 24, 1895.
[2] LMDTA, f. 91, s. 3, iş № 380, v. 288.
[3] Yenə orada, iş № 381, v. 72., 582.

bərabər az da olsa, qızlar da oxuyurdu. Xalq məktəblərinin bə'zisində sənət və kənd təsərrüfatı şö'bələri (xüsusilə ipəkçilik) fəaliyyət göstərirdi.

Göyçayda M.Mahmudov və Kalaşov, Kürdəmirdə Ə.Muradxanov, Qutqaşendə R.Əfəndiyev, Lənkəranda T.Bayraməlibəyov şagirdlərə kənd təsərrüfatına, o cümlədən ipəkçiliyə aid bilik vermək işində xüsusilə fərqlənirdilər[1]. Azərbaycanın bə'zi kənd məktəbləri (Vartaşen, Ağcabədi, Qusar, Göyçay, Kürdəmir) Rusiyada və Qafqazda təşkil edilən bir sıra sərgilərdə müvəffəqiyyətlə iştirak etmiş, medallarla təltif edilmişdir.

Xalq məktəblərinin qabaqcıl müəllimləri kənddə mədəni-maarif, səhiyyə, mədəni-kütləvi işlərin əsas təşkilatçıları olmaqla bərabər, elmi-pedaqoji əsərlərin də müəllifləri idilər. Əsrin sonlarında bir sıra qəzalarda müəllimlərin sahə qurultaylarının çağırılması, elmi–metodiki, pedaqoji–psixoloji məsələlərin müzakirəsi, referatlar hazırlanması və s. kimi işlərdə kənd müəllimləri mühüm xidmətlər göstərmişlər.

Əsrin birinci yarısına nisbətən ikinci yarısında rus dilində olan məktəb şəbəkəsi həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edirdi. Təkcə şəhərlərdə deyil, kəndlərdə də ümumtəhsil məktəbləri tə'sis edilir və xeyli genişlənirdi. Rus təhsili alan azərbaycanlı gənclərin sayca xeyli artması, bu məktəbləri bitirmək nəticəsində Qafqazın və Rusiyanın orta və ali ixtisas məktəblərinə daxil olmaları ilə tanış olmuş, Azərbaycanda bu ideyaları təbliğ etmişlər.

1879-cu ildə Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində Azərbaycanı şö'bəsinin tə'sisi azərbaycanlılardan ibarət müəllimlər dəstəsinin yetişməsində, mütərəqqi rus məktəblərinin, rus pedaqoji fikrinin Azərbaycana yayılmasında böyük rol oynadı, Azərbaycan məktəb tarixində ilk dəfə olaraq müəllim kadrları hazırlığının bünövrəsi qoyuldu.

XIX əsrin ikinci yarısında mütərəqqi rus pedaqoji ideyaları, Rusiya xalqlarının qabaqcıl təcrübəsi əsasında Azərbaycanda ilk rus—Azərbaycan məktəbləri meydana gəldi və genişləndi.

[1] Bax: LMDTA, f. 733, iş № 6, v. 64, 86, s. 205, iş № 4617, v. 1–2; f. 1263. «Kavkaz» qəzeti, 1876, № 122; Sirkulyar... KUO, 1889, № 7, str. 224; 1891, № 10, 576–582.

Oğlanlarla bərabər, qızların təhsilində də xeyli irəliləyiş oldu. Şamaxı, Bakı, Şuşa, Gəncə və s. şəhərlərdə yeni qız məktəbləri təşkil edildi. Qabaqcıl maarifçilər kəndlərdə də qızları dünyəvi təhsilə cəlb edirdilər. Əsrin sonlarında qadın təhsili Azərbaycan ictimai fikrinin diqqət mərkəzində duran vacib pedaqoji problemlərdən idi. XIX əsrin son rübündə rusca orta və ali təhsil görmüş azərbaycanlı gənclərdən artıq böyük bir ziyalı kütləsi yetişmişdi. Azərbaycanda elm, incəsənət, ədəbiyyat, teatr və mətbuatın əsas yaradıcıları bunlar idilər.

Bu, qızğın fəaliyyət fars və ərəb dillərində, köhnə-ruhani təhsil görmüş ziyalılara da az-çox tə'sir göstərərək, onların müəyyən qismində milli mədəniyyətə meyl və rəğbət doğururdu.

«Azərbaycan ədəbiyyatı tarixi»ndə deyildiyi kimi, köhnə təhsil görən ziyalılardın bir qismi elm və təhsil sahəsində müasirliyə meyl edir, bə'ziləri isə, hətta köhnə ruhani təhsilin əleyhinə çıxaraq, müasir təhsil və tərbiyə uğrunda mübarizə aparırdı[1].

XIX əsrin ikinci yarısında mədəniyyətin başqa sahələrində olduğu kimi, xalq maarifi və məktəb təhsili sahəsində də ciddi inkişaf dövrü başlandı. Təhsil dairəsi əhəmiyyətli dərəcədə genişləndi. Köhnə, dini–sxolastik təhsil get–gedə öz əhəmiyyətini itirir, müasir təhsil isə tədriclə maarif sahəsində üstünlük qazanırdı. Ən'ənəvi məktəb və mədrəsələrdə quru əzbərləmə, çubuq və falaqqa əleyhinə, mollaxana təhsili əleyhinə mübarizə genişlənirdi. Bu mübarizənin ön xəttində M.F. Axundov və onun yolunu davam etdirənlərdən H.Zərdabi, N.Vəzirov, S.Ə.Şirvani və başqaları gedirdi. Əsrin sonlarında Azərbaycan ziyalılarının böyük bir dəstəsi bu mübarizəyə qoşulmuşdu. Ölkədə baş verən ictimai və iqtisadi canlanma, Azərbaycan maarifçilərinin köhnə təhsil sisteminə qarşı inadlı mübarizəsi köhnə təhsil ocaqlarının yenidən qurulmasına gətirib çıxarırdı.

Azərbaycanın ictimai–iqtisadi və mədəni həyatında baş verən dəyişiklilər XIX əsrin ikinci yarısında Azərbaycan pedaqoji fikrində də öz əksini tapırdı. Azərbaycanın qabacıl adamları geriliyə, köhnə təhsil sisteminə qarşı mübarizədə XIX əsr rus inqilabçı-demokratları, rus materialist fəlsəfəsinin nümayəndələri və mütərəqqi rus pedaqoqlarının şəxsində böyük ideya dayağını görürdülər.

[1] Bax: Azərbaycan ədəbiyyatı tarixi, 2-ci cild, Bakı, 1960, 130.

Azərbaycan mədəniyyəti, ədəbiyyatı və pedaqoji fikrinin inkişafında, həmçinin rus—Azərbaycan pedaqoji əlaqələrinin möhkəmlənməsində Rusiyada təhsil alan azərbaycanlılar böyük rol oynadılar. Azərbaycan ziyalılarının böyük bir dəstəsi Azərbaycanda xalq maarifi sahəsində çarizmin müstəmləkəçilik orta əsr qalıqlarını, cəhalət və avamlığı ciddi tənqid atəşinə tutur, mütərəqqi ideyaları yayırdılar.

Azərbaycan—Rusiya pedaqoji əlaqələrinin möhkəmlənməsində Azərbaycanın qabaqcıl adamları ilə Rusiyanın mütərəqqi şair, yazıçı və alimlərinin şəxsi tanışlığı və dostluğunun da böyük rolu olmuşdur. Mədəniyyət, ədəbiyyat, incəsənət, elm və məktəb təhsili sahəsindəki yeniliklər Azərbaycanda baş verən ictimai, iqtisadi və mədəni tərəqqi, ana dili tə'limi ideyası, ana dilində yeni-yeni məktəblərin yaranmasına, ana dilində yeni üsullu dərsliklərin meydana gəlməsinə qüvvətli tə'sir etdi.

Çar Rusiyasının digər müsəlman rayonlarında olduğu kimi, Azərbaycanda müşahidə olunan mədəni canlanma, yeni məktəb və mədəni-maarif müəssisələrinin, ana dilində mətbuatın meydana çıxması və s. bütün bunlar milli ucqarlarda maarif və mətbuatın tə'qibini daha da gücləndirən çar hakim dairələrinin ciddi narahatlığına səbəb olurdu. Lakin nə çarizm, nə də yerli cəhalətpərəstlər Azərbaycan xalqının yeni mədəniyyət uğrunda mübarizəsinin, dünyəvi məktəb təhsilinin inkişafının qarşısını almaq iqtidarına malik deyildilər.

Məqalə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi Əsərlərinin 1972-ci il tarixli,
1-ci sayında (s.3–10) çap olunmuşdur.

BAKIDA «RUS-AZƏRBAYCAN» MƏKTƏBLƏRİNİN TƏŞKİLİ TARİXİNƏ DAİR (XIX əsr)

XIX əsr Azərbaycan məktəb tarixində fəxri yer tutan «rus-tatar» (Azərbaycan) məktəblərinin meydana gəlməsi və inkişafı sözün həqiqi mə'nasında S.M.Qənizadə (1866-1937) və H.İ.Mahmudbəyovun (1864-1928) adı ilə bağlıdır. S.Qənizadə ilə H.Mahmudbəyovun həyatı, ədəbi-pedaqoji fəaliyyəti bir çox tədqiqatçıların diqqətini cəlb etmiş, bu sahədə bir sıra dəyərli əsər və məqalələr yazılmışdır[1].

«Rus-Azərbaycan» məktəbinin tə'məlini qoyanlardan biri olan S.Qənizadə 1866-cı ildə Şamaxı şəhərində anadan olmuşdur. Yazıb-oxumağı atasından öyrənən Sultanməcid məhəllə məktəbində, sonra isə S.Ə.Şirvaninin «Üsuli-cədid» məktəbində oxumuş, burada Azərbaycan dili ilə bərabər fars və rus dillərini öyrənmiş, sonra 1879-cu ildə Şamaxı şəhər məktəbinə daxil olmuşdur. Oranı da müvəffəqiyyətlə bitirən Sultanməcid pedaqoji işə xüsusi meyl göstərmiş, bu vaxtlar Şamaxıda açılan qısa müddətli pedaqoji kurslara davam etmiş, məhəlli və ibtidai məktəb müəllimi adını almışdır. Bununla kifayətlənməyən Sultanməcid 1883-cü ildə Tiflisə gedərək, o zamanlar Zaqafqaziyada tip e'tibarı ilə yeganə olan Aleksandrovski Müəllimlər İnstituna daxil olmuş, 1887-ci ildə isə oranı müvəffəqiyyətlə bitirmişdir.

H.Mahmudbəyov da Şamaxıda anadan olmuş (1864), ilk təhsilini Mirzə Hüseyn adlı bir nəfərin (mollanın) xüsusi məktəbində almış, sonra isə o da şəhər məktəbinə daxil olmuşdur. 1872-ci ildə zəlzələ nəticəsində şəhər məktəbinin binasının uçması ilə əlaqədar Bakıya

[1] Bax: H.B.Vəzirov. «Rus-tatar» məktəblərinin 25 illik yubileyi Bakı, «Nicat» nəşriyyatı, 1914; A.Zamanov. Yarım əsr xalqın xidmətində, «Kommunist» qəzeti, 28 aprel 1966; Yenə onun yazıçı, müəllim, maarif xadimi, S.M.Qənizadənin «Seçilmiş əsərləri», Bakı, 1965. Müqəddimə əvəzinə; X. Məmmədov. «S.M.Qənizadə. Həyat və yaradıcılığı», filoloji elmlər üzrə namizədlik dissertasiyası, Bakı, 1963; yenə onun S.M.Qənizadənin həyatı və pedaqoji fəaliyyəti, «Azərbaycan məktəbi» jur., 1962, № 6; yenə onun «İlk rus-müsəlman məktəbləri və onun tarixi rolu». yenə orada. 1964, №5; H.C.Rəfibəyli, Azərbaycanda maarifin inkişafında «rus-tatar (Azərbaycan)» məktəblərinin rolu, namizədlik dis., Bakı, 1969; A.Abdullayev. Azərbaycan dilinin tədrisi tarixindən, Bakı, 1966, 142-156; yenə onun. Azərbaycanda ilk «rus-tatar» məktəbinin baniləri, «Azərbaycan müəllimi» qəzeti, 1957, № 44; D.Mustafayeva. Görkəmli maarifçi pedaqoq H.Mahmudbəyov, «Azərbaycan məktəbi» jur., 1961, № 6; H. Əhmədov. S.M.Qənizadənin pedaqoji fikirləri, yenə orada, 1966, № 4.

gələn Həbib bəy realnı məktəbdə təhsilini davam etdirir, sonra isə o da Aleksandrovski Müəllimlər İnstitutuna daxil olur. 1887-ci ildə S.Qənizadə ilə birlikdə həmin institutu bitirərək şəhər məktəbi müəllimi hüququ alır.

1887-ci il oktyabrın 20-də Bakı şəhərində ilk «rus-Azərbaycan» məktəbi açıldı[1]. Bu barədə mə'lumat verən bir sənəddə oxuyuruq: «Aleksandrovski Müəllimlər İnstitutunun keçmiş mə'zunları olan Mahmudbəyovla Qəniyev tərəfindən Bakıda bir sinifli üçüncü dərəcəli xüsusi rus–tatar məktəbi açıldı. Məktəb oktyabrın 20-dən düzgün fəaliyyətə başladı; noyabrın 12-də xalq məktəbləri direktoru bu məktəbə baxarkən 60-a qədər şagird var idi. Hal-hazırda onların sayı 70-ə çatmış və qəbul dayandırılmışdır»[2].

Həmin məktəblə Azərbaycanda və bütün Zaqafqaziyada şöhrət qazanan «rus-Azərbaycan» məktəblərinin bünövrəsi qoyuldu. Məktəb keçmiş Spasski küçəsi ilə Kolyubakin (indiki Şeyx Şamil və M. Hüseyn) küçələrinin tinində Hacıağa Dadaşovun ayı 35 manata kirayə edilmiş xüsusi evində (4 otaqdan ibarət) yerləşirdi. Məktəb təhsil haqqından toplanan vəsaitlə (ildə hər şagirddən 3 man.) idarə olunurdu.

Yeri gəlmişkən onu da qeyd edək ki, Bakıda «rus-Azərbaycan» məktəbinin açılmasından az sonra QTD Qənizadə ilə Mahmudbəyovun ikisindən birini başqa yerdə açılan boş yerə göndərmək istədi. Lakin Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblər direktoru onların hər ikisinin pedaqoji ixtisas seçələrini, bu işdə xeyli əmək sərf edərək açdıqları «rus-Azərbaycan» məktəbinin yaxşı başlanğıcını və müvəfəqiyyətlə nəticələnəcəyini, həmçinin əhalinin məktəbə hüsn-rəğbət bəslədiyini nəzərə alaraq, onların başladıqları işi davam etdirməsini, açılan boş yerə isə Şamaxıda işsiz qalan K. adlı birisini göndərməyi lazım bildi.

Məktəbin tədris planına ana dili, rus və fars dilləri, hesab, coğrafiya, tarix, şəriət daxil idi. Dərslər üsuli-cədid ilə aparılırdı. Fars dilinin tədris planına daxil edilməsi bu dilin ədəbi dil kimi öz nüfuzunu hələlik saxlaması və İranla aparılan ticarət əlaqələri ilə, şəriət isə əhalinin mövcud ictimai vəziyyəti ilə əlaqədar idi.

Mə'lum olduğu kimi, «rus-Azərbaycan» məktəblərinin meydana gəlməsinə qədər uşaqların bir hissəsi geniş yayılan və uzun əsrlərdən

[1] Gürcüstan SSR MDA, f. 422, s. 1, iş № 3050, v. 3.
[2] Sirkulyar... KUO, № 12, 1887, səh.522; Bu haqda həmçinin bax: «Kaspi» qəzeti, 1895; №228.

bəri davam edən məscid məktəblərində, xüsusi adamların yanında təhsil alır və əsasən qiraət ilə məşğul olurdular. Onlar əsas qiraət kitabı olan «Qur'an»ı oxuyub qurtardıqdan sonra təhsili ərəb və fars dillərində davam etdirir və əsasən, dini elmləri öyrənirdilər.

Məktəbyaşlı uşaqların çox az bir hissəsi isə rus dilində olan məktəblərdə oxuyurdular ki, burada yerli dilə — ana dilinə fikir verilmirdi. Bu məktəblərin nizamnaməsinə görə tədris planında ana dilinə «xala xətrin qalmasın» (N.Nərimanov) deyə həftədə cəmi ikicə saat vaxt verilirdi. Bu da, əsasən, şəriət dərsi deyən müəllimlər — mollalar tərəfindən tədris edilirdi ki, bunun da keyfiyyəti mollanın insaf və bacarığından asılı idi. Belə ki, ana dili fənninin tədrisi üçün onların əlində müvafiq metodiki göstəriş, mükəmməl proqram, dərslik və digər vəsait yox idi.

Belə bir şəraitdə fəaliyyətə başlayan S.Qənizadə ilə H.Mahmudbəyov köhnəpərəstlərin və tərəqqi düşmənlərinin müqavimətini qıraraq, azərbaycanlı uşaqlarının təhsili sahəsində yeni bir addım atdılar. Onların bu nəcib təşəbbüsü XIX əsrdə Azərbaycan məktəb tarixində mühüm hadisə idi. N.Nərimanov sonralar bu haqda yazırdı:

«İki cavan, kasıb müəllim Bakıya gəlib borc-xərc bir məktəb binası qoydular. Camaatın nəinki fikrindən belə bir məktəb keçmirdi, hətta əksəriyyəti buna zidd əqidədə ikən iki cavan zəmanənin təqazasını pək gözəl anlayıb cür'ətlə meydana gəldilər. Onlar nuh vaxtından qalmış qanun tədrisilə hərəkət edən məktəblərin müqabilində üsuli-cədid məktəbi çıxartdılar»[1].

Bu məktəbin mövcud dövlət məktəblərindən və molla-xanalardan əsas fərqi və üstünlüyü orasında idi ki, burada rus dili ilə bərabər, ana dili də əsaslı surətdə tə'lim edilirdi. Bir də ki, o vaxta qədər məktəb açanlar, məktəb rəhbərləri və orada oxuyanların əksəriyyəti digər millətlərdən olduğu halda, «rus-Azərbaycan» məktəbinin həm baniləri azərbaycanlı, həm də şagirdləri azərbaycanlılar idilər.

Orasını da qeyd etmək lazımdır ki, bu məktəblərin nə rus məktəbinə, nə də mollaxanalara oxşamaması bə'zi mürtəce fikirli ruhanilərin onlara qarşı hucum etməsinə səbəb olmuşdur. Bu məktəblərin meydana gəlməsi «Köhnə məktəblə yeni məktəb arasında müharibənin başlanmasına səbəb oldu» (N.Nərimanov). Hər tərəfdən onların sirdaşları olan digər «müqəddəslər» tərəfindən

[1] «Həyat» qəzeti, 1906-cı il, № 125.

«təkfir çomaqları yağmağa başlamış», «onlar kafirdir, müsəlman balalarını da kafir edəcəklər» sözləri ən rəvac bir bazar tapmışdı[1]. Lakin hər iki gənc müəllim təcrübəsizliklərinə baxmayaraq, böyük iste'dadları və qabiliyyətləri, pedaqoji işə olan meyl və məhəbbətləri nəticəsində heç bir şeydən çəkinmədi, ruhdan düşmədi, meydana çıxan çətinlikləri tədricən aradan qaldırmağa və get-gedə müvəffəqiyyətlər qazanmağa nail oldular.

«Rus-Azərbaycan» məktəbinin müvəffəqiyyət qazanmasının səbəbini, yeni məktəb ilə köhnə məktəblərdəki tə'lim-tərbiyə işinin məzmunu və üsullarını bir-birilə müqayisə edən Nərimanov yazırdı ki, «bu iki cavan müəllim təhsil etdikləri pedaqogika elminə ümid bağlayıb, qeyrətlərini, sə'ylərini günü-gündən artırıb, balalarımıza yeni üsulla tə'lim-tərbiyə verib, onların əqlini inkişaf etdirdikləri halda, köhnə məktəbdar müəllimlər isə ata-baba qaydası ilə uşaqların əqidələrinə seyqəl vermək əvəzinə, onların zehinlərini kor etməyə çalışırdılar[2].

N.Nərimanov yazır ki, «ilk vaxtlar camaat yeni məktəbin üstünlüyünü hələ görə bilmirdi. Lakin çox çəkmədən camaat üsuli-cədid ilə hərəkət edən məktəbin gücünü görüb bir fikrə getdi. Gördü ki, iki–üç il köhnə qayda ilə oxuyan uşaq axırda öz adını da yaza bilmir, üsuli-cədid qaydası ilə oxuyan uşaqlar isə iki ayın ərzində ana dilində və yarım ilin ərzində rus dilində yazıb-oxuyurlar».

Ona görə də xalq yeni məktəblərə rəğbət bəsləməyə, uşaqlarını yeni məktəbə göndərməyə, «həmin məktəblərin qapısını tanımağa başladılar... Camaatın rəğbətini görən hər iki cavan daha ziyada sə'ylərini artırdılar və rus-müsəlman məktəbləri günü-gündən tərəqqi etməyə başladı»[3].

«Rus-Azərbaycan» məktəbinin rəsmən bir sinifli (tədris müddəti iki il) olmasına baxmayaraq, sonralar 2 sinifli (tədris müddəti 4 il) oldu və tə'limin məzmunu nisbətən genişləndirildi. Bütün bunların nəticəsi idi ki, şagirdlərin sayı da get-gedə artır, məktəb əhalinin və maarif rəhbərlərinin hüsn-rəğbətini qazanırdı. Məşhur maarifçi F.Köçərli 1912-ci ildə yazmışdı: «Bu vaxtlarda (1891-ci il nəzərdə tutulur–H.Ə.) Qafqazda maarif müdiri olan Yanovski Qənizadə ilə Mahmudbəyovun təzə qayda ilə açılmış məktəblərinin ziyarət edib,

[1] H.B.Vəzirov. «Rus-tatar» məktəblərinin 25 illik yubileyi», Bakı, «Nicat» nəşriyyatı, 1914, 11.
[2] «Həyat» qəzeti, 1906, № 171.
[3] «Həyat» qəzeti, 1906, № 171.

həm şagirdlərin oxumasından və həm də cavan müəllimlərin sə'y və hümmətindən artıq dərəcədə razı qalmışdı və bu məktəbi hər yerdə vəsf etmişdi»[1].

Yeni açılmış «rus-Azərbaycan» məktəbləri bir sıra qabaqcıl müəllimlərin diqqətini cəlb etdi. Onlar təzə açılan məktəblərdə işləməyə, özləri yeni məktəb açmağa cəhd göstərirdilər.

Yeni təşkil edilmiş «rus-Azərbaycan» məktəblərində işləmək arzusunda olanlardan biri də N.Nərimanov idi. Bu vaxt Tiflis quberniyası Borçalı mahalının Qızıl-Hacılı kəndində müəllimlik edən Nərimanov Bakıya gəlir və 1891-ci il iyulun 21-də məktəb komissiyasına müraciət edərək «Bakı şəhər duması tərəfindən yeni açılan «rus-tatar» məktəblərindən birinə müdir müavini tə'yin edilməsini xahiş edir[2]. (Lakin Nərimanov rus-Azərbaycan məktəbinə deyil, A.İ.Pobedonostsevin xüsusi progimnaziyasında Azərbaycan dili müəllimi vəzifəsinə qəbul olunur). «Rus-Azərbaycan» məktəbinin müvəffəqiyyətindən ruhlanan ziyalılardan Mirzə Həsənbəy Axundov ilə Məmmədhəsənbəy Nəsirbəyin hər birisi bu tipli iki yeni məktəb açdı[3]. Doğrudur, mürtəcelərin təzyiqi və məktəbdarların müvafiq pedaqoji təcrübəsizliyi nəticəsində bu məktəblər bir neçə aydan sonra bağlandı. Bununla belə «rus-Azərbaycan» məktəblərinin şəbəkəsi bacarıqlı pedaqoqlar tərəfindən get-gedə daha da genişləndirildi. 1892-ci ilin sentyabrında Bakıda şəhər vəsaitilə üçüncü «rus-Azərbaycan» məktəbi açıldı (müdiri 1888-ci ildə ZMS-ni bitirmiş Məmmədhəsən Əfəndiyev idi).

«Rus-Azərbaycan» məktəblərinin genişlənməsi və müvəffəqiyəti inzibati idarələrin də diqqətini cəlb edirdi. Bakı qubernatoru 1891-ci ilə aid hesabatında xalq maarifinin vəziyyətindən bəhs edərək yazırdı ki, müsəlmanları daha təkmilləşdirilmiş məktəb tipinə cəlb etmək məqsədilə son vaxtlar Bakıda «rus-tatar» məktəbi adlanan yeni məktəb tipi irəli sürülmüşdür ki, orada tə'lim paralel olaraq hər iki dildə aparılar. Bu məktəblər, indiyədək ibtidai məktəb şəklində mövcud olan və bütün tə'limin əksəriyyəti bu işə hazır olmayan və ümumiyyətlə, pedaqoji işə qeyri-münasib olan mollalar tərəfindən həyata keçirildiyi məktəblərdən, əlbəttə, müqayisə edilməz dərəcədə fərqlənir[4].

[1] F. Köçərli. Seçilmiş əsərləri, Azərb. SSR EA Nəşriyyatı, 1963, 290.
[2] Azərbaycan SSR MDTA, f. 389, s. 6, iş № 32, v. 42.
[3] Gürcüstan SSR MDA, f. 422, s. 1, iş № 4012, v. 3.
[4] LMDTA, f. K-na, (os), s. 1, iş № 6, v. 110.

Qubernatorun 1892-ci ilə aid hesabatında isə oxuyuruq: «Bu məktəblər müsəlman əhalisi içərisində dərhal rəğbət qazandı və şagirdlərin sayı ildən-ilə artmağa başladı. Belə ki, 1890-cı ildə xüsusi «rus-tatar» məktəbində 85 şagird oxuyurdusa, hal-hazırda üç şəhər «rus-tatar» məktəbində şagirdlərin sayı 166-ya çatmışdır[1].

«Rus-Azərbaycan» məktəbləri qabaqcıl rus pedaqogikası və məktəb təcrübəsi əsasında, yerli şəraitə müvafiq, Azərbaycan məktəblərinin mütərəqqi ən'ənəsi zəminində meydana gəlmiş yeni məktəb idi.

«Rus-Azərbaycan» məktəblərinin müvəffəqiyyəti artdıqca əhali onu müdafiə edirdi. 1894-cü ildə Bakıda azərbaycanlı ziyalıların təşəbbüsü ilə «Bakı quberniya müsəlmanları arasında rus-müsəlman savadını yayan cəmiyyət» tə'sis edildi (cəmiyyətin ayrıca nizamnaməsi var idi). 1898-ci ildə isə «Bakı şəhər müsəlman ictimaiyyətinin məktəblərə maddi və mə'nəvi kömək cəmiyyəti»[2] meydana gəldi. Bu cəmiyyətlər «rus-Azərbaycan» məktəblərinin hər cəhətdən tərəqqisinə kömək edirdi.

Əhalinin tələbi və köməyi, tə'limin müvəffəqiyyəti, məktəblərin fəaliyyətinin fərəhləndirici olması nəticəsində, «rus-Azərbaycan» məktəblərinin sayı 10-a çatdırıldı[3]. (4-cü rus-Azərbaycan məktəbi 1898-ci il oktyabrın 3-də, 5-ci isə noyabrın 2-də açıldı. 4-cü rus-Azərbaycan məktəbinin müdiri məşhur müəllim və metodist M.Mahmudbəyov, 5-ci rus-Azərbaycan məktəbinin müdiri isə H.Əmircanov idi. İlk dəfə 4-cü məktəbə 48, 5-ci məktəbə isə 22 şagird qəbul olunmuşdu[4]. Dərs ilinin sonunda şagirdlərin sayı 4-cü rus-Azərbaycan məktəbində 52[5], 5-cidə isə 61[6] olmuşdur. 6 və 7-ci rus-Azərbaycan məktəbi isə 1901-ci ildə açılmışdı). 1896-cı ildə Maştağada da birsinifli «rus-Azərbaycan» məktəbi açıldı[7].

S.Qənizadənin müdirlik etdiyi 2-ci «rus-Azərbaycan» məktəbi 1872-ci il nizamnaməsi əsasında 1898-ci ildə ikisinifli şəhər məktəbinə çevrildi, tə'limin məzmunu xeyli genişləndirildi.[8] Burada Azərbaycan və rus dillərindən əlavə, hesab, coğrafiya, tarix, təbiətşünaslıq, rəsm, rəsmxət, həndəsədən başlanğıc və şəriət fənləri

[1] LMDTA, f. 1284, s. 223, iş № 153, v. 91.
[2] Gürcüstan SSR MDA, f. 422, s. 1, iş № 4882, v. 1.
[3] Yenə orada, f. 12, s. 7, iş № 1823, v. 30, 73.
[4] Yenə orada, f. 422, s. 1, iş № 6282, v. 30, 73.
[5] Azərb. SSR MDTA, f. 389, s. 6, iş № 87, v. 3.
[6] Yenə orada, iş № 89, v. 19, 73.
[7] Sirkulyar... KUO, 1896, № 11; str. 888; Gürc. SSR MDA, f. 422, s. 1, iş № 5411, v. 61
[8] Gürcüstan SSR, MDA, f. 422, s. 1, iş № 6410, v. 1.

tədris edilirdi. Bura sonralar nəğmə də əlavə olundu. İlk dəfə qəbul olunun 140 şagirddən 116-sı şəhərli, 12-si dvoryan, 7-si ruhani, 5-i isə kəndlilərdən idi. Milliyyətcə 112-si azərbaycanlı, 10-u rus, 6 nəfəri erməni, 1-i dağlı, 1-i isə yəhudi idi.[1] 1902-ci ildə şagirdlərin sayı 178 nəfər idi ki, onlardan 163 nəfəri azərbaycanlı, 10 nəfəri erməni, 1-i yəhudi, 4-ü digər məzhəblərə mənsub olanlar idi[2].

«Rus-Azərbaycan» məktəblərindən birinin 2 sinifli şəhər məktəbinə çevrilməsi bu məktəblərin tarixində mühüm hadisə idi. Burada azərbaycanlılarla bərabər, digər millətlərin nümayəndələrinin də oxuması bütün əhalinin nəzərində bu məktəbin nüfuzunu bir daha qaldırdı.

Bütün «rus-Azərbaycan» məktəblərinin, o cümlədən 2 sinifli şəhər «rus-Azərbaycan» məktəbinin müvəffəqiyyəti onun banilərinin — H.Mahmudbəyovla S.Qənizadənin və bu məktəblərə cəlb edilmiş digər zəhmətkeş müəllimlərin əməyinin nəticəsi idi.

Bununla birlikdə çarizmin ucqar xalqların maarifi sahəsindəki mürtəce siyasəti həmin məktəblərin daha da müvəffəqiyyətlə tərəqqi etməsinə mane olurdu. Təkcə onu qeyd etmək kifayətdir ki, bu məktəblərdə işləyən müəllimlərin heç biri dövlət qulluqçusu hesab edilmirdi. S.Qənizadənin iki sinifli şəhər «rus-Azərbaycan» məktəbinin əsasını qoymasına, uzun müddət ona rəhbərlik etməsinə baxmayaraq, onun mövcud qanun üzrə dövlət qulluqçusu hesab edilməsi bir yana qalsın, həm də o, uzun müddət məktəbin rəsmi müdiri təsdiq edilməmiş, əvəzedicisi kimi işləmişdir. Çünki şəhər məktəblərinin 1872-ci il nizamnaməsinə görə ancaq xristian dininə mənsub olanların şəhər məktəblərində işləmək hüququ var idi.

1902-ci ildə S.Qənizadənin xidmətlərini, onun məktəbinin nailiyyətlərini nəzərə alaraq, onu həmin məktəbə müdir tə'yin etmək Rusiya XMN-dən xahiş edildi. Lakin yuxarıdakı səbəbdən nəticəsiz qaldı.

Çarizmin siyasəti azərbaycanlıların hətta mükafatlandırılmasına belə yol vermirdi. Yenə də S.Qənizadənin mükafata təqdim edilməsi ilə əlaqədar olaraq Rusiya XMN şəhər məktəbləri Departamenti 1902-ci il mayın 18-də QTD-yə göndərdiyi 13566 [1]-li məktubunda yazırdı ki, «Qəniyevin göstərilən məktəbi tə'sis etmək işindəki xidmətlərini, onun təcrübəsini və pedaqoji işə sədaqətini, həmçinin

[1] Azərbaycan SSR MDTA, f. 389, s. 6, iş № 86, v. 87.
[2] Gürcüstan SSR MDA, f. 12, s. 7, iş № 2818, v. 5.

siyasi cəhətdən tamamilə e'tibarlı olduğunu və başqa dinə mənsub olanlar arasında rus maarifini yaymağa aid onun qayğısını və s. nəzərə alaraq, Qəniyevi mükafatlandırmağı lazım bilirəm. Lakin o, Məhəmməd dininə mənsub olduğundan mən buna imkan tapmıram».[1]

Bütün bunlara baxmayaraq, «rus-Azərbaycan» məktəbləri inkişaf edirdi. Tə'limin məzmunu və üsulları get-gedə təkmilləşir, yeni tədris vəsaitləri, dərsliklər yaranırdı. Bu işdə S.Qənizadənin xüsusi xidmətləri olmuşdur. Mə'lum olduğu kimi, «rus-Azərbaycan» məktəbləri tə'sis edilən zaman yeni üsullu məktəblərdə ana dilində tədris vəsaiti yox idi. Buna görə də S.Qənizadə məktəb açmaqla bərabər, bu məktəbə müvafiq yeni dərsliklər tərtib və nəşr etdirmək kimi məs'ul bir işə girişmiş və bu sahədə də unudulmaz işlər görmüşdür.

O özü əvvəlcə oxu mətnləri tərtib edərək, dəftərçələrdə uşaqlara yazdırır və beləliklə də, gələcək üçün tə'lim kitabları tərtib etməyə başlayırdı. Onun zəhmətləri hədər getmədi. O, vaxtilə şagirdlərinə yazdırdığı mətnləri toplayıb, 1890-cı ilə «İstilahi-Azərbaycani» adı ilə nəşr etdirdi. Bunun ardınca «Lüğəti-rusi və türki», «Rus dilinin dilmancı» kimi məşhur əsərləri meydana gəldi ki, bu əsərlər sonralar dəfələrlə nəşr edilmiş və Azərbaycan balalarının bütöv bir nəsli bu kitablardan dərs almışdır. Onun tərtib etdiyi «Mütəhərrik əlifba» (ibtidai məktəbdə oxuyanlara üsuli-cədid üzrə savad öyrətmək üçün əyani vəsait), azərbaycanlıların rus dilini asan öyrənməsinə kömək məqsədilə sövti-üsul ilə yazılmış «Müxtəsər rus əlifbası», fars dilinin öyrənilməsinə kömək etmək məqsədilə «rus-Azərbaycan» məktəbinin Azərbaycan dili müəllimi Ə.Cəfərzadə[2] ilə birlikdə tərtib etdiyi «Kilidi-ədəbiyyat», «Lüğəti türki və rusi» adlı kitablarından uzun müddət istifadə edilmişdir. S.Qənizadə rus və Azərbaycan dillərinin qarşılıqlı surətdə öyrənilməsi işinə xüsusi əhəmiyyət verirdi. Onun tərtib etdiyi dərsliklər də buna xidmət edirdi. «Azərbaycan dilində yazıb oxumaq və sərf-nəhvi öyrənmək üçün rusca yazılmış dəstəvuz» adlandırdığı «İstilahi-Azərbaycani» Qafqazda yaşayan azərbaycanlıların rus və azərbaycan dillərini təcrübi öyrənilməsinə kömək edən ən yaxşı dərslik idi. Məhz bunun nəticəsidir ki, bu dərslik 1890-cı ildən 1922-ci ilə qədər altı dəfə nəşr edilmiş və hər dəfə müəllif onun üzərində yenidən işləmiş, müvafiq

[1] Gürcüstan SSR MDA, f. 12, s. 7, iş № 2813, v. 2.
[2] Bu haqda bax: X.Məmmədov, Əli İskəndər Cəfərzadə. «Azərbaycan məkəbi» jurnalı, 1968, № 2.

dəyişikliklər edərək, sadə sxemlər, izah və lüğətlər daxil etməklə dilin təcrübi öyrənilməsini yaxşılaşdırmağa çalışmışdır.

Onun dərslikləri sadədən mürəkkəbə, yaxından uzağa prinsipi əsasında tərtib edilmişdir. Bu dərsliklərin məziyyətlərindən biri də budur ki, cümlə təhlili və qrammatik qaydaların öyrədilməsi üçün verilən mətnlər tə'limin tərbiyə edici xarakteri baxımından yaxşı seçilmişdir.

S.Qənizadə təkcə dərsliklər yaratmaqla kifayətlənməmiş, həm də şagirdlər üçün sinifdənkənar oxu kitabları tərtib etmiş və başqa qələm dostlarını da bu işə cəlb etmişdir.

«Rus-Azərbaycan» məktəbinin baniləri olan H.Mahmudbəyovla S.Qənizadə təkcə praktik pedaqoq olmamış, onlar, həm də özlərinin orijinal pedaqoji fikirləri ilə Azərbaycan pedaqogikasını, pedaqoji fikir tarixini inkişaf etdirmişlər. M.F.Axundovun mütərəqqi ideyalarını davam etdirən S.M.Qənizadənin pedaqoji irsi daha zəngindir. Onun pedaqoji görüşlərinin bu vaxta qədər tədqiq edilməməsi təəssüf doğurmaya bilməz.

Məqalə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun «Elmi Əsərləri»nin 1974-cü il tarixli, 5-ci sayında (s.3–9) çap olunmuşdur.

«RUS–AZƏRBAYCAN» MƏKTƏBLƏRİNİN YAYILMASI TARİXİNƏ DAİR (XIX əsr)

1887-ci ildə əsası qoyulan və əsrin sonlarına doğru xeyli inkişaf edən Bakı «rus-Azərbaycan» məktəblərinin fərəhləndirici nəticələri və qabaqcıl təcrübəsi Azərbaycanın digər şəhərlərində də belə məktəblərin meydana gəlməsinə güclü təkan verdi. Leninqrad MDTA-da saxlanılan sənədlərdən birində deyilir: «İlk dəfə yalnız Bakı quberniyasında açılan və yerli əhali üçün olub, «rus-tatar» məktəbi adlanan məktəblər diqqətəlayiqdir... Bu məktəblərdə tədrisin müvəffəqiyyətlə getməsi, həm də ondan görünür ki, son vaxtlar qonşu quberniyalar da Bakı «rus-tatar» məktəbləri nümunəsində yeni məktəblər açmağa başlamışlar».[1]

Azərbaycan ərazisində Bakının ardınca ilk «rus-Azərbaycan» məktəbi Şuşa şəhərində meydana gəldi. «Zaqafqaziya müəllimlər Seminariyasını (ZMS-ni) bitirən C.Fətəlibəyov 1893-cü ildə Şuşada 3-cü dərəcəli xüsusi oğlan məktəbi açdı. İlk dəfə məktəbə 25 şagird qəbul olunmuşdur ki, onlardan biri də gələcəyin maarifçisi, məşhur pedaqoq F.Ağazadə idi.

Şagirdlər əsasən kasıblardan və orta təbəqələrdən ibarət idi. 1896-cı ildə orada 70 şagird oxuyurdu. İki sinifdən ibarət olan bu məktəbdə şagirdlər iki il ərzində Azərbaycan və rus dillərində mükkəmməl savad alırdılar».[2]

Məktəb Adıgözəlovların evində yerləşir (kirayə ilə) və təhsil haqqından toplanan vəsait ilə idarə olunurdu. İldə hər şagirddən 6–12 manat təhsil haqqı alınırdı. Kasıblar təhsil haqqından azad edilirdi (1896-cı ildə 80 şagirddən 12-si pulsuz oxuyurdu).

Şagirdlərin yaş dərəcələri müxtəlif olub, əsasən 7-16 yaşlı uşaqları əhatə edirdi. Təhsil müddəti 2 il idi. Şagirdlər yaş və bilik səviyyələrinə görə üç qrupa bölünmüşdü (1-ci qrupda 30, II və III qrupların hər birində 25 nəfər). Şagirdlərdən 2 nəfəri rus idi. Silki tərkib e'tibarı ilə 8 nəfəri dvoryan, 5 nəfəri ruhani, 65 nəfəri şəhərli, 2-si isə meşşan uşaqları idi. Məktəbdə 3 nəfər müəllim çalışırdı. Fətəlibəyovun məktəbi Şuşadakı xüsusi məktəblər (o cümlədən

[1] LMDTA, f. 1284, s. 223, iş № 68,v. 29.
[2] «Qafqaz» qəzeti, 1896, № 45.

erməni məhəlli məktəbləri) içərisində ən çox şagirdi olan məktəblərdən idi. Məktəbin tədris planına ana dili, rus dili, hesab, rəsmxət, nəğmə daxil idi. Tə'lim yeni üsul ilə aparılırdı. Bu məktəb mahiyyət e'tibarilə hazırlıq sinfi rolunu oynayırdı. Burada oxuyanlar şəhər və realnı məktəblərinə daxil olurdular.

1896-cı ildə Ağcabədi kənd məktəbinin müdiri Əbdüləlibəy Muxtarovun ZMS nəzdindəki ibtidai məktəbə müdir tə'yin edilməsi ilə əlaqədar olaraq C.Fətəlibəyov Ağcabədi məktəbinin müdiri vəzifəsinə göndərildi, onun məktəbini isə Səməd Ağayev davam etdirdi.

Əsrin sonlarına doğru «rus-Azərbaycan» məktəbləri Şuşada daha da genişləndi. Bu tip məktəb açmağa cəhd edənlərdən biri də ibtidai məktəb müəllimi hüququ olan Muxtar Məmmədov idi. Rəsmi mənbələrdə ona 1893-cü ildə Şuşada «rus-Azərbaycan» məktəbi açmasına icazə verildiyi göstərilir. İrəvan Müəllimlər Seminariyasını bitirən Hüseynəlibəy Rüstəmbəyov da 1895-ci il sentyabrın 19-da Şuşada III dərəcəli xüsusi məktəb açmışdı. Bu məktəb cəmi bir il fəaliyyət göstərdi. Rüstəmbəyovun Şamaxı qəzasının Lahıc kənd məktəbinə müəllim tə'yin edilməsi ilə əlaqədar olaraq məktəb bağlandı.[1]

Bu məktəbin müvəffəqiyyətlərindən ruhlanan Şuşa ziyalıları 1896-cı ildə iki şö'bədən ibarət ikisinifli normal «rus-Azərbaycan» məktəbi açmağa sə'y göstərdilər. Şuşa əhalisi məktəbin tə'sisi üçün 1000 man. toplamaqla gələcəkdə məktəbin bütün xərcini öz öhdəsinə götürməyi qərara aldı. 1500-dən artıq nəfərin imza etdiyi bu qərarı tez-liklə həyata keçirmək üçün qısa müddət ərzində baş məscidin həyətində hifz-səhiyyə və pedaqoji tələblərə cavab verən yeni bir tədris binası tikildi. Şuşa şəhər ictimaiyyətinin məscid nəzdində «rus-Azərbaycan» məktəbi açmaq cəhdi Azərbaycanda birinci təşəbbüs idi.

Şuşalıların bu qərarı, təkcə Azərbaycanda deyil, bütün Qafqazda əhalinin geniş təbəqəsi tərəfindən bəyənilən və müdafiə edilən ən kütləvi qərar və məktəb tələbi idi.

«Qafqaz» qəzetinin 1896-cı il 125-ci nömrəsində dərc edilən bir məqalədə deyilir: «Heç bir vaxt bizim şəhərin tatarları (azərbaycanlıları–H.Ə.) arasında ayrı-ayrı mübahisələrdə bu hadisə qədər yekdillik və həmrə'ylik görünməmişdi. Könüllü ianə üçün imza vərəqəsində ilk dəfə şəhər qazısı və din başçılarının 4 nəfəri imza etdi. Bunların ardınca xalq imza etmək üçün izdihamla məscidə gəldi.

[1] LMDTA, f. 91, s. 3, iş № 381, v. 22 arx.

Hamının üzündən xoş e'tiraf...xalq təhsilinin zəruriliyini dərk etməyi oxumaq olurdu».

Şuşada yeni məktəbin —«rus-Azərbaycan» məktəbinin açılması geniş xalq kütlələri uşaqlarının məktəbə cəlb edilməsində mühüm addım idi. Bu məktəb geniş əhali arasında rus və Azərbaycan dilində ümumi təhsilin bünövrəsini qoymaqla, azərbaycanlı şagirdləri realnı məktəbə hazırlamaq məqsədi daşıyan, bir növ yeni təhsil müəssisəsi idi.

Qeyd etmək lazımdır ki, 1896-cı ildə Şuşa realni məktəbində oxuyan 292 şagirddən yalnız 40 nəfərini azərbaycanlılar təşkil edirdi. Bu rəqəm, şübəhsiz ki, şəhərin 12 minə qədər müsəlman əhalisinə nisbətən çox cüz'i idi. Lakin bu heç də, bir çoxlarının təsdiq etdiyi kimi, müsəlmanların təhsil meylinin olmaması və zəifliyi ilə deyil, başqa çətinliklərlə əlaqədar idi. Həmin çətinliklərdən ən başlıcası azərbaycanlı uşaqları üçün müvafiq hazırlıq məktəblərinin olmaması idi. Rus dilində müvafiq hazırlığı olmayan uşaq dövlət məktəbinə qəbul olunmaqda böyük çətinlik çəkirdi. Yeni tə'sis edilən «rus-Azərbaycan» məktəbi bu çətinliyi müəyyən qədər aradan qaldırmalı, bu işdə mühüm rol oynamalı idi.

Şuşada ikisinifli «rus-Azərbaycan» məktəbi 1896-cı il oktyabrın 5-də açıldı. Məktəbə ilk dəfə 210 şagird qəbul edildi.[1] Şuşa şəhər ictimaiyyəti Bərdə zemstvo məktəbinin müəllimi Haşımbəy Vəzirovu açılacaq məktəbə müdir də'vət etdi.

Mövcud qanuna görə Zaqafqaziya ibtidai məktəblərində popeçitel şurası və məktəb tə'sisi komissiyası nəzərdə tutulmurdu. Şuşa ictimaiyyəti həm popeçitel şurası, həm də məktəb tə'sisi komissiyası təşkil etmişdi.

Məktəbdə oxumaq istəyənlərin çoxluğundan, hər şagirddən ildə 12 man. təhsil haqqı almaq müəyyən edildi. Bununla belə, şagirdlərin 20%-i təhsil haqqından azad edilirdi. Şəhərin bir çox xeyriyyəçiləri məktəbin maddi bazasının möhkəmlənməsinə yaxından kömək edirdilər. Məktəb müdirinin bir mə'lumatında deyilirdi: «Valideynlər məktəbin açılmasında qızğın iştirak edirlər. Bir neçə xeyriyyəçi məktəbin maddi bazasını yaxşılaşdırmaqdan ötrü kasıblardan 5 şagirdin təhsil haqqını ödəməyi və məktəbdə oxuduqları bütün müddətdə bunları paltar və tədris vəsaiti ilə tə'min etməyi öhdəsinə

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 5428, v. 12.

götürür»[1]. Xeyriyyəçilər arasında məktəbin fəxri nəzarətçisi Cavad bəy Vəzirov, Şuşa sakini Həsən bəy Sarıcalinski və b. var idi. Bundan əlavə, şahzadə Fətəli Mirzə və knyagina Üsmiyeva bina tikilənədək öz evlərini təmənnasız olaraq məktəbə vermişdilər. Şuşa realnı məktəbi şagirdlərinin göstərdiyi 2 tamaşadan toplanan 500 manat da «rus-Azərbaycan» məktəbi üçün bina tikməyə sərf edildi. Şəhər ziyalıları teatr tamaşaları təşkil etməkdə xüsusilə fərqlənirdilər. «Тифлиский листок» qəzetində Fərhad[2] imzası ilə çıxış edən bir müəllim «Şuşa» adlı məqaləsində yazırdı:

«Bu günlərdə burada dram incəsənəti həvəskarları tərəfindən Xandəmirov teatrında tatar (Azərbaycan —H.Ə.) dilində tamaşa verildi. Ə.Haqverdiyevin «Dağılan-tifaq» faciə-komediyası tamaşaya qoyulmuşdur. Tamaşa böyük müvəffəqiyyətlə keçdi və tamaşadan toplanan 900 manatdan ona sərf edilən 200 man. xərci çıxdıqdan sonra, qalan 700 man. yerli «rus-tatar» məktəbinin nəfinə verildi».[3]

Şuşa «rus-Azərbaycan» məktəbinin tədris planına Azərbaycan və rus dilləri, hesab (rus dilində) daxil idi. Ana dili yeni üsul ilə tədris edilirdi. Məktəbin müəllim hey'əti 4 nəfərdən ibarət idi. H.Vəzirov — müdir, Rasimbəy Tahirovla Mirzə Baxış Yusifzadə fənn müəllimi, molla Mehdi Sarıcalinski şəriət müəllimi, Mehdiqulu xan isə məktəbin fəxri müdiri idi.

Azərbaycan ziyalılarının böyük bir dəstəsi ilk təhsilini Şuşa «rus-Azərbaycan» məktəbində almışdır. Bir çoxları kimi, Azərbaycanın fəxri olan Ü.Hacıbəyov da Şuşa «rus-Azərbaycan» məktəbinin yetirmələrindəndir. 1896-cı ildə burada oxuyan Y.V.Çəmənzəminlinin xatirələrində bu məktəbdə tə'lim-tərbiyə işinin yüksək səviyyədə qurulduğu göstərilir.

1900-cü ildə Şuşa «rus-Azərbaycan» məktəbi nəzdində yaşlılar üçün pulsuz axşam kursları təşkil edilmişdi. Şuşanın bir çox yaşlı sakinləri burada Azərbaycan və rus dillərində savad almağa ciddi sə'y göstərirdilər.

Nuxada «rus-Azərbaycan» məktəbinin meydana gəlməsi 1896-cı ilə təsadüf edir. Hələ 1895—96-cı illərdə Nuxada məscid məktəblərinin yenidən qurulması sahəsində ilkin addımlar atılmışdı. QTD-nin popeçiteli Rusiya XMN-ə yazırdı: Nuxa müsəlmanları

[1] Sirkulyar... KUO, 1896, № 12, səh. 1025; Gürc. SSR MDA, f. 422, s. 1, iş № 5428, v. 12 arx.
[2] Çox güman ki, Fərhad Ağazadədir.
[3] «Tifliskiy listok» qəzeti, 1900, № 189.

1895-ci ildə yerli Məhəmməd ruhanilərinin əqilli tə'siri altında öz məktəblərindən birini «rus-tatar»[1] (Azərbaycan—H.Ə.) məktəbinə çevirməyə cəhd etdilər və 1896-cı ildə[2] iki məscid nəzdində buna nail oldular.[3] Nuxada birinci dəfə «rus-Azərbaycan» məktəbi yerli sakin Hacı Əbdül Rəhim ağanın evində, ikinci «rus-Azərbaycan» məktəbi isə tacir Məmməd Sadıq Əliyevin (o, həm də məktəbin fəxri nəzarətçisi idi) evində yerləşirdi. Binaların hər ikisi məktəbə təmənnasız verilmişdi. 1897-ci ildə hər iki «rus-Azərbaycan» məktəbində şagirdlərin sayı 200-ə çatırdı. Nuxada hər iki «rus-Azərbaycan» məktəbi əhalinin ianə yolu ilə topladığı vəsaitlə idarə olunurdu. Nuxalılardan əlavə, Bakı müsəlman ictimaiyyəti də Nuxa «rus-Azərbaycan» məktəbinin nəfinə 200 man. pul göndərmişdi.

Hər iki «rus-Azərbaycan» məktəbində Azərbaycan fars, ərəb, rus dilləri, hesab və şəriət tədris edilirdi. Baş cümə məscidi nəzdində olan sünni «rus-Azərbaycan» məktəbində rus dili ZMS-ni bitirən Qəzənfər ağa Cavanşir, şiə «rus-Azərbaycan» məktəbində isə Qulubəyov tərəfindən tədris edilirdi.

Gəncə qubernatoru 1897-ci ilə aid hesabatında bu məktəblərdən bəhs edərək yazırdı ki, quberniyada 3 «rus-müsəlman» məktəbi vardır ki, bunlar «yerli müsəlman əhalisi içərisində xalq maarifini müvəffəqiyyətlə yaymaqla bərabər, həm də rus dilinin yayılmasına çox böyük tə'sir edir». Rəsmi sənədlərdən birində deyilir ki, rus şairlərindən bir çoxunun şe'rlərini məktəbin bütün şagirdləri əzbər bilir, rus dilində cəld oxuyurlar. Hesabdan dörd əməl ilə kifayət qədər tanış idilər.

Uşaqlar savad öyrənməyə cəhd edirlər, müəllim və mürəbbilərin şəxsi həyatı da bu işə az kömək etmir. Yerli sakin Hacı ağa Əbdürrəhim məktəbə insanpərvər münasibət göstərərək, öz evini təmənnasız olaraq məktəbə güzəşt etməsi nəticəsində məktəb yaxşı binaya malikdir.[4]

Yüksək rütbəli mə'murlardan birinin qeydləri də maraqlıdır. O, məktəbin rə'y dəftərinə belə yazmışdı:

---

[1] Məscid nəzdində təşkil edilən yeni üsullu məktəblərdə rus dili də tədris edildiyindən, tezliklə «rus-Azərbaycan» məktəbi adlandırıldı.

[2] Əslində 1896-cı ildə Nuxada bir «rus-Azərbaycan» məktəbi açılmışdı. (Sünni uşaqları üçün), digərinin isə açılmasına yalnız icazə verilmişdi. İkinci məktəb (şiə uşaqları üçün) 1897-ci ildə açılmışdır.

[3] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 6310, v. 6.

[4] Bu vaxt məktəb üç şö'bədən ibarət idi. 1-ci şö'bədə 45, II-də 35, III şö'bədə isə 30 şagird oxuyurdu Bax: Sirkulyar... KUO, 1897, № 10, 787.

«Sünni məscidinin nəzdindəki «rus-tatar» məktəbinin şagirdləri məndə yüksək dərəcədə xoş təəssürat oyatdı. Nisbətən qısa müddətdə mövcud olmasına baxmayaraq, bu yeni tipli məktəb rus dilinin və savadının mənimsədilməsində və maarif zəruriliyinin, həqiqətən, şüurlu surətdə dərk edilməsində gözəl müvəffəqiyyətlər əldə etmişdir».[1]

Nuxa şəhər camaatı 1898-ci ildə hər iki «rus-Azərbaycan» məktəbinin ikisinifli məktəbə çevirməyi, əlavə olaraq Nuxa Qışlağı adlı yerdə hər biri ikisinifli olmaqla iki «rus-Azərbaycan» məktəbi açmağı (əslində orada mövcud olan iki ruhani məktəbini «rus-Azərbaycan» məktəbinə çevirməyi) qərara aldı. Bu məqsədlə hər tüstüdən könüllü olaraq ildə 60 qəpik pul toplandı. Lakin hökumət idarələrinin süründürməçiliyi nəticəsində göstərilən məktəbdən yalnız biri açıldı.

Gəncədə «rus-Azərbaycan» məktəbi açmaq sahəsində ilk təşəbbüs Qasım Qasımova aiddir. ZMS-ni bitirən Q.Qasımov 1893-cü il iyunun 14-də Gəncə şəhərində azərbaycanlı uşaqları üçün üçüncü dərəcəli xüsusi məktəb açmağa rəsmi icazə aldı. Q.Qasımovun xüsusi məktəbi 1894-cü il yanvarın 24-də açıldı. Məktəb ilk dəfə 4 şagirdlə işə başladı. Lakin Qasımovun xəstəliyi ilə əlaqədar məktəb az sonra, həmin il martın 18-də bağlandı.

«Rus-Azərbaycan» məktəbinin müvəffəqiyyətindən ruhlanan Gəncə sakinləri yeni «rus-Azərbaycan» məktəbi açmağa təşəbbüs etdilər və bu məqsədlə 1840 man. 35 qəp. pul toplandı. QTD-nin popeçiteli 1898-ci il martın 4-də Gəncədə «rus-Azərbaycan» məktəbinin açılmasına icazə verdi.

Məktəb 1898-ci il aprelin 23-də açıldı. Məktəb şəhərin Bağmanlar adlanan sahəsində yerləşirdi. Gəncə quberniya məktəblər direktoru 1898-ci il mayın 22-də QTD-nin popeçitelinə yazırdı:

«Aprelin 23-də Gəncə ətrafındakı Bağmanlar adlanan yerdə «rus-tatar» məktəbinin təntənəli açılışı oldu... Gündüz saat bir tamamda məktəbin tə'sis edildiyi bina bayraqlarla bəzədildi. Tam parad formasında olan şəhərin hərbi və mülki qulluqçuları, həmçinin şəhərin bir çox həqiqi vətəndaşları məktəbin həyətinə toplandılar... Məktəbin həyəti gələcək şagirdlərlə və ətraf yerlərdən gələn müsəlmanlarla dolu idi. Hətta həmin gün şəhərdən Bağmanlara gedən 3 verstlik yol adamla dolu idi və bu yolda növbə çəkən qorodovoylar, keşikçilər

[1] Sirkulyar... KUO, 1897, № 10, 789.

belə bayram libasında idi. Havanın dumanlı olmasına və narın yağış yağmasına baxmayaraq, şəhər əhalisinin böyük əksəriyyəti, adlı-sanlı adamlar məktəbin təntənəsində iştirak etməyə tələsirdilər»[1].

Gəncə «rus-Azərbaycan» məktəbinin açılışı təkcə gəncəlilərin deyil, Azərbaycan maarifinin çiçəklənməsini istəyən bir çoxlarının, o cümlədən bakılıların da bayramı idi. Bakı xeyriyyəçilərinin bir çoxu teleqram göndərərək, məktəbin açılışını təbrik edirdilər. Məktəbə kömək məqsədilə pul göndərənlər də var idi.

Milliyyətindən asılı olmayaraq, Gəncə əhalisi də məktəbin ilk tə'sisi zamanı tədris ləvazimatı ilə ona kömək edirdi. Məs.: kitab satıcısı A.X.Ağayev 10 man. dəyəri olan yazı ləvazimatı ilə birlikdə 50 ədəd qələmdan, xarrat M.Bağıyev 3 man. dəyəri olan 60 xətkeş, xüsusi mətbəə saxlayan X.A.Saakov 12 man. dəyərində müxtəlif növ blank və kitablar, xüsusi məktəbi olan başqa birisi 60 nüsxə tədris kitabı hədiyyə vermişdi.

Bağmanlar «rus-Azərbaycan» məktəbinə ilk dəfə 26 şagird qəbul olundu.

1899-cu il may ayının 6-da təntənəli şəkildə Bağmanlar «rus-Azərbaycan» məktəbi üçün 2 mərtəbəli tədris binasının bünövrəsi qoyuldu. Məktəb binasının tikintisi üçün əhali 450 man. vəsait toplamışdı. 1899-cu ildə şagirdlərin sayı 48 nəfər idi. Onların hamısı azərbaycanlı idi. Məktəb elə ilk gündən tə'limin müvəffəqiyyətinin yüksəkliyi ilə də fərqlənirdi. Bir il sonra, 1899-cu il iyunun 15-də bu məktəbdə illik imtahan zamanı şagirdlərin müvəffəqiyyəti Gəncə xalq məktəb direktorunun diqqətini cəlb etmişdi. İmtahanda iştirak edən Gəncə qubernatoru şagirdlərə şəxsən suallar vermiş, rus dilində mətn oxutdurmuş, Azərbaycan dilindən rus dilinə tərcümə etdirmiş, əzbərdən şe'r söylətdirmiş və şagirdlərin cavablarından razı qalmışdır.

Gəncə «Rus-Azərbaycan» məktəbinin müdiri Mehralıbəy İsmayılov, Azərbaycan dili və şəriət müəllimi molla Ələkbər oğlu molla Abbas idi. Sonralar, 1902-ci ildən məktəbə Həsənbəy Bağırov rəhbərlik etmişdir (O, 1885-ci ildə ZMS-nı bitirmişdir). H.Bağırov çox enerjili və nümunəvi müəllimlərdən idi. Dairə inspektoru L.Lopatinskinin hesabatlarında H.Bağırovun müdriklik etdiyi illərdə şagirdlərin sayının 60-dan yuxarı olması, şagirdlərin də, müəllimlərin də öz işlərinə məhəbbətlə yanaşdıqları ayrıca qeyd edilir.[2]

[1] Sirkulyar... KUO, 1898, № 7, 614-622.
[2] Bax: Gürc. SSR MDA, f. 422, s. 1, iş № 8703, v. 140 arx.

Məktəbin tədris planına Azərbaycan və rus dilləri, hesab, gimnastika və şəriət daxil idi. Azərbaycan və rus dilləri A.O.Çernyayevskinini dərslikləri əsasında, yeni üsulla tədris edilirdi. Məktəbin böyük meyvə bağı var idi.

Naxçıvanda «rus-Azərbaycan» məktəbinin təşkili məşhur pedaqoq və maarifçi M.T.Sidqinin adı ilə bağlıdır. Əsası 1894-cü ildə Sidqi tərəfindən qoyulan «Tərbiyə» məktəbi 1896-cı ildə əhalinin tələbi ilə «rus-Azərbaycan» məktəbinə çevrildi.

«Qafqaz» qəzetində «Qafqaz xəbərləri» ümumi başlığı altında dərc edilmiş bir məqalədə deyilir ki, 1896-cı il may ayının 14-də İrəvan quberniyasının Naxçıvan şəhərindəki məscidin həyətində yerli müsəlman ictimaiyyəti tərəfindən tikilmiş yeni binada «rus-müsəlman» məktəbinin təntənəli açılışı oldu. «Bu yeni tipli məktəbdir. Burada mədəni xalqların ibtidai məktəblərinə xas olan bütün adi fənlər keçilir və bu məktəbin köhnə müsəlman məktəbləri ilə heç bir ümumi oxşarlığı yoxdur. Müsəlman pedaqoqu Məşədi Tağı Ordubadski tərəfindən əsası qoyulmuş bu məktəb onun rəhbərliyi altında olub, yerli müsəlman ictimaiyyətinin xərci ilə idarə olunur». Qəzet yazır ki, «bu məktəb ora gedənlərə ən xoş tə'sir bağışlayır».[1]

Əsrin sonuna qədər Naxçıvan qəzasında olan iyirmiyədək kənd ibtidai məktəbi içərisində Naxçıvan «rus-Azərbaycan» məktəbi yeganə idi.

Naxçıvan şəhər əhalisi «rus-Azərbaycan» məktəbinin tərəqqisinə maddi kömək edirdi. Erm. SSR MDTA-da saxlanılan sənədlərdən birində qeyd edilir ki, Naxçıvan sakinləri «rus-tatar» məktəbinin tə'xirəsalınmaz ehtiyaclarını ödəmək və kasıb şagirdlərə kömək etmək üçün məktəbin təsərrüfat komitəsinə 300 man. pul vermişlər.

Naxçıvan şəhər məktəbində təhsil almış kollec reqistratoru Bəhram Naxçıvanski əvvəlcə məktəbin hamisi, sonra isə fəxri müdiri olmaq e'tibarilə məktəbin nə'finə ildə 100 manat verirdi.

Naxçıvan «rus-Azərbaycan» məktəbinin müdirlik vəzifəsi Ə.Süleymanova tapşırılmışdı. Yeri gəlmişkən Ə.Süleymanovun nə vaxtdan Naxçıvan «rus–Azərbaycan» məktəbinin müdiri tə'yin edilməsilə əlaqədar bə'zi məsələləri aydınlaşdırmağı lazım bilirik. Erm. SSR MDTA-da Ə.Süleymanovun pedaqoji fəaliyyətinə aid ayrıca qovluq saxlanmaqdadır. 1862-ci ildə Nehrəm kəndində anadan olan Ələkbər Molla Süleyman oğlu Süleymanov 1882-ci ildə ZMS-ni

[1] «Qafqaz» qəzeti, 1896, № 196.

bitirmişdir (o, A.O. Çernyayevski tərəfindən 1879-cu ildə Naxçıvan məktəbliləri arasından seçilərək ZMS-nin azərbaycanlı şö'bəsinə qəbul olunanlardan biridir). Zaqafqaziya Müəllimlər Seminariyasının ilk mə'zunlarından olan Süleymanov pedaqoji fəaliyyətinə Yengicə kənd ictimaiyyət məktəbində başlamışdır. 1890-cı ildən isə Baş Noraşen ikisinifli zemstvo məktəbində müəllimlik etmişdir. M.T.Sidqi tərəfindən Naxçıvanda «Məktəbi-tərbiyə» tə'sis edilərkən şəhər ictimaiyyəti tərəfindən həmin məktəbə rus dili müəllimi vəzifəsinə də'vət edilmişdir (11. XII. 1894.). Özünün yazdığına görə, «tərbiyə» məktəbinin «rus-Azərbaycan» məktəbinə çevrilməsi və məktəbin xalq məktəblər direksiyasının tabeliyinə keçməsi ilə əlaqədar olaraq 1897-ci ildə məktəbin müdiri tə'yin edilmiş və 1906-cı ilədək məktəbi idarə etmişdir.

Naxçıvan «rus-Azərbaycan» məktəbinin müvəffəqiyyəti ordubadlıları da ruhlandırdı. 1900-cü ildə Ordubad əhalisi də vəsait toplayaraq, «rus-Azərbaycan» məktəbi açmağı qərara aldı. Məktəb üçün müvafiq bina ayrıldı. Lakin fanatik ruhanilərin və mürtəce dövlət mə'murlarının tə'siri və təzyiqi nəticəsində 1900-cü ildə Ordubad əhalisinin «rus-Azərbaycan» məktəbi açmaq cəhdi baş tutmadı. Ordubad şəhər məktəbinin müdiri «rus-Azərbaycan» məktəbinin açılması ilə onun məktəbində şagird kontingentinin azalmasından və yeni açılacaq məktəbdə ana dilinin tədris ediləcəyindən, əhalinin yeni məktəbə hüsn-rəğbət bəsləməsindən qorxuya düşərək «rus-Azərbaycan» məktəbinin açılmasına ciddi maneçilik törətdi. Əhalinin tə'kidi nəticəsində Ordubadda «rus-Azərbaycan» məktəbi yalnız 1901-ci ildə açıldı.

XIX əsrdə Azərbaycan ərazisində «rus-Azərbaycan» məktəblərindən biri də 1897-ci ildə Şamaxıda tə'sis edildi. Çox xarakterikdir ki, digər məktəblərdən fərqli olaraq, bu məktəbə qızlar da cəlb edilmişdi.

Burada ana dili, rus dili, hesab, coğrafiya və şəriət tədris edilirdi. Sonralar «Kaspi» qəzetində dərc edilən bir məqalədə deyilirdi: «Məktəbin təşkilinə təşəbbüs edən Hacı Məcid Əfəndi səs üsulunun üstünlüyünü sübuta yetirmək istəyirdi. Ona görə də onun məktəbi Azərbaycan dilindəki ibtidai məktəbləri yenidən qurmalı və bizim bütün məktəblərimizə səs üsulunu daxil etməli idi».

Səs üsulunu yaymağı qarşısına ümdə məqsəd qoyan bu məktəb S.Ə.Şirvani məktəbinin ləyaqətli xələfi idi. Bu məktəbdə Ömər Faiq Ne'manzadə və Əhməd Əfəndiyev kimi mütərəqqi müəllimlər

işləyirdilər. Qızlar şö'bəsində Axalkələkdə də'vət edilmiş Hafiz Əfəndi Şeyxzadə, onun arvadı və qızı işləyirdi.

Dövri mətbuatın və dövrün mütərəqqi pedaqoqlarının verdiyi mə'lumata görə bu məktəb əhali arasında böyük nüfuz qazanmışdı. Lakin 1902-ci ildə Şamaxıda baş verən zəlzələ nəticəsində məktəb öz fəaliyyətini dayandırdı.

Əsrin sonlarında «rus-Azərbaycan» məktəbləri kəndlərə də nüfuz edirdi. 1898-ci ildə Bakı qəzasının Corat, 1900-cü illərdə Göyçay qəzasının Bığır kəndində belə məktəblər təşkil edilmişdi. Kəndin yerli sakinlərindən olan Hacı İbrahim Əfəndiyev tərəfindən açılan Bığır «rus-Azərbaycan» məktəbində səs üsulu ilə savad öyrədilirdi.

Azərbaycanda meydana gələn «rus-Azərbaycan» məktəbləri özünün orijinallığı, daxili quruluşu, yerli əhali üçün əlverişli olması ilə Zaqafqaziya və Qafqazın digər yerlərində yaşayan müsəlmanların da diqqətini cəlb etdi. «Rus-Azərbaycan» məktəblərinin tə'siri ilə İrəvanda, Dağıstanda və Şimali Qafqazda da belə məktəblər meydana gəldi. Bu növ məktəblər xüsusilə İrəvan quberniyasında geniş yayılmağa başladı. 1896-cı il oktyabrın 21-də açılan İrəvan «rus-Azərbaycan» məktəbi əhalinin maddi və mə'nəvi yardımı ilə idarə olunurdu. Məktəbə ilk dəfə nəzərdə tutulan 70 şagird əvəzinə 110 şagird qəbul edildi və get-gedə çoxaldı. Məktəbin tədris planına Azərbaycan, rus, fars və ərəb dilləri, şəriət və hesab daxil idi. Ana dili səs üsulu ilə A.O.Çernyayevskinin «Vətən dili» (I—II hissə), fars dili Sə'dinin «Gülüstan», rus dili M.Volperin «Rus dili» (I, II, III həssə), hesab Yevtuşevskinin «Məsələlər kitabı» üzrə tədris edilirdi.

Məktəbin müdiri Haşımbəy Nərimanbəyov idi. İkinci müəllim əvvəllər R.Xəlilov, sonralar Şaxtaxtinski olmuşdu. Azərbaycan dilini Mirzə Məmməd Vəli Qəmərlinski tədris edirdi.

Məktəb qısa müddət ərzində tə'limin əyaniliyi, şagirdlərin tə'limi şüurlu mənimsəməsi cəhətincə quberniya maarif rəhbərini heyran etdi. 1900-cü ildə məktəbi yoxlayan komissiya bütün qüvvə və bacarığını bu məktəbin tərəqqisinə sərf edən H.Nərimanbəyova təşəkkür etmişdir.

İrəvan ziyalıları məktəbə hər cür kömək edirdi. Şəhər teatr həvəskarları tez-tez tamaşa göstərərək, toplanan vəsaiti «rus-Azərbaycan» məktəbinin nəfinə verirdilər. Tamaşaya qoyulan əsərlər içərisində M.F.Axundovun «Müsyö-Jordan və dərviş Məstəlişah»ı da

var idi. İrəvan quberniya məscidi də məktəbə maddi kömək edirdi. Şagirdlərdən yalnız bir nəfəri qız idi (H.Nərimanbəyovun qızı idi).

İrəvan «rus-tatar» məktəbi və onun ilk müdiri H.Nərimanbəyov İrəvan şəhərinin müsəlman əhalisi arasında istər ana dilində və istərsə də rus dilində savadın yayılmasında xeyli iş gördü. H.Nərimanbəyovun təşəbbüsü ilə 1899-cu ildə bu məktəbin nəzdində yaşlı müsəlmanlar üçün axşam kursları açıldı. Orada rus dili, hesabdan dörd əməliyyat və ana dili keçilirdi. Rus dili və hesabı H.Nərimanbəyovun özü, ana dilini isə Mirzə Məmməd Vəli Qəmərlinski keçirdi.

İrəvan «rus-Azərbaycan» məktəbi qabaqcıl pedaqoji təcrübəni yaymaqda xeyli iş görmüşdü. Məktəbin müəllimləri mərkəzi rus mətbuatında irəli sürülən elmi–pedaqoji məsələlərin müzakirəsində fəal iştirak edirdilər.

İrəvan «rus-Azərbaycan» məktəbinin müsbət təcrübəsi əsasında «rus-Azərbaycan» qız məktəbi də açıldı. Qız məktəbi Axund Məmmədbağır Qazızadənin evində yerləşirdi.

Nəticə e'tibarı ilə qeyd edək ki, XIX əsrin sonlarına doğru bir sıra mütərəqqi maarifçilərin və məktəbdarların ciddi tə'siri altında Azərbaycanda bir tərəfdən mövcud ruhani məktəbləri öz ən'ənəvi xarakterini dəyişir, digər tərəfdən də rus məktəblərində təhsil almış yeni müəllimlər dəstəsinin yaxından köməyi və sə'yi ilə yeni-yeni məktəblər meydana gəlirdi. İlk zamanlar yeni tipli məktəblərin sayı istər ruhani, istərsə də dövlət məktəblərinə nisbətən az da olsa, tə'limin məzmunu və müvəffəqiyyəti cəhətincə onlardan kəskin fərqlənirdi. Məhz bunun nəticəsidir ki, yeni üsullu məktəblərin şöhrəti tezliklə bütün ölkəyə yayıldı. Bu məktəbləri şöhrətləndirən, hər şeydən əvvəl, tə'limin ana dilində aparılması, milli müəllimlərin ana dilində xalqın balalarına tə'lim-tərbiyə vermələri, onların yolunda şam kimi yanmaları idi.

XIX əsrin sonunda bütün Rusiyada olduğu kimi Zaqafqaziyada və Azərbaycanda da böyük bir mütərəqqi hərəkat nəzərə çarpırdı. Bu hərəkat ədəbiyyat, mətbuatla bərabər məktəb və maarif sahəsində də özünü göstərirdi. Bu hərəkat xalqı ruhlandırdığı halda, dövlət mə'murlarını ciddi vahimiyə salırdı. Qorxuya düşən Rusiya DİN bütün quberniya və vilayətlərə məxfi məktub göndərərək bu hərəkatın məqsədinə, onun başçılarına, bu hərəkata istiqamət verənlərə aid mə'lumat toplayırdı.

Çox maraqlıdır ki, İrəvan qubernatoru bütün İrəvan quberniyasındakı yenilikçilər cərgəsində M.Sidqinin adını çəkmişdir.

İrəvan qubernatoru yazırdı: «Mənim tabeliyimdə olan quberniyada, tatar (Azərbaycan–H.Ə.) ədəbiyyatında, yenilikçi əsər müəllifi sifətilə çıxış edən şəxs yoxdur, lakin müsəlmanlar arasında və müsəlman aləminin digər hissələrində baş verən hərəkat ilə tanış olan və onunla maraqlanan adamlar vardır. Naxçıvan «rus-tatar» məktəbinin tatar (Azərbaycan–H.Ə.) dili müəllimi Məşədi Tağı Səfərovu belələrinə aid etmək olar. Onun öz təhsili vardır. O, Baxçasaraydan rus və tatar dillərində «Tərcüman», Qahirədən fars dilində «Pərvəriş», Kəlküttədən isə «Həblülmətin» qəzetlərini alır. Səfərov Naxçıvan şəhər müsəlman ictimaiyyəti arasında böyük şərəfə malikdir».

Bakı qubernatoru isə 14 noyabr 1901-ci ildə polis departamentinə yazdığı 1980 [1]-li tamamilə məxfi məktubunda yenilikçi müəllimlər sırasında H.Zərdəbinin, N.Nərimanovun, S.M.Qənizadənin və H.Mahmudbəyovun adını birinci qeyd etmişdir.

Verilən suallardan və alınan cavablardan görünür ki, çar mə'murları Azərbaycan xalqının mədəni həyatında baş verən hər cür yeniliyi izləyir, mütərəqqi ziyalıların fəaliyyətini nəzarət altına almasına, mütərəqqi təşəbbüslərin (yeni qəzet, jurnal nəşr etmək, yeni məktəb açmaq və s.) qarşısını almasına baxmayaraq, yeni məktəb tərəfdarlarının faydalı işini dayandıra bilmədi. Onların xalq tərəfindən müdafiə edilən fəaliyyəti özünün ilk bəhrəsini verdi. Azərbaycan xalq maarifinin qabaqcıl dəstəsi yeni əsri yeni fikirlər, təzə düşüncələrlə qarşıladı.

Məqalə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitunun «Elmi Əsərləri»nin (pedaqoji-psixoloji elmlər seriyası) 1975-ci il tarixli 1-ci sayında (s. 39–47) çap olunmuşdur.

AZƏRBAYCANDA İBTİDAİ MƏKTƏBLƏRİN MEYDANA GƏLMƏSİ TARİXİNDƏN

XIX əsrin ortalarında Azərbaycanda ibtidai məktəb adı ilə yeni tipli məktəblər meydana gəldi. Bunlar ilk dəfə Qafqaz məktəblərinin 1853-cü il «Nizamnamə»si ilə tə'sis edildi. 1853-cü il oktyabrın 29-da «Qafqaz dairəsi və ona tabe olan tədris müəssisələrinin «Nizamnamə»si sınaq məqsədi ilə dörd il müddətinə təsdiq olundu.

Yeni «Nizamnamə»nin əsas ruhunu bütün Qafqaz məktəbləri üçün sabit qanun qoyulmasına meyl etmək, onları İmperiya daxilindəki eyni tipli məktəblərin quruluşuna və istiqamətinə bir daha uyğunlaşdırmaq təşkil edirdi. Qanunverici Senatın qərarında açıqcasına deyilirdi: «Qafqaz dairəsi tədris müəssisələrinin quruluşunu daxili quberniyalardakı müəssisələrdə tətbiq edilən quruluşa yaxınlaşdırmaq, beləliklə, Rusiyanın digər hissələrində mövcud olan xalq maarif sistemini tədricən Qafqazda da tətbiq etmək bu nizamnamənin başlıca məqsədidir». Hər dəfə Zaqafqaziyada məktəb nizamnamələrini dəyişdirərkən mümkün qədər yerlərdəki məktəbləri Rusiya daxili sisteminə tədricən yaxınlaşdırmaq çarizmin dönmədən həyata keçirdiyi müstəmləkəçilik və ruslaşdırma siyasətinin nəticəsi idi.

1853-cü il Nizamnaməsi mahiyyət e'tibarilə əvvəlki nizamnamələrdən o qədər də fərqlənmirdi.

Yeni Nizamnaməyə görə, Qafqaz təhsil dairəsi Tiflis, Kutaisi, Stavropol və Qara dəniz sahilindən ibarət dörd direktorluğa bölünürdü ki, Azərbaycandakı məktəblərin əksəriyyəti Tiflis məktəb direktorluğuna, Naxçıvan qəza məktəbi və Ordubad ibtidai məktəbi isə İrəvan quberniyası ilə birlikdə Kutaisi məktəblər direktorluğuna tabe edildi.

1853-cü il «Nizamnamə»si Zaqafqaziya, o cümlədən Azərbaycan məktəblərində çalışan müəllimlərə bə'zi üstünlüklər verirdi. Məsələn, Zaqafqaziyada 4 il müəllimlik etmək, daxili quberniyaların 5 ilinə, maarif idarələrində qulluq edənlərin 5 ili imperiya daxilindəki idarələrdə qulluq edənlərin 7 ilinə bərabər tutulurdu.

1853-cü il «Nizamnamə»sindəki əsas yenilik Quba, Lənkəran və Ordubadda əvvəlki nizamnamələrdə nəzərdə tutulan qəza məktəbi əvəzinə, ibtidai (elementar) məktəb tə'sis etməkdən, Şamaxı qəza məktəbini isə 4 sinifli ibtidai məktəbə çevirməkdən ibarət idi.

30-cu illərdən bəri dövlət məktəbinin tə'sisini gözləyən Quba, Lənkəran əhalisi rus dilində təhsilə xüsusi meyl edirdi. Bu işdə

Ordubad və Quba əhalisi daha çox fərqlənirdi. Bunun nəticəsində hökumət bu yerlərdə heç olmazsa, ibtidai məktəb açmaq qərarına gəldi. Nəhayət, Zaqafqaziya məktəblərinin 1853-cü ilin Nizamnaməsində həmin şəhərlərdə ibtidai məktəb tə'sis edilməsi təsdiq olundu. Bu məktəblərin hər birinin illik xərci 850 manat olub, xəzinədən ödənilirdi.

Nizamnaməyə görə, ibtidai məktəblər bir və ya iki sinifdən ibarət ola bilərdi. Göstərilən hər üç məktəbin bir sinifdən ibarət olması təsdiq edildi. Bu Nizamnamə ilə 1854-cü ildə Azərbaycanda ibtidai məktəblərin əsası qoyuldu. Həmin il noyabrın 10-da Qubada, 24-də isə Ordubad şəhərində ibtidai məktəb açıldı. 1856-cı il sentyabrın 21-də isə Lənkəranda ibtidai məktəb tə'sis edildi. Göstərilən məktəblərə bütün təbəqələrdən olan 8 yaşlı uşaqlar (oğlanlar) qəbul olunurdu. Qəbul olunanlardan təhsil haqqı və təxmini bilik tələb edilmirdi. Tədris fənləri bunlar idi: şəriət, rus dilində oxu, yazı və rus danışıq dilinin təcrübi öyrədilməsi, Azərbaycan dilində oxu və yazı, hesabdan ilk dörd əməliyyat.

İbtidai məktəblərdə rus dili müəllimləri vəzifəsinə gimnaziyanın mə'zunlarından, bunlar olmadıqda isə qəza məktəblərini bitirənlərdən tə'yin olunurdu. Məktəbə rəhbərlik, bir qayda olaraq, rus dili müəlliminə həvalə olunurdu. Şəriət və Azərbaycan dili QTD-nin təsdiqi ilə yerli vəzifəli mollalar tərəfindən tədris edilirdi. Azərbaycan dili və şəriət müxtəlif vaxtlarda molla Səlim Əfəndi Hacı-məmməd oğlu ilə Əlibəy Həsənbəyov və Mirzəsəfər Məmmədov ilə Mirzə Nəsrullah Kazımbəyov tərəfindən tədris edilmişdir.

Tədris qarşılıqlı tə'lim üsulu ilə aparılırdı. Tədris ili yanvarın 1-dən hesab olunurdu. Şagirdlərin sayı orta hesabla 30-dan (Quba və Ordubad) 90-a qədər (Lənkəran) idi. Şagirdlərin silki tərkibinə görə şəhər sakinlərinin uşaqları əksəriyyət təşkil edirdi. 1855-ci ilin əvvəllərinə olan mə'lumata görə, Quba ibtidai məktəbindəki 46 şagirddən 41 nəfəri şəhərli, 5 nəfəri isə bəy uşağı idi.

Şagirdlərin milli tərkibinə görə, azərbaycanlılar xüsusilə Ordubad və Lənkəranda üstünlük təşkil edirdi. 1856-cı ildə Lənkəranda 53 şagirddən 30 nəfəri azərbaycanlı idi. Qalanının 11 nəfəri rus, 12 nəfəri isə erməni idi. Silki tərkibinə görə, 20 nəfəri dvoryan və bəy, 5 nəfəri ruhani, 28 nəfəri baş vergisi verənlərin uşaqları idi. 1858-ci ildə Ordubad məktəbindəki 36 şagirddən 31 nəfəri azərbaycanlı idi.

Lənkəranda olduğu kimi, Ordubadda da şagirdlərin əksəriyyətini şəhər sakinlərinin uşaqları təşkil edirdi. 1865-ci ildə Ordubad ibtidai məktəbində 52 şagirdin 2 nəfəri ruhani, 4 nəfəri bəy və ağa, 46 nəfəri isə şəhər sakinlərinin uşaqları idi.

Tə'limin müvəffəqiyyətinə və azərbaycanlıların çoxluğuna görə, Lənkəran ibtidai məktəbi daha yaxşı vəziyyətdə idi. QTD popeçitelinin 1858-ci ilə aid hesabatında oxuyuruq: "Lənkəran məktəbinin açılmasından sonra, oraya ilk dəfə getməyim mənə böyük ləzzət verdi. Bu vaxtadək yalnız ibtidai məktəblər dərəcəsində qalmasına baxmayaraq, bu məktəbdə şagirdlərin ümumi sayının yarısından çoxunun müsəlman uşaqlarından ibarət olması çox sevindirici hadisədir... Lənkəran müsəlmanları tə'limə böyük həvəs göstərir və şagirdlər arasında bir çox qabiliyyətli uşaqlar vardır.[1] Lənkəran ibtidai məktəbinin müvəffəqiyyətini nəzərə alan popeçitel onu ikisinifli məktəbə çevirməyi təklif edirdi. QTD popeçitelinin bu mülahizələri əsasında yalnız 1870-ci ildə Lənkəran, həmçinin Quba birsinifli ibtidai məktəbləri ikisinifli ibtidai məktəblərə çevrildi. Yerli əhali məktəbə yaxından kömək göstərirdi. Mənbələrdən birində polkovnik Mir İbrahim Xan Talışinski və başqalarının 1883-cü ildə Lənkəran məktəbinə mebel əldə etmək üçün 203 man. məbləğində ianə etdikləri göstərilir.

1853-cü ilin Nizamnaməsi üzrə ibtidai məktəblərə maddi kömək etmək üçün fəxri müdirlər tə'yin olunmuşdu. Bu vəzifəyə hər il məktəbin nəfinə müəyyən edilmiş miqdarda pul verənlər tə'yin edilə bilərdi. Belə fəxri müdirlərdən biri Quba sakini Məmməd Əlibəy oğlu Mahmudov idi. O, 1869-cu ildən Quba məktəbinin nəfinə 500 man. pul verirdi. Tbilisi və Leninqrad şəhərlərindəki dövlət arxivlərində saxlanılan sənədlərdə onun Quba ibtidai məktəbinin tərəqqisinə xeyli kömək etməsi, məktəbi coğrafiya xəritəsi, xəstələnən uşaqları dərmanla, yoxsul uşaqları kitab və digər tədris vəsaiti ilə tə'min etməsi, təhsil haqqı tətbiq edildikdə isə 8 kasıb şagirdin təhsil haqqını öz öhdəsinə götürməsi göstərilir. Bu xeyirxah işinə görə 1870-ci ildə ona QTD popeçitelinin təşəkkürü e'lan edilmişdi.

İbtidai məktəblərin nəzdində kitabxana var idi. 1865-ci ildə Ordubad ibtidai məktəbinin kitabxanasında 133 adda 563 nüsxə kitab saxlanılırdı.

[1] Gürc. SSR MDA, f. 8, s. 1, iş № 428, v. 22 arx.

İbtidai məktəblərdə kənd təsərrüfatına aid bə'zi bilik verilir, sənət öyrədilirdi. Quba ibtidai məktəbində arıçılığa xüsusi fikir verilirdi. 1893-cü ildə Peterburqda rus arıçılıq cəmiyyəti sərgisində iştirak edən və yüksək keyfiyyətli arı məhsulu nümayiş etdirən Quba ibtidai məktəbi cəmiyyətin tə'rifnaməsi ilə təltif edilmişdir.

XIX əsrin ortalarında meydana gələn ibtidai məktəblərdən biri də Zaqatala məktəbidir. Zaqatalada məktəb açılması oranın inzibati mövqeyi ilə əlaqədar idi. Əvvəllər qəza, sonralar isə dairə rəisləri əsasən, Zaqatalada otururdular. Burada məktəb açmaqda məqsəd yerli əhalidən daha çox, hökumət qulluqçularının uşaqlarına müvafiq təhsil vermək idi. Bu mülahizəyə görə, Qafqaz canişini M.S.Vorontsov 1849-cu ildə Car-Balakən dairəsində bir məktəb açmağa aid xüsusi sərəncam verdi. Dairə məktəbi adlanan bu məktəbin əsasnaməsi 1850-ci il oktyabrın 21-də Mərkəzi hökumət tərəfindən təsdiq edildi. Lakin bir tərəfdən vəsait mənbəyinin azlığı, digər tərəfdən knyaz Vorontsovun sərəncamı üzrə 1853-cü ildə orada «Müsəlman məktəbi» adlanan məktəbin açılması göstərilən məktəbin tə'sisini tə'xirə saldı. Müsəlman məktəbinin həm yerli əhalinin öz uşaqlarına təhsil vermək sahəsində artan ehtiyacını ödəyə bilməməsi, həm də oraya müsəlmanlarla bərabər xristian uşaqlarını da cəlb etmək fikri onu ibtidai məktəbə çevirməklə nəticələndi. Qafqaz sərdarı knyaz Baryatinski 1860-cı ildə Zaqatala Müsəlman məktəbinin üçsinifli ibtidai məktəbə çevrilməsi barədə sərəncam verdi.

1860-cı il fevralın 29-da Qafqaz canişini, mayın 30-da isə Qafqaz komitəsi Zaqatala ibtidai məktəbinin Nizamnaməsini təsdiq etdi. Nizamnaməyə görə, Zaqatala ibtidai məktəbi üç sinifdən ibarət olub, onlardan biri hazırlıq sinfi idi. Məktəbin tədris planına 1853-cü il Nizamnaməsində ibtidai məktəblər üçün müəyyən edilmiş fənlərdən əlavə ilahiyyat (provoslav dili üzrə) qısa müqəddəs tarix, xristian tə'liminin başlanğıcı, torpaq haqqında anlayış və rus coğrafiyasından ən müxtəsər oçerk daxil idi.

Məktəbin nəzdində pansion təşkil edilmişdi. İlk əvvəl pansion 40 nəfərlik müəyyən edilmişdi ki, bunun 25-i dövlətin, 15-i isə valideynlərin hesabına yaşayırdı. Dövlət təqaüdçülərindən 20 nəfəri Car-Balakənin fəxri sakinlərinin — (ləzgi və inquşların» uşaqları, 5-i isə rus çinovniklərinin uşaqları idi.

Nizamnaməyə görə, Zaqatala məktəbinin pansion şagirdləri Zaqafqaziya gimnaziyalarında olduğu kimi müəyyən edilmiş forma geyinirdilər. Məktəbin nəzarətçisi pansionda yaşayır və onun

bilavasitə rəisi hesab edilirdi. Məktəbin illik xərci 4687 man. 70 qəp. olub, yerli mədaxildən ödənilirdi.

Beləliklə, 1860-cı ildə Zaqatala müsəlman məktəbi əsasında ibtidai məktəbin təşkili təsdiq edildi. Lakin məktəbə müəllim tapıb tə'yin edilməsi onun təşkilini xeyli ləngitdi. Nəhayət, 1862-ci il sentyabrın 26-da Zaqatala ibtidai məktəbi fəaliyyətə başladı.

1865-ci ilin mə'lumatına görə, Zaqatala ibtidai məktəbində 42 şagird var idi. Şagirdlərin silki tərkibi müxtəlif olub 3 nəfəri bəy, 1-i şeyx, 1-i əfəndi, 1-i knyaz, 2-si mə'mur, 1-i ruhani, 12-si azad vətəndaş, 21 nəfəri isə baş vergisi verənlər idi.

Zaqatala ibtidai məktəbində ləzgi uşaqlarının müvəffəqiyyəti diqqəti daha çox cəlb edirdi (20 ləzgi uşağından yalnız 3 nəfəri kafi, qalanları «4» və «5» qiymətlə oxuyurdular).

Zaqatala 3 sinifli ibtidai məktəbində rus dili K.D.Uşinskinin «Uşaq aləmi» kitabı əsasında tədris edilirdi.[1]

Məktəbin xüsusi kitabxanası var idi (1865-ci ildə burada 394 nüsxə kitab, bir neçə tədris vəsaiti saxlanılırdı). Zaqatala ibtidai məktəbi qısa müddət ərzində yerli əhalinin hörmətini qazandı. Xüsusi tapşırıqlar üzrə çar mə'murlarından biri 1863-cü il mayın 14-də Qafqaz canişinliyinin baş idarəsinə yazdığı raportda bu məktəbin müvəffəqiyyətini xüsusilə qeyd edib göstərdi ki, əhalinin məktəbə münasibəti, «dağlı tayfalarının gözəl qabiliyyətləri» yaxşı ümidlər verir və onu inkişafsız qoymaq bağışlanılmaz laqeydlik olardı.

Yerli əhalinin rus dilinə və rus təhsilinə marağını, həvəsini nəzərə alaraq mə'mur məktəbin ştatını və vəsaitini artırmağı dövlət təqaüdçülərinin sayını heç olmasa 75 nəfərə, öz hesabına pansionda yaşayanların sayını 25-ə çatdırmağı təklif edirdi. Nəhayət, Zaqatala ibtidai məktəbi 1869-cu ildə qəza məktəbinə çevrildi və üçüncü əsas sinif açıldı. Dövlət şurasının qərarı ilə Zaqatala qəza məktəbinin tədris planına peşə öyrədilməsi də daxil edildi. Bu Azərbaycanda yeganə dövlət məktəbi idi ki, orada peşə öyrədilirdi.

Məqalə «İbtidai məktəb və məktəbə qədər tərbiyə» məcmuəsinin 1975-ci il tarixli 1-ci sayında (s. 53-56) çap olunmuşdur.

[1] Gürc SSR, MDA, f. 425. S. 1, iş № 502, v.33, 36 arx.

AZƏRBAYCANDA BAZAR GÜNÜ MƏKTƏBLƏRİNİN TƏŞKİLİ TARİXİNDƏN

Bazar günü adlı tədris ocaqları Rusiyada XIX əsrin ortalarında meydana gəlmişdir. Bu məktəblərdə mşğələlər bazar günləri aparılırdı. Burada fəhlələr, kəndlilər, qulluqçular savad öyrənirdilər. Məktəblərdə müəllim sifətilə ziyalıların qabaqcıl nümayəndələri—tələbələr, ali və orta məktəb müəllimləri, zabitlər əmək haqqı almadan işləyirdilər. Rus inqilabçı demokratları bazar günü məktəblərinin inkişafında xüsusi rol oynamışlar. Onlar həmin məktəbləri xalqın siyasi maarifi üçün dayaq nöqtəsi etməyi nəzərdə tuturdular. Bazar günü məktəblərinin sür'ətlə inkişafı və orada işləyən müəllimlərin tərkibi hökumətin nəzərini cəlb edirdi.

Rusiyada bazar günü məktəblərinin fəaliyyətini təhqiq edən xüsusi komissiyanın sədri bu məktəblər vasitəsilə sadə xalq kütlələrinin içərisində hökumət əleyhinə təbliğat aparıldığını təsdiq etmişdi. Həmin komissiyanın yazdığına görə bazar günü məktəblərindəki təbliğat işləri N.Q.Çernışevskinin layihəsi üzrə həyata keçirilirdi. Həmin komissiya sədrinin qeydlərində deyilirdi ki, xalq içərisində savadın və bazar günü məktəblərinin yayılması bilavasitə hökumət tərəfindən deyil, bədbəxtlikdən gizli cəmiyyətlər tərəfindən yayılır. Bunda da məqsəd, üsul-idarəni və ümumiyyətlə, Rusiyada daxili qayda-qanunu dəyişdirməkdən ibarətdir. Bu məktəblərin zəhmətkeşlərə inqilabi tə'sirini başa düşən çar hökuməti 1862-ci il 10 iyul tarixli fərmanı ilə bazar günü məktəblərini bağladı.[1]

Lakin zəhmətkeşlərin biliyə olan həvəsi və meyli, eyni zamanda sənayenin savadlı fəhlələrə ehtiyacı hökuməti məcbur etdi ki, bu məktəbləri ixtisar edilmiş tədris proqramları ilə, heç olmazsa məhəllə məktəbləri səviyyəsində işləməyə icazə versin. Beləliklə, 1864-cü il nizamnaməsinə əsasən bazar günü məktəblərinin təşkilinə yenidən icazə verildi, xalq məktəbləri inspektorunun nəzarəti altına alındı. Keçən əsrin 70-ci illərindən başlayaraq bu məktəblərin sayı yenidən artmağa başladı.

Bazar günü məktəbləri XIX əsrin sonlarında Rusiya və Ukraynanın bir sıra qabaqcıl ziyalıları, pedaqoq və mütəfəkkirləri, o cümlədən N.Q.Çernışevski, N.İ.Piroqov, T.Q. Şevçenko və başqaları

[1] Gürc. SSR MDA, f. 8, s. 1, iş № 2883, v. 23 arx.

tərəfindən inkişaf etdirildi. Bazar günü məktəbləri sosial-demokrat təşkilatlarının güclü tə'siri altında idi.

Bir tərəfdən kapitalizmin inkişafı, fəhlələrin sayca artması, digər tərəfdən də xalqın təhsilə meyli, qabaqcıl müəllim və maarifçilərin xalq arasında savadı yaymaq cəhdi keçən əsrin 80-ci illərindən başlayaraq Azərbaycanda bazar günü məktəblərinin meydana gəlməsinə səbəb oldu. İlk bazar günü məktəbi 1881-ci il dekabrın 13-də Şamaxı şəhər məktəbinin pedaqoji şurası tərəfindən açıldı. Burada yaşlılar pulsuz təhsil alırdılar. Məktəbdə təhsil Azərbaycan və rus dillərində iki şö'bədə aparılırdı. Burada oxu və yazı öyrədilirdi. Təhsil müddəti bir il idi.

1898-ci ili mart ayının 1-də isə yenə də həmin məktəbin nəzdində yaşlılar üçün pulsuz axşam kursları açıldı. İlk dəfə kursa 165 nəfər qəbul olunmuşdu. Müdavimlərin əksəriyyətini azərbaycanlılar təşkil edirdi.[1]

1895-ci ildən Nuxa və Gəncə stansiyasındakı dəmir yolu məktəbi nəzdində də bazar günü məktəbi və kursları açıldı.[2] Gəncə şəhər məktəbi nəzdindəki bazar günü məktəbinə ilk dəfə 77 nəfər (12–45 yaşlı), Gəncə dəmir yolu məktəbi nəzdindəkinə isə 54 nəfər (15–43 yaşlı) daxil olmuşdu.

Bakıda ilk bazar günü məktəbi 1886-cı ildə Nobel qardaşları neft şirkətinin Qara şəhərdəki ikisinifli məktəbi nəzdində açıldı. Bu məktəbdə şirkətə məxsus zavodlarda işləyən usta və fəhlələr təhsil alırdı. Sonralar isə (1897-ci ildə) yenə də həmin məktəbin nəzdində axşam savad kursları təşkil edildi. Kurslara 62 nəfər (12–42 yaşlı) yeniyetmə və yaşlı adamlar qəbul olunmuşdu. Şəhərin mərkəzində isə bazar günü məktəbi 1893-cü il oktyabrın 3-də açıldı. Bu məktəbə Bakı realnı məktəbinin direktoru Komenski rəhbərlik edirdi. Məktəbdə şagirdlərin sayı gündən-günə artırdı. Birinci il burada müxtəlif fabrik-zavod fəhlələrindən 324 müdavim (110 uşaq və gənc, 214 nəfər yaşlı) təhsilini davam etdirirdi. Məktəbdə xüsusən azərbaycanlı müdavimlərin sayı ilbəil artırdı. Əgər birinci il azərbaycanlı müdavimlər 0,73 faiz təşkil edirdisə, ikinci il 9,5 faiz, üçüncü il 1 faiz, dördüncü il isə 27 faizə çatmışdı.

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 6286, v. 19.
[2] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 5849, v. 1–2, QTD popeçitelinin sərəncamları, № 4, 1896, 253.

Məktəb özünün tə'lim-tərbiyə sistemi ilə müdavimlərin rəğbətini elə qazanmışdı ki, hətta məktəbi bitirənlərin bir çoxu təhsilini artırmaq üçün ikinci il təkrar qalıb oxuyurdu. Bə'zən şagirdlərin çoxluğu üzündən otaqda onları yerləşdirməyə imkan olmadığından qəbul dayandırılırdı. 1895-ci ildə məktəbə daha çox müəllim (56 nəfər) cəlb edilmişdi. Ümumiyyətlə, Bakı bazar günü məktəbi təkcə Zaqafqaziyada deyil, Rusiya bazar günü məktəbləri içərisində də özünün təhsildə qazandığı müvəffəqiyyəti ilə fərqlənirdi. Təkcə onu qeyd etmək kifayətdir ki, qısa müddət ərzində özünün nailiyyətlərinə görə 1896-cı il noyabrın 8-də Nijni-Novqorodda açılmış Ümumrusiya sərgisinin ikinci dərəcəli diplomuna, Nuxa bazar günü məktəbi isə IV dərəcəli diploma layiq görülmüşdü.[1]

Bakıda bazar günü məktəbləri ilə bərabər, axşam kursları da inkişaf edirdi. Belə kurslardan biri 1897-ci il mayın 8-də texniki peşə məktəbinin nəzdində açıldı. Bu kurslar yalnız azərbaycanlılar üçün idi. Burada məşğələlər oktyabrın 1-dən aprelin 1-dək davam edirdi. Kursa ilk dəfə 100 nəfər qəbul edilməsi nəzərdə tutulmuşdu. Axşam kurslarının təşkili elə ilk gündən böyük marağa səbəb oldu. Bu haqda Bakı texniki məktəbinin direktoru yazırdı: «Yaşlı müsəlmanların savad öyrənmək sə'yi tamamilə təqdirəlayiqdir. Nə yağış, nə soyuq, nə sinif otaqlarının darısqallığı onların kursa davam etməsinə mane olurdu. Əksinə, məşğələdən azad olan günlər, onlar dəstə-dəstə digər qruplara dərs keçilən sinif pəncərələrinin qabağına toplaşaraq, böyük maraq və həvəslə qulaq asır, müəllimin hər bir kəlməsini eşitməyə can atırdılar. Bundan başqa, kursun müddəti qurtardıqdan sonra 40-a qədər adam məşğələləri davam etdirməyi lazım bildilər və mayın 1-dək məşğul oldular».[2]

1897–98-ci dərs ilində bu kursların nəfinə verilən müxtəlif teatr tamaşası (o cümlədən iki tamaşa Azərbaycan dilində), müsamirə və ayrı-ayrı ianələrdən 2.530 manat 90 qəpik pul toplanmışdı.

Bakıda qızlar üçün də ayrıca bazar günü məktəbləri açılmışdı. Belə məktəblərdən biri 1891-ci ildə Bakı realnı məktəbi direktorunun arvadı. Y.A.Komenskaya, digəri isə 1897-ci ildə 5-ci şəhər məktəbinin müdiri O.Yarçenko tərəfindən təşkil edilmişdi.[3]

XIX əsrin sonunda bazar günü məktəbləri kəndlərdə də açılmağa başladı. Belə məktəblərdən biri 1895-ci ildə Altıağac birsinifli kənd

[1] QTD popeçitelinin sərəncamları № 1, 1898, 4; 131.
[2] QTD popeçitelinin sərəncamları, № 12, 1898. 1209.
[3] Gürc SSR MDA, f. 422, s. 1, iş № 4013, v. 2.

məktəbi nəzdində, digəri Slavyanski ikisinifli zemstvo məktəbi nəzdində, 1896-cı ildə isə Cəhri kənd məktəbi nəzdində açılmışdı.[1]

1900-cü ildə Bakı quberniyasında olan 81 ibtidai məktəbin 19-da yaşlılar üçün axşam məşğələləri, 14-də isə bazar günü qiraəti təşkil edilmişdi. Getdikcə bazar günü məktəbləri və axşam kursları artır, əhalinin hörmətini qazanırdı. Bu məktəb və kurslar xalq arasında ümumi təhsili və faydalı bilikləri yayırdı. Məşğələlərdə mühazirə oxuyanların tərkibinə müəllimlər, həkimlər və başqaları daxil idi. Onların içərisində Bakı klassik gimnaziyasının sinif mürəbbisi, dövrünün məşhur müəllimi və ədibi, gələcək inqilabçı N.Nərimanov, görkəmli yazıçı Ə.Haqverdiyev və başqaları fəaliyyət göstərirdilər.[2] Bazar günü məktəbləri və axşam kurslarının genişlənməsi, orada mütərəqqi fikirli şəxslərin mühazirələr oxuması hökumətin diqqətini cəlb edirdi. Rusiya XMN qraf Delyanov 1896-cı il sentyabrın 28-də QTD-nin popeçitelinə göndərdiyi xüsusi məktubda bazar günü məktəblərini «e'tibarsız şəxslərdən» təmizləməyi təklif edir. Burada işləmək üçün mütləq DİN-nin razılığı olmalı idi. Qraf Delyanov həmçinin bu məktəbləri tə'sis edənləri, məktəbin müdirlərini və bütün qulluqçularını çox ciddi nəzarət altında saxlamağı, nəinki siyasi cəhətdən e'tibarsız, həm də şübhəli şəxsləri belə bu məktəblərə buraxmamağı, tədris işlərini mümkün qədər «sayıq nəzarət altında saxlamağı» tələb edirdi. Məktəb işçisi olmayan şəxslərin bu və ya dolayı yollarla məktəbə daxil olması, mühaziräçi, kitabxanaçı, təsərrüfat müdiri kimi məktəb işində iştirak etməsi ciddi qadağan olunurdu. Bundan əlavə, bazar günü məktəblərində oxuyan gənclərin məktəbin işində yaxından fəaliyyət göstərməsinə icazə verilmirdi.[3]

Ümumitəhsil məktəblərində olduğu kimi, bazar günü məktəbləri və axşam kursları gənclər və yaşlıların təhsilə yiyələnməsinə xeyli kömək etmişdir.

Məqalə «Azərbaycan məktəbi» jurnalının 1975-ci il tarixli 1-ci sayında (s. 61–63) çap olunmuşdur.

[1] QTD popeçitelinin sərəncamları, № 12, 1895, səh 1254; «Qafqaz» qəzeti, № 24, 1896-cı il.
[2] Gürc SSR MDA, f. 422, s. 1, № 7212, v. 22 və 50.
[3] Gürc SSR MDA, f. 422, s. 1, iş № 5471, v. 1 və arx.

XIX ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCANDA XALQ MAARİFİ VƏ MƏKTƏB TƏHSİLİNİN BƏ'Zİ MƏSƏLƏLƏRİNƏ DAİR

XIX əsrin birinci yarısında Azərbaycanda xalq maarifi və məktəb təhsili əvvəllər olduğu kimi, yenə də məktəb və mədrəsə ilə bağlı olmuşdur. Bu təhsil ocaqlarının tarixi qədim Şərq mədəniyyəti ilə əlaqədar idi.

Mə'lum olduğu kimi, VII əsrin ortalarında ərəblərin hücumuna mə'ruz qalan Azərbaycanın iqtisadi və mədəni həyatı uzun müddət Şərq ölkələri ilə əlaqədə inkişaf etmişdir. Ərəb dili ərəb xilafətinin tərkibinə daxil olan ölkələrdə, o cümlədən Azərbaycanda geniş yayılmışdı. O vaxtlar müsəlman Şərqində, o cümlədən Azərbaycanda elmi əsərlər, əsasən, ərəb dilində yazılır, ərəb təhsil sistemi işğal edilmiş ölkələrə nüfuz edirdi. Qabaq və Orta Asiya ölkələri ilə Azərbaycan arasında iqtisadiyyat və mədəniyyət sahəsində qarşılıqlı tə'sir güclənir, Azərbaycan mədəniyyəti «müsəlman mədəniyyəti» adı altında çiçəklənmə dövrü keçirən mədəniyyətlə sıx əlaqədə inkişaf edirdi.

XIII əsrin əvvəllərində dünya mədəniyyətinə böyük zərər vuran monqol hücumları digər Şərq ölkələri ilə bərabər Azərbaycanda da bir müddət məktəb təhsilinin inkişafını ləngitdi. Bununla belə Azərbaycan xalqı tarixin bu məşəqqətli dövründə öz mədəniyyətinin, o cümlədən məktəb təhsilinin inkişafını davam etdirirdi. Hətta monqol hücumları dövründə də Azərbaycan, Şərqin ən mühüm mədəni mərkəzlərindən biri olaraq qalmaqda idi. XIII–XIV əsrlərdə məktəb və mədrəsə təhsili genişlənir, Azərbaycan dilinin əhəmiyyəti artır, ərəb və fars dilləri ilə bərabər ana dili də tədris edilirdi.

VII əsrdən başlayaraq XIX əsrə qədər məktəb və mədrəsələr uzun zaman Azərbaycanda yeganə təhsil ocaqları olmuşdur. Bu təhsil ocaqları XIX əsrdə təkcə Azərbaycanda deyil, bütün Rusiya imperiyasına daxil olan müsəlmanlar arasında da geniş yayılmışdı.

Müsəlman məktəbləri tip e'tibarilə iki dərəcəyə bölünürdü. Onlardan biri məktəb, digəri isə mədrəsə adlanırdı.[1]

[1] «Məktəb» və «mədrəsə» ərəb sözləridir. Məktəb–«ketb»–yazmaq sözündən olub yazı yazılan yer deməkdir. Mədrəsə isə «dərs» sözündən olub dərs keçilən yer deməkdir. Lakin bir çox halda xalq arasında hər ikisi məktəb adlanırdı. Bax: Мир Гашимбек Везиров. О татарских школах, СМОМиПК, Тифлис, 1890, вып. 9. с. 1.

Məktəb mahiyyətcə aşağı, mədrəsə isə yuxarı dərəcə hesab edilirdi. Məktəb bir növ mədrəsəyə hazırlıq rolunu oynayırdı. Aşağı dərəcəli məktəblər demək olar ki, Azərbaycanın bütün böyük və ya kiçik kəndlərində mövcud idi.

İstər məktəb, istərsə də mədrəsə əvvələr olduğu kimi, XIX əsrdə də əsasən məscid nəzdində və ondan asılı şəkildə idi. Müəllimlər bir qayda olaraq əsasən mollalardan ibarət idi. Sonralar bə'zi savadlı şəxslər də məktəb açırdı.

Mədrəsə nəzdində olan məktəb isə mədrəsə binasında yerləşirdi. Əksər hallarda məktəblər bir otaqdan ibarət olub, ya mollanın evində, ya da izdihamlı, gur küçələrdə kirayə edilmiş binada yerləşirdi. Məktəb üçün bina seçərkən, molla pedaqoji məqsəddən əlavə, həm də ticarət məqsədini güdürdü. Belə ki, digər qazanc mənbəyi olmayan molla, öz güzəranını keçirmək üçün dərs deməklə bərabər, ticarətlə də məşğul olurdu.[1]

Bir qayda olaraq, məktəb binalarında adi şərait yox idi, otaq işıqlı, təmiz havalı olmurdu. Hifz-səhiyyə tələbləri gözlənilmirdi. Sinif otaqlarını qızdırmaq üçün manqaldan istifadə edilirdi ki, onun da istisindən çox tüstüsü olurdu. Şagirdlər döşəmənin üstündə bə'zən quru yerdə, bə'zən isə özləri ilə bərabər gətirdikləri palaz və ya həsir parçası üzərində dizi üstə divarların yanında və ortalıqda 4–8 nəfərdən ibarət qrup şəklində otururdular. Otağın bir tərəfində ensiz stolun üstündə kitab və digər tədris ləvazimatı qoyulurdu.

Məktəb otaqlarının natəmizliyi bir çox hallarda şagirdlərin xəstələnməsinə səbəb olurdu. Bununla belə bə'zi yerlərdə səliqəli məktəb binaları da var idi. Naxçıvan əyalətinə həsr edilmiş mənbələrdən birində Ordubad şəhərindəki məktəb binası belə təsvir edilir. «Məktəb binası xüsusilə gözəldir: bayır görünüşü dördbucaqlıdır. Bişmiş kərpicdən tikilmişdir. İçərisində dördkünc həyəti, çarhovuzu və suyun axması üçün daşdan düzəldilmiş arx vardır. Aşağı mərtəbədə molla yaşayır və uşaqları oxudur».[2]

Mədrəsə binalarına gəlincə bunlar adətən xeyli böyük olub, iki, bə'zən isə üçmərtəbəli daş binadan ibarət idi. Belə binalar xüsusilə Rusiyanın şərqində yaşayan müsəlman vilayətlərində (Orenburq, Ufa, Qazan və s.) daha çox idi.

[1] Bax: А. Захаров. Народное обучение у Закафказских татар. СМОМиПК, Тифлис, 1890, вып. 9, с. 7.

[2] Bax: Статистическое описание Нахичиванской провинции, сост. В. Г., СПб, 1833, 194.

Mədrəsəni məktəbdən ayıran bir fərq də mədrəsədə pansion və yataqxananın olması idi. Otaqlarının sayı xeyli olan bu binalar şagirdlərin həm məşğələ keçməsinə, həm də yaşamasına (yatacaq, yeməkxana, mətbəx və s.) xidmət edirdi. Göstərilən yerlərdəki mədrəsə binaları yaxşı qızdırılırdı, hətta bə'zilərində buxar qızdırıcısı var idi.

Əldə olan sənədlərə əsaslanaraq deyə bilərik ki, Rusiyadakı bütün müsəlman vilayətlərində, o cümlədən Qafqazda və Azərbaycanda mövcud olan məktəblərin daxili qaydaları təxminən eyni idi.

Məktəblərdə dərs ilinin başlanması və qurtarmasının müəyyən vaxtı yox idi. Məktəbə qəbul il ərzində davam edirdi. Məktəblərdə dərs cədvəli tədbiq edilmirdi. Məktəblərin hamısında şagirdlər, bir qayda olaraq, səhər saat 7–8-də məktəbə toplanır və gündüz saat 2-yə, 3-ə qədər oxuyurdular. Təxminən, günorta saat 12-də 1 saatlıq tənəffüs verilirdi. Bir çox hallarda ən kiçik şagirdlər saat 12-də evə buraxılırdı.

Məktəblərdə cümə—istirahət günü idi. Cümə axşamı təkrara həsr edilirdi. Ayrı-ayrı məktəblərdə şagirdlərin sayı 10 nəfərdən 100 nəfərə çatırdı. Şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmırdı. Ona görə də şagirdlər yaş e'tibarilə müxtəlif olurdular: məktəbdə 7–8 yaşdan 16 yaşa qədər, mədrəsədə isə 15–16 yaşdan 30-a qədər və daha artıq yaşı olanlar oxuyurdu.[1]

Köhnə üsullu məktəblərdə bir çox hallarda 7 yaşlı uşaqla birlikdə 15–16 yaşlı gənclər, mədrəsələrdə isə 15–16 yaşlı gənclərlə birlikdə 25–30 yaşlılar da oxuyurdu.

Şagirdlər yaş və bilik xüsusiyyətlərinə görə sinif və ya qrupa bölünmürdü. Məktəbdə müəyyən edilmiş təhsil müddəti yox idi. Təhsil müddəti hər bir şagirdin şəxsi müvəffəqiyyətindən, bacarıq və iste'dadından asılı idi. Şagird çalışardısa, məktəb tə'limini 6–8 ilə başa vura bilərdi.

Zəhmətkeşlərin uşaqları təhsil haqqını ödəyə bilmədiklərindən və kiçik yaşlarından işləməyə məcbur olduqlarından məktəbi yarımçıq tərk etməli olurdular.

Məktəb və mədrəsələrin müəyyən edilmiş nizamnaməsi yox idi. Ona görə də məktəb və mədrəsələrin nə quruluşu, nə fəaliyyəti və nə də onu tə 'sis edənlər üzərində heç bir faktik nəzarət olmadığı kimi,

[1] LMDTA, f. 821, s. 150, iş № 420, v. 5.

müəyyən edilmiş tə'lim kursu da yox idi. Məktəb və mədrəsələrin tədris planı və proqramı məktəbi tə'sis edənlərin və ya ona rəhbərlik edən şəxslərin mülahizəsindən asılı idi.

Məktəblərdə müəllimlərin əksəriyyətinin ruhani şəxslər olmasına baxmayaraq, tə'lim duasız başlanırdı. Dərsin əvvəlində yalnız allahın adı çəkilirdi.

Tə'lim fərdi xarakter daşıyırdı. Şagirdlərin hər birinə gündəlik fərdi tapşırıq verilirdi. Şagirdlər bir-bir mollanın yanına gələrək yeni dərs alır və ya köhnə dərsi oxuyurdu. Yeni dərs belə verilirdi: molla mətni oxuyur və sözləri ayrı-ayrılıqda tərcümə edirdi. Şagird də bunu olduğu kimi təkrar etməli idi. Şagirdin səhvləri cəza ilə nəticələnirdi. Hər bir şagird müəllim tərəfindən verilən dərsi ucadan oxuyurdu. Məktəbdə uğultu, səs-küy hökm sürürdü.

Məktəblərdə dərs deyən müəllimlərə «molla», «mirzə», «əfəndi» və yaxud «axund» deyərdilər. Bu adların böyük ictimai mə'nası var idi. Molla və ya mirzə adətən savadlı adamlara deyərdilər. Əhali savadlı mollalara böyük e'timad edirdi. Əhali çox vaxt məktub, ərizə yazdırmaq, müqavilələr tərtib etdirməkdən ötəri mollalara müraciət edir, onları öz çəkişmə və mübahisələri zamanı münsif seçir, polis və məhkəmədən əvvəl mollaya müraciət edirdi.

Cəmiyyət gənc nəslin tə'lim və tərbiyəsi işini mollaya e'tibar edirdi. Molla sözün tam mə'nasında uşaqların tərbiyəçisi, mə'nəvi atası idi. Ata oğlunu məktəbə qoyarkən «Əti sənin, sümüyü mənim» deyir və bununla də uşağın tə'lim və tərbiyəsini bütünlüklə onun öhdəsinə buraxırdı.

Köhnə üsullu məktəbin müəllimləri bir çox halda adi mollalardan ibarət idi (Əgər mollanın rəhbərliyi altında mədrəsə yox idisə). Məktəb mədrəsə nəzdində, onunla bir yerdə olduqda isə, məktəbdə tədris işi mollanın köməkçisinə tapşırılırdı ki, bunlara müəllim deyilirdi. Müəllim mollanın nəzarəti altında tədris işi ilə məşğul olurdu. Şagirdlərin sayı 30-a çatardısa, müəllim özünə köməkçi tuturdu. Köməkçiyə «xəlfə» deyilirdi. Xəlfə məktəbi bitirmiş şagirdlərdən ola bilərdi. Xəlfəyə müəllim tərəfindən həftədə 30 qəpikdən bir manatadək əmək haqqı verilirdi. Az şagirdli məktəblərdə xəlfə vəzifəsi tə'limə yeni başlayan şagirdlərdən birinə tapşırılırdı. Xəlfənin vəzifəsi tə'limə yeni başlayan şagirdlərlə məşğul

olmaq, intizama nəzarət etmək və müəllim olmadıqda onu əvəz etməkdən ibarət idi.[1]

Məktəblərdə təhsil pullu idi. Lakin müəyyən edilmiş vahid təhsil haqqı yox idi. Adətən, hər şagirddən orta hesabla həftədə 5 qəpikdən 20–25 qəpiyədək təhsil haqqı alınırdı. Bu səbəbdən də müəllim (molla) müəyyyən edilmiş əmək haqqı almır, yalnız valideynlər tərəfindən könüllü olaraq pul və ya ərzaq şəklində verilən hədiyyələrlə kifayətlənirdi. Beləliklə, məktəb sahiblərinin gəlirinin miqdarı, başqa sözlə, əmək haqqı şagirdlərin sayından və onların ailə vəziyyətindən asılı idi. Şagird «Qur'an»ı oxuyub başa çıxdıqda, bayramlarda, xüsusilə də qurban bayramında valideyn tərəfindən mollaya hədiyyə verilirdi.

Məktəblərdə bütün Şərq məktəblərinə xas olan fiziki cəza hökm sürürdü. Ən e'tibarlı pedaqoji tə'sir vasitəsi falaqqa sayılırdı. Bu, uclarına qayış bağlanmış davamlı uzun ağacdan ibarət idi. Dərsinə cavab verə bilməyən şagirdin ayaqları falaqqanın qayışına bağlanır, ayaqlarının altı çubuqlarla döyülürdü.

Bir çox valideyn mollanın zərbələrindən qışqıran uşağının səsindən zövq alırdı. Valideyn bu cəzanı mollanın uşağın əqli və əxlaqi inkişafının qayğısına qalması kimi qəbul edirdi. Hətta bə'zi valideynlər belə müəllimlərin işini qiymətləndirirdi. Şagirdlər isə belə cahil mollanın simasında cəlladı xatırlayırdı.[2]

Məktəb və mədrsələrdə tədris, bir qayda olaraq, ərəb və fars dillərində aparılırdı. XI əsrə qədər ərəb dili İslam dininin və Bağdad xəlifələrinin hökmranlıq etdiyi Şərq ölkələrində, o cümlədən Azərbaycanda hakim mövqe tuturdu. XI əsrdən isə Bağdad xəlifələrinin zəifləməsi və səlcuq hökmranlığının meydana gəlməsi ilə fars dili həm rəsmi, həm də əsas ədəbi dil hesab edilirdi.[3] Fars dili yaxın Şərq ölkələrinin bir çoxunda olduğu kimi Azərbaycanda da ərəb dilini sıxışdırır və məktəblərə daxil olurdu.

Fars və ərəb dillərinin tədris edilməsi köhnə məktəblərin əsas xüsusiyyətlərindən biri idi. O dövrdə Azərbaycan ədəbiyyatı, mədəniyyəti ərəb və fars dilləri ilə əlaqədar idi. Bundan başqa ərəb və fars dili yazılı ədəbiyyat dili, şe'r dili, ədəbi dil, Şərq xalqlarının bir-birilə ünsiyyət dili idi.

---

[1] Bax: А. Захаров. Народное образование у Закавказских татар. СМОМиПК. Тифлис, 1890, вып. 9, 28.

[2] Bax: Мир Гашимбек Везиров. О татарских школах, СМОМиПК, Тифлис, 1890, вып. 9, с. 3.

[3] Е. Бертелс. Великий Азербайджанский поэт Низами, Баку, 1940, с. 16.

Məktəblərdə tə'lim hərf-heca üsulu idə tərtib edilmiş «Çərəkə» adlanan dərsliyin (orta əsr ərəb əlifbasının) oxunması ilə başlanırdı. Əvvəlcə ərəb əlifbasının hərfləri öyrədilir, sonra isə hərflərin düzülüş sistemi üzrə hərflərdən hecalar düzəldilirdi. Məsələn, a — əlif, b — bey — əlifbey və s. Bundan sonra «Qur'an»ın mexaniki surətdə öyrənilməsi başlanırdı. Sonralar isə şagirdlərə yenə də mexaniki olaraq, oxuduğunu başa düşmədən, ərəb dilində digər dini kitablar, dualar və s. əzbərlədilirdi.

Şagirdlər ərəb əlifbasının hərflərini kifayət qədər mənimsədikdən və oxu vərdişi qazandıqdan sonra, «Qur'an»ı oxumaq üçün müəyyən edilmiş xüsusi qaydaları (təcvid) gözləməklə onu oxumaq bacarığı əldə edirdilər.

İstər əlifbanın öyrənilməsi, istərsə də «Qur'an»ın oxunması şagirdlərin bir neçə illik gərgin əməyi hesabına başa gəlirdi.

Yalnız bundan sonra bə'zi məktəblərdə ana dilində oxu tə'liminə başlanılırdı ki, bu, artıq şagird üçün o qədər də çətinlik törətmirdi. Çünki Azərbaycanda əsrlər boyu ərəb əlifbası işlədilmiş, Azərbaycan sözlərini yazmaq üçün də ondan istifadə edilmişdir.

Təhsilin sonrakı mərhələsi kitabların oxunması və məktub yazmağın öyrənilməsi ilə əlaqədar idi. Məktəblərdə yazı taxtası olmadığından şagirdlər yazı nümunələrini kitabdan köçürür və ya mollanın xüsusi vərəqdə yazdığı yazıdan köçürmək yolu ilə öyrənirdilər.

Azərbaycanda çap yazı nümunələri yox idi. Şagirdə yazmağı öyrətmək üçün müəllim hər şagird üçün ayrıca hüsnxət nümunəsi yazırdı. Hər bir müəllim—molla gözəl xəttə malik olmalı idi. Müəllimin xətti gözəl olduqda, bu həm də onun üçün reklam rolu oynayırdı, belə müəllimin şagirdi də həmişə çox olurdu. Məktəblərdə qamışdan düzəldilmiş qələmdən istifadə edilirdi.

Mir Həşimbəy Vəzirovun yazdığına görə məktəblərdə imla–yazı ümumiyyətlə yazılmırdı. Yalnız nəql etmə yazısı mövcud idi. Adətən, müəllimin ana dilində nəqlini şagird fars dilində şərh etməli idi. Belə çalışmalar, adətən, məktub forması xarakteri daşıyırdı.

Bə'zi məktəblərdə yazı tə'limində şagirdlər yarışmalı idilər. Tez və səliqəli yazan şagird geridə qalanın əlini çubuq ilə döymək hüququ qazanırdı.

Şagirdin yazı yazmaq vərdişi əldə etməsi valideynin böyük sevincinə səbəb olurdu. Valideynin nəzərində yazı yazmağı bacarmaq

şagirdin tə'limdə məqsədinə nail olması kimi qiymətləndirilirdi. Oxu və yazı tə'limindən sonra böyük yaşlı şagirdlər dəstəmaz və namaz qaydalarını mənimsəməyə, həmçinin dini-əxlaqi xarakterli müxtəlif kitabları oxumağa başlayırdılar.

İlk növbədə öyrədilən kitablardan biri kiçik həcmli Farsca-azərbaycanca lüğəti idi ki, şagird gün ərzində bu lüğətdən ona qədər fars sözünü öyrənməli və onu ana dilinə tərcümə etməli idi. Bu lüğət şiə məktəblərində məcburi vəsait hesab olunurdu; sünni məktəblərində isə şagirdlərə oxumaq üçün nəzmlə yazılan xırda hekayələr toplanmış və dini əfsanələrə həsr olunmuş məcmuələr (Azərbaycan, bə'zi hallarda isə türk dillərində) verilirdi.

Lüğəti mənimsədikdən sonra şagirdlər fars dilinin öyrənilməsini davam etdirirdilər. Bu isə kitabların sətri tərcüməsi vasitəsi ilə tədris olunurdu. İstifadə olunan kitablar sırasında Azərbaycan və Şərq ədəbiyyatı klassiklərinin—Nizami, Füzuli, Hafiz, Sə'di və başqalarının əsərləri vardı. Məktəb təhsilində Sə'dinin əsərləri xüsusi yer tuturdu. «İranın və bütün Şərqin moralist şairi, nəzm aləminin soltanlarından olan» (F. Köçərli) Sə'dinin məşhur «Gülüstan» və «Bustan» əsərləri məktəblərdə əsas tədris vəsaitlərindən idi. Bu əsərlər böyük hikmətinə, dərin məzmununa baxmayaraq, kiçik yaşlı məktəblilərin yaş və bilik dərəcəsinə uyğun gəlmirdi. Xalq arasında geniş yayılmış «Sə'dini 7 yaşda oxuyan, onu 70 yaşında anlar» ifadəsi də fikrimizi təsdiq edir.

Məktəblərdə Şərq şairlərinin şe'rlərinin əzbərlənməsinə ayrıca fikir verilirdi. Bu sahədə şagirdlərin yarışları, şe'rləşməsi təşkil edilirdi. Belə məktəblərdə təhsil alanlar uşaq ikən əzbərlədikləri bir çox şe'rləri qocaldıqda da unutmur və şe'ri öz ahəngi ilə söyləməkdən həzz alırdılar. Şərq şagirdlərini və zəngin Şərq ədəbiyyatını bilmək təhsilin məzmununda əsas yeri tuturdu.

Məktəblərdə həmçinin Molla Məmmədbağır tərəfindən toplanan şəriət məcəlləsi (Müsəlman qanunşünaslığı), Nadir şah səfərlərinin tarixi («Tarixi-Nadir»), şe'rlə yazılmış ərəb-fars lüğəti, fars dilində məktub nümunələri məcmuəsi və s. öyrədilirdi. Məktəblərdə istifadə olunan mətnlərin çoxu həyatdan uzaq olub dini sxolastika və romantik-məhəbbət təəssüratları ilə dolu idi. Şagirdlərə yazı-pozu öyrədilməsi, onlara hesab kitablarını, ticarəti və s. aparmaq vərdişlərini mənimsətməkdən irəli gəlirdi.

Orta qabiliyyətli şagirdlər məktəbdə 3-6 il təhsil aldıqdan sonra ərəb dilində (mexaniki) və ana dilində oxumaq, bu dillərdə yazı yazmaq, namaz və dəstəmaz zamanı tələb edilən duaları əzbərdən demək bacarığı ilə məktəbi bitirirdilər.

Beləliklə, köhnə üsullu məktəbin əsas vəzifəsi, şagirdlərə, hər şeydən əvvəl, hər bir mö'min müsəlmana zəruri olan dini mə'lumatları, ilk növbədə isə evdə dua oxumaq, məscidə getmək vəzifəsini öyrətməkdən, müsəlmanların digər xalqlardan və millətlərdən ayrılığını müdafiə etməkdən ibarət idi.

Məhz bunların nəticəsi idi ki, bu məktəblər şagirdləri praktik həyata hazırlamaqda o qədər də təcrübi əhəmiyyətə malik deyildi. Bu məktəbdə oxuyanların böyük əksəriyyəti oranı bitirdikdən sonra yenə də valideynlərinin adi məşğuliyyətinə qayıdır, çox keçmədən məktəbdə mənimsədiyi səthi bilik və bacarığı unudurdu. Yalnız elmə həvəsi olanların çoz az hissəsi, müstəqil və yaxud da bilikli şəxslərin yanında xüsusi dərs almaq yolu ilə öz biliyini artırırdı.

Məktəbi bitirənlərin bir hissəsi təhsilini davam etdirmək üçün mədrəsələrə daxil olurdular.

Mədrəsə adı altında ali müsəlman məktəbi nəzərdə tutulurdu. Məktəblər xüsusi təhsil müəssisəsi sayılmaqla məscidlərin nəzdində təşkil olunurdu.

Mədrəsələrdə təhsil pulsuz idi. Şərq ölkələrində olduğu kimi Azərbaycanda da bu və ya digər mədrəsə açmaq, körpü tikmək, məscid binası tikmək savab iş hesab edilirdi. Bu cəhətdən mövcud mədrəsələr şəxsi adamların vəsaiti ilə tə'sis edilirdi və ona görə də dövlət ona nəinki heç bir maddi kömək göstərmir, hətta bunlara e'tinasız qalırdı. Mədrəsə onu açan şəxsin adını daşıyır və onun vəsaiti ilə idarə olunurdu. Mədrəsə açan şəxs öz ixtiyarında olan torpaq sahəsi, kənd, hamam, dükan, əmlakının müəyyən gəlirini həmişəlik olaraq mədrəsənin saxlanmasına sərf edilməsini vəsiyyət edirdi. Vəsiyyət edilmiş əmlaka «vəqf» deyilirdi. Təsdiq edilmiş «vəqfnamə»də vəsiyyət edilmiş əmlakın illik gəlirinin bölüşdürülməsi, əmlakın vəqf müddəti, onun miqdarı və onu idarə edən şəxsin tə'yini və s. ətraflı göstərilirdi. Vəqf əmlakını idarə edən şəxs «mütəvəlli» adlanırdı, «Vəqfnamə»yə görə mütəvəlli çox zaman vəsiyyət edən şəxsin qohumlarından tə'yin edilir və bu hüquq irsən nəsildən-nəslə keçirdi. Bu ona görə idi ki, vəqf əmlakından olan gəlirin müəyyən

hissəsi (1/15,1/10 və ya 1/8) mütəvəlliyə çatırdı. Çox vaxt vəqf sahibi bu vəzifəyə özü tə'yin edilir, bə'zən isə ancaq xeyirxah adamların tə'yin edilməsini arzu edirdi.

Vəqf əmlakından əldə edilən mədaxil mədrəsə tələbələri arasında bərabər surətdə bölünürdü ki, bu təqaüd adlanırdı. Bə'zi mədrəsələrdə tələbələrə təqaüd aylıq, bə'zən isə ildə bir və ya iki dəfə verilirdi. Çox vaxt təqaüd məhsul şəklində olurdu. Mədrəsədə oxuyanlara tələbə deyilirdi ki, bu da ərəb dilində bilik axtaran deməkdir.[1]

Tələbələr mədrəsə binasında, onlar üçün ayrılmış hücrələrdə yaşayırdılar. Hücrələrdən ən böyüyü dərsxana—sinif otağı adlanırdı. Mədrəsəyə adətən, 16-dan çox yaşı olan, ana dili və fars dilində savada malik və ruhani rütbəsi almağa hazırlaşan gənclər daxil olurdular. Mədrəsələrdə şagirdlərin sayı 40–50 nəfər olurdu. Daha böyük mədrəsədə 100–200 nəfər təhsil alırdı. Şərqdə ən böyük mədrəsə Nəcəf mədrəsəsi idi ki, burada 7.000 tələbə var idi. Mədrəsə müəllimi müdərris adlanırdı.

Mədrəsəni məktəbdən fərqləndirən bir cəhət də bu idi ki, mədrəsənin bütün müdərrisləri və ya onların əksəriyyəti həmin mədrəsə binasında yaşayırdı.

XIX əsrdə Azərbaycandakı mədrəsə müdirləri əsasən Tiflis ali ruhani idarəsində imtahan verərək müdərris adına layiq bilinən yerli mollalar və ya Şərq ölkələrində (İran, Türkiyə və s.) dini təhsil almış şəxslər idi. Mədrəsə müdirinin müavini var idi ki, ona xəlfə deyilirdi.

Müdərris və xəlfələrin biliyinin həcmi və mə'nəvi e'tibarı onların özlərindən asılı idi. Müdərrislər dedikləri dərs üçün əmək haqqı almırdılar. Tələbələr bilik səviyyəsinə görə bir neçə qrupa bölünürdü. Yuxarı qruplarda müdərris, aşağı qruplarda isə yuxarı qrupların tələbələri (softiləri) dərs keçirdi.

Mədrəsə tə'liminin mahiyyəti, əsasən, ərəb dilindən, müsəlman ilahiyyatı və hüquqşünaslığından ibarət idi.[2]

Mədrəsə təhsilinin məzmununa, hər şeydən əvvəl, ərəb dilinin öyrənilməsi daxil idi ki, buna üç ildən beş ilə qədər vaxt sərf edilirdi. Ərəb dili qrammatika qaydaları ədəbi nümunlər əsasında dərindən öyrədilirdi.

[1] Bax: Рагим Халилов. Мектеби и медресе гор. Мешхеда. СМОМиПК, Тифлис, 1900, вып. 27, с. 108.
[2] Bax: LMDTA, f. 821, s. 150, iş № 420, v. 12.

Ərəb dili ilə bərabər müsəlmanların müqəddəs kitabı olan «Qur'an»ın, şəriət və hədisin öyrədilməsi, həmçinin müsəlman ilahiyyatı və qanunşünaslığına aid kitabların oxunması geniş yer tuturdu. Buraya ilahiyyat fənlərindən—dini əxlaq haqqında tə'lim («müsəlman yolu»), «Qur'an»ı təfsir etmək, peyğəmbərlərin tarixini izah etmək və s. daxil idi.

Hüquqşünaslığa gəlincə, buraya müsəlman qanunşünaslığının mənbələrinə dair traktatlar, şəriətin hissələri (mollalıq vəzifəsinə göndərilərkən təcrübi rəhbərlik üçün), ölən şəxsdən sonra onun mirasını bölmək qaydalarına aid şəriət qanunları, kəbin və boşanma hüquqları və s. daxil idi.

Göstərilənlərdən əlavə, bir sıra mədrəsələrin tədris planına həmçinin dialektika, məntiq və psixologiya da əlavə edilmişdi. Bunlar qədim yunan fəlsəfəsinin kəsikqırıqları olub, Vizantiyadan götürülmüş və «Qur'an» tə'limi ilə uzlaşdırılma xatirinə xeyli təhrif edilmişdi.

Mədrsələrdə həmçinin tarix, coğrafiya, hesab və həndəsədən nümunələr keçilirdi. Tarix fənni ancaq müsəlman dövlətlərinin tarixini və din tarxini, coğrafiya isə çox qədim Əhdi-ətiqi (bibliyanın xristianlıqdan əvvəlki qədim hissəsini) — yerin günəş ətrafında deyil, günəşin yer ətrafında dolanmasını öyrədirdi.[1] Rusiyanın digər müsəlman vilayətlərində olduğu kimi, Azərbaycanda mövcud olan mədrəsələrdə də rus dili tədris edilmirdi.

On il və daha çox mədrəsə tə'limi görən şagirdin beyni şəriət qanunları ilə elə doldurulurdu ki, o, mədrəsəni bitirərkən çox vaxt din və şəriət çərçivəsindən kənara çıxa bilmirdi.

Bunlarla bərabər bə'zi mədrəsələrdə tələbənin gələcək fəaliyyəti dairəsində lazım olan az-çox real elmlər, o cümlədən elm–xülasə və elm–riyaziyyat (riyaziyyat), cəbr-mükabilə (cəbr), elm–həndəsə (həndəsə) də tədris edilirdi. Riyaziyyat elmi şiələrin ən görkəmli riyaziyyatçı, Şah Abbasın müasirlərindən olan Şeyx Bahəddinin kitabları üzrə keçilirdi.

Mədrəsələrdə mübahisələrə geniş yer verilirdi. Tələbələr arasında baş verən mübahisələrə müdərrislər başçılıq edirdi. Müdərrisin fikri bütün hallarda rəhbər tutulurdu. Bə'zən

[1] Bax: LMDTA, f. 821, s. 150, iş 420, v. 14.

mübahisələrdən razı qalmayan tələbələr təhsil e'tibarilə daha yuxarıda duran müctəhidlərə müraciət edirdilər.

Mədrəsədə tə'limin tam kursunun dəqiq müddəti yox idi. Tə'limin müddəti hər bir şagirdin fərdi müvəffəqiyyətindən asılı idi. Şagirdlər mədrəsədə o vaxta qədər yaşayır və oxuyurdular ki, ya müdərris onların biliyini kifayət hesab edir, yaxud da tələbə özü öz biliyinin kifayət olduğunu yə'qin edirdi. Başqa sözlə dəsək, 6–8 il, bə'zən 10–15 il mədrəsədə yaşayıb təhsil alan tələbə müsəlman elmlərinin tam kursunu mənimsəməsini müdərrisin və ya özünün kifayət hesab etməsinə qədər təhsili davam etdirirdi.

Mədrəsələrdə istifadə edilən tədris vəsaiti baha olmaqla bərabər, həm də çətin tapılırdı. Bə'zən bir-iki nüsxə dərslik bütün mədrəsə tələbələrinə xidmət edirdi.

Həftənin beş günü mədrəsələrdə tədris günü hesab edilirdi, cümə axşamı və cümə istirahət günü idi. Orucluq və məhərrəmliyin ilk günləri, novruz bayramı günləri dərs keçilmirdi. İyunun ikinci yarısından avqustun əvvələrinədək yay tə'tili verilirdi.

Mədrəsələr iki növə – ibtidai və ali dərəcələrə bölünürdü. Ali müsəlman mədrəsələri Rusiyanın xaricində yerləşirdi. Zaqafqaziyanın ali mədrəsələrdə təhsil almaq istəyən tələbələri (softiləri), adətən bu mədrəsələrin yerləşdiyi Tehran, Nəcəf, Təbriz, Kərbəla və başqa yerlərə gedirdilər.

Məqalə V.İ. Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun «Elmi Əsərləri»nin (pedaqoji-psixoloji elmlər seriyası) 1976-cı il tarixli 5-ci sayında (səh. 13–21) çap olunmuşdur.

KƏNDDƏ DÜNYƏVİ MƏKTƏBLƏRİN MÜJDƏÇİSİ

Respublikamızın xalq maarifi özünün təntənəli günlərini keçirir. Respublikamızın 3 kənd məktəbinin—Cəlilabad rayonundakı Privolnı, Cəbrayıl rayonundakı M.Qorki adına 1 nömrəli və Qazax rayonundakı Yuxarı Salahlı kənd məktəblərinin 100 illik yubileyini keçirmək qərara alınmışdır.

Azərbaycan SSR Maarif Nazirliyinin kollegiyası həmin məktəblərin yubileyini mütəşəkkil keçirmək üçün bir sıra tədbirlər həyata keçirmişdir. Cəlilabad, Cəbrayıl və Qazax rayon təşkilatları, maarif şö'bələri, həmin məktəblərin pedaqoji kollektivləri bu məktəblərin 100 illik yubileyini təntənə ilə qeyd edirlər. Bu təkcə göstərilən kəndlərin deyil, bütöv Azərbaycan kənd məktəblərinin bayramıdır.

XIX əsrin ortalarında Rusiyada başlayan və Azərbaycana nüfuz edən ictimai-pedaqoji hərəkat, Azərbaycan — rus mütərəqqi elmi, ədəbi və pedaqoji əlaqələri, yerli əhalinin qabaqcıl nümayəndələrinin hissəsinin rus dilində təhsil almağa meyli kənd yerlərində də dünyəvi məktəblərin təşkilinə əlverişli zəmin yaratdı. Beləliklə, XIX əsrin 60-cı illərindən başlayaraq Azərbaycan kəndlərində rus dilində dünyəvi təhsil verən məktəblər yaranıb inkişaf etməyə başladı.

Moskva, Leninqrad, Tbilisi, Bakı və Yerevan şəhərlərindəki dövlət arxivlərində saxlanılan müvafiq sənədlərdən və o dövrün mətbuatından öyrənirik ki, Azərbaycan ərazisində ilk kənd məktəbləri 1857-ci ildə keçmiş Bakı quberniyası Lənkəran qəzasının I Andreyevka ilə I Astraxanka indiki kəndində, 1860-cı ildə Nikolayevka ilə Prişib kəndində və Şamaxı qəzasının Xılmıllı kəndində meydana gəlmişdir. Sonralar məşhur pedaqoq A.O.Çernyayevski tərəfindən 1866-cı ildə Mərəzədə kənd məktəbinin əsası qoyulmuşdur.

Yelizavetpol quberniyasının azərbaycanlı kəndlərində isə təhsilin rus dilində verildiyi dünyəvi məktəblərin təşkilindən 100 il keçir. Belə məktəblərdən biri ilk dəfə indiki Qazax rayonunun Yuxarı Salahlı və Dağkəsəmən kəndlərində, üçüncüsü isə Cəbrayılda təşkil edilmişdir.

Qabaqcıl rus ictimai mühiti, rus dili və ümumiyyətlə, rus mədəniyyəti ilə yaxından tanışlıq Azərbaycanda rus məktəbləri nümunəsində yeni məktəblərin meydana gəlməsinə təkan verdi. O vaxtlar «rus—Azərbaycan» məktəbi adlanan belə məktəblərdən biri ilk dəfə 1875-ci ildə Gəncə quberniyası Qazax qəzasının Yuxarı

Salahlı kəndində təşkil edildi. Bu məktəb milliyyətcə tatar olan Kazan sakini Tauxiddin Mamleyev adlı bir nəfər tərəfindən açıldı. T.Mamleyev 1870-ci illərdə nə münasibətləsə Tiflisə gəlmiş və 1872-ci il oktyabrın 28-də Qafqaz Tədris Dairəsinin popeçiteli Y.M.Neverevə müraciət edərək, Zaqafqaziyadakı müsəlman kəndlərindən birində xüsusi məktəb açmağa icazə istəmişdir.

Rəsmi sənədlərdən onun Orenburq Hərbi ibtidai məktəbində təhsil aldığı mə'lum olur.[1] Lakin müəllimlik şəhadətnaməsi olmadığından o, 1872-ci ilin noyabrında Tiflisdə imtahan vermək və sınaq dərsləri keçmək yolu ilə kənd məhəlli məktəbi və ibtidai xalq məktəbi müəllimi adı və müvafiq şəhadətnamə alır[2]. O, məktəb açmaq üçün Yuxarı Salahlı kəndini seçir. Fikrimizcə, bu yerin seçilməsi bir tərəfdən, Yuxarı Salahlının Tiflis ictimai mühitinə yaxınlığı və əhalinin rus dilində təhsil almaq tələbi və marağı ilə əlaqədar idi. Digər tərəfdən hələ keçən əsrin 20-ci illərindən Qazax distansiyasında məktəb açmaq təklif edilirdi. Lakin müxtəlif səbəblərdən burada məktəb açmaq baş tutmamışdı. Bütün bunlar Qazax qəzasının Yuxarı Salahlı kəndini seçməyə əsas verdi. T.Mamleyev tərəfindən tərtib edilmiş əsasnaməyə görə məktəbin məqsədi rus dilini öyrətmək və ibtidai savad verməkdən ibarət idi. Təhsil pullu idi. İldə hər şagirddən 18 manat təhsil haqqı alınırdı. Müəllimin mülahizəsi ilə kasıb valideynlərin uşaqları, mütləq kəndlilərdən olmaq şərti ilə təhsil haqqından azad edilə bilərdi. T.Mamleyevin bu təşəbbüsü yerli əhali tərəfindən rəğbətlə qarşılandı. Məktəbin tə'sis olunması üçün dövlət tərəfindən də 300 manat vəsait ayrıldı.

Beləliklə, 1875-ci il yanvarın 2-də Yuxarı Salahlı kəndində yaxın kənd camaatının iştirakı ilə dünyəvi təhsil verən ilk məktəb açıldı. İlk dəfə məktəbə 23 şagird cəlb edildi ki, onlardan 3-ü təhsil haqqından azad idi.

Yuxarı Salahlı kənd məktəbinin açılmasını xəbər verən bir sənəddə deyilir: «1875-ci il yanvarın 2-də Yelizavetpol quberniyası Qazax qəzasının Yuxarı Salahlı kəndində kənd müəllimi Tauxiddin Mamleyev tərəfindən ibtidai «rus-müsəlman» məktəbi açıldı. Yanvarın 6-da məktəbdə 27 şagird var idi ki, bunlardan 4-ü pulsuz qəbul edilmişdi».[3]

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 470, v. 3.
[2] Yenə orada.
[3] Qafqaz Təhsil Dairəsinin sərəncamları, Tiflis, 1875 № 1, s. 8.

Məktəb dövlət binasında yerləşirdi. Qazax sahə müvəkkili üçün tikilmiş bu bina boş olduğundan məktəbə verilmişdi. Ətraf kəndlərdən gələn şagirdlər üçün məktəbin nəzdində pansion var idi. Dərs ili sentyabrın 1-də, əhali yaylaqdan qayıtdıqdan sonra başlayır, mayın 1-də əhali əhali yaylağa köçən vaxt isə qurtarırdı. Məktəbin tədris planına Azərbaycan və rus dillərində oxu, yazı, hesab, rəsmxət, təcrübi qrammatika (orfoqrafiya) və gimnastika daxil idi.

Yuxarı Salahlı kənd məktəbi Azərbaycan kəndində meydana gələn ilk «rus-Azərbaycan» məktəbi idi. Məktəbdə rus dili və digər fənlər T.Mamleyevin özü tərəfindən, Azərbaycan dili isə kəndin savadlı və hörmətli sakini olan Abdulla ağa Əfəndiyev tərəfindən tədris edilirdi. Hər ilin sonunda T.Mamleyevin xahişi ilə şagirdlərin imtahanında iştirak etmək və tə'limin düzgün qoyuluşunu müəyyənləşdirmək üçün Tiflisdən xüsusi metodist də'vət edilirdi. Qafqaz Təhsil Dairəsinin (QTD) inspektoru, məşhur pedaqoq və metodist Jelixovski 1875-ci ilin yazında bu məktəbə gələrək şagirdlərin imtahanında iştirak etmiş və çox razı qalmışdır.

Məktəb qısa müddət ərzində böyük şöhrət qazandı. O vaxt Qafqazda olan 28 ibtidai məktəb içərisində Salahlı kənd «rus–Azərbaycan» məktəbi ən nümunəvi məktəb idi. Bunu e'tiraf edən Qafqaz Tədris Dairəsinin popeçiteli yazırdı ki, cəmi Qafqaz ibtidai məktəbləri içərisində «yerli müsəlman əhalisi tərəfindən böyük rəğbətlə qarşılanan Salahlı «rus–Azərbaycan» məktəbi daha çox sevindirici hadisədir».

1877-ci ildə bu məktəb Gəncə və İrəvan quberniyaları xalq məktəbləri direksiyasının tabeliyinə keçdi. Təhsil haqqı ləğv edildi, məktəbin xərci zemstvo vəsaitindən ödənildi və məktəb birsinifli normal kənd məktəbi adlandırıldı. 1878-ci ildə burada 30 nəfər şagird oxuyurdu.

Yuxarı Salahlı kənd məktəbi Azərbaycanda «rus—Azərbaycan» məktəbinin sonrakı inkişafında elə bir iz buraxmadı. Bununla belə Zaqafqaziya müsəlmanları içərisində rus təhsilini və ibtidai savadı yayan yeganə məktəb olan və azərbaycanlıların böyük hüsn–rəğbətini qazanın Yuxarı Salahlı «rus–Azərbaycan» məktəbi digər quberniyalardan əvvəl, məhz Gəncə quberniyasının bir sıra kəndlərində də yeni tipli məktəblərin tə'sis edilməsinə əlverişli zəmin yaratdı.

QTD-nin popeçiteli 1875-ci ilə aid hesabatında Qafqaz canişininə yazırdı: «Salahlı kənd məktəbinin müvəffəqiyyəti normal kənd məktəblərini ilk əvvəl Yelizavetpol quberniyasında açmağa əsas

verir». Həqiqətən də, cəmi Qafqazda müsəlman vilayətləri içərisində dövlət tərəfindən rus dilində açılan kənd məktəbləri ilk dəfə Gəncə quberniyasının Dağkəsəmən, Gorus və Cəbrayıl kəndlərində meydana gəldi. Bu məktəblərin tə'sisində Yuxarı Salahlı məktəbinin müvəffəqiyyətinin böyük tə'siri oldu.

Hökumətin xalq maarifinə e'tinasız münasibətinə baxmayaraq, yerli əhali Yuxarı Salahlı məktəbinə böyük hüsn-rəğbət bəsləyir, onun inkişafına hər vasitə ilə kömək edir, kəndin qabaqcıl adamları məktəbi öz himayəsinə götürür, ona maddi kömək edirdi. Mənbələrdən birində deyilir ki, yerli sakinlərdən Hacı Ömər Abdı oğlu məktəbi öz himayəsinə götürmüş və 1883-cü ildə məktəbə 30 manat dəyəri olan kitab və tədris vəsaiti bağışlamışdır.

Yuxarı Salahlı məktəbinin, onun ardınca 1876-cı ildə Dağkəsəmən, 1880-cı illərdə isə Yuxarı Şıxlı və digər kəndlərdə meydana gələn xalq məktəbləri Qazax qəzasında əhali arasında rus dilini, dünyəvi təhsili yayan yeganə ümumtəhsil məktəbləri idi.

Əsrimizin əvvələrində Yuxarı Salahlı məktəbi xeyli böyümüş, şagirdlərin sayı 128-ə çatmışdır. Şagirdlərin hamısı oğlanlar idi. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirənlərdən Əhməd ağa Mustafayev ilə Əhməd ağa Gülməmmədov Yuxarı Salahlı məktəbində uzun müddət müəllimlik etmiş, gənclərin təhsili ilə bərabər əhali arasında mədəni-maarif işini yaymışlar.

Digər kəndlərdə olduğu kimi, Yuxarı Salahlı məktəbi də özünün həqiqi inkişaf yoluna 1920-ci ildən sonra çıxa bildi. Yuxarı Salahlı kənd məktəbi öz simasını tanınmaz dərəcədə dəyişdi. 100 il əvvəl cəmi 23 şagirdlə əsası qoyulan bu məktəbdə indi (1976-cı il nəzərdə tutulur–red.) 768 şagird təhsil alır. Onların tərbiyəsi ilə 46 müəllim məşğul olur. Müəllimlərin böyük bir dəstəsi həmin məktəbin yetişdirməsidir.

Hazırda xalq təsərrüfatı, elm, maarif və mədəniyyətimizin müxtəlif sahələrində çalışanlar içərisində Yuxarı Salahlı məktəbinin yetirmələri də fəxri yer tuturlar.

Məqalə «Azərbaycan məktəbi» jurnalının 1976-cı il tarixli 1-ci sayında (s. 56–58) çap olunmuşdur.

MAARİF OCAĞININ İŞIQLARI

Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyası (ZMS) azərbaycanlılardan orta təhsilli pedaqoji kadrlar hazırlanmasında böyük tarixi rol oynamışdır. Bu seminariyanın həyatında ən mühüm hadisələrdən biri 1879-cu il sentyabrın 23-də onun nəzdində ayrıca bir şö'bə — Azərbaycan şö'bəsinin açılması olmuşdur. Bu şö'bənin təşkilində və inkişafında onun ilk inspektoru, iste'dadlı pedaqoq A.O.Çernyayevskinin (1840–1894) böyük və unudulmaz xidmətini xüsusi qeyd etmək lazımdır.

Azərbaycan şö'bəsinin özünün ayrıca Əsasnaməsi var idi. 1880-ci il mayın 13-də müvəqqəti dövr üçün təsdiq edilmiş həmin Əsasnamə 1886-cı il mayın 26-da daimi olmaq e'tibarilə yenidən təsdiq edilmiş və 1917-ci ilə qədər qüvvədə qalmışdır.

Əsasnaməyə görə, bu şö'bənin məqsədi Zaqafqaziya ölkəsinin azərbaycanlı kəndlərindəki ibtidai məktəblər üçün bilikli və təcrübəli müəllimlər hazırlamaqdan ibarət idi.

Şö'bəyə 16 yaşdan az olmayaraq 40 nəfərin, şö'bənin nəzdindəki ibtidai məktəbə isə azyaşlılardan 20 nəfərin qəbul olunması müəyyən edilmişdi. Bunların hamısı dövlət hesabına saxlanılır və Azərbaycan dilini bilən ayrıca tərbiyəçi-inspektorun himayəsi altında ümumi yataqxanada yaşa-yırdı. Qəbul imtahanlarında müvəffəqiyyət qazanmayanlar üçün hazırlıq sinfi nəzdində aşağı şö'bə təşkil edilirdi.

Seminariyaya ilk dəfə 32 nəfər qəbul olundu. Bunlardan 24-ü Çernyayevski tərəfindən yerlərdə seçilərək də'vət olunmuş, qalanları isə öz arzusu ilə gəlmişdi; 19-u şö'bənin əsas siniflərinə, 13-ü isə hazırlıq sinfinə qəbul olundu. Seminariyaya ilk qəbul olunanlar içərisində gələcəyin məşhur pedaqoqlarından S.Vəlibəyov, F.Köçərli, R.Əfəndiyev, M.Mahmudbəyov və başqaları var idi. Qəbul olunanlar, əsasən, şəhər və qəza məktəblərinin şagirdləri idilər.

Çarizmin ucqarlarda xalq maarifi sahəsindəki mürtəce siyasətinin nəticəsi olaraq ZMS azrbaycanlı şö'bəsinin Azərbaycan şəhərlərindən birində deyil, Azərbaycandan uzaq bir yerdə, Qori şəhərində açılmasına baxmayaraq, onun təşkili müəllim kadrları hazırlığında mühüm mərhələ təşkil edirdi. Şö'bə təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyadakı azərbaycanlı kənd məktəbləri üçün xalq müəllimləri hazırlığında mühüm rol oynayırdı. Bu şö'bənin mə'zunları Azərbaycanın xalq maarifinin məşhur carçıları, dünyəvi təhsilin ilk intişar etdiri-

ciləri oldular. Azərbaycanda xalq maarifi, məktəb, ədəbiyyat, mədəniyyət və incəsənətin bir çox görkəmli nümayəndələri, o cümlədən F.Köçərli, R.Əfəndiyev, S.Vəlibəyov, C.Məmmədquluzadə, N.Nərimanov, M.Mahmudbəyov, F.Ağazadə, Ü.Hacıbəyov, M.Maqomayev, S.S.Axundov, Y.Qasımov, T.Bayraməlibəyov, professor Ə.Y.Seyidov və bir çox başqaları məhz həmin seminariyada təhsil almışlar.

1882-ci ildə bu şö'bənin ilk buraxılışı oldu. Azərbaycan məktəb tarixində pedaqoji təhsil almış azərbaycanlı müəllimlərin ilk dəstəsi pedaqoji cəbhədə fəaliyyət göstərməyə başladı. Bu şö'bənin mə'zunlarının hələlik sayca az olmasına baxmayaraq, onlar Zaqafqaziyanın bir çox Azərbaycan kəndlərində dünyəvi məktəblər açılmasında mühüm rol oynadılar. İrəvan müəllimlər seminariyasını bitirən azərbaycanlı müəllimlər də bu işə xeyli kömək etdi. Keçən əsrin 80-ci illərindən başlayaraq istər dövlət, istərsə də zemstvo və kənd ictimaiyyəti vəsaitilə açılan kənd məktəblərinin sayı ildən-ilə çoxalmağa, azərbaycanlı balalarının rus dili ilə bərabər, ana dilində tə'lim və tərbiyə alması işini xeyli yaxşılaşdırmağa başladı.

Bircə bu faktı demək kifayətdir ki, keçən əsrin son 20 ili ərzində Azərbaycanın yalnız Bakı və Gəncə quberniyalarında 172 ibtidai məktəb fəaliyyət göstərirdi ki, burada da 11.400 şagird (o cümlədən 2.473 qız) təhsil alırdı. Bu məktəblərin böyük əksəriyyəti kənd yerlərində idi.

Ümumiyyətlə, 1920-ci ilə qədər Azərbaycanda və Zaqafqaziyanın azərbaycanlı kəndlərində mövcud olan ibtidai məktəblərin böyük əksəriyyəti ZMS Azərbaycanlı şö'bəsinin mə'zunları tərəfindən tə'sis edilmişdir.

Təhsilin məzmunundakı səthiliyə, tə'limin rus dilində aparılmasına, tə'lim üsulunun yaramazlığına baxmayaraq, xalq məktəbləri geniş xalq kütləsi içərisində yeganə ümumi təhsil müəsisəsi olub əhalinin qabaqcıl dəstəsinin hüsn-rəğbətini qazanırdı. Bu məktəblər kəndlərdə yeganə maarif və mədəniyyət ocaqları idi.

Kənd məktəblərinin bir sıra müdirlərinin hesabat xarakterli yazılarında və mə'lumatlarında bu məktəblərin ümumiyyətlə əhəmiyyətinə aid bir çox cəhətlər vardır. Məsələn, Qutqaşen kənd məktəbinin müdiri Vahid bəy Musabəyov 1895-ci ildə yazırdı: «Məktəbin tə'sis edildiyi 1882-ci ildən bəri kəndlilər arasında 100 nəfərdən çox savadlı adam var idi ki, bu, ancaq məktəbin nəticəsidir»[1]

[1] LMDTA, f. 91, səh. 3 iş № 380, v. 288.

Salahlı, Göyçay, Ağdaş, Bərdə, Ağdam, Qutqaşen, Qubadlı, Cəbrayıl məktəblərində tə'lim-tərbiyə işi daha yaxşı idi. Bu məktəblər öz işləri ilə təkcə Azərbaycanda və Zaqafqaziyada deyil, bütöv Qafqazdakı kənd məktəbləri içərisində fərqlənirdilər.

ZMS Azərbaycan şö'bəsi mə'zunları işlədikləri məktəblərdə təkcə bilik verməklə kifayətlənmir, şagirdləri həyata hazırlamağa, onlara kənd təsərrüfatına aid bilik və bacarıq verməyə də sə'y göstərirdilər. Bu cəhətdən kənd məktəblərinin bə'zisində bağçılıq, ipəkçilik, arıçılıq və sənətkarlıq şö'bələrinin təşkili diqqəti xüsusilə cəlb edir. Məsələn, Kürdəmir və Göyçay məktəblərində təşkil edilən ipəkçilik şö'bələri yerli əhalinin hüsn-rəğbətini qazanmışdı. Bu şö'bənin məqsədi təkcə burada oxuyan şagirdlərdən gələcək ipəkçilər hazırlamaqla məhdudlaşmırdı, həm də kənd təsərrüfatının bu çox faydalı sahəsindən daha çox məhsul götürmək işində əhaliyə kömək etmək idi. Bu məktəblərin şöhrəti bütün quberniyaya yayılmışdı. Kənd təsərrüfatına aid bilik və bacarıq vermək işində Dağkəsəmən və Şıxlı məktəbləri də fərqlənirdilər.

İpəkçilik və bostançılıq öyrədilməsində Qutqaşen məktəbi xeyli müvəffəqiyyət qazanmışdı. Bu işdə məktəbin müəllimi R. Əfəndiyevin xüsusi əməyi olmuşdur. Sənədlərdən birində deyilir: 1889-cu il iyunun 1-də Qutqaşenə gələn knyaz Dondukov — Korsakov ona verilən ərizələri tərcümə etmək üçün müəllim Əfəndiyevi yanına çağırmalı oldu. Şagirdləri ilə birlikdə baş rəisin yanına gələn Əfəndiyev məktəbin ipəkçiliyindən, barama və bostandan tərəvəz nümunələri təqdim etdi. Məktəbin ipəkçilik və bostançılıq məşğələləri haqda hərtərəfli sorğudan sonra knyaz öz razılığını bildirdi, müəllimə və şagirdlərə bu faydalı işdə müvəffəqiyyət arzuladı.[1]

Naxçıvan qəzasındakı Cəhri, Şahtaxtı, Baş Noraşen və İmanşallı, Zaqatala dairəsinin Qax kənd məktəblərində də kənd təsərrüfatı və sənət şö'bələri öz fəaliyyəti ilə əhalinin ümumi həyatına çox müsbət tə'sir edirdi. Mənbələrdən birində oxuyuruq: «Qax kəndində... müəllimin şagirdlərlə təşkil etdiyi bostan nəticəsində kəndlilər də tərəvəz yetişdirməyi öyrəndilər və hal-hazırda Zaqatalaya arabalarla kələm və kartof aparırlar. Halbuki məktəb tə'sis edilənədək burada belə şeylər heç bir zaman yetişdirilməmişdi».

[1] Sirkulyar... KUO, 1889, № 7, 224.

Göyçayda M.Mahmudbəyov və Kalaşev, Kürdəmirdə Ə.Muradxanov, Qutqaşendə R.Əfəndiyev, Lənkəranda T.Bayraməlibəyov və başqaları şagirdlərə kənd təsərrüfatına, xüsusilə də ipəkçiliyə aid bilik vermək işində böyük əmək sərf etmişdir. T.Bayraməlibəyovun «Bakı quberniyasındakı müsəlman kəndlərində ipəkçiliyin vəziyyətinə dair» adlı məqaləsi elmi əhəmiyyətə malik idi.

1893-cü ilin mə'lumatına görə, Bakı quberniya ibtidai məktəblərindən dördündə cildçilik, ikisində bağçılıq, ikisində bostançılıq, dördündə ipəkçilik, ikisində arıçılıq, Gəncə quberniya ibtidai məktəblərindən iyirmi yeddisində nəğmə, iyirmi səkkizində gimnastika, üçündə dülgərlik, birində xarratlıq, üçündə bağçılıq, beşində bostançılıq, iyirmi üçündə ipəkçilik və birində arıçılıq öyrədilirdi.

Azərbaycan kənd məktəblərinin bə'zisi bir sıra sərgilərdə iştirak edir, şagirdlərin əl işləri, məktəbin tədris-təcrübə sahəsində yetişdirilmiş məhsullar nümayiş olunurdu. 1889-cu ildə Tiflisdə kənd təsərrüfatı və sənaye sərgisinin iştirakçısı olan Vartaşen kənd məktəbi II dərəcəli fəxri diplom və gümüş medal, Ağcabədi məktəbi isə bürünc medal və III dərəcəli diplom ilə təltif edilmişdir. Qusardakı kənd məktəbi isə tə'rifnamə vərəqəsinə layiq görülmüşdür. 1896-cı ildə Nijni-Novqorodda keçirilən Ümumrusiya Sənaye və Bədii sərgisində iştirak edən Göyçay məktəbi yüksək keyfiyyətli barama qurdu bəslədiyinə görə bürünc medal ilə təltif olunmuşdur. Göyçay kənd məktəbi həmçinin Tiflisdə bağ məhsullarının birinci (1897) və ikinci (1898) Qafqaz sərgisində iştirak etmiş və medallar almışdır.

Məktəblərdə kənd təsərrüfatı biliyinin öyrədilməsi, məktəbin tədris-təcrübə sahəsində kənd təsərrüfatının müxtəlif sahələrinin düzgün təşkil edilməsi, bol və yüksək keyfiyyətli məhsul götürülməsi geniş əhali kütləsinin də marağına səbəb olurdu. Kənd əhalisi və ətraf camaat məktəbə gələrək işin təşkili ilə maraqlanır, məktəbin təcrübəsini öyrənirdilər. Göyçay və Şamaxı qəzalarındakı kənd məktəblərinin ipəkçilik şö'bələri kəndlilər üçün nümunəvi təcrübə məktəbinə çevrilmişdi.

Kənd məktəbləri kənddə mədəni-maarif işi ilə bərabər, səhiyyə işinin inkişafına da müsbət tə'sir edirdi. Bu məktəblərin bə'zilərində işləyən mütərəqqi müəllimlər, hətta həkimlik vəzifəsini də öhdəsinə götürür, məktəbdə bə'zən «aptek» də açırdılar. Belə aptekdən biri 1892-ci ildə Ağcabədi kənd məktəbi nəzdində təşkil edilmişdi. 1893-cü ildə Gəncə quberniya məktəblərini gəzən inspektor Ağcabədidə olarkən onun hüzu-

runda kəndlilər məktəbin müdiri Ə.Muxtarova təkcə müəllim kimi deyil, həm də həkim əvəzində onlara xeyirli məsləhət verdiyinə və kömək etdiyinə görə öz təşəkkürlərini bildirmişdilər, həmin «aptekdən» ətraf kəndlər də istifadə edirdi. 1891-ci ildən Ağcabədi kənd məktəbi nəzdində həm də meteoroloji stansiya açılmışdı. Ə.Muxtarov tərəfindən atmosfer yağıntısı üzərində aparılan aylıq müşahidələr Peterburqa — Baş fizika observatoriyasına göndərilir və orada nəşr edilən illik jurnalda dərc edilirdi.

Ətraf kəndlərdən gələn şagirdlərin gecələməsi üçün bə'zi məktəblərin nəzdində priyut (sığınacaq otağı) təşkil edilirdi. Belə priyutlar Cəbrayıl, Şıxlı və s. məktəblərin nəzdində var idi. Cəbrayıl məktəbinin sığınacaq evində 1894-cü ildə 35 nəfər şagird yaşayırdı.

Xalq məktəblərinin həm kəmiyyət, həm də keyfiyyətcə inkişafında xalq müəllimlərinin böyük rolu və unudulmaz xidmətləri olmuşdur.

ZMS Azərbaycan şö'bəsinin təşkili ana dilində sövti üsulla ilk dərsliyin meydana gəlməsinə əlverişli zəmin yaratdı. 1882-ci ildə ilk dəfə nəşr edilən A.O.Çernyayevskinin «Vətən dili» (I hissə), S.Vəlibəyovla birlikdə hazırlanan və 1888-ci ildə dərc edilən həmin dərsliyin II hissəsinin meydana gəlməsi feodalizm dövründən qalmış doqmatizm və sxolastika ilə bağlı olan və əsrlərdən bəri davam edən höccələmə (əbcə-çərəkə) üsuluna ilk və böyük zərbə idi. Həmin seminariyanın mə'zunu sonralar məşhur ədəbiyyatşünas alim, pedaqoq və maarifçi kimi tanınmış F.Köçərlinin sözlərilə desək, bütöv islam aləmində, türk-tatar dilli xalqlar içərisində sövti üsulla dərs demək və dərslik tərtib etmək təşəbbüsü birinci dəfə Azərbaycanda ortaya çıxmış, Azərbaycandan başlamış, Azərbaycan məktəblərində tətbiq olunmuşdur. Bu, Azərbaycan məktəb tarixində mühüm pedaqoji hadisə idi.

K.D.Uşinskinin eyni adlı dərsliyinə uyğun olmaqla brabər, «Vətən dili» özünün quruluşu, tərtibi prinsipləri, dilinin sadəliyi, şagirdlərin yaş və bilik səviyyəsinə uyğunluğu e'tibarı ilə orijinal idi.

Sonralar dəfələrlə çap edilən «Vətən dili» uzun müddət Azərbaycan məktəblərində ana dili dərsliyi kimi istifadə olunmuş, yalnız bu dərsliyin meydana gəlməsi ilə Azərbaycan dilinin tədrisi müəyyən mə'nada düzgün metodiki istiqamət almış, inqilabdan əvvəlki Azərbaycan ziyalılarının bütöv bir nəsli bu kitabdan faydalanmışdır.

Yeri gəlmişkən onu da qeyd edək ki, «Vətən dili»nin müvəffəqiyyəti bizdə olduğu kimi, İran Azərbaycanında da tezliklə mənimsənildi. İran Azərbaycanının görkəmli maarifçilərindən Mirzə

Həsən Rüşdiyyə bu təcrübəni mənim-səmiş və 1894-cü ildə Təbrizdə eyni adda dərslik nəşr etdirmişdir.

Ən başlıcası isə budur ki, bu dərslik Azərbaycan dilinin gələcək inkişafına, ana dilində yeni-yeni dərsliklər tərtib edilməsinə qüvvətli təkan verdi, «azərbaycanlılarda da pedaqoji iş elmi zəmində aparılmağa başlandı» (F.Köçərli). A.O.Çernyayevskinin işi sonralar onun şagirdlərindən R.Əfəndiyev, M.Mahmudbəyov, N.Nərimanov və başqaları tərəfindən ləyaqətlə davam etdirildi.

R.Əfəndiyevin «Uşaq bağçası» və «Bəsirət–ül–Ətfal», N.Nərimanovun «Türk–Azərbaycan dilinin müxtəsər sərf—nəhvi», Ü.Hacıbəyovun «Hesab məsələləri» və «Lüğəti», M.Mahmudbəyovun «Türk əlifbası və ilk qiraət»i, başqa müəlliflərlə birlikdə «İkinci il», «Üçüncü il», «İmlamız»dan başlamış Ə.Y.Seyidovla H.K.Sanılının «Əlifba»sı da daxil olmaqla ana dilində yazılan dərslik və dərs vəsitləri «Vətən dili»nin ləyaqətli davamçıları olmuşdur.

Keçən əsrin axırlarından başlayaraq əlifba, imla, dərslik, dilin xüsusiyyətləri, orfoqrafiya və s. kimi mühüm məsələlər mətbuat səhifələrində geniş müzakirələrə səbəb olurdu. İctimai şüur, dövrün tələbi məktəbin qarşısında ciddi məsələlər qoyurdu. Dünya mədəniyyətilə yaxından tanış olan qabaqcıl ziyalılar çox yaxşı dərk edirdilər ki, beş–on ziyalı ilə iş görmək olmaz. Qarşıda duran böyük ictimai-siyasi vəzifələrin öhdəsindən gəlmək üçün həm də geniş xalq kütləsini savadlandırmaq lazım idi. Onlar müəllimlik etməklə bərabər, geniş əhali kütləsinin, zəhmətkeş xalqın mə'nəvi tərəqqisinə çalışır, mətbuat səhifələrində xalq maarifinin, məktəb təhsilinin bu və ya digər sahələrinə aid faydalı fikirlər söyləyir, nadanlığa, cəhalətə, zülm və əsarət dünyasına qarşı ciddi və kəskin mübarizə aparır, əhalini bu mübarizəyə hazırlayırdılar.

N.Nərimanovun «Nadir şah»ı başda olmaqla bədii əsərləri, «Cümə söhbəti» və «Həftə fəryadı»ndan tutmuş «Hümmət»dəki inqilabi-mübariz ruhlu məqalələri, Ü.Hacıbəyovun «Koroğlu»su başda olmaqla opera əsərləri, «Filankəs» təxəllüslü «Ordan-burdan» başlıqlı silsilə məqalələri, F.Köçərlinin 2 cildlik «Azərbaycan ədəbiyyatı tarixi materialları», R.Əfəndiyevin «Qan ocağı», S.S.Axundovun «Qorxulu nağıllar»ı, C.Məmmədquluzadənin «Ölülər»i başda olmaqla köhnə dünyanı lərzəyə gətirən «Molla Nəsrəddin»i Azərbaycan xalqının mə'nəvi həyatında yeni bir inqilab yaratdı.

Ümumiyyətlə, ZMS Azərbaycan şö'bəsini bitirən təxminən 250 nəfərə qədər müəllim öz fəaliyyətini sırf pedaqoji işlə məhdudlaşdırmamış, inqilabdan əvvəlki Azərbaycanda elm və təhsil, maarif və mədəniyyət, ədəbiyyat və incəsənətin bir çox sahələrinin inkişafetdiriciləri olmuşlar. Onların bir çoxu tarixi şəxsiyyət kimi yetişmiş və öz xalqının zülm və istibdaddan xilas olması uğrunda unudulmaz xidmətlər göstərmişdir. Ana dilində qəzet və jurnal nəşr etmək, xalq üçün kitabxana–qiraətxana açmaq, xeyriyyə cəmiyyəti təşkil etmək, ana dilində yeni proqram, dərslik və tədris vəsaiti hazırlamaq, milli opera sənətinin əsasını qoymaq, qadın azadlığı və təhsili uğrunda çalışmaq, teatr tamaşaları hazırlamaq, ədəbi-bədii əsərlər yazmaq və nəhayət, geniş əhali kütləsinin gözünü açmaq, onu inqilaba hazırlamaq, – bütün bu problemlərin hər birinin qoyuluşunda və həllində ZMS Azərbaycan şö'bəsi mə'zunlarının ayrıca xidməti olmuşdur.

Azərbaycanın inqilaba qədərki məktəb və pedaqoji fikir tarixində, Azərbaycan və rus pedaqoji əlaqələrinin meydana gəlməsi, mütərəqqi rus məktəb təcrübəsinin və pedaqoji ideyalarının Azərbaycanda yayılması, dünyanın Y.A.Komenski, İ.H.Pestalotsi, K.D.Uşinski kimi klassik pedaqoqlarının pedaqoji fəaliyyətləri və fikirləri ilə azərbaycanlı oxucularının tanış olmaları, Azərbaycan-gürcü pedaqoji əlaqələrinin, xalqlar dostluğu ideyasının yaranması və inkişaf etdirilməsi həmin şö'bənin mə'zunlarının unudulmaz xidmətlərindəndir.

Nəhayət, Azərbaycanda pedaqogika elminin yayılması və inkişaf etdirilməsi, yeni məktəblərin, xalq maarifinin, ali pedaqoji institutun müəllim kadrlarının hazırlığının bütöv bir dövrü məhz ZMS mə'zunlarının fəaliyyəti ilə bağlı olmuşdur.

Xalqımızın çoxəsrlik ədəbiyyat, məktəb və pedaqogika tarxinin elmi əsaslarla öyrənilməsində, qabaqcıl rus ədəbi və pedaqoji fikrinin təbliğində, pedaqogika elminin görkəmli nümayəndələrinin ideyalarının Azərbaycanda yayılmasında, Qafqaz xalqları arasında mədəni və pedaqoji əlaqələrin yaranmasında və inkişafında seminariya mə'zunlarının tarixi xidmətini qədirbilən xalqımız heç bir zaman unutmamış və unutmayacaqdır.

Məqalə «Azərbaycan məktəbi» jurnalının 1979-cu il tarixli 9-cu sayında (s. 56–60) çap olunmuşdur.

ANA DİLİ DƏRSLİYİ PROBLEMİNDƏ İLK ADDIM

Azərbaycan dilinin dövlət məktəblərinin tədris planına rəsmən daxil olması, bu dilin öyrənilməsinin zəruriliyi, ana dilində bir sıra dərslik və tədris vəsaitlərinin yaranması ilə nəticələndi. Əsasən digər millətlərdən olan şagirdlərin bu dili öyrənməsi üçün nəzərdə tutulan həmin dərslik və tədris vəsaitlərinin tərtibi ana dilində yeni üsulla dərslik tərtib etməyin birinci mərhələsini təşkil edir.

XIX əsrin 80-ci illərindən meydana gələn xalq məktəbləri ilə əlaqədar ana dilində dərsliklər tərtibinin ikinci mərhələsi başlandı. Həm də bu dövrdə meydana gələn dərsliklər müstəsna olaraq azərbaycanlılar üçün nəzərdə tutulurdu.

Ana dili dərsliklərinin tərtib edilməsində Zaqafqaziya Müəllilər Seminariyasının (ZMS) Azərbaycan şö'bəsinin mühüm rolu olmuşdur.

Sövti (fonetik) üsulla ilk əlifba kitabının meydana gəlməsi həmin şö'bənini inspektoru A.O.Çernyayevskinin çox mühüm xidmətlərindəndir.

Mə'lum olduğu kimi, 1879-cu ildə Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində Azərbaycan şö'bəsi açılmışdı və A.O.Çernyayevski (1840–1894) bu şö'bənin inspektoru tə'yin olunmuşdu. Şö'bənin nəzdində bir ibtidai məktəb — baza məktəbi təşkil edilmişdi. Həmin baza məktəbinin təşkili yeni dərslik yaradılması ehtiyacını meydana çıxarmışdı. Bu ehtiyacı əsas tutan A.O.Çernyayevski böyük yaşlı tələbələrinin köməyilə həftəlik proqram düzəldir, gündəlik dərslərdə sövti üsulla məşğələ aparmaq üçün oxu materalı hazırlayırdı.

Bu qayda ilə onun əlində tədricən xeyli material toplandı və həmin materallar əsasında o, sövti üsulla «Vətən dili» kitabını tərtib etdi. O vaxtlar seminariya tələbələrindən biri olan R.Əfəndiyev öz yazılarından birində qeyd etmişdir:

«Dərsə şiru edilən zaman bir vaxt başa düşürlər ki, türk (Azərbaycan–H.Ə.) dilində əlifba kitabı qətiyyən yoxdur və olmamışdır. Beynəvə Çernyayevski böyük tələbələri kabinəsinə toplayıb bir komissiya intixab etdi. O cümlədən mən də o komissiyada iştirak edirdim. Həftəlik proqram tərtib edib gündəlik dərslərə material hazır edirdik və hər dərs üçün müfəssəl konspekt

yazılırdı. Dörd ədəd naçalni şkolalarda[1] üsulu sövti üzrə dərslər keçilirdi. Erməni, gürcü və rus dillərində zvukovoy metod (səs üsulu–H.Ə.) üzrə basılmış kitablar mövcud idi. Lakin yalnız türk (Azərbaycan–H.Ə.) dili üçün təzədən kitab qoşulmaq və nəşr edilməyə böyük ehtiyac görünürdü. Çünki tatarski otdeleniyanı (Azərbaycan şö'bəsini–H.Ə.) bitirib müəllim çıxan cavanlar üçün kəndlərdə pişəzvəxt türk məktəbi açılırdı. Onlar kəndə gedəndə öz məktəbini seminarski obroztsovaya (seminariya nəzdindəki nümunə məktəbinə–H.Ə.) bənzədib təzə qoşulmuş kitab ilə də dərslərini aparacaq idilər. Bu cəhətə görə Çernyayevski əlində toplanmış dərs materiallarından intixab edib bir kitab şəklinə saldı və mənim xəttimlə daş basmada 1883-cü sənədə[2] «Vətən dili» adında o kitabı basdırdı».[3]

«Vətən dili» dərsliyinin meydana gəlməsi zəruriyyətindən bəhs edən Çernyayevski sonralar yazırdı ki, seminariyanın azərbaycanlı şö'bəsi yanındakı ibtidai məktəb kimi «mübtədi məktəbləri bina eyləməyə çox şey lazım idi. Əzan cümlə (o cümlədən–H.Ə.) birisi təzə qayda ilə təsnif olunmuş kitablar idi, hansı ki, nə qədər mən cüstcu edib (axtarıb—H.Ə.) mülahizə qaldım türki (Azərbaycan—H.Ə.) dilində (pedaqogika), yə'ni elmi-tərbiyə qanununa müvafiq bir kitab tapa bilmədim. Və hətta o kitablar ki, axırıncı vaxtlarda təsnif olunub, hənuz çapa girməmişdi,[4] idtifaqən mülahizə edib bedəsturi elm–tərbiyə və fənn-tə'lim qaydasına namüvafiq gördüm və məktəbimizdə köhnəsayaq üzrə oxutmağı və hazırda olan kitablardan birisini intixab edib onunla dərs verməyə imkan tapa bilmədim.

Bu cəhətə ki, o surətdə məktəbimizi məktəbi müntəzəm adlandıra bilməzdik. Bəs zikr olunan işkalata (çətinliyə–H.Ə.) görə

[1] Seminariya nəzdində olan rus, gürcü, erməni və azərbaycanlı ibtidai məktəbləri — baza məktəbləri nəzərdə tutulur—H.Ə.

[2] «Vətən dili» (I hissə) dərsliyinin nəşri tarixi.»Azərbaycan tarixi»ndə (2-ci cild, səh 350), QTD popeçitelinin 1883-cü ilə aid hesabatında (s. 17), R.Əfəndiyevin yuxarıda göstərilən xatirə-lərində 1883-cü ilə aid edilir ki, bu səhvdir. Leninqrad şəhərindəki Saltıkov–Şedrin adına dövlət kitabxanasında saxlanılan həmin dərsliyin titul səhifəsində onun 1882-ci ildə nəşr edilməsi göstərilir. Azərbaycanda kitab, o cümlədən dərslik nəşri tarixində bu kitabın böyük əhəmiyyətinin nəzərdən qaçırılması və onun «Azərbaycan kitabı»na daxil edilməməsi böyük təəssüf doğurur.

[3] Azərb. SSR EA R.Ə.F.R. Əfəndiyevin arxivi, Q –2.

[4] İrəvan gimnaziyasının Azərbaycan dili müəllimi M.Elxanovun «Vətən dili» dərsliyinə işarədir. (H.Ə.)

məcbur olduq ki, müsəlman əlifbasını təri-qeyi sövti ilə tə'lim verməyi imtahanə gətirəm...[1]

Müsəlman əlifbası çətin əlifbalardan biri olsa da, A.O.Çernyayevski onu sövti üsulla tə'lim etməyin, mümkün olduğunu sınaqdan keçirmiş və beləliklə, «Vətən dili» kitabını nəşr etdirmişdir. «Vətən dili» dərsliyinin tərtibi və nəşrinin digər bir səbəbi mövcud qanun üzrə dövlət tərəfindən açılan ibtidai məktəblərdə tədrisin birinci ilindən tə'limin ana dilində aparılması idi. Mə'lum olduğu kimi. QTD müsəlman kəndlərində açılan ibtidai xalq məktəblərində savad tə'liminin ana dilində aparılmasına və ikinci sinifdən başlayaraq tədris edilən rus dili dərslərindən ana dilinə və ana dili dərslərindən rus dilinə tərcümələr etməyə icazə vermişdi.

Tədris dairəsi şurasının qərarında deyilirdi: Dərslərdə yerli dillərdən tələb olunduğu qədər istifadə edilsin. Dərslər mexaniki əzbərləmə şəklində deyil, şüurlu keçilməlidir. İbtidai məktəblərə yerli dilləri bilən müəllimlər tə'yin olunmalıdır. Savad tə'limi dövründə rus dilindən istifadə etmək məqsədəuyğun olmadığı üçün dərslər müəyyən dövrə qədər yerli dillərdə keçilsin.

Bu qərar «Vətən dili» (I hissə) dərsliyinin meydana gəlməsinə əlverişli şərait yaratdı. Bunu ayrıca qeyd edən A.O.Çernyayevki, sonralar 1888-ci ildə S.A.Vəlibəyovla birlikdə tərtib etdikləri «Vətən dili»nin ikinci hissəsinə Azərbaycan və rus dillərində yazdıqları müqəddimədə deyirdi: «Vətən dili» adlanan kitabçanın birinci qismi tə'yin olunmuşdur Zaqafqaziya türklərinin mübtədi məktəblərində əvvəlinci il tə'lim verməkdən ötrü. Çünki 1881-ci ildə yanvar ayının 13-də canişin Qafqazın təsdiq etdiyi tə'limi-düstur aləminə müvafiq gördü ki, Qafqaz əhalisinin mübtədi məktəblərində əvvəlinci il tə'lim-tərbiyə olunsun hər tayfanının öz dilində (yə'ni ana dilində).[2]

«Vətən dili» sövti üsul əsasında nəşr edilmiş ilk Azərbaycan dili dərsliyi idi. Mə'lum olduğu kimi, feodalizm dövrünün məhsulu olub, doqmatizm və sxolastika ilə bağlı olan və əsrlərdən bəri davam edən höccələmə (əbcəd–çərəkə) üsulu XIX əsrin üçüncü rübünə qədər Azərbaycan məktəblərində savad tə'limi üsulu kimi davam etmişdir. Sonralar bu üsul bütün kəlməni olduğu kimi xatırladan hərf-heca üsulu ilə əvəz edildi. Bu üsula görə samitlər saitlərlə birləşdirilir və heca əmələ gətirilirdi. Əlifba sırası ilə bütün hərflərdən bu qayda ilə heca və sözlər düzəldilməsi davam etdirilirdi.

[1] A.O. Çernyayevski, «Vətən dili». Metodiki rəhbərlik. Tiflis, 1882, səh. 3–4.
[2] A.O.Çernyayevski və S.A.Vəlibəyov. «Vətən dili» (ikinci hisə), Tiflis, 1888, müqəddimə, 1.

Keçən əsrin 80-ci illərində heca üsulu da savad tə'limində müvəffəqiyyət qazanmadı və öz yerini tədricən sövti üsula verdi. Bu üsulun Azərbaycanda yayılmasında böyük rus pedaqoqu K.D.Uşinskinin ana dili tə'limi ideyası və onun Qafqazdakı ardıcılları olan D.D.Semyonovun, xüsusilə də A.O.Çernyayevskinin xüsusi rolu və xidməti olmuşdur. A.O.Çernyayevskinin göstərilən dərsliyi istər höccələmə, istərsə də hərf-heca üsuluna qarşı ilk qüvvətli zərbə idi. Onu da qeyd etmək lazımdır ki, bütün türk-tatar xalqları içərisində sövti üsulla dərs demək və dərslik tərtib etmək təşəbbüsü Azərbaycandan başlamış və ilk dəfə Azərbaycan məktəblərində tətbiq olunmuşdur. F.Köçərlinin yazdığına görə, tamam islam aləmində bu təşəbbüs birinci dəfə Azərbaycanda ortaya çıxmışdır.[1] Bu dərsliyin meydana gəlməsi, ana dili tə'limində ondan istifadə Azərbaycanın məktəb tarixində mühüm pedaqoji hadisə idi. Özünün quruluşu, tərtibi prinsipləri, dilinin sadələyi, şagirdlərin yaş və bilik səviyyəsinə uyğunluğu e'tibarilə «Vətən dili» dərsliyi K.D.Uşinskinin eyni adlı dərsliyinə uyğun olmaqla bərabər, həm də orijinal idi.

A.O.Çernyayevskinin «Vətən dili» dərsliyi qabaqcıl rus pedaqoji ideyaları əsasında meydana gəlmişdir. O, K.D.Uşinskinin zəngin təcrübəsinə istinad edərək onun eyni adlı dərsliyindəki materiallardan da yeri gəldikcə istifadə etmişdir.

A.O.Çernyayevskinin «Vətən dili» dərsliyi sonralar dəfələrlə nəşr edlmiş[2] və uzun müddət Azərbaycan məktəblərində ana dili dərsliyi kimi istifadə olunmuşdur.

A.O.Çernyayevskinin mühüm xidmətlərindən biri budur ki, o, ana dili tə'limində sövti üsul tətbiq etmiş və buna aid metodiki göstərişlər hazırlamışdır. «Metodiki rəhbərlik» adlanan həmin kitabça Tiflis şəhərində nəşr edilmişdir.

Prof. M.Mehdizadənin çox haqlı olaraq yazdığı kimi, heç bir mübaliğə etmədən, demək olar ki, yalnız bu dərsliyin meydana gəlməsi ilə Azərbaycan dilinin tədrisi müəyyən mə'nada düzgün metodiki istiqamət aldı.[3] Bütün bunlar isə öz növbəsində Azərbaycan dilinin gələcək inkişafına qüvvətli təkan verdi.

Bütün bunlara bərabər, onu da əlavə edək ki, A.O. Çernyayevski «Vətən dili» (I hissə) dərsliyində ərəb əlifbasının qüsurlarından xilas ola bilmədi və ola da bilməzdi. O, əslən rus olduğundan ehtiyatla

[1] Bax: Ф.Кочарлинский. А.О.Черняевский, «Kaspi» qəzeti, 1914, ¹282.
[2] İkinci nəşri 1888, üçüncü nəşri 1896-cı ildə olmuşdur.
[3] Bax: M.M.Mehdizadə Azərbaycan SSR-də məktəb tarixinin inkişafına dair oçerklər. Doktorluq dissertasiyası, Moskva, 1956, s. 106.

dolanırdı ki, onu dini və milli məsələlərdə ittiham etməsinlər. Odur ki, Çernyayevski ərəbcə yazılmış olan «dərsdən irəli və sonra oxunan duaları» da kitabına daxil etmişdi. Bu və ya digər qüsurlarına baxmayaraq, A.O.Çernyayevskinin bu kitabı Azərbaycan xalq məktəbləri üçün üsuli-sövti ilə nəşr edilmiş ilk əlifba kitabdır. «Vətən dili» özündən sonra yazılan əlifba və ondan sonrakı ilk oxu kitabları üçün örnək olmuşdur. «Azərbaycan tarixi»ndə deyildiyi kimi, Azərbaycan ziyalılarının böyük bir nəsli bu dərslik üzrə savada yiyələnmişdir.[1]

«Vətən dili» (birinci hissə) kitabının müvəffəqiyyəti onun ikinci hissəsinin tərtibinə də zəmin hazırladı.

1880-ci illərin sonralarında A.O.Çernyayevski seminariyanın Azərbaycan şö'bəsinin ibtidai məktəb müəllimi S.A.Vəlibəyovla birlikdə «Vətən dili» kitabının ikinci hissəsini də tərtib etdilər. Bu kitabın tərtibində yaxından iştirak edənlərdən biri də görkəmli müəllim və şair Həsənəli Qaradağidir (1850–1929) A.O.Çernyayevski tərəfindən Tiflisə də'vət edilən H.Qaradağı tərtib olunacaq ana dili dərsliyinə daxil edilməli olan uşaq şe'rləri və hekayələri yazıb hazırlamağı öz öhdəsinə götürür. Şuşada açdığı məktəbdə bu şe'r və hekayələri təcrübədən keçirir və bunları Çernyayevskiyə göndərir. Bu materiallardan bir çoxu Çernyayevski ilə Vəlibəyovun «Vətən dili» (II hissə) dəsliyinə daxil edilir.

«Vətən dili»nin ikinci hissəsi ilk dəfə 1888-ci ildə Tiflisdə «Kəşkül» mətbəəsində çap olunmuşdur.

Kitabın üzərində «Vətən dili (ikinci cild). Türki-Azərbaycan dilində tə'lim-qiraət, inşa və imla məşğuliyyəti üçün kitabçadır. Müəllifləri Çernyayevski və Vəlibəyov, Qafqaz qit'əsinin maarif rəisi məclisində Qafqaziyanın səbyan məktəblərində tədris olunmaq üçün tərcih ilə qəbul olunub və Qafqaz ümumi-mülkiyyə rəisi təsdiq edibdir. Tiflis «Kəşkül» mətbəəsi 1305»—sözləri yazılmışdır.

«Vətən dili» (ikinci hissə) ikinci tədris ilində (II sinifdə) ana dili tə'limi üçün nəzərdə tutulmuşdur. Kitab sadə xalq dilində yazılmışdır. O vaxt bə'zi ziyalılar arasında belə bir yanlış müddəa hökm sürürdü ki, azərbaycanlı uşaqları ana dilini öyrənməzdən əvvəl, ərəb və fars dilini öyrənməlidirlər. «Vətən dili»nin (ikinci hissə) tərtibçiləri olan A.O.Çernyayevski ilə S.A.Vəlibəyov bu müddəanın əleyhinə olaraq

[1] Bax: Azərbaycan tarixi, 2-ci cild, Bakı, 1964, s. 350, s. 406.

dərsliyi bə'zi ziyalıların «vulqar» adlandırdıqları xalq dilində tərtib etmişdilər. Əsərin müqəddiməsində deyilir: «Zənnimizə görə bu təklifin (kitabın–H.Ə.) dili bir parə müsəlman üdəba və üləmalarına ifrat sadə görünəcəkdir. Çünki onların rə'yi və nəzərlərinə görə fəsihanə ibarələr gərəkdir bu barədə bizləri mə'zur tutub bunu nəzərə alsınlar ki, həmin kitabça ancaq əlifbayı qurtarıb yeni qiraətə şiru edənlər üçündür».[1]

Müəlliflər sözlərinə davam edərək yazırdılar:

«Biz şagirdlərin qanacağının məratibini və fəhm və dərrakəsini nəzərə alıb sə'y etmişik ki, tərbiyəyi-səbyan qaydasına müvafiq mətalib ancaq sadə türki-Azərbaycan dilində bu risaləyə qeyd olunsun. O cəhətdə ki, mübtədilərə ən əvvəl öz ana dillərinin tə'limi borcdur, nəinki ərəb və fars sözləri».[2]

Dərsliyə daxil edilən imla və inşa qaydaları əsasən prof. M.Kazımbəyin Azərbaycan dilinin qrammatikası («Qrammatika tatarskoqo yazıka») kitabına, həmçinin Budaqovun və Vəzirovun əsərlərinə əsaslanmışdır. Bundan əlavə, müəlliflər tərəfindən «bir neçə imla, inşa barəsində dürüst və səhih qayda və zabitələr bu kitabçaya» daxil edilmişdir. Müəlliflər kitabın giriş hissəsində bir sıra qrammatika, imla və metodika məsələlərindən bəhs edərək, müəllimlərə qiymətli məsləhətlər verirlər.

Kitabçada ilk dəfə bə'zi durğu işarələrindən (., :, !, ?,) yerli-yerində istifadə etmək məsləhət görülür.

Kitaba daxil edilən oxu mətnləri şagirdlərin yaş və bilik xüsusiyyətlərinə müvafiq olub məzmunu əsasən ictimai həyatdan, xalqın və məktəblərin məişətindən alınmışdır.

Mətnlər 26 bölmədə cəmləşdirilmişdir. Birinci bölmə tə'lim və oyun şeyləri adı altında «məktəb, löhvə, uşaqları məktəbə şövqləndirmək, kitab və kağız, karandaş» və s. başlıqları ilə kiçik mətnlərlə başlanır. Qiraət materialı kimi lətifələr, təmsillər, atalar sözləri və zərb məsələlərdən istifadə edilmişdir: Birinci hissədə olduğu kimi «Vətən dili»nin ikinci hissəsinə də heç bir şəkil daxil edilməmişdir ki, bu da o dövrün mətbəə çətinlikləri ilə əlaqədar idi.

[1] Hətta bir para alimlərin təsvirinə görə bir türk türkcə bilmək xahiş eləsə, gərəkdir ki, qabaqca fars və ərəbcə təhsil eyləsin. (Qeyd tərtibçilərindir).
[2] Yenə orada, səh. 4.

«Vətən dili»nin birinci hissəsi kimi, ikinci hissəsi də K.D.Uşinskinin pedaqoji prinsiplərinin tə'siri altında yaranmışdı. Bununla belə müəlliflər yerli şəraitə müvafiq olaraq bə'zi mətnləri kitaba daxil etməklə onun orijinallığını saxlamışlar.[1]

K.D.Uşinskinin «Ana dili» dərsliyinin nümunəsi əsasında tərtib edilmiş bu dərsliklər, F.Köçərlinin yazdığı kimi, o zamana qədər fars dilində mövcud olan çərəkə əsasında, yə'ni hərfləri höccələmək üsulu ilə dərs keçən Azərbaycan məktəblərində tamamilə yeni bir islahat əmələ gətirdi».[2] Demək olar ki, Çernyayevski ilə Vəlibəyovun kitabı və zəhməti sayəsində «azərbaycanlılarda da pedaqoji iş elmi zəmində aparılmağa başlanmışdır».[3] A.O.Çernyayevski ilə S.A.Vəlibəyovun «Vətən dili» dərsliyi sonralar, yenidən çap olunaraq Azərbaycan dilinin tədrisində geniş istifadə olunmuşdur.

[1] Bax: A.O. Çernyayevski və S.A. Vəlibəyov. «Vətən dili», ikinci hissə, Tiflis, 1888, müqəddimə, səh. 3.
[2] Firidunbəy Köçərli. Seçilmiş əsərləri, Bakı, 1963, s. 78.
[3] Yenə orada, s. 79.

ZAQAFQAZİYA MÜƏLLİMLƏR SEMİNARİYASI AZƏRBAYCAN ŞÖ'BƏSİNİN TƏŞKİLİNİ ŞƏRTLƏNDİRƏN TARİXİ ZƏMİN

1979-cu ilin sentyabr ayında Zaqafqaziya Müəllimlər Seminariyası (ZMS) nəzdində Azərbaycan şö'bəsi açılmasının 100 ili tamam oldu. Müəllim kadrları hazırlığında tarixi xidmətini nəzərə alaraq Azərbaycan Ali və Orta İxtisas Təhsili Nazirliyinin qərarına əsasən Zaqafqaziya respublikalarının elmi-pedaqoji ictimaiyyəti nümayəndələrinin iştirakı ilə V.İ.Lenin adına API-də (indiki ADPU) yüksək səviyyədə xüsusi yubiley sessiyası keçirilmişdir.

Mə'lum olduğu kimi, XIX əsrin əvvələrinə kimi Azərbaycanda mövcud olan və geniş yayılan ən'ənəvi məktəb və mədrəsələrdə uşaq və gənclərin tə'lim və tərbiyəsi ilə xüsusi pedaqoji təhsili olmayan şəxslər, bir qayda olaraq ruhani təhsil alanlar məşğul olurdular.

XIX əsrin 30-cu illərindən e'tibarən meydana gələn və təhsilin rus dilində verildiyi dövlət məktəblərində dərs deyən elm-fənn müəllimi Rusiyadan göndərilirdi. Azərbaycan dilini tədris edən yerli ziyalılar isə ən yaxşı halda Tiflis gimnaziyasında müəyyən yoxlamadan keçdikdən və pedaqoji biliyi yoxlanıldıqdan sonra bu vəzifəyə tə'yin olunurdular. Rusiyanın daxili quberniyalarından göndərilən müəllimlərin bir çoxu yerli əhalinin məişətinə, dilinə, ehtiyac və təsəvvürlərinə yaxından bələd olmadıqlarına görə hökumətin gözlədiyini doğrultmur, yerli əhalinin hörmət və e'tibarını qazana bilmirdi.

Zaqafqaziya vilayətlərində açılan dövlət məktəblərini müəllim kadrları ilə tə'min etmək problemi hələlik həll edilməmiş qalırdı.

Doğrudur, dövlət məktəblərini müəllim kadrları ilə tə'min etmək işində Tiflis gimnaziyasının az-çox rolu olmuşdur. Hazırlıq siniflərinə və birinci sinif müəllimi vəzifəsinə Tiflis gimnaziyasını bitirənlər və ya orada təhsil alanlar tə'yin edilirdilər. Bunlar isə istər nəzəri, istərsə də praktik cəhətdən yaxşı hazırlıqlı olmadıqlarından həm tə'lim, həm də tərbiyə işinə az yararlı olurdular. Bütün bunların nəticəsi idi ki, keçən əsrin ortalarında müəllim kadrları hazırlığı pedaqoji ictimaiyyətin diqqət mərkəzində duran başlıca məsələlərdən idi. Bu məsələ hökumət orqanlarını da düşünməyə vadar edirdi. Qafqaz komitəsinin sədri A.Çernışev 1847-ci ilin fevralında Rusiya Xalq Maarif Naziri qraf. Uvarova yazırdı ki, hazırlanan layihəni, yə'ni 1848-ci il Nizamnaməsi layihəsini həyata keçirməzdən əvvəl Zaqafqaziya ölkəsi üçün yaxşı müəllimlər hazırlamaq lazımdır. O,

yazırdı: «Yaxşı müəllim olmadan, tərtib edilən layihə gözlənilən nəticəni verməyəcəkdir. Ona görə də Qafqaz ölkəsinə, xüsusilə də yerli dillərə yaxşı bələd olan müəllimlərin olması vacibdir».[1]

Ümumiyyətlə, o zamanlar Zaqafqaziya ölkəsi üçün müəllim kadrları hazırlığı məsələsində müxtəlif fikirlər var idi. Məsələn, Zaqafqaziya məktəblər direksiyası müəllimliyə yerli əhalidən olanları cəlb etməyi çox faydalı və vacib hesab edirdi. Yerli əhalidən isə müəllim kadrları hazırlayan məktəb hələlik yox idi. Yeganə ümid yolu yerli dillərin, o cümlədən Azərbaycan dilinin tədris edildiyi Tiflis gimnaziyasını bitirənlərə idi. Onların içərisində isə azərbaycanlılar tək-tük idi. Bunlar da məktəbi bitirdikdən sonra, digər dövlət qulluğuna, ilk növbədə isə tərcüməçiliyə cəlb olunurdular.

Zaqafqaziya məktəblər direksiyası müəllimə olan ehtiyacı ödəmək üçün Tiflis gimnaziyasında yerli millətlərdən olan dövlət təqaüdçülərinin sayını artırmağa və beləliklə də, gimnaziyanı bitirənlərin hesabına məktəbləri yerli müəllimlərlə tə'min etməyə üstünlük verirdi.

Qafqaz komitəsi isə, əksinə, Zaqafqaziya ölkəsi üçün müəllim kadrları hazırlığı işini Peterburq Baş Pedaqoji İnstitutu vasitəsilə həyata keçirməyi lazım bilirdi.

Nəticədə Rusiya Xalq Maarif Nazirliyi (RXMN) Zaqafqaziya ölkəsi üçün yerli dilləri bilən müəllim kadrları hazırlığı məsələsini hələlik tə'xirə saldı və bu vacib məsələ yenə də həll edilməmiş qaldı.

Beləliklə, bütöv Rusiya və Zaqafqazi ya kimi Azərbaycanda da Xalq Maarifi və məktəb təhsilinin inkişafı ölkənin ümumi iqtisadi-ictimai və siyasi vəziyyətindən asılı olub, əsaslı islahat tələb edirdi. Bu islahat isə ilk növbədə Rusiya ilə bağlı idi.

Mə'lum olduğu kimi, XIX əsrin ikinci yarısında Rusiya öz tarixi inkişafının yeni mərhələsinə qədəm qoydu. 60-cı illərdə kəndli hərəkatının artması, inqilabi-demokratik hərəkatın genişlənməsi nəticəsində təhkimçilik hüququ ləğv edildi. 1861-ci il kəndli islahatının ardınca məhkəmə, idarə, yerli özünüidarə sahəsində də isalahatlar aparıldı.

Beləliklə, ölkənin iqtisadi və ictimai həyatında əmələ gələn bu dəyişikliklər Xalq Maarifi və məktəb sahəsində də özünü göstərdi. 1861-ci il kəndli islahatının ardınca hökumət 60-cı illərin ictimai-pedaqoji hərəkatının güclü tə'siri nəticəsində məktəb təhsilinin qeyri-mükəmməl sisteminin bütün sahələrində islahat keçirməyə məcbur

[1] LMDTA, f. 733, s. 82, iş № 154, v. 1 arx.

oldu. 1864-cü ildə «İbtidai xalq məktəbləri haqqında əsasnamə», «Gimnaziya və progimnaziyaların nizamnaməsi» qəbul edildi. Hökumət ictimaiyyətin tələblərinə güzəştə getməyə məcbur oldu. Bu tə'sir Qafqazda da özünü göstərdi və Qafqaz canişini Xalq Maarifi sahəsində bə'zi tə'cili tədbirlər görməyə başladı. Bu tədbirlər, hər şeydən əvvəl, Qafqaz Təhsil Dairəsini (QTD) tezliklə bərpa etməkdə, mövcud dövlət məktəblərini dirçəltməkdə, yeni məktəblər tə'sis etməkdə özünü daha qabarıq göstərirdi.

Y.M.Neverovun QTD-nin popeçiteli tə'yin edilməsi, Tiflisdə müəllimlər qurultayının çağırılması, məktəb kitabxanalarının gücləndirilməsi, buraxılış imtahanlarına nəzarətin artırılması, məktəb intizamının yüksəldilməsi həmin tədbirlərin nəticəsi idi. Bu tədbirlər nəticəsində 1865–1866-cı tədris ilində Bakı ali dörd sinifli məktəbi əvvəl real progimnaziyaya, sonra isə gimnaziyaya çevrildi. Şuşa qəza məktəbi nəzdində yeni sinif və şö'bələr açıldı. Tiflisdə, Dərbənddə, Teymurxanşurada və Zaqatalada aşağı dərəcəli qız məktəbləri təşkil edildi. 1867-ci ildə Tiflis, Stavropol, Kuban, Kutaisi, Bakı və İrəvan məktəblər direksiyaları yaradılması lazım bilindi. Həmin illərdə məktəb həyatında əmələ gələn canlanmadan bəhs edən L.Modzalevski yazırdı:

«Bu dövrdə ölkənin təhsil işində ümumi canlama o qədər böyük idi ki, Şuşa, Aleksandropol, Gümrü, Zaqatala, Poti, Axalkələk, Raç və başqa yerlərdən Qafqaz canişininin yanına depupatlar hey'əti gəlir və ya ərizələr göndərərək yeni məktəblər açmağı tələb edirdilər; hətta kəndli icmaları da bu işə qoşulur və bu yüksək faydalı iş üçün xeyli ianələr toplayırdılar».[1]

Beləliklə, 60-cı illərin ictimai hərəkatı məktəb həyatının canlanmasına güclü təkan verdi. Məktəb şəbəkəsi xeyli genişlənir, şagirdlərin sayı artırdı. Bu artım xüsusilə ibtidai təhsil sahəsində özünü daha çox göstərirdi. 1855-ci ildəkinə nisbətən 1865-ci ildə orta məktəb şagirdlərinin sayı üç dəfə artmışdısa, göstərilən dövrdə ibtidai məktəb şagirdlərinin sayı 10 dəfədən çox artmışdır.

Kəndli uşaqları üçün məktəb açmaq cəhdi və sə'yi Azərbaycanda da güclü idi. Məsələn, 1870-ci ildə təkcə Bakı quberniyasından 15 kənd icması qərar qəbul edərək, öz vəsaitləri hesabına kənd məktəbi açmağı hökumətdən xahiş etmişdi. Lakin bir tərəfdən Xalq Maarifi sahəsində çarizmin mürtəce siyasəti, digər tərəfdən isə müəllim

[1] L. Modzalevski. Xod uçebnoqo dela na Kavkaze s 1892 po 1880 q. Tiflis, 1880, s. 50.

kadrlarının, yararlı tədris binalarının yoxluğu üzündən demək olar ki, kəndli uşaqları dünyəvi təhsildən əsasən kənarda qalırdı.

Keçən əsrin 70-ci illərində cəmi Qafqaz ilə bərabər Azərbaycan maarif sistemi də Rusiya imperiyasındakı sistemə daha da uyğunlaşdırıldı, məktəblər üçün yerli xarakterli nizamnamələr aradan qaldırıldı, tədris müəssisələri bilavasitə imperiya daxilindəki nizamnamələrlə idarə olunmağa başladı. Beləliklə də, cəmi Qafqaz ölkəsinin Xalq Maarifi bir dəfəlik olaraq imperiya daxilindəki məktəb şəbəkələrinin ümumi ailəsinə daxil oldu. Lakin Rusiyanın daxili quberniyalarından fərqli olaraq Zaqafqaziyada zemstvo müəssisələrinin, ümumi əsgəri mükəlləfiyyətin olmaması, əhalinin milli-dini xüsusiyyətlərinin müxtəlifiyi və ictimai-iqtisadi həyatın özünəməxsus bir çox cəhətləri məktəb işinin inkişafına müəyyən dərəcədə mane olurdu. Bununla belə ölkədə iqtisadiyyatın tərəqqisi, əhalinin rus dilinə, dünyəvi təhsilə olan ehtiyacı Azərbaycanda mövcud məktəblərin yenidən qurulmasına, yeni məktəblərin açılmasına, dövlət məktəb şəbəkəsinin genişlənməsinə, azərbaycanlılardan olan şagirdləri sayının xeyli artmasına kömək edirdi. Qafqaz Təhsil Dairəsi popeçitelinin 1873-cü ilə aid hesabatında oxuyuruq: «Dövlət məktəblərində oxuyan müsəlman şagirdlərinin sayı daha da artmış və hesabat ilində 730-a çatmışdır. Bunlardan 250 nəfəri pansionda yaşayır». Ümumiyyətlə, müsəlman uşaqlarının sayının getgedə artması, təkcə oğlanların deyil, tək-tək olsa da, qızların da dövlət məktəblərində oxuması o dövrdə çox mühüm hadisə idi.

Bütün bunlar diqqəti cəlb edən mütərəqqi hadisə olsa da, ümumiyyətlə, təhsil işi, xalq maarifi çox ləng inkişaf edirdi. Bu daha bir çox cəhətlərlə, təkcə maddi vəsaitlə deyil, həm də tədris işində mərkəzi sima olan müəllim kadrları ilə bağlı idi. QTD popeçitelinin e'tiraf etdiyi kimi, bu yerlərdə bacarıqlı işçilər, yerli əhalidən olan müəllimlər son dərəcədə az idi. 1868-ci ildə cəmi Qafqazda fəaliyyət göstərən 10 yuxarı tipli məktəbdə (6 gimnaziya, 3 progimnaziya və 1 müəllimlər məktəbi) işləyən elm-fənn müəllimləri içərisində ancaq 2 nəfəri yerli əhalidən idi. Müəllim kadrları üçün yenə də Mərkəzi Rusiyaya müraciət edilirdi ki, bu da həmişə müvəffəqiyyətlə nəticələnmirdi.

Yerli əhalidən müəllim kadrları hazırlığı işinə kömək etməyə şəhər məktəbləri sə'y göstərdi. Şamaxıda, Şuşada, Nuxada, Gəncədə və Naxçıvanda fəaliyyət göstərən şəhər məktəbləri həmin məktəbi bitirdikdən sonra müəllim olmaq istəyənləri məktəbdə saxlayaraq, onlar üçün qısa müddətli pedaqoji kurslar təşkil edir, pedaqoji bilik

dairəsini genişləndirir, onları ibtidai siniflərdə müəllimlik etməyə və müəllimlər institutuna daxil olmağa hazırlayırdı. Təhsil müddəti bir və ya iki il olan və təcrübə məqsədilə təşkil olunan bu pedaqoji kurslar müəllim kadrlarına olan ehtiyacı ödəmək üçün müvəqqəti tədbir idi. Yeri gəlmişkən qeyd edək ki, arxiv sənədlərində bu kurslar vasitəsilə müəllimlik adı alanlara, az da olsa, rast gəlirik. Onların içərisində gələcəyin məşhur pedaqoqu S.M.Qənizadənin də adı vardır. S.M.Qənizadə 1883-cü ildə Şamaxı şəhər məktəbi nəzdindəki qısa müddətli pedaqoji kursu bitirmək sayəsində məhəlli və ibtidai xalq məktəbi müəllimi hüququ almışdı.

Müvəqqəti xarakter daşıdığına və müdavimlərin sayca azlıq təşkil etdiyinə görə, bu kurslar müəllim kadrları hazırlığında elə bir rol oynaya bilmədisə də, yerli əhalidən müəllim kadrları hazırlığını bir daha diqqət mərkəzinə qoydu. Ən başlıcısı isə bu tədbir azərbaycanlı gənclərdə müəllimlik peşəsinə meyl və marağı artırırdı.

Yerli əhalidən xalq müəllimləri hazırlığı işində həlledici rol kənd məktəblərinin meydana gəlməsi, bu məktəblərin müəllim kadrları ilə tə'min etmək ehtiyacı ilə əlaqədar olmuşdur.

XIX əsrin 60-cı illərindən e'tibarən meydana gələn və tədricən yayılan kənd məktəbləri əsasən əhalinin vəsaiti ilə yerli ziyalılar, qəza məktəbinin və digər məktəblərin mə'zunları tərəfindən açılırdı. Belələrinə Şamaxı qəza məktəbinin mə'zunu gələcəyin məşhur pedaqoqu, 100 illiyini qeyd etdiyimiz ZMS Azərbaycan şö'bəsinin ilk inspektoru A.O.Çernyayevski (1840–1894) tərəfindən 1866-cı ildə Mərəzədə, digəri isə Kazan şəhərinin sakini olan T.Mamleyev tərəfindən 1873-cü ildə Qazax qəzasının Salahlı kəndində açılan məktəbləri misal göstərmək olar.

Qafqaz Təhsil Dairəsi belə məktəbləri öz tabeliyinə almaqda, onları dövlət vəsaiti və müəllim kadrları ilə təmin etməkdə çətinlik çəkirdi.

1873-cü il noyabrın 22-də hökumət hər quberniya və ya vilayətdə xəzinə hesabına 3-ə qədər kənd məktəbi açmağı qanuniləşdirdi.

1875-ci il fevralın 18-də kənd məktəblərinin ştatı təsdiq edildi. 1876-cı ildən başlayaraq Azərbaycan kəndlərindən Dağkəsəməndə, Cəbrayılda, o vaxtlar Gəncə quberniyasına daxil olan Gorusda, Bakı quberniyası üzrə Göyçayda, Altı–Ağacda və Salyanda ilk kənd məktəbləri meydana gəldi. Azərbaycan kəndlərində dünyəvi təhsil verən kənd məktblərinin meydana gəlməsi o dövrdə mühüm mədəni hadisə idi.

O vaxtlar, şəhərlərdə olduğu kimi, kəndlərdə də əhali rus dilinə, dünyəvi təhsilə böyük ehtiyac hiss edirdi. Ayrı-ayrı kənd və qəzaların əhalisi QTD-yə, Qafqaz canişinliyinə ərizə, xahişnamə və öhdəliklərlə müraciət edərək dünyəvi məktəb açılmasını xahiş edirdilər. Lakin müəllim kadrları olmadığına görə bu cəhdlər, əsasən nəticəsiz qalırdı.

Beləliklə, keçən əsrin 80-ci illərinə qədər kəndlərdə xalq maarifi və məktəb təhsilini ləngidən, ona mane olan başlıca səbəb müəllim kadrları ilə əlaqədar idi. QTD popeçitelinin 1878-ci ilə aid hesabatında oxuyuruq: «Ölkədə müəllim kadrları hazırlayan xüsusi müəssisə olmadığından kənd məktəblərini müvafiq hazırlığa malik müəllimlərlə tə'min etmək mümkün olmadı» (səh. 152).

Zaqafqaziyada müəllim kadrları hazırlığı ilə məşğul olan ilk müəssisə yalnız 1866-cı ildə meydana gəldi. Bu «Qafqazda xristianlığı bərpa edən cəmiyyət» tərəfindən Tiflisdə əsası qoyulan Aleksandrovski müəllimlər məktəbi idi ki, 1873-cü ildə Aleksandrovski Müəllimlər İnstitutuna çevrildi. Bu, ali təhsil müəssisəsi deyil, dərəcə e'tibarı ilə orta təhsil müəssisəsi səviyyəsində olub, əsasən şəhər məktəbləri üçün müəllim kadrları hazırlayırdı. Bu məktəbə azərbacanlılar çox nadir hallarda qəbul oluna bilirdilər.

Cəmi Rusiyada olduğu kimi, Zaqafqaziyada da kənd məktəbləri üçün müəllim kadrları hazırlayan xüsusi təhsil müəssisələri–müəllim seminariyaları əsasən keçən əsrin 60—70-ci illərindən sonra meydana gəlməyə və inkişaf etməyə başladı. Bu işdə böyük rus pedaqoqu K.D. Uşinskinin hazırladığı «Müəllim seminaryasının layihəsi» (1861) xeyli rol oynadı. Bu layihədə ibtidai xalq məktəbləri üçün müəllim hazırlığının geniş planı verilmişdi. Rusiyada müəllim seminariyaları əvvəllər ancaq Zemstvo təşkilatları tərəfindən açılırdı. 1867-ci ildə mərkəzi hökumət tərəfindən müəllim seminariyaları haqqında «Əsasnamə» qəbul olundu. Bu əsasnaməyə görə müəllim seminariyaları hökumət tərəfindən şəhərlərdə və kənd yerlərində açıla bilərdi.

1875-ci ildə Xalq Maarif Nazirliyini müəllim seminariyaları üçün «Tə'limat»ı təsdiq edildi ki, bu «Tə'limat» 1917-ci ilə qədər qüvvədə qaldı. Göstərilən «Əsasnamə» və «Tə'limat» əsasında Rusiyada açılan və fəliyyət göstərən müəllim seminariyalarının sayı 1917-ci il yanvarın 1-nə olan mə'lumata görə 171 olmuşdur.

Mərkəzi hökumətin yuxarıda göstərilən «Əsasnamə»si üzrə keçən əsrin 70-ci illərindən başlayaraq Qafqazda və Za-qafqaziyada da kənd məktəbləri üçün müəllim kadrları hazırlayan seminariyalar meydana gəldi. İlk seminariya 1871-ci ildə Kubanda, 1876-cı ildə isə Qori şəhərində açıldı. Sonuncu Zaqafqaziya Müəllimlər Seminariyası (ZMS) adlanırdı. ZMS-nin tə'sisi Zaqafqaziya xalqlarının, o cümlədən Azərbacan xalqının mədəni həyatında mühüm hadisə idi.

Azərbaycanın görkəmli maarifçisi və pedaqoqu H.Zərdabi 1876-cı ildə özünün «Əkinçi» qəzetində yazırdı: «Qori şəhərində bir məktəbxana açılıb ki, orada oxuyan şagirdləri sonra müəllim eləsinlər. O məktəbxanada 20 nəfər erməni və gürcü padşahlıq xərci ilə oxuyacaq. İndi «Qafqaz» adlı qəzet yazıb ki, doğrudur, müsəlmanların məktəbxanaları üçün müəllimləri oxutmaqdan ötrü əlahiddə məktəbxana açılacaq, amma indi müsəlmanlardan hər kəs xahiş etsə zikr olan Qoridə açılan məktəbxanaya öz uşaqlarını öz xərcilə qoya bilər. Orada oxumağa girən kəs gərək qəza məktəbində oxumuş ola və özü 16–19 yaşında ola. Orada 3 il dərs deyiləcək»[1]

Seminariyada təhsil müddəti üç il idi. Buraya 16 yaşdan az olmayanlar RXMN-nin iki sinifli ibtidai məktəbinin proqramı həcmində xüsusi imtahan vermək yolu ilə qəbul oluna bilərdilər. Belə məktəblər az olduğundan kəndli təbəqələrinin seminariyaya qəbul olunması üçün seminariya nəzdində xüsusi hazırlıq sinifləri təşkil edilirdi. Hazırlıq sinfinə ibtidai məktəbi bitirmiş 15 yaşdan yuxarı oğlanlar qəbul olunurdu.

Müəllimlər seminariyasında aşağıdakı fənlər tədris edilirdi: şəriət, pedaqogikanın başlıca məsələləri, rus dili, hesab, həndəsə, ümumi və rus tarixi, coqrafiya, təbiətşünaslıq, hüsnxət və rəsm, gimnastika, nəğmə, pedaqoji təcrübə. Sonuncu daha mükkəməl keçilirdi. Pedaqoji şuranın qərarı ilə peşə də öyrədilə bilərdi.

Beləliklə, 1876-cı il sentyabrın 12-də əsası qoyulan ZMS əvvlcə üç şö'bədən: rus, gürcü və erməni şö'bələrindən ibarət idi. Birinci il seminariyaya qəbul olunan 50 nəfərin içərisində bir nəfər belə azərbaycanlı yox idi. Bu cəhətə təəssüf edən QTD-nin popeçiteli 1876-cı ilə aid hesabatında yazırdı: «Mən şəxsən bu cəhəti Şeyxülislamın nəzərinə çatdırdım və o, yerli müsəlmanlardan heç olmazsa bir nəfərin seminariyada oxuması üçün vəsait ayırmağı və'd etdi».[2]

[1] «Əkinçi» qəzeti, № 10, 1876-cı il.

[2] Sirkulyar... KUO, № 7—8. 1877 əlavə. QTD popeçitelinin 1876-cı ilə aid hesabatı, s. 4; Kavkazskiy kalendarğ na 1878 q. Tiflis, 1877, s. 309.

Məktəb direksiyaları da müəllim kadrlarının çatışmadığını dönə-dönə qeyd etməyə məcbur olurdular. 1878-ci il fevralın 8-də QTD-yə göndərdiyi raportda Bakı–Dağıstan məktəblər direktoru yazırdı: «1878 il iyulun 1-dən açılması nəzərdə tutulan 5 kənd normal məktəbi və yenidən qurulması lazım gələn digər məktəblərdə işləmək üçün müəllimlik hüququ olan şəxslər son dərəcə çatışmır».[1]

İrəvan qubernatoru da 1879-cu ilə dair hesabatında quberniya ərazisində yaşayan azərbaycanlıların təhsil səviy-yəsini yüksəltmək üçün yeni məktəblər açmağı, pedaqoji tələblərə cavab verən tədris vəsaiti hazırlamaqla bərabər, «müsəlman kənd məktəbləri üçün müəllimlər hazırlamağı daha çox zəruri» hesab edir və bu məqsədlə müəllimlər seminariyası tə'sis edilməsini təklif edirdi.[2]

Beləliklə, Azərbaycan kəndlərində təşkil edilən və açılması nəzərdə tutulan məktəblərin müəllim kadrlarına, xüsusilə də azərbaycanlılardan olan müəllimlərə ehtiyacı azərbaycanlılar üçün ayrıca seminariya və ya şö'bənin təşkilini həyati zəruriyyət kimi qarşıya qoydu.

Bu tələblər hökuməti müəllimlər seminariyaları haqqında olan ümumi qanundan kənara çıxmağa, seminariyaların bə'zisində nəinki təkcə provoslavların, həm də xristian olmayan digər millətlərin nümayəndələrinin də oxumasına icazə verməyə məcbur etdi.

QTD-nin popeçiteli Y.M.Neverov o illərə aid bütün hesabatlarında Zaqafqaziya müsəlmanlarının düzgün təşkil edilmiş məktəblərə ciddi cəhd etməsini xüsusi qeyd edir və təbii olaraq müəllim kadrları hazırlığı barəsində düşünməyi təklif edirdi. O, azərbaycanlılardan müəllim kadrları hazırlığını günün tələbi kimi qarşıya qoyurdu. Onun hesabatlarından birində oxuyuruq: «Hal-hazırda bu sahədə bu və ya digər addım atmaq tələbini çətin ki, inkar etmək mümkün olsun».[3]

Popeçitel ilk dəfə, heç olmazsa, Şimali Qafqazda kabardinlər üçün aul müəllimləri hazırlamaq tədbiri kimi, Zaqafqaziyada da bə'zi tədbirlər görməyi lazım bilirdi. O, bu məqsəd üçün Tiflisdə mövcud olan hər iki müsəlman (Əli və Ömər) məktəblərində oxuyan bir və ya iki şagirdin ZMS-da pedaqoji işlə tanış olmasına şərait yaratmağı və sonra onların köməyilə, Tiflis müsəlman məktəbləri nəzdində xüsusi bir şö'bə, – kənd müəllimləri hazırlayan şö'bə — açmağı faydalı hesab edirdi.

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 14995, v. 1 arx.
[2] Gürc. SSR MDA, f. 5, s. 1. İş № 6311, v. 25.
[3] QTD-nin 1875 ilə aid hesabatı. s. 35.

Əlbəttə, Y.M.Neverov azərbaycanlılardan müəllim kadrları hazırlamaq fikrini irəli sürməklə, şübhəsiz ki, xalq maarifinin yayılmasını deyil, özünün dediyi kimi, «Məktəb vasitəsilə ölkədəki müxtəlif xalqları birləşdirmək» məqsədini güdürdü. Lakin onun məxfi məqsədindən asılı olmayaraq, müsəlman xalq məktəbləri üçün müəllim kadrları hazırlamağın zəruriliyini Qafqaz sərdarının nəzərinə çatdırılması ZMS nəzdində açılacaq Azərbaycan şö'bəsi üçün bir növ hazırlıq oldu.

Nəticə e'tibarı ilə, hökumət müəllimlər seminariyası haqqındakı «Əsasnamə»dən kənara çıxmağı, bir sıra seminariyalarda provoslav dininə mənsub olmayanların da seminariyaya daxil olmasına güzəştə getməyə məcbur oldu. Tədris planında dəyişiklik edilərək, müsəlmanlardan olan şagirdlər üçün müsəlman şəriəti və Azərbaycan dili daxil edildi. Bütün bunlar onunla nəticələndi ki, 1879-cu il sentyabrın 23-də Qori şəhərindəki ZMS nəzdində ayrıca bir şö'bə—Azərbaycan şö'bəsi açıldı.[1]

Yeri gəlmişkən bir məsələni də qeyd etmək lazımdır: bə'zi mənbələrdə Azərbaycan şö'bəsinin təşkili heç bir əsas olmadan M.F.Axundovun xidməti kimi göstərilir.[2]

Araşdırdığımız bir çox rəsmi sənədlər bu şö'bənin heç də M.F.Axundovun təşəbbüsü ilə deyil, yuxarıda göstərdiyimiz ehtiyac və tələblər nəticəsində açıldığını təsdiq edir.

Azərbaycan şö'bəsinin ilk inspektoru vəzifəsinə A.O.Çernyayevski, Azərbaycan dili və sünni təriqəti üzrə şəriət müəllimi vəzifəsinə molla Hüseynbəy Qayıbov, şiylə təriqəti üzrə şəriət müəllimi vəzifəsinə isə molla Əbdül–salam Axundzadə (hər üçü 1880-ci il sentyabrın 1-dən), hazırlıq sinfinin müəllimi vəzifəsinə isə K.Q.Urusov tə'yin edildi (13. IX. 1880-ci ildə). Şö'bənin nəzdində təşkil edilən ibtidai məktəbdə Azərbaycan dili müəllimi vəzifəsi hələlik boş idi. Sonralar həmin vəzifəyə həmin şö'bənin ilk mə'zunlarından olan S. Vəlibəyov tə'yin edilmişdir.

Azərbaycan şö'bəsinin və onun nəzdində olan ibtidai məktəbin müvəqqəti Əsasnaməsi 1880-ci il mayın 13-də təsdiq edildi.[3] Əsasnaməyə görə bu şö'bənin məqsədi Zaqafqaziya ölkəsinin

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 1175, v. 27–46.

[2] Bax: Azərbaycan tarixi. 2-ci cild, Bakı, 1964, s. 345; Ə. Seyidov. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən. Bakı, 1958, s. 65; A. Abdullayev. Azərbaycan dilinin tədrisi tarixindən, Bakı, 1966, s. 99, 108; Педагогическая энциклопедия в 4-х томах: т. 1, M., 1064,səh. 156–158.

[3] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 1175, v. 27–46.

azərbaycanlı kəndlərindəki ibtidai məktəblər üçün bilikli və təcrübəli müəllimlər hazırlamaqdan ibarət idi.

Şö'bəyə 16 yaşdan az olmayaraq 40 nəfərin, ibtidai məktəbə isə az yaşlılardan 20 nəfərin qəbul olunması müəyyən edildi. Bunların hamısı dövlət hesabına saxlanılır, Azərbaycan dilini bilən ayrıca tərbiyəçi—inspektorun himayəsi altında ümumi yataqxanada yaşıyırdılar. Qəbul imtahanlarından müvəffəq almayanlar üçün hazırlıq sinfi nəzdində aşağı şö'bə təşkil edilirdi.

Seminariyaya ilk dəfə 32 nəfər qəbul olundu. Bunlardan 24-ü A.O.Çernyayevski tərəfindən yerlərdə seçilərək də'vət olunmuş, qalanları isə öz arzusu ilə gəlmişdi. Bunlardan 19-u şö'bənin əsas siniflərinə, 13-ü isə hazırlıq sinfinə qəbul olundu. Seminariyaya ilk qəbul olunanlar içərisində gələcəyin məşhur pedaqoqlarından S.Vəlibəyov, F.Köçərli, R.Əfəndiyev, M.Mahmudbəyov və b. var idi. Qəbul olunanlar əsasən şəhər və qəza məktəblərinin şagirdləri idilər. İlk dəfə qəbul olunanlardan 3-ü Naxçıvan qəza məktəbindən, 13 nəfəri isə Şuşa şəhər məktəbindən idi.

Yeri gəlmişkən onu da qeyd edək ki, bə'zi mənbələrdə heç bir əsas olmadan bu şö'bəyə yalnız şəhər məktəblərini bitirənlərin qəbul olunduqları göstərilir. Məsələn, prof. A.Abdullayev yazır: «A.O.Çernyayevski bu şö'bəyə rusca bilən azərbaycanlı tələbələr cəlb etmək üçün Yerevan, Naxçıvan, Şuşa, Şamaxı, Nuxa, Qazax və s. yerlərə gedib, həmin şəhərlərdə «Городское училище» adlanan məktəblərdən azərbaycanlı uşaqları siyahı üzrə ayırır və seminariyaya qəbul edir».[1]

Əslində, bu vaxt göstərilən şəhərlərin heç də hamısında «Городское училище» (şəhər məktəbi—H.Ə) yox idi. İrəvanda (şəhər o vaxt Yerevan deyil, İrəvan adlanırdı) bu növ məktəb çox sonralar, 1899-cu ildə açılmışdı. Qazaxda isə o zaman belə məktəb olmamış, Naxçıvanda şəhər məktəbi yenicə (1879-cu il iyulun 1-də) açılmışdı.

Prof. A.Abdullayev sözünə davam gedərək yazır: «Bu qəbul edilənlər içərisində sonralar Azərbaycanın görkəmli maarif, mədəniyyət və incəsənət işçiləri, iste'dadlı metodistlər kimi məşhur olan Rəşidbəy Əfəndiyev, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Firidun bəy Köçərli, Mahmudbəy Mahmudbəyov, Fərhad Ağazadə, Üzeyir Hacıbəyov, Süleyman Sani Axundov, Qafur Rəşad Mirzəzadə, Müslüm Maqomayev və başqaları da vardı». Halbuki, bu adamların heç də hamısı Çernyayevski tərəfindən 1879-cu

[1] A. Abdullayev. Göstərilən əsər, s. 100.

ildə seçilib qəbul edilənlər deyildilir. Mə'lum olduğu kimi, C.Məmmədquluzadə seminariyaya 1882, N.Nərimanovla S.S.Axundov 1885, Ü. Hacıbəyov ilə M.Maqomayev 1889-cu ildə daxil olmuşdur və s.

İlk dəfə təşkil edilməsinə baxmayaraq, Azərbaycan şö'bəsinin tələbələri qəbul imtahanlarında elə ilk gündən fərqləndilər. Rəsmi sənədlərdən birində oxuyuruq: Çernyayevskinin tələbə toplamaq məqsədilə bilərəkdən e'zam edilərək yerlərdə tələbə seçməsi və qismən imtahan etməsi nəticəsində azərbaycanlıların seminariyaya daxil olmaq üçün hazırlaşan xristianlardan, ümumiyyətlə, yaxşı imtahan vermələri aşkar oldu.[1] Seminariyaya qəbul olunmaq istəyənlərin sayı get-gedə artırdı. L.Modzalevski yazır ki, bu şö'bənin birinci qəbuluna əsasən şəhər və qəza məktəblərini bitirənlərdən 60-a qədər gənc azərbaycanlı gəlmişdi. Bunlar rus dilinə o qədər yaxşı bələd idilər ki, onlardan bir neçəsi, hətta birbaşa seminariyanın ikinci sinfinə daxil ola bildilər.[2]

Müəllimlər seminariyasında ehtiyacı olan tələbələrə təqaüd verilirdi. Bu, onun müsbət işi kimi qeyd edilməlidir. Doğrudur, hökumətdən təqaüd alanlar ən azı 4 il kənd məktəblərində qulluq etməli idilər. Lakin bununla belə təqaüd verilməsi nəticəsində kasıblardan olanlar da təhsil ala bilirdi.

Seminariyalarda pedaqoji-metodiki işlərə daha çox diqqət yetirilirdi:

1882-ci ildə bu şö'bənin ilk buraxılışı oldu. Azərbaycan məktəb tarixində pedaqoji təhsil almış azərbaycanlı müəllimlərin ilk dəstəsi səhnədə görünməyə, pedaqoji cəbhədə fəaliyyət göstərməyə başladı. Bu şö'bənin mə'zunlarının hələlik sayca az olmasına baxmayaraq, onlar Zaqafqaziyanın bir çox azərbaycanlı kəndlərində dünyəvi məktəblərin əsasını qoydular.

Çarizmin ucqarlarda xalq maarifi sahəsindəki mürtəce siyasətinin nəticəsi olaraq ZMS Azərbaycan şö'bəsinin Azərbaycan şəhərlərindən birində deyil, Azərbaycandan uzaq bir yerdə, Qori şəhərində açılmasına baxmayaraq, onun təşkili XIX əsrdə müəllim kadrları hazırlığında mühüm mərhələ təşkil edir. Bu şö'bə təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyadakı müsəlman kənd məktəbləri üçün xalq müəllimləri hazırlığında mühüm rol oynadı. Şö'bənin mə'zunları Azərbaycanda xalq maarifinin məşhur carçıları,

[1] Sirkulyar... KUO. № 11, 1879, s. 402.
[2] Ход учебного дела на Кавказе с. 1802 по 1880 г. Тифлис. 1880, с. 86.

dünyəvi təhsilin ilk intişar etdiriciləri oldular. Azərbaycanda xalq maarifi, məktəb, ədəbiyyat, mədəniyyət və incəsənətin bir çox görkəmli nümayənədləri, o cümlədən F.Köçərli, R.Əfəndiyev, S.Vəlibəyov, C.Məmmədquluzadə, N.Nərimanov, M.Mahmudbəyov, F.Ağazadə, Ü.Hacıbəyov, M.Maqomayev, S.S.Axundov, Qafur Rəşad, T.Bayraməlibəyov, prof. Ə.Y.Seyidov və bir çox başqaları məhz həmin seminariyada təhsil almışlar. Azərbaycan şö'bəsinin təşkilində, onun tərəqqisində A.O.Çernyayevskinin çox mühüm xidmətləri olmuşdur.

A.O.Çernyayevskinin burada vaxtaşırı keçirdiyi konfranslarda Azərbaycan ibtidai məktəblərinin düzgün təşkil edilməsinin tamamilə yeni yolları, tə'lim üsulları geniş müzakirə edilirdi. O, buraxılış sinfi üçün savad tə'limi üsulu, məktəbşünaslıq və hüsnxət üzrə xüsusi dərslər verir, şö'bənin təsərrüfat və hesabat işlərini aparır, ibtidai məktəbdə dərs deyir və səs üsulu ilə yeni dərsliklərin tərtibi üzərində işləyirdi.[1]. Azərbaycan müəllimlərinin böyük bir dəstəsi A.O.Çernyayevskidən dərs almışdır. Müəllim və onun hazırlığına dair K.D.Uşinskinin müddəalarını rəhbər tutan Çernyayevski yazırdı: «...İbtidai xalq məktəblərinin canı müəllimdir. Tədris işinin müvəffəqiyyəti ondan asılıdır. O, kənd əhalisinin qaranlıqda qalankütləsi içərisinə maarifin pioneridir» Bu cəhətdən o, ZMS-nın Azərbaycan şö'bəsinin mə'zunlarının rolunu ayrıca qeyd edirdi: «Həqiqətən, demək lazımdır ki, tatar (azərbaycanlı–H.Ə.) şö'bəsi mə'zunlarının çoxu, olduqca çoxu avam xalq kütləsi içərisində təhsil işığı gətirmiş və gətirir».[2]

Yeri gəlmişkən əlavə edək ki, təkcə 1879–1883-cü illərdə seminariyanın azərbaycanlı şö'bəsini xalq müəllimi hüququ ilə 67 nəfər bitirmişdi ki, onlardan 53 nəfəri bilavasitə xalq məktəblərində fəaliyyət göstərirdi.

A.O.Çernyayevskidən sonra,[3] F.Köçərli, R.Əfəndiyev, S.Vəlibəyov öz müəlliminin şərəfli yolunu davam etdirərək həmin şö'bəyə rəhbərlik etmiş, seminariyada oxuyan tələbələrin elmi-pedaqoji və metodiki hazırlığında unudulmaz xidmətlər göstərmişlər.

Seminariyanın Azərbaycan şö'bəsi tə'sis edildiyi gündən özünün bir sıra faydalı ən'ənələri və müvəffəqiyyətləri ilə daim diqqəti cəlb

[1] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 1175, v. 12.
[2] «Qafqaz» qəzeti, № 242, 1893.
[3] A.O. Çernyayevski 1894-cü il dekabrın 14-də Tiflisdə vəfat etmişdir («Qafqaz» qəzeti, № 24, 1895). «Azərbaycan tarxi»nin II cildində onun vəfatı tarixi səhvən 1897-ci ilə aid edilir, s. 345.

etmişdir. Məsələn, 1900-cü ildə Parisdə keçirilən ümumdünya sərgisində ZMS-nın Azərbaycan şö'bəsinin göndərdiyi bir sıra materiallar yüksək qiymətləndirilmiş və qızıl medala layiq görülmüşdür.[1]

Azərbaycanlılardan ibarət müəllim kadrlarının hazırlanması yerlərdə yeni-yeni məktəblr açılmasına şərait yaratdı və bu işi sür'ətləndirdi.

Beləliklə, keçən əsrin 80-ci illərindən başlayaraq Zaqafqaziyada olduğu kimi, Azərbaycanda da xalq maarifi və məktəbin inkişafı üçün nisbətən əlverişli şərait yarandı. Bir tərəfdən yerlərdə xalq məktəblər direksiyasının təşkil edilməsi, digər tərəfdən isə ZMS nəzdində Azərbaycan şö'bəsinin yaradılması xalq məktəblərinin tədricən tə'sisi və genişlənməsi ilə nəticələndi və xalq məktəblərinin təşkili əsasları nisbətən möhkəmləndi. ZMS Azərbaycan şö'bəsində müəllim kadrları hazırlığı kəndlərdə xalq məktəblərinin təşkilində və inkişafında xeyli dönüş yaratdı. Həmin şö'bənin təşkili ilə eyni vaxtda şö'bə nəzdində seminaristlər üçün nümunə məktəbi olan ibtidai məktəb də təşkil edildi ki, burada məktəb terminləri təkmilləşdirilir, xalq məktəblərinin təşkili qaydaları öyrədilir, ana dili tə'limində yeni üsul–səs üsulu tətbiq edilir, nümunə dərsləri keçilirdi. Bu məktəb həmçinin seminariya mə'zunlarının gələcəkdə təşkil edəcəkləri xalq məktəblərinin nümunəsi idi. A.O.Çernyayevski sonralar yazırdı: «Bu şö'bədən buraxılan ilk müəllimlərlə, şö'bənin nəzdində olan ibtidai məktəb nümunəsində müsəlman kəndlərində düzgün təşkil edilmiş xalq məktəbləri açılmağa başlandı ki, kənd əhalisi içərisində xalq təhsili də məhz bu vaxtdan yayılmağa başladı».[2]

Keçən əsrin 80-ci illərindən başlayaraq istər dövlət, istərsə də zemstvo və kənd ictimaiyyəti vəsaiti ilə açılan kənd məktəblərinin sayı ildən-ilə çoxalmağa, azərbaycanlı balalarının rus dili ilə bərabər ana dilində tə'lim və tərbiyə alması işi xeyli yaxşılaşmağa başladı.

Zaqafqaziya Müəllimlər Seminariyası azərbaycanlıların müəllim kadrları hazırlığında tarixi rol oynadı.

[1] Bu haqda bax: Sirkulyar... KUO. № 10 1900 əlavə [1] 12 1900 г. Тифлис, 1902. . Учительские семинарии и в частности Закавказска на Парижской всемирной выставке 1900 г., Тифлис, 1902.

[2] «Qafqaz» qəzeti, № 242, 1893-cü il.

ŞƏKİDƏ İLK DÜNYƏVİ TƏHSİL MƏKTƏBİ[1]

Şəki hələ qədimdən Azərbaycanın görkəmli elm, mədəniyyət mərkəzlərindən biri olmuş, burada Şərqin böyük karvansaraları dünya ticarətinin ən məşhur sövdəgərlərini buraya gətirib çıxarmışdır. XIX əsrdə Şəki həm də ipək e'malı manufakturalarının daha çox fəaliyyətdə olan bir mərkəzi kimi fransızların, ingilislərin, yaponların və italyanların diqqətini özünə cəlb etmiş, Azərbaycanın Rusiya tərəfindən işğalından sonra Şəkidə çar üsul-idarəsinin onlarca mə'muru və xeyli hissəsi özünə məskən salmışdır.

Şərq elminin və islamiyyətin güclü tə'siri ilə Şəkidə bir çox dini məktəb, məktəbdarlar, müdərrislər, katiblər və alimlər fəaliyyət göstərir, islam dini, Şərq təbabəti, fəlsəfəsi və dilçiliyə aid ən gözəl əlyazmaları, ən mö'təbər kitablar sür'ətlə yayılır, maarifə meyl güclü bir axına çevrilirdi. Şəki xanları, tacirləri və manufaktura sahibkarları öz övladlarını Avropanın bir çox universitetlərinə, İran, Türkiyə və Qahirənin məşhur elm ocaqlarına oxumağa göndərir, Rusiyadakı gimnaziyalarda və seminariyalarda çoxlu şəkili gənc oxuyur, təhsil alırdı. Şəki qəzası o zamanlar böyük bir ərazini əhatə edirdi. Bu qəzaya indiki Şəki, Oğuz və Qəbələ rayonları daxil idi. Müxtəlif millət və xalqların yaşadığı bu mürəkkəb regionda çar Rusiyası öz müstəmləkəçilik siyasətini yeritmək üçün heç nəyi əsirgəmirdi.

Şəki mühitinin bu xarakterik xüsusiyyəti çar mə'murlarının diqqətindən yayınmamış, keçən əsrin 20-ci illərindən başlayaraq Azərbaycanın bir sıra qəza şəhərləri ilə yanaşı, Şəkidə də rus dilində qəza məktəbi açmaq zəruriyyəti meydana gəlmişdir. Burada rus dili ilə yanaşı Azərbaycan dili, şəriət, hesabdan ilk dörd əməliyyat, hüsnxət fənləri tədris edilirdi. Qəza məktəbinin tə'sis edilməsindən məqsəd o deyildi ki, azərbaycanlılar maariflənsin, elm və mə'rifət qazansın, savadsızlığın daşını atsın. Məqsəd başqa idi. Çarizm yerli əhalinin kiçik bir qrupunu Rusiya qayda-qanunlarına və maarifinə yaxınlaşdırmaq, ilk növbədə isə dövlət üçün çinovniklər, rus və Azərbaycan dilini bilən tərcüməçilər hazırlamaqdan ibarət idi. Elə 1831-ci ilin dekabr ayının 30-da ilk dəfə fəaliyyətə başlayan Şəki qəza məktəbinin şagird kontingentinin sinfi tərkibi də bu məktəbin qapılarının yoxsullar və imkansızların üzünə bağlı olduğunu göstərirdi. 1883-cü ildə Şəki qəza məktəbində təhsil alanların ümumi sayı 29 nəfər idi. Bu isə qəza əhalisinin hər 4 min nəfərindən birinin

[1] Qeyd: Məqalə filologiya elmlər namizədi Sabir Əfəndiyevlə birgə yazılmışdır.

bu məktəbdə oxuması demək idi. Şagirdlərin 21-i tacir, 8 nəfəri isə ruhani uşağı olduğunu göstərməklə kifayətlənsək, bu təhsil ocağının hansı məqsədlə açılmasının izahına ehtiyac qalmaz. Zaqafqaziya məktəblərinin o vaxtkı direktoru, mülki müşavir Qruber 1833-cü ildə çarizmin milli məhdudiyyətçilik və xalqı cəhalətdə saxlaması siyasətinə başqa don geydirmək məqsədilə yazmışdı ki, guya Şəki qəza məktəbi bu yaxınlarda açıldığına görə hələlik şagirdlərin sayı azdır, ona görə də məktəb üçün xüsusi bina tikməyə ehtiyac yoxdur. Bu səbəbdən də məktəb uzun illər kirayə edilmiş binada yerləşmişdir.

Sonrakı illərə nəzər salaq. Məktəbin, 1841-ci ildə şagirdlərinin sayı 59, 1845-ci ildə 66, 1850-ci ildə 61, 1860-cı ildə isə 83 nəfər olmuşdur.[1] Göründüyü kimi, artım çox cüz'i idi.

1835-ci ildə Zaqafqaziya məktəblərinin yeni nizamnaməsi təsdiq edildi. Bu nizamnamə ikisinifli mövcud qəza məktəblərini üçsinifli məktəbə çevirməyi nəzərdə tuturdu. Burada tədris edilən fənlərin əhatəsini genişləndirmək, Azərbaycan və rus dilləri ilə yanaşı, həm də erməni dili (ermənilər üçün), coğrafiya, tarix, hesab və həndəsədən ilk mə'lumat, hüsnxət rəsm və şəkil tədris edilməsi lazım bilindi. Zaqafqaziyada ən çox işlədilən Azərbaycan dilinin tədrisinə xüsusi diqqət verilirdi. Müəllim hey'ətinin 3 nəfər əvəzinə 5 nəfər olması təsdiq edilmişdi. Bunlardan üç nəfəri elm-fənn müəllimləri hesab olunurdu ki, onlardan biri iki yuxarı sinifdə rus dili, coğrafiya və tarix, digəri hesab, hüsnxət, rəsm və şəkil tədris edir, üçüncüsü isə birinci sinifdə oxu və yazı, hesabdan dörd əməliyyat öyrətməli idi. Qalan iki müəllim isə özlərinin və şagirdlərin mənsub olduqları şəriəti və dilləri tədris etməli idi. Məktəb üçün müvafiq binanın olmaması və müəllim kadrlarının çatışmaması üzündən bu Nizamnamə çox ləng— həyata keçirildi. Şəkidə III sinif Nizamnamə qəbulundan doqquz il sonra, yalnız 1884-cü il sentyabrın 1-də açıldı.

1844-cü ildə Şəki qəza məktəbində oxuyanların sayı 70-ə çatmışdı. Həmin ildə birinci sinifdə 40, ikinci sinifdə 20, üçüncü sinifdə isə 10 şagird oxuyurdu.[2] Birinci sinifdə qarşılıqlı tə'lim üsulu tətbiq edilirdi. Bu illərdə Şəki məktəbində olmuş Zaqafqaziya təhsil hissə rəisi özünün mə'lumatında yazırdı: Birinci sinif şagirdlərinin bir çoxu rus dilində yaxşı oxuyur, həmçinin hesabdan üç əməliyyatı bilirlər, rus dilini kifayət qədər başa düşürlər, yaxşı yazırlar və s.

[1] LMDTA, f. 1268, s. 1, iş № 579; yenə orada, f. 733, s. 201, iş № 1047. Gürc. SSR MDA, f. 425, s. 1, iş № 21, müxtəlif vərəqlər.
[2] LMDTA, f. 733, s. 82, iş № 65, v. 105, arx.

Göründüyü kimi, çarizmi məktəbin maddi tə'minatı, ilk növbədə yerli əhalinin geniş şəkildə savada, təhsilə cəlbi deyil, orada yuxarı təbqələrdən olan varlı uşaqlarının rus dilinə necə yiyələnməsi, gələcəkdə onlardan öz mənafelərinə uyğun istifadə edilməsi maraqlandırırdı. Bunu məktəbdə müxtəlif illərdə oxuyan şagirdlərin milli və sinfi tərkibi haqqındakı aşağıdakı mə'lumatdan da görmək olar:

Məsələn, 1833-cü ildə məktəbdə təhsil alan cəmi 29 şagirdin 8 nəfərini knyaz, dvoryan və çinovnik uşaqları, 21 nəfərini isə azad vətəndaş və tacir uşaqları təşkil edirdi. 1837-ci ildə burada oxuyan cəmi 65 nəfər şagirdin 32 nəfəri azərbaycanlılar, 33 nəfəri isə ermənilər idi. 1843-cü ilin mə'lumatına görə burada oxuyan 77 şagirddən 20 nəfəri azərbaycanlılar, 4 nəfərini ruslar, 53 nəfərini isə ermənilər təşkil edirdi.

Şagird sayının azlığı həm də tədris binasının yoxluğu və darısqallığı ilə əlaqədar idi.

Şəki şəhərində indiki diş poliklinikasının arxasındakı darısqal binada dərslər keçilir, binanın sahibi isə hər dəfə kirayə haqqını çoxaltmaq üçün icarə müqaviləsini pozaraq otaqların boşaldılmasını tələb edirdi. Özünü qüdrətli sayan rus çarizmi isə qəza məktəbi üçün bina tikilməsini müxtəlif bəhanələrlə süründürürdü. Belə olduqda əlacsız qalan camaat pul yığıb məktəb binası tikmək fikrinə düşmüşdü. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Şəki əhalisi tərəfindən məktəbə göstərilən maddi yardımın çoxluğuna görə bu qəza məktəbi başqa qəza məktəblərindən fərqlənirdi. Yığılan vəsait Zaqafqaziyanın o zamankı baş hakimi baron Rozenin diqqətini xüsusilə cəlb etmişdi. Məhz bunun nəticəsidir ki, o, Şəkidə qəza məktəbinin binasını yerli əhalidən toplanan pulla tikməyi lazım bilmiş, bu haqda xüsusi sərəncam vermişdi.

Qəza məktəbinin bir sıra qüsurlu cəhətlərinə, çarizmin məxfi məqsədinə, azərbaycanlı uşaqların hələlik azlıq təşkil etməsinə baxmayaraq, Şəki qəza məktəbi, digər təhsil ocaqları ilə yanaşı Azərbaycanda dünyəvi təhsilin, rus dilinin, rus dili vasitəsilə mütərəqqi rus və dünya mədəniyyətinin Azərbaycanda yayılmasına əlverişli şərait yaratdı. Şəki qəza məktəbində rus dilində ilk təhsil alanlardan biri gələcəyin məşhur yazıçı və filosofu Mirzə Fətəli Axundov olmuşdur. Bu məktəbdə sonralar Mirzə Fətəli kimi onlarca azərbaycanlı balaları rus dilinə, dünyəvi təhsilə yiyələnmişdir. Dövrünün məşhur pedaqoqu və maarifçisi olan Rəşidbəy Əfəndiyevdə ilk təhsilini məhz burada almışdır.

Azərbaycanda fəaliyyət göstərən digər məktəblərlə yanaşı, Şəki qəza məktəbi də, 60-cı illərin məktəb islahatı ilə əlaqədar olaraq, 1877–1878-ci dərs ilində şəhər məktəbinə çevrildi.[1] Qəza məktəbi kimi, Şəki şəhər məktəbi də əhali arasında dünyəvi təhsilin yayılmasında xeyli rol oynadı. 1882-ci ildə xüsusi musiqi sinifləri açıldı. Bura 25 şagird cəlb edilmişdi. 1890-cı ilin mə'lumatına görə Şəki şəhər məktəbində 136 şagird təhsil alırdı. 1895-ci ildə şagirdlərin sayı artıq 167 idi. Bunlardan 112 nəfə-rini şəhər sakinlərinin uşaqları təşkil edirdi.

Məktəbin zəngin kitabxanası var idi. Cəmi Qafqazdakı şəhər məktəbləri içərisində öz mə'zunlarının çoxluğuna görə Şəki və Şuşa şəhər məktəbləri irəlidə gedirdi. Məktəbin nəzdində xüsusi ipəkçilik şö'bəsi var idi. Rəsmi mənbələrdə məktəbin şagird və müəllimlərinin qüvvəsilə ədəbi-bədii gecələr keçirməyə, səhərciklər və tamaşalar təşkil etməyə aid maraqlı mə'lumatlar saxlanılmaqdadır.

Məsələn, Şirəlibəy Əmircanovun Şəkidə təşkil etdiyi teatr tamaşasından toplanan 92 man. 67 qəp. şəhər məktəbinin kasıb tələbələrinə xərclənmişdi.

Əsrin sonlarında Şəki şəhər məktəbi nəzdində həm də ayrıca bazar günü məktəbi və kursları fəaliyyət göstərirdi.

Şəki qəza (şəhər) məktəbinin müvəffəqiyyəti qəzanın kənd yerlərində də təhsilin rus dilində verildiyi ilk dünyəvi təhsil ocaqlarının meydana gəlməsinə və inkişafına qüvvətli tə'sir göstərirdi. 1882-ci ildə Qutqaşendə, 1883-cü ildə Xaçmaz, Vəndam, Padar, sonralar Aşağı Göynük və Qoxmux, keçən əsrin sonlarında, 1898-ci ildə Nic, Yaqublu, Ağpilə-kənd, Göybulaq və Daşbulaqda kənd məktəblərinin əsası qoyuldu.[2]

Azərbaycanın digər qəzalarında olduğu kimi, Şəkidə də təşkil edilən ümumtəhsil məktəbləri maarifin inkişafına, onun yeni, dünyəvi xarakter daşımasına, hətta ruhani məktəblərinin yeni üsullu məktəblərə çevrilməsinə qüvvətli təkan verdi. Keçən əsrin 90-cı illərində Şəkidə məscid məktəblərinin yenidən qurulması sahəsində ilk addımlar atıldı. 1896-cı il iyunun 2-də Şəkidən «Qafqaz» qəzetinə göndərilən bir müxbir məktubunda deyilirdi ki, «Ərzurumda, ən yaxşı mədrəsələrin birində, əsaslı şəriət təhsili almış, Axalkələk sakinlərindən olan bir müsəlman (Məmmədəminə işarədir— müəlliflər) məhəllə sakinlərinin arzusu ilə bizim məscidlərdən birinə

[1] QTD popeçitelinin Sərəncamları, Tiflis, 1877, № 12, s. 35; rusca.
[2] QTD popeçitelinin Sərəncamları, Tiflis, 1883, № 12, s. 633, rusca; Gürc. SSR MDA, f. 422, s. 1. İş № 58; 48, v. 51; iş № 6315, v. 27; 29; 36.

müəllim sifətilə də'vət edildi. O, müəllimlik edəcəyi məktəbi görərkən, məktəbin bütün quruluşunu Avropa nümunəsində dəyişdirməyi tələb etdi və bunsuz müəllimliyə başlamağa razılıq vermədi».[1]

Məmmədəmin Şeyxzadə məktəbin yenidən qurulmasına aid plan ilə Baş məscidin fəxri nümayəndəsi Məmməd Əfəndiyevə, şəhər qazısına və digər nufuzlu şəxslərə, müraciət etdi. Onu hüsn-rəğbətlə qarşılayıb bu planı bəyəndilər. Yeni tipli məktəbin açılması bütün şəhərdə böyük bir təntənəyə çevrildi.[2]

Maarifə və məktəb işinə bəslənilən bu rəğbət Şəki qəza məktəbinin güclü tə'sir yaratması ilə əlaqədar idi. Bununla belə, çarizm milli ucqarlarda xalq maarifinin yayılmasından açıqdan-açığa qorxurdu. Çar mə'murlarının milli ucqarlarda maarifin inkişafına xəzinədən vəsait xərcləməyə əli gəlmirdi. Sonralar Şəki qəzası III Şuralar qurultayının sənədlərindən birində bu barədə deyilmişdir: «...Nikolay zamanı qəzamızda cəmi 16 məktəb var idi. Bunlardan biri ali-ibtidai məktəb idi ki, burada dərslər rusca gedirdi. 1914-cü sənədə dəfərlərlə müraciət edilərək Nuxada bir ünas (qadın) gimnaziyası açılmağa izn istənilmişdi. Min dəfə müraciətdən sonra, nəhayət, «Müqəddəs Nina» məktəbi adı ilə məktəb açılmasına izn verildi. Bu məktəb Zaqafqaziya canişininin idarəsi yanında olan missionerlər cəmiyyəti tərəfindən idarə edilirdi. Həmin sənəddə yenə müraciətlə zükür (kişi) gimnaziyası açılmasına izn istədim. Buna ancaq belə izn verildi ki, bu məktəb camaat xərcinə saxlanılacaqdır».

Maarif işini tamamilə öz öhdəsindən atan, çarizmin üsul idarəsindən və onun yerli nökərləri olan çinovniklərdən mərhəmət gözləməyin mə'nasızlığını görən Şəkinin bir qrup ziyalısı məktəb işlərinin qaydaya salmaq məqsədilə 1917-ci ilin aprel ayının 1-də «Hüriyyəti-maarif cəmiyyəti» təşkil etdilər. Cəmiyyətin 18 nəfərdən ibarət fəxri sədri Şəki qəzası əhalisi arasında böyük nufuzu olan maarifpərvər, mütərəqqi fikirli Nurməhəmməd Əfəndi İmamzadə, sədrin müavini isə maarif fədaisi Abdulla Abdulhəmidzadə idi.[3]

Çarizmin devrilməsi ilə əlaqədar 1917-ci ildə Şəki qəza (şəhər) məktəbində dərslər dayandırılmış, şagirdlər və müəllimlər küçəyə atılmışdır. «Hürriyyəti-maarif cəmiyyəti» ilk növbədə həmin məktəbi öz himayəsinə aldı və bir illik fasilədən sonra məktəbdə dərslər

[1] «Qafqaz» qəzeti, 1896-cı il, № 161.
[2] Yenə orada.
[3] «Hüriyyəti-maarif cəmiyyəti»nin 1918–1919-cu illər üzrə hesabatı. Şəki, 1919-cu il, s. 3.

davam etdirildi. Cəmiyyətin 1918–1919-cu illər ərzində topladığı 11 min 611 manat vəsait hesabına qəzada yeni məktəblər, bu məktəblərdə dərs demək üçün müəllimlər hazırlayan savad kursları, ən başlıcası isə daha çox savadsız və yoxsul əhali yaşayan şəhərin Yuxarıbaş hissəsində qız məktəbi açıldı. Adı çəkilən cəmiyyətin hesabat kitabçasında bu barədə belə bir qeyd vardır: «Qız balalarının oxuyub təhsil alması cəmiyyətin məqsədlərindən birisi olduğundan maarifcə ən geridə qalan şəhərin Yuxarıbaş hissəsində pulsuz olaraq bir qız məktəbi açmağa nail olduq. Burada yoxsul qızların kitab, qələm, dəftər xərclərini cəmiyyət ödəyirdi».

Cəmiyyətin fəaliyyətində şəhər məkəbinin keçmiş müəllimləri yaxından iştirak edir, onlar Şəkidə yeni məktəblərin açılması, məktəblərə vəsait buraxılması üzrə ərizə və şikayətlər yazıb göndərirdilər. Maddi qüdrəti gücləndirmək məqsədilə cəmiyyətin fəaliyyətinə sonralar adlı-sanlı maarifçi kimi tanınan Əbdülrəşid Əfəndizadə, Əskərağa Məmmədzadə, Mirhəsən Axundzadə, Rəcəb Əfəndi-zadə, Ələkbər Mahmudov və b. ilə yanaşı Hacıqədir Hacı-əhməd oğlu, Hidayət Hacı Əfəndi oğlu, Yusif Xəlilzadə, Musa Mərdanov kimi tacir və məşhur sənətkarlar, Hacı Məmmədsadıq Əliyev kimi fabrikantlar da daxil idilər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Şəki şəhər məktəbinin binasını Hacı Məmmədsadıq Əliyev 1896-cı ildə öz vəsaiti hesabına tikdirmişdir. Hazırda bu binada yubileyi qeyd edilən şəhər 5 nömrəli səkkizillik ümumtəhsil məktəbi yerləşir.

XX əsrin əvvələrində Azərbaycanın digər yerlərində olduğu kimi, Şəkidədə bir neçə rus-müsəlman məktəbindən savayı, milli təhsil ocaqları yox idi. «Hürriyyəti-maarif cəmiyyəti» ilk növbədə bu boşluğu doldurmaq üçün «Milli məktəblərin güşadına iqdam etdi». Şəki qəza məktəbi nəzdində açılan və məşhur maarifçi və pedaqoq Rəşidbəy Əfəndiyevin başçılıq etdiyi müəllimlər hazırlayan kursda 1918-ci ildə 60-a qədər tələbə oxuyurdu. Onların arasında təkcə Şəki qəzasından deyil, Şamaxıdan, Qarabağdan gələnlər də var idi.

Müəllimlər hazırlayan kursların Azərbaycanda maarif və mədəniyyətin inkişafına güclü tə'siri olmuşdur. «Vətən» məktəbinə kursun ən bacarıqlı müdavimləri göndərildi, «Hürriyyəti-maarif cəmiyyəti» məktəbin saxlanması xərclərini öz boynuna götürürdü, məktəb nəzdində yaşı keçmiş gənclər üçün savad kursu təşkil etdi və qəzada 25 məktəb açılmasına nail oldu.

Şəki məktəbinin müəllimləri və şagirdlərinin yaxından iştirakı ilə təşkil edilmiş teatr truppası 1918-ci ildə M.F.Axundovun «Hekayəti Molla İbrahimxəlil kimyagər» pyesinin tamaşasından toplanan 816 manat vəsaiti qəzada maarifin inkişafına xərclənməsi üçün cəmiyyətin xəzinəsinə vermişdilər.

Şəki maarifçiləri 1920-ci ildən sonra özlərinin fəaliyyətini daha da genişləndirmək üçün şəhərdə və qəzanın başqa yerlərindəki əhaliyə «elm və maarif nəşr etmək» və onları «mədəniyyət aləminə sövq etmək» üçün xüsusi proqram hazırladılar. Proqrama görə maarifçilərin sahə fəaliyyətinə mövcud məktəb və mədrəsələrə maddi-mə'nəvi kömək etmək, gimnaziyalarda və darülfünunlarda oxuyanları, qəzadakı fağır və yetim balaları öz himayələrinə almaq, məktəb yaşınadək olan uşaqları bağçalara (darültərbiyələrə) cəlb etmək, xalq darülfünunları (universitetləri) açmaq, kitaba və dərsliklərə olan ehtiyacı tə'min etmək, qiraətxanalar, məktəblər, savadsızlığı ləğv edən kurslar təşkil etmək və s. daxil idi. Bütün bunlar keçmiş Şəki qəza məktəbinin dərin tə'siri altında genişlənən maarif hərəkatının uğurlu dalğaları idi. Bu dalğalar Azərbaycanda 1920-ci ildən sonra geniş axına, gözəl bəhrəli əməllərə çevrilməyə başladı. Azərbaycanda Bakıdan sonra, Şəki qəzası güclü maarif bazasına malik bir ərazi kimi gənc respublikaya mütəxəssislər hazırladı. 1920-ci ildə Şəkidə pedaqoji məktəb, 1921-ci ildə ali məktəblərə tələbə hazırlayan fəhlə fakültələri, 1923-cü ildə isə sənaye və tibb texnikumları açıldı.

1920–1923-cü illər Şəki xalq maarifinin yenidən qurulma və inkişafetmə illəri kimi tarixə daxil idi. 1922-ci ildə maarif xadimlərinin və əhalinin yaxından köməyi ilə şəhərin Qışlaq hissəsində yeni məktəb tikintisinə başlandı. Kiçik Dəhnə, Böyük Dəhnə, Suçma kəndlərində məktəblərin maddi-texniki bazası və onların ixtisaslı müəlimlərlə tə'min edilməsini yaxşılaşdırmaq sahəsində bir sıra tədbirlər görülürdü.

Şəki qəzasında maarifin geniş təşəkkül tapması üçün başqa tədbirlər də həyata keçirilirdi. Bunlardan biri ayrı-ayrı ruhanilər tərəfindən yeni tədris və tərbiyənin ziddinə olan hücrə və məktəblərin fəaliyyətinə son qoymaq məsələsi idi. Bu məqsədlə Şəki qəza İcraiyyə Komitəsinin 8 fevral 1923-cü il 6 nömrəli qərarı böyük əhəmiyyət kəsb etdi. Bu qərara əsasən qəzada olan bütün xüsusi məktəblər bağlandı. Milli maarif şö'bəsindən icazəsiz məktəb və başqa dərs yeri açmaq qadağan olundu.

1920–1930-cu illər ərzində Şəki qəzasında savadsızlığı ləğv edən 100-dən çox kurs açıldı, qiraət komaları, fəhlə-kəndli klubları təşkil edildi. Artıq 1930–1940-cı illərdə təhsildən kənarda qalan heç bir uşaq yox idi. Beləliklə, qəzada ümumi icbari yeddillik natamam orta təhsilə keçmək üçün hər cür zəmin vardı.

Bu təhsil sisteminə keçməyi asanlaşdırmaq, məktəbləri yüksək ixtisaslı müəllimlərlə tə'min etməkdən ötrü 1934-cü ildə pedaqoji institutun Şəkidə ədəbiyyat, riyaziyyat, təbiyyat fənləri üzrə qiyabi fakültələri, 1940-cı ildə isə İkiillik Müəllimlər İnstitutu təşkil edildi. İnstitut 1954-cü ilə qədər fəaliyyət göstərdi. Şəkinin və respublikanın digər rayonları üçün yüzlərlə müəllim hazırladı.

1933-cü ildən Şəki qəza məktəbinin davamm etdiricisi, böyük Azərbaycan satiriki M.Ə. Sabirin adını daşıyan 5 nömrəli məktəb 7 illik təhsil verməyə başladı.

Həmin dövrdə xalq maarifini daha da inkişaf etdirmək üçün ÜİK (b) XVII qurultayı ikinci beşillikdə ümumi icbari politexniki təhsilə keçməyi qərara aldı. Beləliklə, şəhərdə və kəndlərdə olan yeddiillik məktəblərin bazasında orta məktəblərin sayı artırıldı. Bu illərdə 5 nömrəli məktəb də böyüdü, laboratoriya və fənn kabinetləri genişləndi, müəllimlərin sayı artdı. Məktəb 1939-cu ildə səkkiz-illik təhsilə keçdi. Məktəbin direktoru Aslan Heydərov bu təhsil ocağının genişlənməsi üçün böyük sə'y göstərmişdir. Böyük Vətən müharibəsinin başlanması bu məktəbin orta məktəbə çevrilməsinə müvvəqəti olaraq mane oldusa, 1945—1946-cı tədris ilindən məktəb onillik məktəbə çevrildi. O vaxt oğlanların və qızların təhsili ayrı-ayrılıqda həyata keçirildiyindən həmin məktəb 5 nömrəli qız orta məktəbi kimi fəaliyyət göstərdi. 1946–1947-ci tədris ilində məktəbin birinci buraxılışı oldu. 17 nəfər qız kamal attestatı alıb ali məktəblərə və istehsalata yola düşdülər. Bu qızlardan on nəfəri N.Nərimanov adına ATİ-yə daxil oldu. Məktəbin mə'zunu Humay Məmmədova neft mühəndisi kimi Bakı neftayırma zavodunda işlədi... Onun rəfiqələri Almaz Hüseynova və Tamara Tahirova el yolunu seçdilər...

İlk buraxılışdan sonra başqa məktəblərdən buraya gələn qızlar hesabına şagirdlərin sayı xeyli artdı. 1948-ci ildə bu məktəbdə 600 nəfər təhsil alırdı. Onlara Şəkinin ən bacarıqlı və təcrübəli müəllimləri dərs deyirdilər. Lenin ordenli Surayə Gülüzadə riyaziyyatı, Qırmızı Əmək Bayrağı ordenli Rza Cəlilov tarixi, respublikanın əməkdar müəllimi Ələskər Yusifov və Mədinə İsmayılova Azərbaycan dili və ədəbiyyatı tədris edirdi.

1953-cü ildən yenidən oğlanlarla qızlar birlikdə oxumağa başladılar. 5 nömrəli məktəbin ümumtəhsil orta məktəb kimi fəaliyyət göstərdiyi 1946–1958-ci illər ərzində şagirdlərin sayı hər il 400-lə 600 arasında olmuşdur. Bu isə əsrin əvvəlində bir neçə sinifli məktəb üçün nəzərdə tutulan binada tədrisin müasir tələblər səviyyəsində qurulmasına imkan vermirdi. Buna görə də 1958-ci ildən məktəb səkkizillik məktəbə çevrildi. Onun yuxarı sinif şagirdləri qonşu orta məktəblərdə öz təhsillərini davam etdirirdilər. Bununla belə, onlar Şəkinin ilk tədris ocağının ən'ənələrini, bu məktəbin Azərbaycan elminə, ədəbiyyatına, incəsənətinə verdiyi görkəmli nümayəndələri ilə fəxr etmişlər. Böyük Azərbaycan dramaturqu, filosofu və ictimai xadimi M.F.Axundov ilk təhsilini bu məktəbdə almış, Azərbaycan EA-nın akademiki, görkəmli sovet potoloqu Cəlil Hüseynov, Azərbaycanda geokimiya elminin təşkilatçısı, Azərbaycan EA-nın müxbir üzvü Heydər Əfəndiyev, yazıçı Sabit Rəhman, görkəmli dilşünas, respublika Elmlər Akademiyasının müxbir üzvü Əbdüləzəl Dəmirçizadə, kimya elmləri doktoru, Azərbaycan EA-nın müxbir üzvü, Azərbaycanın Əməkdar elm xadimi Zülfüqar Zülfüqarov, professorlardan Ə.Əyyubov, N.Əbdürrəhmanov, məktəbin keçmiş direktoru, hazırda Azərbaycan Neft və Kimya İnstitutunun dosenti, tarix elmləri namizədi A.Zeynalov və onlarca başqalarının ilk şagirdlik illəri və fəaliyyətləri bu qocaman təhsil ocağı ilə bağlı olmuşdur.

Hazırda (1982-ci il nəzərdə tutulur–red.) məktəbdə 22 müəllim 140 nəfər şagirdin tə'lim və tərbiyəsi ilə məşğul olur. Məktəbdə dərslər kabinet üsulu ilə keçilir. Hər cür əyani vəsaitlə zəngin olan dil-ədəbiyyat, fizika-riyaziyyat, kimya-biologiya, tarix-coğrafiya, rus dili kabinetləri, 3 ki-no qurğusu, müxtəlif texniki vasitələrlə zəngin dülgərlik e'malatxanası dərslərin yüksək səviyyədə, əyani şəkildə tədrisinə böyük tə'sir göstərir.

Şagirdlərin sağlam nəsil kimi yetişməsi üçün məktəbyanı idman meydançası vardır. Burada məktəblərarası yarışlar keçirilir, meydança sahibləri həmişə voleybol və tennis yarışlarının liderliyini öz əllərində saxlayırlar.

Məktəbin gözəl əmək ən'ənələri vardır. Bu il buranı bitirən 17 şagirdin 12-si sənədlərini müxtəlif peşə texniki məktəblərinə vermişlər. 5 nömrəli məktəbin pedaqoji kollektivində bacarıqlı müəllimlər çoxdur. Onlardan D.Axundovanın, M.Ağamirzəyevanın, Z.Əhmədovanın, V.Nadirovanın qabaqcıl iş təcrübəsi başqa pedaqoji

kollektivlərdə öyrənilir. Məktəbə bacarıqlı təşkilatçı Ə. Əsgərov rəhbərlik edir. Ondan əvvəl Şəkinin ən bacarıqlı maarif işçilərindən M.Nayıbov, N.Süleymanov, A.Əzizov, Ə.Məmmədov, S.Səmədova M.Cəfərova 5 nömrəli məktəbin direktorları olmuşlar.

Əgər keçən əsrin əvvəlində Şəki qəza məktəbi bütün qəzada yeganə tədris ocağı idisə, bu gün təkcə Şəki rayonunda 100-ə yaxın məktəb və başçı tərbiyə ocaqları onun şanlı ən'ənələrini davam etdirir. İndi Şəkidə 83 ümumtəhsil məktəbi, 5 orta ixtisas məktəbi, 4 texniki peşə məktəbi, 4 yeddiillik musiqi məktəbi, Azərbaycan SSR şahmat məktəbi, Elmlər Akademiyasının zona elmi bazası, müxtəlif elmi-tədqiqat institutlarının 5 dayaq məntəqəsi, S.Rəhmanın adını daşıyan Dövlət Dram Teatrı, 120-dən çox mədəniyyət müəssisəsi fəaliyyət göstərir. Təkcə ümumtəhsil məktəblərində 19 mindən çox şagird təhsil alır. Onların tə'lim və tərbiyəsi ilə 1500 nəfər müəllim məşğul olur.

Şəhərdə 28, kəndlərdə isə 5 uşaq bağçası fəaliyyət göstərir.

Xoşbəxt uşaqların üzünə yeni tipli, yaraşıqlı və geniş tədris ocaqları açıqdır. Son on il ərzində hər biri 1100 nəfərlik 4 yeni məktəb binası, çoxlu sinif otaqları tikilib istifadəyə verilmişdi.

Azərbaycan KP Mərkəzi Komitəsinin qərarında Şəki 5 nömrəli səkkizillik ümumtəhsil məktəbinin gözəl ən'ənələrinə layiqli qiymət verilmişdir. Qərarda deyilir ki, həmin tədris ocağı «...rus və Azərbaycan xalqları mədəniyyətinin geniş qarşılıqlı tə'sirinə, bu xalqlar arasında dostluğun inkişafına və möhkəmlənməsinə kömək etmişdir». Bu, məktəbin 150 illik fəaliyyətinə verilən ən yaxşı qiymətdir. Şəki 5 nömrəli səkkizillik ümumtəhsil məktəbinin inkişaf yolu hələ irəlidədir.

Məqalə «Azərbaycan məktəbi» jurnalının 1982-ci il tarixli 9-cu sayında (s. 45–52) çap olunmuşdur.

AZƏRBAYCAN MƏKTƏBLƏRİNDƏ ŞAGİRDLƏRİN PEŞƏ TƏHSİLİ TARİXİNƏ DAİR (XIX ƏSR)

XIX əsr Azərbaycan məktəbləri həm də şagirdlərin peşə təhsili ilə zəngin olmuşdur. Keçən əsrin 30-cu illərindən başlayaraq meydana gələn və get-gedə genişlənən dünyəvi təhsil məktəbləri şagirdlərin az-çox biliklərə yiyələnməsi ilə yanaşı, peşə təhsilinə, müxtəlif peşələrə yiyələnmələrinə də əlverişli şərait yaratdı. 1880-ci illərdən e'tibarən əhalinin məişəti və əsas məşğuliyyəti ilə bağlı olan bağçılıq, şərabçılıq, xüsusilə arıçılıq, ipəkçilik və digər kənd təsərrüfatı peşələri öyrədilirdi.

XIX əsrin 80-ci illərində Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında (Bakı qəzasından başqa) ipəkçilik ən çox inkişaf etmiş sahələrdən idi. Lakin bu sahədə köhnə üsul tətbiq edilirdi. Əhaliyə kömək etmək və ona yeni üsulları öyrətmək məqsədilə 1886-ci ildə Şamaxı qəzasının ipəkçilik mərkəzi olan Kürdəmir kənd məktəbində və Göyçay xalq məktəbində ipəkçilik şö'bələri təşkil edildi.[1] Bu şö'bənin məqsədi təkcə burada oxuyan şagirdlərdən gələcək ipəkçillər hazırlamaqla məhdudlaşmayıb, həm də bu və ya digər yol ilə kənd təsərrüfatının bu çox faydalı sahəsindən daha çox məhsul götürmək işində əhaliyə kömək etmək idi.

Kürdəmir və Göyçay məktəblərinin ipəkçilik şö'bəsi üçün zəruri şərait və torpaq sahəsi var idi. Çox keçmədən hər iki məktəbdəki ipəkçilik şö'bələrinin şöhrəti bütün quberniyaya yayıldı.

Kənd təsərrüfatına aid bilik vermək Dağkəsəmən məktəbinin torpaq sahəsində şagirdlər tərəfindən əkilmiş meyvə və tut ağacları bağçılıq, bostançılıq və ipəkçilik məşğələlərinin daha səmərəli keçməsinə imkan verirdi. Məktəblərin bir çoxunda bağçılıq, bostançılıq və arıçılıq öyrədilirdi. O zaman xüsusi ixtisas təhsili almış müəllimlər olmadığından bu işlə əsasən elm-fənn müəllimləri məşğul olurdu. Tək-tək hallarda həmin məşğələləri Gəncə Mixaylovski sənət məktəbini bitirənlər aparırdı. Kənd təsərrüfatı məşğələləri ilə məşğul olan müəllimlər yay tə'tili zamanı Gəncə sənət məktəbi və Tiflis ipəkçilik stansiyasında xüsusi kurs keçir, təkmilləşirdilər. Kənd təsərrüfatı üzrə məşğələlər və işin xüsusiyyətindən asılı olaraq gündə 2 saatdan 3 saata qədər davam edirdi.[2] Kənd təsərrüfatı fənlərinin proqramı yox idi. Bu fənlərin tədrisi təcrübi xarakter daşıyırdı. Yalnız iş zamanı bə'zi nəzəri mə'lumat verilirdi.

[1] Bax: LMDTA, f. K-na, os., 1, iş № 6, v. 64 arx.
[2] LMDTA, f. 733, s. 205. İş № 4817, s. 1–2.

İpəkçilik və bostançılıq öyrədilməsində Qutqaşen məktəbi də xeyli müvəffəqiyyət qazanmışdı. Naxçıvan qəzasındakı Cəhri, Şaxtaxtı, Baş Noraşen və İmanşallı, Zaqatala dairəsinin Qax kənd məktəblərində də kənd təsərrüfatı və sənət şə'bələri fəaliyyət göstərirdi.[1] Kənd təsərrüfatına aid məşğələlər əhalinin məişət həyatına müsbət tə'sir edirdi. Mənbələrdən birində oxuyuruq:

«Qax kəndində... müəllim şagirdlərlə təşkil etdiyi bostan nəticəsində kəndlilər də tərəvəz yetişdirməyi öyrəndilər və hal-hazırda Zaqatalaya arabalarla kələm və kartof aparırlar. Halbuki məktəb tə'sis edilənədək burada belə şeylər heç bir zaman yetişdirilməmişdi».[2]

Göyçayda M.Mahmudbəyov və Kalaşev, Kürdəmirdə Ə.Murad-xanov, Qutqaşendə R.Əfəndiyev, Lənkəranda T.Bayraməlibəyov və başqaları şagirdlərə kənd təsərrüfatına, xüsusilə ipəkçiliyə aid bilik vermək işində böyük əmək sərf etmişlər. T.Bayraməlibəyovun «Bakı quberniyasındakı müsəlman kəndlərində ipəkçiliyin vəziyyətinə dair»[3] adlı məqaləsi elmi əhəmiyyətə malik idi.

1890-cı illərdə kənd məktəbləri nəzdində əhalinin vəsaiti ilə xüsusi sənət şö'bələri meydana gəldi. Həmin şö'bələrdə bağçılıq, bostançılıq və ipəkçiliklə bərabər, dülgərlik, çəlləkçilik və s. sənətlər də öyrədilirdi. Bu işlə əsasən Gəncə Mixaylovski sənət məktəbinin mə'zunları məşğul olurdu. 1893-cü ilin mə'lumatına görə, Bakı quber-niya ibtidai məktəblərindən 4-də cildçilik, 2-də bağçılıq, 2-də bostançılıq, 4-də ipəkçilik, 2-də arıçılıq məşğələləri keçirilirdi.[4] Gəncə quberniya ibtidai məktəb-lərində 3-də dülgərlik, 1-də xarratlıq, 3-də bağçılıq, 5-də bostançılıq, 23-də ipəkçilik və 1-də arıçılıq öyrədilirdi.[5]

Azərbaycan kənd məktəblərinin bə'zisi bir sıra sərgilərdə iştirak edir, şagirdlərin əl işlərini, məktəbin tədris təcrübə sahəsində yetişdirilmiş məhsulları nümayiş etdirirdi. 1889-cu ildə Tiflisdə kənd təsərrüfatı və sənaye sərgisinin iştirakçısı olan Vartaşen kənd məktəbi II dərəcəli fəxri diplom və gümüş medal, Ağcəbədi məktəbi isə bürünc medal və III dərəcəli diplom ilə təltif edildi. Qusardakı baron Vrangel adına kənd məktəbi isə tə'rifnamə vərəqəsinə layiq

[1] LMDTA, f. 1263, s. 2, iş № 5384, v. 15 arx.
[2] «Qafqaz» qəzeti, 1876, № 122.
[3] Sirkulyar... KUO, 1891, № 10, s. 576–582.
[4] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 4962, v. 31.
[5] Gürc. SSR MDA, f. 422, s. 1, iş № 4862, v. 122 arx.

bilindi.[1] 1896-cı ildə Nijni-Novqorodda keçirilən ümumi Rusiya Sənaye və Bədii sərgisində iştirak edən Göyçay məktəbinin müdiri Kalaşev və onun arvadı yüksək keyfiyyətli barama qurdu bəslədiyinə görə bürünc medal ilə təltif edildi.[2] Göyçay kənd məktəbi Tiflisdə bağ məhsullarının birinci (1897) və ikinci (1898) Qafqaz sərgisində iştirak etmiş və medallarla təltif edilmişdir.

Kənd əhalisi və ətraf camaat məktəblərə gələrək işin təşkili ilə maraqlanır, məktəbin təcrübəsini öyrənirdilər. Göyçay və Şamaxı qəzalarındakı kənd məktəblərinin ipəkçilik şö'bələri kəndlilər üçün nümunəvi təcrübə məktəbinə çevrilmişdi.[3]

Keçən əsrin 70-ci illərindən e'tibarən meydana gələn «şəhər məktəbləri»ndə də müəyyən peşə və sənət öyrədilirdi.

Şəhər məktəblərinin nizamnaməsinə görə maliyyə vəsaitindən və tələbatdan asılı olaraq şagirdlərə müəyyən peşə öyrədilə bilərdi. 1888-ci illərdən başlayaraq, şəhər məktəbləri nəzdində kənd təsərrüfatı və sənət şö'bələri təşkil edildi. 1887-ci ildə Naxçıvan şəhər məktəbi nəzdində təşkil edilmiş sənət (dülgərlik, xarratlıq, dəmirçi və çilingərlik) və ipəkçilik şö'bəsində 30–40 nəfər şagird məşğul olurdu. Bu şö'bə sonralar ağac və dəmirdən qayrılmış ev əşyaları üçün əhalidən sifariş qəbul edirdi.[4]

Naxçıvan şəhər məktəbi ipəkçilik şö'bəsinin şagirdləri 1898-ci ildə bəslədikləri ipək qurdlarından 240 misqal sağlam ipək qurdu toxumu əldə etmişdilər.[5] Naxçıvan şəhər məktəbi cəmi İrəvan quberniyasındakı 5 şəhər məktəbi içərisində sənət şö'bəsi olan yeganə məktəb idi.[6]

Şamaxı, Nuxa, Şuşa və Zaqatala şəhər məktəbləri nəzdindəki ipəkçilik şö'bələri də öz müvəffəqiyyətləri ilə fərqlənirdi. 1889-cu ildə Tiflis, 1890-cı ildə isə Türkistan kənd təsərrüfatı və sənaye sərgisində iştirak edən Zaqatala şəhər məktəbi ipəkçiliyi yaxşı təşkil etdiyinə görə tə'rifə layiq görüldü.[7]

Gəncə şəhər məktəbinin sənət şö'bəsi diqqəti xüsusilə cəlb edirdi. Bu şö'bənin şagirdləri tərəfindən hazırlanan əşyalar, o cümlədən yəhər, xamut, qalqat yastığı, yumşaq dəridən yol çantası və

[1] Sirkulyar...KUO, № 12, 1889, s. 636–646.
[2] Yenə orada, 1898, № 1, s. 132.
[3] LMDTA, f. 1284, s. 223, iş № 153, v. 8.
[4] LMDTA, f. 1284, iş № 123, v. 76; iş № 204, v. 23, iş № 214; v. 35, 162; Gürc. SSR MDA, f.422, s. 1, iş № 3068, v. 4 və arx.
[5] LMDTA, f. K-na (os), s. 1, iş № 116, v. 185.
[6] Erm. SSR MDTA, f. 19, s. 1, iş № 146, v. 1.
[7] Sirkulyar... KUO, № 12, 1889-cı il; str. 636, № 4, 1891, s. 274.

çamadan, portfel, şagird çantası, patron qabı və ovçu heybəsi 1896-cı ildə Nijni-Novqorod sərgisində böyük müvəffəqiyyət qazandı. «Qafqaz» qəzeti yazırdı ki, ciddi sə'ylə, səliqəli və zərif hazırlanmış bu əşyalar ən ciddi ekspertizlərin tələblərindən müvəffəqiyyətlə çıxdı. «İnanmaq olmur ki, bu əşyalar ancaq dərsdən sonra sənətlə məşğul olan şagirdlər tərəfindən hazırlanmışdı».[1] Gəncə şəhər məktəbi həmin məhsulların yüksək keyfiyyətinə görə III dərəcəli diplom ilə təltif edildi.[2]

Kənd təsərrüfatı və sənayenin inkişafı gənc kadrlar tələb edirdi. Bu tələbi qismən ödəmək üçün mövcud qəza və şəhər məktəblərində əlavə fənn kimi şagirdlərə sənət, bağçılıq və kənd təsərrüfatına aid bə'zi biliklər öyrədilirdi. Lakin bu təcrübə o qədər də fayda vermirdi. Bu tə'lim əsasən tərbiyəvi və idman xarakteri daşıyırdı. Qəza və şəhər məktəblərinin heç biri öz mə'zunlarına elə bir ehtiyat peşə təhsili, bu və ya digər sənət üzrə bilik və bacarıq vermirdi ki, şagird məktəbi bitirib öz yerinə qayıtdıqdan sonra bu və ya digər sənət sahəsində yerli şəraitin tələbini ödəməyə qabil olsun. Bundan əlavə, şagird qəza və ya şəhər məktəbini bitirdikdən sonra özünü həmyerlilərindən üstün tutur, xüsusilə kənd işlərinə, istehsalata e'tinasız yanaşır, aldığı təhsilə müvafiq məşğuliyyət növü, məs.: kənd və ya nahiyə katibi və ya buna bənzər iş axtarırdı. Belə iş tapmadıqda isə öz vəziyyətindən narazı qalır və cəmiyyətin zərərli üzvünə çevrilirdi.

Bunun qarşısına almaq üçün, həqiqətən, sənət öyrədən xüsusi peşə və kənd təsərrüfatı məktəbləri açmaq ideyası meydana gəldi. Təhsil müddəti iki il olan bu məktəblərə şəhər, qəza, ikisinifli kənd məktəblərinin aşağı siniflərini bitirənlərin qəbul edilməsi təklif edildi. Sənət və kənd təsərrüfatı məktəbləri təşkil etmək ideyası həm də çarizmin məxfi məqsədləri ilə əlaqədar idi. Bu məqsəd, az-çox savadlı olan gənclərə sənət təmayülü verməklə, burjuaziya üçün əlavə qazanc gətirə biləcək adamlar hazırlamaqdan ibarət idi. Ən əsası isə gənclərin əqli təhsilini məhdudlaşdırmaqdan, meydana gəlməkdə olan proletariatın qarşısını almaqdan ibarət idi. 1878-ci ldə QTD-nin popeçiteli vəzifəsinə tə'yin edilmiş məxfi müşavir Yanovski özünün hesabatında bu münasibətlə açıqcasına yazırdı: «Ancaq bu yolla proletariatın əqli inkişafının qarşısını almaq olar, hansılar ki, çox

[1] «Qafqaz» qəzeti, № 91, 1896-cı il; Bu haqda həmçinin bax: «Tiflisski listok» qəzeti № 28, 1900-cü il.
[2] Sirkulyar... KUO, № 1, 1898, s. 133.

təəssüf ki, bizdə, Rusiyada mövcud qayda-qanunu pozmaq məqsədilə qarmaqarışıqlıq salmağa cəhd edirlər».[1]

Bütün bu mülahizələr bir tərəfdən mövcud şəhər məktəbləri nəzdindən xüsusi sənət şö'bələri təşkil etmək, digər tərəfdən isə ayrıca sənət məktəbləri təşkil etməklə nəticələndi. Gənclərin sənət öyrənməsi tələbi də hökumətin öz məxfi məqsədini həyata keçirməyə kömək edirdi. Bu cəhət Bakıda daha çox hiss edilirdi. Bakı qubernatoru 1869-cu ilə aid hesabatında şəhər əhalisinin texniki təhsilə olan ehtiyacını xüsusi qeyd edir və Bakıda sənət məktəbi açılmasını lazım bilirdi.[2]

Əhalinin peşə təhsili tələbini ödəmək məqsədilə 1874-cü ildə Bakı ibtidai məktəbi nəzdində ayrıca bir şö'bə təşkil edildi. Həmin şö'bə sonralar, 1888-ci ildə müstəqil sənət məktəbinə çevrildi.

1882-ci ilin mayın 15-də Zaqatalada, 1884-cü ildə noyabrın 8-də isə Gəncədə sənət məktəbinin əsası qoyuldu.

Azərbaycan məktəblərinin bu sahədəki zəngin təcrübəsi dərindən öyrənilməyə layiqdir.

Məqalə «Əmək tərbiyəsi və peşəyönümünün aktual məsələləri, elmi əsərlər məcmuəsində çap olunub. (Bakı, 1982, s. 10–14.)

[1] Xod uçebnoqo dela na Kavkaze v 1802, po 1880 q., Tiflis, 1880, s. 91.
[2] Gürc SSR MDA, f. 422, s. 1, iş № 393, v. 4.

QOCAMAN MAARİF OCAQLARIMIZ

Yubilyar məktəblərinin təşkili əhalinin dünyəvi təhsilə, rus dilinə, mütərəqqi rus mədəniyyətinə olan böyük ehtiyacı ilə əlaqədar idi. Rus olmayan xalqların öz uşaqlarını rus dilində oxutmaq cəhdindən bəhs edən V.İ.Lenin yazırdı ki, Qafqazda qeyri-rus xalqların nümayəndələrinin özləri məktəblərdə uşaqlara rus dilini öyrətməyə çalışırlar.[1] Ayrı-ayrı kənd və qəzaların əhalisi Qafqaz Tədris Dairəsinə, canişinliyə ərizə, xahişnamə və öhdəliklərlə müraciət edərək rus dilində məktəblər açılmasını xahiş edirdi. Lakin bu cəhdlər bir çox halda nəticəsiz qalırdı.

Azərbaycanlılardan müəllim kadrlarının hazırlanması Azərbaycan kəndlərində yeni-yeni məktəblər açılmasına əlverişli zəmin hazırladı və bu işi sür'ətləndirdi.

Keçən əsrin 80-ci illərindən e'tibarən Gürcüstanın Qori şəhərində fəaliyyət göstərən Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində müstəqil Azərbaycan şö'bəsinin ilk buraxılışı ilə yubilyar məktəblərin əsası qoyuldu.

İrəvan Müəllimlər Seminariyasını bitirən azərbaycanlı müəllimlər də bu işə xeyli kömək etdi. Keçən əsrin 80-ci illərindən başlayaraq istər dövlət, istərsə də zemstvo və kənd ictimaiyyəti vəsaiti ilə açılan kənd məktəblərinin sayı ildən-ilə çoxalmağa, azərbaycanlı balalarının rus dili ilə bərabər ana dilində tə'lim və tərbiyə alması işi xeyli yaxşılaşmağa başladı. Belə məktəblərdən birincisi Qutqaşen şəhər 1 nömrəli məktəbidir. Bu məktəbin əsası 1882-ci il sentyabrın 12-də qoyulmuşdur. Məktəbin ilk müəllimi və müdiri Zaqafqaziya Müəllimlər Seminariyasının ilk mə'zunlarından olan Rəşidbəy Əfəndiyev idi. Sənədlərdən birində oxuyuruq ki, sentyabrın 12-də Nuxa qəzasının Qutqaşen kəndində əhalinin vəsaiti ilə ikisinifli müsəlman normal məktəbi açıldı; məktəbin açılması böyük şənliyə səbəb oldu. Məktəb tə'sisi münasibətilə buraya gələn Gəncə və İrəvan quberniyalarının xalq məktəbləri direktoru Azərbaycan dilinə tərcümə edilməklə nitq söylədi.

Qutqaşenlilərin təşəbbüsünü qiymətləndirən və xalqı ruhlandıran xalq məktəbləri direktoru öz çıxışının sonunda dedi: «Kasıb olmağınıza baxmayaraq, vəsait toplayaraq məktəb açmağa sə'y edən sizlərə alqış və ehtiram!»[2]

[1] V.İ. Lenin. Əsərləri, 19-cu cild. s. 383.
[2] «Qafqaz Tədris Dairəsinin Sərəncamları». Tiflis, 1882, № 10, s. 469, rusca.

Məktəbin açılışında iştirak edən rəsmi və nüfuzlu şəxslərlə bərabər R.Əfəndiyev də çıxış edərək məktəbin faydasını izah etmişdir.[1]

Təşkilin ilk 20 ilində şagirdlərin illik sayının 24 ilə 37 arasında olmasına baxmayaraq, Qutqaşen məktəbi böyük inkişaf yolu keçmiş, Nuxa qəzasında elmi-pedaqoji və metodik mərkəz rolunu oynamış, şagirdlərə kənd təsərrüfatına (xüsusilə ipəkçilik və bostançılıq) dair nəzəri bilik vermək işində xüsusilə fərqlənmişdir.

Heç də təsadüfi deyildir ki, xalq məktəblərində çalışan müəllimlərin sahə qurultayı 1893-cü ildə məhz Qutqaşen məktəbində keçirilmişdir. K.D.Uşinskinin pedaqoji ideyaları əsasında sövti-üsulla tərtib edilən və təkcə Azərbaycanda deyil, həmçinin bütün Zaqafqaziyada, Şimali Qafqazda və Orta Asiyada Azərbaycan dilinin tədrisində uzun müddət istifadə olunan R.Əfəndiyevin «Uşaq bağçası» dərsliyi (R.Əfəndiyev) məhz Qutqaşen məktəbinin təcrübəsi əsasında yazılmışdır.

Qutqaşen məktəbinin tərəqqisində çox mühüm xidməti olan müəllimlərdən biri, xatirəsini bu gün də hörmətlə yad etdiyimiz Vahidbəy Musabəyovdur (1864–1943). İrəvan Müəllimlər Seminariyasını bitirmiş V. Musabəyov Qutqaşen məktəbində fasiləsiz olaraq 55 il müəllimlik etmiş (o cümlədən 34 il məktəbin müdiri və direktoru olmuş), minlərlə zəhmətkəş balasına böyük rus xalqının dilini öyrətmiş, yetirmələri ilə bərabər özü də ucalmış, Əmək Qəhrəmanı adına layiq görülmüşdür.

Qutqaşenin ardınca həmin il sentyabrın 25-də Ərəş qəzasının Ağdaş kəndində məktəb açıldı. Ağdaş birsinifli kənd məktəbi də əhalinin vəsaiti ilə təşkil edildi. Ağdaş məktəbinin açılması bütün qəzada böyük bayrama çevrilmişdi. Bu məktəbə ilk dəfə 18 şagird qəbul edilmişdi. Məktəb kirayə edilmiş binada yerləşirdi. Əhali qonşu kəndlərdən gələn şagirdləri də qəbul etmək məqsədi ilə məktəbə 12 otaqdan ibarət bina tikməyi öhdəsinə götürdü və bu məqsədlə 3000 manat pul toplandı.[2] Məktəbin ilk müəllimi və müdiri Muxtar Muradov olmuşdur.

Qubadlı qəsəbə məktəbi ilə İliç rayonundakı Yengicə kənd orta məktəbləri 1882-ci ildə təşkil edilmişdir. Təşkilindən keçən ilk iki onillik ərzində Qubadlı məktəbində şagirdlərin sayı 21 ilə 69, Yengicə kənd məktəbində isə 20 ilə 41 arasında olmuşdur.

[1] «QTD-nin Sərəncamları», Tiflis, 1882, № 10, s.471, rusca.
[2] Bax: «QTD-nin Sərəncamları», Tiflis, 1882, № 10, s. 474, rusca.

Qubadlı məktəbinin inkişafında müəllim Həşimbəy Nərimanbəyovun böyük xidmətləri qeyd edilməlidir. Görkəmli Azərbaycan yazıçısı S.Rəhimov və mətin inqilabçı Çingiz İldırım həmin məktəbi bitirmişlər.

1883-cü ildən başlayaraq kənd məktəblərinin daha da genişlənməsi müşahidə olunur. 1883-cü ildə təkcə Gəncə quberniyasında 9 kənd məktəbi açılır ki, bunlardan biri 100 illik yubileyi qeyd edilən Ağdam şəhərindəki 1 nömrəli orta məktəbdir. Bu məktəbin əsası 1883-cü il sentyabrın 15-də qoyulmuşdur. Məktəb cəmi 10 şagirdlə işə başlamışdır.

100 yaşlı Ləmbəran məktəbi də 1883-cü il sentyabrın 18-də təşkil edilmişdir. Ləmbəran məktəbi fəaliyyətə başlayarkən buraya ilk dəfə 20 şagird cəlb olunmuşdur. Məktəbin təşkilində yerli sakin Şükür Ləmbəranski kasıb uşaqların tədris ləvazimatı üçün maddi cəhətdən xeyli kömək etmişdir.

Təşkilinin 100 illiyini qeyd edən məktəblərdən biri Füzuli rayonundakı Qarğabazar kənd orta məktəbdir. Bu məktəbin əsası 1883-cü il oktyabr ayının 17-də qoyulmuşdur. Məktəb 12 şagirdlə işə başlamışdır. Əsrin sonlarına doğru şagirdlərin sayı 4 dəfə artaraq 48-ə çatmışdı. Burada oğlanlarla bərabər, qızlar da dünyəvi təhsilə cəlb edilmişdi. Kənd sakinlərindən Allahverdi Ağayev özünün 5 otaqdan ibarət xüsusi binasını pulsuz olaraq məktəbə vermişdi. Mahmudbəy Rüstəmov isə şagirdlərə tədris vəsaiti almaq üçün maddi kömək göstərirdi. Məktəbin ilk müəllimi və müdiri Zaqafqaziya Müəllimlər Seminariyasının mə'zunu Əlişbəy Tahirov olmuşdur. Qarğabazar kənd məktəbi Ə.Tahirovun ciddi sə'yi, bacarığı, kəndli balalarına qayğıkeşliyi sayəsində gündən-günə inkişaf etmiş, kənd əhalisinin hüsn-rəğbətini qazanmışdır.

Ə.Tahirov təkcə dərs deməklə kifayətlənməmiş, şagirdləri ictimai-faydalı və məhsudlar əməyə hazırlamağa xüsusi əhəmiyyət vermişdir. Məktəbin şagirdləri ipəkçiliklə də məşğul olmuşlar. Sənədlərdən birində Gəncə quberniyasının ipəkçiliklə məşğul olan kənd məktəbləri arasında Qarğabazar məktəbinin adı da vardır. Bu işə müəllim Ə.Tahirov özü şəxsən rəhbərlik edirdi. 1889-cu ildə məktəb şagirdləri 38 funt (funt çəki vahidi olub 1 girvənkə, yə'ni 400 qramdır) barama yetişdirmişlər. Yarpağı kəndlilər pulsuz verirdilər.

Müəllim Ə.Tahirov kənd camaatı arasında xüsusi hörmətə malik olmuş, onların mədəni səviyyəsinin yüksəlməsinə çalışmışdır. Onun təşəbbüsü ilə 1883-cü ildən məktəbdə kitabxana təşkil edilmişdi. Kitabxanaya Tiflisdə və Peterburqda çap olunan qəzet və jurnallar

alınırdı. Tədris vəsaiti kimi məktəbdə ilk vaxtlar yalnız «Qafqazın xəritəsi» var idisə, Ə.Tahirovun və sonralar məktəbdə işləyən digər müəllimlərin sə'yi nəticəsində məktəbin kitabxanası yaranmış tədris və əyani vəsaiti xeyli artmışdır.

Əlişbəy Tahirovun mühüm xidmətlərindən biri də onun öz şagirdləri üçün dərslik tərtib etməsidir. O vaxtlar elə bir dövr idi ki, Rusiya və digər milli ucqarlar kimi Azərbaycanda da maarifpərvər müəllimlər yalnız dərs deməklə, təcrübi pedaqoji fəaliyyətlə kifayətlənmirdilər. Onlar ədəbiyyat və incəsənətə, mətbuata xalqın ictimai yaralarını müalicə edən qüdrətli bir vasitə kimi baxırdılar. Bu işdə Zaqafqaziya Müəllimlər Seminariyasının mə'zunları daha çox fərqlənirdilər. Onların qabaqcıl dəstəsi müəllimliklə yanaşı, bədii əsərlər yazır, tərcümələr edir qəzet və jurnallarda məqalələrlə çıxış edir, dərslik və dərs vəsaiti hazırlayırdılar. Bir sözlə, onlar geniş ictimai-pedaqoji fəalliyyətləri ilə xalqın ümumi mədəni səviyyəsini yüksəltməyə, məktəb şəbəkəsini genişləndirməyə, oğlanlarla bərabər, qızların da dünyəvi təhsilə cəlb edilməsinə, məktəb təhsilinin keyfiyyətinin yüksəldilməsinə, yaşlılar arasında savad yaymağa çalışırdılar.

Dövrünün mütərəqqi müəllimlərindən olan Ə.Tahirov da müəllimi A.O.Çernyayevskinin təcrübəsindən istifadə edərək şagirdləri üçün dərs vəsaiti hazırlamaq fikrinə düşmüş, özünün ilkin pedaqoji təcrübəsinə əsaslanaraq 1887-ci ildə «Samouçitel tatarskoqo yazıka ili rukovodstvo» adlı bir dərslik tərtib etmişdir.

Qarğabazar kənd məktəbinin tərəqqisində bu gün hörmətlə yad etdiyimiz məktəbin keçmiş müəllimi və müdilərindən Musa Quliyev (1869–1922), Səlim Əfəndiyev (1881–1946), əsrimizin əvvələrində orada fəaliyyət göstərən Əhməd və Maral Nəbiyevlər həqiqi xalq müəlliminin nümunəsini göstərmişlər. Qədirbilən qarğabazarlılar öz zəhmətkeş müəllimlərinin xatirəsini daim əziz saxlayırlar.

Qarğabazar məktəbi 100 il ərzində şərəfli yol keçmişdir. Təkcə onu qeyd edək ki, bu məktəbin yetirmələri arasından sonralar yalnız elm, mədəniyyət incəsənət xadimləri deyil, həm də məşhur inqilabçılar çıxmışdır. İlk təhsilini burada almış Xanlar Səfərəliyev, Əsəd Qarayev, Pənah Qasımov, Bünyad Sərdarov və başqaları öz fəaliyyətləri ilə doğma məktəblərinə şərəf və şöhrət gətirmişlər.

Yubilyar məktəblərindən ikisinin—Bərdədəki 2 nömrəli və rayonun Alpout kəndindəki orta məktəbinin əsası 1883-cü il oktyabr ayının 25-də, eyni gündə qoyulmuşdur. Bərdə məktəbi ilk dəfə 4, Alpout məktəbi isə cəmi 6 şagirdlə işə başlamışdır.

Vartaşen rayonundakı Xaçmaz kənd orta məktəbinin əsası 1883-cü il oktyabr ayının 28-də, Padar kənd orta məktəbinin isə əsası 1883-cü il noyabrın 1-də qoyulmuşdur. Xaçmaz məktəbi 15, Padar məktəbi isə 41 şagirdlə dərsə başlamışdır.[1] Padar kənd məktəbinin ilk müəllimi, görkəmli pedaqoq Mahmudbəyov olmuşdur.

Qutqaşen rayonundakı Vəndam kənd orta məktəbi 1883-cü il oktyabr ayının 30-da təşkil olunmuşdur. İlk dəfə məktəbə 21 şagird cəlb edilmişdir.

Ağcabədidədəki yubilyar məktəbin əsası 1883-cü ilin sonlarında qoyulmuşdur. 1890-cı ildə burada 31, 1899-cu ildə isə 34 şagird təhsil almışdır.

Yubilyar məktəblərin böyük əksəriyyəti, demək olar ki. əhalinin könüllü olaraq topladıqları vəsaitlə, bir hissəsi isə zemstvo hesabına idarə olunurdu. Əhalinin qabaqcıl dəstəsi, xalq maarifi işçiləri hər vasitə ilə dünyəvi təhsilin yayılmasına ciddi-cəhd edir, ianələr toplayırdılar.

Könüllü verilən vəsait və ianələrdən əlavə, xalq məktəblərinə teatr həvəskarlarının da maddi köməyi dəyirdi. Teatr həvəskarları müxtəlif tamaşalar göstərməklə əldə edilən vəsaiti xalq məktəblərinin nəfinə verirdilər.

Ləmbəran kənd məktəbinin müdiri Rəsulbəy Tahirovla Ağdam zemstvo məktəbinin müəllimi Zəkəriyyə bəy Aslanov və başqalarının nəfinə təşkil etdikləri teatr tamaşalarından 152 manat 40 qəpik əldə edilmişdir.[2] Ağdaş məktəbinin müdiri S.Qayıbovun 1895-ci ildə təşkil etdiyi həvəskarlar teatrının verdiyi tamaşadan toplanan pulun bir his-

[1] Vartaşen rayonunda çaxan «Lenin bayrağı» qəzetinin redaktoru Əyyub Yusifovun «Azərbaycan müəllimi» qəzetində (2 dekabr 1983) dərc etdirdiyi «Yubilyar məktəblər» adlı məqaləsində belə bir yanlış fikir irəli sürürlür ki, «XIX əsrin ikinci yarısında dövrün mütərəqqi, maarifpərvər ziyalıları yerlərdə milli məktəblərin açılması uğrunda mübarizə aparırdılar. Nəhayət, Azərbaycanın bir sıra quberniyalarında ikisinifli rus-tatar məktəblərinin açılmasına icazə verildi. Beləliklə, 1883-cü il oktyabrın 28-də Şəki qəzasının Xaçmaz kəndində belə bir məktəbin əsası qoyuldu. 1883-cü il noyabrın 1-də Padar kəndində ikisinifli rus-tatar məktəbi fəaliyyətə başladı». Əvvələn, o zamanlar Azərbaycanda bir sıra deyil, cəmi 2 quberniya (Bakı və Yelizavetpol) olmuşdur. Ən başlıcası isə göstərilən məktəblər tip e'tibarı ilə rus-tatar məktəbləri deyil, Rusiya Xalq Maarif Nazirliyinin bir və ikisinifli xalq məktəbləri idi. 1875-ci il yanvarın 2-də açılan və bir müddət rus-tatar məktəbi adı ilə fəaliyyət göstərən Qazax qəzasının Salahlı kənd məktəbi nəzərə alanmazsa, Azərbaycan və bütün Zaqafqzaziya ərzisində ilk «rus-tatar» məktəbinin əsası 1887-ci ildə Bakıda S.M.Qənizadə ilə H.Muhmudbəyov tərəfindən qoyulmuşdur (bax: Q.M.Axmedov, A.D.Rafibeyli. K istorii russko-tatarskix şkol v Azerbaydjane, j. «Sovetskaə pedaqoqika», 1969, № 9, s. 116–121.

[2] Bax: «QTD-nin Sərəncamları», Tiflis, 1889, № 5, s. 188; rusca.

səsi Ağdaş, bir hissəsi isə Nuxada açılan rus—Azərbaycan məktəbinin ehtiyacına xərclənmişdir.[1]

Yeni açılan məktəblərdə tə'limin məzmunu şagirdlərə elementar savad vermək məqsədi güdürdü. Bu məktəblər Rusiya XMN-nin bir və ikisinifli normal kənd məktəbləri proqramı əsasında işləyirdi. Tədris planına şəriət, Azərbaycan və rus dilləri, hesab, coğrafiya, tarix, ədəbiyyat və rəsm daxil idi. Ümumtəhsil fənlərindən əlavə, məktəblərin bə'zisində müəllimin istək və arzusundan, həmçinin bacarığından asılı olaraq elementar həndəsə, əl işi, nəğmə və gimnastika da keçirilirdi.

Ana dili A.O.Çernyayevskinin «Vətən dili», R.Əfəndiyevin «Uşaq bağçası» və «Bəsirətül-ətfal» kitabları, rus dili K.D.Uşinskinin «Vətən dili» və «Uşaq aləmi» M.Volperin «Rus dili», A.O.Çernyayevskinin «Rus dili», N.F.Bunakovun «Əlifba», A.İ.Kirpiçnikovun «Qrammatika», İ.İ.Martınovun «Müntəxəbat» kitabları, hesab isə V.A.Yevtuşenskinin «Hesab məsələləri» və D.P.Popovun «Məsələlər məcmuəsi» əsasında tədris edilirdi.

Kənd məktəblərinin əksəriyyəti dərslik və tədris vəsaitindən, Tiflis, Peterburq və digər şəhərlərdə çıxan qəzet və jurnallardan ibarət şagird kitabxanasına malik idi. Bir çox məktəbdə əyani vəsait (coğrafiya xəritəsi, qlobus, müxtəlif kolleksiyalar) vardı.

Təhsilin məzmununa görə beşillik təhsil müddəti olan ikisinifli kənd məktəbləri əhalinin tələbinə daha müvafiq idi. Beş il ərzində şagirdlər rus dilində müstəqil yazıb-oxumağı və danışmağı öyrənirdi.

Təhsilin məzmunundakı səthiliyə, tə'limin əsasən rus dilində aparılmasına, tə'lim üsulunun yaramamasına baxmayaraq, xalq məktəbləri geniş əhali kütləsi içərisində yeganə ümumi təhsil müəssisəsi kimi dərin hüsn-rəğbət qazanırdı. Bir sıra kənd məktəblərinin müdirləri hesabat xarakterli yazılarında və mə'lumatlarında bu məktəblərin əhəmiyyətini ayrıca qeyd edirdilər. Qutqaşen kənd məktəbinin müdiri Vaqif bəy Musabəyov 1895-ci ildə yazırdı: «Məktəbin tə'sis edildiyi 1882-ci ildən bəri kəndlilər arasında 100 nəfərdən çox savadlı var idi ki, bu ancaq məktəbin nəticəsidir».[2]

Şagirdlərin silki tərkibinə gəlincə, əksəriyyətini kəndli uşaqları təşkil edirdi. Şagirdlərin, demək olar ki, hamısı oğlan idi. Bə'zi məktəblərdə oğlanlarla birlikdə tək-tək qızlar da oxuyurdular. Lakin bunların sayı çox az idi. Vəndam kənd məktəbinin müdiri Həsən Bağırov 1895-ci ildə yazırdı: «Kəndlilər hələlik qızları rus məktəbinə

[1] QTD-nin LMDTA "Sərəncamları" Tiflis, 1895, № 12, s. 12–15.
[2] LMDTA f. 91, 3, iş № 380, v. 300.

vermək istəmirdilər. Buna baxmayaraq hər bir valideyn öz qızını evdə azərbaycanca oxutmağı özünə borc bilir».[1] Təhsilin əhəmiyyətini dərk edən bə'zi kəndlərin camaatı qızlar üçün ayrıca şö'bə açmağı xahiş edirdi.

Kənd məktəbləri əvvəllər əhalinin ümumi təhsil tələblərini qismən ödəsə də, öz mə'zunlarına elə bir təcrübi bilik və bacarıq vermirdi. Buna görə də əhali həmin məktəblərə müəyyən qədər laqeyd baxırdı. Vəndam kənd məktəbinin müdiri məktəbin əhaliyə xeyli mənfəət verməsini, öz uşaqlarını böyük həvəslə məktəbə qoymasını qeyd etməklə bərabər yazırdı: «Kəndlilər ancaq məktəbin təkcə savad verməsindən narazıdırlar. Onlar sənət şö'bəsi açılmasını arzu edirlər. Onlar istəyirlər ki, uşaqları təkcə rus dili-ni deyil, həm də hər hansı bir peşə öyrənsinlər».[2]

Bu səbəbdəndir ki, sonralar kənd məktəblərinin bir çoxunda bağçılıq, bostançılıq və arıçılıq öyrədilməyə başlandı. Lakin o zamanlar xüsusi ixtisas almış müəllimlər olmadığından bu işlə əsasən fənn müəllimləri məşğul olurdu. Tək-tək hallarda həmin məşğələləri Gəncə Mixaylovski sənət məktəbini bitirənlər aparırdı Kənd təsərrüfatı məşğələləri ilə məşğul olan müəllimlər yay tə'tili zamanı Gəncə sənət məktəbi və Tiflis ipəkçilik stansiyasında xüsusi kurs keçir, təkmilləşirdilər, Kənd təsərrüfatı üzrə məşğələlər ilin fəslindən və işin xüsusiyyətindən asılı olaraq gündə 2 saatdan 3 saata qədər davam edirdi.[3]

Azərbaycan kənd məktəblərinin bə'zisi bir sıra sərgilərdə iştirak edir, şagirdlərin əl işlərini, məktəbin tədris-təcrübə sahəsində yetişdirilmiş məhsulları nümayiş etdirirdi. 1889-cu ildə Tiflisdə kənd təsərrüfatı və sənaye sərgisinin iştirakçısı olan Vartaşen kənd məktəbi II dərəcəli fəxri diplom və III dərəcəli diplom ilə təltif edilmişdir.

Kənd məktəbləri yerlərdə mədəni-maarif işi ilə bərabər səhiyyə işinin inkişafına da müsbət tə'sir göstərirdi. Bu məktəblərin bə'zilərində işləyən mütərəqqi fikirli müəllimlər hətta həkimlik vəzifəsini də öhdəsinə götürür, məktəbdə «aptek» açırdılar. Belə «aptek»lərdən biri 1892-ci ildə Ağcabədi kənd məktəbi nəzdində təşkil edilmişdi.

Ağcabədi kənd məktəbi nəzdində həm də metereoloji stansiya yaradılmışdı. 1891-ci ildə mətəbin müdiri Ə. Muxtarov tərəfindən

[1] LMDTA, f. 91, iş № 380, v. 288.
[2] Yenə orada.
[3] Bax: LMDTA, f. 733, səh. 205, iş № 4817, v. 1–2.

atmosfer yağıntısı üzərində aparılan aylıq müşahidələr dərc edilmək üçün Peterburqda—Baş fizika rəsədxanasına göndərilirdi.[1]

Xalq məktəblərinin həm kəmiyyət, həm də keyfiyyətcə inkişafında xalq müəllimlərinin böyük rolu və unudulmaz xidmətləri olmuşdur.

Xalq müəllimlərinin elmi-pedaqoji biliyini artırmaq işində müəllimlər qurultayları kimi tədbirlər də xeyli rol oyanmışdır. Keçən əsrin 90-cı illərində keçirilən müəllimlərin sahə qurultaylarında tə'lim-tərbiyə məsələləri, ipəkçiliyi inkişaf etdirməyin səmərəli yolları müzakirə olunur, qabaqcıl pedaqoji təcrübə yayılırdı. Gəncə quberniya müəllimlərinin sahə qurultaylarında tə'lim-tərbiyə məsələləri həll olunmuş, məktəblərdə nümunə dərsləri təşkil edilmişdi. Müəllimlərin sahə qurultayları Nuxa qəzasında daha səmərəli keçirdi. Bu qurultaylardan biri 1893-cü ilin aprelində Qutqaşen məktəbində keçirilmişdir. Qurultayın məqsədi: a) müəllimləri kənd məktəblərinin tədristərbiyə işləri ilə tanış etmək; b) rus dili və hesab fənlərinin tədrisini yaxşılaşdırmaq yollarını müəyyənləşdirmək idi.

Qurultayın işindəki ən mühüm cəhətlərdən biri də müəllimlərin pedaqoji ustalığını artırmaq məqsədi ilə açıq dərslər və onların müzakirəsini təşkil etmək idi. Gürcüstan SSR MDA-da saxlanılan bir çox sənədlərdə müəllimlərin sahə qurultayları zamanı olmuş açıq dərslərin protokolları və müəllimlərin çıxışları, rə'y və təklifləri bu işin səmərəli keçdiyini sübut edir. Padar kənd məktəbi qurultay iştirakçılarının təcrübə məktəbinə çevrilmişdi. Qurultayın tövsiyə tədbirləri Padar kənd məktəbinin müdiri Q.Bağırov tərəfindən hazırlanmışdı.

XIX əsrdə məktəblər kənd əhalisi arasında rus dilini, dünyəvi təhsili yayan yeganə ümumtəhsil məktəbləri idi. Bu məktəblərin meydana gəlməsi Azərbaycan dili və ədəbiyyatının, teatr və incəsənətin bir çox sahələrinin inkişaf etməsində də çox mühüm rol oynadı.

XIX əsrin 80-ci illərindən başlayaraq meydana gələn və inkişaf edən kənd məktəbləri xalqın ümumi təhsilində xeyli rol oynadı. A.O.Çernyayevski «Qafqaz müsəlmanlarında xalq təhsilinin yekunları» adlı məqaləsində xalq maarifi sahəsində əldə edilən nailiyyətləri Azərbaycandan 300 il əvvəl Rusiya tərkibinə daxil olmuş Kazan müsəlmanlarının (tatarların) təhsil səviyyəsi ilə müqayisə edərək yazırdı ki, «Rusiya tabeliyində olan bütün müsəlman tayfaları içərisində Qafqaz müsəlmanları irəlidir» və o, bu cəhəti sevindirici hal hesab edirdi.[2]

[1] Bax: LMDTA, f. 91, 3, iş № 381. və 69. arx.
[2] Bax: «Qafqaz» qəzeti, № 24, 1895.

Təhsilin əsasən rus dilində aparılmasına baxmayaraq, bu məktəblərin meydana gəlməsi və yaradılması Azərbaycanda mühüm mədəni hadisə olub, əsrlərdən bəri mövcud olan kəhnə üsullu məktəb və mədrəsələrin yenidən qurulmasına, ana dili tə'limi ideyasının və ana dilində yeni üsullu məktəblərin meydana gəlməsinə və inkişafına zəmin hazırladı; ana dilində yeni üsullu dərslik və tədris vəsaitlərinin yaranmasına kömək etdi, ən başlıcası isə mütərəqqi rus pedaqoji nəziriyyəsi ilə silahlanan yeni müəllimlər dəstəsi hazırlandı.

Dünyəvi təhsil verən məktəblərin təşkili ilə Azərbaycan xalq maarifi və məktəb təhsili öz inkişafının yeni mərhələsinə qədəm qoydu.

Azərbaycan SSR Maarif Nazirliyi kollegiyasının 1983-cü il 12 oktyabr tarixli qərarında göstərildiyi kimi, həmin məktəblər inqilaba qədərki xalq maarifinin inkişafında, azərbaycanlıların rus və dünya mədəniyyətinin nailiyyətləri ilə tanış edilməsində, xalqlar arasında dostluq əlaqələrinin inkişafı və möhkəmləndirilməsində, Azərbaycanda yeni təhsil sisteminin yaradılmasında mühüm rol oynamışlar. Bu məktəblərdə də dövrün mütərəqqi fikirli müəllimləri çalışmış, məktəb tə'liminin genişləndirilməsində, qızların təhsilə cəlb edilməsində xeyli iş görmüşlər. Yubilyar məktəblərin mə'zunları savadsızlığın ləğvində, mədəni inqilabın həyata keçirilməsində, təsərrüfat quruculuğu işlərində fəal iştirak etmişlər.

Bu məktəblər 1920-ci ildən sonra daha böyük yüksəlişə nail olmuş, şagirdlərin ideya-siyasi, əmək, mə'nəvi, beynəlmiləl, hərbi–vətənpərvərlik, estetik və fiziki tərbiyəsinin yaxşılaşdırılması sahəsində səmərəli fəaliyyət göstərmişlər...

Məktəbin mə'zunlarından 8 nəfəri elmlər doktoru və 9 nəfəri elmlər namizədi olmuşdur. Ağdam şəhər orta məktəbinin yetirmələrindən 1 nəfəri Azərbaycan EA-nın akademiki, 4 nəfəri elmlər doktorudur. Qutqaşen rayonundakı Vəndam orta məktəbinin mə'zunlarından 2 nəfəri elmlər doktoru, 6 nəfəri elmlər namizədidir. Hazırda məktəbin mə'zunlarından 27 nəfəri Moskva, Leninqrad və ölkəmizin digər şəhərlərindəki ali məktəblərdə müvəffəqiyyətlə təhsil alır...

Məqalə «Azərbaycan məktəbi» jurnalının 1984-cü il tarixli 4-cü sayında (s. 57–63) çap olunmuşdur.

XIX ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCANDA XALQ MAARİFİNİN İNKİŞAFI

XIX əsrin birinci yarısında Azərbaycanda xalq maarifi və məktəb təhsili, əsasən, iki istiqamətdə inkişaf etmişdir. Birinci istiqaməti ən'ənəvi milli məktəb və mədrəsə təhsili təşkil edirdi.

Əvvəlki əsrlərdə olduğu kimi, XIX əsrin birinci yarısında da məktəb və mədrəsələr Azərbaycanda kütləvi təhsil ocaqları olaraq qalırdı. Azərbaycan mədəniyyətinin o dövrdəki görkəmli nümayəndələri ibtidai təhsillərini həmin məktəb və mədrəsələrdə almışlar.

XIX əsrin birinci yarısında Azərbaycan şəhərləri içərisində məktəblər nisbətən Şuşada və Şamaxıda daha çox idi. 30-cu illərdə təkcə Şamaxı şəhərində 17 azərbaycanlı müəllim-molla 395 şagirdlə məşğul olurdu. 1858-ci ildə Şamaxı quberniyasında 299 məktəb və mədrəsə var idi ki, burada 4700 nəfər təhsil alırdı. Bu məktəblərdən 37-si şəhərlərdə idi. Məktəblərin çoxu mollanın evində yerləşirdi. Tədris fənləri oxu, yazı, Qur'anın təfsiri, fars dili və İran tarixi idi. Mədrəsələrdə əlavə olaraq ərəb dili də keçilirdi.

Rəsmi mənbələrdə Şuşada və Qarabağ əyalətində 9 məktəb və bir mədrəsənin olduğu göstərilir. Təkcə Şuşa şəhərində 6 məktəb və bir mədrəsə fəaliyyət göstərirdi ki, burada 143 nəfər oxuyurdu. Məktəblərdən 3-ü kəndlərdə (Əlidərə, Nüvədi və Boyəhmədli kəndlərində) idi. Bundan başqa, məhəllə mollarının evlərində də məktəblər var idi. Bu məktəblərdə Azərbaycan, ərəb, bə'zisində isə fars dilində oxu və yazı öyrədilirdi. Mədrəsədə isə ərəb dili, şəriət, hesab, astrologiya və tibb tədris edilirdi.[1]

Əsrin ortalarına doğru məktəblərin sayının xeyli artdığı müşahidə olunur. 1869-cu ildə təkcə Şuşa şəhərində 10 məktəb mövcud idi. Bu məktəblərdə cəmi 280 nəfər oxuyurdu. Hər bir məktəbdə oxuyan şagirdlərin sayı 16 ilə 51 arasında tərəddüd edirdi. Bu məktəblərdə şəriət, Azərbaycan və fars dilləri, həmçinin hüsnxət öyrədilirdi.

Bu vaxt Şuşa qəzasının kəndlərində 13 məktəb fəaliyyət göstərirdi. Çox maraqlıdır ki, həmin məktəblərdə şəriət öyrədildiyi göstərilmir. Burada öyrənilən fənlərin Azərbaycan, fars, ərəb dillərindən və hüsnxətdən ibarət olduğu qeyd edilir. Bu məktblərdə oxuyan şagirdlərin sayı cəmi 474 nəfər idi. Hər məktəbdə oxuyan şagirdəlrin sayı 11-dən 53-ə qədər idi. Mərzili və Köçərli

[1] Bax: Obozrenie Rossiyskix vladeniy za Kavkazom, S. Peterburq, 1836, t. 3.

məktəblərinin hər birində 11, Bərdə məktəbində 13, Ağdam məktəbində 12, Hindarx və Qaradağlı məktəblərinin hər birində 15 şagird oxuyurdu. Ən çox şagirdi olan məktəb Yuxarı Lənbəran kənd məktəbi idi ki, orada 53 nəfər oxuyurdu. Boyəhmədli kənd məktəbində 50, Aşağı Lənbəran kənd məktəbində isə 47 şagird var idi.[1]

Məktəblərin geniş yayıldığı yerlərdən biri də Nuxa qəzası idi. Keçən əsrin 30–40-cı illərində Nuxada istər oğlan, istərsə də qızlar üçün ayrıca məktəblər mövcud idi. 1846-cı ildə «Qafqaz» qəzetində (№ 24, səh. 96) «Nuxa» başlığı altında dərc edilmiş bir məqalədə deyilirdi: «Nuxada qəza məktəbindən başqa hər bir məscid nəzdində məktəb vardır ki, burada mollalar oğlan uşaqlarına tatar (Azərbaycan–H.Ə.) savadı öyrədirlər. Qəzet yazırdı: «Hətta qadınların öz evlərində məktəbləri vardır ki, orada nəinki qızları, həm də oğlanları oxudurlar».

Həmin məqalədə deyilir ki, məscidlərin nəzdində və xüsusi evlərdə hər iki cinsdən oxuyan şagirdlərin sayı 450 nəfərə çatır. Adətən, təhsil haqqı üçün hər bir şagirddən gümüş pulla ayda 20 qəpik alınırdı. Varlı adamlar daha çox verirdilər. Bu, uşağın atasının insafından asılı idi. Burada də məktəblər get-gedə artmışdır. 1853-cü ildə Nuxa qəzasında 163, 1854-cü ildə isə 195 məktəb qeydə alınmışdır. Bu məktəblərdə, əsasən, Azərbaycan dilində yazı, oxu və hüsnxət keçilirdi.

Bə'zi məktəblərdə (Nuxa sahəsində) həm də ərəb dili tədris edilirdi.

Ayrıayrı sənədlərdən 1853-cü ildə Gəncə şəhər məscidi nəzdində hər biri bir mollanın rəhbərliyi altında 5 məktəbin mövcud olduğunu öyrənirik. Bu məktəblərdə cəmi 36 şagird oxuyurdu. Azərbaycan dilini öyrənməkdən ötrü həmin məktəblərə bə'zən erməni uşaqları da daxil olurdular. Bu məktəblərdə tə'limin məzmunu Qur'anı oxumaqdan, Azərbaycan dilində oxuyub-yazmaqdan ibarət idi.

Məktəb təhsili sahəsində Bakı şəhəri də irəlidə gedirdi. Keçən əsrin 30-cu illərində burada 20 məktəbdə 320 şagird təhsil alırdı. Bütün əyalətdə oxuyanların sayı 1.000 nəfərə çatırdı. Bundan başqa İçəri şəhərdə 2 qadın mollanın yanında 25 qız oxuyurdu.

Ümumiyyətlə, məktəb və şagirdlərin sayı istər şəhərlərdə, istərsə də kəndlərdə əhalinin sayından, təhsilə olan ehtiyacından,

[1] Gürcüstan SSR MDA, f. 425, s. 1, iş № 178, v. 13–14.

müəllimin məşğələ otaqlarının böyüklüyündən asılı idi. Adətən, kiçik kəndlərdə bir, böyük kəndlərdə isə 7-yə qədər məktəb var idi.

XIX əsrin birinci yarısında məscid Azərbaycanın digər əyalətlərində də az-çox mövcud idi. Məsələn, keçən əsrin 30-cu illərində Qubada 7 məktəb fəaliyyət göstərirdi ki, onların hər birində 16-dan 22-yə qədər şagird var idi. Ətraf kəndlərdə oxuyanların sayı isə 1000 nəfərə çatırdı. At çapmaq, tüfəng atmaq gənclərlə işdə əsas yer tuturdu.

Göstərilən dövrdə məscid məktəbləri Naxçıvan mahalında da var idi. Sənədlərdən birində Naxçıvanda və Ordubadda hər bir məscid nəzdində məktəb təşkil edildiyi, Naxçıvanda 60, Ordubadda isə 40 şagirdin təhsil aldığı göstərilir. Bundan başqa, hər bir mollanın özünün ayrıca –məktəbi var idi ki, ali ruhani təhsil almaq istəyən gənclər orada oxuyurdular.

Doğrudur, burada da əhalinin bütöv təhsil sistemi, əsasən, oxumaq və yazmağı bacarmaqdan ibarət idi. Ən yüksək təhsilli adamlar İran və Azərbaycan şairlərinin bir çox şe'rlərini əzbər bilir və qanun haqqında bə'zi mühakimlər yürüdürdülər. Bununla belə, bə'zi məktəblərdə, xüsusilə də mədrəsələrdə klassik Şərq və Azərbaycan ədəbiyyatına aid daha çox bilik verilirdi. Naxçıvanda xalq maarifinin vəziyyətindən bəhs edən İ.Şopen yazırdı: «Gənclər bədii ədəbiyyatla daha çox məşğul olurlar. Onlardan bir çoxu Rudəki, Firdovsi, Ənvəri, Nizami, Cami, Hafiz, Sə'di və digər məşhur söz ustadlarının əsərlərini əzbərdən bilirlər».

XIX əsrin birinci yarısında və ortalarında xalq maarifi və məktəb təhsilinin zəif inkişaf etdiyi yer Talış xanlığı idi. «...Talışlar demək olar ki, digər Zaqafqaziya əyalətlərinin hamısından geri qalırdılar. Onların yeganə təhsili, o da çox nadir halda, fars dilində, çox az halda isə ərəb dilində oxumaq və yazmağı bacarmaqdan ibarət idi. Bununla belə, Sə'di və Hafiz kimi şairləri oxuyanlar, ədəbiyyatdan xəbərdar olanlar da var idi. Bə'ziləri bu şairlərin şe'rlərindən əzbər parçalar oxuyur və özləri ilə gəzdirirdilər».[1]

Bütün Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da məktəb və mədrəsələr, Marksın tə'birincə desək, feodalizm dövründə «yeganə təhsilli sinif» sayılan ruhanilərin tabeliyində idi.

XIX əsrin birinci yarısında xalq maarifi və məktəb təhsilinin inkişafında yeni istiqamət meydana gəldi. İkinci istiqaməti təşkil edən

[1] Bax: Obozrenie Rossiyskix vladeniy za Kavkazom. S. Peterburq 1836, t. 3, s. 211.

bu məktəblər, təhsilin, əsasən, rus dilində verildiyi dövlət təhsil müəssisələri idi.

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra çarizmin müstəmləkəçilik məqsədindən asılı olmayaraq, Azərbaycanda iqtisadiyyatın, maarif və mədəniyyətin, məktəb təhsilinin inkişafında müəyyən canlama yarandı...

Azərbaycanda təhsilin, əsasən, rus dilində verildiyi məktəblər açmaq fikri meydana gəldi.

Hökumətin məktəb açmaq niyyətini hiss edən əhali məktəbə maddi vəsaitlə kömək etməyə hazır olduğunu bildirirdi. Hələ 1882-ci ildə şamaxılılar açılacaq məktəb üçün bina tikməkdən ötrü 60 çervon və gümüş pul ilə 1125 manat vəsait toplamış, Zaqafqaziyanın baş hakiminə ərizə göndərərək məktəbin açılmasını sür'ətləndirməyi xahiş etmişdilər.[1]

Beləliklə, 30-cu illər ərəfəsində Zaqafqaziyada, o cümlədən Azərbaycanda Avropa Rusiyasındakı məhəllə məktəbləri tipində qəza məktəbləri adı ilə tədris müəssisələri açmağın ilkin layihəsi meydana gəldi.

Bütün bunlar onunla nəticələndi ki, mərkəzi hökumət 1892-cu il avqustun 2-də Zaqafqaziya məktəblərinin ilk nizamnaməsini təsdiq etdi. Bu nizamnamə mahiyyət e'tibarilə Rusiya gimnaziyalarının 1828-ci il 8 dekabr tarixli nizamnaməsinə uyğun idi.

Zaqafqaziya məktəblərinin 1829-cu il nizamnaməsi ilə Azərbaycanda qəza məktəblərinin əsası qoyuldu. Qəza məktəblərinin məqsədi yerlərdə ilk savadı və rus dilini yaymaq idi. İki sinifdən ibarət olan qəza məktəblərinin tədris planına şəriət, qiraət, hüsnxət, hesab, rus dili və yerli dillər (Azərbaycan və erməni dilləri) daxil idi. Qəza məktəblərinin xərci xəzinədən ödənilirdi.

Azərbaycan ərazisində ilk qəza məktəbi 1830-cu ildə Şuşada açıldı. Bundan sonra Azərbaycanın ayrı-ayrı şəhərlərində də qəza məktəbləri açılmağa başladı. 1831-ci ildə Nuxada, 1832-ci ildə Bakıda və 1833-cü ildə isə Gəncədə qəza məktəbləri tə'sis edildi.

Yerli əhali bu məktəblərə böyük rəğbət bəsləyirdi. Bir çox yerlərdə məktəb üçün bina inşa etməkdən ötrü əlverişli torpaq sahəsi ayırır, bə'zi yerlərdə isə bina kirayə etmək üçün pul toplayırdı. Şuşa məktəbi üçün gümüş pul ilə 5235 man. 16 qəpik, Nuxa məktəbi üçün 4613 man. 44 qəpik pul toplanmışdı.

[1] Gürcüstan SSR MDA, f. 4, s. 3, iş № 880, c. 1.

Növbəti qəza məktəbləri 1837-ci ildə Şamaxıda və Naxçıvanda açıldı. Başqa bir mənbədə Şamaxıda qəza məktəbinin açılması tarixi 1838-ci il may ayının 20-nə aid edilmişdir.[1] Bu məktəblərdə digər millətlərin nümayəndələri ilə yanaşı azərbaycanlılar da oxuyur, rus dilini mənimsəyirdilər. Onlardan biri gələcəyin məşhur pedaqoqu və maarifçisi, yazıçı və mütəfəkkir, materialist filosof M.F.Axundov, digəri isə Azərbaycanda milli mətbuatın banisi, görkəmli pedaqoq və maarifçi, ictimai xadim H.Zərdabi idi. M.F.Axundov Nuxa (Şəki), H.Zərdabi isə Şamaxı qəza məktəbində rus dilində, bu dilin vasitəsilə mütərəqqi rus və dünya mədəniyyətinə yiyələnmişlər. Sonralar bu məktəblərdə oxuyanlar içərisində dövrünün onlarca məşhur şəxsiyyəti yetişmişdir.

Qəza məktəblərində oxuyanların sayı da durmadan artırdı. 1850-ci ildə Azərbaycan qəza məktəblərində 471 şagird təhsil alırdı. Şuşa və Şamaxı məktəbləri ən çox şagirdi olan məktəblərdən idi.

Nəticə e'tibarilə XIX əsrin birinci yarısında Azərbaycan xalq maarifi və məktəb təhsili öz inkişafının yeni məlhələsinə qədəm qoydu. Keçən əsrin 30-cu illərindən başlayaraq tə'sis edilən yeni tipli dövlət məktəblərinin meydana gəlməsi ilə Azərbaycanda xalq maarifinin şəbəkəsi xeyli genişləndi, sonralar təkcə şəhərlərdə deyil, kəndlərdə də yeni üsullu məktəblər tə'sis edildi. Təhsilin rus dilində aparılmasına baxmayaraq bu məktəblərin təşkili Azərbaycanda mühüm mədəni hadisə olub, əsrlərdən bəri mövcud olan köhnə üsullu məktəb və mədrəsələrin yenidən qurulmasına, ana dili tə'limi ideyasının və ana dilində yeni üsullu məktəblərin meydana gəlməsinə və inkişafına əlverişli zəmin hazırladı; ana dilində yeni üsullu dərslik və tədris vəsaitlərinin yaranmasına kömək etdi, ən başlıcası isə mütərəqqi rus pedaqoji nəzəriyyəsi ilə silahlanan yeni müəllimlər dəstəsi hazırlandı. Yeni tipli məktəblərin meydana gəlməsi və tərəqqisi xalq maarifini və mədəniyyətini daha da zənginləşdirdi.

Mürtəce çar təhkimçilik Rusiyası ilə yanaşı mütərəqqi mədəniyyətə malik inqilabi-demokratik Rusiyanın mövcud olması Azərbaycan xalqının həyatında xeyirxah, həqiqətən mədəniləşdirici rol oynadı.

Mədəni inkişafa əngəl olan feodal pərakəndəliyi və daxili feodal müharibələri aradan qalxandan sonra, dinc şəraitdə ölkənin mədəni

[1] Bax: LMDTA, f. 733, s. 82, iş № 22, v. 285.

həyatı da tədricən canlandı. Azərbaycan mədəniyyətinin bir çox sahələrində ümumi tərəqqi dövrü başlandı. Bu vaxt yeni, görkəmli mədəniyyət xadimləri yetişdi, teatr və mətbuatın ilk rüşeymləri yarandı, dövlət tərəfindən açılan ilk məktəblər həyata bir yenilik gətirdi, rusca təhsil alan yeni ziyalılar dəstəsi yetişdi. Azərbaycanda maarifçilik hərəkatı özünü göstərməyə başladı. Azərbaycan mədəniyyətində müasirlik meylləri artdı. Azərbaycan alimləri mütərəqqi elmin inkişafında getdikcə daha artıq iş görməyə başladılar. Coğrafiya, ölkəşünaslıq astranomiya, məntiq, pedaqogika və psixologiya, dilçilik, tarix və s. elmlər sahəsində az-çox, müasir məzmunda yeni əsərlər yaradıldı, elmdə dəqiqlik prinsipləri get-gedə dərinləşdi. Rus xalqının mütərəqqi mədəniyyəti Azərbaycanda elmin bir çox sahəsinin meydana çıxması və inkişafı üçün şərait yaratdı. Rus mədəniyyəti, məktəbi və pedaqoji fikrinin qabaqcıl xadimləri vasitəsilə mütərəqqi ictimai və pedaqoji ideyalar Azərbaycana nüfuz etdi. Bütün bunlar əsrin ikinci yarısında Azərbaycan pedaqoji fikrinin və məktəb təhsilinin daha coşğun inkişafı üçün zəmin oldu.

Məqalə «Azərbaycan məktəbi» jurnalının 1986-cı il tarixli 9-cu sayında (s. 55–60) çap olunmuşdur.

XIX ƏSRİN ORTALARINDA AZƏRBAYCANDA XALQ MAARİFİNİN İNKİŞAFI

XIX əsrin ortalarında bütün Zaqafqaziyada, o cümlədən Azərbaycanda xalq maarifinə rəhbərlik edən xüsusi orqan — Qafqaz Tədris Dairəsi (QTD) yaradıldı. 1848-ci il dekabrın 18-də təsdiq edilən Zaqafqaziya məktəblərinin yeni Nizamnaməsi ilə yaradılan QTD beş direksiyaya bölünürdü ki, bunlardan da biri Şamaxı–Dərbənd məktəblər direksiyası idi. Şamaxı, Nuxa, Dərbənd, Quba, Bakı, Lənkəran və Şuşa məktəbləri bu direksiyaya tabe edilmişdi (Gəncə və Naxçıvan məktəbləri Tiflis direksiyasının sərəncamına verilmişdi). Şamaxı–Dərbənd məktəblər direksiyasının yaradılması xalq maarifinə rəhbərlik sahəsində mühüm hadisə olub, irəliyə doğru atılan bir addım idi. Yeni məktəblərin təşkilində, Rusiya və Azərbaycan xalqları arasında qarşılıqlı əlaqələrin yaradılmasında və inkişafında dövlət məktəblərinin rolu get-gedə artırdı.

XIX əsrin ortalarından başlayaraq dövlət məktəb şəbəkəsi inkişaf yoluna qədəm qoydu. Əgər keçən əsrin birinci yarısında dövlət məktəbi olmaq e'tibarı ilə yalnız bir tip məktəb — qəza məktəbləri fəaliyyət göstərirdisə, əsrin 50–60-cı illərində yeni tip məktəblər: müsəlman məktəbləri, ibtidai məktəblər və 4 sinifli ali ibtidai məktəb, şəhər məktəbləri adlanan yeni tip məktəblər meydana gəldi. 60—70-ci illərdən e'tibarən natamam orta və orta məktəblər təşkil edilməyə və tədricən inkişaf etməyə başladı. Qadın təhsili sahəsində ilkin addımlar atıldı.

Keçən əsrin ortalarında meydana gələn və «müsəlman məktəbi» adı ilə əvvəlcə Tiflisdə (1847), sonralar isə Gəncədə, Şuşada, Şamaxıda, Bakıda və Dərbənddə (1849), Nuxada, Lənkəranda və Salyanda (1850), daha sonra isə Zaqatalada (1858) tə'sis edilən yarı dünyəvi, yarı ruhani məktəblər Qafqaz müsəlmanlarının həyatında mühüm mədəni hadisə oldu. Bu yeni təhsil müəssisələri, bir tərəfdən, ən'ənəvi milli məktəb və mədrəsələrdən, digər tərəfdən isə mövcud dövlət məktəblərindən fərqlənirdi. Onu da qeyd edək ki, eyni adlı tədris müəssisəsinin təşkili ideyası görkəmli mütəfəkkir və maarifçi A.A.Bakıxanovun adı ilə bağlı olmuşdur. Mə'lum olduğu kimi, keçən əsrin 30-cu illərindən başlayaraq Azərbaycanın qabaqcıl adamları mütərəqqi rus və Avropa mədəniyyətinin tə'siri altında Azərbaycanda yeni mədəniyyəti inkişaf etdirməyə, qabaqcıl rus və dünya pedaqoji fikrinin nailiyyətlərindən faydalanaraq yerli şəraiti nəzərə almaqla xalq maarifi və məktəb təhsili problemləri ilə daha

yaxından məşğul olurdular. Doğrudur, rus və Qərbi Avropa maarifçiliyi ilə sıx əlaqədə meydana çıxan Azərbaycandakı maarifçilik cərəyanı rus və Avropa maarifçiliyindən əsaslı surətdə fərqli olaraq xalqın həyatını inqilabi yolla yenidən qurmaq məsələsini açıqcasına irəli sürmürdü. Lakin öz ictimai vəziyyətlərindən asılı olaraq Azərbaycan maarifçiləri, özlərinin dünyagörüşlərindəki fərqlərə baxmayaraq, əsasən xalqın mədəni geriliyini aradan qaldırmağa, xalqı maarifləndirməyə çalışırdılar. Azərbaycanın qabaqcıl adamları yeni məktəblər vasitəsilə mədəni tərəqqiyə yollar axtarır, məktəb şəbəkəsini genişləndirməyə, yeni tip məktəblər yaratmağa, azərbaycanlı balalarının təhsilə daha geniş cəlb edilməsinə cəhd göstərirdilər.

Rəsmi dövlət qulluğundan daha çox elmi, ədəbi və pedaqoji fəaliyyətə meyl göstərən A.A.Bakıxanovun hələ 1832-ci ildə öz həmvətənləri üçün ayrıca dünyəvi təhsil məktəbi açmağın müfəssəl bir layihəsini tərtib edərək Qafqazın baş hakiminə təqdim etməsi bu cəhətdən xarakterikdir. Müsəlman məktəbinin tə'sis edilməsi haqda məşhur «Layihə»sində A.A.Bakıxanov yazırdı: «Zaqafqaziyanın Rusiya ilə həqiqi birləşməsi ancaq yerli xalqlar arasında maarifi yaymaq... yolu ilə ola bilər». O göstərirdi ki, yerli xalqlar arasında maarif nə qədər çox yayılarsa, dövlət bir o qədər çox sağlam fikirli adamlara malik olar. Maarif yerli xalqları rus xalqı ilə daha sıx birləşdirər və bundan hər iki tərəf böyük fayda götürər. «Maarifə doğru ilk addım məktəb tə'sis etməkdir» — deyən Bakıxanov öz həmvətənlərinin faydası üçün bütün qabiliyyətini bu işə həsr etməyə və özünün nəzarəti altında Bakıda yeni məktəb açmaq haqqında fikir irəli sürməyə cəsarət etmişdi. Doğrudur, böyük maarifçinin bu təqdirəlayiq təşəbbüsü o zamanlar nəticəsiz qaldı. Qafqazın baş hakimi baron Rozen onu öz şəxsi arxivinə atmaqla kifayətləndi «Layihə»nin əsli hazırda Moskva Dövlət Tarix Muzeyində baron Rozenin arxivində saxlanılır.[1]

Lakin Bakıxanovun ideyaları o zamanlar həyata keçməsə də, sonralar eyni adlı məktəblərin meydana gəlməsinə tə'sir göstərdi. Keçən əsrin ortalarında Qafqaz canişini knyaz M.S.Vorontsov belə məktəblər açmağın zəruriliyini dərk etdi və yuxarıda qeyd edilən şəhərlərdə «müsəlman məktəbləri» açıldı. Burası da maraqlıdır ki, həmin məktəblərin Nizamnaməsi 1845-ci ildə rə'y üçün A.A.Bakıxanova göndərilmişdi. A.A.Bakıxanov belə məktəblərin açılmasını çox

[1] İş № 41, v. 211—216.

faydalı hesab etmişdi. «Müsəlman məktəbləri»nin Nizamnaməsi M.F.Axundov tərəfindən tərcümə edilmişdi. Bu məktəblərin tədris planı xeyli geniş idi. Orada Azərbaycan, ərəb, fars və rus dilləri, müxtəsər coğrafiya və tarix, hesab, rus qanunçuluğuna aid ümumi mə'lumat və hüsnxət tədris edilirdi. Bu məktəblərin təşkilini yerli əhali böyük rəğbətlə qarşıladı. O vaxtlar «Qafqaz» qəzetində dərc edilmiş bir məqalədə deyilir: «Gəncədə gənc müsəlmanlar qısa müddət ərzində rus, fars və tatar (Azərbaycan–H.Ə.) dillərinin tədrisində təqdirəlayiq müvəffəqiyətlər qazanmışlar».[1]

Yerli ziyalılar müsəlman məktəblərinə hər cəhətdən, o cümlədən maddi vəsaitlə kömək edirdilər. Bu xeyirxah işdə məşhur yazıçı, polkovnik İsmayıl bəy Qutqaşenli və b. fərqlənirdi. Lənkəran müsəlman məktəbinin təşkilində Mirzə Məmmədəli Səfiyevin xüsusi xidməti olmuşdur. Arxiv sənədlərinin təhlili göstərir ki, M.Səfiyev azərbaycanlılardan olan ilk rus dili müəllimi idi. O, Lənkəran müsəlman məktəbində rus dilini heç bir əmək haqqı almadan, məccani olaraq tədris etmişdir. M.Səfiyev həm də 1853–1854-cü illərdə «Zakavkazskiy vestnik» qəzetində dərc edilən bir sıra hekayələrin müəllifidir.

Ümumiyyətlə, keçən əsrin ortalarında fəaliyyət göstərən yeni təhsil ocaqları təsadüfi ianələr, əhalinin maddi yardımı, canişinliyin cüz'i xərci ilə idarə olunmasına baxmayaraq, yerli əhalinin hüsn-rəğbətini qazanmış, şagirdlərin sayı və təhsil müvəffəqiyyətləri ilə fərqlənmişdi. Professor Q.Y.Tavziaşvilinin qeyd etdiyi kimi, «Zaqafqaziyadakı müsəlman məktəbləri azərbaycanlılar arasında böyük nüfuza malik idi». Burada tədris edilən ümumtəhsil fənləri həyati əhəmiyyət kəsb edirdi.

Rus dili vasitəsilə şagirdlər rus klassiklərinin əsərləri, mütərəqqi rus və Avropa mədəniyyəti ilə tanış olurdular. Bu məktəblərin təşkili azərbaycanlı gənclərin gələcəkdə gimnaziyalarda təhsil almalarına və bununla da Moskva, Peterburq və b. şəhərlərdəki ali məktəblərə daxil olmalarına xeyli kömək etdi.

XIX əsrin ortalarında Azərbaycan xalq maarifi və məktəb təhsili işində diqqəti cəlb edən yeniliklərdən biri də Quba, Lənkəran və Ordubadda ibtidai məktəblərin, quberniya paytaxtı olduğuna görə Şamaxıda 4 sinifli ali ibtidai məktəbin təşkili idi. Bu yerlərin sakinləri Mərkəzi hökumətə müraciət edərək orada rus dilinin də tədris edildiyi dünyəvi məktəb açılmasını xahiş edir və məktəbin xərcinin

[1] «Kavkaz» qəzeti, 11 iyun 1849-cu il, № 24.

bir hissəsini öz öhdələrinə götürürdülər. Arxiv sənədlərindən birində deyilir: «Zaqafqaziya ölkələri sakinlərinin maarifə cəhd etməsi tamamilə sevindirici haldır. Ordubad sakinləri orada məhəllə məktəbi açılmasını xahiş etmişlər».[1]

Azərbaycan SSR MDTA-da saxlanılan və 40 nəfər Quba sakini tərəfindən imzalanan «Ərz-hal» da maraqlıdır. Knyaz M.S.Vorontsova göndərilən bu sənəddə qubalılar öz uşaqlarına rus dilində təhsil vermək və onları ictimai həyata hazırlamaq məqsədi ilə orada dövlət məktəbi açmağı xahiş etmişlər. Bütün bunlar onunla nəticələndi ki, 1854-cü ildə Quba və Ordubadda, 1856-cı ildə isə Lənkəranda dövlət hesabına ibtidai məktəblərin əsası qoyuldu. Şagirdlərin böyük əksəriyyətini azərbaycanlı uşaqları təşkil edirdi. Arxiv sənədlərində bu məktəblərin müvəffəqiyyətləri haqda çoxlu müsbət rə'ylər vardır. QTD popeçitelinin 1858-ci ilə aid hesabatında deyilir: «Lənkəran məktəbinin açılmasından sonra, oraya ilk dəfə getməyim mənə böyük ləzzət verdi. Bu vaxtadək yalnız ibtidai məktəb dərəcəsində qalmasına baxmayaraq, bu məktəbdə şagirdlərin ümumi sayının (90 nəfər–H.Ə.) yarısından çoxunun müsəlman uşaqlarından ibarət olması çox sevindirici hadisədir... Lənkəran müsəlmanları tə'limə böyük həvəs göstərir və şagirdlər arasında bir çox qabiliyyətli uşaqlar vardır»[2]. Lənkəran ibtidai məktəbinin müvəffəqiyyəti, sonralar 1870-ci ildə onun iki sinifli (təhsil müddəti 5 il) ibtidai məktəbə çevrilməsi ilə nəticələndi. Göstərilən məktəblərin nəzdində həm də kitabxanalar təşkil edilirdi. Məsələn, 1865-ci ildə Ordubad ibtidai məktəbinin kitabxanasında 133 adda 560 nüsxə kitab var idi.

İbtidai məktəblərdə ümumtəhsil fənlərindən əlavə kənd təsərrüfatına aid bilik verilir, peşə öyrədilirdi. Quba ibtidai məktəbində arıçılığa xüsusi fikir verilirdi. 1893-cü ildə Peterburqda Rus Arıçılıq Cəmiyyətinin sərgisində iştirak edən və yüksək keyfiyyətli bal məhsulu nümayiş etdirən Quba ibtidai məktəbi cəmiyyətin tə'rifnaməsinə layiq görülmüşdü.[3]

XIX əsrin ortalarında təşkil edilən ibtidai məktəblərdən biri də Zaqatala məktəbidir. Hələ Zaqafqaziyada inzibati islahat haqqında hökumətin 1840-cı il 10 aprel tarixli qanununa əsasən Car–Balakən və İlisu sultanlığından ibarət ayrıca bir qəza təşkil edilmişdi. 1846-cı

[1] Gürcüstan SSR MDA, f. 4, s. 3, iş № 996, v. 14.
[2] Gürcüstan SSR MDA, f. 8, s. 1, iş № 428, v. 22 arx.
[3] Gürcüstan SSR MDA, f. 422, s. 1, iş, № 4900, v. 1.

ildə keçirilən yeni inzibati bölgüyə görə isə Car–Balakən torpaqları və İlisu sultanlığından xüsusi bir dairə — Car-Bələkən dairəsi təşkil edildi. Hökumət qulluqçuları əvvəllər qəza, sonra isə dairə mərkəzi olan Zaqatalada otururdu. Bu səbəbdən də burada dövlət məktəbi açmaq zəruriyyəti meydana gəldi. Bütün bunlar onunla nəticələndi ki, 1862-ci ildə yerli müsəlman məktəbi üç sinifli ibtidai məktəbə çevrildi. Məktəbin nəzdində 40 nəfərlik xüsusi pansion var idi. Pansionda yaşayan şagirdlər xüsusi forma geyinirdilər. Onların təhsildə qazandığı müvəffəqiyyətlər çar mə'murlarının diqqətini cəlb edirdi. 1863-cü ildə burada olmuş mə'murlardan biri öz raportunda yazırdı ki, əhalinin məktəbə münasibəti, «dağlı tayfalarının gözəl qabiliyyətləri» yaxşı ümidlər verir və onu inkişafsız qoymaq bağışlanılmaz laqeydlik olardı.[1]

Zaqatala ibtidai məktəbi 1868-ci ildə dərəcə e'tibarı ilə daha üstün olan üç sinifli qəza məktəbinə çevrildi. Məktəbin tədris planına sənət öyrədilməsi də daxil edildi. Bu, Azərbaycanda sənət öyrədilən yeganə dövlət məktəbi idi.

XIX əsrin ortalarında Azərbaycan ərazisində meydana gələn məktəblərdən biri də Şamaxıdakı 4 sinifli ali ibtidai məktəb idi. Hələ 40-cı illərdə quberniya mərkəzi olduğundan Şamaxıda bir orta məktəb — gimnaziya açmaq təklif edilirdi. Lakin Azərbaycan əyalətlərində gimnaziya təhsili almaq zəruriyyəti hələlik yaranmadığından bu təklif o zamanlar həyata keçmədi.

Azərbaycan əyalətlərində yuxarı təbəqələrdən olanların orta təhsil almasına azçox kömək etmək mülahizələri sonralar getgedə gücləndi və 1854-cü ildə Şamaxı qəza məktəbi 4 sinifli ali ibtidai məktəbə çevrildi. 4 əsas və bir hazırlıq sinfindən ibarət olan bu məktəbin nəzdində 50 nəfərlik pansion var idi. Həmin ali ibtidai məktəb bütün Zaqafqaziyada bu tipdən olan yeganə məktəb idi. Burada şagirdlərin milli və silki tərkibi də müxtəlif idi.

Çarizmin məxfi məqsədinə, şagirdlərin silki tərkibinin əsasən yuxarı təbəqələrdən olmasına baxmayaraq Şamaxı 4 sinifli ali ibtidai məktəbi elə ilk illərdən özünün bir sıra üstünlükləri, o cümlədən şagird kontingentinin çoxluğu ilə fərqləndi (1857-ci ildə burada 195 nəfər uşaq təhsil alırdı). Bu məktəb yerli əhali içərisində yeni mütərəqqi ziyalıların yetişməsində böyük rol oynadı. Həmin məktəbi bitirib Tiflis gimnaziyasına, oradan da Moskva universitetinə daxil

[1] Gürcüstan MDA, f. 8, s. I, iş № 6160, v. 2.

olanlardan biri də gələcəyin məşhur pedaqoqu, görkəmli Azərbaycan maarifçisi və mütəfəkkiri Həsənbəy Zərdabi olmuşdur.

XIX əsrin ortalarında mütərəqqi rus ictimai fikri Azərbaycan xalq maarifinə, məktəb təhsilinə və pedaqoji fikrinin inkişafına çox müsbət tə'sirindən bəhs edərkən Tiflis ədəbi və ictimai mühitinin rolunu ayrıca qeyd etmək lazım gəlir.

Mə'lum olduğu kimi, XIX əsrdə Tiflis Zaqafqaziyanın həm inzibati, həm də elmi və pedaqoji fikrinin mərkəzi idi. Digər millətlərin bir çox qabaqcıl nümayəndələri kimi, Azərbaycanın da A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh kimi maarifpərvər oğulları burada fəaliyyət göstərirdi. Onlar bir tərəfdən Tiflisdəki dövlət məktəblərində Azərbaycan dilindən dərs deyir, digər tərəfdən də mütərəqqi rus məktəbi və pedaqoji fikrindən bəhrələnərək yeni dərsliklər tərtib edir, tərtib edilən dərsliklərə də Azərbaycan dilinin tədrisini yaxşılaşdırmağa böyük sə'y göstərirdilər. 1840-cı illərdə M.F.Axundovla M.Ş.Vazehin mətbəə yaratmağa təşəbbüs göstərmələri də bu məqsəddən irəli gəlirdi.

Arxiv sənədlərində Tiflis gimnaziyasının Azərbaycan dili müəllimi Hacı Yusif Şahnəzərov — Şapurovun Azərbaycan, ərəb, fars və türk dillərində tərtib etdiyi dərsliklərə M.F.Axundov ilə M.Ş.Vazehin rə'y verməsi göstərilir. Belə mə'lum olur ki, 1845-ci ildə Tiflis gimnaziyasında həmin vəsaitlərin müzakirəsi təşkil edilmişdir. Müzakirədə Tiflis qəza məktəbinin müəllimi M.Ş.Vazeh, Canişin dəftərxanası Şərq dillərinin mütərcimi, praporşik M.F.Axundov fəal iştirak etmişlər. M.F.Axundov onun «Nümunəvi yazı qaydaları», M.Ş.Vazeh isə «Ərəb-fars-türk və Azərbaycan lüğəti» adlı tədris vəsaitinə rə'y vermişdir.[1]

Azərbaycan dilinin tədrisindəki çətinlikləri aradan qaldırmaq üçün M.F. Axundovun bədii əsərlər yazması, həmin əsərlərin çap edilib istifadə üçün məktəblərə göndərilməsi, bu barədə QTD-nin rəhbərliyinə müraciəti və s. də bura əlavə etmək lazımdır.[2] M.F. Axundov yazırdı ki, onun pyesləri Azərbaycan dilində yeganə orijinal əsərlər olub, bu dili öyrənmək arzusunda olan şagirdlər üçün çox faydalı vəsaitdir.

XIX əsrin ortalarında Azərbaycan dilinin tədrisi üçün dərsliklər tərtibi və nəşrindən bəhs edərkən M.Ş.Vazehin tarixi xidmətlərini ayrıca qeyd etmək yerinə düşərdi. Zaqafqaziyadakı dövlət

[1] Gürcüstan SSR MDA, f. 4. s. 5 , iş № 25, v. 22 və arx.
[2] Bu barədə ətraflı bax: M.F. Axundov. Əsərləri, 3-cü cild, Bakı, 1962, səh. 70–71.

məktəblərində Azərbaycan dilinin tədrisində istifadə edilən dərsliklər içərisində M.Ş.Vazehin İ.Qriqoryevlə birlikdə tərtib etdiyi «Kitabi türki» adlı müntəxəbat («Tatarskaya xrestomatiya azerbaydjanskoqo nareçiya») xüsusi əhəmiyyət kəsb edir.

Mə'lum olduğu kimi, hələ 30-cu illərdə şairliklə bərabər Gəncədə müəllimlik və xəttatlıqla məşğul olan Mirzə Şəfi keçmiş tələbəsi M.F. Axundovun köməyi ilə 1840-cı il noyabrın 24-dən 1846-cı ilə qədər Tiflis qəza məktəbində Azərbaycan və fars dillərindən dərs demiş, 1846-cı il noyabrın 12-dən 1850-ci ilə qədər isə Gəncə qəza məktəbində müəllimlik etmişdir. Yeri gəlmişkən qeyd edək ki, ASE-nin II cildində (səh. 388), həmçinin M.Şəfinin tanınmış tədqiqatçısı Ə.Ə.Səidzadənin «Mirzə Şəfi Sadıq oğlu Vazeh» (Bakı, Azərnəşr, 1969, səh 20) adlı əsərində onun Tiflisdən Gəncəyə qayıtması və Gəncə qəza məktəbində müəllimlik etməsi tarixi 1848-ci ilə aid edilir. Arxiv sənədləri bu tarixi təkzib edir. Gürcüstan MDA-da saxlanılan sənədlərdə M.Şəfinin 1848-ci il deyil, 1846-cı il noyabrın 12-dən Gəncə qəza məktəbində müəllimlik etməsi göstərilir.[1]

M.Ş.Vazeh sonralar yenə də Tiflisə getmiş və 1850-ci ilin yanvarından ömrünün sonuna — 1852-ci il noyabrın 16-na (28-nə) qədər Tiflis gimnaziyasında Azərbaycan dili üzrə kiçik müəllim vəzifəsində işləmiş, «özünün bacarığı və ləyaqəti ilə fərqlənmişdir».[2]

Tiflis ədəbi, ictimai və pedaqoji mühitində M.Ş.Vazeh qabaqcıl rus, gürcü və erməni nümayəndələri, həmçinin xarici ölkə ziyalıları ilə dostlaşmış, hələ Gəncədə yaşayarkən təşkil etdiyi «Divani-hikmət» ədəbi-fəlsəfi məclisini burada da davam etdirmişdir.

M.Şəfinin maarif sahəsində xidmətləri böyükdür. O, Tiflis gimnaziyasında Azərbaycan və fars dilləri üzrə baş müəllim işləyən İ. Qriqoryevlə birlikdə 1850-ci ildə məşhur «Kitabi-Türki» adlı dərs vəsaitini tərtib etmişdir Saratov quberniyasından olan İ. Qriqoryev 1842-ci ildə Kazan universitetinin fəlsəfə fakültəsinin ərəb və türk dilləri şö'bəsini bitirmiş və həmin ildə Gürcüstana qulluğa göndərilmişdir. 1844-cü ildən Tiflis gimnaziyasında müəllimlik etmişdir.[3]

Qafqaz canişini knyaz M.S.Vorontsovun və QTD-nin popeçiteli A.P.Nikolainin təklifi ilə tərtib edilən bu müntəxəbat nəsx, nəstəliq

[1] Bax: f. Gürcüstan SSR MDA, 424, s. 1, iş № 156, v. 207.
[2] Bax: Gürcüstan SSR MDA, f. 425, s. 1, iş № 27, v. 112; iş № 77, v.77.
[3] Bax: Yenə orada, v. 106–109; f. 424. s. 1, iş № 156, v. 58–59.

və şikəstə xətləri ilə yazılmışdır.[1] Vəsait Qafqaz gimnaziyalarında və qismən qəza məktəblərində oxuyan şagirdlər üçün nəzərdə tutulmuşdur. Kitabın qəza məktəbləri üçün nəzərdə tutulmuş bir hissəsi Mirzə Şəfinin ölümündən sonra hicri tarixi ilə 1272-ci ildə (1855) M.Qriqoryev tərəfindən Təbrizdə daş basmasında çap edilmişdir. Bu kitabdan gimnaziya və qəza məktəblərində Azərbaycan dilini öyrənmək üçün uzun müddət istifadə olunmuşdur. Dərslik üçün seçilən mətnlər, şagirdlərin yaş və anlaq dərəcələrinə uyğun olub, dərin tərbiyəvi xarakter daşıyırdı. Kitaba daxil edilən «Hikmətlər və nəsihətlər» müəllifin bir növ müasirlərinə tövsiyəsi idi. Bu tövsiyələr insanlara xeyirxahlıq və humanizm ideyaları aşılayır, yalançılıq, paxıllıq kimi mənfi keyfiyyətləri pisləyirdi.

M.Şəfinin orijinal pedaqoji ideyaları XIX əsr Azərbaycan məktəbi və pedaqoji fikrinin qiymətli incilərini təşkil edir.

XIX əsrin ortalarında mütərəqqi rus mədəniyyətinin qabaqcıl ən'ənələrindən bəhrələnən özünün çoxşaxəli elmi-pedaqoji fəaliyyəti ilə Azərbaycan—rus elmi-pedaqoji əlaqələrini daha da zənginləşdirən görkəmli Azərbaycan şərqşünası, maarifçi və pedaqoq, rus şərqşünaslıq elminin banilərindən biri professor Mirzə Kazım bəyin xidmətləri ayrıca qeyd edilməlidir. Rusiyanın ən iri və qabaqcıl universitetlərindən sayılan Kazan və Peterburq universitetlərinin professoru, kafedra müdiri və fakültə dekanı, Peterburq Elmlər Akademiyasının müxbir üzvü, Rusiyanın və bir sıra xarici ölkələrin müxtəlif elmi cəmiyyətlərinin üzvü, Şərq və Avropa dillərinin gözəl bilicisi olan professor Kazımbəy üç dəfə Elmlər Akademiyasının Demidov mükafatına layiq görülmüşdür. L.N.Tolstoya, N.Q.Çernışevskiyə Şərq dillərini öyrədən, N.İ.Lobaçevski ilə dost olan, onun pedaqoji görüşlərini təbliğ edən, bir sözlə, rus və Şərq xalqlarının yaxınlaşması üçün çox iş görən M.Kazımbəyin dünyagörüşü Azərbaycan mühiti, qabaqcıl rus ictimai-siyasi və pedaqoji fikrinin tə'siri altında formalaşmışdır.

Mirzə Kazımbəyin çox mühüm xidmətlərindən biri ilk dəfə Azərbaycan dilinin elmi qrammatikasını yaratmasıdır. Onun 1889-cu ildə Kazan şəhərində nəşr etdirdiyi «Türk-tatar dilinin qrammatikası» Rusiyanın orta və ali məktəblərində tədris edilən dərsliklər içərisində mühüm yer tutur. Bu kitabdan uzun müddət Rusiya və Avropa universitetlərində yeganə vəsait kimi istifadə edilmişdir. M.Kazım-bəyin bu dərsliyi özünün elmi-pedaqoji məziyyətləri, o dövrdə tərtib

[1] Bax: AKT-lar, XI cild, s. 756.

edilən bütün dərsliklərdən çox-çox üstün olması ilə diqqəti cəlb edir. Dövrünün mütəxəssisləri M.Kazımbəyin bu dərsliyinin üstünlüyünü dəfələrlə qeyd etmiş, Tiflis gimnaziyasındakı digər dövlət məktəblərində Azərbaycan dilinin tədrisində ondan istifadə olunmasını məsləhət bilmişlər.

Çox sevindirici haldır ki, Zaqafqaziya, o cümlədən Azərbaycandakı mövcud dövlət məktəblərində Azərbaycan dilinin tədrisi üçün M.Kazımbəyin «Türk-tatar dilinin qramatikası»na olan ehtiyac nəticəsində həmin dərslik 1846-cı ildə Peterburqda yenidən nəşr edilmişdir.

Nəticə e'tibarilə qeyd etmək olar ki, keçən əsrin ortalarında Azərbaycan-rus elmi-pedaqoji əlaqələri daha da genişlənirdi. Mövcud dövlət məktəblərinin müvəffəqiyyətli inkişafı, bir sıra yeni məktəblərin meydana gəlməsi, məktəblərdə Azərbaycan dili ilə bərabər, rus dilinin də tədrisi, azərbaycanlı uşaqların get-gedə bu məktəblərə daha çox meyl göstərməsi, rus dilinə və mütərəqqi rus mədəniyyətinə yiyələnməsi Azərbaycan rus-erməni və gürcü pedaqoji əlaqələrinin inkişafı üçün daha əlverişli zəmin hazırladı. Ən başlıcası isə bu idi ki, Azərbaycan dili yerli məktəblərlə yanaşı İrəvan və Tiflisdəki bir sıra tədris ocaqlarında da müvəffəqiyyətlə tədris olunurdu. Bütün bunlar Azərbaycan dilinin tədrisi üzrə müvafiq dərslik və dərs vəsaitlərinin meydana gəlməsinə imkan yaradırdı. O dövrdə dövlət məktəblərində azərbaycanlı müəllimlərin bütöv bir dəstəsi yetişmişdi.

Azərbaycanın qabaqcıl maarifpərvər övladları xalq maarifi, məktəb təhsili, həmçinin tədris vəsaiti və dərsliklər tərtibi sahəsində unudulmaz xidmətlər göstərirdilər.

Məqalə «Azərbaycan məktəbi» jurnalının 1987-ci il tarixli 2-ci sayında (s. 45–50) çap olunmuşdur.

PEDAQOGİKA TARİXİ VƏ MÜASİRLİK

«Keçmişi tam dərk etməklə, biz bu günümüzü anlayır, fikrən keçmişin dərinliklərinə endikcə, gələcək fikirləri aşkar edirik: geriyə nəzər yetirməklə irəliyə addımlayırıq»

(A.İ. Gertsen).

Ölkənin sosial-siyasi, iqtisadi və mə'nəvi həyatının bir çox başlıca problemlərinin həll edilməsinə yönəldilən yeni ideyalar cəmiyyətin mə'nəvi həyatını fəallaşdırmış, keçmişin mədəni və mütərəqqi pedaqoji irsinə münasibətin yaxşılaşmasına, keçmişə münasibət məsələsində demokratik prinsiplərin bərqərar olmasına əlverişli şərait yaratmışdır.

Zəmanəmizdə demokratikləşdirmə güclü fikir, emosiya, təşəbbüs axınına yol açır, ictimai ab-havanı saflaşdırır, şüurları buxovlardan azad edir.

Yenidənqurma dövründə elm, o cümlədən pedaqoji elmlər, təhsil və mədəniyyət sahəsində əsas istiqamət, insana tərəf, xalqın mə'nəvi zənginləşməsinə tərəf, dönüş etməkdən ibarətdir.

Mə'lum olduğu kimi, son onilliklər dövrü rəhbərliyinin «amirlik inzibati metodlarının hökm sürdüyü dövrdən — çox vaxt elmlə onun öz inkişafının məntiqindən irəli gəlməyən tədqiqat istiqamətlərinin zorla qəbul etdirildiyi dövrdən miras qalmış bir çox» ləngitmə amilləri» pedaqoji elmlərin, ümumi pedaqogika tarixinin, xüsusilə də milli məktəb və pedaqoji ideyalar tarixinin həm tədqiqinə, həm təbliğinə, həm də tədrisinə mənfi tə'sir göstərmiş, xalqın zəngin keçmişinin mütərəqqi irsindən faydalanmaq nəinki vaxtında müdafiə olunmur, əksinə bə'zən hətta qadağan olunurdu.

Nəticədə son onilliklər ərzində elmin ictimai statusu və elmi fəaliyyətin nüfuzu açıq-aydın aşağı düşmüşdür. Ən çox təşviş doğuran cəhət odur ki, durğunluq illərində bütövlükdə sovet elmi kimi, pedaqoji elmlər, o cümlədən Azərbaycan pedaqoji elmi də bir sıra başlıca istiqamətlərdə geri qalmışdır. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən 70 ilə yaxın böyük bir dövr keçməsinə baxmayaraq, xalqın mədəni sərvətlərindən olan məktəb təhsili və pedaqoji fikrin sistemli tarixi hələ də yaradılmamış, Azərbaycanın klassik pedaqoqlarının seçilmiş pedaqoji əsərlərinin nəşrinə biganə

qalınmış, xalq maarifi və məktəb təhsilinə aid respublika hökuməti və partiya təşkilatının qərarları kimi vacib sənədlər toplusu, Azərbaycan pedaqoji lüğəti və ensiklopediyası kimi stolüstü kitablar hazırlanıb oxuculara çatdırılmamış, sovet dövrünün tanınmış pedaqoqları, onların fəaliyyəti və ideyaları ilə hələ də xüsusi tədqiqat obyektinə çevrilməmişdir.

Müəllim kadrları hazırlığında pedaqogika tarixinin xüsusi çəkisi mə'lumdur. İnsan cəmiyyətinin müxtəlif mərhələlərində, xüsusilə də sosializm cəmiyyətinin inkişaf dövründə tərbiyə, tə'lim və təhsilin, bütövlükdə xalq maarifinin və pedaqoji ideyaların təşəkkül və inkişaf yollarını bilmədən bu günkü məktəbi inkişaf etdirmək olmaz.

Pedaqogika tarixi təkcə xalqın mə'nəvi keçmişini öyrətməklə qalmır, o bu günümüzü dərk etməyə və gələcəyə düzgün istiqamət götürməyə xidmət edir, əsrimizin sonu və gələcək əsr üçün hazırlanan müəllim və tərbiyəçilərin pedaqoji biliyini, təfəkkürünü, mədəniyyətini inkişaf etdirir, dünyagörüşünün və pedaqoji peşə hazırlığının formalaşmasına yaxından kömək edir, kökümüz, tariximiz və bu günümüz haqda tələbələrin elmi biliyini genişləndirir.

Zəmanəmizdə cəmiyyətin iqtisadi və sosial tərəqqisi, mə'nəvi yeniləşmənin əsas dayaq amillərindən biri olan istər ümumi orta, istərsə də ali təhsilin rolu, (o cümlədən pedaqoji təhsilin) get-gedə artır və bütövlükdə təhsilin çox böyük rolunun dərk edilməsi prosesi gedir.

Son vaxtlar ümumi, orta və texniki peşə təhsililə, ali təhsil ilə əlaqədar bir sıra partiya və dövlət sənədlərinin qəbul edilməsi, tə'lim-tərbiyə işndə dəyişiklik proqramının hazırlanması, orta təhsil konsepsiyası layihəsinin geniş müzakirəyə verilməsi də bu məqsədə xidmət edir. Partiya belə hesab edir ki, «təhsilin, elmi tədqiqatların, ümumi və professional mədəniyyətin yüksək keyfiyyəti olmadan yenidənqurmanın məqsədilərinə çatmaq mümkün deyildir.

Hər cür şərait yaradılmalıdır ki, sovet adamlarının yeni nəsilləri şüurlu əmək həyatının və siyasi həyata qədəm qoyarkən yüksək ideyalılığa və əxlaqa, öz peşəsi sahəsində yaxşı biliyə və geniş mədəni baxışa malik olsunlar, ölkənin müqəddəratı üçün məs'uliyyəti öz öhdələrinə götürməyə hazır olsunlar».[1]

Partiyanın bu tələbi, həmçinin pedaqoji elmlərə də eyni dərəcədə aiddir. Belə ki, istər orta təhsil müəssisələrində, istərsə də

[1] Sov. İKP XIX Ümumittifaq konfransının materialları, Bakı, Azərnəşr, 1988, s. 29.

ali məktəblərdə, xüsusilə də pedaqoji institutlarda uşaq və gənclərin təhsili, ümumi və peşə mədəniyyəti yüksək səviyyədə olmadan qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmək mümkün olmaz. Bu mə'nada ictimai elmlərlə yanaşı humanitar elmlərdə, o cümlədən pedaqoji elmlərdə də dərin yenidənqurma ümdə zəruridir və burada ehkamçılıq, həyatdan gendüşmə tamamilə aradan qaldırılmalıdır.

Pedaqogika tarixi kursunun mövcud vəziyyətinə partiyanın bu tələbləri baxımından yanaşdıqda onun həqiqətən həyatdan gen düşməsini görərik. Bu kursun proqramında, quruluşunda və mövzuların şərhində həyatdan gendüşmə mə'nasında iki başlıca qüsur özünü göstərir. Bu qüsurlardan biri budur ki, pedaqogika tarixi üzrə dərslik və tədris vəsaitləri fəaliyyətini keçmiş illərin hadisələrini ehtirassız, şövqsüz qələmə alan qədim rus salnaməçisi Nestorun fəaliyyətinə bənzətmək olar. Mövcud proqramda və dərsliklərdə tarixi hadisələr bir sadalanır. Əslində pedaqogika tarixi, tarixin düşünülmüş təcrübəsinə əsaslanaraq bu günkü sovet məktəbinin yeniləşməsinə fəal qoşulmalı, müasir pedaqoji nəzəriyyəni və təcrübəni zənginləşdirməlidir. V.İ.Leninin bir məşhur fikrini burada bir daha xatırlamaq yerinə düşərdi. V.İ.Lenin 1919-cu il iyulun 11-də Sverdlov Universitetində dövlət haqqında oxuduğu məşhur mühazirəsində demişdir: «İctimai elm sahəsində ən e'tibarlı cəhət və bu məsələyə doğrudan da düzgün yanaşa bilmək vərdişi əldə etmək üçün və çoxlu xırda məsələlər içində, yaxud mübarizə edən çox müxtəlif rə'ylər içində batıb qalmamaq üçün lazım olan ən mühüm olan cəhət — əsas tarixi rabitəni unutmamaqdır, hər bir məsələyə, tarixdə mə'lum bir hadisənin nə cür əmələ gəldiyi, həmin hadisənin öz inkişafında nə kimi əsas mərhələlərdən keçdiyi nöqteyi-nəzərindən yanaşmaqdır və onun bu inkişafı nöqteyi-nəzərinə əsaslanıb həmin şeyin indi nə hala düşdüyünə nəzər salmaqdır».[1]

Pedaqogika tarixi kursunun həyatdan gen düşməsinin ikinci başlıca səbəbi SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixini sönük əks etdirilməsi ilə bağlıdır. Əsasən Avropanın və Rusiyanın məktəb və pedaqoji fikir tarixini əhatə edən pedaqogika tarixində milli respublikaların pedaqoji irsinin kifayət qədər öz əksini tapmaması yerlərdə yenidənqurmanın tələblərinə cavab vermir. Yenidənqurma, aşkarlıq və demokratiya şəratində hər bir xalqın dili, ədəbiyyatı, tarixi, milli mədəniyyəti, həmin regionun təbiəti,

[1] V.İ. Lenin. Əsərlərinin tam külliyyatı, 39-cu cild, s. 73.

coğrafiyası, flora və faunası kimi, məktəb və pedaqoji fikir tarixi də ön cərgədə, birinci olaraq tədris edilməli və öyrənilməlidir.

Bu səbəbdən pedaqogika tarixi kursunun mövcud proqramı yenidənqurma tələblərinə müvafiq olan ciddi dəyişikliyə möhtacdır.

Fikrimizcə, hər bir xalqın özünün mədəni-pedaqoji irsi, məktəb və pedaqoji fikir tarixini öyrənmədən, xarici ölkə xalqlarının pedaqoji tarixini öyrətmək təcrübəsi yenidənqurmanın tələblərilə bir araya sığmır. Pedaqogikanın məşhur yaxından-uzağa, mə'lumdan-məchula prinsipi də bunu tələb edir.

N.Nərimanovun hələ 1922-ci ildə söylədiyi bir məşhur kəlam da fikrimizi təsdiq edir. O, «Bə'zi yoldaşlara cavab» adlı məqaləsində yazırdı: «Türk (azərbaycanlı—H.Ə.) uşaqları nəinki Puşkinin, hətta Şekspirin və Şillerin şe'rlərini öyrənməlidirlər. Lakin bunu o zaman edə bilərik ki, hər şeydən əvvəl əsl proletar şairi doğma Sabirin heyrətli, mübariz şe'rlərini, xalq şairləri Vaqifin, Zakirin, Vidadinin şe'rlərini öyrənmiş olsunlar və bu da marksizm nöqteyi-nəzərincə tamamilə doğrudur»[1].

Bu mə'nada azərbaycanlı tələbə nəinki K.D.Uşinskinin, həm də Komenskinin, Pestalotsinin, Lokkun, Russonun, Disterveqin, Herbartın pedaqoji ideyalarını, qədim Afina və Spartada məktəb sistemini bilməlidir. Lakin bundan əvvəl mənsub olduğu xalqın məktəb tarixini, dahi Nizaminin, Füzulinin, Tusinin, Bakıxanovun, Vazehin, Axundovun, Şirvaninin, Zərdabinin, Sidqinin tükənməz və zəngin pedaqoji fikirlərini öyrənməlidirlər. Bu da Lenin milli siyasətinə, yenidənqurma, aşkarlıq, demokratiya tələblərinə, müttəfiq respublikaların suveren hüquqlarının genişləndirilməsi və özünüidarəsi prinsiplərinə tamamilə uyğundur.

Respublikanın Xalq Təhsili Nazirliyinin tədrisilə məşğul olan müvafiq şö'bəsi bu məsələnin həllinə diqqət yetirməli, mövcud proqramlarda lazımi dəyişiklik edilməli və tədris vəsaiti, dərslik nəşri qayğısına qalmalıdır. Belə bir cəhəti qeyd etməyə cəsarətini və məs'uliyyətini də öhdəmizə götürərək deməyi lazım bilirik ki, Azərbaycanın klassik pedaqoqlarının pedaqoji irsi nəinki tələbələrə, həmçinin geniş müəllim kütləsinə, xalq təhsili işçilərinə və sovet ictimaiyyətinə hələ də kifayət qədər mə'lum deyildir. Təkcə V.İ.Lenin adına APİ-nin yuxarı kurs tələbələrindən yalnız 42 nəfəri M.F.Axundovu, 13 nəfəri H.Zərdabini, 7 nəfəri R.Əfəndiyevi tanıyırlar. Azərbaycan sovet pedaqoqlarından isə 1–2 nəfərin adı

[1] «Bakinskiy raboçiy» qəzeti, 15 iyun 1922-ci il, №130.

inamsız şəkildə göstərilmişdir. Hələ bunların əsərləri, ideyaları, onlardan daha çox kimin tə'siri altında olduqlarına aid sualların cavabsız qalmasını da bura əlavə etsək, xalqımızın mə'nəvi keçmişi haqda tələbələrdə mə'lumatın qeyriqənaətbəxş olması bir daha aydın olar. Bu kəsərli cəhət aradan qaldırılmazsa, pedaqoji kadr hazırlığında yüksək göstəricilər əldə etmək yenə də müşkül iş olaraq qalacaqdır.

Yenidənqurma şəraiti həm də yalnız həqiqət tələb edir. Halbuki, xalq maarifi, məktəb və pedaqoji nəzəriyyənin bir sıra tanınmış nümayəndələrinin, praktik pedaqoqların həqiqi xidmətləri öz yerini hələ də lazımi qədər tutmamış, onların fəaliyyətləri kölgədə qalmışdır.

Pedaqoji tarixçilərin mühüm vəzifələrindən biri sovet dövrünün, sovet məktəbinin və sovet dövrü pedaqoji ideyaların mürəkkəb və dramatik prosesinə dərindən nüfuz etmək, 20–30-cu illərdə xalq maarifi sisteminin quruluşuna aid Lenin prinsiplərindən kənara çıxmaq hallarını, tarixilik prinsipinin ciddi pozulmasını aşkar etmək və o dövrə düzgün, obyektiv, elmi qiymət vermək, həqiqəti bərpa etməkdir.

Lenindən sonrakı dövr, — 20–30-cu illər, — Sovet dövlətinin tarixində xüsusi yer tutur. Bu illər həm sosializm quruculuğunun optimal variantlarının axtarışları baxımından, həm də yeni cəmiyyətin əsaslarının yaradılmasında əldə edilən nailiyyətlər baxımından olduqca zəngin illər idi. Onilliklər ərzində biz həmin dövrə dönə-dönə müraciət edirik. Bu da təbiidir. Çünki dünyada birinci sosial cəmiyyəti o zaman başlanır, qurulurdu. Bu tarixi miqyaslı və tarixi əhəmiyyətli hünər idi... «Əgər bu gün biz öz tariximizə bə'zən tənqidi nəzərlə baxırıqsa, ancaq ona görə ki, gələcəyin yollarını daha yaxşı, daha dolğun təsəvvür etmək istəyirik...»

Nəhayət, bizə xüsusən indi, yenidənqurmanın genişləndiyi bir vaxtda tariximizin bu və bütün başqa dövrlərinin həqiqi qiymətləri lazımdır — siyasi haqq-hesab çəkmək və s. necə deyərlər, ürəyi boşaltmaq üçün yox, keçmişdə göstərilmiş bütün qəhrəmanlıqları layiqincə qiymətləndirmək, səhvlərdən və qüsurlardan ibrət dərsləri götürmək üçün»[1].

Belə bir cəhəti də qeyd etmək yerinə düşər ki, sovet məktəbinin və pedaqogikasının tarixinə qiymət verərkən «şəxsiyyətə pərəstiş dövrünü sosializmin qəhrəmanlıq və çətin mərhələsi, böyük itkilər

[1] «Azərbaycan kommunisti» j., 1987, № 12, səh. 10–12.

və gənclərin təhsili və tərbiyəsi, ümumiyyətlə ölkənin mədəni inkişafı sahəsində igidlik və fədakarlıq mərhələsi, sovet xalqının əldə etdiyi böyük nailiyyət mərhələsinə bölmək də birtərəfli və yanlış olardı. Həmçinin 30-cu illərdə məktəblə tə'lim və tərbiyə ilə bağlı partiyanın qəbul etdiyi qərarlara münasibətdə də obyektivliyin gözlənilməsi çox vacibdir. Durğurnluq illərində inzibati-amirlik metodlarının, bürokratik üsulidarənin vurduğu maddi və mə'nəvi zərər, demokratiyanın, aşkarlığın ciddi pozulması, müəllim və şagirdlərin fəallığının tormozlaşdırılması, lovğalıq və təkəbbürlük meylinin güclənməsi, təhsildə keyfiyyət əvəzinə faiz bəlasının geniş yayılması, tədris-tərbiyə işində formalizmin hökm sürməsi artıq hamıya mə'lumdur. Bununla belə bütün məktəb həyatına, pedaqoji prosesin böyük cəhətlərinə durğunluq dövrünün yuxarıda deyilən neqativ hadisələr baxımından yanaşmaq da obyektiv olmazdı. Bütün ölkədə olduğu kimi, 60–70-ci illərdə respublikamızda da xalq maarifi və pedaqoji elmlər sahəsində bir çox diqqəti cəlb edən cəhətlər olmuş, vicdanla, vətəndaşlıq qeyrətilə, yaradıcı fəaliyyət göstərən tanınmış alim pedaqoqlarımız (akademik M.M.Mehdizadə, professor, əməkdar elm xadimləri Ə.Y.Seyidov, M.Ə.Muradxanov və b.) həmçinin bu gün Azərbaycan sovet pedaqoji elminin əsas problemlərinin həllində yaxından iştirak edən pedaqoji elmlər doktorları (N.Kazımov, Ə.Həşimov, Y.Talıbov və b.) ali məktəblərdə və elmi-tədqiqat institutunda çalışan yetkin dosentlər, elmlər namizədləri məhz 60–70-ci illərdə formalaşmış, bu gün də öz əhəmiyyətini itirməyən iraihəcmli əsərlər, monoqrafiyalar, dərslik və tədris vəsaitləri məhz həmin illərin məhsuludur. Bu sözləri psixologiya elmi, psixoloqlar haqda demək yerinə düşərdi. Nəhayət, pedaqoji tarixi üzrə kadr hazırlamaq, ərəb əlifbasını, ərəb və fars dillərini bilən gəncləri arayıb-axtarmaq, onları elmi-tədqiqat işinə geniş cəlb etmək, qonşu xalqlardan geri qalmamaq üçün ən qədim dövrlərdən başlayaraq Azərbaycan məktəb və pedaqoji fikir tarixinin sistemli kursunu yaratmaq və müasir oxucuya çatdırmaq çox vacibdir.

Məqalə «Yenidənqurma və ali məktəb pedaqogikasının aktual məsələləri» elmi əsərlər məcmuəsində çap olunmuşdur. (Bakı, APİ, 1989–s. 3–9.)

MƏKTƏB VƏ MAARİFİMİZİN TARİXİNİ DƏRİNDƏN ÖYRƏNƏK

RSFSR Pedaqoji Elmlər Akademiyasının Pedaqoqika Nəziriyyəsi və Tarixi İnstitutu çox qiymətli bir təşəbbüs göstərərək, 7 cilddən ibarət "SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixi" adlı əsər nəşr etməyi qərara almış və 1960-cı ildən bu işə başlamışdır. Əsərin nəşrə hazırlanması ilə əlaqədər olaraq RSFSR Pedaqoji Elmlər Akademiyasının Pedaqogika Nəzəriyyəsi və Tarixi İnstitutu RSFSR Maarif Nazirliyinin Ali və orta təhsil pedaqoji müəssisələrinin Baş idarəsi və RSFSR Maarif Nazirliyinin Elmi Pedaqoji Koordinasiya Soveti tərəfindən bu günlərdə Moskvada çoxcildlik əsər müəlliflərinin üçgünlük müşavirəsi keçirilmişdir.

Müşavirədə respublikamızdan da nümayəndələr iştirak edirdilər. Pedaqoji tarixçilərin Moskva müşavirəsində müzakirə edilən məsələlərdən biri pedaqogika tarixi üzrə tədqiqatın xarakteri və istiqaməti məsələsi idi. Bu məsələ haqqında RSFSR PEA-nın Pedaqogika Nəzəriyyəsi və Tarixi İnstitutunun SSRİ-də və xaricdə məktəb və pedaqogika tarixi şö'bəsinin müdiri A.İ.Pisqunov yoldaş geniş mə'ruzə etdi. Mə'ruzədən irəli gələn əsas məsələ bundan ibarət idi ki, indiyədək pedaqogika tarixi üzrə tədqiqat işləri ya məktəb tarixi, ya da ayrı-ayrı şəxsiyyətlərin pedaqoji görüşləri üzrə aparılmışdır. Ayrı-ayrı pedaqoji problemlərin tarixən qoyuluşu ilə isə çox az məşğul olunmuşdur. Mə'ruzəçi qeyd etdi ki, 1958–1962-ci illərdə pedaqogika tarixi üzrə müdafiə edilən 120 dissertasiyadan 80-i məktəb tarixinə, 30-u ayrı-ayrı şəxsiyyətlərin pedaqoji fikirlərinə həsr edilmişdir. Konkret pedaqoji problemlərə aid yalnız 10 dissertasiya yazılmışdır ki, bunu da anormal vəziyyət hesab etmək olmaz.

Müşavirədə pedaqoji tarixçilərin, xüsusilə sovet dövrü tədqiqatçılarının qarşısında daha məs'ul vəzifələr qoyuldu. Bu vəzifə hər şeydən əvvəl məktəb və maarif məsələsinin inkişafını tədqiq edərkən şəxsiyyətə pərəstiş dövrünə düzgün yanaşmaqdan ibarətdir. Bu məsələ haqqında mə'ruzə edən RSFSR PEA-nın Pedaqoji Nəzəriyyəsi və Tarixi İnstitutunun direktoru, RSFSR PEA-nın müxbir üzvü professor F.F.Korolev yoldaş göstərdi ki, Stalinin şəxsiyyətinə pərəstiş dövründə şəxsiyyətin hər tərəfli inkişafı tələbləri pozulmuş, xüsusilə də təhsil ocaqlarında əməyin rolu azaldılmış, məktəbin

həyatla əlaqəsi, tə'limin istehsalat əməyi ilə birləşdirilməsi sıxışdırılıb aradan çıxardılmışdır. Professor F.F.Korolev yoldaş bu dövrlərdə düzgün qiymət verməyən bir sıra tədqiqatçıları ciddi tənqid etdi. Həmçinin o, Azərbaycan alimi, professor M.Mehdizadənin "Azərbaycanda sovet məktəbinin tarixinə dair oçerklər" adlı əsərini bu nöqteyi–nəzərdən yüksək qiymətləndirdi.

Pedaqogika tarixi kursu və dərsliyinin müzakirəsi, RSFSR Maarif Nazirliyinin pedaqogika tarixi bölməsi ilə birlikdə oldu. Professor M.F.Şabayevanın sədrliyi altında aparılan bu müzakirə çox canlı və işgüzar şəraitdə keçdi.

Müzakirələrdən aydın oldu ki, mövcud pedaqoji tarixi dərsliyi qarşıya qoyulmuş tələblərə tam cavab vermir. Belə ki, bu dərslik əsil pedaqoji tarixindən çox, ayrı-ayrı şəxsiyyətlərin tərcümeyi-halından ibarətdir. Dərsliyin əsas qüsuru bundan ibarətdir ki, pedaqoji fikirlər mövcud dövrün tə'lim-tərbiyə təcrübəsindən təcrid edilmiş şəkildə verilmişdir.

Müşavirədə diqqəti cəlb edən məsələlərdən biri də bu idi ki, pedaqoji institutların tədris proqramlarında pedaqoji elmlərə verilən yer kifayət deyildir. Təkcə bunu qeyd etmək lazımdır ki, pedaqoji institutların tədris planlarında pedaqoji elmləri cəmi 11,5 faiz təşkil edir. Hal-hazırda pedaqoji institutlarında beşillik təhsil müddətindən 4 illik təhsilə keçilməsi nəzərdə tutulur. Ona görə də yeni dərs planında pedaqoji elmlərin tədrisi sistemini müəyyən etmək lazımdır.

Müşavirədə çıxış edən Ukrayna nümayəndəsi M.S.Qritsen, RSFSR PEA-nın müxbir üzvü, professor M.A.Santrosyan, Qırğızıstan SSR Elmlər Akademiyasının müxbir üzvü, RSFSR PEA-nın müxbir üzvü, Qırğızıstan SSR ETPEİ-nin direktoru, professor A.E. İsmayılovun çıxışlarında pedaqoji elmin qarşısında duran vəzifələrdən geniş bəhs edildi. Onlar öz çıxışlarında məktəbə və pedaqoji fikrin tarixi üzrə aktual, elmitədqiqat problemlərinə geniş yer verirdilər.

SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinin layihəsində Azərbaycanın məktəb və pedaqoji fikir tarixi də müəyyən qədər öz əksini tapmışdır. E'tiraf etmək lazımdır ki, çoxcildliyə Azərbaycan üzrə daxil olan materiallar Azərbaycanın məktəb, maarif və pedaqoji fikir tarixini bütöv şəkildə əhatə edə bilməz.

Azərbaycanda istər məktəb və maarif, istərsə də pedaqoji fikir tarixində tədqiq edilməmiş materiallar çoxdur. Professor M.Mehdizadənin "Azərbaycanda sovet məktəbinin tarixinə dair

oçerklər" adlı əsəri Azərbaycanda məktəb tarixinə aid yazılmış yeganə əsərdir.

Sovet hakimiyyəti qurulana qədərki məktəb tarixinə aid bir sıra kiçik əsərlər nəzərə alınmazsa, Azərbaycanda məktəb tarixini əks etdirən sanballı elmi tədqiqat əsərlərinin olmaması bizi narahat etməyə bilməz.

Məktəb tarixinə nisbətən, Azərbaycanda pedaqoji fikir tarixi qismən tədqiq edilmişdir. Bu sahədə professor Ə.Seyidovun xidmətləri böyükdür. Onun 19-cu əsrdə Azərbay-canda pedaqoji fikrin inkişafı tarixinə aid yazdığı monoqrafiya, Füzuli, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir, F.Köçərli və başqa görkəmli simaların pedaqoji görüşləri haqqındakı tədqiqatları nəzəri cəlb etməkdədir.

Azərbaycanda məktəb tarixi kimi pedaqoji fikir tarixi də bütöv tədqiq edilməmişdir. XII əsrdə Nizami, (tədqiqatçı professor M.Muradxanovdur), XVI əsrdə Füzuli (tədqiqatçı professor Ə.Seyidovdur) müstəsna edilərsə, XIX əsrə qədərki Azərbaycanın pedaqoji fikir tarixi sistematik və əsaslı surətdə tədqiq edilməmişdir.

Tədqiq edilməsi zəruri olan problemlərdən biri də xalq pedaqogikasıdır. Azərbaycan atalar sözü, zərb məsəllər, nağıllar və şifahi xalq ədəbiyyatının digər növlərini tədqiq etmək tərbiyə sahəsində xalqın xidmətini göstərmək lazımdır. Dosent Ə.Həşimov yoldaş ilk təşəbbüs göstərərək bu mövzuda dissertasiya yazıb müdafiə etmişdir.

Yeri gəlmişkən bir məsələni də qeyd etmək pis olmazdı ki, pedaqoji fikir tarixindən səhbət düşəndə, adətən inqilabdan əvvəlki dövrə nəzər salınır. XX əsrin — sovet dövrünün görkəmli pedaqoqları, onların pedaqoji fikirləri isə hələ də kifayət qədər öyrənilib ümumiləşdirilməmişdir.

Əgər XIX əsrin 60-cı illərinə nəzər salsaq görərik ki, Rusiyada İ.Q.Çernışevski, N.A.Dobrolyubov, N.İ.Piroqov, V.Y.Stoyunin, N.A.Korf, V.İ.Vodovozov, N.F.Bunakov və nəhayət K.D.Uşinski kimi görkəmli pedaqoqlar xalq maarifinin, məktəbin, tə'lim və tərbiyənin bütöv sistemi və problemləri ilə məşğul olmuş və bir sıra fikirlər söyləmişdir. Bu dövrdə Azərbaycanda M.F.Axundov, S.Ə.Şirvani, az sonralar H.Zərdabi və onlarla maarifçi-pedaqoq yetişmişdir. Onlar öz dövrlərində maarif və məktəb uğrunda mübarizə apararaq, zəhmətkeş balalarının tə'lim və tərbiyəsi sahəsində böyük fəaliyyət göstərmişlər. Bizcə sovet dövrü pedaqoji fikir nümayəndələrinin fəaliyyətinə də nəzər yetirmək vacib məsələlərdən biridir.

Azərbaycan məktəbi və pedaqoji fikrinin bütöv tarixini tədqiq etmək vaxtı çatmışdır. Onu da qeyd etmək lazımdır, bu mühüm işlə məşğul olacaq müəyyən bir elmi mərkəz belə yoxdur. Bu iş indiyə qədər əsasən ali pedaqoji məktəblərin pedaqoji kafedralarında, həm də sistemsiz şəkildə aparılmışdır. Yaxşı olardı ki, respublikanın məktəb və pedaqoji fikir tarixini elmi surətdə tədqiq etmək üçün Azərbaycan SSR Elmlər Akademiyasının fəlsəfə bölməsi yanında bir şö'bəsi yaradılsın.

Azərbaycan SSR Maarif Nazirliyi məktəb və maarif tarixinin öyrənilməsinə diqqəti artırmalıdır. Azərbaycan ETPİ-nin nəzdində ayrıca bir şö'bə — pedaqoji tarixi şö'bəsi təşkil etmək işin xeyrinə olardı.

Azərbaycan pedaqoji fikir tarixini tam şəkildə işləyib hazırlamaq bu günün vacib tələbidir. Azərbaycan SSR Maarif Nazirliyi və onun Elmi Tədqiqat Pedaqogika İnstitutu, həmçinin ali pedaqoji məktəblərin pedaqogika kafedraları bu məsələlər haqında dərindən düşünməlidirlər.

Məqalə "Azərbaycan müəllimi" qəzetinin 26 yanvar 1964-cü il tarxli sayında çap olunmuşdur.

ŞUŞADA İLK QƏZA MƏKTƏBİ

Azərbaycan musiqi mədəniyyətinin beşiyi olan Şuşa, özünün gözəl təbiəti, saf ab-havası ilə bərabər, həm də elm, mədəniyyət, xalq maarifi və məktəbin inkişafı tarixində də özünəməxsus xüsusi mövqeyə malik olmuşdur.

Şuşa şəhəri həm də özünün iqtisadi, ictimai vəziyyəti, ticarətin inkişafı ilə fərqlənirdi. XIX əsrin birinci rübündə Şuşa tacirləri, Cənubi Azərbaycan şəhərləri və İranın başqa vilayətləri ilə qızğın ticarət edir, Təbriz və qismən də İsfahanla əlaqə saxlayırdılar.

Şuşa əhalisi maarif və məktəbə həvəs göstərməsi ilə də fərqlənirdi. Başqa şəhərlərdə olduğu kimi, burada da bir sıra milli məktəblər mövcud idi.

Azərbaycanın Rusiya tərəfindən işğalı ilə əlaqədər olaraq çar hökuməti öz hökmranlığını möhkəmləndirmək və dövlət idarələri üçün qulluqçular, ilk növbədə isə rus və Azərbaycan dillərini bilən tərcüməçilər hazırlamaq üçün yerlərdə rus məktəbləri açmaq zəruriyyəti qarşısında qaldı. Zaqafqaziyada hökmranlıq edən çar generalları Azərbaycanın bir sıra şəhərlərində, o cümlədən Şuşada qəza məktəbi tə'sis etməyi təklif edirdilər. Bu məktəblərdə digər fənlərlə yanaşı, Azərbaycan dilinin tədrisi, kənd təsərrüfatı kursu və bağçılığın öyrədilməsi lazım bilinirdi. Lakin bundan əvvəl, Şuşada ilk məktəb hökumətin icazəsi ilə burada yaşayan Bazel missionerləri tərəfindən 1826-cı ildə açılmışdır. Bu məktəbdə bir çox müsəlman uşaqları alman dilini öyrənirdilər.

Azərbaycanın şəhərlərini gəzmiş general-adyutant Sipyagin 1827-ci ildə yazırdı ki, mən Şuşada olarkən Məhəmməd təriqətinə mənsub çoxlu uşağın hökumətin icazəsi ilə orada sakin olan Bazel missionerlərinin rəhbərliyi altında alman dilində məşğul olmalarına heyran qaldım. Müəllimlərdəki təkcə bir qüsur ondan ibarətdir ki, uşaqları rus dili ilə və bunun vasitəsilə Avropa adətləri və təsəvvürləri ilə tanış olmağa qoymurlar.

Hökumətin siyasətini və yerli əhalinin ehtiyacını nəzərə alan Sipyagin Nuxa, Bakı, Quba və Qazaxla bərabər, Şuşada da məktəb açmağı vacib bilirdi.

Nəhayət, 1829-cu ildə general Paskeviçin təşəbbüsü ilə Zaqafqaziya məktəbləri haqqında nizamnamə meydana gəldi. Bu

nizamnamə üzrə Azərbaycanda cəmi 9 qəza məktəbi açmaq nəzərdə tutulurdu ki, bunlardan da biri Şuşada olmalı idi. Hər məktəbin illik xərci 3.800 manat müəyyən edilmişdir.

Lakin ilk illərdə bu məktəblərin hamısı tə'sis edilmədi. 1830-cu ilin sonuna qədər Azərbaycanda dövlət tərəfindən yalnız Şuşa qəza məktəbi açıldı.

Şuşa qəza məktəbinin təşkilində bu məktəbin ilk müəllimi Nikolay Mixaylovskinin böyük xidmətləri olmuşdur. Rusiyadan Zaqafqaziya məktəblər direktorunun sərəncamına göndərilən titulyar məşvərətçi N.Mixaylovski 1830-cu ilin dekabrında Şuşa qəza məktəbinə müəllim və ştat üzrə nəzarətçi tə'yin edildi. O, dekabr ayında Şuşaya gələrək, məktəb açmaq üçün lazım olan hazırlıq işləri apardı. Nəhayət, dekabrın 30-da Şuşa qəza məktəbi təntənəli şəkildə açıldı.

Leninqrad Mərkəzi dövlət arxivində saxlanılan bir sənəddə deyilir:

"Gündüz saat 11-də bir sıra rəsmi dövlət nümayəndələri, hərbi qulluqçular, həmçinin Qarabağın fəxri bəyləri məktəb binasına toplandılar. N.Mixaylovski Zaqafqaziyada tədris müəssisələri tə'sis etmək üçün ə'lahəzrət tərəfindən təsdiq edilmiş 1829-cu il nizamnaməsindən qısa çıxarış oxudu və qəza məktəbinin açılışını e'lan etdi. Təntənə münasibəti ilə buraya yığılanlar məzmunlu nitqi üçün müəllim N.Mixaylovskiyə öz təşəkkürlərini bildirdilər".

Həmin gün I sinif açıldı və 19 şagirdlə tə'limə başlanıldı.

Beləliklə, 1830-cu il dekabrın 30-da Şuşada tə'sis edilən ilk qəza məktəbi ilə Azərbaycanda ilk dünyəvi rus məktəbinin bünövrəsi qoyuldu.

Məktəb Şuşada olan Bazel missionerlərinin Yevakeli cəmiyyəti tərəfindən bir il müddətinə pulsuz olaraq verilmiş binada yerləşirdi. 2 sinif otağından, lazım olan digər şəraitdən əlavə, məktəbin binasında 2 müəllimin yaşaması üçün yaxşı imkan var idi.

İlk günlər birinci siniflə N.Mixaylovski özü məşğul olurdu. Çox keçmədən şagirdlərin sayı artdı və ikinci sinif də açıldı. Bununla əlaqədar olaraq Zaqafqaziyanın baş hakimi tərəfindən Moskvada Lazarevin məktəbində təhsil almış və Tiflisdəki erməni məktəbində müəllimlik etmiş Nersues Araratov Şuşa qəza məktəbinə I sinif müəl-

limi vəzifəsinə tə'yin edildi. N.Mixaylovski isə ikinci siniflə məşğul olmaqla, həm də məktəbin nəzarətçisi vəzifəsini yerinə yetirirdi.

Şuşa qəza məktəbinin açılması münasibəti ilə ilk oxu üçün bə'zi kitablar ianə edildi. Bundan əlavə məktəbə Zaqafqaziya məktəblər direktoru Tiflis gimnaziyasından pulsuz olaraq bir sıra dərslik və tədris vəsaiti göndərmişdi.

Yerli əhali məktəbə rəğbət bəsləyir, məktəbə maddi yardım göstərirdi. Az müddət ərzində məktəbə gümüş pul ilə 5. 235 manat 16 qəpik ianə toplanmışdı.

Şuşa qəza məktəbində təhsil alan şagirdlərin sayı 1833-cü ildə 27, 1834-cü ildə isə 44 nəfər olmuşdur.

Nizamnamə üzrə iki sinifdən ibarət olan Şuşa qəza məktəbində şəriət, rus və Azərbaycan dilləri, hüsnxət, hesabdan ilk dörd əməliyyat tədris edilirdi. Bu məktəblər tə'limin məzmununa görə Rusiyanın məhəlli məktəblərinə bərabər idi. Burada təhsil alan şagirdlərin böyük hissəsi bəy və tacir uşaqları idi.

Çar hökumətinin konkret məqsədindən asılı olmayaraq və burada oxuyanların yuxarı təbəqələrə mənsub olmasına baxmayaraq, 30-cu illərdən e'tibarən qəza məktəblərinin meydana gəlməsi və azərbaycanlı balalarının bu məktəblərə cəlb edilməsi o dövrdə böyük mədəni hadisə idi.

Məhz bu məktəblər və burada oxuyan azərbaycanlı balaları sonralar Azərbaycanda xalq maarifi, məktəb və mədəniyyətin inkişafında mühüm rol oynamışlar.

Məqalə "Azərbaycan müəllimi" qəzetinin 6 aprel 1967-ci il tarixli sayında çap olunmuşdur.

NUXADA İLK QƏZA MƏKTƏBİ

XIX əsrin əvvəllərində Nuxada ticarət və sənətkarlıq xeyli inkişaf etmişdi. Şəhərin əhalisi artırdı. 1829-cu ildə Nuxada ilk ipəksarıma manufakturasının əsası qoyuldu. Bu zaman Nuxada və onun ətrafında yalnız dini məktəblər mövcud idi.

XIX əsrin 20-ci illərindən başlayaraq Azərbaycanın bir sıra şəhərləri ilə yanaşı, Nuxada da rus dilində qəza məktəbi açmaq zərurəti irəli sürülür. Burada rus dili ilə yanaşı, Azərbaycan dilinin tədrisi, həmçinin kənd təsərrüfatı və bağçılıq kursunun öyrədilməsi də təklif edilirdi. Qəza məktəbinin tə'sis edilməsindən məqsəd yerli əhalini Rusiya qayda-qanunlarına və maarifinə yaxınlaşdırmaq, eləcə də dövlət üçün çinovniklər hazırlamaqdan ibarət idi.

1829-cu ildə Zaqafqaziya məktəblərinin ilk Nizamnaməsinin təsdiqi ilə Nuxada da qəza məktəbinin tə'sisi lazım bilindi. Lakin həmin məktəbin açılması müxtəlif səbəblərə görə xeyli ləngidi. Nəhayət, Nuxa qəza məktəbi 1831-ci il dekabrın 30-dan fəaliyyət göstərməyə başladı.

Nuxa qəza məktəbi də nizamnaməyə görə iki sinifdən ibarət idi. Burada üç nəfər müəllim işləyirdi. Bunlardan biri Azərbaycan dili və şəriət müəllimi idi.

Məktəbin illik maliyyə xərci nizamnamə üzrə digər qəza məktəblərində olduğu kimi dövlət xəzinəsindən ödənilirdi.

Burada rus və Azərbaycan dilləri, şəriət, hesabdan ilk dörd əməliyyat, hüsnxət fənləri tədris edilirdi. Ana dilinin tədrisi üçün siniflərin hər birində həftədə iki dərs, cəmi dörd dərs (bir dərs müddəti 1 saat 30 dəqiqə idi) müəyyən edilmişdi.

Məktəbə daxil olanlardan heç bir təxmini savad və ya bilik tələb olunmurdu. Azərbaycan dili və şəriət dərslərindən başqa, digər fənləri, əsasən, Rusiya universitetləri və ali pedaqoji məktəblərinin mə'zunları tədris edirdilər. 1833-cü ildə Nuxa qəza məktəbində təhsil alanların ümumi sayı 29 nəfərə çatırdı. Bunlardan 21-i tacir uşaqları idi.

Zaqafqaziya məktəblərinin o vaxtkı direktoru, mülki müşavir Qruber 1833-cü ildə dövlət idarələrinə göndərdiyi məktublarından birində yazırdı ki, Nuxa qəza məktəbi bu yaxınlarda açıldığına görə hələlik şagirdlərin sayı azdır, ona görə də məktəb üçün xüsusi bina tikməyə ehtiyac yoxdur.

Məktəb şəxsi binada yerləşir və kirə haqqı verilirdi.

1835-ci ildə Zaqafqaziya məktəblərinin yeni nizamnaməsi təsdiq edildi. Bu nizamnamə ikisinifli mövcud qəza məktəblərini üçsinifli məktəbə çevirməyi nəzərdə tuturdu. Burada tədris edilən fənlərin dairəsi genişləndirilir, Azərbaycan və rus dilləri ilə bərabər, həm də erməni dili (ermənilər üçün), coğrafiya, tarix, hesab və həndəsədən ilk mə'lumat, hüsnxət, rəsm və şəkil tədris edilməsi lazım bilinirdi. Zaqafqaziyada ən çox işlədilən Azərbaycan dilinin tədrisinə xüsusi diqqət verilirdi. Müəllim hey'ətinin əvvəlki 3 nəfər əvəzinə 5 nəfər olması təsdiq edilmişdi. Bunlardan üçü elm-fənn müəllimləri hesab olunurdu ki, onların biri iki yuxarı sinifdə rus dili, coğrafiya və tarix, digəri hesab, hüsnxət, rəsm və şəkil tədris edir, üçüncüsü isə I sinifdə oxu və yazı, hesabdan ilk dörd əməliyyat öyrətməli idi. Qalan iki müəllim isə özlərinin və şagirdlərin mənsub olduqları şəriəti və dilləri (Azərbaycan və erməni dilini) tədris etməli idi. Məktəb üçün müvafiq binanın olmaması və müəllim kadrlarının çatışmaması üzündən bu nizamnamə çox ləng həyata keçirildi. Nuxada III sinif nizamnamə qəbulundan doqquz il sonra, yalnız 1884-cü il sentyabrın 1-də açıldı.

1844-cü ildə Nuxa qəza məktəbində oxuyanların sayı yetmişə çatmışdı. Bu ildə I sinifdə 40, II sinifdə 20, III sinifdə isə 10 şagird oxuyurdu. I sinifdə qarşılıqlı tə'lim üsulu tətbiq edilirdi. Bu illərdə Nuxa məktəbində olmuş Zaqafqaziya təhsil hissə rəisi özünün mə'lumatında yazırdı: I sinif şagirdlərinin bir çoxu rus dilində yaxşı oxuyur, həmçinin hesabdan ilk üç əməliyyatı bilirlər; rus dilini kifayət qədər başa düşürlər; yaxşı yazırlar və s...

Siniflərin və şagirdlərin sayı artdıqca məktəb üçün müvafiq bina tikmək zərurəti meydana gəldi. Get-gedə yerli əhalinin məktəbə maddi köməyi artırdı. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, yerli əhali tərəfindən məktəbə göstərilən maddi yardımın çoxluğuna görə Nuxa qəza məktəbi o dövrdə mövcud olan bütün qəza məktəblərindən xeyli fərqlənirdi. Nuxa qəza məktəbinə yığılan vəsait Zaqafqaziyanın o zamankı baş hakimi baron Rozenin diqqətini xüsusilə cəlb etmişdi. Məhz bunun nəticəsidir ki, o, Nuxada qəza məktəbinin binasını yerli əhalidən toplanan pulla tikməyi lazım bilmiş və bu haqda xüsusi sərəncam vermişdi.

Nuxa qəza məktəbində rus dilində ilk təhsil alanlardan biri Mirzə Fətəli Axundov olmuşdur. Bu məktəbdə sonralar Mirzə Fətəli

kimi onlarca azəri balası rus dilində təhsil almış, həmin dil vasitəsilə qabaqcıl Rusiya və Avropa mədəniyyəti ilə tanış olmuş, Azərbaycan mədəniyyəti, ədəbiyyatı, maarif və məktəbinin tərəqqisi uğrunda böyük xidmətlər göstərmişdir.

Məqalə «Azərbaycan müəllimi» qəzetini 15 iyul 1967-ci il tarixli sayında çap olunmuşdur.

BAKIDA İLK QƏZA MƏKTƏBİ

XIX əsrin əvvələrindən özünün coğrafi mövqeyi ilə diqqəti cəlb edən Bakı ən mühüm liman şəhəri olub Rusiya ilə ticarətdə böyük rol oynayırdı. Bakı eyni zamanda Zaqafqaziya əyalətlərinin ticarət mərkəzi idi.

Şamaxı, Salyan, Lənkəran və başqa şəhərlərin tacirləri Xəzər vasitəsilə — Rusiya ilə ticarət əlaqəsi saxlayırdılar. İranla ticarətin əsas mərkəzi də Bakı idi. Rus yazıçısı N.Zubov o zaman yazırdı: "Qafqazın bütöv şərq hissəsinin İranla ticarət əlaqələrinin cəm olduğu Bakı limanı bütün Şirvanda baş məntəqədir".

Bütün bunlara görə çar hökuməti keçən əsrin 20-ci illərində Zaqafqaziyanın digər mühüm şəhərləri sırasında Bakıda da qəza məktəbi tə'sis etmək və bununla da yerli əha-lini, xüsusilə də yuxarı təbəqəni öz tərəfinə çəkməyi lazım bilirdi.

Hələ keçən əsrin 20-ci illərindən başlayaraq Zaqafqaziyada hökmranlıq edən çar generallarının müraciət və məktublarında Bakıda məktəb açmaq zəruriyyəti irəli sürülürdü.

Qraf Paskeviçin tərtib etdiyi və hökumətin 1829-cu ildə təsdiq etdiyi Zaqafqaziya məktəblərinin nizamnaməsində Bakıda qəza məktəbi tə'sis edilməsi nəzərdə tutulmuşdu. Lakin məktəb üçün müvafiq bina, müəllim kadrları tapmaq və sair məsələlərlə əlaqədar olaraq Bakı qəza məktəbi ancaq 1832-ci il yanvarın 17-də açıldı. Bu, Azərbaycanın Rusiya tərəfindən işğalından sonra tə'sis edilən sayca üçüncü məktəb idi.

Bakı qəza məktəbinin ilk müəllimi və müdiri (nəzarətçi) Stepan İvanoviç Qorodinski olmuşdur.

Bakı qəza məktəbində ilk fəaliyyət göstərən müəllimlərdən digəri Mixail Serebryakov olmuşdur. O, dövlət xadiminin 12-ci dərəcəsinə mənsub idi. M.Serebryakov birinci sinifdə məşğul olurdu. Burada istifadə edilən dərslik və tədris vəsaiti Rusiyadan göndərilirdi.

İki sinifdən ibarət olan bu məktəbdə Azərbaycan və rus dilləri, ilahiyyat, hesabdan ilk dörd əməliyyat tədris edilirdi. Məktəbin illik xərci əskinas ilə 3.800 manatdan ibarət olub, dövlət xəzinəsindən ödənilirdi. Məktəbdə üç müəllim fəaliyyət göstərirdi. Bunlardan ikisi elm-fənn müəllimi olub, rus dili, hesab öyrədir, üçüncüsü isə ilahiyyat və Azərbaycan dili tədris edirdi.

1833-cü ildə Bakı qəza məktəbində cəmi 22 nəfər, 1884-cü ildə isə 29 nəfər təhsil almışdır. Bunların əksəriyyəti tacir, knyaz, dvoryan, bəy və çinovnik uşaqları idilər. Şagirdlərin çox az hissəsi digər silklərə mənsub idi.

Şagirdlərin sayına görə Bakı qəza məktəbi ilk illər Şuşa və Nuxa qəza məktəblərindən xeyli geri qalırdı. Bu, məktəb binasının darısqallığı ilə izah edilir. Belə ki, bu məktəb ikiotaqlı binada yerləşirdi. Həmin bina isə çox darısqal və yararsız idi. Ona görə də buraya cəlb olunan şagirdlərin sayı da çox az idi. Zaqafqaziya məktəblər direktoru 1835-ci ildə Xalq Maarifi departamentinə yazırdı ki, "Əgər məktəbin özünün xüsusi binası olardısa, şəhər əhalisinə görə şagirdlərin artacağına şübhə yoxdur". Yerli əhali məktəbə həvəs göstərirdi, bina tikmək üçün xeyli pul toplanmışdı.

Tədris proqramının məhdudluğu üzündən Zaqafqaziyanın digər qəza məktəblərində olduğu kimi, burada da şagirdlər ikiillik təhsildən sonra rus dilindən zəif, hesabdan isə səhti mə'lumata malik olurdular. Beləliklə də, onlar istər dövlət qulluğuna, istərsə də ticarətin inkişafına lazımi qədər fayda verə bilmirdilər. Ona görə də Zaqafqaziyanın o zamankı baş hakimi bu məktəbləri yenidən qurmağı, iki sinif əvəzinə üç sinif təşkil etməyi, tədris ediləcək fənlərin sayını və dairəsini genişləndirməyi zəruri hesab etmişdi. Onun layihəsi əsasında 1835-ci ildə meydana gələn yeni nizamnaməyə əsasən Bakı qəza məktəbinin üç sinifli məktəbə çevrilməsi və burada Azərbaycan, rus və erməni dilləri, hesab, rəsm, rəsmxət, coğrafiya, tarix və hüsnxəttin tədris edilməsi təsdiq olunmuşdu. Lakin bunun həyata keçirilməsi məktəb üçün müvafiq binadan çox asılı idi. 1837-ci ildə Bakıda qəza məktəbi binası tikmək üçün müvafiq yer və məbləğ ayrıldı. Lakin təsdiq edilmiş müvafiq layihə əsasında məktəb binası tikmək o qədər də asan başa gəlmədi. Belə ki, tikinti ilə məşğul olan müvafiq idarə yox idi, podratçılar isə bu işə girişmirdilər. Nəhayət, Bakıda məktəb binası tikmək üçün Tiflis sakini, iste'fada olan kapitan N.Muraçev ilə müqavilə bağlandı. Beləliklə, bu iş xeyli ləng getmiş, iş prosesində layihədə müəyyən dəyişikliklər edilmişdi.

Bakı məktəb binası müqaviləyə görə 1840-cı il iyunun 25-də tikilib başa çatdırılmalı idi. Lakin podratçı N.Muraçev tərəfindən tikintidə keyfiyyətsiz materiallardan istifadə edildiyindən burada iş dəfələrlə dayandırılmış, Bakı polismeysteri. Zaqafqaziya məktəblər direktoru və baş hakimi, digər əlaqəli şəxslər işə qarışmış, podratçı iş-

dən kənar edilmiş, Rusiyanın XMH bu işlə (həmçinin digər qəza məktəb binaları tikintisi ilə) xüsusi məşğul olmuşdu. Beləliklə, Bakı məktəb binası yalnız 1845-ci illərdən sonra tikilib başa çatdırılmışdır.

Buna baxmayaraq Bakı qəza məktəbi öz fəaliyyətini get-gedə genişləndirirdi. Bu illərdə təhsilə cəlb olunan şagirdlərin sayı xeyli artmışdı. 1844-cü ilin mə'lumatına görə, Bakı qəza məktəbində cəmi 77 nəfər şagird təhsil alırdı. Bunlardan 47-si I sinifdə, 17-si II sinifdə, 13 nəfəri isə III sinifdə oxuyurdu. Şagirdlərin miqdarına görə Bakı qəza məktəbi yalnız Gəncə və Şamaxı məktəblərindən geri qalırdı.

Bakı məktəbi təhsilin keyfiyyətinə görə də diqqəti cəlb edirdi.

Bu illərdə Bakı qəza məktəbində olmuş Zaqafqaziya tədris işləri rəhbərlərindən biri siniflər üzrə şagirdlərin ayrı-ayrı fənlərdən aldıqları bilik və bacarıqları təhlil edərək yazırdı ki, birinci sinif şagirdləri rus dilində yaxşı oxuyur, hesabdan sadə toplama və çıxma əməlini bilir. Hüsnxət öyrədilməsi olduqca yaxşıdır...

İkinci sinif də yaxşı oxuyur, rus qramatikasını əvəzliyə qədər yaxşı bilir, hesabdan kəsrə qədər yaxşı keçilib, məsələ həll etmələri qənaətləndiricidir, coğrafiyanı yaxşı bilir, erməni və Azərbaycan dillərində yazıb oxumaları çox yaxşıdır...

Ümumiyyətlə, Bakı qəza məktəbində tədris işi burada olan müfəttişləri razı salırdı. Bu, hər şeydən əvvəl, müəllimlərin əməksevərliyi, işə can yandırmaları ilə və şagirdlərin tə'limə həvəsi ilə izah edilir.

Beləliklə, XIX əsrin ortalarında Bakı qəza məktəbi nəinki Azərbaycanın ən yaxşı qəza məktəblərindən idi, o həmçinin Zaqafqaziyanın nümunəvi qəza məktəbləri ilə bir sırada dururdu. İstər məktəbin müdiri, istərsə də müəllimlər öz fənlərini şagirdlərə münasib bir şəkildə öyrətməyə çalışırdılar. Arxiv sənədlərindən birində deyilir ki, "Bakı qəza məktəbi əhalinin, xüsusilə də müsəlmanların böyük e'timadını qazanmışdır".

Bakı qəza məktəbi hələ də kirayə edilmiş binada yerləşirdi, bina tədris üçün kifayət dərəcədə yararlı idi, siniflər təmiz, avadanlıqlar isə səliqəli saxlanılırdı.

Bakı qəza məktəbinin ayrıca kitabxanası vardı.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 14 avqust 1967-ci il tarixli sayında çap olunmuşdur.

GƏNCƏDƏ İLK QƏZA MƏKTƏBİ

Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi çarizmin müstəmləkəçilik siyasətindən asılı olmayaraq ölkənin siyasi və iqtisadi həyatında böyük rol oynadı. Bu tarixi hadisə ilə əlaqədar olaraq, xalq maarifi və məktəb öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Çarizmin ruslaşdırma və müstəmkəçilik siyasətinə baxmayaraq, rus və Azərbaycan mədəniyyətinin qarşılıqlı tə'siri üçün geniş imkanlar yarandı.

XIX əsrin 30-cu illərində Azərbaycanın bir neçə qəza mərkəzlərində ilk dünyəvi rus məktəbinin təməli qoyuldu. Bu illərdə meydana gələn və Azərbaycan məktəb tarixində mühüm yer tutan tə'lim müəssisələrindən biri də Gəncə qəza məktəbidir.

Azərbaycanın qədim elm və mədəniyyət mərkəzi olan Gəncə XIX əsrin əvvəllərində özünün inzibati-coğrafi mövqeyi ilə diqqəti cəlb edirdi.

Heç də təsadüfi deyildir ki, keçən əsrin 20-ci illərindən başlayaraq Azərbaycanda olan bir çox dövlət nümayəndələrinin məktub və müraciətlərində Gəncədə 100 nəfər şagirdi əhatə edəcək bir məktəb tə'sis etmək təklif edilirdi. Bu məktəbə təhkimçi kəndlilərdən başqa, bütün digər təbəqələrə məxsus olanların uşaqlarının qəbul edilməsi göstərilirdi.

Məktəbin nəzdində xüsusi kənd təsərrüfatı və bağçılıq kursu açmaq lazım bilinirdi.

Bu fikirlər nəticəsiz qalmadı. 1829-cu ildə Rusiya hökuməti Zaqafqaziya məktəblərinin Nizamnaməsini təsdiq etdi. Bu Nizamnamə üzrə Azərbaycanda tə'sis edilməsi nəzərdə tutulan məktəblərdən biri də Gəncə qəza məktəbi idi. Şuşa, Nuxa və Bakı qəza məktəblərindən sonra sayca dördüncü yeri tutan Gəncə qəza məktəbi 1833-cü il fevralın 18-də açıldı. İlk vaxtlar məktəbin tədris planına şəriət, qiraət, hüsnxət, hesabdan ilk dörd əməliyyat, rus və Azərbaycan dilləri daxil idi.

Məktəbə daxil olanlardan heç bir təxmini bilik və ya savad tələb edilmirdi. Məktəb öz hüququna görə Rusiyadakı müvafiq təhsil müəssisələrinə bərabər idi, Gəncə qəza məktəbi ilk dəfə 38 şagird ilə işə başlamışdır. Şagirdlərin milli tərkibi beynəlmiləl idi. Burada azərbaycanlılarla yanaşı ermənilər, ruslar və digər millətlərin uşaqları da təhsil alırdı.

Yerli əhali məktəbə rəğbət bəsləyir, maddi vəsaitlə ona kömək edirdi. 1836-cı ildə məktəbə yardım üçün gümüş pul ilə 991 manat,

əskinas ilə 165 manat 91 qəpik pul toplanmışdır. 1839-cu ildə isə məktəb ianədən və qənaətdən gümüş pul ilə 1.398 manat 35 qəpik, əskinas ilə 226 manat 30 qəpik vəsaitə malik idi. Bu vəsaitin miqdarına görə də Gəncə qəza məktəbi digər məktəbləri ötüb keçir, yalnız Nuxa qəza məktəbindən geridə qalırdı.

Gəncə qəza məktəbinin digər məktəblərdən bir fərqi və üstünlüyü də onun dövlət binasında yerləşməsi idi.

1836-cı ildə Gəncə qəza məktəbi üçün dövlət xəzinəsi hesabına xüsusi bina tikilməsi qərara alınmış və bu məqsədlə 7.434 manat 35 qəpik pul ayrılmışdır. Şəhərin mərkəzindəki açıqlıqda məktəb binası üçün müvafiq yer seçilmişdir. Lakin Gəncədə tikinti materialları baha idi. Buna görə də podratçı tapılmadı. Binanı müəllim Z.İsaakovun nəzarəti altında tikməyə icazə verildi. 1839-cu ildə inşaat işlərinə başlanıldı və bir il sonra, yə'ni 1840-cı il avqustun 20-də bina istifadəyə verildi.

Gəncə qəza məktəbi Azərbaycanda dövlət tərəfindən tikilib istifadəyə verilən ilk maarif müəssisəsi idi. Qəza rəisi məktəbin fəxri nəzarətçisi təsdiq edilmişdir. Məktəbin nəzdində kiçik kitabxana da var idi.

Gəncə qəza məktəbinin ilk müəllimi və ştat üzrə nəzarətçisi Z.İsaakov idi.

Azərbaycan dili və şəriət müəllimi yerli ruhanilərdən olan Molla Abdulla molla Əliməmməd oğlu idi. O, 13 il həmin məktəbdə çalışmışdır. Arxiv sənədlərində onun bacarığı və ləyaqəti haqqında mə'lumatlar vardır. XIX əsrin ortalarında isə Gəncə qəza məktəbinin Azərbaycan dili və şəriət müəllimi vəzifəsində titulyar müşavir Mirzə Ələkbər Nəzərov işləmişdir. Ruhani təbəqəyə mənsub olan M.Ə.Nəzərov Tiflisdə təhsil almış, əvvəlcə Tiflis gimnaziyasında, sonra isə Tiflis qəza məktəbində Azərbaycan dili və şəriət müəllimi olmuşdur. Gəncə qəza məktəbində çalışan digər fənn müəllimləri Rusiyadan göndərilmişdi.

1835-ci ildə Zaqafqaziya məktəblərinin yeni Nizamnaməsinin təsdiqindən sonra Gəncə qəza məktəbi üç sinifli olmuş, burada Azərbaycan, rus, erməni dilləri, şəriət, hesab, hüsnxət, tarix, ədəbiyyat, coqrafiya və həndəsə fənləri tədris edilmişdir.

Gəncə qəza məktəbində tə'lim keyfiyyəti bir çox illər aşağı olmuşdur. Fikrimizcə, bunun səbəbi, bir tərəfdən, tə'limin rus dilində aparılması, müəllimlərin yerli dilləri bilməməsi və öz vəzifələrinə laqeyd münasibət bəsləmələrindən irəli gəlirdi. Qəza məktəbləri üçün Rusiyanın daxili quberniyalarından də'vət olunmuş müəllimlərin

tə'rifli attestasiyalarına və qulluq siyahılarına (anket mə'lumatına) baxmayaraq, onların heç də hamısı bu məktəblər üçün yararlı deyildi.

Digər qəza məktəblərində olduğu kimi, Gəncə qəza məktəbində də təhsilin aşağı səviyyədə olması, həm də müəllimlərin əmək haqqının azlığı ilə bağlı idi. Belə ki, Azərbaycanda işləyən müəllimlərin əmək haqqı Rusiyanın mərkəzində işləyənlərin əmək haqqından az idi. Yalnız onu qeyd etmək kifayətdir ki, keçən əsrin 40-cı illərində qəza məktəbinin nəzarətçisi və iki yuxarı sinif müəllimlərinin birlikdə əmək haqqı bir sahə zasidatelinin maaşına bərabər idi.

XIX əsrin ortalarında Azərbaycan qəzalarındakı inzibati idarələrə sərf edilən vəsait xalq maarifinə xərclənən vəsaitdən qat-qat artıq idi. Təkcə polis idarəsinə xərclənən vəsait xalq maarifinə sərf edilən vəsaitdən 8 dəfə çox idi. XIX əsrin birinci yarısının 44 ili ərzində (1804–1848) Zaqafqaziyada xalq maarifinə cəmi 972.652 manat pul xərəclənmişdir.

XIX əsrin ortalarında məktəbin tədris planı müəyyən dərəcədə dəyişildi, plana bə'zi yeni fənlər əlavə edildi. Məktəblərdə əməli əhəmiyyəti olan bə'zi peşə, o cümlədən, hesabdarlıq, məhkəmə qaydaları, dəftərxana işləri öyrədilirdi. Məktəbin ştatı və vəsaiti də artmışdı. Gəncə qəza məktəbində oxuyanların sayı get-gedə artırdı. 1843-cü ildə şagirdlərin ümumi sayı 95 nəfərə, 1844-cü ildə isə 109 nəfərə çatmışdı. Şagirdlərin ümumi sayına görə, Gəncə qəza məktəbi Naxçıvan, Şuşa, Bakı, Nuxa və Şamaxı qəza məktəbini ötmüşdü.

1869-cu ildə bütün Zaqafqaziyada mövcud olan 13 qəza məktəbini bitirənlərin ümumi sayı 44 nəfər idi ki, bunun da 18 nəfəri Gəncə qəza məktəblərinin təhsilə daha çox meylli olmasından, orta və ali təhsil müəssisələrinə daxil olmaq arzularından irəli gəlirdi.

Gəncə qəza məktəbi 38 il fəaliyyət göstərdi. Gəncə quberniyasının təşkili və Gəncənin quberniya mərkəzi olması ilə əlaqədar Gəncə qəza məktəbi 1871-ci ildə gimnaziyanın təşkilinə də maddi kömək göstərirdi.

Gəncə qəza məktəbi, mövcud olduğu dövrdə, təkcə Gəncədə əhalinin savadlanması işində deyil, həm də ətraf yerlərdə yeni-yeni məktəblər açılmasında müəyyən rol oynamışdır.

Məqalə "Azərbaycan müəllimi" qəzetinin 12 yanvar 1968-ci il tarixli sayında çap olunmuşdur.

SALYANDA İLK MƏKTƏB

XIX əsrin əvvəllərində Salyan o qədər də böyük olmayan yaşayış məntəqələrindən biri sayılırdı. Azərbaycanın digər şəhər və kəndləri kimi, Salyanda da əhali maarifdən kənarda qalmışdı. Yeganə təhsil müəssisəsi ruhani məktəbləri hesab olunurdu. Bu məktəblərin çoxu xüsusi evlərdə yerləşirdi. Çiy kərpicdən tikilmiş, üstü qarğı ilə örtülmüş bir otaqdan ibarət olan "məktəb binaları" havasız və daim nəm saxlanılırdı. 1850-ci illərin arxiv sənədlərində Salyanda 22 ruhani məktəbinin fəaliyyət göstərdiyi qeyd edilir. Bu məktəblərdə cəmi 264 şagird oxuyurdu.

1853-cü ildə bu məktəblərin sayı 17, 1859-cu ildə isə 33 olmuşdur. 1853-cü ildə 166, 1859-cu ildə isə 280 şagird məktəbə davam edirdi.

1884-cü ilin mə'lumatlarına görə Salyanda cəmi 19 molla məktəbi fəaliyyət göstərirdi ki, bunlardan 15-i oğlan, 4-ü qız məktəbi idi.

Tə'limin məzmunu dini-əxlaqi xarakter daşıyırdı. Dini kitablarla yanaşı Sə'dinin "Gülüstan", Füzulinin "Leyli və Məcnun" əsərləri, Hafizin "Divan"ı və s. oxudulurdu.

Tədris müddəti 6–8 il idi. Burada, əsasən, 8–16 yaşlı uşaqlar oxuyurdu. Digər ruhani məktəblərində olduğu kimi, burada da təhsil fərdi xarakter daşıyırdı. Təhsil pullu idi. Təhsil haqqının həcmi şagirdin ailə vəziyyətindən asılı olurdu.

Salyanda ilk ümümtəhsil məktəbi (rus dilində) ancaq 1880-ci ildə əmələ gəldi. Bu, Bakı quberniyasından xəzinə vəsaiti ilə açılmasına icazə verilmiş 3 normal məktəbdən biri idi (biri Göyçayda, digəri Altıağacda idi). Salyanın təsvirinə həsr edilmiş mənbələrdən birində bu məktəbin açılmasında qarşıya çıxan bir sıra çətinliklər göstərilirdi. Əhalinin fanatik hissəsi rus dilində olan məktəbə e'tinasızlıq göstərir, uşaqların bu məktəblərdə oxumasına razı olmurdular. Buna görə də bu məktəbin açılması bir sıra çətinliklərə, başağrısına və əziyyətə səbəb olurdu. Buna görə də bə'zi inzibati idarələrin, hətta məhkəmənin belə işə qarışması nəticəsində rus dilində məktəb açıldı. Bu çətinliyin əsas səbəblərindən biri də məktəb üçün binanın və ildə 200 manat kirayə haqqının xəzinədən deyil, əhali tərəfindən ödənilməsi idi. Rus dilinin əhəmiyyətini əhaliyə inandırmaq və izah nəticəsində 1880-ci il sentyabrın 22-də Salyanda bir sinifli məktəbin əsası qoyuldu. Üç il təhsil müddəti olan bu məktəbdə pul və Azərbaycan dilləri, hesab, hüsnxət və şəriət tədris edilirdi.

Məktəbə ilk dəfə qəbul edilən 49 şagirddən 47-si azərbaycanlı idi. Buranın ilk müəllimi N.D.Kalaşev olmuşdur. Ancaq məktəb Abram Yakovleviç Poqosovun müdir və rus dili müəllimi olduğu dövrdə (1883–1889-cu illərdə) daha geniş şöhrət tapmışdır. A.Y.Poqosov Şamaxı şəhər məktəbi nəzdindəki qısamüddətli pedaqoji kursu bitirmişdir. Salyanda normal məktəbin inkişafında, rus dilinin öyrənilməsində, yerli ziyalıların yetişməsində onun xidməti qeyd edilməlidir.

Məktəbdə Azərbaycan dili və şəriət müəllimi vəzifəsində buranın yerli sakinlərindən olan Mirzə Həşim Bəy Haqverdibəyov işləmişdir (1880–1896-cı illərdə).

Azərbaycan dili A.O.Çernyayevskinin "Vətən dili" dərsliyi üzrə keçirilirdi. Tə'lim ruhani məktəblərindən fərqli olaraq hərf-heca üsulu ilə deyil, səs üsulu ilə aparılırdı.

Maraqlı və əhəmiyyətli cəhət budur ki, bir sıra qabaqcıl müəllimlər kimi, Mirzə Həşim bəy də 1886-cı ildə Salyan normal məktəbində Azərbaycan dilinin tədrisi üçün proqram tərtib etmişdir. Həmin proqram Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblər direksiyası tərəfindən 1886-cı ilin oktyabrında Qafqaz tədris dairəsinə göndərilmişdir.

Bu zəhmətkeş müəllimlərin əməyi nəticəsində qısa müddət ərzində Salyan normal məktəbi yerli əhalinin hörmətini qazandı. Bu məktəbin ilk mə'zunlarından 3 nəfəri Bakı realnı məktəbinə, ikisi isə Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasına daxil oldu.

Məktəbin nüfuzu artdıqca təhsil haqqı da artdı.

1898-ci ildə Salyan normal məktəbi iki sinifli məktəbə çevrildi. II sinfin açılması ilə Zaqafqaziya müəllimlər seminariyasını bitirmiş Həsən bəy Axundov ora müəllim tə'yin edildi.

Əsrin sonunda Salyan iki sinifli normal məktəbi bütöv Bakı quberniya kənd məktəbləri içərisində ən çox şagirdə malik olan məktəb idi. Həmin ildə Göyçay ikisinifli məktəbində 112, Altıağac bir sinifli məktəbində 61, Lənkəran ikisinifli məktəbində isə cəmi 106 şagird təhsil alırdı.

Azərbaycanda xalq maarifi və mədəniyyətinin inkişafında unudulmaz xidmət göstərən bir qrup salyanlı ziyalı, o cümlədən Yusif Qasımov, Cahangir Axundov, Əli Zeynallı, Əli Qasımov, İsmayıl Axundov, Nəzir Hacıyev, Əli Zərgərli və bir çox başqaları ilk təhsilini

məhz bu məktəbdə almışlar. Həmin məktəb hazırda ZMS-nın mə'zunu Yusif Qasımovun adını daşıyır.

Salyan normal məktəbinin tə'sisi ilk dəfə olaraq ictimai kitabxana yaradılmasına səbəb oldu. Məktəbin açılması münasibəti ilə oraya toplananlar "məktəb-ictimaiyyət kitabxanası" adlı bir kitabxana təşkil etməyi qərara aldılar və bu məqsədlə könüllü olaraq 342 manat 40 qəpik pul topladılar. Kitabxanaya 420 manat 60 qəpik qiyməti olan müxtəlif kitab və dövri mətbuat bağışladılar. 1884-cü ildə burada 150 adda 417 nüsxə kitab, qəzet və məcmuə var idi. Burada Nizami, Füzüli, Hafiz, Sə'di və başqalarının əsərləri ilə yanaşı, görkəmli rus yazıçı və şairlərindən Puşkin, Qoqol, Lermontov, Ostrovski, Turgenev və başqalarının əsərləri də var idi. Kitabxanadan istifadə etmək üçün ildə 6 manat oxu haqqı müəyyən edilmişdi. Gəlmə şəxslər isə kitab-xanada oxumaq üçün hər bir kitaba 6 qəpik, qəzetə isə 2 qəpik verirdilər. Oxu haqqından toplanan pul kitabxana fondunun zənginləşməsinə xərclənirdi.

1880-cı illərdə Salyan ümumtəhsil məktəbinin fəaliyyət göstərməsinə baxmayaraq, əhalinin böyük əksəriyyəti təhsildən kənarda idi. 1881-ci ilin mə'lumatına görə Salyan qəsəbəsində yaşayan 9.906 nəfərdən yalnız 305 nəfəri ruhani və dünyəvi təhsil ocaqlarında oxuyurdu. 1885-ci ildə əhalinin hər 100 nəfərinə təxminən 3 şagird düşürdü. Dövlət məktəbi ayrılıqda götürüldükdə isə, əhalinin hər 169 nəfərinə bir şagird düşürdü. Məktəb yaşlı uşaqların böyük əksəriyyəti elementar təhsildən kənarda idi.

Azərbaycanın digər kənd və şəhərlərində olduğu kimi, Salyanda da xalq maarifi, sözün əsil mə'nasında, Sovet hakimiyyəti illərində inkişaf və tərəqqi etdi...

Məqalə "Azərbaycan müəllimi" qəzetinin 2 avqust 1969-cu il tarixli sayında çap olunmuşdur.

50 İLDƏ AZƏRBAYCAN XALQ MAARİFİNİN İNKİŞAFI

Böyük Oktyabr sosialist inqilabının qələbəsi Vətənimizin digər xalqları kimi, Azərbaycan xalqının həyatında da əsaslı dönüş yaratdı, xalq maarifinin yeni əsaslar üzrə tərəqqi etməsinə hər cür imkan və şərait yaratdı.

1918-ci ildə Bakı proletariatı hakimiyyəti öz əlinə alaraq, məktəb və xalq maarifinin inqilabi əsaslar üzrə yenidən qurulması sahəsində bir sıra tədbirlər həyata keçirdi. Bakı Xalq Komissarları Sovetinin 12 may 1918-ci il tarixli dekreti ilə məktəblər məsciddən ayrıldı, təhsilin silki xarakteri aradan qaldırıldı, ümumi məcburi və pulsuz təhsil sahəsində ilk addımlar atıldı. Sabunçuda, Bibi-Heybətdə və Qara şəhərdə xalq məktəbləri tə'sis edildi. N.Nərimanov və M.Əzizbəyovun yaxından köməkliyi ilə Bakı qəzasının bir sıra kəndlərində yeni maarif ocaqları yaradıldı.

V.İ.Lenin milli siyasətini rəhbər tutan Azərbaycan Kommunist Partiyası və Sovet hökuməti qısa müddət ərzində savadsızlığın ləğv edilməsində mühüm işlər gördü. Q.Musabəyovun başçılıq etdiyi savadsızlığa qarşı mübarizə komitəsi vasitəsi ilə 1922-ci ildən 1926-cı ilə qədər olan müddətdə 42,7 min nəfərin savadsızlığı aradan qaldırıldı. Azərbaycanda Sovet hakimiyyətinin ilk günlərində təşkil edilmiş Xalq Maarif Komissarlığı xalq maarifi sahəsində Sovet hökumətinin əsas prinsiplərini e'lan etdi. RSFSR-in təcrübəsi əsasında Azərbaycanda da iki dərəcədən ibarət vahid əmək məktəbləri təşkil edildi. Xalq maarifi sahəsində Lenin milli siyasətinin həyata keçirilməsində V.İ.Leninin sadiq şagirdləri N.Nərimanovun və başqa rəhbərlərin xüsusi rolu və xidmətləri olmuşdur.

Ərəb əlifbasının Latın əlifbası ilə əvəz edilməsi, sonra isə Azərbaycan dilinin fonetik xüsusiyyətlərini sax-lamaq şərti ilə rus əlifbası qrafikinə keçilməsi xalq maarifinin inkişafını daha da sür'ətlənirdi. 1939-cu ildə respublikamızda savadlılar əhalinin 73,3 faizini təşkil edirdi. Bu vaxt əhalinin hər min nəfərinə düşən məktəb-lilərin sayına görə Azərbaycan Avropanın bir sıra iri kapitalist ölkələrini, o cümlədən İngiltərə, Fransa, İtalya və Almaniyanı ötüb geçmişdir. İnqilaba qədər həç bir ali məktəbi olmayan Azərbaycan indi özünün Elmlər Akademiyası, Dövlət Universiteti və çoxlu ali

məktəbləri ilə fəxr edir. Sovet Azərbaycanı ali və orta ixtisas məktəb – tələbələrinin sayına görə Şərqin kapitalist ölkələri olan Türkiyə, İran və Əfqanıstanı deyil, Qərbin inkişaf etmiş ölkələrini belə ötüb keçmişdir.

Sovet hakimiyyəti illərində Azərbaycan qadınlarının həyatında da əsil mədəni inqilab baş vermiş, keçmiş hüquqsuz azəri qızları indi xalq təsərrüfatının digər sahələri ilə bərabər, xalq maarifi sahəsində də kişilərlə çiyinçiyinə çalışırlar.

Azərbaycan xalqı, maarif işçiləri öz qüvvələrini səfərbərliyə alaraq, el bayramları münasibəti ilə məktəblərimizin daha da tərəqqisi uğrunda yorulmadan çalışırlar.

Məqalə «Sür'ət» qəzetinin 7 aprel 1970-ci il tarixli sayında çap olunmuşdur.

50 İLDƏ AZƏRBAYCANDA XALQ MAARİFİNİN TƏRƏQQİSİ

Azərbaycan xalqı qədim və zəngin mədəniyyətə malikdir. Ölkəmizin digər xalqları kimi, Azərbaycan xalqının da formaca milli, məzmunca sosialist mədəniyyətinin yaradılması yalnız və yalnız Böyük Oktyabr sosialist inqilabının nəticəsidir.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinə qədər əhalinin böyük əksəriyyəti elm və təhsildən kənarda idi. Təkcə onu qeyd etmək kifayətdir ki, XIX əsrin son 70 ili ərzində Azərbaycanda düzgün təşkil edilmiş 200-dən bir az artıq ibtidai və 5–10 orta ümumtəhsil məktəbi açılmışdı ki, burada da təhsil əsasən rus dilində idi. 1914–1915-ci dərs ilində Azərbaycanda cəmi 943 ibtidai, 18 natamam orta və 15 orta məktəb mövcud idi ki, burada 73.109 şagird təhsil alırdı. Şagirdlərin çox az hissəsini azərbaycanlılar təşkil edirdi. Onlar da əsasən varlıların uşaqları idilər. Müsavat hakimiyyəti illərində həm məktəb, həm də şagirdlərin sayı xeyli azaldı (643 məktəb, 48.078 şagird).

Uzun əsrlərdən bəri davam edən məktəb və mədrəsələr isə sayca çox olmasına baxmayaraq, həyatın tələblərindən geri qalırdı.

Yalnız Sovet hakimiyyətinin qurulması ilə Azərbaycanda xalq maarifi və məktəb təhsilinin hərtərəfli inkişafı üçün geniş yollar açıldı. Xalqımızın böyük humanistlərinin — maarif carçılarının — Nizami, Xaqani, Nəsimi, Tusi, Füzuli, Xətai, Vaqif, Bakıxanov, Mirzə Şəfi, M.F.Axundov, H.Zərdabi, S.Əzim, N.Nərimanov və başqalarının arzu və istəklərinin həyata keçirilməsi üçün əlverişli şərait yarandı...

1923-cü ildə respublika XKS nəzdində savadsızlığa qarşı mübarizə komitəsi yaradıldı. Bu komitəyə Q.Musabəyov başçılıq edirdi. Aparılan qızğın iş nəticəsində minlərlə adam parta arxasında əyləşdi. Təkcə 1922–1926-cı illərdə öz savadsızlığını ləğv edənlərin ümumi sayı 40 mindən artıq idi.

İnqilabın qələbəsinin ilk günlərində xalq maarifinə rəhbərliyin köhnə sistemi ləğv edildi. Respublikada Xalq Maarif Komissarlığı yaradıldı. Komissarlığın başında Dadaş Bünyadzadə dururdu.

1920-ci il mayın 12-də respublika XMK Azərbaycan hökuməti adından çıxış edərək xalq maarifi sahəsində Sovet hökumətinin əsas prinsiplərini e'lan etdi. Bütün məktəblərdə təhsil haqqı ləğv edildi. Tə'limin ana dilində aparılması, oğlanlarla qızların birgə təhsili həyata

keçirildi. Hökumətin "vicdan azadlığı" haqqında 1920-ci il 15 may tarixli dekreti ilə məktəblərdə din və şəriət tə'limi aradan qaldırıldı, bununla da xalq kütləsi müsəlman ruhaniliyinin bir neçə əsrlik zülm və tə'sirindən əbədi olaraq azad oldu. RSFSR məktəblərinin təcrübəsi əsasında Azərbaycanda da vahid əmək məktəbləri təşkil edildi. 1920-ci il oktyabrın 1-də Azərbaycanda ilk sovet dərs ili başlandı. Sovet məktəblərinin yenidən qurulması işində N.Nərimanovun xüsusi xidmətləri olmuşdur.

Xalq maarifi sahəsində hökumətin tədbirləri nəticəsində qısa müddət ərzində 1933/34-cü dərs ilində respublikamızda ümumi ibtidai icbari təhsil həyata keçirildi. Natamam orta və orta təhsil şəbəkəsi xeyli genişləndirildi. 1939-cu ildə əhalinin 73,3 faizi artıq savadlı idi. Azərbaycan təxminən 20 il ərzində əhalinin hər min nəfərinə düşən şagirdin sayına görə bu və ya digər iri kapitalist ölkəsini belə ötüb keçmişdi. Bu vaxt İnkiltərədə hər min nəfər əhaliyə 145, Fransada 136, Almaniyada 123, İtaliyada 120 nəfər məktəbli düşdüyü halda. Azərbaycanda əhalinin hər min nəfərinə düşən məktəblinin sayı 195 nəfər idi.

Sovet hakimiyyəti illərində kütləvi məktəblərlə bərabər, ali və orta ixtisas məktəbləri də inkişaf etmişdir. Mə'lum olduğu kimi inqilaba qədərki Azərbaycanda bir dənə də olsun ali məktəb yox idi. Yalnız tək-tək adamlar Azərbaycandan kənarda ali təhsil almağa müvəffəq olurdular. Yalnız bu fakt kifayətdir ki, 1920-ci ildə azərbaycanlılardan ali təhsili olanların sayı cəmi 62 nəfər idi.

Sovet hakimiyyətinin ilk 20 ili ərzində 91 texnikum və 16 ali məktəb tə'sis edilmişdi. Bu təhsil ocaqlarında 32 min tələbə təhsil alırdı.

Sovet hakimiyyəti illəri ərzində Azərbaycan xalqının formaca milli, məzmunca sosialist mədəniyyəti çoşğun surətdə inkişaf etmişdir. Sosialist inqilabından əvvəl əhalisiniin əksəriyyəti savadsız olan Azərbaycan artıq çoxdan elliklə savadlılar respublikasına çevrilmişdi. 50 ildə hər cür ümümtəhsil məktəblərində şagirdlərin sayı 19 dəfə artmışdır. Ümumi icbari orta təhsilə keçmək işi müvəffəqiyyətlə gedir. Hazırda 5.449 ümumtəhsil, 79 orta ixtisas məktəblərində və 13 ali məktəbdə tərqibən 1.6 milyon adam təhsil alır. Bu o dəməkdir ki, respublikanın hər üç vətəndaşından biri oxuyur. Onu da deyək ki, 1860-cı ildən 1920-ci ilədək, yə'ni 60 il müddətində

bütün Zaqafqaziyanın müəllim hazırlayan məktəblərini 262 nəfər azərbaycanlı bitirmişdir. Onların arasında bir nəfər belə qadın olmamışdır. Hazırda (1970-ci illər nəzərdə tutulur - red.) respublikamızın məktəblərində 75 min müəllim uşaqlara elmlərin əsaslarını öyrədir. Onların 32 mindən çoxu qadındır. İnqilabdan əvvəl Azərbaycanda elmi müəssisə yox idi. İndi isə Elmlər Akademiyası başda olmaqla Azərbaycanda 136 elmi müəssisə var. Elmi-tədqiqat müəssisələrində və ali məktəblərdə 16,6 min nəfər elmi işçi çalışır. Onların arasında 582 nəfər elmlər doktoru, təqribən 5 min nəfər elmlər namizədi vardır. Azərbaycan alimləri bir sıra elmlərin aktual problemlərini müvəffəqiyyətlə həll edir. Respublikada məhsudlar qüvvələrin və mədəniyyətin inkişafına əhəmiyyətli köməklik göstərirlər.

Məqalə "Sür'ət" qəzetinin 7 iyun 1970-ci il tarixli sayında çap olunmuşdur.

QUTQAŞEN MƏKTƏBİNİN 90 YAŞI VAR

Özünün maraqlı tarixi keçmişi olan tədris ocaqlarından biri də bu ilin (1972-ci il – red.) sentyabrında 90 yaşı tamam olan Qutqaşen məktəbidir.

XIX əsr Azərbaycan məktəbi tarixində xalq məktəbləri adı ilə meydana gələn kənd məktəbləri xüsusi yer tutur.

Təhsilin rus və Azərbaycan dillərində verildiyi və əsasən ibtidai savad öyrədildiyi bu tip məktəblər keçən əsrin 60-cı illərindən başlayaraq təşkil edilmişdir. Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi çarizmin siyasətindən asılı olmayaraq bu tarixi hadisənin çox mühüm mütərəqqi nəticələrindən olan xalq məktəbləri geniş əhali kütləsi içərisində ana dilində ibtidai savadı, rus dilini, ədəbiyyat və mədəniyyəti, dünyəvi elmləri yaymaq işində unudulmaz xidmətlər göstərmişdir. Həqiqətən də, keçən əsrin ortalarına qədər kəndli uşaqlarının bir hissəsi ən'ənəvi ruhani məktəblərinə davam edir, böyük əksəriyyəti isə elementar təhsildən kənarda idi.

M.F.Axundovun və Azərbaycanın digər demokratik maarifçilərinin xalqın təhsili uğrundakı ardıcıl mübarizəsi nəticəsiz qalmadı. Keçən əsrin 70–80-ci illərindən başlayaraq şəhərlərlə yanaşı kəndlərdə də düzgün təşkil edilmiş yeni üsullu dünyəvi məktəblər meydana gəldi.

Azərbaycan kəndlərində, o cümlədən Qutqaşendə ilk kənd məktəbinin təşkili və genişlənməsi, hər şeydən əvvəl, Zaqafqaziya müəllimlər seminariyası ilə bağlıdır. 1879-cu ildə bu seminariya nəzdində təşkil edilən və təxminən 40 il fəaliyyət göstərən azərbaycanlı şö'bəsi müəllim kadrları hazırlığında, kəndlərdə xalq məktəblərinin tə'sis edilməsində və inkişafında tarixi rol oynadı. Həmin şö'bənin təşkilində unudulmaz xidmətləri olan A.O.Çernyayevski sonralar yazırdı: "Bu şö'bədən buraxılan ilk müəllimlərlə şö'bə nəzdində olan ibtidai məktəb nümunəsində müsəlman kəndlərində düzgün təşkil edilmiş xalq məktəbləri açılmağa başladı ki, kənd əhalisi içərisində xalq təhsili də məhz bu vaxtdan yayıldı" ("Qafqaz" qəzeti, № 242, 1893-cü il).

1882-ci ilin yazında bu şö'bənin ilk buraxılışı oldu. Azərbaycan məktəb tarixində ilk dəfə həqiqi pedaqoji təhsil almış xalq müəllimlərinin ilk dəstəsi səhnədə görünməyə, maarif cəbhəsində

fəaliyyət göstərməyə başladı. Azərbaycan kəndlərində düzgün təşkil edilmiş normal məktəblərin sayı artdı. Azərbaycan balaları rus dili ilə bərabər, doğma ana dilində tə'lim və tərbiyə almağa başladılar.

Belə məktəblərdən birincisi 1882-ci il sentyabrın 12-də Nuxa qəzasının Qutqaşen kəndində açıldı. Məktəbin ilk müəllimi və müdiri vəzifəsində çalışmaq Zaqafqaziya Müəllimlər Seminariyası azərbaycanlı şö'bəsinin ilk mə'zunlarından biri, gələcəyin məşhur pedaqoqu Rəşidbəy Əfəndiyevə nəsib olmuşdur.

Qutqaşen kənd məktəbi əhalinin vəsaiti ilə təşkil edilmişdi. (O vaxtlar mövcud qanuna görə hər quberniyada yalnız üç kənd məktəbinin maliyyə xərci dövlət xəzinəsindən ödənilə bilərdi. Göstərilən üç məktəb Nuxa qəzasının da daxil olduğu Yelizavetpol quberniyasının Dağkəsəmən, Cəbrayıl və Gorus kəndlərində açılmışdı). Məktəbin açılışı böyük şənliyə səbəb oldu. Bu xeyirxah işdə qutqaşenlilərlə yanaşı, ətraf kənd camaatı da yaxından iştirak edirdi. Bu, səbəbsiz deyildi. Qutqaşenlilər təkcə Nuxa qəzasında deyil, Gəncə və Bakı quberniya kənd əhalisi içərisində də öz vəsaitləri ilə birinci olaraq məktəb açanlar idilər.

Qutqaşen kənd məktəbinin təşkili quberniyada, həqiqətən, böyük mədəni hadisə idi. XIX əsrin 80-ci illərində mövhumatın, dini fanatizmin möhkəm hökm sürdüyü bir dövrdə əhalinin öz vəsaiti ilə kənddə təhsilin əsasən rus dilində verildiyi məktəb açması xalqın rus dilinə, mütərəqqi rus mədəniyyətinə yiyələnmək, həmçinin vətən övladlarına yeni üsulla ana dilində tə'lim vermək ehtiyacından irəli gəlmişdi.

Məktəbin təntənəli açılışında şəxsən iştirak etmək məqsədi ilə oraya gələn Gəncə və İrəvan quberniyaları xalq məktəbləri direktorunun çıxışı da maraqlıdır. O, Azərbaycan dilinə tərcümə edilməklə söylədiyi nitqində demişdir: "Ata və balalar! Sizi çox vacib və həqiqətən, faydalı işin başlanması münasibəti ilə təbrik edirəm. Sizin pulunuzla açılan bu məktəb sizin uşaqlarınıza və nəvələrinizə ən yaxşı bir mirasdır... Məktəbdə sizin uşaqlar, sizin ana dilinizi, sizlərin nə yaza, nə də oxuya bilmədiyiniz dili öyrənəcəklər. Onlar həm də rus dilini öyrənəcəklər. Rus dilini bilmək ona görə lazımdır ki, sizin icra etdiyiniz qanun rus dilində yazılmışdır. Məhkəmə sədrləri məhkəmə prosesini rus dilində aparır, qəza rəisləri və digər vəzifəli şəxslər öz vəzifələrini rus dili vəsaitəsilə icra edirlər..."

Qutqaşenlilər hər vasitə ilə məktəbin tərəqqisinə çalışırdılar. Qısa müddət ərzində yerli əhali tərəfindən, xalq məktəbləri direktoru tərəfindən bəyənilən layihə əsasında pedaqoji tələblərə cavab verən tədris binası tikilmiş və məktəb 1884-cü ildə yeni binaya köçmüşdür.

Qutqaşen kənd məktəbi ilk vaxtlar Rusiya Xalq Maarif Nazirliyinin bir sinifli normal kənd məktəbləri proqramı əsasında işləyirdi. Məktəbin tədris planına Azərbaycan və rus dilləri, hüsnxət, hesab, rəsmxət və şəriət daxil idi.

Təhsilin məzmununa görə birsinifli normal kənd məktəbləri əhalinin o vaxtkı tələbini heç də ödəmirdi. Təhsil müddəti 3 il olan bu məktəbdə şagird əsasən Azərbaycan, xüsusilə də rus dilində müstəqil olaraq yazıb oxumağı və danışmağı öyrənirdi.

Qutqaşen məktəbi xeyli müddət birsinifli məktəb proqramı ilə işləmiş, yalnız 1895-ci ildə əhalinin tələbi və xahişi nəticəsində ikisinifli zemstvo məktəbinə çevrilmişdir. Rusiyanın daxili quberniyalarından fərqli olaraq Zaqafqaziyada, o cümlədən Azərbaycanda zemstvo təşkilatı yox idi. Lakin Qafqaz canişininin razılığı ilə əhalidən toplanan verginin cüz'i hissəsi xalq məktəblərinə sərf edilirdi. Bununla belə əhali yenə də məktəbi yanacaq, işıq, texniki işçi ilə tə'min edirdi. 1891-ci ildə məktəb üçün xüsusi daş bina tikilmişdir.

İkisinifli məktəbdə təhsil müddəti 5 il olub, təhsilin məzmunu xeyli geniş idi. Bu məktəbdə çalışan bir sıra müəllim və müdirlərin yazılarında bu haqda maraqlı qeydlər saxlanılmaqdadır. Leninqrad şəhərindəki SSRİ MDTA-də saxlanılan bir sənəd bu cəhətdən xarakterikdir. Məktəbin müdiri Vaqif bəy Musabəyov 1895-ci ildə Rusiya Xalq Maarif Nazirliyinə hesabat-mə'lumatında yazırdı: "Məktəbin tə'sis edildiyi 1882-ci ildən bəri kəndlilər arasında 100 nəfərdən çox savadlı adam var ki, bu, ancaq məktəbin nailiyyətidir".

Əsrin sonlarında Qutqaşen məktəbi tə'lim-tərbiyə işlərinin təşkilindəki müvəfəqiyyətlərinə görə, təkcə Azərbaycanda və Zaqafqaziyada deyil, cəmi Qafqazdakı xalq məktəbləri içərisində fərqlənirdi. Bu məktəbin inkişafında və nüfuzunun artmasında R.Əfəndiyevin xidmətləri unudulmazdır. O təkcə dərs deməklə kifayətlənmir, bir tərəfdən mərkəzi mətbuatda maraqlı məqalələr yazır ("Nour gölü", "Qutqaşen kəndi haqda bir neçə mə'lumat", "Nuxa qəzasında xalq səhiyyəsi" və s.), digər tərəfdən isə öz müəllimi

A.O.Çernyayevskinin tərtib etdiyi və Rəşidbəyin dəsti-xətti ilə daş basmada nəşr edilən "Vətən dili" dərsliyini sınaqdan keçirir, özünün gələcəkdə nəşr etdirəcəyi məşhur "Uşaq bağçası" əsərini hazırlayır, böyük rus pedaqoqu K.D.Uşinskinin ideyalarını təbliğ edirdi.

Qutqaşen məktəbi və onun müəllimi R.Əfəndiyevin bir xidməti da şagirdlərə kənd təsərrüfatına (xüsusilə ipəkçilik və bostançılıq) aid nəzəri və təcrübi bilik verməsi idi.

1889-cu ilə aid sənədlərdən birində deyilir, iyunun 1-də Qutqaşenə gedən knyaz Dondukov-Korsakov ona verilən ərizələri tərcümə etmək üçün müəllim Əfəndiyevi yanına çağırmalı oldu.

Şagirdlərlə birlikdə rəisin yanına gələn Əfəndiyev məktəbin ipəkçiliyindən, barama və bostanından tərəvəz nümunələri təqdim etdi. Məktəbin ipəkçilik və bostançılıq məşğələləri haqda hərtərəfli sorğudan sonra knyaz öz razılığını bildirdi, müəllim və şagirdlərə bu faydalı işdə müvəffəqqiyət arzuladı.

Qutqaşen məktəbi demək olar ki, uzun müddət Nuxa qəzasında elmi-pedaqoji metodik mərkəz rolunu oynamışdır. Xalq məktəblərində çalışan müəllimlərin elmi-pedaqoji biliyini artırmaq, ipəkçiliyi inkişaf etdirmək, nümunə dərsləri təşkil etmək məqsədi ilə Qutqaşen məktəbində keçirilən müəllimlərin sahə qurultayları bu işdə xeyli rol oynamışdır.

Müəllimlər qurultayları xalq müəllimlərinin təşəbbüsü ilə istənilən vaxt çağırılırdı. Sahələr (qəzalar) üzrə keçirilən bu qurultayların çağırılması böyük canlanmaya səbəb olurdu. Sənədlərdən birində deyildiyi kimi, "bu tədbir müəllimləri hərəkətə gətirir, onları pedaqoji ədəbiyyat oxumağa, yenilikləri izləməyə vadar edirdi. Qurultay ərəfəsində müəllimlərə müvafiq mövzular verilir və onlar bu mövzular üzrə ayrıca referat hazırlayırdılar. Sonra bu referatların konkursu keçirilirdi. Bütün bunlar qurultaydakı məsələlərin səmərəli müzakirə edilməsi ilə bərabər, müəllimlərin mövcud pedaqoji problemlərlə, yeniliklə tanış olmasına da böyük kömək edirdi.

R.Əfəndiyev Qutqaşendə 8 il müəllimlik etmişdir. 1890-cı ilin payızında o Xaçmaz məktəbinə dəyişdirilmiş, onun yerinə isə İrəvan müəllimlər seminariyasını bitirən Vaqif Musabəyov tə'yin olunmuşdur.

Qutqaşen məktəbinin təşkili ilə orada kitabxananın da əsası qoyulmuşdur. 1882-ci ildə məktəb nəzdində ayrıca kitabxana təşkil

edilmişdir. 1895-ci ilin mə'lumatına görə orada 217 adda kitab, qəzet, jurnal və tədris vəsaiti, bundan başqa xəritə, atlas və kolleksiyalar var idi.

Qutqaşen məktəbinin fəaliyyət göstərdiyi ilk 20 il ərzində şagirdlərin ümumi sayı təxminən 24–37 arasında olub. Şagirdlər əsasən azərbaycanlılar idi.

Qutqaşen məktəbində ruhani uşaqlarının da təhsil alması mütərəqqi hadisə olub, bir tərəfdən məktəbin mövcud məscid məktəblərindən (o vaxt Qutqaşendə 3 məscid məktəbi fəaliyyət göstərirdi, özünün çox-çox üstünlüyü ilə fərqlənməsi, digər tərəfdən də şəriətin tədris edilməsi və ruhanilərdən olan müəllimlərin orada işləməsi ilə əlaqədar idi.

Qutqaşen məktəbi ildən-ilə inkişaf etmiş, onun müvəffəqiyyətli başlanğıcı qonşu məktəblərdə də yeni üsullu tədris ocaqlarının yaranması və genişlənməsi ilə nəticələnmiş, ətraf kəndləri də təhsilə ruhlandırmışdır. Lakin Qutqaşen məktəbinin əsil tərəqqisi, zəhmətkeş balalarının ümumi təhsilə cəlb edilməsi yalnız Sovet hakimiyyəti illərində mümkün olmuşdur.

Məqalə "Azərbaycan müəllimi" qəzetinin 22 noyabr 1972-ci il tarixli sayında çap olunmuşdur.

100 YAŞLI MƏKTƏB

Qazax rayonundakı Salahlı kənd məktəbinin pedaqoji kollektivi həmin məktəbin təşkil edilməsinin 100 illiyini qeyd etməyə hazırlaşır. Leninqrad, Moskva və Tiflis şəhərlərindəki dövlət arxivlərində və elmi idarələrdə saxlanılan sənədlər içərisində Salahlı məktəbinin təşkili tarixinə, inkişafına dair çoxlu və maraqlı mə'lumat vardır.

Araşdırdığımız külli miqdarda arxiv sənədlərindən mə'lum olur ki, Salahlı kənd məktəbi keçən əsrin 70-ci illərində təşkil edilmişdir. Rəsmi sənədlərdə Salahlı məktəbi «Rus-müsəlman» məktəbi adlandırılır. Mə'lum olduğu kimi, «Rus-müsəlman» məktəbi o məktəblərə deyilirdi ki, onlar yalnız müsəlman uşaqları üçün açılmış olsun. Burada rus dili və rus dilində digər fənlər keçilməklə bərabər, ana dili də müstəqil bir fənn kimi tədris edilirdi.

Bu məktəblərin bir əsas xüsusiyyəti də ayrı-ayrı şəxslər tərəfindən açılması, məktəbin təhsil haqqının yerli əhalinin vəsaiti ilə, əhalidən toplanan ianələrlə idarə edilməsi idi. Bə'zi hallarda dövlət yalnız rus dili müəlliminin əmək haqqını xəzinədən verirdi.

Rusiya imperiyası daxilində bu növ məktəblər ilk dəfə keçən əsrin 70-ci illərində Qazax şəhərində və ətraf kəndlərdə meydana gəlmişdir.

Mövcud məscid məktəblərindən fərqli olaraq, «rus-tatar» məktəbləri Rusiya və Qərbi Avropanın mütərəqqi pedaqoji nailiyyətlərinə əsaslanırdı. Bu məktəblərin müsbət təcrübəsi sonralar Rusiyanın digər milli ucqarlarına, o cümlədən Azərbaycana da yayılmış və bu yerlərdə də eyni adlı tədris ocaqları meydana gəlmişdir. Milliyyətcə tatar olan Tauxitdin Mamleyev tərəfindən əsası qoyulan Salahlı «rus-müsəlman» məktəbi məhz bu zəmin əsasında meydana gəlmişdir. Bu, təkcə Azərbaycanda deyil, bütöv Qafqazda ilk «rus-müsəlman» məktəbi olmuşdur. Kazanda və Simbirskidə fəaliyyət göstərən «Rus-tatar» məktəblərinin iş təcrübəsindən və müvəffəqiyyətlərindən xəbərdar olan T.Mamleyev 1870-ci illərdə Tiflisə gəlmiş və 1872-ci il oktyabrın 28-də Qafqaz Tədris Dairəsinin (QTD) popeçiteli Y.M. Neverevə müraciət edərək Zaqafqaziya ölkəsi müsəlman kəndlərindən birində xüsusi məktəb açmağa icazə istəmişdir.

Rəsmi sənədlərdən onun Orenburq hərbi-ibtidai məktəbində təhsil aldığı mə'lum olur. Lakin müəllimlik şəhadətnaməsi olmadığından o, 1872-ci ilin noyabrında Tiflisdə imtahan vermək və sınaq dərsləri keçmək yolu ilə kənd məhəlli məktəbi və ibtidai xalq məktəbi müəllimi adı və müvafiq şəhadətnamə alır. O, məktəb açmaq üçün Salahlı kəndini seçir. Fikrimizcə, bu yerin seçilməsi bir tərəfdən Salahlının Tiflis ictimai mühitinə yaxınlığı, əhalinin təhsil tələbi ilə əlaqədar idi.

1873-cü il may ayının 11-də Mamleyev tərəfindən tərtib edilmiş əsasnaməyə görə məktəbin məqsədi rus dilini öyrətmək və ibtidai savad verməkdən ibarət idi. Təhsil pullu idi. İldə hər şagirddən 18 manat təhsil haqqı alınırdı. Müəllimin mülahizəsi ilə kasıb valideynlərin uşaqları, mütləq kəndlilərdən olmaq şərtilə, təhsil haqqından azad edilə bilərdi. Mamleyevin bu təşəbbüsü Qafqaz Təhsil Dairəsi tərəfindən rəğbətlə qarşılandı. Məktəbin ilk tə'sisi üçün cüz'i olsa da, dövlət tərəfindən bir dəfəlik 300 manat vəsait ayrıldı.

Beləliklə, 1875-ci il yanvarın 2-də Salahlı kəndində camaatın iştirakı ilə, Azərbaycanda və cəmi Qafqazda ilk kənd məktəbinin əsası qoyuldu.

Məktəb əvvəllər dövlət binasında yerləşirdi. Qazax sahə müvəkkili üçün tikilmiş bu bina boş olduğundan Gəncə qubernatoru tərəfindən məktəbə verilmişdi. Ətraf kəndlərdən gələn şagirdlər üçün məktəbin nəzdində pansion var idi. Tədris ili sentyabrın 1-də əhali yaylaqdan qayıtdıqdan sonra başlanır, mayın 1-də, əhali yaylağa köçən vaxt isə qurtarırdı.

Məktəbin tədris planına şəriət, Azərbaycan dili, rus dilində oxu və yazı, hesab, rəsmxət, təcrübi qrammatika (orfoqrafiya) və gimnastika daxil idi. Məktəbdə rus dili və digər fənlər Mamleyevin özü tərəfindən, şəriət və Azərbaycan dili isə kəndin savadlı və hörmətli sakini olan Abdulla ağa Əfəndiyev tərəfindən tədris edilirdi. Hər ilin sonunda Mamleyevin xahişi ilə şagirdlərin imtahanında iştirak etmək və tə'limin düzgün qoyuluşunu müəyyən etmək üçün Tiflisdən xüsusi metodist də'vət edilirdi.

Məktəb uzun müddət maddi çətinliklə fəaliyyət göstərmişdir. Yalnız 1877-ci ildə bu məktəb Gəncə və İrəvan quberniyaları xalq məktəbləri direksiyasının tabeleyinə keçdi, təhsil haqqı ləğv edildi, məktəbin xərci zemstvo vəsaitindən ödənildi və məktəb birsinifli

normal kənd məktəbi adlandırıldı. 1878-ci ildə burada 30 nəfər şagird oxuyudu.

Zaqafqaziya müsəlmanları içərisində rus təhsilini və ibtidai savadı yayan yeganə məktəb — azərbaycanlıların böyük hüsn-rəğbətini qazanan Salahlı məktəbi digər quberniyalardan əvvəl, məhz Gəncə quberniyasının bir sıra kəndlərində də belə məktəblərin tə'sis edilməsinə əsas verdi.

Qafqaz Təhsil Dairəsinin popeçiteli 1875-ci ilə aid hesabatında Qafqaz canişininə yazırdı: «Salahlı kənd məktəbinin müvəffəqiyyəti məni vadar edir ki, normal kənd məktəblərini ilk əvvəl Yelizavetpol quberniyasında açmağı Siz Ə'lahəzrətlərdən xahiş edim».

Həqiqətən də, Qafqazın müsəlman vilayətləri içərisində dövlət tərəfindən rus dilində açılan kənd məktəbləri ilk dəfə Gəncə quberniyasında meydana gəldi (Dağkəsəmən, Gorus, Cəbrayıl). Bu məktəblərin tə'sisində Salahlı kənd məktəbinin müvəffəqiyyətinin böyük tə'siri olmuşdur.

T.Mamleyev Salahlı məktəbində təxminən 5 il 1879-cu il mayın 12-nə qədər işləmiş, sonra öz xahişi ilə məktəbin müdiri və müəllimi vəzifəsindən azad edilmişdir. İ.Mamleyevdən sonra məktəbin müdiri və elm-fənn müəllimi vəzifəsi bir müddət boş qalmış, 1881-ci ildən Q.Veniaminov, sonralar müxtəlif vaxtlarda Mehdi ağa Vəkilov ilə Süleyman Qayıbov, 1894-cü ildən isə Əhmədağa Mustafayev olmuşdur. Azərbaycan dili və şəriət müəllimi vəzifəsində uzun müddət Abdulla ağa Nəsib Əfəndi oğlu Əfəndiyev, sonralar isə Molla Əbdürrəhman Şərifov çalışmışdır.

Salahlı kənd məktəbi əsrin sonlarında Süleyman ağa Əfəndiyevin evində fəaliyyət göstərmişdir. Bu bina kənd ictimaiyyəti tərəfindən məktəb üçün kirayə edilmişdi (ildə 80 manat). Cəmi 2 otaqdan ibarət olan bu bina darısqal olduğuna görə oxumaq istəyənlərin hamısını məktəb qəbul edə bilmirdi. Bu səbəbə görə də keçən əsrin sonuna qədər şagirdlərin sayı 350-dən artıq olmamışdır. Məktəbə 7–14 yaşlı oğlan uşaqları qəbul olunurdu. Qəbul digər məktəblərdən fərqli olaraq dərs ilinin başlanğıcında aparılırdı (1895-ci ilə aid sənədlərdə dərslərin sentyabrın 10-da başlanıb, mayın 10-da qurtardığı göstərilir). Məktəb keçən əsrin sonuna qədər birsinifli (3 şö'bədən ibarət) olmuşdur. Şagirdlərin silki tərkibi müxtəlif olsa da, əsasən kəndlilərdən ibarət idi. Məsələn, 1895-ci ildə orada oxuyan 50

şagirddən 26 nəfərini dvoryan, 5 nəfərini ruhani, 19 nəfərini isə kəndlilər təşkil edirdi. Ruhani uşaqlarının məktəbə cəlb olunması bir tərəfdən bu məktəbin mövcud məscid məktəblərindən böyük üstünlüyü, digər tərəfdən də orada şəriətin öyrədilməsi ilə əlaqədar idi.

Məktəbdə istifadə edilən dərsliklər böyük rus pedaqoqu K.D.Uşinskinin «Vətən dili» və «Uşaq aləmi», A.O.Çernyayevskinin «Rus dili», həmçinin Volperin «Rus dili», Yevtuşenskinin «Hesab» kitabından ibarət idi. Təhsilin məzmunundakı səthiliyə və şagirdlərin azlığına baxmayaraq Salahlı məktəbi təkcə həmin kənddə deyil, ətraf kəndlərdə də rus dilinin, dünyəvi təhsilin yayılmasında obyektiv rol oynadı.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 25 may 1973-cü il tarixli sayında çap olunmuşdur.

KƏND MƏKTƏBLƏRİMİZİN TARİXİNDƏN

Respublikamızın kənd ümumtəhsil məktəbləri əsasən XIX əsrin 20-ci illərində təşkil edilmişdir. Bununla bərabər, elə kəndlərimiz də vardır ki, orada ümumtəhsil məktəbi təşkilinin tarixi xeyli əvvəldir.

Keçən XIX əsrin 80-ci illərində xalq məktəbləri adı ilə meydana gələn kənd ibtidai ümumtəhsil məktəbləri Azərbaycan məktəbi tarixində ayrıca yer tutur. Belə ki, o vaxta qədər əsasən iri şəhərlərdə və qəza mərkəzlərində təşkil edilən dövlət məktəblərinin sayı az olduğundan və silki xarakter daşıdığından yalnız yuxarı təbəqələrə, xüsusilə də şəhər əhalisinə xidmət edirdi. Kəndli balaları isə istərrus, istərsə də Azərbaycan dilində dünyəvi təhsildən əsasən kənarda qalırdı.

Azərbaycan kəndlərində təhsilin əsasən rus dilində verildiyi ümumtəhsil məktəblərinin meydana gəlməsi və genişlənməsi bilavasitə Zaqafqaziya müəllimlər seminariyası ilə bağlıdır. Bir tərəfdən kənd əhalisinin ümumtəhsil tələbi, rus dilini öyrənməyə ehtiyacın artması, digər tərəfdən də ZMS-nın ilk mə'zunlarının səhnədə görünməsi kənd ümumtəhsil məktəblərinin təşkilinə əlverişli zəmin yaratdı. Pedaqoji təhsil almış müəllimlərin ilk dəstəsinin böyük və unudulmaz əməyi nəticəsində Azərbaycanın bir sıra kəndlərində, o cümlədən Yelizavetpol quberniyasının Ağdaş, Ağdam, Ləmbəran, Qarğabazar, Alpout, Bərdə, Kasapet, Xaçmaz, Vandam və Padar kəndlərində ümumtəhsil verən ibtidai xalq məktəblərinin əsası qoyuldu.

Göstərilən 10 kənd məktəbindən biri — Ağdaş məktəbi 1882-ci il sentyabrın 25-də təşkil olunmuş və məktəbə ilk dəfə 18 şagird qəbul edilmişdir. Digər 9 kənd məktəbinin təşkili 1883-cü ilin payız aylarına təsadüf edir. Məsələn, Ağdamda ibtidai təhsil verən kənd məktəbinin əsası 1883-cü il sentyabr ayının 15-də, Ləmbəranda isə oktyabrın 18-də qoyulmuşdur. İlk dəfə Ağdam məktəbinə cəmi 10, Ləmbəran məktəbinə isə 18 şagird qəbul edilmişdir. Məktəbin açılışında qonşu kəndlərin nümayəndələri də iştirak edirdi. Əhali məktəbin saxlanması, bina kirayə edilməsi və ya tikilməsi üçün ianə yolu ilə vəsait toplamaqda fəal iştirak edirdi. Məsələn, Ağdaş məktəbinin təşkili zamanı qonşu kəndlərdən gələn uşaqları da qəbul etmək üçün əhali məktəbə 12 otaqdan ibarət yeni bina tikməyi öhdəsinə götürmüş və bu məqsədlə 3 min manat pul toplamışdı.

Təşkilindən 90 il keçən Qarğabazar kənd məktəbi 1883-cü il oktyabr ayının 17-də, Alpout və Bərdə məktəbləri oktyabrın 25-də açılmışdır. Qarğabazar məktəbi ilk dəfə 12, Alpout məktəbi 6, Bərdə məktəbi isə cəmi 4 şagirdlə işə başlamışdır.

Kənd məktəblərinin təşkilində Nuxa və Cavanşir qəzaları xüsusilə fərqlənirdi. Bir sıra kənd camaatı məktəb açmağın bütün xərcini, o cümlədən məktəbin saxlanılmasını, tədris binası tikməyi, müəllimləri mənzil və yanacaqla tə'min etməyi öhdəsinə götürürdü. Kənd əhalisinin sə'yi nəticəsində 1883-cü il oktyabr ayının 26-da Kasapetdə, 28-də Xaçmazda, 30-da Vandamda, noyabrın 1-də isə Padarda ibtidai məktəbin əsası qoyuldu. Kasapet məktəbinə ilk dəfə 17, Xaçmaz məktəbinə 15, Vandam məktəbinə 21, Padar məktəbinə isə ilk dəfə cəmi 4 şagird qəbul edilmişdi. Məktəblərə ilk zamanlar qəbul olunan şagirdlərin azlığı əhalinin avam hissəsinin rus dilinə, dünyəvi təhsilə xor baxması ilə əlaqədar idi. Bununla bərabər şagirdlərin sayı gündən-günə artmışdır. Məsələn, Ağdam birsinifli kənd məktəbində şagirdlərin sayı əsrin sonlarında (1899-cu ildə) 62, Bərdə məktəbində 44, Qarğabazar məktəbində 48, Ləmbəranda 15, Vandamda 33, Xaçmazda 7, Padarda 15, Alpoutda 27, Kasapet kənd məktəbində isə 102 nəfərə çatmışdır.

XIX əsrin son rübündə dini-xurafatın, avamlığın və nadanlığın hökm sürdüyü kəndlərdə təhsilin əsasən rus dilində verildiyi cəmi bir və ya iki sinifdən ibarət olan ümumtəhsil məktəblərinin təşkili və göstərilən miqdarda şagirdin təhsilə cəlb edilməsi böyük məktəbləri təkcə şagirdlərin sayı ilə deyil, həm də təhsilin müvəffəqiyyəti ilə fərqləndirirdi.

Bə'zi kəndlərdə əhalinin qabaqcıl adamları xalq məktəblərini öz himayəsinə götürür, onun tərəqqisinə çalışır, maddi kömək edirdilər. Arxiv sənədlərində Şükür Ləmbəranskinin Ləmbəran kənd məktəbində təhsil alan kasıb şagirdləri tədris vəsaiti ilə tə'min etməsi və maddi yardım göstərməsinə aid maraqlı yazılır saxlanmaqdadır.

Təhsilin məzmunundakı səthiliyə, ümumtəhsil fənlərinin rus dilində aparılmasına, "«lal üsul"»adlanan tə'lim üsulunun yaramazlığına baxmayaraq xalq məktəbləri kənd əhalisi içərisində yeganə dünyəvi təhsil müəssisəsi olub, əhalinin qabaqcıl dəstəsinin hüsn-rəğbətini qazanırdı. Bu məktəblər kəndlərdə yeganə maarif və mədəniyyət ocağı idi.

Kənd məktəb müdirlərinin bir sıra hesabatlarında və digər mə'lumatlarında bu məktəblərin əhəmiyyətinə aid bir çox yazılar vardır. Məsələn, Vəndam kənd məktəbinin müdiri Həsən Bağırov məktəbin əhaliyə böyük mənfəət verməsini, öz uşaqlarını böyük həvəslə məktəbə qoymasını ayrıca qeyd edirdi. O yazırdı: «Kəndlilər ancaq məktəbin təkcə savad verməsindən narazıdırlar. Onlar, həm də sənət şö'bəsi açılmasını arzu edirlər. Onlar istəyirlər ki, uşaqlar həm də hər hansı bir peşə öyrənsinlər».

Kənd məktəbinin bir sıra mütərəqqi müəllimləri oğlanlarla bərabər qızların da rus dilində dünyəvi təhsil almasına çalışır, bu işə ayrıca əhəmiyyət verdiklərindən təcrübi addım ataraq qızları da məktəbə cəlb edirdilər. Bu sahədə Qarğabazar kənd məktəbinin işi daha diqqətəlayiqdir. Əsrin sonlarında burada oğlanlarla bərabər qızlar da oxuyurdu. 1895-ci ildə həmin məktəbdə olmuş Gəncə quberniyası xalq məktəblər inspektorunun qeydlərində deyilir ki, orada oğlanlarla bərabər 17 nəfər qız da təhsil alır. Qızlardan 10 nəfəri yaşca böyük olduğundan, həm də barama qurdlarını bəsləməkdə müəllimə kömək edirlər.

Kənd məktəblərinin bə'zisi həmin ərazidə qabaqcıl təcrübənin, pedaqoji və metodik biliyin mərkəzinə çevrilmişdi. Nuxa qəzasında müəllimlərin sahə qurultaylarının keçirilməsində Padar kənd məktəbi az rol oynamamışdır. Qurultayın tövsiyə tədbirləri məktəbin müdiri H.Bağırov tərəfindən hazırlanmışdı. Padar kənd məktəbi qurultay iştirakçılarının təcrübə məktəbinə çevrilmişdi.

Azərbaycan kəndlərində ibtidai məktəblərin meydana gəlməsi və genişlənməsi xalqın ümumi, mədəni inkişafına müsbət tə'sir edirdi.

Kənd məktəblərinin meydana gəlməsinin bir mühüm əhəmiyyətli cəhəti də onda idi ki, həm də kənd əhalisi rus dilində, rus dili vasitəsilə rus və mütərəqqi Avropa mədəniyyətinə yiyələnirdi.

Kənd məktəblərinin inkişafı ilə əlaqədar olaraq orta və ali məktəblərdə oxuyan azərbaycanlı şagirdlərin sayı da get-gedə artırdı. Kənd məktəblərinin təşkili həm də Azərbaycan dili və ədəbiyyatın, teatr və incəsənətin bir çox sahələrinin inkişaf etməsində də çox mühüm rol oynadı. Kənd məktəblərində çalışan xalq müəllimlərinin qabaqcıl dəstəsi bu işdə unudulmaz xidmətlər göstərir, özlərinin çoxcəhətli fəaliyyətləri ilə xalq maarifini, məktəb və mədəniyyətini inkişaf etdirirdilər.

Rəsmi sənədlərdə ilk məktəblərdə bir sıra kənd müəllimlərinin teatr tamaşaları təşkil etmələri və oradan toplanan vəsaitin məktəbin ehtiyacına xərclənməsini göstərən maraqlı qeydlər vardır. Məsələn, sənədlərdən birində Ləmbəran kənd məktəbinin müdiri Məmməd bəy Tahirovla Ağdam məktəbinin müdiri Zəkəriyyə bəy Aslanovun və başqalarının təşkil etdikləri teatr tamaşalarından 152 man. 40 qəp. əldə edilməsi, bu pulun Şuşa şəhər məktəbində oxuyan kasıb şagirdlərin ehtiyacına xərclənməsi qeyd edilir.

Kənd məktəbinin inkişafında həmin məktəblərdə çalışan zəhmətkeş müəllimlərin əməyi ayrıca qeyd edilməlidir. XIX əsrin son rübündə Ağdaş məktəbində Muxtar Muradov, Bağır İbrahimbəyov, Zəkəriyyə bəy Aslanov, Bərdə kənd məktəbində Muxtar Məmmədov, Həsən bəy Bağırov, Məmməd bəy Şirinov, Alpoutda Mirhəşim bəy Vəzirov, Padar məktəbində Mahmud bəy Mahmudbəyovla Həsən bəy Bağırov, Xaçmazda Cavad bəy Sadıxovla, Səməd bəy Hacıbəyov, sonralar isə İsmayıl bəy Şəfibəyovla Hacıkərim Saniyev, Vəndamda Ələskər Axundovla Məmməd Əfəndiyev, Ləmbəranda Aslan bəy Əmirovla Məmmədbəy Tahirov, Qarğabazarda Əliş bəy Tahirovla Əbdülkərim Vəlibəyov və başqaları müəllimlik etməklə bərabər kənd əhalisinin mədəni səviyyəsinin yüksəlməsinə çalışmış və unudulmaz xidmətlər göstərmişlər.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 9 fevral 1974-cü il tarixli sayında çap olunmuşdur.

KEÇMİŞİ VƏRƏQLƏRKƏN

...Cəbrayıl və Dağkəsəmən məktəbləri təkcə Azərbaycanda deyil, cəmi Qafqazda kənd yerlərində təşkil edilən ilk xalq məktəbləridir. Tədrisin rus dilində aparılmasına, şagirdələrin əksəriyyətinin yuxarı təbəqələrdən olmasına baxmayaraq, həmin məktəblər obyektiv olaraq mütərəqqi rol oynadı. Məhz bu məktəbləri bitirmək sayəsində azərbaycanlı gənclərin bir dəstəsi Rusiyanın Moskva, Peterburq, Xarkov və s. iri mədəniyyət mərkəzlərindəki ali məktəblərə daxil oldu.

Bir tərəfdən əsasən qəza mərkəzlərində təşkil edilən dövlət məktəblərinin müvəffəqiyyəti, əhalinin qabaqcıl hissəsinin həmin məktəblərə maddi kömək göstərməsi və onlara rəğbət bəsləməsi, bu məktəbləri hamiliyə götürməsi, digər tərəfdən də 60-cı illərin inqilabi və pedaqoji hərəkatı təkcə şəhərlərdə deyil, kəndlərdə də dünyəvi təhsil verən məktəblər təşkilini tələb etməsi onunla nəticələndi ki, hökumət orqanları hər bir quberniyada dünyəvi təhsil verən ibtidai məktəblər açmağa icazə verdi. Bütün bunlar hökumətin 1873-cü il 22 noyabr tarixli «Zaqafqaziyada tədris işlərinin təşkili haqqında» qanunu ilə rəsmiləşdirildi.

Həmin qanunla əlaqədar olaraq cəmi Zaqafqaziya və Qafqazda ilk kənd normal məktəbləri Yelizavetpol quberniyası Qazax qəzasının Dağkəsəmən kəndində, Cəbrayıl qəzasının Cəbrayıl kəndində, Zəngəzur qəzasının Gorus kəndində meydana gəldi.

Tbilisi, Leninqrad, Bakı və Yerevan şəhərlərindəki mərkəzi dövlət arxivlərində bu məktəblərə aid maraqlı yazılara rast gəlirik.

Arxiv sənədlərindən mə'lum olur ki, Cəbrayıl kənd normal məktəbinin əsası 1876-cı il sentyabrın 1-də qoyulmuşdur. Cəbrayıl məktəbi ilk dəfə birsinifli məktəb olmuş və 24 şagirdlə işə başlamışdır. Məktəb binasının darısqal olması oxumaq istəyənlərin hamısının məktəbə qəbul olunmasına imkan verməmişdir. Əvvələr kiçik bir yaşayış məntəqəsi olan Cəbrayılın sonralar qəza mərkəzinə çevrilməsi ilə əlaqədar olaraq məktəb də böyüyüb ikisinifli məktəbə çevrilmişdir. 1893–1894-cü dərs ilində məktəbdə artıq 91 nəfər şagird təhsil alırdı. Silki tərkibinə görə şagirdlərin 84 nəfərini kəndlilər təşkil edirdi ki, onlardan 73 nəfəri ətraf kəndlərdən gələnlər idi. Bu vaxt Cəbrayıl məktəbi şagirdlərin sayına görə Cəbrayıl qəzasında olan

digər məktəblərin hamısından, eləcə də Yelizavetpol və Bakı quberniyalarındakı xalq məktəblərinin bir çoxundan irəlidə idi.

Şagirdlər yaş dərəcəsinə görə yalnız 8 yaşından 16 yaşına qədər olan oğlanlar idi. Məktəbə şagird qəbulu vaxtı müəyyən deyildi. Şagirdin hazırlığından asılı olaraq məktəbə qəbul dərs ili ərzində aparılırdı. Dərs bir növbədə keçilirdi.

Məktəb kirayə edilmiş üç otaqdan ibarət xüsusi binada yerləşirdi. Cəbrayıl məktəbinin digər kənd məktəblərindən bir fərqi və üstün cəhəti də bu idi ki, orada ətraf kəndlərdən gələn uşaqların yaşaması üçün priyut (pansion) təşkil edilmişdi. Yerli əhali məktəbə maddi vəsaitlə kömək edirdi.

Əvvəllər təhsil pulsuz idi. Lakin sonralar şagirdlərin sayı artdıqca təhsil haqqı tətbiq edildi. Əsrin sonlarında hər bir şagirddən ildə 3 manat təhsil haqqı alınırdı.

1890-cı ildən məktəbdə həm də ipəkçilik öyrədilirdi. Bunun üçün müəllimlər əlavə kömək haqqı almırdılar. Əksinə, bu iş üçün lazım olan vəsaiti məktəb müdiri və müəllimlər özləri verirdilər. Arxiv sənədlərindən mə'lum olur ki, qəzada ipək qurdunun düzgün bəslənilməsinə məktəbin böyük tə'siri olmuşdur.

1890-cı illərdə Cəbrayıl məktəbinin pedaqoji hey'əti cəmi 4 nəfərdən ibarət idi. Onlardan bir nəfəri müdir, bir nəfər elm-fənn müəllimi (hər ikisi Zaqafqaziya müəllimlər seminariyasını bitirmişdi), bir nəfər Azərbaycan dili, bir nəfər isə ilahiyyat müəllimi idi. Təhsilin məzmununda əsas yeri rus dili, hesab və həndəsə tuturdu. Verilən biliyin təcrübi olaraq həyata tətbiq edilməsinə xüsusi fikir verilirdi.

Cəbrayıl ikisinifli normal xalq məktəbi keçən əsrdə bütün Cəbrayıl qəzasında xalq maarifinin, dünyəvi təhsilin, rus dilinin yayılmasında böyük rol oynamışdır.

Cəbrayıl normal məktəbinin müvəffəqiyyəti ətraf kəndlərdə də məktəb təhsilinin inkişafına, yeni məktəblər açılmasına qüvvətli təkan verdi. 1883-cü il oktyabr ayının 17-də Qarğabazarda birsinifli ictimaiyyat məktəbinin əsası qoyuldu.

1885-ci ildə Hadrutda ikisinifli zemstvo məktəbi, 1885-ci ildə yenə orada erməni məhəllə məktəbinin əsası qoyuldu.

Keçən əsrin sonlarında, 1897-ci ildə Qarabulaq kəndində ikisinifli zemstvo məktəbi açıldı ki, burada 67 şagird, o cümlədən 14 qız oxuyurdu.

Ümumiyyətlə, keçən əsrin sonlarına doğru cəmi Cəbrayıl qəzasında xalq maarifi, məktəb təhsili az olsa da inkişaf yoluna düşürdü. 1893–1894-cü dərs ilində qəzada fəaliyyət göstərən dövlət və məhəllə məktəblərində 500-dən artıq şagird təhsilin müxtəlif növü ilə əhatə olunmuşdu. Keçən əsrin sonlarına yaxın şagirdlərin nisbətən artması müşahidə olunur. Təkcə Cəbrayıl normal məktəbində oxuyan şagirdlərin sayı artıq 100 nəfəri ötüb keçmişdi.

Cəbrayıl məktəbi cəmi qəza məktəbləri üçün metodik-pedaqoji mərkəz rolunu oynayırdı. 1895-ci ildə müəllimlərin elmi-pedaqoji biliyini təkmilləşdirmək məqsədi ilə təşkil edilən müəllimlərin sahə qurultayı məhz Cəbrayıl məktəbində keçirilmişdir.

Cəbrayıl normal məktəbi ilə Qarğabazar ictimaiyyat məktəbinin müvəffəqiyyəti qızlar üçün də dünyəvi təhsil verən xüsusi məktəb açmaq zəruriyyətini irəli sürdü. 1911-ci ildə Cəbrayıl sakinlərindən 70 nəfərə qədəri yerli hakimiyyət orqanlarına ərizə ilə müraciət edərək Cəbrayılda qız məktəbi açmağı tələb etdi. Nəticədə 1912-ci ildə Rusiya Xalq Maarif Nazirliyinin vəsaiti ilə Cəbrayılda xüsusi qız məktəbi açıldı. Həmin illərdə Qarğabazarda da müsəlman qızları üçün təhsilin rus dilində verildiyi xüsusi məktəbin əsası qoyuldu. Buraya ilk dəfə 35 qız cəlb edilmişdir.

Cəbrayıl məktəbi digər məktəblər kimi, özünün həqiqi inkişaf yoluna yalnız Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra çıxa bildi.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 20 fevral 1976-cı il tarixli sayında çap olunmuşdur.

ŞAMAXIDA İLK QƏZA MƏKTƏBİ

XIX əsrin əvvəllərində Şamaxı şəhəri sür'ətlə böyüyürdü. Şəhər əhalisinin və iqtisadiyyatının tərəqqisi ilə əlaqədar olaraq məktəb və maarif işləri də inkişaf etməkdə idi. Mövcud məktəblərin və burada oxuyanların sayına görə Şamaxı Azərbaycanın digər şəhərlərindən irəlidə gedirdi. 30-cu illərdə burada 17 müəllim (molla) 395 uşağa dərs deyirdi. Bunlar xüsusi məktəblər olub valideynlərin hesabına idi.

Azərbaycanın Rusiya tərkibinə birləşdirilməsindən sonra Şamaxı şəhərində dövlət tərəfindən rus dilində məktəb açmaq zəruriyyəti meydana gəldi. Zaqafqaziya məktəblərinin 1829-cu il nizamnaməsi üzrə burada iki sinifdən ibarət qəza məktəbi tə'sis etmək təsdiq edildi. Məktəbin tədris planında şəriət, rus və Azərbaycan dilləri, hesab və hüsnxət nəzərdə tutulurdu.

1835-ci ildə meydana gələn məktəblərin yeni nizamnaməsi üzrə Şamaxıda ikisinifli deyil, üçsinifli qəza məktəbinin açılması yenidən təsdiq edildi. Məktəblərin 1835-ci il nizamnaməsi siniflərin sayını, tədris fənlərinin həcmini, məktəbin maliyyə xərcini nisbətən artırdı. Yeni nizamnaməyə görə üçsinifli Şamaxı qəza məktəbinin illik xərci dövlət xəzinəsindən olub, gümüş pul ilə 1.780 manat nəzərdə tutulurdu. Nəhayət, Şamaxıda ilk qəza məktəbi 1838-ci il may ayının 20-də açıldı. Lakin ilk dəfə bu məktəb nizamnamə üzrə nəzərdə tutulduğu kimi, üç sinifdən deyil, iki sinifdən ibarət təşkil edildi. Yalnız 40-cı illərdə üçüncü sinif də açıldı və Şamaxıda qəza məktəbi üçsinifli məktəbə çevrildi. Məktəbin tədris planına rus dili, Azərbaycan və erməni dilləri ilə bərabər, hesab, həndəsə, tarix və coğrafiya, hüsnxət, rəsm və rəsmxət, şəriət daxil idi. Digər qəza məktəblərindən fərqli olaraq burada əlavə saatlarda alman və fransız dilləri də tədris edilirdi. Şamaxı qəza məktəbi Avropa dillərinin tədris edildiyi yeganə qəza məktəbi idi. Leninqrad Mərkəzi Dövlət Tarix Arxivində Şamaxı qəza məktəbində tədrisin keyfiyyətinə aid sənədlər saxlanılmaqdadır. Həmin sənədlərdə şagirdlərin rus dilində qüsursuz yazıb oxumalarına və danışmalarına aid maraqlı mə'lumatlar vardır. Bakı müstəsna olarsa, digər şəhərlərə nisbətən Şamaxıda rus dili daha çox işlədilirdi. Valideynlərin çoxunun rus dilində danışması şagirdlərin bu dili asan mənimsəməsinə xeyli kömək edirdi.

Yerli əhali isə məktəbə maddi yardım göstərirdi. Arxiv sənədlərindən birində Şamaxı qəza məktəbinin nəfinə 1.503 manat toplandığı göstərilir. Əhalidən toplanan ianələr ildən-ilə artırdı. Heç də təsadüfi deyildir ki, Zaqafqaziyanın baş hakimi baron Rozen Şamaxıdan toplanan pulun çoxluğunu nəzərə alaraq, bu pulu məktəb üçün bina tikməyə xərcləməyə aid sərəncam vermişdir.

Şamaxı qəza məktəbi ilk əvvəllər şəhər sakinlərindən olan bir dövlətlinin xüsusi binasında yerləşirdi. Lakin sonralar Şamaxıda qəza məktəbi üçün dövlət hesabatına bina tikmək qərara alındı. Məktəb binası yalnız 1848-ci ildə tikilib başa çatdırıldı.

Şamaxı qəza məktəbində oxuyan şagirdlərin sayına, sinfi-silki və milli tərkibinə aid olan materiallar da maraqlıdır.

1839-cu ilin mə'lumatına görə burada təhsil alanların sayı 50 nəfər idi. Silki tərkiblərinə görə bunların 23 nəfəri şəhər əhalisindən, doqquzu bəy uşaqlarından, on üçü hərbi qulluqçuların, beşi isə ruhani uşaqlarından ibarət idi.

Onu da qeyd edək ki, yuxarı sinif şagirdlərinin sayı nisbətən az idi. Bu onunla izah olunur ki, o vaxtlar rus dilində savadı olanlara böyük ehtiyac var idi və aşağı siniflərdə az-çox təhsil alanlar pul qazanmağa meyl göstərdiklərindən, onlar məktəbi bitirmədən idarələrdə katiblik (mirzəlik) vəzifəsinə daxil olurdular. Həm də feodal münasibətlərinin möhkəm surətdə hökm sürdüyü bir dövrdə bəylər və tacirlər, yerli əhalinin yuxarı təbəqəsi gənclərin təhsilini tamamlamasına, məktəbi tam bitirmələrinə o qədər də fikir vermirdi. Çar hökuməti də buna laqeyd münasibət bəsləyirdi.

Mə'lumdur ki, 1840-cı ildə Zaqafqaziyanın inzibati islahatı ilə əlaqədar olaraq Şamaxı Xəzər vilayətinin mərkəzinə çevrildi. Şamaxı şəhərinin müstəqil vilayətə çevrilməsi burada gimnaziya tə'sis etməyi tələb edirdi. Ona görə də 40-cı illərdən başlayaraq Şamaxı qəza məktəbini gimnaziyaya çevirməyə aid fikirlər meydana gəldi. Zaqafqaziya məktəb nizamnamələrinin 1840–1848-ci illərdə tərtib edilmiş bir sıra layihələrində Şamaxı gimnaziyasının tədris planı, illik xərci, şagird kontingenti və s. müfəssəl surətdə göstərilmişdi. Lakin müxtəlif səbəblərə görə burada gimnaziya açmaq o vaxtlar baş tutmadı.

Azərbaycan əyalətlərində yüksək təbəqələrdən olanların orta təhsil almasına az-çox kömək etmək mülahizələri sonralar qüvvətləndi

və qəza məktəblərindən birini ali dördsinifli məktəbə çevirməklə nəticələndi. Bu, məktəblərin 1853-cü il nizamnaməsi ilə təsdiq edildi.

Dörd əsas və bir hazırlıq sinfindən ibarət olan bu məktəbin nəzdində 50 nəfərlik pansion nəzərdə tutulurdu. Onlardan 25 nəfəri dövlət hesabına saxlanılır (bunlardan 20 nəfəri yuxarı müsəlman silkindən, 5 nəfəri isə dvoryan nəslindən olub. Qafqazda olan və ya qulluq zamanı ölən ləyaqətli rus çinovniklərinin uşaqlarından olmaqla), qalan 25 nəfəri isə öz xərcilə yaşayırdı. Pansionda öz hesabına yaşayan şagirdlərin hər birindən ildə gümüş pul ilə 90 manat, bundan əlavə, daxil olarkən birdəfəlik 30 manat alınırdı.

Məktəbə rəhbərlik üçün fəxri popeçitel tə'yin edilirdi ki, bu da öz hüququna görə gimnaziyanın fəxri popeçitelinə bərabər idi. Fəxri popeçitel vəzifəsinə yalnız ali və ya dvoryan silkindən olanlar tə'yin oluna bilərdilər. Bu vəzifəni tutmaq istəyənlər ildə məktəbin nəfinə gümüş pul ilə 700 manatdan az olmayaraq ianə verməyi öhdəsinə götürməli idilər. Bilavasitə məktəbə rəhbərlik isə müəllimlərdən seçilən ayrıca inspektor tərəfindən həyata keçirilirdi. İnspektor hüquq e'tibarilə qəza məktəbinin ştat üzrə nəzarətçisinə bərabər idi.

Nizamnaməyə görə ali dördsinifli məktəbə, ümumiyyətlə, varlıların uşaqları daxil ola bilərdi. Şagirdlərdən təhsil haqqı və hazırlıq sinfinə daxil olarkən heç bir təxmini bilik tələb edilmirdi. Arzu edənlər yuxarı siniflərə (2 yuxarı sinifdən başqa) imtahanla qəbul oluna bilərdilər. Yalnız qəza məktəbini bitirənlərin imtahan yolu ilə 3-cü sinfə qəbul olmaq hüququ var idi.

Həftənin V günü (cümə günləri) azərbaycanlılardan olan şagirdlərin, ümumiyyətlə, dərsi olmurdu (qəza məktəblərində olduğu kimi). Tədris ili təhsil dairəsinin digər gimnaziyalarında olduğu kimi yanvarın1-dən başlanırdı. İyulun 1-dən sentyabrın 1-dək tə'til verilirdi.

Ali dördsinifli məktəbi ə'la müvəffəqiyyətlə bitirənlər öz silki hüquqlarına görə ikinci dərəcəli dövlət qulluğuna qəbul olunurdu. Digərlərinin hüququ isə qəza məktəbini bitirən şagirdlərin hüququna bərabər idi. Tam kursu bitirməyən və sonuncu imtahanları verməyənlərə heç bir hüquq verilmirdi. Məktəbin illik xərci xəzinədən olub, gümüş pul ilə 10 300 manat idi.

Şamaxı ali dördsinifli məktəbi 1854-cü il yanvarın 18-də təşkil edildi. Bu məktəb A.Lalayevin xüsusi evində (kirayə ilə) yerləşirdi.

Şamaxı ali dördsinifli məktəbi təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada bu tipdən olan yeganə məktəb idi.

1854-cü ilin oktyabr ayına olan mə'lumatına görə burada 118 nəfər şagird oxuyurdu. Milli tərkib e'tibarilə azərbaycanlılar 17, ruslar 24, ermənilər 76, yəhudi 1 nəfər idi. Hazırlıq sinfində 50 şagird oxuyurdu. Şagirdlərin sayı get-gedə artırdı.

Çarizmin məqsədinə, şagirdlərin silki tərkibinin yuxarı təbəqələrdən olmasına baxmayaraq, Şamaxı ali dördsinifli məktəbi elə ilk illərdən özünün üstünlüyü və şagird çoxluğu ilə fərqləndi. Bu məktəb yerli əhali içərisindən yeni mütərəqqi ziyalıların yetişməsində və artmasında xeyli rol oynadı. Şamaxı ali dördsinifli məktəbini bitirənlər arasında əvvəlcə Tiflis gimnaziyasına, sonra isə Moskva universitetinə daxil olmuş Azərbaycanın məşhur pedaqoqu, maarifçi və mütəfəkkiri Həsənbəy Zərdabi də vardır.

Şamaxı ali dördsinifli məktəbi təxminən 6 il fəaliyyət göstərdi. 1859-cu ildə Şamaxıda baş verən zəlzələ nəticəsində məktəbi müvəqqəti olaraq köçürmək lazım gəldi. İstər yol, istərsə də ucuzluq cəhətincə Bakı daha əlverişli hesab edildi. Həmin il oktyabrın 16-da məktəb Bakıya köçürüldü. Məktəb Abdulla Səlimbəy Kərimbəyovun mülkünün kirayə edilmiş 10 otaqdan və bir böyük salondan ibarət üst mərtəbəsində yerləşdi.

Həmin ildə quberniya mərkəzinin Şamaxıdan Bakıya köçürülməsi ilə əlaqədar olaraq məktəb Bakıda saxlanıldı və Bakı ali dördsinifli məktəbi adlandırıldı. Bakıdakı qəza məktəbi isə Şamaxıya köçürüldü və Şamaxı qəza məktəbi adlandırıldı.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 27 avqust 1978-ci il tarixli sayında çap olunmuşdur.

DAĞKƏSƏMƏN MƏKTƏBİNİN YAŞI YÜZDÜR

Qazax rayonundakı Dağkəsəmən kənd məktəbinin açılması tarixindən 100 il keçir.

Respublikamızın kənd yerlərində 100 il bundan əvvəl təşkil edilən, təhsilin rus dilində verildiyi ilk dünyəvi təhsil müəssisələri içərisində Dağkəsəmən məktəbi də əhali arasında ibtidai savadın, rus dili və mütərəqqi rus mədəniyyətinin yayılmasında mühüm rol oynamışdır.

XIX əsrin ortalarında Rusiyada başlayan və Azərbaycana da nüfuz edən ictimai-pedaqoji hərəkat, əhalinin təhsil tələbi, xalq maarifi mübarizlərinin alovlu çıxışları hökuməti kənd yerlərində də məktəb açmağa məcbur etdi. Bütün bunlar onunla nəticələndi ki, hökumət hər quberniyada üçə qədər kənd məktəbi açmağa icazə verdi və bu qanun ilə rəsmiləşdirildi. Belə məktəblər birsinifli (təhsil müddəti üç il) və ya ikisinifli (təhsil müddəti beş il) ola bilərdi. Məktəbin maliyyə vəsaiti cüz'i olub, Zaqafqaziya ölkəsinin yerli gəlirindən ödənilməli idi. Beləliklə, Qafqazda xalq məktəbləri adlanan kənd məktəbləri ilk dəfə Azərbaycan ərazisində meydana gəldi. Bu məktəblərdən biri də Dağkəsəmən kənd məktəbi idi.

Dağkəsəmən kəndində xalq məktəbinin təşkili, hər şeydən əvvəl, yerli əhalinin dünyəvi təhsilə, rus dilini öyrənməyə xüsusi meyl və maraq göstərməsi ilə əlaqədar olmuşdur.

Mə'lum olduğu kimi, Azərbaycanın Rusiya tərəfindən işğalından sonra rus və Azərbaycan mədəniyyətinin qarşılıqlı tə'siri üçün geniş imkanlar yarandı. Mütərəqqi rus mədəniyyəti Azərbacyanda elmi biliklərin bir çox sahəsinin, o cümlədən yeni məktəb sisteminin meydana gəlməsinə qüvvətli tə'sir göstərdi.

Dağkəsəmən kəndinin o zaman Zaqafqaziyanın inzibati, elmi-pedaqoji və ictimai mərkəzi olan Tiflis şəhərinə ərazi e'tibarı ilə yaxınlığı da burada dünyəvi təhsil ocağının yaranması fikrini qüvvətləndirirdi.

Zaqafqaziya məktəblərinin hələ ilk nizamnaməsində (1829) Qazax distansiyasında dünyəvi məktəb açmaq təsdiq edildi. Məktəblərin 1835-ci il nizamnaməsi ilə Qazax distansiyasında qəza məktəbi açmaq yenidən təsdiq olundu. Lakin müxtəlif səbəblər üzündən orada məktəb açmaq o vaxtlar baş tutmadı. Yerli əhalinin məktəb tələbinə çar hökuməti uzun müddət e'tinasız yanaşdı. Nəhayət,

Qazax qəzasının sakinləri 1872-ci ildə məktəb açmaq üçün könüllü olaraq hər tüstüdən (ev başına): kəndlilərdən 50 qəpikdən 1 manatadək, varlılardan isə 5 manatdan 10 manatadək pul toplayaraq, həmin vəsaitlə məktəb açmağı hökumətdən xahiş etdilər.

Yerli əhali məktəb üçün bina tikməyi, müəllimlər üçün mənzil ayırmağı da öhdəsinə götürürdü.

Hazırda Leninqrad şəhərindəki SSRİ Mərkəzi Dövlət Tarix Arxivində saxlanılan həmin sənəd yaz çiçəklərinin günəşə doğru can atdığı kimi, Qazax camaatının dünyəvi təhsilə maraq göstərməsini əyani surətdə nümayiş etdirir.

Beləliklə, bir tərəfdən əhalinin məktəb tələbi, digər tərəfdən qonşu Salahlı kəndində yenicə təşkil edilmiş xüsusi «rus–Azərbaycan» məktəbinin müvəffəqiyyətləri və hökumət qanunu nəticəsində 1876-cı il sentyabr ayının 1-də Qazax qəzasının Dağkəsəmən kəndində təhsilin rus dilində verildiyi ilk dünyəvi təhsil məktəbi meydana gəldi. İki sinifdən ibarət olan bu məktəb ilk dəfə 40 şagirdlə dərsə başladı. Məktəbə daxil olmaq istəyənlərin sayı daha çox idi. Lakin məktəb binasının darısqallığı arzu edənlərin hamısının qəbul olunmasına imkan vermədi.

Qafqaz Təhsil Dairəsinin popeçiteli illik hesabatında bu barədə belə yazmışdır: «Dağkəsəməndə camaat tərəfindən ayrılmış iki otaqdan ibarət binada 40 nəfərdən artıq şagird yerləşdirmək mümkün olmadığından, ətraf Qazax kəndlərindən gələn valideynlərin göz yaşları tökərək öz uşaqlarının məktəbə qəbul edilməsini xahiş etmələri nəticəsiz qaldı».

Dağkəsəmən məktəbinin ilk müdiri Petrov, elm-fənn müəllimi isə Əbdüləli Muxtarov olmuşdur. Ə. Muxtarov Şuşadakı şəhər məktəbini bitirmiş, 1876-cı ildə həmin məktəbdə imtahan verərək şəhər məhəlli və ibtidai məktəb müəllimi adını almışdır. O, həmin il sentyabrın 14-də Dağkəsəmən məktəbinə müəllim vəzifəsinə tə'yin edilmişdir.

Dağkəsəmən məktəbiniin təşkili təkcə məktəbyaşlı uşaqlarda deyil, yaşlılarda da təhsilə böyük maraq oyatdı.

Qafqaz Təhsil Dairəsinin «Sərəncamları»nın 1877-ci ildəki 10-cu nömrəsində dərc edilmiş aşağıdakı epizod bu cəhətdən çox xarakterikdir: «Dağkəsəmən kəndinin bir neçə yaşlı sakini yerli normal məktəbin müdirinə müraciət edərək kiçikyaşlı uşaqlarla

bərabər onların da oxumaq üçün məktəbə qəbul edilməsini rica etdilər. Xahiş edənlərin tə'rifəlayiq arzularını ödəmək mümkün olmadığından müdir Petrov onlara özünün və müəllim Muxtarovun təmənnasız rəhbərliyi altında axşam kurslarında pulsuz oxumağı təklif etdi. Həmçinin sinif otaqlarını işıqlandırmaq, dərslik və digər tədris ləvazimatı əldə etmək üçün onların hərəsini ildə 5 manat pul verməyə də'vət etdi. Oxumaq üçün xahiş edənlər bütün bunları böyük razılıqla qəbul etdilər».

Beləliklə, 1877-ci il noyabr ayının 1-də Dağkəsəmən kənd normal məktəbinin nəzdində yaşlı gənclərin rus dilini öyrənməsi üçün axşam sinifləri də təşkil edildi. Burada yaşlı gənclərdən 8 nəfəri sə'ylə təhsil alırdı. Bu cəhətdən Dağkəsəmən məktəbi yeganə kənd məktəbi idi ki, onun nəzdində yaşlılar üçün ayrıca sinif — axşam kursu açılmışdı.

Azərbaycan məktəb təhsili tarixində bu ilk addım idi. XIX əsrin 70-ci illərində dini fanatizmin möhkəm hökm sürdüyü bir dövrdə yaşlıların belə könüllü sürətdə axşam kursunda dünyəvi təhsili, rus dilini öyrənməyə ciddi cəhdi, əhalinin rus dilini öyrənməyə böyük həvəsi elm və təhsil almağa xüsusi sə'y göstərməsinin nəticəsi idi.

Dağkəsəmən məktəbinin meydana gəlməsi dövrü üçün mühüm mədəni hadisə idi. Məktəbin tədris planına Azərbaycan və rus dilləri, hesab, coğrafiya, tarix, təbiyyat, rəsm və hüsnxət daxil idi. Sonralar burada nəğmə, gimnastika, əl işləri də öyrədilməyə başlandı.

Azərbaycan dili əvvəllər A.O.Çernyayevskinin «Vətən dili», sonralar isə R. Əfəndiyevin «Uşaq bağçası» və «Bəsirətül-ətfal» adlı dərslikləri, rus dili K.D.Uşinskinin «Vətən dili» və «Uşaq aləmi», hesab isə Yevtuşevskinin «Hesab məsələləri» adlı kitabı üzrə tədris edilirdi.

Tədris fənləri kimi, kənd təsərrüfatına aid bilik vermək və sənət öyrətmək işində də məktəb xeyli müvəffəqiyyət qazanmışdı. Məktəbin torpaq sahəsində şagirdlər tərəfindən əkilən meyvə və tut ağacları bağçılıq, bostançılıq və ipəkçilik məşğələlərinin daha səmərəli keçməsinə imkan verirdi.

Dağkəsəmən məktəbində təhsilin müvəffəqiyyətinə aid bir sıra sənədlər vardır.

İrəvan–Yelizavetpol xalq məktəbləri direktorunun 1895–1896-cı dərs ilinə aid hesabatında oxuyuruq: «Kənd normal məktəblərindən

Dağkəsəmən məktəbi direksiyaya tabe olan kənd məktəbləri arasında daha yaxşı vəziyyətdədir. Burada tədris ili düzgün qurulmuş və proqram tələblərinə müvafiq aparılır. Müəllimlər öz vəzifəsini ürəklə yerinə yetirirlər. Burada 89 şagird oxuyur. Hamısı müsəlmanlardır».

Əsrin sonlarına doğru şagirdlərin sayı artaraq 106 nəfər olmuşdur. Şagirdlərin sayına görə Dağkəsəmən məktəbi istər Bakı, istərsə də Yelizavetpol quberniyalarındakı kənd məktəblərinin hamısından qabaqda idi.

Şagirdlərin silki tərkibi, əsasən kəndli uşaqlarından ibarət idi. Məsələn, 1895-ci ildə burada oxuyan 69 nəfər şagirdin 52 nəfəri kəndli, 13 nəfəri (o cümlədən 1 qız) bəy, 2 nəfəri isə İran təbələrinin uşaqları idi. Şagirdlərin 24 nəfəri, o cümlədən 1 nəfər qız Dağkəsəmən sakinlərinin, qalanları isə ətraf kənd sakinlərinin uşaqları idi.

Yaş tərkibinə görə 9 yaşdan 16 və daha yuxarı olanlar idilər. Şagirdlərin əksəriyyətini aşağı sinifdə oxuyanlar təşkil edirdi. Yuxarı siniflərə getdikcə şagirdlərin sayı xeyli azalırdı. Bu səbəbdən də məktəbi bitirənlərin sayı çox cüz'i idi.

Məktəb tə'sis edildiyi vaxtdan 1884-cü ilədək Dağkəsəmən kəndində yerləşmişdir. 1884-cü ildə isə qəza idarəsinin Qazaxda yerləşməsi, həmçinin ətraf kəndlər üçün Qazağın mərkəzi yer olması ilə əlaqədar olaraq Qazağa köçürülmüşdür. Buna baxmayaraq məktəb 1917-ci ilə qədər öz əvvəlki adını–Dağkəsəmən kənd normal xalq məktəbi adını daşımışdır.

Dağkəsəmən məktəbinin təşkili Qazax qəzasında əhalinin ümumi mədəni səviyyəsinin yüksəldilməsində, rus dilinin, rus mütərəqqi mədəniyyətinin yayılmasında böyük rol oynamışdır. Məhz bu məktəbi bitirmək sayəsində sonralar bir çoxları qonşu Gürcüstandakı Qori müəllimlər seminariyasına daxil olmuş, müəllimlik peşəsinə yiyələnmişlər.

Dağkəsəmən kənd məktəbi əsil inkişaf yoluna Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra çıxmışdır.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 24 noyabr 1976-ci il tarixli sayında çap olunmuşdur.

NAXÇIVANDA DÜNYƏVİ TƏHSİL MƏKTƏBİ

Dünya mədəniyyətinə böyük sənətkarlar vermiş Naxçıvan özünün qədim elm və mədəniyyəti ilə bərabər, şöhrət tapmış tədris ocaqlarına da malik olmuşdur.

Yaxın Şərq ölkələrinin ümumi mütərəqqi mədəniyyəti ilə qarşılıqlı əlaqələrin tə'siri altında ədəbiyyat, fəlsəfə, me'marlıq, musiqi və başqa sahələrlə yanaşı, təhsil sistemi də xeyli inkişaf etmişdir. Doğrudur, Azərbaycanın digər şəhərlərində olduğu kimi, burada da əhalinin bütöv təhsil sistemi ən'ənəvi məktəb və mədrəsələr ilə bağlı olmuşdur. Bu tədris ocaqlarında, xüsusilə mədrəsələrdə dini təhsil ilə yanaşı, klassik Şərq və Azərbaycan ədəbiyyatı da tədris edilir, gənclərin gələcək fəaliyyəti dairəsində lazım olan riyaziyyat və həndəsə elmi öyrədilir, qanunşünaslıq, dialektika, məntiq, coğrafiya, astronomiya və psixologiyaya dair mə'lumat verilirdi.

Naxçıvanda xalq maarifinin vəziyyətindən bəhs edən İ.Şopen keçən əsrin 30-cu illərində yazmışdır: «Gənclər bədii ədəbiyyatla daha çox məşğul olur. Onlardan bir çoxu Rudəki, Firdovsi, Ənvəri, Nizami, Cami, Hafiz, Sə'di və digər məşhur söz ustalarının əsərlərini əzbərdən bilirlər. Hətta bə'zi orijinal şairlər İrəvan muzalarını (incəsənət və elm nümayəndələrini—H.Ə.) ilhama də'vət edir və müxtəlif hadisələrə həsr edilmiş xüsusi şe'rlər qoşurlar. Öz əqlini poeziyanın ən əsas cəhətlərinə həsr edən bir mirzə isə özünə Mirzə Bülbül təxəllüsü götürmüşdür».

Naxçıvanda əhalinin qabaqcıl hissəsi öz uşaqlarına həm rus dili, həm də ictimai həyatda zəruri olan digər biliklər öyrətmək üçün şəhərdə rus dilində məktəb açmağı ürəkdən arzulayır və bunu yerli rəislərdən xahiş edirdilər. Naxçıvan əyalətini idarə edən Ehsan xan belə məktəbə şəhərdən və yaxın kəndlərdən 200-ə qədər şagird yağılacağını qeyd edirdi.

Azərbaycanın digər şəhərlərində olduğu kimi, Naxçıvanda da təhsilin rus dilində verildiyi məktəb açmaq Azərbaycanın Rusiya tərkibinə daxil edilməsinin mütərəqqi nəticələrindən biri idi və əhalinin qabaqcıl dəstəsinin rus dilində təhsil tələbi hökumət nümayəndələrinin də diqqətini cəlb etməyə bilməzdi. Keçən əsrin 20-ci illərində çar generalları tərəfindən Mərkəzi hökumətə göndərilən bir sıra mə'lumatlarda Zaqafqaziyanın iri şəhərlərində məktəb açılması zəruriliyi ayrıca qeyd edilirdi.

Bütün bunlar onunla nəticələndi ki, hökumət Zaqafqaziyanın əsasən bir sıra iri şəhərlərində, o cümlədən Naxçıvanda qəza məktəbi

adlı məktəblər açmağı lazım bildi və bu, Zaqafqaziya məktəblərinin 1829-cu il 2 avqust tarixli nizamnaməsi ilə təsdiq edildi.

İki sinifdən ibarət Naxçıvan qəza məktəbinin tədris planına rus və Azərbaycan dilləri, hesab, hüsnxət və şəriət daxil idi. Beləliklə, keçən əsrin 30-cu illərindən başlayaraq, göstərilən nizamnamə əsasında ilk dəfə 1830-cu il martın 6-da Telavidə, noyabrın 1-də Kutaisidə, noyabrın 24-də Qoridə, dekabrın 30-da isə Şuşada qəza məktəblərinin əsası qoyuldu. Sonralar isə Minqrelidə, İrəvanda, Siqnaxda, Axalkələkdə, Nuxada, Bakıda və Gəncədə də belə məktəblər təşkil edildi. Həmin nizamnamə ilə təşkili nəzərdə tutulan cəmi 20 qəza məktəbindən 9-u Azərbaycan ərazisində olmalı idi. Təşkili təsdiq edilmiş Naxçıvan, Şamaxı, Quba, Ordubad və Qazax distansiya qəza məktəblərinin açılması isə müxtəlif obyektiv və subyektiv səbəblərə görə bir qədər gecikdirildi.

Tbilisi və Leninqrad şəhərlərindəki dövlət arxivlərində saxlanılan sənədlər bu məktəblərin açılmasının ləngiməsi səbəblərini aşkar etməyə imkan verir. Zaqafqaziya məktəblər direktorunun Zaqafqaziyanın baş hakimi və Rusiya Xalq Maarif Nazirliyi ilə olan yazışmalarından mə'lum olur ki, Zaqafqaziyanın o zamankı baş hakimi baron Rozen 1834-cü ildə Naxçıvanda nəzərdə tutulan qəza məktəbini açmağa aid ayrıca sərəncam vermişdi. O, 1834-cü il sentyabrın 13-də Rusiya XMN-ə göndərdiyi məktubunda yazırdı ki, açılması nəzərdə tutulan məktəblərdən birini —Naxçıvan qəza məktəbini hal–hazırda açmaq olar və mən bu barədə Zaqafqaziya məktəblər direktoruna müvafiq sərəncam vermişəm. Məktəbin tə'sisi üçün nəzərdə tutulan pul məbləği də ayrılmışdı. Bütün bunlara baxmayaraq digər şəhərlər kimi, Naxçıvanda da qəza məktəbinin təşkili bir qədər gecikdi.

Bu yerlərdə qəza məktəbləri təşkilinin bir neçə il gecikdirilməsi, hər şeydən əvvəl, müəllim kadrlarının olmaması ilə izah olunur. Naxçıvanda qəza məktəbi tə'sis etməyin ləngiməsi səbəbindən bəhs edən Zaqafqaziya məktəblər direktorunun bir rəsmi mə'lumatında oxuyuruq: «Naxçıvan əhalisi çox olan şəhərdir və əlbəttə, burada məktəbə ehtiyac vardır. Lakin müəllimlik vəzifəsinə qabiliyyəti olan adamın olmaması burada məktəb açılmasını ləngidir». Həqiqətən, o vaxtlar pedaqoji işə yararlı adamlar tapmaq çox çətin problem idi. Leninqrad şəhərindəki MDTA-da saxlanılan bir sənəddə — Zaqafqaziya məktəblər direktorunun mərkəzi hökumətə mə'lumatında deyilir: «Təcrübənin mənə sübüt etdiyi kimi qəza məktəblərində dərs

deyəcək müəllimlərin yerli dili bilməsi zəruridir və mən yalnız çox böyük çətinlikdən sonra Bakı və Yelizavetpol qəza məktəbləri üçün belə müəllimlər tapa bildim».

Beləliklə, 1829-cu il nizamnaməsi üzrə Naxçıvanda nəzərdə tutulan qəza məktəbinin açılması hələlik baş tutmadı.

1835-ci ildə Zaqafqaziya məktəblərinin yeni nizamnaməsi meydana gəldi. Bu nizamnamə ilə Naxçıvanda qəza məktəbi açmaq yenidən təsdiq edildi. Üç sinifdən ibarət olacaq bu məktəbin tədris planına şəriət, rus, Azərbaycan və erməni dilləri, hesab, coğrafiya və tarix, hüsnxət, rəsm və rəsmxət, daxil idi. Bu fənlərin tədrisi üçün cəmi 5 müəllimin olması nəzərdə tutulurdu ki, onlardan üçü elm-fənni, ikisi isə yerli dilləri tədris etməli idi. Məktəbin illik xərci xəzinədən olmaqla gümüş pul ilə ildə 1.780 manat təşkil edirdi.

Nəhayət, 1837-ci ilin ilk əvvəllərində Naxçıvanda qəza məktəbi fəaliyyətə başladı. Zaqafqaziya məktəblər direktoru Qassen–Miller 1837-ci il mayın 10-da Rusiya XMN-ə göndərdiyi 342 nömrəli məktubunda Naxçıvanda qəza məktəbinin açılmasını xəbər verərək yazırdı: «Bu məktəb üçün bina axtarmağa aid sərəncam verilmişdir. Yanvarın 1-dən tə'sis edilən bu məktəbə şagirdlər fevralın 16-dan davam etməyə başladılar. Martın 25-də məktəbin təntənəli açılışı oldu. Məktəbə yerli müsəlmanlardan və ermənilərdən ilk dəfə cəmi 20-yə qədər uşaq cəlb edilmişdir. "«Həmin mə'lumatın üzərinə aşağıdakı sözlər yazılmışdır: «Rusiya XMN jurnalının redaksiyasına mə'lumat verilsin».

Naxçıvan qəza məktəbinin ilk müdiri titulyar müşavir F.Q.Kojevnikov olmuşdur. O, məktəb açmaq üçün Zaqafqaziyanın baş hakimi tərəfindən 1836-cı il dekabrın 23-də Naxçıvana göndərilmişdir. Həştərxanda təhsil almış, əvvəllər Mozdok və Axalsix məktəblərində müəllimlik edən F.Q.Kojevnikov Naxçıvanda 1844-cü ilədək işləmişdir.

Naxçıvanlılar məktəbə hüsn–rəğbət bəsləyir, ona maddi kömək göstərirdilər. Təkcə 1839-cu ildə yerli əhali tərəfindən məktəbə yardım məqsədilə gümüş pul ilə 352 manat pul toplanmışdı.

Məktəb ilk əvvəllər yerli əhali tərəfindən 12 il müddətinə pulsuz olaraq ayrılmış xüsusi binada—Ehsan xanın övladları olan Bünyatovların evində yerləşirdi. Sonralar məktəb üçün bina tikilmişdir.

Naxçıvan qəza məktəbi sür'ətlə inkişaf etmiş, şagirdlərin sayı ildən-ilə artmışdır. Bir fakt maraqlıdır ki, təşkil edildiyi ilk 10 il

ərzində Naxçıvan qəza məktəbi şagirdlərin sayına görə Azərbaycanın Şuşa, Nuxa, Bakı, Gəncə və Şamaxı şəhərlərindəki qəza məktəblərinin hamısını ötüb keçmişdi. 1848-ci ildə ən çox şagirdli hesab edilən Şuşa qəza məktəbində şagirdlərin sayı 115 olduğu halda, Naxçıvan qəza məktəb şagirdlərinin sayı 121 idi. Şagird çoxluğuna görə Naxçıvan qəza məktəbi Zaqafqaziyanın Tiflis, İrəvan, Aleksandropol, Axalsix kimi irəlidə gedən qəza məktəbləri ilə bir sırada dururdu.

Naxçıvanda qəza məktəbinin təşkili ilə əlaqədar olaraq orada ilk məktəb kitabxanasının da əsası qoyuldu. Buraya Azərbaycan, rus və s. dillərdə tədris vəsaiti, dərslik, müxtəlif qəzet və jurnal nüsxələri toplanmışdı. 1845-ci ilin mə'lumatına görə burada 152 adda kitab və digər tədris vəsaiti vardı. Bu, o vaxtlar üçün böyük rəqəm idi. Azərbaycanın digər şəhərlərində olduğu kimi, Naxçıvan qəza məktəbinin kitabxanası da kitab fonduna görə Zaqafqaziyanın digər iri şəhərlərindəki məktəb kitabxanaları ilə bir səviyyədə durur və bə'zilərindən hətta zəngin idi.

Naxçıvan qəza məktəbi XIX əsrin 70-ci illərinə qədər davam etdi. Həmin əsrin 60—70-ci illərinin ictimai-pedaqoji hərəkatı və məktəb islahatları ilə əlaqədar hökumət şəhər məktəbləri adlı yeni məktəb açmağa məcbur oldu. 1870-ci il may ayının 31-də qəbul olunmuş yeni nizamnamə ilə əlaqədar mövcud qəza məktəbləri tədricən şəhər məktəbinə çevrildi. Həmin nizamnamə ilə Naxçıvan qəza məktəbi də 1877–1878-ci dərs ilində yenidən quruldu və şəhər məktəbi adlandırıldı.

Tip e'tibarilə daha üstün olan şəhər məktəblərinin meydana gəlməsi irəliyə doğru atılmış bir addım idi. Burada Azərbaycan və rus dillərindən başqa, hesab, həndəsə, coğrafiya, tarix, təbiyyat tədris edilir, rəsm və rəsmxət öyrədilirdi. Elm-fənn müəllimləri əsasən Tiflis Aleksandrovski İnstitutunun mə'zunları idilər. Azərbaycan dilini ruhani təhsili görmüş yerli ziyalılar tədris edirdi. Müxtəlif vaxtlarda bu fənn Mirzə Kərim Qulubəyov ilə Molla Nəsrulla Hacı Mirzə Əli oğlu tərəfindən tədris edilmişdi.

Şəhər məktəbində təhsil pullu idi. Buna baxmayaraq təhsil almaq istəyənlərin sayı get-gedə artırdı. 1890-cı il yanvarın 1-nə olan mə'lumata görə burada 152 şagird təhsil alırdı. Şagirdlərin milli tərkibi müxtəlif idi. Burada azərbaycanlılarla yanaşı, ruslar və ermənilər də təhsil alırdı. Silki tərkibinə görə şagirdlərin əksəriyyətini şəhər sakinlərinin (74) və kəndlilərin uşaqları (49) təşkil edirdi.

Naxçıvan şəhər məktəbi, özünün kənd təsərrüfatı və sənət şö'bələri ilə fərqlənirdi. 1887-ci ildən fəaliyyətə başlayan bu şö'bədə şagirdlər dülgərlik, xarratlıq, dəmirçilik və çilingərlik öyrənirdi. Bu şö'bə sonralar hətta əhalidən ağac və dəmirdən hazırlanmış ev əşyaları üçün sifarişlər qəbul edirdi. Məktəbin ipəkçilik şö'bəsində 40-a qədər şagird məşğul olurdu. İpəkçilik şö'bəsinin şagirdləri bəslədikləri barama qurdlarından sağlam ipək qurdu toxumu almaq işində xeyli müvəffəqiyyət qazanmışdı. Keçən əsrin sonlarında Naxçıvan şəhər məktəbi cəmi İrəvan quberniyasındakı 5 şəhər məktəbi içərisində sənət şö'bəsi olan yeganə məktəb idi. Məktəbin e'malatxanası, şagirdlərin əl işləri, kitabxana və fizika kabinəsi ilə tanış olan rəsmi dövlət nümayəndələrinin məktəbin rə'y dəftərinə yazdığı xoş təəssüratlar şagirdlərin sənət öyrənməyə həvəsinin yüksək olduğunu göstərir.

Azərbaycanın digər şəhər məktəbləri kimi, Naxçıvan şəhər məktəbi şagirdlərinin də əl işləri Rusiyanın iri şəhərlərində təşkil edilən sənaye və kənd təsərrüfatı sərgilərində nümayiş etdirilirdi.

1879-cu ildən 1901-ci ilədək Naxçıvan şəhər məktəbinin cəmi 20 buraxılışı olmuşdur ki, buranı 207 nəfər bitirmişdir. (Bu vaxt məktəb 5 sinifdən və 7 şö'bədən ibarət idi).

Mə'zunların böyük bir dəstəsi ömrünü müəllimlik peşəsinə həsr etmişdir. 1879-cu ildə fəaliyyətə başlayan Zaqafqaziya Müəllimlər Seminariyası Azərbaycan şö'bəsinə qəbul olunan ilk tələbələrdən üçü: Mirzə Xəlilov, Ələkbər Süleymanov və Ələkbər Şeyxhüseynov məhz Naxçıvan şəhər məktəbindən idilər.

80-ci illərdə şəhər və kəndlərdə tədricən meydana gələn ibtidai xalq məktəblərini müəllimlərlə tə'min etmək məqsədilə Naxçıvan şəhər məktəbi nəzdində sınaq məqsədi ilə birillik pedaqoji siniflər təşkil edilmişdi ki, burada məktəbin fərqlənən şagirdlərinə əlavə kurs keçir və onları müəllimliyə hazırlayırdılar.

Ümumiyyətlə, Naxçıvan şəhər məktəbində digər millətlərlə bərabər, azərbaycanlı balaları da rus dilində təhsil almaq, belə mütərəqqi rus mədəniyyəti ilə tanış olmaq nəticəsində Azərbaycanda təhsilin, xalq maarifinin, elm, ədəbiyyat və mətbuatın sonrakı inkişafında unudulmaz xidmətlər göstərdilər.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 25 fevral 1977-ci il tarixli sayında çap olunmuşdur.

GÖRKƏMLİ TƏDRİS OCAĞI

Bu və ya digər tədris ocağının yubileyinin qeyd edilməsi, həmin müəssisədə çalışmış və ya çalışan, oxumuş və hal–hazırda oxuyanların hamısının bayramıdır. Haqqında söhbət açdığımız şö'bənin yubileyinin qeyd edilməsi isə bütün xalqın – uşağın da, böyüyün də, cavanın da, qocanın da ürəyindəndir. Bu yubiley bir nəslin deyil, ən azı üç nəslin yubileyidir. Bu yubiley təkcə bir peşə və ya bir sənət sahiblərinin, bir elm nümayəndələrinin deyil, mübaliğəsiz demək olar ki, bütün peşə sahiblərinin, elmin bütün nümayəndələrinin yubileyidir.

Söhbət 100 il bundan əvvəl ucqar bir vilayətdə—qədim mədəniyyət ölkəsi olan qardaş Gürcüstanın əyalət şəhərlərindən birində —Qoridə bərqərar olmuş Zaqafqaziya Müəllimlər Seminariyasının (ZMS) Azərbaycan şö'bəsinin bünövrəsinin qoyulmasından gedir. Elə bir şö'bənin ki, mövcud olduğu cəmi 40 il ərzində Azərbaycana 250-dən artıq əsil xalq müəllimi vermişdir.

Azərbaycan xalq pedaqogikasının qiymətli incilərindən qidalanan, mütərəqqi rus və dünya pedaqogikasının görkəmli nümayəndələrinin pedaqoji ideyalarından və qabaqcıl məktəb təcrübəsindən faydalanan ilk xalq müəllimləri! Elm və maarif məş'əlini Zaqafqaziyanın uzaq-uzaq kəndlərinə aparan, dünyəvi təhsildən kənarda qalmış kəndli gənclərinin gözünü təhsil nuru ilə işıqlandıran maarif və mədəniyyət carçıları!

Tarixə xalq müəlliminin nümunəsi kimi daxil olmuş, müəllimlik sənətinin, öz peşəsinin vurğunu olmuş, xalqa bilik verməyi qarşılarına məqsəd qoymuş, özlərini xalq yolunda şam kimi əridən neçə-neçə cavanlar! Firudinbəy Köçərli, Rəşidbəy Əfəndiyev, Səfərəlibəy Vəlibəyov, Mahmudbəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Pənah Qasımov, Hənəfi Terequlov, Məşədikərim Mustafayev, Əli Hüseynov, Fərhad Ağazadə, Səmədbəy Açalov, Teymurbəy Bayraməlibəyov, Bədəlbəy Bədəlbəyov, Azad Əmirov, Əhmədağa Mustafayev, Yusif Qasımov, Əhməd Seyidov və başqaları. Birincilər seminariyanın otaqlarına ilk qədəm qoyanlar, sonuncular şö'bənin sonbeşikləri. Hər biri bir tarixi şəxsiyyət, hər biri bir sənətkar, hər biri bir ustad!

1879-cu il sentyabr ayının 23-də Zaqafqaziyanın müxtəlif kənd və şəhərlərindən A.O.Çernyayevski tərəfindən toplanmış 32 nəfər

nabələd, naümid, kimsəsiz gənc ilə işə başlayan Azərbaycan şö'bəsinin açılmasından düz bir əsr keçir.

Çarizmin ucqarlarda xalq maarifi sahəsindəki mürtəce siyasətinin nəticəsi olaraq ZMS Azərbaycan şö'bəsinin Azərbaycandan uzaq bir yerdə — Qori şəhərində açılmasına baxmayaraq, onun təşkili XIX əsr müəllim kadrları hazırlığında mühüm mərhələ təşkil edir.

1882-ci ildə bu şö'bənin ilk buraxılışı oldu. Azərbaycan məktəb tarixində pedaqoji təhsil almış azərbaycanlı müəllimlərin ilk dəstəsi səhnədə görünməyə, pedaqoji cəbhədə fəaliyyət göstərməyə başladı. Bu şö'bənin mə'zunlarının hələlik sayca az olmasına baxmayaraq, onlar Zaqafqaziyanın bir çox azərbaycanlı kəndlərində dünyəvi məktəblərin əsasını qoydular. Azərbaycanda xalq maarifi, məktəb, ədəbiyyat, mədəniyyət, teatr və incəsənətin bir çox görkəmli nümayəndələri məhz həmin seminariyada təhsil almışlar.

Azərbaycan şö'bəsinin təşkilində, onun tərəqqisində Şamaxı şəhərində anadan olan, oradakı Qəza məktəbini bitirən, Mərəzədə kənd məktəbinin əsasını qoyan və sonralar pedaqoji işdə məşhurlaşan Azərbaycan müəllimlərinin müəllimi Aleksey Osipoviç Çernyayevskinin (1840—1894) çox mühüm xidmətləri olmuşdur. A.O.Çernyayevski xalqın təhsilində, maarifin yayılmasında müəllimə böyük əhəmiyyət verirdi. Müəllim və onun hazırlığına dair böyük rus pedaqoqu K.D.Uşinskinin mütərəqqi müddəalarını rəhbər tutan Çernyayevski sonralar yazırdı: «İbtidai xalq məktəblərinin canı müəllimdir. Tədris işinin müvəffəqiyyəti ondan asılıdır. O, kənd əhalisinin qaranlıqda qalan kütləsi içərisində maarifin pioneridir». Bu cəhətdən o, ZMS-nin Azərbaycan şö'bəsi mə'zunlarının rolunu ayrıca qeyd edirdi: «Həqiqətən demək lazımdır ki, tatar (Azərbaycan–H.Ə.) şö'bəsi mə'zunlarının çoxu, olduqca çoxu avam xalq kütləsi içərisinə təhsil işığı gətirmiş və gətirir».

Həmin şö'bənin təşkili ilə eyni vaxtda şö'bə nəzdində seminaristlər üçün nümunə məktəbi olan ibtidai məktəb də təşkil edildi ki, burada məktəb terminləri təkmilləşdirilir, xalq məktəblərinin təşkili qaydaları öyrədilir, ana dili tə'limində yeni üsul–səs üsulu tətbiq olunur, nümunə dərsləri keçirilirdi. Bu məktəb həmçinin seminariya mə'zunlarının gələcəkdə təşkil edəcəkləri xalq məktəblərinin nümunəsi idi. Burada vaxtaşırı konfranslar keçirilir, Azərbaycan ibtidai məktəblərinin düzgün təşkilinin tamamilə yeni yolları, tə'lim

üsulları geniş müzakirə edilirdi. A.O.Çernyayevskinin özü buraxılış sinfi üçün savad tə'limi üsulu, məktəbşünaslıq və hüsnxət üzrə xüsusi dərslər verir, şö'bənin təsərrüfat və hesabat işlərini aparır, ibtidai məktəbdə dərs deyir və səs üsulu ilə yeni dərslik tərtibi üzərində işləyirdi.

Müəllimlər seminariyaları inqilaba qədər ibtidai məktəblər üçün müəllim hazırlayan ən tipik pedaqoji məktəblər idi.

Seminariyanın Azərbaycan şö'bəsi tə'sis edildiyi gündən özünün bir sıra faydalı ən'ənələri və müvəffəqiyyətləri ilə daim dəqqəti cəlb etmişdir. Bir faktı qeyd etmək kifayətdir ki, 1900-cü ildə Parisdə keçirilən müəllimlər seminariyasının ümumdünya sərgisində iştirak edən ZMS-nın Azərbaycan şö'bəsinin göndərdiyi bir sıra materiallar yüksək qiymətləndirilmiş və ZMS qızıl medala layiq görülmüşdür.

Seminariyanı bitirənlərin böyük əksəriyyəti yüksək mə'nəvi keyfiyyətə malik olmuşdur. Onlar rus dilinə, qabaqcıl rus mədəniyyətinə dərindən yiyələnmişdir. Həm də rus dilini, mütərəqqi rus mədəniyyətini öz xalqı içərisində yaymağa və öz xalqını dünyanın qabaqcıl xalqları cərgəsinə çıxarmağa ciddi sə'y göstərmiş, mübarizə aparmışlar. Doğrudur, onların bu cəhdi və mübarizəsi bə'zən əhalinin nadan hissəsi tərəfindən narazılıqla qarşılanırdı, onlara hədə-qorxu gəlirdilər. Lakin bütün bunlar seminariya mə'zunlarının iradəsini qıra bilmədi; onlar kənd və şəhərlərdə yeni məktəblər, mədəni maarif ocaqları açaraq təkcə oğlanları deyil, qızları da təhsilə, həm də rus dilində dünyəvi təhsilə cəlb edirdilər. Seminariya mə'zunlarının bir hissəsi məktəbyaşlı uşaqları deyil, yaşlıları da təhsilə cəlb edir, onlara savad öyrədir, bir sözlə, geniş əhali kütləsi arasında elm və təhsili yayırdılar.

Seminariya mə'zunlarının hərtərəfli fəaliyyəti nəticəsində ilk dəfə rus ədəbiyyatının inciləri doğma ana dilinə tərcümə edilmiş, azərbaycanlı balaları A.S.Puşkin, L.Tolstoy, M.Y.Lermontov, İ.A.Krılov kimi klassiklərin əsərlərini ana dilində oxumuşlar. Onların özləri də şe'r, hekayə, dram əsərləri yazmış, xalqımızın məişətindəki qüsurların aradan qaldırılmasına çalışmışlar. Bu məqsədlə teatr tamaşaları təşkil etmiş, teatrı bir tərbiyə məktəbi adlandırmışlar.

Qori Müəllimlər Seminariyası Azərbaycan şö'bəsinin mə'zunlarının ən böyük xidmətlərindən biri ana dilində yeni üsulla dərslik və dərs vəsaitləri tərtib və nəşr etdirmələridir.

Mə'lum olduğu kimi, həmin şö'bənin təşkili ana dilində sövti üsulla yeni dərsliyin — A.O.Çernyayevskinin «Vətən dili» dərsliyinin meydana gəlməsinə əlverişli şərait yaratdı. Mütərəqqi rus pedaqogikasının nailiyyətləri rus pedaqogika elminin atası K.D.Uşinskinin eyni adlı dərsliyinin prinsipləri əsasında, yerli şəraitə müvafiq şəkildə tərtib edilən kitabından Azərbaycan ziyalılarının inqilabdan əvvəlki nəslinin bütöv bir dəstəsi dərs aldı. A.O.Çernyayevskinin işi sonralar seminariyanın sədaqətli şagirdlərindən R.Əfəndiyev, F.Köçərli, S.Vəlibəyov, N.Nərimanov, M.Mahmudbəyov, Ü.Hacıbəyov, H.K.Sanılı, S.S.Axundov, F.Ağazadə, Ə.Seyidov və başqaları tərəfindən şərəflə davam etdirilmişdir.

ZMS təkcə Azərbaycanda deyil, bütün Qafqaz xalqlarına maarif, elm və mə'rifət nuru paylayan və tarixi xidməti olan məşhur bir tədris ocağı olmuşdur.

XIX əsrin sonu və XX əsrin birinci yarısında fəaliyyət göstərən Azərbaycan ziyalıları əsasən Qori seminariyasından çıxmışdır. Mübaliğəsiz demək olar ki, Lomonosov adına Moskva Dövlət Universiteti Rusiya üçün hansı rolu oynamışdırsa, inqilabdan əvvəlki Azərbaycan üçün də Qori seminariyası həmin rolu oynamışdır.

Köhnə dünyanı lərzəyə gətirən, xalqımızın məişətində, mə'nəvi həyatında tam bir dönüş yaradan «Molla Nəsrəddin» jurnalının naşiri və redaktoru Cəlil Məmmədquluzadənin avamlığa, nadanlığa, milli ədavətə qarşı yönəldilən bədii əsərləri və publisist məqalələri, yeni məktəbi, ana dilini, qabaqcıl rus və dünya mədəniyyətini, xalqlar dostluğu və qadın azadlığını təbliğ edən yazıları Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində ayrıca mərhələdir.

Seminariyanın ilk mə'zunlarından olan Firudinbəy Köçərli tədris işi ilə yanaşı, o dövrün mətbuatında, xüsusilə «Qafqaz», «Kaspi», «Şərqi–Rus», «İrşad», «Tərəqqi», «İqbal», «Yeni iqbal» kimi qəzet səhifələrində fəal çıxış edərək tə'lim, tərbiyə və təhsil məsələlərini, Azərbaycanda yeni üsullu məktəblərin təşkilini, qadın azadlığı, rus dilini, mütərəqqi rus mədəniyyətini, xalqlar dostluğu ideyalarını təbliğ etmiş, dərslik və dərs vəsaitlərinin tərtibində böyük fəallıq göstərmişdir.

F.Köçərlinin Azərbaycanda ictimai-pedaqoji fikrin inkişafında böyük xidməti olmuşdur. Azərbaycan ədəbiyyatının inkişafına ayrıca əhəmiyyət verən F.Köçərli «Azərbaycan ədəbiyyatı tarixi» kimi

sanballı əsərin müəllifidir. Rus ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərini Azərbaycan dilinə tərcümə və təbliğ etmişdir.

Öz müəllimi A.O.Çernyayevskidən sonra Qori seminariyasının Azərbaycan şö'bəsinə uzun müddət rəhbərlik etmiş, 1917-ci ildə onu Qoridən Qazağa köçürməyə nail olmuş və bu yolda böyük zəhmət çəkmişdir.

Qori seminariyası mə'zunlarının fəaliyyətindəki çox müsbət cəhətlərdən biri də doğma seminariya ilə möhkəm əlaqə saxlamaları, onun müvəffəqiyyəti ilə öyünmələri, fəxr etmələridir. Onların hər biri bu müqəddəs maarif ocağını bir an belə yaddan çıxarmamışlar.

Azərbaycan maarifinin sıravi əsgəri, Hacı Kərim Sanılı yarımçıq qalmış son yazısında bu fikri necə də dəqiq ifadə etmişdir. «Seminariya! Gəncliyimin ən gözəl çağlarını səndə keçirdim və mən buna heyfsilənmirəm. Sən bizim xalqımızın gözünə işıq oldun, onu mədrəsələrdən işıqlı otaqlara çıxardın, həsir üstə durmaqdan dizlərinin qapaqları döyənək olan uşaqlara yazığın gəldi, hazırlıq kursları açdın. Mən, səndə Derjavini, Karamzini, Çernışevskini, Puşkini, L.Tolstoyu, Lermontovu, Krılovu, Turgenevi oxudum, onlardan öyrəndim. L.Tolstoyun məktəbi və dərsliyi marağımı artırdı. Nə olaydı, ömür aman verəydi, öyrəndiklərimi xalqıma çatdıraydım. Onlar biləydi ki, yer üzündə Qori kimi gözəl bir şəhər və orada ağaclar arasında heç vaxt uyumaq bilməyən, həmişə işığı gələn yaraşıqlı bir ürfan ocağı var. Bu, Qori Seminariyasıdır».

Xalq maarifimizi, məktəb və mədəniyyətimizi inkişaf etdirən, müəllim adını daim uca tutan əsil xalq müəllimlərilə haqlı olaraq fəxr edirik. Qədirbilən xalqımız tarixə maarifin fədailəri kimi daxil olmuş Qori seminariyasının mə'zunlarını heç zaman unutmamış və unutmayacaqdır. Onların ləyaqətli davamçıları olan yüz minlik müəllimlər ordusu öz sələflərinin şanlı ən'ənələrini yeni şəraitdə davam və inkişaf etdirir.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 16 noyabr 1979-cu il tarixli sayında çap olunmuşdur.

GÖRKƏMLİ TƏHSİL OCAĞININ YUBİLEYİ

Azərbaycana Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir bəy Hacıbəyov, Firudin bəy Köçərli, Yusif Qasımov, Əhməd Seyidov, Azad bəy Əmirov kimi görkəmli elm və mədəniyyət xadimləri verən Qori Müəllimlər Seminariyasının Azərbaycan şö'bəsinin fəaliyyətə başlamasının 100 ili tamam olur.

Xalqımızın çoxəsrlik ədəbiyyat, məktəb və pedaqogika tarixinin elmi əsasla öyrənilməsində, qabaqcıl rus ədəbi və pedaqoji fikrinin təbliğində, Azərbaycanda yayılmasında, xalqlar arasında mədəni və pedaqoji əlaqələrin yaranmasında bu böyük elm ocağının xidməti çox olmuşdur.

Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyi bu ilin may ayında ZMS-nin Azərbaycan şö'bəsinin açılmasının 100 illiyi ilə əlaqədar V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda elmi-nəzəri konfrans keçirməyi qərara almışdır. Seminariyanın mə'zunlarından bir çoxunun pedaqoji fəaliyyəti V.İ.Lenin adına APİ ilə bağlıdır. Pənah Qasımov V.İ.Lenin adına APİ-nin rektoru olmuşdur. Mərhum Ə.Y.Seyidov 30-cu illərdən ömrünün sonunadək məhz bu institutda fəaliyyət göstərmiş, elmi-pedaqoji fəaliyyəti burada çiçəklənmiş, institutda dekan, rektor və kafedra müdiri vəzifəsində çalışmışdır.

Azərbaycanda ilk pedaqoji elmlər namizədi və doktoru olan professor Ə.Y.Seyidov Azərbaycan sovet pedaqogika elminin inkişafında, pedaqoji kadrların hazırlanmasında böyük xidmətlər göstərmiş və ona Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Unudulmaz kompozitorumuz Ü.Hacıbəyovun adı V.İ.Lenin adına APİ-də işləmiş müəllimlərin sırasında fəxri yer tutur.

1876-cı il sentyabrın 12-də əsası qoyulan, ZMS-ı əvvəlcə üç şö'bədən: rus, gürcü və erməni şö'bələrindən ibarət idi. Birinci il seminariyaya qəbul olunan 50 nəfərin içərisində bir nəfər də azərbaycanlı yox idi.

Azərbaycan kəndlərində təşkil edilən və açılması nəzərdə tutulan məktəblərin milli müəllim kadrlarına ehtiyacı azərbaycanlılar üçün ayrıca seminariya və ya şö'bənin təşkilini həyati zəruriyyət kimi qarşıya qoyurdu. Beləliklə, 1879-cu il sentyabrın 23-də ZMS-nin nəzdində ayrıca bir şö'bə, Azərbaycan şö'bəsi açıldı.

Seminariyaya ilk dəfə 32 nəfər qəbul oldu. Onlardan 19-u şö'bənin əsas sinfinə, 13-ü isə hazırlıq sinfinə qəbul olundu. Seminariyaya ilk qəbul olunanlar gələcəyin məşhur pedaqoqları S.Vəlibəyov, F.Köçərli, R.Əfəndiyev, M.Mahmudbəyov və başqaları idi.

Azərbaycan şö'bəsi tə'sis olunan gündən özünün bir sıra faydalı ən'ənələri ilə daim diqqəti cəlb edirdi. Məsələn, 1900-cü ildə Parisdə keçirilən müəllimlər seminariyasının ümumdünya sərgisində iştirak edən ZMS-nın Azərbaycan şö'bəsinin göndərdiyi bir sıra materiallar yüksək qiymətləndirilmiş və Qori seminariyası qızıl medala layiq görülmüşdür.

Ümumiyyətlə, ZMS Azərbaycan şö'bəsini bitirən təxminən 250 nəfərə qədər müəllim öz fəaliyyətini sırf pedaqoji işlə məhdudlaşdırmamış, inqilabdan əvvəlki Azərbaycanda elm və təhsil, maarif və mədəniyyət, ədəbiyyat və incəsənətin bir çox sahələrini inkişaf etdirmişlər. Onlardan bir çoxu tarixi şəxsiyyət olmuş, öz xalqının zülm və istibdaddan azad olması uğrunda unudulmaz xidmətlər göstərmişlər.

ZMS-nin Azərbaycan şö'bəsinin nəzdində baza məktəbinin təşkili ilə əlaqədar yeni dərsliyin yaranmasına ciddi ehtiyac duyulurdu. Bu ehtiyacı aradan qaldırmaq üçün A.O.Çernyayevski Azərbaycan şö'bəsinin böyük yaşlı tələbələri ilə həftəlik proqram düzəldir, gündəlik dərslərdə sövti üsulla məşğələ aparmaq üçün oxu materialı hazırlayırdılar.

Bu materiallar əsasında «Vətən dili» kitabı tərtib olunur.

«Vətən dili» dərsliyinin tərtibi ilə əlaqədar ibtidai məktəblərdə tədrisin birinci ili tə'lim ana dilində aparılırdı.

«Vətən dili» ilk Azərbaycan dili dərsliyi idi.

A.O.Çernyayevskinin «Vətən dili» dərsliyi sonralar dəfələrlə nəşr edilmiş və uzun müddət Azərbaycan məktəblərində ana dili dərsliyi kimi istifadə olunmuşdur.

ZMS-nın Azərbaycan şö'bəsinin ən böyük xidmətlərindən biri də onun mə'zunlarının qadın təhsili ilə əlaqədar apardığı mübarizədir.

Seminariya mə'zunları qızların dünyəvi təhsil məktəblərinə cəlb edilməsi, qadın təhsili, qadın azadlığı uğrunda ardıcıl mübarizə aparırdılar. F.Köçərli yazırdı: «Müsəlman qız məktəbinin açılması Qafqaz müsəlmanlarının tarixində yeni dövrün başlanğıcı olacaqdır. O, məktəbi bitirməsi ilə müsəlman ailələrində öz vəzifələrini yaxşı başa düşəcək, təhsilli evdar qadınlar və analar meydana gələcək və tədricən müsəlman həyat tərzi istər ailədə, istərsə də kənarda yaxşılığa doğru yenidən qurulacaqdır».

Seminariyanın mə'zunu C.Məmmədquluzadə Nehrəm kəndində müdir işlədiyi vaxt, oğlanlarla yanaşı qızları da təhsilə cəlb etmişdir.

Məqalə «Gənc müəllim» qəzetinin 26 oktyabr 1979-cu il tarixli sayında çap olunmuşdur.

QORİ SEMİNARİYASI

Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin qərarı ilə V.İ.Lenin adına Pedaqoji İnstitutunda Qori Müəllimlər Seminariyası Azərbaycan şö'bəsinin 100 illiyinə həsr edilmiş respublika elmi–nəzəri konfransı keçirilmişdir.

Konfransı giriş sözü ilə Azərbaycan SSR Orta və Ali İxtisas Təhsili naziri Q.H. Əliyev yoldaş açmış, Qori seminariyasının inqilabdan əvvəlki Azərbaycan üçün müəllim kadrları hazırlanmasınan tarixi rolundan bəhs etmiş, Azərbaycan ədəbiyyatı və incəsənətinin inkişafında seminariya mə'zunlarının böyük xidmətlərini qeyd etmişdir.

Konfransın işində Bakı şəhərinin Ali tədris müəssisələri ilə bərabər Azərbaycan SSR Elmlər Akademiyasının müvafiq elmi müəssisələrinin, ali məktəblərin, bir sıra muzey əməkdaşları, akademik Y.Məmmədəliyev adına Naxçıvan Pedaqoji İnstitutunun, H.Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunun nümayəndələri iştirak etmişdir. Konfransa Ermənistan və Gürcüstan SSR-dən, o cümlədən Qori şəhərindən qonaqlar də'vət edilmişdir. Konfransda həmçinin seminariyanın mə'zunlarından Bahadur Rzayev, Qubad Qasımov, seminaristlərin övladları, yaxın dostları, keçmiş şagirdləri iştirak edirdi.

İki gün davam edən elmi-nəzəri konfransda 50-yə qədər mə'ruzə, mə'lumat, çıxış olmuş, xatirələr söylənilmişdir.

A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunun alimi-kafedra müdiri professor V.V.Qaqua, həmin institutun alimlərindən Ə.X.Paşayev, A.K.Mişiyev, Ermənistan SSR Maarif Nazirliyinin inspektoru N.A.İbrahimov, Qori şəhərindəki tarix–etnoqrafiya muzeyinin baş elmi işçisi S.V. Koşuaşvili, Ermənistan SSR ETPEİ-nin baş elmi işçisi dos. R.A.Atayan, Lenin adına APİ-nin professorlarından Azərbaycan SSR əməkdar elm xadimi H.M.Qədirov, A.M.Alməmmədov, Ş.Ə.Sadıqov və başqalarının çıxış-larında Qori seminariyası Azərbaycan şö'bəsi mə'zunlarının elmi-pedaqoji, ədəbi-bədii irsi geniş təhlil edildi, onların xalq maarifi və məktəb təhsilinin inkişafı ilə bərabər ədəbiyyat, dilçilik, pedaqogika və etnoqrafiya, musiqi, jurnalistika, kitabxanaçılıq və ümumiyyətlə, mətbuatın inkişafındakı xidmətləri yüksək qiymətləndirildi,

N.Nərimanovun Zaqfederasiyanın və SSRİ-nin təşkilindəki rolu qeyd edildi.

V.İ. Lenin adına APİ-nin rektoru, prof. H.Ağayev yoldaşın «Zaqafqaziya Müəllimlər Seminariyası Azərbaycan şö'bəsinin 100 illiyi haqqında» adlı mə'ruzəsində seminariya mə'zunlarının Azərbaycanda ibtidai və orta təhsil ilə bərabər ali təhsilin əsasının qoyulmasında və inkişafında, Azərbaycanda pedaqoji elmin və pedaqoji kadrların hazırlanmasında seminariya mə'zunlarının – N.Nərimanovun, Ü.Hacıbəyovun, P.Qasımovun, prof. A.Əmirovun, Ə.Seyidovun və başqalarının xidmətləri qeyd edildi.

Qori seminariyasının Azərbaycan şö'bəsi mövcud olduğu 40 il ərzində təxminən 250 nəfər müəllim hazırlamışdır ki, onlar müəllimliklə bərabər xalqın ümumi mədəni inkişafına çalışmış, xalqın cəhalətdən azad olması və ictimai şüurunun yüksəlməsi uğrunda mübarizə aparmışdır.

Keçən əsrin sonu və əsrimizin əvvələrində Azərbaycanda fəaliyyət göstərən ziyalılarımızın böyük bir dəstəsi, o cümlədən N.Nərimanov, Ü.Hacıbəyov, C.Məmmədqulazadə, F.Köçərli, S.Vəlibəyov, Q.Bayraməlibəyov, F.Ağazadə, S.S.Axundov, H.Terequlov və onlarla başqaları həmin seminariyanın mə'zunları olmuşlar.

Qori seminariyasının mə'zunlarının tarixi xidməti həm də ondadır ki, onlar Azərbaycanda qadın təhsili və azadlığı uğrunda unudulmaz xidmətlər göstərmişlər. Həmçinin onlar Azərbaycanda marksist pedaqogikasının əsasını qoymuş, tə'lim və tərbiyə haqqında marksizm-leninizm nəzəriyyəsini yerli şəraitdə inkişaf etdirmişlər. Qori seminariyasının mə'zunlarının bir tarixi xidməti də ondadır ki, onlar rus klassik ədəbiyyatının görkəmli nümayəndələrinin — Puşkinin, Lermontovun, Krılovun, Tolstoyun, Qoqolun və başqalarının əsərlərini doğma ana dilimizə tərcümə etmiş, azərbaycanlı oxucularını rus ədəbiyyatı, mədəniyyəti ilə tanış etmişlər.

Seminariya mə'zunlarının qabaqcıl dəstəsi Böyük Oktyabr inqlabını rəğbətlə qarşılamış, oktyabrın nailiyyətlərini müdafiə etmiş, Azərbaycanda sosializm quruculuğunun ön sıralarında getmişdir. Mübaliğəsiz demək lazımdər ki, Lomonosov adına Moskva Dövlət Universitetinin Rusiya üçün oynadığı tarixi rolu, Azərbaycan üçün Qori seminariyası oynamışdır. Bu seminariya mə'zunlarının böyük bir

dəstəsi tarixi şəxsiyyət, görkəmli sənətkar, xalqın ustad müəllimi olmuşlar.

Yüz illiyi qeyd edilən şö'bənin xidməti bir də ondadır ki, bu şö'bənin təşkili ilə xalqımızın tarixində səhnəyə ilk dəfə xalq müəllimi daxil olmuşdur. Bu seminariyanın mə'zunları ilə təkcə Azərbaycanın deyil, Zaqafqaziyanın azərbaycanlı kəndlərində yeni tipli məktəblərin əsası qoyuldu, şö'bənin təşkili Azərbaycan dilində yazılmış ilk ana dili dərsliyimiz olan "«Vətən dili"»nin yaradılmasına əlverişli zəmin yaratdı.

1882-ci ildə A.O.Çernyayevskinin çap etdirdiyi həmin kitabdan Azərbaycan ziyalılarının böyük bir nəsli dərs almışdır.

Seminariya mə'zunlarından biri həmin tədris ocağının haqqında necə də gözəl demişdir:

«Seminariya! Gəncliyimin ən gözəl çağlarını səndə keçirtdim və mən buna heyfsilənmirəm. Sən bizim xalqımızın gözünə işıq oldun, onu mədrəsələrdən işıqlı otaqlara çıxartdın, həsir üstə durmaqdan dizlərinin qapaqları döyənək olan uşaqlara yazığın gəldi, hazırlıq kursları açdın. Mən səndə Derjavini, Karamzini, Çernışevskini, Puşkini, Tolstoyu, Lermontovu, Krılovu, Turgenevi oxudum, onlardan öyrəndim. Tolstoyun məktəbi və dərsliyi marağımı artırdı. Nə olaydı, ömür aman verəydi, öyrəndiklərimi xalqıma çatdıraydım. Onlar biləydi ki, yer üzündə Qori kimi gözəl bir şəhər və orada ağaclar arasında heç vaxt uyumaq bilməyən, həmişə işığı gələn yaraşıqlı bir ürfan ocağı var. Bu, Qori Seminariyasıdır».

Qori seminariyası Azərbaycan şö'bəsinin 100 illiyini keçirən təşkilat komitəsinin iş planında Ermənistanda və Gürcüstanda, Naxçıvanda və Kirovabadda seminariyanın tarixi roluna, seminariya mə'zunlarının tarixi xidmətlərinə aid səyyar konfranslar keçirmək nəzərdə tutulur. Konfrans respublikamızda pedaqoji elmin inkişafı üçün Zaqafqaziya pedaqoji institutlarının əməkdaşlığını daha da inkişaf etdirməyə aid müvafiq tövsiyə qəbul etmişdir.

Məqalə «Sürr'ət» qəzetinin 21 aprel 1970-ci il tarixli sayında çap olunmuşdur.

İLK SAVAD MƏKTƏBLƏRİNDƏN BİRİ

Azərbaycan kəndlərində dövlət məktəblərinin təşkili bə'zi kəndlərdə ən'ənəvi dini məktəblərdən fərqli olaraq bir sıra kənd yerlərində savad məktəbi adlı təhsil ocaqlarının meydana gəlməsinə əlverişli zəmin hazırladı. Adından göründüyü kimi, bu məktəblərdə ancaq ilkin savad öyrədilər. Bu məktəblərin tədris planına bir qayda olaraq yazı, oxu və şəriət daxil idi. Savad məktəblərini açanlar və orada müəllimlik edənlərin bir çoxu XIX əsrin ortalarında Azərbaycanın bir sıra şəhərlərində fəaliyyət göstərən «Müsəlman məktəbi» adlı xüsusi təhsil müəssisələrində təhsil alanlar və ya xüsusi adamların yanında ruhani təhsil almış dövrün mütərəqqi şəxsləri idilər. Bunlar əslində məhəllə mollası olmaqla bərabər, həm də kəndli uşaqları üçün məktəb açaraq onlara elementar savad öyrədirdilər. Əslində savad məktəbləri məscid məktəblərinə nisbətən irəliyə doğru atılmış bir addım idi. Çünki əvvələn bu məktəbləri açanlar ruhani təhsili almış, Azərbaycan, rus, ərəb və fars dillərini öyrənmiş adamlar idilər və öz bilik səviyyələrinə görə cahil mollalardan kəskin fərqlənirdilər. İkincisi isə, burada tə'limin məzmunu əsasən yazmaq, oxumaq və öyrətməkdən ibarət idi. Əslində savad məktəbləri bir tərəfdən məscid məktəblərinin yeni üsullu məktəblərə çevrilməsi üçün bir növ hazırlıq olmaqla, digər tərəfdən də təhsilin rus dilində verildiyi ilk kənd məktəblərinin mütərəqqi nəticələrindən faydalanaraq, yeni üsullu ana dili məktəbləri açmaq yolunda ilk addımlar idi.

Savad məktəbləri elementar bilik verməsinə, təhsilin məzmunundakı səthiliyə baxmayaraq, milli məktəblərin rüşeymi kimi əhəmiyyətli idi.

Leninqrad Mərkəzi Dövlət Arxiv sənədlərində bu məktəblərə aid maraqlı faktlar saxlanılmaqdadır. Azərbaycan ərazisində ilk savad məktəbləri ən çox Yelizavetpol quberniyasına daxil olan kəndlərdə açılmışdır. Cəbrayıl qəzasında belə məktəblər Horadiz və Böyük Bəhmənli kəndlərində açılmışdır.

Horadiz savad məktəbinin əsası 1881-ci ildə qoyulmuşdur. Məktəbin banisi Mirzə Məmmədqulu Hacı Molla Abdulla oğlu olmuşdur. O, Cəbrayıl qazısı Axund Molla Məhəmməd Seyidzadədən dərs almışdır. 1895-ci ildə məktəbdə 52 şagird (o cümlədən 2 qız) oxuyurdu.

Böyük Bəhmənli kəndində savad məktəbi 1891-ci ildə açılmışdır. Bu məktəbin əsası 1880-ci ildə müəllimlik edən Molla Baba Məşədi Bayram oğlu tərəfindən qoyulmuşdur. 1895-ci ildə bu məktəbdə 15 şagird oxuyurdu.

Savad məktəblərində tə'lim hərf–heca üsulu ilə aparılırdı. Təhsil haqqı pullu idi (ildə bir manat).

Məqalə Cəbrayıl rayonunda nəşr olmuş «Araz» qəzetinin 23 fevral 1982-ci il tarixli sayında çap olunmuşdur.

LƏNKƏRANDA İLK DÜNYƏVİ TƏHSİL MƏKTƏBİ

Lənkəranda dövlət məktəblərinin təşkilinə ilk dəfə 1830-cu illərə aid arxiv sənədlərində rast gəlirik.

XIX əsrin 30-cu illərində Zaqafqaziyada, o cümlədən Azərbaycanda Avropa Rusiyasındakı məhəllə məktəbləri tipində qəza məktəbləri adı ilə tədris müəssisələri təşkil etmək fikri meydana gəlir və get-gedə qüvvətlənirdi. Yerli əhali də rus dilində təhsilə meyl edir, hətta açılacaq məktəblərə tədris binası tikmək üçün vəsait toplayır, Zaqafqaziyanın baş hakiminə ərizələrlə müraciət edərək məktəb açılması işini sür'ətləndirməyi xahiş edirdilər. Bütün bunlar onunla nəticələndi ki, 1829-cu il avqust ayının 2-də mərkəzi hökumət Zaqafqaziya məktəblərinin ilk nizamnaməsini təsdiq etdi. Bu nizamnamə ilə Azərbaycanda təhsilin rus dilində verildiyi ilk dövlət məktəblərinin əsası qoyuldu. Nizamnaməyə görə cəmi Zaqafqaziyada açılması təsdiq edilən 20 qəza məktəbindən doqquzu Azərbaycan ərazisində idi. Belə məktəblərin təşkili Gəncə, Şuşa, Nuxa (Şəki), Şamaxı, Quba, Bakı, Naxçıvan, Ordubad şəhərlərində və Qazax distansiyasında nəzərdə tutulmuşdu. 1830-cu ildən e'tibarən Azərbaycanın Şuşa, Nuxa, Bakı və Gəncə şəhərlərində ilk qəza məktəblərinin əsası qoyuldu. Bu və ya digər səbəblərə görə göstərilən başqa yerlərdə qəza məktəblərinin təşkili baş tutmadı.

Qəza məktəbləri hələ rüşeym halında ikən onların bir sıra mühüm qüsurları aşkar oldu və dövlət orqanları bu məktəbləri təkmilləşdirməyi lazım bildi. Zaqafqaziya məktəblərinin yeni nizamnamə layihəsi hazırlandı. 1835-ci il may ayının 12-də sayca ikinci nizamnamə təsdiq edildi. Yeni nizamnamədə Azərbaycanda mövcud 4 qəza məktəbini saxlamaqla Şamaxı, Naxçıvan, Quba və Qazax distansiyasında nəzərdə tutulan qəza məktəblərini açmaq, Ordubad şəhərinin əvəzinə isə Lənkəranda qəza məktəbi tə'sis etmək təsdiq edildi.

Lakin hadisələrin gedişindən göründüyü kimi, Quba və Qazax distansiyası ilə yanaşı, Lənkəranda da o vaxtlar qəza məktəbinin təşkili tə'xirə salındı.

Mirhaşım Talışlı 1981-ci ildə Lənkəranın «Leninçi» qəzetinin səhifələrində «Lənkəranın məktəb tarixi» başlığı altında silsilə məqalələrlə çıxış edərək doğma məktəbinin tarixini və ümumiyyətlə,

Lənkəranda məktəb təhsili tarixini, xalq maarifi ilə bağlı olan məsələləri araşdırmağa çalışmış və təqdirəlayiq bir iş görmüşdür. Bununla belə onun əlinin altında kifayət qədər mö'təbər arxiv sənədləri olmadığından bə'zi dolaşıqlığa yol vermişdir.

Zaqafqaziya məktəblərinin 1835-ci il nizamnaməsi ilə təşkili nəzərdə tutulan Lənkəran qəza məktəbinin açılması bir sıra obyektiv və subyektiv səbəblərlə, hər şeydən əvvəl Qafqazda hökmranlıq edən çar generallarının subyektiv mülahizələri ilə əlaqədar olmuşdur.

Lənkəranda qəza məktəbinin açılmasının tə'xirə salınmasının bir əsas səbəbi də müvafiq məktəb binasının olmaması idi. Talış xanlığının rəisi general-leytenant Krabbe 1836-cı il martın 7-də Qafqazın baş hakimi baron Rozenə yazırdı: «Lənkəranda heç bir dövlət tikintisi yoxdur. Nəinki məktəb üçün, hətta bir sinif üçün də müvafiq otaq tapmaq mümkün deyil. Bu yerlərdə qamışdan tikilən yaşayış binaları həm çox dardır, həm də nə pəncərə, nə də tavanı olmadığından tədris üçün əsla yaramır».

Zaqafqaziyanın yeni canişini knyaz M.S.Vorontsov məktəb işini təkmilləşdirmək məqsədilə 1845-ci ildə Zaqafqaziya məktəblərinin yeni nizamnamə layihəsini tərtib etməyi lazım bildi. 1848-ci il dekabrın 18-də təsdiq edilən yeni nizamnamə ilə Qubada və Lənkəranda olmaqla Azərbaycanda iki yeni qəza məktəbi açmaq bir daha təsdiq edildi. Məktəbin hər birinin illik xərci 3.210 manat olub dövlət xəzinəsindən ödənilməli idi. Bu məktəblərin təşkilinin rəsmən təsdiq edilməsinə baxmayaraq, onlar yenə də açılmadı, «Maddi vəsait yoxluğu» bəhanəsi, əslində isə xəzinəyə zərər vurmamaq siyasəti ilə əlaqədar olaraq Lənkəranda, həmçinin Qubada qəza məktəbləri açılmadı.

Lakin qeyd etmək lazımdır ki, bu vaxt lənkəranlılar (xüsusilə qubalılar) rus dilinə və təhsilə böyük ehtiyac hiss edir, ərizələr yazaraq məktəb açılmasını xahiş edirdilər.

XIX əsrin ortalarında Lənkəran Azərbaycan şəhərləri içərisində əhalisi nisbətən çox az olan şəhərlər sırasında idi. Əhalinin ümumi sayına görə Lənkəran şəhəri ölkənin Şamaxı, Şuşa, Nuxa, Gəncə, Bakı kimi çoxsaylı əhalisi olan şəhərlərindən, hətta Qubadan belə geri qalırdı. 1856-cı ilin mə'lumatına görə şəhərdə yaşayan əhalinin ümumi sayı 5.062 nəfər idi. Əhalinin 2.142 nəfərini kişilər, 2.920 nəfərini isə qadınlar təşkil edirdi. Əhalinin ümumi sayına görə Lənkəran, Naxçıvan və Ordubad şəhərlərindən, həmçinin Salyandan irəlidə idi.

XIX əsrin 50-ci illərində (15.1.1850) Lənkəranda xüsusi məqsədlə açılan və qısa müddət fəaliyyət göstərən «Müsəlman məktəbi» nəzərə alınmazsa, o vaxtlar yerli əhalinin təhsil sistemi əsasən ən'ənəvi ruhani məktəbi ilə əlaqədar olaraq qalmaqda davam edirdi. Rəsmi sənədlərdə 1853-cü ildə Lənkəranda 4 məscid məktəbinin fəaliyyət göstərdiyi və burada 75 şagirdin təhsil aldığı göstərilir (qismən sonralara, 1869-cu ilə aid arxiv sənədlərində Lənkəran qəzasında 50 məktəbdə 449 şagirdin oxuduğu qeydə alınmışdır).

Zaqafqaziya məktəblərinin 1848-ci il nizamnaməsi üçün müəyyən edilmiş 3 illik təcrübə müddəti qurtardıqdan sonra, 1851-ci ildə yeni Nizamnamə layihəsi hazırlandı. 1853-cü il oktyabrın 29-da təsdiq edilən yeni nizamnamə ilə Lənkəranda əvvəlki nizamnamələrdə nəzərdə tutulan qəza məktəbi əvəzinə birsinifli (təhsil müddəti 3 il) ibtidai (elementar) məktəb açmaq təsdiq edildi. Məktəbin illik xərci cəmi 850 manat olub dövlət xəzinəsindən ödənilirdi.

Bu nizamnamə ilə Azərbaycanda təhsilin rus dilində verildiyi ibtidai məktəblər meydana gəldi. Lənkəranda ibtidai məktəb 1856-cı il sentyabrın 21-də açıldı. Bununla da Lənkəranda ümumi təhsil verən ilk dövlət məktəbinin əsası qoyuldu.[1] Məktəbə bütün təbəqələrdən olan 8 yaşlı oğlan uşaqları qəbul olunurdu. Məktəbə qəbul olunanlardan nə təhsil haqqı, nə də təxmini bilik tələb edilirdi. Məktəbə ilk dəfə 53 şagird cəlb edilmişdi. Şagirdlərin milli tərkibi müxtəlif idi. Onlardan 30 nəfəri azərbaycanlı, 11 nəfəri rus, 12 nəfəri isə erməni idi. Silki tərkibinə görə 20 nəfəri dvoryan və bəy, 5 nəfəri ruhani, 28 nəfəri isə baş vergisi verənlərin uşaqları idi.

Tədris planına aşağıdakı fənlər daxil idi: şəriət, rus dilində oxu və yazı, Azərbaycan dilində oxu və yazı, hesabdan ilk dörd əməliyyat[2].

Nizamnaməyə görə rus dili müəllimi vəzifəsinə gimnaziya mə'zunlarından, bunlar olmadıqda isə qəza məktəblərini bitirənlərdən tə'yin olunurdu. Məktəbə rəhbərlik bir qayda olaraq rus dili müəlliminə həvalə edilirdi. Şəriət və Azərbaycan dili Qafqaz Tədris Dairəsinin təsdiqi ilə yerli vəzifəli mollalar tərəfindən tədris edilirdi. Məktəbin ilk Azərbaycan dili və şəriət müəllimləri Mirzə Səfər Məmmədov və Mirzə Nəsrulla Kazımbəyov olmuşdur. M.S.Məmmədov məscid mollasının yanında təhsil almışdı. M.N.Kazımbəyov

[1] Gürc. SSR MDA, f. 425, s. 1. iş № 578, v 21.
[2] Bax: JMNP, 1853, s. 59.

isə Bakıda qəza məktəbini bitirmişdi. Arxiv sənədlərində M.S.Məmmədovun 1875-ci ildə Tiflisə gedərək Tiflis gimnaziyasında imtahan vermək yolu ilə ibtidai məktəb müəllimi adı almasına aid mə'lumat saxlanılmaqdadır.

Lənkəran ibtidai məktəbində müdir və müəllim vəzifəsində bir müddət hələlik şəxsiyyəti bizə mə'lum olmayan Pirumov işləmişdir. Arxiv sənədlərində onun 1867-ci ilin sentyabrında Şuşa qəza məktəbinə müəllim tə'yin edilməsi, onun yerinə isə Şuşa qəza məktəbinin hazırlıq sinif müəllim Serdak Baqinovun tə'yin edilməsi göstərilir.

1870-ci illərdə Lənkəran ikisinifli ibtidai məktəbdə müəllim köməkçisi sifəti ilə Tiflis Aleksandrovsk Müəllimlər İnstitutunda təhsil almış F.Eqorov adlı bir nəfər işləmişdir.

Əsrin sonlarında, 1897-ci ildən məktəbin müdiri və müəllimi F.Koptılov olmuşdur.

Lənkəran məktəbinin müəllimləri içərisində adı böyük hörmət və ehtiramla çəkilənlərdən biri dövrünün məşhur müəllimi, yeni üsullu məktəblərin ilk carçılarından olan, görkəmli maarifçi Qasir təxəllüsü ilə məşhur olan Mirzə İsmayıl Axundovdur (1806–1900).

Qasirin pedaqoji fəaliyyətinin son dövrünün təxminən 20 ili (1883–1900-cü illər) məhz Lənkəran ikisinifli ibtidai məktəbi ilə bağlı olmuşdur.

Məktəbin ana dili və şəriət müəllimi olan Qasir çox arif, hazırcavab və ustad bir müəllim idi. Müasirlərinin dediyinə görə, Qasirin və onun həmməsləк dostlarının təşəbbüsü ilə A.S.Qriboyedovun «Ağıldan bəla» əsəri ilk dəfə Lənkəranda rus dilində səhnəyə qoyulmuşdur.

Ana dili tə'liminin inkişafında onun xidmətləri böyük olmuşdur. Onun 1860-cı illərdə digər ziyalılarla birlikdə tərtib etdiyi Talış dilinin qrammatikasına aid kitabçanın əlyazması hal-hazırda Jdanov adına Leninqrad Dövlət Universitetinin Əsaslı Kitabxanasında mühafizə edilir.

Lənkəran məktəbinin müdir və müəllimləri içərisində Teymurbəy Bayraməlibəyov (1862–1937) fəxri yer tutur. Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının ilk mə'zunlarından olan T.M.Bayraməlibəyov Lənkəran ikisinifli ibtidai məktəbinin əvvəlcə müəllimi, sonra isə müdiri kimi fəaliyyət göstərmiş, məktəbin tərəqqisi üçün xeyli iş görmüşdür. O, şagirdlərə kənd təsərrüfatına, xüsusilə də ipəkçiliyə aid bilik vermək işinə böyük əmək sərf etmişdir.

T.Bayraməlibəyov təkcə müəllimlik etməmiş, o, həm də elmi axtarışlar aparmış, dövri mətbuatda elmi-pedaqoji məqalələrlə çıxış etmişdir. Sənədlərdən birində deyildiyi kimi, onun «Bakı quberniyasının müsəlman kəndlərində ipəkçiliyin vəziyyəti» adlı məqaləsi diqqəti xüsusilə cəlb etmişdir. Həmin məqalə o vaxtlar Qafqaz Tədris Dairəsinin Tiflisdə nəşr olunan aylıq «Sərəncamlar» adlı məcmuəsinin 1891-ci ildə çıxan 10-cu nömrəsində (576–582-ci səhifələr) dərc edilmişdir.

Lənkəran ibtidai məktəbində tədris əvvəllər qarşılıqlı tə'lim üsulu ilə aparılırdı. Tədris ili yanvarın 1-dən hesab olunurdu. Şagirdlərin silki tərkibinə görə şəhər sakinlərinin uşaqları əksəriyyət təşkil edirdi. Lənkəran ibtidai məktəbi şagirdlərinin sayına görə digər ibtidai məktəblərdən çox-çox irəlidə idi. 1860-cı ilin mə'lumatına görə, burada oxuyanların ümumi sayı 90 nəfər idi. 1890-ci ildə burada 100 nəfər təhsil alırdı.

Lənkəran ibtidai məktəbi inzibati cəhətcə 60-cı illərin məktəb islahatı nəticəsində təşkil edilən Bakı məktəblər direksiyasına tabe idi.

XIX əsrin 70—80-ci illərində məktəb təhsili sahəsində çarizmin mürtəce siyasəti ilə əlaqədar olaraq bir sıra məktəblər kimi Lənkəranda da əhalinin təhsilini məhdudlaşdırmaq məqsədilə təhsil haqqı tədbiq edilməyə başlandı və getdikcə artırıldı. 1878-ci ildən Lənkəran ibtidai məktəbində illik təhsil haqqı 2 manat əvəzinə, artırılaraq 5 manata qaldırıldı.

Lənkəran ibtidai məktəbi ölkənin ictimai həyatında baş verən mədəni hadisələrindən kənarda qalmırdı. 1868-ci ildə böyük rus şairi İ.A.Krılovun anadan olmasının 100 illiyi ilə əlaqədar olaraq Bakı quberniyasına daxil olan bir sıra məktəbin müəllim və şagirdləri də Tiflis Aleksandrovsk Müəllimlər İnstitutunda təhsil alan tədqaüdçü tələbələr üçün ianə toplanmasında fəal iştirak etmiş və bu məqsəd üçün 5 manat 10 qəpik toplayaraq QTD-yə göndərmişlər.

Lənkəran qəzasında xalq maarifi, elm və mədəniyyətin inkişafı ilə bərabər inqilabi ideyaların yayılmasında da fəal iştirak etmişlər. İlk azərbaycanlı inqilabçılar dəstəsinə mənsub olan İbrahim Mehmandarovun (1850–1918) rus dilinə yiyələnməsində Lənkəran ibtidai məktəbinin rolu az olmamışdır. Bakı realnı gimnaziyasının direktoru K.L.Çermakın də'vətilə Bakıya gəlmiş və buranı bitirdikdən sonra keçən əsrin 70-ci illərində Peterburqa gedərək Hərbi-Tibbi Akademiyasında təhsil alan İbrahim Mehmandarov — rus ordusunun

görkəmli generallarından olan Səmədbəy Mehmandarovun qardaşı hələ tələbə ikən Peterburqda inqilabi dərnəklərdə iştrak etmişdir.

Lənkəran ibtidai məktəbi qəza kəndlərində də təhsilin rus dilində verildiyi dünyəvi məktəblərin meydana gəlməsinə və tədricən inkişaf etməsinə əlverişli şərait yaratdı. Fikrimizcə, Azərbaycan ərazisində kənd məktəblərinin ilk dəfə Lənkəran qəzasında meydana gəlməsi həm də Lənkəran ibtidai məktəbinin müvəffəqiyyətli başlanğıcı və uğurlu addımları ilə əlaqədar olmuşdur. Belə məktəblər ilk dəfə Lənkəran qəzasının rus kəndləri olan I Andreyevka (1875), I Astraxanka (1857), Nikolayevka (1860), Prişib (1860) və Privolnı kəndlərində (1873) açılmışdır.

Bunlar ibtidai xalq məktəbləri olub kənd icmaları tərəfindən açılır və əhalinin vəsaiti ilə idarə edilirdi.

XIX əsrin 80-ci illərindən e'tibarən, Zaqafqaziya Müəllimlər Seminariyası mə'zunlarının səhnədə görünməsi ilə digər yerlərdə olduğu kimi, Lənkəran qəzasında da kənd məktəblərinin meydana gəlməsinə, bir qədər ləng olsa da, tədricən inkişaf etməsinə əlverişli zəmin hazırladı.

1896-cı il fevralın 17-də Qızılağacda (38 şagirdlə), oktyabrın 28-də Masallıda (40 şagirdlə), dekabrın 8-də Mahmudluda (16 şagirdlə) kənd ümumtəhsil məktəbinin əsası qoyuldu.

Keçən əsrin sonu üçün Lənkəran qəzasında artıq 13 kənd məktəbi fəaliyyət göstərirdi. Bunlardan dördü zemstvo məktəbi idi. Göstərilən kənd məktəblərindən altısı oğlan, ikisi qız məktəbi idi. 5 məktəbdə oğlanlarla bərabər qızlar da oxuyurdu.

Bir sıra iri şəhər və qəzalar kimi, XIX əsrin 80-ci illərində Lənkəranda da «Şagirdlərə yardım cəmiyyəti» təşkil edilmişdir. Bu cəmiyyət üzvlük haqqından, ianələrdən, həvəskarların teatr tamaşalarından, müasirlərindən əldə edilən vəsait ilə kasıblardan olan uşaqların təhsil haqqını ödəyir, onlara tədris vəsaiti və paltarla kömək edirdi.

Lənkəran ikisinifli ibtidai məktəbi əsrimizin əvvəllərində özünün inkişafının yeni mərhələsinə qədəm qoydu.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 2 iyun 1982-ci tarixli sayında çap olunmuşdur.

100 YAŞLI QARĞABAZAR MƏKTƏBİ

Qarğabazar kənd məktəbinin əsası 1883-cü il oktyabr ayının 17-də qoyulmuşdur. Digər kəndlər kimi, burada da təhsilin əsasən rus dilində verildiyi dünyəvi məktəbin təşkili, bir tərəfdən XIX əsrin 60–70-ci illərin məktəb islahatları ilə, xalqın dünyəvi təhsil tələbi ilə, digər tərəfdən isə Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şö'bəsində hazırlanan müəllimlərlə bağlı olmuşdur.

Məktəbin ilk müəllimi Əlişbəy Tahirov olmuşdur. Ə.Tahirov 1879-cu ildə A.O.Çernyayevski tərəfindən Şuşa şəhər məktəbi şagirdləri içərisindən seçilib, Qori şəhərinə oxumağa aparılan ilk 13 nəfərdən biri idi. 1883-cü ildə seminariyanı bitirən Ə.Tahirov həmin il yanvar ayının 27-dən Qarğabazar məktəbinə müəllim tə'yin edilmişdir.

Qarğabazar məktəbi ilk dəfə 12 şagirdlə dərsə başlamışdır. Məktəb əvvəllər kənd sakinlərindən olan Allahverdi Ağayevin xüsusi binasında yerləşirdi. Bina məktəb üçün təmənnasız verilmişdi. Şagirdlərin sayı get-gedə artmışdır. 1887-ci ildə burada 28, 1889-cu ildə 30, 1890-cı ildə 37, 1894-cü ildə 46, əsrin sonunda 48 nəfər olmuşdur. Bu o dövrün kənd məktəbləri üçün böyük rəqəm hesab edilirdi. Şagirdlərin əksəriyyətini azərbaycanlı uşaqlar təşkil edirdi.

Kəndin gözüaçıq adamları məktəbə hər cür kömək edirdilər. Məktəb birsinifli idi. Təhsil müddəti 3 il idi. Tədris planına Azərbaycan və rus dilləri, hesab və hüsnxət daxil idi.

Azərbaycan dili A.O.Çernyayevskinin «Vətən dili», rus dili isə K.D.Uşinskinin «Rodnaya reç» («Vətən dili») kitabları üzrə tədris edilirdi.

Qarğabazar məktəbi Ə.Tahirovun ciddi sə'yi, bacarığı, kəndli balalarına qayğıkeşliyi sayəsində gündən-günə inkişaf etmiş, kənd əhalisinin hüsn-rəğbətini qazanmışdır.

Ə.Tahirov təkcə dərs deməklə kifayətlənməmiş, şagirdləri ictimai-faydalı və məhsudlar əməyə hazırlamağa xüsusi əhəmiyyət vermişdir.

Arxiv sənədlərində Qarğabazar məktəblərinin ipəkçiliklə məşğul olmalarına aid maraqlı mə'lumatlar vardır. Ə.Tahirov həm də Tiflis və Peterburqdan qəzet və jurnallar gətirdərək məktəbdə kitabxana yaratmışdır.

Ə.Tahirovun ən böyük xidmətlərindən biri onun öz şagirdləri üçün dərslik tərtib etməsidir. O, 1887-ci ildə ana dilində bir dərslik yazmışdır. Həmin dərsliyin əlyazması hazırda Respublika Əlyazmaları Fondunda saxlanılır.

Qarğabazar məktəbinin o zamankı müəllimlərindən biri Musa Babakişi oğlu Quliyev (1869–1922), digəri isə Səlim Əbdürrəhman oğlu Əfəndiyev (1881–1946) olmuşdur.

Qori seminariyasının mə'zunlarından olan hər iki müəllimin Qarğabazar məktəbinin inkişafında xeyli zəhməti və unudulmaz xidmətləri olmuşdur.

Qarğabazar məktəbində əvvəllər yalnız oğlanlar oxuyurdu. Məktəbin müvəffəqiyyəti sonralar qızların da məktəbə cəlb edilməsinə əlverişli şərait yaratdı. Əsrin sonlarında (1895) burada 17 nəfər qız oxuyurdu. Bu, o zamankı şəraitdə böyük hadisə idi. Qızların təhsil müvəffəqiyyəti, müəllimlərin sə'yi onunla nəticələndi ki, kəndin qabaqcıl adamlarının (ilk növbədə Əsgər Eyvazovun, Əşrəf Ağayevin və başqalarının) təşəbbüsü ilə 1911-ci ildə Qarğabazarda həm də ayrıca qız məktəbi təşkil edildi. Qız məktəbinin ilk müəllimi və müdiri görkəmli pedaqoq və maarifçi Rəşidbəy Əfəndiyevin qızı Maral xanım (1889–1967) olmuşdur. Buraya təkcə Qarğabazardan deyil, həm də ətraf kəndlərdən oxumağa gəlirdilər. Maral xanım qız məktəbinin, həyat yoldaşı Əhməd Nəbiyev isə oğlan məktəbinin tərəq-qisində unudulmaz işlər görmüşlər.

Maral xanımın qızlara öyrətdiyi tikiş işlərinin nümunələri bu günə qədər qədirbilən Qarğabazar kənd camaatı tərəfindən mühafizə edilərək evlərdə saxlanılır. Qarğabazar kəndində yaşayan Zərif Səfərova Maral xanımın xeyirxahlığını xoş təəssüratla xatırlayır.

Hər bir təhsil ocağı özünün müəllimləri ilə yanaşı, həm də mə'zunları ilə fəxr edir.

Bu cəhətdən də Qarğabazar məktəbinin fəxr etməyə böyük haqqı var. Əgər desək ki, Qarğabazar məktəbi mətin inqilabçılar nəsli yetişdirmişdir, səhv etmərik.

Qarğabazar məktəbinin öz yetirmələrindən olan, yazıb oxumağı burada öyrənmiş görkəmli elm, mədəniyyət və incisənət xadimləri ilə də öyünməyə haqqı var. İlk təhsilini burada alanlar arasında Azerbaycan səhiyyəsinin yaradıcılarından və gigiyena sahəsində qocaman professorlardan biri, Əmək qəhrəmanı, Azərbaycan SSR-in

Əməkdar elm xadimi, professor Ə.Q.Əlibəyov (1878–1964), əsl xalq müəlliminin gözəl sifətlərini özündə cəmləşdirən Əsgər Eyvazov da fəxri yer tuturlar.

Sovet hakimiyyətinin lap ilk illərindən başlayaraq bu günə qədər digər kənd və şəhər məktəbləri kimi, Qarğabazar məktəbi də dövlətin qayğısı sayəsində ildən-ilə inkişaf etmiş, məktəbin maddi bazası möhkəmləndirilmiş, şagird kontingenti daim artmış, ən başlıcası isə budur ki, təhsil yeni məzmun kəsb etmişdir. Vaxtilə xüsusi evdə bünövrəsi qoyulan yubilyar məktəb bu gün çoxmərtəbəli, müasir tipli, zəngin tədris bazası olan yaraşıqlı binada fəaliyyət göstərir.

Əsrimizin 30-cu illərində yeddiillik məktəbə çevrilən Qarğabazar məktəbinin tərəqqisində müəllimlərdən Qara və Qəmər Məhərrəmovları, Cabbar Həşimovu, İbaqulu və Bəhram Ağayevləri kənd camatı bu gün də xüsusi minnətdarlıq hissi ilə xatırlayırlar.

Qarğabazar məktəbi Böyük Vətən müharibəsi illərində Vətənin müdafiəsinə qalxan 306 nəfər igid qarğabazarlı döyüşçüsü ilə, müharibə illərində ön cəbhəyə göstərdiyi gündəlik köməklə, arxa cəbhədə, kolxoz təsərrüfatında müəllimlərin və şagirdlərin fədakar əməyi ilə, şagirdlərə aşılanan yüksək vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsinin gözəl nəticələri ilə haqlı olaraq fəxr edir.

Müharibədən sonra, 1946–1947-ci dərs ilindən orta məktəbə çevrilən Qarğabazar məktəbində həm də ətraf kəndlərdən olan gənclər təhsil alırlar.

Qarğabazar məktəbi sür'ətli addımlarla inkişaf etmişdir. 1981–1982-ci dərs ilində burada təhsil alanların ümumi sayı 870 nəfər olmuşdur.

Məktəbin mə'zunlarından akademik İbrahim İbrahimov, tibb elminin bir çox sirlərinə yiyələnmiş Q.Ş.Qarayev, tibb elmləri namizədləri Nuşrəvan Məmmədov ilə Rəşid Səfərov, geologiya-minerologiya elmləri namizədi Aydın Məmmədov, kənd təsərrüfatı elmləri namizədi Təşkilat Əfəndiyev, psixoloq Nabat Şükürova, respublikanın əməkdar arxitektoru S.Sərdarov, respublikanın əməkdar artisti İslam Rzayev, rayonun xalq təsərrüfatının müxtəlif sahələrində, kolxoz tarlalarında əmək meydançalarında çalışan yüzlərlə zəhmət adamı, əmək bahadırları, onların hər birinin keçdiyi həyat yolunun bioqrafiyasının ilk başlanğıcı yubilyar məktəblə bağlı olmuşdur.

Yubilyar məktəb öz mə'zunları ilə fəxr etdiyi kimi, mə'zunlar da öz növbəsində doğma məktəbi ilə öyünmüş, onun şərəfini daim uca tutmuşlar. Məktəbin mə'zunlarından şe'rə marağı olan mərhum Səyyad Hüseynov birinci sinifdə ona yazıb-oxumağı öyrədən Bəyaz Qarayevaya həsr etdiyi şe'rində yazmışdır.

«Əziz müəllimim, mehriban qadın
Mənimçün əzizdir, hər zaman adın
Ana tək sən bizə cəfa çəkibsən,
Bunu unudarmı sənin Səyyadın»

Bu günkü Qarğabazar məktəbi (məktəbin direktoru Səadəddin Həmidovdur) tə'lim və tərbiyə işlərinin düzgün təşkili, şagirdlərin əməyə hazırlanması və peşəyə istiqamətləndirilməsi, hərbi-vətənpərvərlik tərbiyəsi, uşaq və gənclərin mə'nəvi-estetik tərbiyəsində əldə etdiyi yüksək nailiyyətlərə görə respublikamızın kənd məktəbləri arasında özünəməxsus yer tutur və fərqlənir. 40 nəfərdən ibarət sağlam kollektivi olan yubilyar məktəb texniki vasitələrlə təchiz edilmiş zəngin fənn kabinetlərinə, 220 nəfəri əhatə edən günüuzadılmış qruplara, idman zalına, geniş iclas salonuna, idman kompleksinə malikdir.

Qarğabazar məktəbi bu gün elmi-pedaqoji və metodik mərkəz kimi kənd əməkçilərinin diqqət mərkəzindədir. Məktəbin zəngin ən'ənəsi, qabaqcıl təcrübəsi var. Məktəbin və rayonun pedaqoji ictimaiyyəti, rayonun partiya və sovet orqanları, əlaqədar təşkilatlar yubiley təntənəsinə son hazırlıq işini görürlər...

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 7 dekabr 1983-cü il tarixli sayında çap olunmuşdur.

YÜZ YAŞLI VƏNDAM MƏKTƏBİ

Qutqaşen rayonundakı Vəndam kənd məktəbinin meydana gəlməsi XIX əsrin 60–70-ci illərinin ictimai-pedaqoji hərəkatı, əhalinin dünyəvi təhsil tələbi ilə bağlı olmuşdur. Çarizmin güzəştə getməyə məcbur olması nəticəsində tə'sis edilən müəllimlər seminariyasında hazırlanan ilk müəllimlər dəstəsi şəhərlərlə yanaşı, kənd yerlərində də bir və ikisinifli xalq məktəblərinin yaranması və get-gedə yayılmasına böyük kömək etdi[1].

1882-ci ildə Qutqaşen (Qəbələ – red.) kəndində məktəbin açılması vətəndaşları da sevindirdi. Vəndam kəndinin qabaqcıl fikirli adamlarının təşəbbüsü ilə 1883-cü il oktyabr ayının 30-da kəndlilərin topladığı ianə vasitəsilə birsinifli kənd məktəbi təşkil edildi. 1884-cü ildə isə 6 otaqlı məktəb binası istifadəyə verildi.

Vəndam kəndi Nuxa qəzasının tarixcə ən qədim, əhalisinə görə ən böyük kəndlərindən biri idi. Bu vaxt kənddə 9 məscid vardı. Məscidlərin hamısında mollaxana məktəbi fəaliyyət göstərirdi. Buna görə də kənddə məktəb açılması xəbərini eşidən yerli mollalar bu məsələyə o qədər də əhəmiyyət verməmişdilər. Bu səbəb həm də ondan irəli gəlirdi ki, Vəndam kəndində azərbaycanlılarla yanaşı müxtəlif millətlərin (ruslar, ermənilər, ləzgilər və s.) nümayəndələri də yaşayırdılar.

Vəndam kəndində təhsilin rus və Azərbaycan dillərində verildiyi xalq məktəbi yaradılarkən oraya 21 şagird cəlb olunmuşdu. Rus, ərəb və fars dillərini mükəmməl bilən Həsən Bağırov məktəbin müdiri tə'yin edildi. Məktəbin təntənəli açılışı kənddə mühüm hadisəyə çevrilmişdi. Açılışda qonşu kəndlərdən gələnlər arasında Qutqaşen məktəbinin müdiri Rəşidbəy Əfəndiyev də var idi.

Məktəb Rusiya Xalq Maarif Nazirliyi tərəfindən təsdiq edilmiş ümumi tədris proqramı ilə işləməyə başladı. Tədris planında Azərbaycan və rus dilləri, hesab, rus dilində oxu və yazı əsas yer tuturdu. Bu fənlər əsasən K.D.Uşinskinin «Vətən dili», «Uşaq aləmi», V.A.Yevtuşevskinin «Hesab məsələləri», D.P.Popovun «Məsələlər məcmuəsi», A.O.Çernyayevskinin «Vətən dili», Rəşidbəy

[1] Məqalə İsmayıl Eyyubovla birgə yazılmışdır.

Əfəndiyevin «Uşaq bağçası», sonralar isə M. Mahmudbəyovun «Türk əlifbası və ilk qiraət» və sair dərsliklər əsasında tədris edilirdi.

Vəndam kənd məktəbində bir müddət Ələsgər Axundov, Məhəmməd Əfəndiyev, Hüseyn Ömərov kimi kənd ziyalıları dərs demişdir. Məktəbin müdiri Həsən Bağırov şagirdlərə bu və ya digər zəruri peşələrin öyrədilməsinə ayrıca sə'y göstərirdi. Onun təşəbbüsü ilə burada ümumtəhsil fənlərindən başqa, kənd təsərrüfatına və yerli şəraitə uyğun olaraq bostançılıq, heyvandarlıq, xalçaçılıq və s. peşələr də öyrədilirdi. H.Bağırovun sə'yini görən kənd camaatı uşaqlarını məktəbə böyük həvəslə gətirirdilər. 1895-ci ildə şagirdlərin sayı 40 nəfərə çatdığı üçün Vəndam məktəbi ikisinifli oldu. Bu vaxt məktəbə qonşu Bunud Həzrə, Seyid Qışlaq, Məmmədağallı, Nohurqışlaq kəndlərindən də uşaqlar gəlməyə başladılar. Məktəbin pansionunda yer olmadığından uşaqlar qohumların evlərində qalırdılar. O vaxtlar məktəbdə oxuyan yalnız oğlan uşaqları idi.

Vəndam kənd məktəbinin müdiri H.Bağırovun 1895-ci ildə Yelizavetpol quberniyasına yazdığı hesabatında deyilir: «Kənddə molla məktəbləri çox olduğundan kəndlilər hələlik qızlarını rus məktəbinə verməк istəmirlər. Buna baxmayaraq hər bir valideyn qızının azərbaycanca oxumasını özünə borc bilir».

XIX əsrin sonlarında və əsrimizin əvvəllərində məktəbdə şagirdlərin sayı get-gedə artırdı. 1910-cu ildə məktəbin 48, 1918-ci ildə isə 53 şagirdi olmuşdur. 1920-ci ilə kimi Vəndam kənd məktəbi ikisinifli olaraq qalmışdır.

Müvəffəqiyyətli başlanğıcı olan Vəndam məktəbi ildən–ilə böyümüş, inkişaf etmişdir.

Sovet hakimiyyətinin elə ilk günlərindən başlayaraq yenidən qurulan Vəndam məktəbində şagirdlərin sayı artaraq 64 nəfərə çatmışdır.

Vəndam məktəbi 1920-ci ildən ibtidai məktəbə çevrildi və 1926-cı ilədək ibtidai məktəb kimi fəaliyyət göstərirdi. Sovet hakimiyyəti illərində məktəbin ilk müdirlərindən biri İbrahim Əfəndiyev olmuşdur. Ərəb, fars, rus dillərin bilən İbrahim Əfəndiyev, Cəbrayıl Əfəndiyev, İbrahimxəlil Rəsulov, Süleyman Alışov, Əli Rəhimli, ilk qadın müəllim Bikəxanım Əfəndiyeva, Fazil Əfəndiyev və b. burada dərs demişlər. İlk vaxtlar müəllim çatışmadığından kəndin mütərəqqi ziyalıları da məktəbdə dərs deməyə cəlb edilmişdir.

Vəndam kənd məktəbi 1926-cı ildə yeddiillik məktəbə çevrilmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, Vəndam məktəbində ilk təhsil alan şagirdlərin orta təhsillərini davam etdirməsi işində Qutqaşen orta məktəbinin böyük xidməti olmuşdur.

Vəndam kənd yeddiillik məktəbi öz fəaliyyətini 1938-ci ilə qədər davam etdirmişdir. 1939–1940-cı dərs ilində Vəndam məktəbi orta məktəbə çevrilmişdir. İlk buraxılışda 12, 1940–1941-ci dərs ilində isə 24 şagird məktəbi bitirmişdir. İlk iki buraxılış şagirdlərin demək olar ki, hamısı Böyük Vətən müharibəsində iştirak etmiş, onlardan 15 nəfərdən çoxu həlak olmuşdur.

Vəndam orta məktəbini 1940–1956-cı illərdə 109 şagird bitirmişdir. Bunlardan 70 nəfərə yaxını ali və orta ixtisas təhsili almışdı.

Son 20 ildə (1960–1980) Vəndam orta məktəbini 1.234 şagird bitirmişdir ki, bunlardan 473 nəfəri müxtəlif ixtisaslar üzrə ali və ya orta ixtisas təhsili almış, bə'ziləri isə orta və ali təhsil müəssisələrində oxuyurlar.

Müharibədən sonrakı dövrdə Vəndam məktəbində böyük və işgüzar pedaqoji kollektiv yaranmışdır. Saday Salahov, Seyid Əliyev, İbrahim Tahirov, Naibə Əfəndiyeva, Afər Nadirov, Xəsəməd Qəribov, Pakizə İsrafilova, Nina İbrahimova, Xarma Səlimova, Əmrah Azayev, Çinar Eyyubov, Ənvər Rəhimov, Azər Rəsulov, Firuzə Salehova, Xeyrəddin Eyyubov, Nadir İbrahimov və başqaları şagirdlərin ideya-siyasi tərbiyəsinə, onların bilikləri daha dərindən mənimsəməsi işlərinə ciddi fikir vermişlər. Bu illərdə məktəbə Seyid Əliyev, İbrahim Tahirov, Azər Rəsulov və başqaları müdirlik etmişlər. Seyid Əliyev uzun müddət Qutqaşen orta məktəbinin müdiri işləmişdir.

Bir fakta nəzər salaq. Məktəbin mə'zunlarından 20 nəfərə qədəri bu gün elmlər doktoru və ya elmlər namizədidir. Kimya elmləri doktoru, professor, Azərbaycan SSR EA-nın müxbir üzvü Məcid Mərdanov, Azərbaycanın hüdudlarından kənarda tanınmış tibb elmləri doktoru, professor Dursun Hüseynov, kimya elmləri namizədləri Yusif Hüseynov, Nəriman Kərimov, Nazim Hüseynov, Abdulsəid Əzizov, kənd təsərrüfatı elmləri namizədləri İmam Səfərov, Müdafiə Səfərov, Sabir Azayev, Cavid Babayev, texnika elmləri namizədi Abil Əliyev, Moskva şəhərində yaşayan tibb elmləri namizədi Yaşar

Hüseynov... Vəndam orta məktəbinin yetişdirməsi, görkəmli jurnalist Süleyman Xəlilov da məktəbin mə'zunu olmuşdur.

Vəndam məktəbinin mə'zunları rayon partiya və sovet orqanlarında, dövlət hüquq və milis orqalarında, xalq təsərrüfatının müxtəlif sahələrində müvəffəqiyyətlə çalışırlar. Kolxoz təsərrüfatında, zəhmət meydanlarında hünər göstərən yüzlərlə əmək bahadırı ilk təhsillərini bu məktəbdə almışdır. Bu gün respublikamızın ali məktəblərində işləyən müəllimlərdən 15 nəfərə qədəri Vəndam orta məktəbinin mə'zunudur. Vəndam orta məktəbi nəinki həmin kənd zəhmətkeşlərinin, eləcə də qonşu Bunud, Həzrə, Məmmədağallı, Seyidqışlaq kənd zəhmətkeşləri uşaqlarının təhsil almalarında da mühüm rol oynamışdır.

Vəndam kənd məktəbi son vaxtlar daha da böyümüş, burada tə'lim–tərbiyə işləri günün aktual məsələlərinə çevrilmişdir. Bu gün 8 minə yaxın əhalisi olan Vəndam kəndində məktəb şəbəkəsi genşlənmiş, şaxələnmişdir. İndi kənddə iki səkkizillik və bir orta məktəb fəaliyyət göstərir.

Vəndam orta məktəbində tə'lim-tərbiyə işləri günün tələbləri səviyyəsinə qaldırılmışdır. İndi (1984-cü il –red.) məktəbin 35-ə yaxın mə'zunu кечмиш ССР-нин ali məktəblərində, o cümlədən Moskva, Leninqrad, Dnepropetrovsk, Kuybışev, Ryazan, Odessa, Daşkənd və sair şəhərlərində təhsil alır. Vaxtilə qızlarının rus dilində təhsil almasını istəməyən kəndlilərin övladları indi təhsillərini nəinki respublikanın, eləcə də SSRİ-nin bir sıra məktəblərində rus dilində davam etdirirlər. Mə'sumə və Təranə Veysova bacıları Mendeleyev adına Moskva Kimya Texnologiya İnstitutunun tələbələridirlər.

1978-ci ildə məktəb ikimərtəbəli yeni binaya köçdükdən sonra burada fənn kabinetləri və laboratoriyalar, yardımçı otaqlar tikilmiş, məktəbə yeni inventarlar alınmışdır. O illərdə məktəbə 25 min manatlıqdan çox əyani və texniki vəsait alınmışdır.

Hazırda məktəbdə 20 fənn və sinif kabineti fəaliyyət göstərir. 1883-cü ildə fəaliyyətə başlayan yubilyar məktəbdə hazırda (1984 – red.) 80 müəllim çalışır ki, bunlardan da 38 nəfəri qadındır. Hər iki səkkizillik məktəbdə isə 70 müəllimi birləşdirən pedaqoji kollektiv dərs deyir.

Vəndam orta məktəbində tə'lim-tərbiyə işi müasir tələblər səviyyəsində olduğundan müəllimlərin qabaqcıl iş təcrübələri təqdir

olunur. Riyyaziyat müəllimi Haqverdi Mərdanovun, fizika müəllimi Rayis Səfərovun, tarix müəllimi, əmək və müharibə veteranı Çinar Eyyubovun, hərbi hazırlıq müəllimi İbad Paşayevin və başqalarının iş təcrübəsi diqqəti cəlb edir.

Məktəbdə fizika, kimya, riyaziyyat, ədəbiyyat, tarix, xarici dillər, rus dili, gənc təbiətçilər, gənc texniklər, rəssamlar və s. dərnəklər fəaliyyət göstərir, bülletenlər buraxılır, gecələr təşkil olunur, disputlar keçirilir. Məktəb zəngin ən'ənəyə malikdir. Burada tez-tez ali məktəb tələbələri, əmək və müharibə veteranları ilə keçirilən görüşlər şagirdlərin tə'lim tərbiyəsinə böyük kömək edir. Son zamanlar məktəbdə peşə seçmə guşələri təşkil olunmuşdur. Belə guşələrdən biri traktorçuluq peşəsinə həsr edilmişdir. Hər il orta hesabla 30–35 şagirdə traktorçu vəsiqəsi verilir. Hazırda onlardan bə'ziləri Miçurin adına kolxozda işləyirlər.

Vəndam kənd orta məktəbi uzun və şərəfli inkişaf yolu keçmişdir. Yubilyar məktəbin pedaqoji kollektivinə gənc nəslin tə'lim-tərbiyəsi işində yeni-yeni nailiyyətlər və uğurlar arzulayırıq.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 30 mart 1984-cü il tarixli sayında çap olunmuşdur.

QUBADLIDA 100 YAŞLI MƏKTƏB

Keçən əsrin 70-ci illərindən e'tibarən Azərbaycan kəndlərində az da olsa meydana gələn ilk kənd məktəblərinin müvəffəqiyyətli addımları, bu məktəblərin əhalinin hüsn-rəğbətini qazanması, digər tərəfdən istər İrəvan, istərsə Qori Müəllimlər Seminariyalarında təhsillərini başa vuran azərbaycanlı müəllimlərin meydana gəlməsi Qubadlı da təhsilin əsasən rus dilində olan ilk dünyəvi məktəbin təşkili ilə nəticələndi.

Beləliklə, 1882-ci il oktyabr ayının 12-də keçmiş Yelizavetpol quberniyası Zəngəzur qəzasının Qubadlı qəsəbəsində məktəb açıldı. Bu məktəb Zəngəzur qəzasının mərkəzi Gorusda, 1876-cı ildə açılmış RXMN-nin ikisinifli kənd normal məktəbindən sonra sayca ikinci kənd məktəbi idi. 1882-ci ildə qəzanın daha iki kəndində — Arsevan və Qarakilsə kəndlərində yaradıldı.

Qubadlı məktəbi 21 şagirdlə fəaliyyətə başladı.

Məktəb ilk zamanlar RXMN-nin birsinifli kənd məktəbi adlanırdı. Tədris planına görə burada Azərbaycan və rus dilləri, hüsnxət, hesab, rəsmxət və şəriət tədris edilirdi. Təhsil müddəti üç il idi.

Məktəbin ilk müəllimi və müdiri Qori Müəllimlər Seminariyasını bitirmiş Həşimbəy Nərimanbəyov olmuşdur. H.Nərimanbəyov Şuşada 4 sinifli şəhər məktəbinin III sinfini bitirdikdən sonra 17 yaşında ikən seminariyanın I kursuna qəbul olunmuş və oranı bitirdikdən sonra Qubadlı məktəbində müəllimlik etmiş, kənd əhalisi arasında dünyəvi təhsilin, rus dilinin, mütərəqqi rus mədəniyyətinn yayılmasında böyük xidmətlər göstərmişdir.

Qubadlı məktəbində fəaliyyət göstərənlərdən biri İrəvan Müəllimlər Seminariyasının mə'zunu Baxış Novruzbəyov olmuşdur. Keçən əsrin sonu və əsrimizin əvvəllərində burada işləmiş müəllimlər içərisində Mehdibəy Məlikaslanov, Rəhimbəy Novruzov və Qubadlı kənd sakini, Qubadlı məktəbinin tərəqqisində böyük zəhməti və xidməti olmuş Həsənbəy Sultanovu (1995–1917) ayrıca qeyd etmək yerinə düşərdi.

Bir sıra arxiv sənədlərində, dövri mətbuatda, xatirələrdə bu iste'dadlı pedaqoq haqqında çoxlu xoş sözlər yaşamaqdadır. Onun keçmiş şagirdlərindən xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı

Süleyman Rəhimovun xatirələrində Qubadlı məktəbinin müəllim və müdiri H.Sultanova aid maraqlı epizodlar vardır.

Yubilyar məktəbin tərəqqisinin bütöv bir dövrü kamil biliyə, nümunəvi davranış mədəniyyətinə, əməksevərlik qabiliyyətinə malik olan bu iste'dadlı pedaqoqun adı və fəaliyyətilə sıx bağlı olmuşdur.

Təsadüfi deyildir ki, Qubadlı məktəbi xalq arasında «Həsənbəyin məktəbi» adlandırılmışdır. Həsənbəy özünə- məxsus torpaq sahəsinin yarasını könüllü olaraq məktəbə vermiş, öz hesabına Gəncə və Tiflisdən meyvə ağacları gətirdib burada əkdirmişdir. «Həsənbəyin bağı» adlanan həmin bağ 70–80 ildir ki, yubilyar məktəbin tədris-təcrübə sahəsidir.

Qubadlı qızlarının dünyəvi təhsilə cəlb edilməsində, məktəbin maddi bazasının möhkəmləndirilməsində, təhsilin səmərə və keyfiyyətinin yüksəldilməsində, şagirdlərin tədris vəsaiti və ləvazimatı ilə tə'min olunmasında onun xidmətləri, həqiqətən, böyük olmuşdur və qədirbilən Qubadlı zəhmətkeşləri onun xatirəsini daim əziz saxlayırlar.

Gorus və Qubadlı məktəblərinin inkişafı ətraf kəndlərdə də tədricən dünyəvi təhsil verən yeni ibtidai məktəblərin açılmasına xeyli təkan verdi. 1901-ci ilin mə'lumatına görə Zəngəzur qəzasında artıq 12 ibtidai xalq məktəbi fəaliyyət göstərirdi. Qubadlı məktəbi bu vaxt artıq xeyli genişlənmiş, şagirdlərin sayı 21-dən 69-a çatmış və təhsil müddəti 5 il olan ikisinifli xalq məktəbinə çevrilmişdi. Burada əlavə olaraq tarix, coğrafiya və təbiətşünaslıq tədris edilirdi. Bu vaxt Gəncə quberniyasında fəaliyyət göstərən cəmi 126 kənd məktəblərindən biri olan Qubadlı məktəbi tə'lim və tərbiyə işinin daha yaxşı qurulduğu Azərbaycanın Salahlı, Göyçay, Ağdaş, Bərdə, Ağdam, Qutqaşen və Cəbrayıl məktəbləri ilə bir sırada dururdu. Bu məktəblər təhsil səviyyəsinə görə təkcə Azərbaycan və Zaqafqaziyada deyil, cəmi Qafqazdakı kənd məktəbləri içərisində fərqlənirdi. Bunun nəticəsi idi ki, XIX əsrin 90-cı illərində müəllimlərin sahə qurultaylarından biri məhz Zəngəzur qəzasında təşkil edilmişdi.

Yeri gəlmişkən qeyd etmək yerində düşərdi ki, Rusiyada müəllimlərin sahə (qəza) qurultaylarının ilk təşkilatçılarından biri V.İ.Leninin atası İ.N.Ulyanov olmuşdur və onun bu təcrübəsi Azərbaycana da nüfuz etmişdir. Bu qurultaylar bir növ elmi-pedaqoji və metodik bilikləri, qabaqcıl təcrübəni yayır, xalq müəllimlərinin elmi və pedaqoji biliyinin təkmilləşməsinə kömək edirdi.

Qubadlı yubilyar məktəbi təkcə Qubadlıda deyil, həmçinin Zəngilan, Cəbrayıl, indiki Ermənistanın Gorus, Qafan və Sisyan rayonlarının əhalisinin də maariflənməsi işində mühüm rol oynamışdır.

Xalq məktəbləri inqilaba qədərki Azərbaycan kəndlərində yerli əhali arasında elmi biliyi, rus dilini və mütərəqqi rus mədəniyyətini yayan yeganə tədris müəssisələri, işığı zəif olsa da, sönməyən, daim közərən, közərdikcə də şö'lələnib odlanan elm ocaqları idi. Təhsilin məzmunundakı səthiliyə baxmayaraq, xalq məktəbləri Azərbaycan xalqının ümumi-mədəni tərəqqisində, yeni-yeni ziyalılar dəstəsinin yetişməsində mühüm rol oynamışdır.

Yubilyar məktəbin böyük xidmətlərindən biri budur ki, istər inqilabdan əvvəl, istərsə də Sovet hakimiyyəti illərində bu məktəbin mə'zunları içərisindən bir sıra görkəmli şəxslər, yazıçı və alimlər, böyük ziyalılar dəstəsi yetişmişdi. Görkəmli dövlət xadimi Çingiz İldırım (1890–1937), Azərbaycan ədəbiyyatının «ağır artilleriyası», (Heydər Əliyev – red.) Azərbaycanın xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rəhimov (1900–1983) və başqaları məhz yubilyar məktəbin mə'zunları olmuşlar.

Respublikanın xalq yazıçısı Əli Vəliyevin ilk əmək fəaliyyəti bu məktəblə bağlı olmuşdur.

Yubilyar məktəb inqilab, elm və mədəniyyət tariximizə neçə-neçə mərd mübariz, məşhur elm və mədəniyyət xadimi, ləyaqətli partiya və sovet işçisi—«Zəngəzur qartalları» bəxş etmişdir. Onlardan bir neçəsi ilə oxucuları tanış etmək yerinə düşərdi.

Abbas Sultanov — Kiyev universitetinin tibb fakültəsinin tələbəsi, 1917-ci ildən partiya üzvü, 1921–1923-cü illərdə Qubadlı Qəza Firqə Komitəsinin məs'ul katibi, Xalq Maarif Komissarlığı baş ictimai tərbiyə idarəsinin müdiri, sonra Ali Siyasi Maarif İdarəsinin müdiri, 1930-cu ildə Qubadlı, 1931–1932-ci illərdə Qaradonlu Rayon Partiya komitələrinin birinci katibi, Gəncədə Zaqafqaziya Elmi Tədqiqat Pambıqçılıq İnstitutunun direktoru işləmişdir.

Qara İlyasov — 1917-ci ildən inqilabi fəaliyyət göstərmiş, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra müxtəlif məs'ul vəzifələrdə çalışmış, Kürdüstan Qəza İcraiyyə Komitəsinin sədri, nahiyyə icraiyyə komitəsinin sədri, Qubadlı Qəza Siyasi Büro İdarəsinin, qəza milli idarəsinin rəisi, qəza ərzaq komissiyasının sədri,

Kürdüstan Qəza Firqə Komitəsinin və qəza icraiyyə komitəsinin məs'ul işçisi kimi fəaliyyət göstərmişdir.

Cabbar İldırımzadə xalqının hörmət və məhəbbətini qazanmış, respublikanın əməkdar həkimi kimi tibb işçilərinin hazırlanmasında fövqəl'adə xidmət göstərmişdir.

Cahanbaxış Abdullayev — Kürdüstan Qəza Firqə Komitəsinin təbliğat-təşviqat şö'bəsinin müdiri, Azərbaycan SSR Xalq Maliyyə Komissarlığında məs'ul işçi, Böyük Vətən müharibəsi illərində SSRİ-nin İrandakı ticarət nümayəndəliyinin rəis müavini kimi vəzifələrdə çalışmışdır.

Yubilyar məktəbin mə'zunları içərisindən Qulu Əsədov, Həsi Abdullayev, Mehbalı Əmiraslanov, Rüstəm Qəhrəmanov, Xanlar Şirinov, Cəlal Bərgüşad, Salam Adıgözəlov, Həsənalı Qorçuyev, Məmməd Axundov, Hacıbaba Hacıyev, İman Məmmədov, Muradxan Cahangirov, Əli və Xasa Şahmuradovlar, Mədəd Allahverdiyev, Əliheydər Həşimov, Cəmil Cavadov, Əminə Məmmədova, Şamama Məmmədova, Mahirə Əliyeva və onlarca başqaları yetişmişdir.

Məktəb ölkənin ümumi-iqtisadi, ictimai və mədəni həyatı ilə əlaqədar gündən-günə inkişaf etmiş, ibtidai məktəbdən ümumi əmək və orta təhsil müəssisəsinə çevrilmişdir. Bu gün (1984-cü il– red.) burada 87 müəllim 565 nəfərin (o cümlədən 255 qız) tə'lim-tərbiyəsi ilə məşğul olur. Məktəbin mə'zunları xalq təsərrüfatının bütün sahələrində səmərəli işləmiş, Böyük Vətən müharibəsi cəbhələrində mərdlik və igidliklər göstərmişlər.

Əgər 100 il bundan əvvəl Qubadlıda cəmi bir ibtidai məktəb fəaliyyət göstərirdisə, 1983—1984-cü dərs ilində rayon ərazisində 60 ümumtəhsil, o cümlədən 15 ibtidai, 27 səkkizillik və 18 orta məktəb fəaliyyət göstərmişdir ki, burada 7.000 şagird təhsilə cəlb olunmuşdur. Şagirdlərin təxminən yarısını—3.525 nəfərini qızlar təşkil edir.

Bu gün məktəbin mə'zunları təkcə kənddə və rayonda deyil, xalq təsərrüfatının, elm və mədəniyyətin bir çox sahələrində ləyaqətlə çalışırlar.

Məqalə «Azərbaycan müəllimi» qəzetinin 21 sentyabr 1984-cü il tarixli sayında çap olunmuşdur.

AZƏRBAYCANDA ORTA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MEYDANA GƏLMƏSİ VƏ İNKİŞAFI TARİXİ

(1865—1900)

1. XIX əsrin Azərbaycan məktəbi tarixində özünəməxsus mövqeyi olan orta məktəblərin meydana gəlməsi və inkişafı bu vaxta qədər əsaslı tədqiq edilməmişdir. Rusiyada orta məktəb tarixinin tədqiqatçıları da demək olar ki, bu məsələyə toxunmamışlar.

2. Mövcud ədəbiyyatda orta məktəblərlə əlaqədar bu və ya digər təhriflərə yol verilmişdir.

3. Leninqrad, Tbilisi, Bakı və Yerevan şəhərlərindəki Mərkəzi Dövlət arxivlərində saxlanılan külli-miqdar sənədlər və dövri mətbuatın araşdırılması nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda orta təhsil müəssisələrinin təşkili ideyası keçən əsrin 40-cı illərinə təsadüf edir. Quberniya mərkəzi olan Şamaxı şəhərində təşkili təklif edilən gimnaziyanın tədris planına rus, Azərbaycan, erməni, fizika, coğrafiya, statistika, rəsm, rəsmxət və hüsnxət daxil idi. Lakin çar mə'murlarının subyektiv mülahizələri bu məktəbin tə'sisini dayandırdı.

4. 60-cı illərin islahatı və ictimai-pedaqoji hərəkatı Azərbaycanda dövlət tərəfindən orta məktəb açılmasına kömək etdi. 1865-ci ildə quberniya mərkəzi olan Bakıda ali 4 sinifli məktəb əsasında realnı progimnaziya təşkil edildi və 1869-cu ildə gimnaziyaya çevrildi. Bununla da Azərbaycanda ilk orta təhsil məktəbinin əsası qoyuldu.

5. Ölkənin iqtisadi və mədəni səviyyəsinin nisbətən artması ilə 1870-ci ildə Gəncədə klassik gimnaziya, 1881-ci ildə isə Şuşada realnı məktəb meydana gəldi. Əsrin sonlarında Bakıda ikinci orta məktəb, klassik gimnaziya təşkil edildi (1896).

6. Qızlar üçün orta təhsil müəssisəsi kimi XIX əsrdə yalnız bir gimnaziya var idi ki, o da Bakı şəhərində idi.

7. Orta məktəblərdə tə'lim rus dilində idi. Şagirdlərin çoxluğuna görə Bakı klassik gimnaziyası Rusiya imperiyasının ən böyük orta məktəbləri ilə bir sırada dururdu.

8. Orta məktəblərdə çalışan azərbaycanlı müəllimlər hər cür vəsaitlərdən istifadə edərək xalq arasında təhsilin yayılmasına çalışırdılar (H.Zərdabi və N.Nərimanov).

9. Çarizmin məqsədindən asılı olmayaraq orta məktəblərin meydana gəlməsi Azərbaycanda xalq maarifinin sonrakı inkişafına xeyli kömək etdi. Bu məktəbləri bitirmək nəticəsində azərbaycanlı gənclərin bir dəstəsi Rusiyadakı müxtəlif ali məktəblərə daxil olmuş və ali təhsil aldıqdan sonra xalq maarifi və mədəniyyətinin inkişafında unudulmaz xidmətlər göstərmişdilər.

«Sov. İKP-nin XXIV qurultayına və Azərbaycan Kommunist Partiyasının XXVIII qurultayına həsr olunmuş 1966–1970-ci illər elmi-tədqiqat işlərinin yekunlarına aid V.İ.Lenin adına APİ-nin professor-müəllim hey'əti və aspirantlarının elmi sessiyasının (10–13 fevral 1971-ci il) materialları»nda çap olunmuşdur (Bakı, APİ–1971, səh. 39–40)

V.İ.LENİN ADINA APİ-nin ÜMUMİ PEDAQOGİKA KAFEDRASI — ZAQAFQAZİYA, ORTA ASİYA RESPUBLİKALARI VƏ ŞİMALİ QAFQAZ ÜÇÜN ELMİ-PEDAQOJİ KADR HAZIRLIĞINDA MÜHÜM ELMİ MƏRKƏZDİR

Tələbələrin təhsili, elmi-tədqiqat və tədris-tədqiqat işi, elmi-pedaqoji kadr hazırlığı işində (ADPU-nun) pedaqogika kafedrası mühüm yer tutur. Pedaqogikanın nəzəriyyəsi və tarixi, həmçinin psixologiya ixtisası üzrə elmi-pedaqoji kadrlar hazırlığında, Azərbaycanda pedaqogika və psixologiya elmlərinin inkişafında həmin kafedranın özünəməxsus çəkisi və mövqeyi vardır.

1930-cu ildən müstəqil kafedra kimi fəaliyyət göstərən bu elmi-pedaqoji mərkəz özünün geniş və hərtərəfli fəaliyyəti ilə fərqlənmiş, zəngin təcrübə qazanmışdır. İlk vaxtlar B.B.Komarovskinin, Mikayıl Rəhimlinin, sonralar isə Azərbaycanın əməkdar elm xadimləri olan prof. Ə.Y.Seyidovla M.Ə.Muradxanovun, SSRİ PEA-nın akademiki prof. M.M.Mehdizadənin rəhbərlik etdiyi, Azərbaycan pedaqoq və psixoloqlarının ilk və böyük bir dəstəsinin fəaliyyət göstərdiyi ümumi pedaqogika kafedrası ildən-ilə inkişaf etmiş, respublika pedaqoji biliyinin mərkəzinə çevrilmişdir.

1950-ci ildən e'tibarən aspirantura yolu ilə elmi-pedaqoji kadr hazırlığına başlayan bu kafedra vasitəsilə keçən 30 il müddətinə 90 nəfərdən artıq pedaqoji elmlər namizədi, 6 nəfər elmlər doktoru hazırlanmışdır.

Bu işdə kafedraya uzun illər və səmərəli rəhbərlik edən mərhum professor, Azərbaycan pedaqoqlarının ağsaqqalı, Azərbaycan pedaqoji elminin pioneri olmuş Ə.Y.Seyidovun (1892–1977) xeyirxah xidmətini xüsusi qeyd etmək yerinə düşərdi.

Kafedra əvvəlki ən'ənələrinə sadiq qalaraq yüksək ixtisaslı elmi-pedaqoji kadrlar hazırlığını sonralar da müvəffəqiyyətlə davam etdirmiş, respublikada əsas və yeganə müdafiə kafedrasıdır.

Son vaxtlar kafedrada hazırlanan elmi-pedaqoji kadrların coğrafiyası da xeyli genşlənmişdir. 1971–1981-ci illərdə institutumuzun aspirant və dissertantları ilə yanaşı respublikanın bir sıra ali məktəb və elmi-tədqiqat idarələri, o cümlədən ETPEİ-nin, Respublika Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunun, M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı Pedaqoji İnstitutunun,

SSRİ-nin 50 illiyi adına Xarici Dillər Pedaqoji İnstitutunun, H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun bir sıra əməkdaşları ilə yanaşı T.Şevçenko adına Düşənbə Pedaqoji İnstitutundan R.E.Ustoyev, M.Qorki adına Suxumi Pedaqoji İnstitutundan K.X.Kilba, X.Abovyan adına Ermənistan Dövlət Pedaqoji İnstitutundan L.A.Manvelyan, Ə.Nəvai adına Səmərqənd Dövlət Universitetindən F.Bazarov, Nizami adına Səmərqənd Pedaqoji İnstitutundan A.Çoriyev, Qaraçay Çərkəz Muxtar Vilayətindən F.Qoqova, Türkmənistan Dövlət Universitetindən V.P.Bukreyeva, Mahaçkala Pedaqoji İnstitutundan B.A.Həmzətova və başqalarının namizədlik dissertasiyalarının müdafiəsi məhz bu kafedranın fəaliyyətinin nəticəsi olmuşdur. Təkcə 1975–1981-ci illərdə yüksək tələbkarlıq və elmi prinsipiallıqla müzakirə və müdafiə edilən 22 dissertasiyanın hamısının Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilməsi kafedrada yaranmış işgüzar və sağlam şəraitin nəticəsidir.

Respublikamız üçün elmlər namizədlərinin, xüsusilə də elmlər doktorlarının yetişməsində respublikanın pedaqoq alimləri ilə yanaşı, Moskva, Leninqrad, Tbilisi şəhərlərinin və ölkəmizin bir sıra qabaqcıl ali məktəblərində, elmi-tədqiqat müəssisələrində çalışan görkəmli alimlərin rolunu və xidmətini ayrıca qeyd etmək lazımdır.

Ümumi pedaqogika kafedrasında hazırlanan kadrlar bu gün Azərbaycanda pedaqogika elminin başında durur, ona istiqamət verirlər. Hal-hazırda Azərbaycan Dövlət Universitetində və respublikanın 7 pedaqoji institutundan 6-da pedaqogika kafedralarının müdirləri məhz V.İ.Lenin adına APİ-də hazırlanmış və burada müdafiə etmiş yoldaşlardır.

«V.İ.Lenin adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Dövlət Pedaqoji İnstitutunun 60 illiyinə həsr olunmuş elmi konfransın materialları»nda çap olunmuşdur. (Bakı, APİ, 1981, səh. 144–146).

AZƏRBAYCAN PEDAQOJİ TERMİNLƏR LÜĞƏTİ VƏ ONUN TƏRTİBİ PRİNSİPLƏRİ

Azərbaycan pedaqoji terminlər lüğəti pedaqogikanın nəzəriyyəsi və tarixi məsələləri, xalq təhsili və qabaqcıl pedaqoji təcrübə sahəsində zəruri olan sözləri əhatə edir. Pedaqoji terminlər lüğətinə təkcə milli pedaqoji sözlər deyil, həmçinin rus və digər sovet xalqlarının, eyni zamanda xarici ölkələrin pedaqoji istilahları da daxil edilir ki, bu da onu ensiklopedik bilik mənbəyi kimi daha da zənginləşdirir.

Azərbaycan pedaqoji terminlər lüğəti iki cilddən ibarət olub tərbiyəçilər, bütün tiplərdən olan orta ümumtəhsil, texniki-peşə, orta və ali pedaqoji məktəb müəllimləri, tələbələr, valideynlər, həmçinin tə'lim-tərbiyə ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

Lüğətin tərtibində məqsəd—gənc nəslin tə'limi, tərbiyəsi və təhsili sahəsində oxuculara geniş mə'lumat materialı vermək, müəllim və tərbiyəçilərin gündəlik təcrübi fəaliyyətinə kömək etməkdən ibarətdir.

Lüğətdə əsas yeri milli pedaqoji məfhumlar, nəzəri, elmi-pedaqoji və metodiki fikirləri və praktik fəaliyyətləri ilə fərqlənən şəxsiyyətlər haqda yığcam mə'lumat verilir. Dil, ədəbiyyat, fəlsəfə, əxlaq, tibb, psixologiya və b. sahələr ilə daha çox məşğul olan şəxsiyyətlərin pedaqoji fikirləri daha geniş şərh edilir, onların əsasən, pedaqoji məzmunu açılır.

Mövcud lüğətlərdə olduğu kimi, Azərbaycan pedaqoji terminlər lüğətində də sözlər əlifba sırası ilə düzülür, bə'zi sözlər qısaldılmış (ixtisar) şəkildə yazılır (məsələn, orta məktəb—o. m., pedaqoji institut—p. i., pedaqoji fikir—p.f. və s.).

«Azərbaycan terminologiyası problemləri» Elmi-praktik konfransın (25—26 noyabr 1988-ci il) materiallarında çap olunmuşdur (Bakı, APİ, 1988 səh. 305).

MƏŞHUR TƏHSİL OCAĞININ YUBİLEYİ ƏRƏFƏSİNDƏ

«Bizim müsahibə»

— Professor, Zaqafqaziya Müəllimlər Seminariyasının (ZMS) təşkili ərəfəsində Azərbaycanda maarif və məktəb təhsili nə vəziyyətdə idi?

— XIX əsrin əvvəllərinə kimi Azərbaycanda mövcud olan məktəb və mədrəsələrdə uşaqların tə'limi ilə ruhani təhsili alanlar məşğul olurdular. Təhsil ocaqlarında dünyəvi elmlərin öyrədilməsi üçün imkan və şərait yox idi. Azərbaycanın Rusiya tərəfindən işğalından sonra digər sahələrdə olduğu kimi, məktəb təhsilinə də mühüm tə'sir göstərdi. 30-cu illərdən e'tibarən dövlət tərəfindən qəza məktəbləri təşkil olundu. Burada Rusiyadan göndərilmiş fənn müəllimləri dərs deyirdilər. Azərbaycanlı müəllim kadrlarına ciddi ehtiyac var idi.

60-cı illərdən sonra Azərbaycanda dövlət məktəblərinin şəbəkəsi nisbətən genişlənməyə başladı. Belə ki, Salahlıda, Dağkəsəməndə, Gorusda, Cəbrayılda, Göyçayda, Altıağacda və Salyanda ilk kənd məktəbləri meydana gəldi. Azərbaycan kəndlərində dünyəvi təhsil verən məktəblər açılması o dövrdə ən mühüm mədəni hadisə idi. Bununla belə yerli müəllim kadrlarına olan ehtiyac problem kimi qarşıda dururdu.

— Professor, ZMS təşkil olunana qədər Zaqafqaziyada müəllim kadrları hazırlayan seminariyalar mövcud olmuşdurmu?

— Bəli, keçən əsrin 70-ci illərindən başlayaraq Qafqazda kənd məktəbləri üçün müəllim kadrları hazırlayan seminariyalar meydana gəlmişdi. İlk seminariya 1871-ci ildə Kubanda və 1876-cı ildə Qori şəhərində açılmışdır. Sonralar Qori Müəllimlər Seminariyası bütün Zaqafqaziyanı əhatə edəcəyi üçün o ZMS adlandırılmışdır. Həmin seminariyada Azərbaycan şö'bəsi isə 1879-cu ildə təşkil olunmuşdur.

— Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şö'bəsi barədə mə'lumat verməyinizi xahiş edirik.

— Seminariyanın Azərbaycan şö'bəsinə ilk dəfə 32 nəfər qəbul olunmuşdu. Bunlardan 24-ü A.O.Çernyayevski tərəfindən yerlərdən seçilərək də'vət olunmuş, qalanları isə öz arzusu ilə gəlmişdir.

Seminariyaya ilk qəbul olunanlar sırasına sonralar məşhur pedaqoq kimi tanınan S.Vəlibəyov, F.Köçərli, R.Əfəndiyev, M.Mahmudbəyov və başqaları daxil idi. Onu da qeyd edək ki, sonrakı mə'zunlar içərisində C.Məmmədquluzadə, N.Nərimanov, F.Ağazadə, S.Acalov, Y.Qasımov, Ə.Seyidov kimi təcrübəli pedaqoqlar və tarixi şəxsiyyətlər var idi. Azərbaycan ədəbiyyatının, xalq maarifinin, mədəniyyət və incəsənətin inkişafında həmin mə'zunların böyük əməyi olmuşdur.

Azərbaycan şö'bəsinin təşkilində A.O.Çernyayevskinin xidmətlərini xüsusilə qeyd etmək lazımdır. Onun şö'bənin nəzdində təşkil etdiyi ibtidai məktəbdə vaxtaşırı konfranslar keçirilirdi. Azərbaycan ibtidai məktəblərinin düzgün təşkilinin yeni yolları, tə'lim üsulları geniş müzakirə edilirdi. Çernyayevski özü buraxılış sinfi üçün savad tə'limi üsulu, məktəbşünaslıq və hüsnxətt üzrə xüsusi dərslər verir, şö'bənin təssərrüfat və hesabat işlərini aparır, səs üsulu ilə yeni dərslik tərtibi üzərində işləyirdi. Çernyayevskidən sonra Azərbaycan şö'bəsinə onun sabiq tələbələri F.Köçərli və R.Əfəndiyev rəhbərlik etmişlər. Onlar və həmin şö'bənin nəzdində olan ibtidai məktəbin Azərbaycan dili müəllimi S.Vəlibəyov öz müəllimlərinin yolunu şərəflə davam etdirmişlər.

— Hüseyn müəllim, ZMS-in təşkili Azərbaycanda maarifə və məktəb təhsilinin inkişafına necə tə'sir göstərmişdir?

— ZMS-in fəaliyyətə başlaması Azərbaycanda məktəb şəbəkəsinin genişlənməsinə mühüm tə'sir göstərib. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, XIX əsrin son 20 ili ərzində Azərbaycanın yalnız Bakı və Gəncə quberniyalarında 172 ibtidai məktəb fəaliyyət göstərirdi ki, burada da 11.400 şagird təhsil alırdı. Bunların böyük əksəriyyəti kənd yerlərindən idi. Şagird kontingenti arasında isə 2.473 nəfər qız var idi.

— Professor, ZMS-in Azərbaycan şö'bəsinin tarixi əhəmiyyəti və mə'zunların xidmətləri barədə nə deyə bilərsiniz?

—ZMS-in Azərbaycan şö'bəsini 250 nəfərə yaxın gənc bitirmişdir. Onlar öz fəaliyyətlərini təkcə pedaqoji işlə məhdudlaşdırmamış, inqilabdan əvvəlki Azərbaycanda elm və təhsil, maarif və mədəniyyət, ədəbiyyat və incisənətin bir çox sahələrini inkişaf etdirməyə nail olmuşlar. Ana dilində qəzet və jurnal nəşr etmək, xalq üçün kitabxana, qiraətxana açmaq, xeyriyyə cəmiyyəti düzəltmək, yeni proqram, dərslik və tədris vəsaiti hazırlamaq, milli

opera sənətinin əsasını qoymaq, qadın azadlığı və təhsili uğrunda çalışmaq, teatr tamaşaları, hazırlamaq, ədəbi-bədii əsərlər yazmaq və nəhayət, xalq kütləsinin gözünü açmaq, onları inqilabi ideyalarla silahlandırmaq və s. problemlərin həllində Qori Müəllimlər Seminariyası və onun mə'zunlarının misilsiz xidmətləri olmuşdur.

— Hüseyn Müəllim, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu məşhur təhsil ocağının yubileyinə neçə hazırlaşır?

—Yubiley tədbirlərimiz çoxdur. Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi yubiley münasibətilə institutumuzda elmi-nəzəri konfrans keçirməyi qərara almışdır. Burada yüz nəfər nümayəndə iştirak edəcəkdir. Təhsil ocağının yubileyi ərəfəsində maraqlı tədbirlər həyata keçirilir. Ümumi pedaqogika, ibtidai məktəb pedaqogikası və metodikası, psixologiya, o cümlədən Azərbaycan dili, ədəbiyyat və riyaziyyatın tədrisi metodikası kafedralarının gördükləri işlər daha rəngarəngdir.

İnstitutumuzda ZMS-in Azərbaycan şö'bəsi mə'zunlarının elmi-pedaqoji, ictimai və inqilabi fəaliyyətini əks etdirən foto-sərgilər və guşələr düzəldilmişdir. Azərbaycan, Gürcüstan və Dağıstanda yubiley münasibətilə elmi-praktik konfranslar keçiriləcək, mə'ruzə və müha-zirələr oxunacaqdır. Ə'laçı tələbələrimizdən bir qrupu Qori şəhərinə ekskursiyaya göndəriləcəkdir.

Bütün bunlarda məqsədimiz Zaqafqaziya Müəllimlər Semi-nariyasının Azərbaycan şö'bəsinin tarixi rolunu göstərmək, həmin şö'bəni bitirən mə'zunların məktəb, mədəniyyət, incəsənət sahəsindəki xidmətlərini əks etdirmək, onu bütün müəllim və tələbələrə, geniş icti-maiyyətə çatdırmaqdır.

— Müsahibə üçün çox sağ olun.

Məqalə ZMS-nın 100 illiyi münasibəti ilə prof. H.Əhmədovun «Azərbaycan müəllimi» qəzetinin əməkdaşı Vaqif Səmədova verdiyi bu müsahibə həmin qəzetin 17 oktyabr 1979-cu il tarixli sayında çap olunmuşdur.

AZƏRBAYCANDA ORTA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MEYDANA GƏLMƏSİ VƏ İNKİŞAF TARİXİNƏ DAİR

(XIX əsr)

§ 1. ŞAMAXIDA GİMNAZİYA AÇMAQ TƏŞƏBBÜSÜ

Azərbaycanda orta təhsil müəssisəsinin təşkili məsələsi XIX əsrin 40-cı illərinə təsadüf edir. 40-cı illərin islahatı zamanı Zaqafqaziyada xüsusi tədris dairəsi yaratmaq zəruriyyəti ilə əlaqədar olaraq Tiflis gimnaziyasından əlavə, ikinci bir gimnaziyanın olması lazım bilindi və bunu Xəzər vilayətinin mərkəzi olan Şamaxı şəhərində açmaq təklif edil di. Bu gimnaziyanı Şamaxı qəza məktəbi əsasında köhnə Şamaxıda tə'sis etmək və ilk əvvəl qəza məktəbinin binasında yerləşdirmək, həm də bu gimnaziyanı hələlik dörd sinifdən ibarət açmaq fikri irəli sürüldü. Gimnaziyanın açılmamış siniflərinə nəzərdə tutulan məbləği isə gimnaziya üçün bina tikməyə, xərcləmək, gələcəkdə ehtiyac olarsa Şamaxıda yenidən qəza məktəbi açmağa təklif edildi.

Şamaxı gimnaziyasında tədris ediləcək fənlər, təxminən Tiflis gimnaziyasındakı kimi olub, yalnız burada gürcü dili əvəzinə Azərbaycan, erməni, fars və ərəb dilləri və ədəbiyyatı öyrədilməli idi.

Tiflis gimnaziyasında olduğu kimi, Şamaxı gimnaziyasında da xüsusi hazırlıq siniflərinin olması lazım bilinirdi. Nücabalar pansionu 40 nəfərlik nəzərdə tutulurdu ki, bunlardan 20-si xristian, 20-si isə müsəlman uşaqları olmalı idi. Pansion nəzarətçisi xaricilərdən deyil, rus dilinin daha yaxşı öyrədilməsi üçün ruslardan tə'yin edilməli idi. Pansionda oxuyanlar, Tiflis pansionçuları kimi məktəbi bitirdikdən sonra Zaqafqaziya ölkəsinin tədris hissəsində ən azı 5 il işləməli idilər.

Şamaxı gimnaziyası tə'sisinin bir zəruriyyəti də qəza məktəblərində işləyəcək müəllimlərə olan ehtiyacı ödəmək idi. Layihəyə görə Şamaxı gimnaziyasının tə'sis edilməsində başlıca məqsəd:

a) ali məktəbə daxil olmağı nəzərdə tutmayan və ya ali məktəbə daxil olmağa imkanı olmayan gənclərə münasib təhsil vermək;

b) ali məktəbdə oxumağa qabil adamlar hazırlamaqdan ibarət idi.[1]

Tiflis gimnaziyasından fərqli olaraq Şamaxı gimnaziyasının ştatı – inspektordan, 5 baş və 6 kiçik müəllimdən, rəsm, rəsmxət və hüsnxət

[1] MDTA, f.733, s.82, iş № 64, v.164.

müəllimindən, pravoslav, erməni – Qriqoryan və Məhəmməd təriqəti üzrə olmaqla 3 şəriət müəllimindən ibarət təklif edilirdi. Məhəmməd təriqəti müəllimi, eyni zamanda pansion nəzdində nəzarətçi idi.

Birinci sinifdə tədris Lankaster üsulu ilə aparılmalı idi (§33).

Göstərilən dillərin hamısı bütün millətlərdən olan şagirdlər üçün məcburi deyildi. Hər şagirdin yalnız üç dil öyrənməsi məcburi idi. Azərbaycanlılar ana dilindən başqa, rus və ərəb dilini öyrənməli idilər. Qalan dillərin tədrisi isə gimnaziya şurasının seçib təsdiq etməsindən asılı idi.

Rus və ərəb dili müəllimləri, həmçinin tarix və riyaziyyat müəllimləri böyük müəllim hesab edilərək onlara xüsusi rütbə – gimnaziyanın professoru adı verilir, digər fənləri tədris edənlər isə müəllim hesab edilirdi (§35).

Gimnaziyada təhsilin pullu olması, kifayət dərəcədə varidatı olanlardan ilk 4 sinif üçün ildə hər bir şagirddən 4 man., yuxarı 3 sinifdə isə ildə 8 man. Alınması təklif edilirdi. Bu pulların yarısı fərqlənən müəllimlərə, dörddə biri xalq maarifi departamentinə verilməli, digər dörddə biri yoxsullardan olan ləyaqətli şagirdlərin tədris ləvazimatına sərf edilməli, qalanı isə gimnaziyanın ehtiyaclarına xərclənməli idi (§42).

Layihədə gimnaziyaya qəbul qaydası aşağıdakı kimi nəzərdə tutulurdu: birinci sinfə qəbul olunanlar oxumağı, yazmağı, hesabdan ilkin qaydaları bilməli, xüsusilə rus dilində danışmağı bacarmalı idilər. Şagirdlər müvafiq imtahan verməklə bir başa 2-ci, 3-cü və 4-cü sinfə daxil ola bilərdilər.

Qəza məktəbini bitirib, 3-cü və 4-cü sinfə daxil olmaq istəyənlər həmçinin inspektor və böyük müəllimin iştirakı ilə imtahan verməli idilər (§43).

Birinci sinfə 9 yaşdan, 2-ci sinfə 10 yaşdan, 3-cü sinfə 11, 4-cü sinfə 12 yaşdan aşağı olanlar qəbul olunmurdu (§4).

Layihəyə görə illik kursu bitirdikdən sonra bütün şagirdlər imtahan verməli idilər. İmtahanlar dərs ilinin sonunda deyil, təqvim ilinin sonunda, noyabrın 20-dən aparılırdı. İyulun 1-dən sentyabrın 1-nə qədər yay tə'tili verilirdi. Kursdan-kursa keçmə imtahanında fərqlənənlər qızıl və gümüş medallarla təltif edilir (rus çinovniklərinin uşaqlarına Azərbaycan dilindən müvəffəqiyyətinə, digər millətlərdən olanlara isə rus dilindən müvəffəqiyyətinə üstünlük vermək şərtilə) və pedaqoji şura üzvlərinin imzası və gimnaziyanın

möhürü vurulmuş kitab və ya tə'rifnamə verilirdi. Şagirdlərin sayından asılı olaraq hər sinfə 2 və ya 3 mükafat verilə bilərdi. Kitab mükafatına layiq görülən yoxsullardan olan şagirdlərə elə kitablar verilməli idi ki, bu kitab gələcəkdə ona lazım olsun (§46).

Gimnaziyanın tam kursunu müvəffəqiyyətlə bitirib müvafiq attestat alanlar mülki işlər üzrə qulluğun 14-cü dərəcəsinə aid edilirdilər.

Lakin bu layihə müzakirə edilərkən Şamaxıda orta tədris müəssisəsinin tə'sisi üçün hələ əlverişli şərait olmadığını bəhanə gətirən Baş İdarə Şurası göstərilən layihəni rədd etdi.

Rusiya XMN sisteminə daxil olan tədris müəssisələrinin ümumi tərkibinə görə hər bir quberniya mərkəzində bir orta məktəb-gimnaziya təşkil edilməli idi. Belə ki, quberniya əhalisinin maarifpərvər hissəsinin, əslində isə dövlət qulluqçularının əksəriyyətinin quberniya mərkəzində yerləşdiyindən və qəza mərkəzlərinə nisbətən quberniya mərkəzinin daha çox inkişaf etdiyindən hökumət quberniya mərkəzlərində daha yuxarı məktəb tipi açmağı qanunlaşdırmışdı. Bu nöqteyi-nəzərdən Şamaxı quberniyasının mərkəzi olan Şamaxı şəhəri (həmçinin İrəvan) Zaqafqaziyada müstəsnalıq təşkil edirdi. Yerli əhali də öz növbəsində qəza məktəbinə nisbətən daha yuxarı tipli məktəb tə'sis edilməsini tələb edirdi.[1] Hökumətin göstərilən qanununa və əhalinin tələbinə baxmayaraq, QTD-nin popeçiteli Semyonov 1852-ci ildə yazdığı raportlardan birində Şamaxı şəhərində (həmçinin İrəvanda) gimnaziya tə'sis etməyin hələ vaxtı çatmadığını bəhanə gətirərərk, əslində isə xəzinəyə maddi zərər vurmamağı əsas götürərək, imperiyanın qərb quberniya-larında olduğu kimi, bu yerlərdə də gimnaziyanı 5 sinifli quberniya məktəbi ilə əvəz etməyi daha faydalı hesab etdi. O, həm də qəza məktəbindən bir başa gimnaziyaya keçməkdənsə, 5 sinifli quberniya məktəbini daha əlverişli hesab edirdi.

Bütün bu mülahizələr onunla nəticələndi ki, 1853-cü il nizamnaməsi ilə Şamaxı qəza məktəbi 4 sinifli ali ibtidai məktəbə çevrildi.

Beləliklə, XIX əsrin birinci yarısında və ortalarında Azərbaycanda orta məktəb açmaq cəhdi baş tutmadı.

Azərbaycan ərazisində orta təhsil müəssisəsi (rus dilində) yalnız keçən əsrin 60-cı illərində meydana gəldi. Azərbaycanda orta təhsil

[1] Bax: SPMDTA, f.733, s.202, iş № 1047, v. 58.

müəssisələrinin meydana gəlməsi gimnaziya və progimnaziyaların 1864-cü il nizamnaməsi ilə əlaqədar idi. Bu nizamnamə mahiyyəti e'tibarı ilə əslində, 1861-ci ilin kəndli islahatının davamı idi. Mə'lum olduğu kimi, kəndli islahatının ardınca hökumət, məhkəmə, idarə, yerli özünüidarə və i.a. sahələrlə yanaşı orta məktəbdə də islahat apardı. Orta məktəb sahəsindəki hökumət islahatını qiymətləndirərkən, V.İ.Leninin kəndli islahatına verdiyi qiyməti xatırlamaq lazımdır. V.İ.Lenin "Kəndli islahatı və proletar kəndli inqilabı" adlı məqaləsində Rusiyada təhkimçilik hüququnun ləğvini qiymətləndirərək yazırdı:

"Kəndli islahatı" təhkimçilər tərəfindən keçirilən burjua islahatı idi. Bu Rusiyanı burjua monarxiyasına çevirmək yolunda atılan bir addım idi.[1] 60-cı illərin orta məktəb islahatı da V.İ.Leninin göstərdiyi bu istiqamətdə inkişaf etdirildi.

Gimnaziya və progimnaziyaların 1864-cü il nizamnaməsinə görə Rusiyada 7 illik təhsil kursu olan 2 gimnaziya növü müəyyən edildi:

1) iki variantda: a) iki qədim dilli və b) bir qədim dilli klassik gimnaziya;
2) qədim dillərsiz, lakin Qərbi Avropa dillərini xeyli artırmaqla realnı gimnaziya.

Nizamnaməyə əsasən gimnaziyanın məqsədi burada oxuyan gənclərə ümumi təhsil verməklə bərabər, onları universitetə və digər ali ixtisas məktəblərinə qəbul olmağa hazırlamaqdan ibarət idi (§1). Nizamnamənin dəqiq ifadəsinə görə gimnaziyaya "silkindən və dilindən asılı olmayaraq bütün ictimai vəziyyətlərə mənsub olan" oğlan uşaqları qəbul olunurdu (§53). Bununla belə birinci sinfə "rus dilində yazıb oxumağı bacaran, əsas dualarını və hesabdan toplama, çıxma və vurma cədvəlini bilən" 10 yaşından aşağı olmayan uşaqlar qəbul olunurdu (§55). Nizamnamənin 54-cü §-na görə uşaqları gimnaziyaya qoyarkən nəinki təkcə onların yaşına aid, həm də biliyinə aid şahadətnamə təqdim etmək tələb edilirdi.

Beləliklə, 1864-cü il nizamnaməsi gimnaziyaların ümumi təhsil verən orta məktəblər olduğu bildirdi. Orta məktəbin silkiliyi aradan qaldırıldı. Bütün silklərə məxsus müvafiq təxmini hazırlığa malik olan uşaqlar orta məktəbə o şərtlə qəbul oluna bilirdi ki, onun təhsil haqqı ödənilsin. Prof.N.A.Konstantinovun göstərdiyi kimi, "bu

[1] V.İ.Lenin. Əsərləri, 4-cü nəşri, 17-ci cild, s. 168.

Nikolay hakimiyyətinin silki-məhdudluq siyasətindən sonra əsaslı dəyişiklik idi".[1]

1864-cü il nizamnaməsi üzrə təsdiq edilmiş klassik gimnaziyanın tədris planında latın və yunan dillərinin tədrisinə xüsusi üstünlük verilirdi. İki qədim dilli klassik gimnaziyanın tədris planında latın dilinə həftədə 34 dərs (və ya 42,5 saat), yunan dilinə isə 24 dərs (və ya 30 saat) ayrılmışdı ki, bu da əvvəlki nizamnamələrə nisbətən həddindən artıq çox idi.

Gimnaziyalarda klassizmin gücləndirilməsi bir çox çətinliklərə səbəb oldu. Birinci sinifdən başlayaraq tədris edilən latın və yunan, həmçinin fransız və digər tərəfdən alman dillərini uşaq dərk edə bilmirdi. Ona görə də bir tərəfdən bu dillərin tədrisi həqiqətə uyğun olmadığından, isə o biri fənlərin də səthi keçilməsinə, şagirdlərin həddindən artıq yüklənməsinə və valideynlərin narazılığına səbəb olurdu. Şagirdlərin gündəlik dərs yükü 5 saatdan 6 saat 15 dəqiqəyə qədər çatırdı ki, bu da şagirdlərin gücünə və yaşına müvafiq deyildi.

Bütün bunlar onunla nəticələndi ki, 1865-ci il sentyabrın 25-də nazirlik dərs saatlarının ümumi miqdarını nisbətən azaltmağa, gimnaziyalarda sinif məşğələlərinin yeni bölgüsünü təsdiq etməyə məcbur oldu.

Gündəlik 5 saatlıq dərs, yarım saatlıq "böyük" tənəffüs, hər dərsdən sonra mümkün qədər havada olmaqla şagirdlərin istirahəti üçün 15 dəqiqəlik tənəffüs müəyyən edildi.

1864-cü il nizamnaməsi valideynə belə bir imkan verirdi ki, o, uşağını klassik və ya realnı gimnaziyaya qoymaqla onun gələcək "mövqeyini" hələ kiçik yaşlardan nəzərdə tutsun. Lakin bu "xoşbəxtlik" müəyyən mə'nada ancaq zahiri xarakter daşıyırdı. Bu islahat da əslində kompromisli, iki tərəfli idi.

V.İ.Lenin yuxarıda göstərilən məqaləsində həmin islahatda təhkimçilik xüsusiyyətlərinin çox qüvvətli olması səbəbini izah edərək göstərirdi ki, bu islahat mənafeləri dəyişiklik tələb edən ictimai ünsürlərin çox zəif, şüursuz və dağınıq olması üzündən ancaq islahat olaraq qaldı.[2]

Leninin bu fikirləri orta məktəbin 1864-cü il islahatının qiymətləndirilməsinə də aid edilməlidir.

Hökumət ümumtəhsil verən orta məktəblərdə realnı təhsili klassik təhsil ilə bərabərləşdirməyə aid mütərəqqi tələbləri müəyyən

[1] Bax: Н.А.Константинов. Очерки по истории средней школы, М., 1947, с. 8.
[2] V.İ. Lenin. Əsərləri, 4-cü nəşri, 17-ci cild, s. 102.

dərəcədə nəzərə aldı. Lakin bununla belə bir tərəfdən həm nizamnamədə, həm də təcrübədə ümumtəhsil məktəblərinin spesifik vəzifələri, onların şagirdləri ali təhsil müəssisələrinə hazırlayan məktəblər olması qeyd edilir, digər tərəfdən də, klassik və realnı təhsilin bərabərliyi bu iki tip tədris müəssisələrinin yalnız adlarındakı eyniyyətdən başqa bir şey deyildi. Belə ki, bu iki müxtəlif tipli gimnaziyanı bitirənlərə heç də eyni hüquq verilmirdi. Nizamnamənin sonundaca gizlənmiş 122-ci §-da deyilirdi ki, klassik gimnaziyanı bitirən və ya həmin gimnaziyanın tam kursunu bilməyə aid şəhadətnaməsi olan şagirdlər universitetlərdə tələbəliyə qəbul oluna bilər. Realnı gimnaziyanın tam kursunu bitirmək və ya bu kursu bilməyə aid şahadətnamə isə ancaq ali ixtisas məktəblərinə daxil olarkən həmin məktəblərin nizamnaməsi əsasında nəzərə alınırdı. Başqa sözlə desək, klassik gimnaziyanı bitirənlər universitetlərə və digər ali təhsil müəssisələrinə tam hüquqla daxil ola bildikləri halda, realnı gimnaziyanı bitirməyə aid şəhadətnamə isə ali ixtisas məktəblərinə qəbul olunmağa heç bir xüsusi hüquq verilmir, yalnız "nəzərə alınırdı".

Bununla belə mütərəqqi ictimai dairələri narahat edən məsələlərin belə yarımçıq həlli bir tərəfdən bu problemin geniş müzakirəsinə səbəb oldusa, digər tərəfdən də, ümumiyyətlə, 60-cı illərin orta məktəb həyatının xeyli canlanması ilə nəticələndi.

Bu illərin pedaqoji mətbuatının mə'lum mütərəqqi rolu, gimnaziyaların ayrı-ayrı fənn müəllimlərinin, direktor və inspektorların qurultayları, bütün bunlar Rusiyada xalq maarifi tarixində demək olar ki, bu vaxta qədər görünməmiş işlər idi.

"Nazirliyin 1862-i 1864-cü illərdəki fəaliyyətinin xülasələri"ndə[1] və o dövrün digər hesabat sənədlərində Rusiya Xalq Maarif Nazirliyi boynuna almağa və ona məxsus olmayan qeyri-adi bir dillə ifadə etməyə məcbur olmuşdur ki, o dövrdəki müəllimlər qurultaylarında "azad fikir mübadiləsi nəticəsində tə'limin üsulları, intizam, inzibati ölçü və məktəbşünaslığın, pedaqogika və didaktikanın bu və ya digər məsələlərinə aid müxtəlif baxışlar aydınlaşdırılır və düzgün nöqteyi-nəzər müəyyən edilirdi". Daha sonra göstərilirdi ki, "pedaqoji qurultaylar müəllimlərə faydalı olub, cavanlaşdırıcı tə'sir edirdi". Bu sonuncu fikir, tamamilə doğru izahatla nəticələnir: "Bizim məktəblərimizin xüsusiləşdirildiyi bir

[1] Bax: С.В.Рождественский. Исторический обзор деятельности Министерство Народного Просвещения (1802–1902), СПб, 1902, с. 431–432.

dövrdə ən sə'yli bir müəllimə belə əgər onun digər müəllimlərin fəaliyyəti və fikri ilə vaxtaşırı tanış olmasına, öz təcrübəsini yoldaşlarının təcrübəsi ilə yoxlanmasına imkan verilməzsə və əgər öz sənət yoldaşlarının azad fikirlər mübadiləsilə öz biliyini təzələməzsə, o, çox asanlıqla birtərəflik və köhnəpərəstlik bəlasına yuvarlana bilər".

Bu illərdə Rusiyanın bir sıra şəhərlərində keçirilən müəllimlər qurultaylarına toplanan müəllimlərin bir çoxunun, həmçinin 60-cı illərin müəllimlərinin xeyli hissəsinin pedaqoji görüşlərinə və əhval-ruhiyyələrinə görkəmli rus pedaqoqları olan Piraqovun və Uşinskinin əsərləri qüvvətli tə'sir etmişdi. Müəllimlərin qabaqcıl dəstəsinin xeyli hissəsi Pisarevin kəskin məqalələrini, Gertsenin çağırışlarını, Çernışevski və Dobrolyobovun inqilabi-demokratik əsərlərini böyük həvəslə oxuyurdu. İnkişaf etməkdə olan bütün bu ictimai hərəkatın tə'siri nəticəsində orta məktəblərdə çalışan həqiqi müəllimlər rəsmi pedaqogikanın kazarma üslubunu atmağa, "öz pedaqoji əqidəsinə" yenidən baxmağa cəhd edirdi.

***

Gimnaziya və progimnaziyaların 1864-cü il nizamnaməsi və RXMN-nin digər sərəncamları Rusiyada olduğu kimi, Zaqafqaziyada, o cümlədən Azərbaycanda da, orta məktəb müəllimlərinin pedaqoji fəaliyyətinin canlanmasına səbəb oldu. Belə ki, Nazirliyin mə'lumatlarında yalnız tədris ediləcək tə'lim fənlərinin həcmi müəyyən edilmiş, fənnlər üzrə proqram isə təsdiq edilməmişdi. Proqram tərtibi, tə'lim üsulu və dərsliklər seçmək işində gimnaziyaların pedaqoji şuralarına xeyli muxtariyyət verilirdi.

Bütün bunlar yerlərdə və müəllimlər qurultaylarının çağırılması və burada proqram, dərslik, tə'lim üsulu və s. məsələlərin müzakirə və təsdiqi ilə nəticələndi. Belə qurultaylardan biri (birincisi) 1866-cı ilin dekabrında Tiflisdə çağırıldı. Burada gimnaziya proqramları müzakirə edildi. Qurultay xüsusi komissiyanın tərtib etdiyi rus dili və ədəbiyyatı, tarix və təbiyyat proqramlarını qəbul etdi.

1867-ci il dekabrın sonlarından 1868-ci il yanvarın əvvəllərinə qədər davam edən 2-ci qurultayda isə fizika, fiziki coğrafiya və kosmoqrafiya, kimya və təbiyyat elmləri üzrə proqram qəbul edildi.

Beləliklə, 1864-cü il nizamnaməsinin tətbiqindən sonra gimnaziyalarda tə'lim-tərbiyə işləri canlandı, bir sıra gimnaziyalarda tə'limin keyfiyyəti yaxşılaşdı; hüquqlarının genişlənməsi ilə əlaqədar olaraq gimnaziyalar kollektiv pedaqoji mərkəzə çevrildi.

Bir tərəfdən 1864-cü il nizamnaməsinin qəbulu, digər tərəfdən isə əhalinin orta təhsilə cəhd etməsi Zaqafqaziyada orta məktəb şəbəkəsinin genişlənməsinə səbəb oldu.

Zaqafqaziya məktəblərinin baş inspektoru özünün 1864-cü ilə aid hesabatında Bakı şəhər əhalisinin orta təhsilə ciddi-cəhd etməsini ayrıca qeyd edir və Bakıda mövcud olan 4 sinifli ali ibtidai məktəbi gimnaziyaya çevirməyi təklif edirdi.[1]

Beləliklə, əhalinin orta təhsilə olan tələbi və 1864-cü il nizamnaməsinin tətbiqi ilə əlaqədar olaraq 1865-ci il sentyabrın 13-də Bakı dörd sinifli ali ibtidai məktəbi əsasında realnı progimnaziya təşkil edildi. Əvvəllər yalnız iki aşağı sinifdən ibarət olan Bakı progimnaziyası 1867-ci ildə realnı gimnaziyaya çevrildi. Beləliklə də, Bakı realnı gimnaziyasının tə'sisi ilə Azərbaycanda orta təhsilin (dövlət tərəfindən açılmış rus orta məktəbinin) əsası qoyuldu və tədricən gimnaziya sinifləri açıldı.[2] 1867-ci ildə Bakı realnı gimnaziyası hələlik 4 əsas və bir hazırlıq sinfinə malik idi. Tədris planına digər fənlərdən əlavə, beş dil o cümlədən rus, fransız, alman, Azərbaycan və erməni dilləri daxil idi.

1869-cu ildə Bakı realnı gimnaziyasının bütün siniflərinin təşkili başa çatdırıldı.

Bakı realnı gimnaziyası ilk illər tam müəllim hey'ətinə malik olmamasına baxmayaraq, tə'limin səviyyəsi ümumiyyətlə, qənaətbəxş idi. Zaqafqaziyanın digər gimnaziyalarında olduğu kimi, burada da ən başlıca çətinlik şagirdlərin rus dilində danışmaq bacarığının qeyri-qənaətbəxş olması idi. Ona görə də başlıca diqqət bu dilin öyrənilməsinə verilirdi. QTD-nin 1869-cu ildə yazdığı kimi "Aşağı siniflərdən başlayaraq tədricən bu vacib fənnin öyrədilməsi üçün tə'limin daha məqsədəuyğun üsulları" tətbiq edilirdi.[3]

Bakı realnı gimnaziyasında 2 xarici dil: fransız və alman dilləri tədris edilirdi. Fransız dilinin tədrisi daha müvəffəqiyyətli idi.

---

[1] Gürc. Resp. MDA, f. 416, s. 3, iş № 439, v. 24.

[2] Ход учебного дела на Кавказе с 1802 по 1880 г. Тифлис, 1880 г. с. 49. Башга бир сняддя ися Бакы реалны проэимназийасынын 1866-ъы илдя ачылдыьы эюстярилир. Бах: Цирк. По управ. Глав. Инс. Учебн. Заведении на Кавказ и Закавказье, Тифлис, 1867, № 5–6, с. 4.

[3] Bax: Üirkulər. KUO, 1870, № 4, Otçet popeçitelə KUO, za 1869 q. s. 41.

1868-ci ildə burada olmuş inspektordan biri hətta 4-cü sinfin bə'zi şagirdlərinin bir sıra uşaq povestlərini fransız dilində oxumağı bacardıqlarını xüsusilə qeyd etmişdi.[1] QTD-popeçitelinin fikrincə, bu müvəffəqiyyətə səbəb tə'limin üsəmərəli sullarından başqa, həm də onu tədris edən "müəllimlərin təbiətən rus olmaları" idi.[2] Qafqaz gimnaziyaları arasında kimyanın (müəllimi Novitski) tədrisi Bakı realnı gimnaziyasında daha müvəffəqiyyətli idi.[3]

Bakı realnı məktəbi nəzdində pansion var idi. Burada şagirdlərin bir hissəsi dövlət, bir hissəsi isə valideynlərin xərcinə yaşayırdı. 1869-cu ildə pansionda 50 nəfər şagird var idi. Bunlardan 20 nəfəri öz hesabına yaşayırdı. Məktəb direktorunun dediyinə görə 1869-cu ildə təhsil haqqının artırılmasına baxmayaraq, pansionun binası imkan versə idi, öz hesabına yaşayanların sayı daha çox olardı. Pansionda yaşayan 50 nəfər şagirdin 26-sı azərbaycanlı, 13-ü rus, 6-sı erməni, 1-i gürcü, 2-si alman, 2-si yəhudi idi.[4]

Bakı realnı gimnaziyasının pansionçularına gimnastika və nəğmə öyrətmək üçün dənizçi zabitlərindən biri (saat hesabı ilə) də'vət edilmişdi. Onun bu işlə yaxşı məşğul olduğuna aid qeydlər vardır.

Gimnaziyanın pansionuna dövlət təqaüdçüsü kimi daxil olmaq meyli get-gedə artırdı. Lakin tədris dairəsi bunu hər vasitə ilə məhdudlaşdırmağa çalışırdı. Tədris dairəsi elə tədbirlər tətbiq edirdi ki, yoxsullar öz uşaqlırana ali təhsil vermək arzusundan uzaqlaşsın, öz uşaqlarını bə'zi həyati-təcrübi məşğuliyyətə hazırlayan məktəblərə versinlər. Bu da nizamnamənin ümumi ruhundan irəli gəlirdi.

Belə tədbirlərdən biri təhsil haqqının artırılması idi. 1867-ci il nizamnaməsi üzrə gimnaziyalarda təhsil haqqı tətbiq edildi. Bununla əlaqədar olaraq qəbul işi xeyli məhdudlaşdırılırdı.

Bundan başqa dövlət xəzinəsinə daha az zərər vermək məqsədilə 1867-ci il nizamnaməsi üzrə seçilən fəxri nəzarətçi 10 nəfər pansionçunu öz hesabına saxlamalı idi.

1871-ci ildə Bakı realnı məktəbinin 6 nəfərdən ibarət ilk buraxılışı oldu. İlk buraxılış imtahanlarında şəxsən iştirak edən QTD-nin popeçiteli burada tə'lim-tərbiyə işlərinin təşkilindən çox razı qalmışdı. Bakı realnı məktəbində tə'lim işinin keyfiyyətinin yüksək

[1] Yenə orada, 1869, № 4, s. 25.
[2] Yenə orada, 1869, № 6, Отчет попечителя КУО за 1867, с. 45.
[3] Sirkulyar KUO, 1870, № 4, Отчет попечителя КУО за 1869 г. с.42.
[4] Yenə orada, 1869, № 4, s. 26

olmasının nəticəsi idi ki, ilk mə'zunların hamısı müvəffəqiyyətlə imtahan verərək, ali məktəblərə daxil olmuşdu. (İki nəfəri yol mühəndisliyi institutuna, iki nəfəri Dağ Mühəndisliyi İnstitutuna, bir nəfəri hərbi məktəbə, digəri isə Petrovski Torpaqşünaslıq və Meşə akademiyasına).[1]

Bakıdan sonra Azərbaycanda meydana gələn ikinci orta məktəb Gəncə klassik progimnaziyasıdır. Çarın 1867-ci il 9 dekabr tarixli "Qafqaz və Zaqafqaziya ölkəsinin idarə olunmasının dəyişdirilməsi haqqında" adlı fərmanı ilə əlaqədar olaraq Zaqafqaziyanın inzibati idarələri yenidən quruldu. 1868-ci ildə Bakı, Tiflis və qismən İrəvan quberniyaları hesabına Yelizavetpol quberniyası yaradıldı.[2] Bu quberniyanın mərkəzi Gəncə (Yelizavetpol) şəhəri idi.

Yelizavetpol quberniyasının təşkili ilə əlaqədar olaraq buraya 100-ə qədər rus çinovniklərinin ailəsi köçürüldü. Gəncədə isə orta məktəb olmadığından bunlar öz uşaqlarının təhsilində ciddi çətinliklə qarşılaşdılar. Burada mövcud olan yeganə qəza məktəbi öz mahiyyətinə görə yalnız ümumi ibtidai bilik verirdi. Bütün bunlar Gəncədə orta təhsil müəssisəsinin yaradılmasını tələb edirdi.

QTD-nin 1869-cu ilə aid hesabatında deyilirdi: "Yelizavetpol şəhərində yeni Yelizavetpol quberniyasının yaradılması ilə əlaqədar olaraq, orada sakin olan rusların xeyli olduğunu nəzərə alaraq, oradakı qəza məktəbini progimnaziyaya çevirmək zərurəti meydana gəldi".

Qafqaz canişini 1869-cu il dekabrın 16-da Qafqaz Komitəsinə müraciət edərək, Gəncə şəhərinin sakinlərinə, əslində isə rus çinovniklərinin uşaqlarına, heç olmazsa progimnaziya təhsili vermək məqsədilə Gəncədəki qəza məktəbinə qədim dillərdən birinin – latın dilinin tədrisini daxil etməklə progimnaziyaya çevirməyi xahiş etdi.[3]

Qafqaz canişini Gəncədə 1870-ci il iyilun 1-dən e'tibarən progimnaziya açmağa razılıq verdi.

RXMN "Hər quberniya şəhərində bir orta təhsil müəssisəsinin olmasını lazım bilərək" Qafqaz canişininin Gəncə qəza məktəbini progimnaziyaya çevirmək layihəsini bəyəndi və bu layihə 1870-ci il fevralın 2-də imperator tərəfindən təsdiq edildi.

[1] Bax: Sirkulyar... KUO, 1872, № 5–6, əlavə QTD popeçitelinin 1871-ci ilə aid hesabatı, s. 26.
[2] Bax: Azərbaycan tarixi, 2-ci hissə, Bakı, 1964, s. 162.
[3] MDTA, f. 1268, s. 14, iş 151, v. 1

Beləliklə, Gəncə qəza məktəbi 1870-ci il iyulun 1-dən klassik progimnaziyaya çevrildi.[1] Progimnaziyanın üç dərs ili müddətində (1870/71, 1871/72, 1872/73) tədricən tə'sisi nəzərdə tutulurdu. Progimnaziyada tədris müddəti 4 il idi. Progimnaziyanın birinci sinfinə qəbul olunanlardan ildə 10 man., hazırlıq sinfinin şagirdlərindən isə ildə 3 man. təhsil haqqı alınırdı. Mövcud qəza məktəbinin digər siniflərində oxuyan şagirdlər isə progimnaziyanın təşkili başa çatana qədər müvafiq kurslarda təhsilini davam etdirir və əvvəlki kimi təhsil haqqı verirdilər.[2]

Gəncə qəza məktəbinin ştat üzrə nəzarətçisi saray müşaviri Lastoçkin Gəncə progimnaziyasının ilk inspektoru olmuşdur.[3]

§ 2. 70-80-Cİ İLLƏRİN İRTİCA DÖVRÜNDƏ ÇARİZMİN ORTA MƏKTƏB SİYASƏTİ. ORTA MƏKTƏBLƏRİN YENİ NİZAMNAMƏLƏRİ

XIX əsrin 70-80-ci illərində təkcə Rusiyada deyil, həm də xarici ölkələrdə inqilabi əhval-ruhiyyənin yüksəlişindən qorxuya düşən çar II Aleksandr maarif və məktəb işini də nəzərdən qaçırmırı. 1866-cı il aprelin 14-də Karakozovun güllə ilə öldürülməsi və onun əvəzinə sinodun ober prokuroru qraf. A.A.Tolstoyun əvəzçilik üzrə maarif naziri tə'yin edilməsilə məktəb sahəsində irtica başlandı. K.D.Uşinskinin qeyd etdiyi kimi "Tolstoyun həyata keçirdiyi mürtəce tədbirlərin bütöv sistemi içərisində prof. N.A.Konstantinovun yazdığı kimi 1864-cü il nizamnaməsinin mütərəqqi cəhətlərini təmamilə rədd etmək xüsusi yer tutur və onun fəaliyyətində başlıca cəhət idi".[4]

Xalq maarifi sahəsində çarın mürtəce siyasətini həyata keçirən Tolstoyun ilk tədbirlərindən biri 1864-cü il nizamnaməsini dəyişmək oldu. Rus mürtəcələrinin və mürtəce Prussiya pedaqogikasının tə'sirilə işlənən yeni nizamnamə layihəsi hazır olana qədər Tolstoy, tə'xirəsalınmadan bə'zi

[1] Gürc. Roep. MDA, f.5, s.1, iş №1861, v. 8. Bə'zi mənbələrdə əsassız olaraq bu progimnaziya gimnaziya kimi qələmə verilir. (bax: Azərbaycan tarixi, 2-ci cild, Bakı, 1964, s. 355).
[2] Sirkulyar KUO, 1870, № 4, s. 12.
[3] Yenə orada, № 6, s. 1
[4] Bax: prof. N.A. Konstantinov. Oçerki po istorii sredney şkolı, m. 1947, s. 18

sərəncamlarla gimnaziyaların hüquqlarını məhdudlaşdırırdı. Pedaqoji şuraların "azadlığının" qarşısı alındı.

12 noyabr 1866-cı il sərəncamı ilə Nazirliyin bütün orta məktəblər üçün vahid proqram müəyyən etməyə hazırlaşması e'lan edildi; digər sərəncam ilə pedaqoji şuraların azad surətdə dərslik və tədris vəsaiti seçməsi məhdudlaşdırıldı. Bundan əlavə 21 sentyabr 1866-cı sərəncamı ilə Nazirlik "bilikləri qiymətləndirərkən görməməzliyə yol verməmək üçün" imtahanların daha ciddi aparılmasını tələb etdi. Bütün bu tədbirlər müəyyən dərəcədə pedaqoji şuraların təşəbbüsünü öldürür, imtahanların daha "ciddi" aparılması isə şagirdlərin həqiqi biliyini müəyyən etməkdən daha çox, onları "planlı" surətdə məktəbdən yayındırmaq və beləliklə də, xoşagəlməyən şəxslərin ali məktəblərə qəbul olunmasının qarşısını almaqdan ibarət idi.

Bütün bunlarla kifayətlənməyən Tolstoy çar II Aleksandrın tam bəyənməsi ilə orta məktəbdə silkiliyi bərpa etməyə girişdi. Yuxarıda deyildiyi kimi, 1864-cü il nizamnaməsi üzrə gimnaziya və progimnaziyada bütün silklərdən olan şagirdlərin pansionda bir yerdə qalmasına icazə verilirdi. Tolstoy bu vəziyyəti zərərli hesab etdi. Onun fikrincə, bütün silklərdən olanlarla birlikdə olmaq dvoryanlara yaraşmır, onlara aid sırf dvoryan pansionu tikmək vacibdir.

Gimnaziyaların nizamnaməsinin yeni layihəsinin hazırlanması 4 il çəkir. Bu vaxta qədər Tolstoyun düşünülmüş planı əsasında mürtəce mətbuatda, 1864-cü il nizamnaməsində mütərəqqi hər nə varsa, hamısını tapdalayan məqalələr dərc edildi. Yeni klassik gimnaziyaların proqramlarını tərtib etmək üçün də'vət olunmuş mürtəce professor P.M.Leontyev və onun dostu M.N.Katkov "Moskovski vedomosti" kimi mətbuatda bir sıra "gurultulu" məqalələrlə çıxış edərək 1864-cü il nizamnaməsini ləğv etməyi, ciddi klassik təhsil sistemi tətbiq etməyi tələb edirdilər. Katkovun fikrincə, "idrakın bütün sahələri üzrə elmlərin müstəqil tərəqqi etməsi üçün" təkcə klassik sistem əlverişlidir.

Onu da qeyd etmək lazımdır ki, yeni qanun hazırlığının məxfi getməsinə baxmayaraq, onun son dərəcə birtərəfli olmasına və digər mənfi keyfiyyətlərinə aid sədalar əhalinin müxtəlif dairələri içərisində yayıldı. Həm də belə səda ki, gimnaziyalarda klassizmin qət'i təsdiqinə və real gimnaziyaları sənət məktəbləri səviyyəsinə qədər endirməyə hazırlaşırlar. Bütün bunlar isə nəticəsiz qalmadı, hətta

təmamilə "e'tibarlı" qəzet olan "S.Peterburqskie vedemosti" çıxış edərək real təhsili müdafiəyə qalxdı.

Lakin bütün bunlara baxmayaraq məsələ əvvəlcədən elə hazırlanmış və həll edilmişdi ki, II Aleksandrın və mürtəce hakim dairələrin fikrincə, guya, pruss-alman pedaqogikası vasitəsilə təcrübədə sınaqdan çıxarılmış klassizm "bütün dərdlərin dərmanı" olub (panaseya- guya bütün xəstəlikləri sağaldan dərman) gəncləri inqilabi yoluxmadan xilas edir.

Tolstoy bu fikri birbaşa belə izah edirdi: "Qədim dillərin öyrənilməsi həm də ona görə vacibdir ki, bu dilləri bizim artan gəncliyimizi möhkəm əhatə edən materializmə, nihilizmə və ən zərərli olan lovğalığa qarşı mühüm vasitədir, zira, sonrakı elmi təhsilin əsası olan qədim dillər və tə'limin digər vasitələri məsələsi təkcə təhsilin ciddiliyi və səthiliyi məsələsi olmayıb, həm də əxlaqi və materialistik tə'limin, tərbiyənin və beləliklə də, bütün cəmiyyətin məsələsidir".[1]

Bütün bunlar onunla nəticələndi ki, hətta 1871-ci il mayın 15-də dövlət şurasında yeni nizamnamə layihəsi müzakirə olunarkən, üzvlərdən çoxunun Tolstoyun layihəsi əleyhinə səs verməsinə (48 üzvdən 29 əleyhinə, ancaq 19 nəfər lehinə idi) və beləliklə, Tolstoy təklifinin açıqcasına rədd edilməsinə baxmayaraq, həmin il iyunun 6-da çar II Aleksandr "19 nəfərin rə'yini icra etmək" sərəncamı verdi. 1871-ci il iyulun 30-da isə çar gimnaziya və progimnaziyaların yeni nizamnaməsini təsdiq etdi. Bu mürtəce nizamnamə (bə'zi dəyişikliklərlə) oktyabr inqilabına qədər davam etdi.

Real məktəblərin nizamnaməsinin təsdiqi isə xeyli tə'xirə salındı, layihəyə isə Almaniya təcrübəsindən əxz edilmiş bə'zi yeni mə'lumatlar əlavə edildi. Buna baxmayaraq, bu layihə yenə də dövlət şurası üzvlərinin əksəriyyətinin tənqidinə mə'ruz qaldı. Onlar real təhsilin klassik təhsil ilə bərabərhüquqlu olmasını, real məktəbin ümumi təhsil məktəbi olmasını, bu məktəbləri bitirənlərin ali məktəblərə qəbul olunmağa hüquqları olmasını tələb edirdilər. Beləliklə, real məktəblərin nizamnamə layihəsi 1872-ci il fevralın 17-də dövlət şurasının xüsusi iclasında müzakirə olunarkən, yenə də 6 nəfər layihənin lehinə, 9 nəfər isə əleyhinə səs verdi. Dövlət şurasının ümumi iclasında isə (3 aprel) 19 nəfər lehinə, 27 nəfər isə əleyhinə oldu. Çar yenə də azlığın fikri ilə razılaşdı və 1872-ci il mayın 15-də

[1] Sitat götürülmüşdür: prof. N.A. Konstantinov. Oçerki po istorii sredney şkolı, M.,1947, s. 20–21

real məktəblərin yeni nizamnaməsini təsdiq etdi. Beləliklə də, Tolstoy sisteminin tətbiqi başlandı. Tolstoy bu sistemlə orta məktəbdə klassizmin toxumunu səpirdi. Çarizm bu nizamnaməyə gəncləri müasir məsələlərdən ayıran, onları siyasi dərnəklərdə iştirak etməkdən, materializmdən uzaqlaşdırmaq vasitəsi kimi baxırdı.

1871-ci il nizamnaməsindən sonra bütün oğlan gimnaziyaları yenidən qurularaq klassik gimnaziyaya çevrildi. Klassik gimnaziyanın əsas məqsədi gənclərə ümumi təhsil verməklə, onları universitet və digər ali məktəblərə hazırlaşdırmaqdan ibarət idi. Beləliklə, klassik gimnaziyalar yeganə dövlət məktəbi idi ki, buranı bitirib imtahan nəticəsində kamal attestatı alanlar universitet və digər ali məktəblərə daxil ola bilərdilər; real məktəblər isə ikinci növ orta məktəb olub, ancaq "orta sənaye sinfi" təhsili sahəsindəki əsas tələbləri ödəməli idi.

Klassik gimnaziyada 7 sinif 8 illik təhsil müddət müəyyən edildi. Sonuncu sinifdə təhsil müddəti 2 il idi. Sonralar, yə'ni 1875-ci ildən isə UP sinif 2 yerə-VII və VIII siniflərinə bölündü. 7-ci sinifdə fərqlənən şagirdlər, müstəsna hal kimi birinci tədris ilinin sonunda buraxılış imtahanlarını verib, gimnaziyanı bitirə bilərdi. Klassik progimnaziya isə 4 sinifdən ibarət idi. Bu, gimnaziyanın ilk 4 sinfinə bərabər idi. İstər gimnaziya, istərsə də progimnaziya nəzdində hazırlıq sinfi mövcud idi.

Gimnaziyada aşağıdakı fənlər tədris edilirdi: İlahiyyat, rus dili, məntiqin müxtəsər əsasları, latın və yunan dilləri, riyaziyyat, müxtəsər təbiətşünaslıqla riyazi coğrafiya və fizika, tarix, alman və fransız dilləri, hüsnxət[1].

Gimnaziyaların tədris planında əsas yeri qədim dillər tuturdu. İki qədim dildən (latın və yunan) başqa, iki yeni dilin (alman və fransız) tədris edildiyi gimnaziyalarda tədris planının 37,8%-ni qədim dillər təşkil etdiyi halda, riyaziyyat, fizika, riyazi coğrafiya və təbiətşünaslıq hamısı birlikdə yalnız 16,4% təşkil edirdi. Qədim dillərdən başqa, yalnız bir yeni dil tədris edilən gimnaziyalarda isə tədris planının 41,2% qədim dillərə, o birilərinə isə ancaq 18% ayrılmışdı. Rus ədəbiyyatı, tarix, təbiətşünaslıq kimi fənlər xeyli sıxışdırılmış, riyaziyyat isə ancaq, "əqil üçün gimnastika kimi" daxil edilmişdi.

Arzu edənlər əlavə təhsil haqqı verməklə rəsm və rəsmxət də öyrənə bilərdilər. Bədən tərbiyəsi ilə nəğmə keçilməsi isə pulsuz idi.

[1] Üirkulər, KUO, 1874, № 1. Prilojenie, s. 4.

Valideynlərin arzusu və xüsusi təhsil haqqı vermələri ilə şagirdlər musiqi və oyun da öyrənə bilərdilər.

Mövcud nizamnaməyə görə klassik gimnaziyaya rütbəsindən və dinindən asılı olmayaraq bütün varlıların uşaqları daxil ola bilərdi. Qraf Tolstoy klassik gimnaziyaya daxil olanların biliyinin məhdud olduğunu bəhanə edərək qəbul olunanlara tələbi hər vasitə ilə artırmaq tələb edirdi. Bu isə bir çox valideynlərin öz uşaqlarını klassik gimnaziyaya qoymasını bir daha çətinləşdirirdi. Bununla belə şagirdlərin "təxmini hazırlığının düzgün təşkili" məqsədilə 1871-ci ilin payızından gimnaziya və progimnaziyanın bir çoxunda hazırlıq sinifləri açıldı. Hazırlıq sinfinə rus dilində oxuyub yazmağı və 1000-ə qədər saymağı, bu dairədə toplama və çıxmağı bacaran 8-10 yaşlı uşaqlar qəbul olunurdu.

1867-ci ilin nizamnaməsinə əsasən Zaqafqaziyada yerli şəraiti nəzərə alaraq şagirdlər hazırlıq sinfinə 8 əvəzinə 7 yaşdan qəbul olunur, yerli xalqlardan olanların rus dilində oxuduğunu nəzərə alaraq bir sinifdə 2 il deyil, 3 il qalmasına, gimnaziyanın I sinfinə 14, II sinfinə 15, III sinfinə 16 yaşa qədər olanların qəbul edilməsinə icazə verilirdi. Həmçinin pansionda qalan dövlət təqaüdçülərinə hazırlıq sinfinə 12 yaşdan, I sinfə 13, II sinfə 14 və III sinfə 15 yaşdan yuxarı olanlar götürülürdü.

Onu da qeyd edək ki, 1871-ci il nizamnaməsində nəzərdə tutulan yaş dərəcəsinin qəflətən tətbiqi şagird kontingentinin xeyli azalmasına səbəb ola bilərdi. Həm də yerli valideynlər son yaş həddini gözləməyi adət etdiklərindən 1871-ci il nizamnaməsinin tətbiqində (yaş məsələsində) bə'zi müstəsnalıca yol verilməli oldu və 1871-ci il nizamnaməsində nəzərdə tutulan yaş dərəcələri tədricən tətbiq edildi.[1]

Gimnaziya və progimnaziya şagirdləri xüsusi forma geyinirdilər. Təhsil haqqı pedaqoji şura tərəfindən müəyyən edilir, RXMN tərəfindən isə təsdiq edilirdi.

Pedaqoji şuranın qərarına görə yoxsullardan olanlar təhsil haqqından azad ola bilərdi. Bu şərtlə ki, onlar şagirdlərin ümumi sayının 10%-dən çox olmasın. Maarif Nazirliyi tabeliyindəki məktəblərdə işləyənlər, həmçinin əvvəllər 10 ildən çox bu sistemdə işləyənlərin uşaqları təhsil haqqından azad idi. Öz davranışları və müvəffəqiyyətləri ilə fərqlənən yoxsul uşaqlarına bir dəfəlik maddi

[1] Üirkulər KUO, 1874, № 5–6, s. 96–98.

yardım və ya illik təqaüd verilə bilərdi. Lakin bütün bunlar zahiri görünüş üçün idi. Yoxsul uşaqlırı gimnaziyaya yaxın düşə bilmirdilər.

Gimnaziyanı bitirənlərə attestat, progimnaziyanı bitirənlərə isə şəhadətnamə verilirdi. Fərqlənənlərə qızıl və ya gümüş medal verilirdi. 1874-cü ildə Gimnaziya və progimnaziyaların tədris planında bə'zi cüz'i dəyişiklik edildi. Rus dilinin tədrisi artırıldı.[1]

1875-ci il mayın 13-də gimnaziya və progimnaziyaların nizamnaməsində dəyişiklik edilərək 7 sinifli əvəzinə gimnaziyaların 8 sinifli olması təsdiq edildi.[2] Bununla əlaqədar olaraq 1879-cu ildən Zaqafqaziya gimnaziya və progimnaziyalarında yeni tədris planı tətbiq edildi. Əvvəlkindən fərqli olaraq yeni tədris planında xarici dillərin tədrisi gücləndirildi. Bu tədris planında latın və yunan dilinə ayrılan saatların miqdarı, hətta rus dilinə ayrılan saatlardan belə çox idi. Yerli dillərin tədrisinə gəlincə, bu dillərin öyrədilməsinə ayrılan saatlar tədris planında sonuncu yeri tuturdu. Yerli dillərə- Azərbaycan dilinə cəmi 10 saat verilirdi ki, bu da hazırlıq və 4 aşağı siniflərdə tədris edilirdi. Həm də yerli dillər tədris planına əsas fənlər cərgəsində deyil, ona bir növ əlavə kimi idi ki, bu da çarizmin yerli xalqların dilinə e'tinasız münasibətindən, 70-80-ci illərin irticasından irəli gəlirdi.

***

70–80-ci illərin irtica dövründə ümumi təhsil fənlərinin sıxışdırılması real məktəblərdə də özünü göstərirdi. 1872-ci il nizamnaməsinə görə real məktəblər əsasən ümumi təhsil verməli idi, lakin sonralar bu ümumi təhsil minimuma qədər endirildi. Bununla belə real məktəblərdə təhsilin məzmunu klassik gimnaziyaya nisbətən daha həyati idi.

Real məktəblərin məqsədi gəncləri bə'zi texniki biliklərlə silahlandırmaqdan, təcrübi ehtiyaclara uyğun olan ümumi təhsil verməkdən ibarət idi. Bu məktəblərin tədris planında qədim dillər yox idi. Riyaziyyat və fizika kursları nisbətən geniş idi, təbiətşünaslıq tədris edilirdi; iki yeni xarici dil məcburi fənn idi. Rəsm və rəsmxətə artıq diqqət yetirilirdi. Rus dili və ədəbiyyatı, tarix və coğrafiya isə təxminən gimnaziyadakı həcmdə keçirilirdi. Buna görə də real məktəblər cəmiyyətin mütərəqqi qüvvələrinin rəğbət və köməyindən faydalanırdı.

[1] Üirkulər KUO, 1875, № 5–6, Otçet KUO za 1874, s. 2.
[2] Üirkulər KUO, 1875, № 7–8, s. 98.

Real məktəblər nizamnaməyə görə 6 əsas sinifdən ibarət idi. Bununla belə V vəVI siniflər yerli şəraitdən asılı olaraq iki şö'bədən-əsas və ticarət şö'bəsindən və ya bunların birindən ibarət ola bilərdi. Bundan başqa əsas şö'bənin nəzdində əlavə olaraq üç bölmədən: a) şagirdləri ali ixtisas məktəblərinə hazırlayan ümumi təhsil, b) mexanika-texnika, v) kimya-texnika (son iki bölmə sənət xarakteri daşıyırdı) bölməsindən ibarət əlavə VII sinif açıla bilərdi.

Əsas şö'bənin məqsədi orada oxuyanları ali ixtisas məktəblərinə hazırlamaq idi. Realnı gimnaziyalarda riyaziyyat və fizika kursunun gimnaziyaya nisbətən geniş olmasına baxmayaraq, buranı bitirənləri universitetə qəbul etmirdilər. Onlar ancaq ali texniki məktəblərə və kənd təsərrüfatı institutlarına qəbul oluna bilərdilər.

Rusiyadan fərqli olaraq, Zaqafqaziyada real məktəblər yerli şəraitə uyğun olaraq hər birində təhsil müddəti bir il olmaqla 2,3,4,5 və 6 sinifdən ibarət açıla bilərdi. 5 sinifli real məktəblər II-dən VI-ya qədər olan siniflərdən, 4 sinifli-III-dən VI qədər, 3 sinifli- IV-VI qədər, 2 sinifli isə V və VI (yuxarı) siniflərdən ibarət olurdu.[1]

Tədris planına görə nəğmə ilə bədən tərbiyəsi də tədris fənləri hesab edilir, həm də axırıncı pansionçular üçün məcburi idi, lakin tədris planına daxil edilməmişdi. Oyun və musiqi öyrənmək üçün isə xüsusi təhsil haqqı vermək lazım idi.

Əsasnaməyə görə real məktəbin hər bir sinfində cəmi 40 şagird oxuya bilərdi. Real məktəbə rütbə və dinindən asılı olmayaraq varlıların uşaqları qəbul oluna bilərdi. Birinci sinfə qəbul olunanların yaşı 10-dan az, 13-dən çox olmalı idi. Birinci sinfə rus dilində oxumağı, kobud orfoqrafik səhv buraxmadan diktə ilə yazmağı bacaranlar, hesabdan ilk dörd əməliyyatı bilənlər qəbul edilirdilər. Qəbul əsasən tədris ilinin ərəfəsində aparılırdı. Lakin il ərzində də məktəbə yeni uşaq qəbul edilə bilərdi. Təhsil pullu idi. Təhsil haqqının miqdarı pedaqoji şura tərəfindən müəyyən edilir, XMN tərəfindən təsdiq edilirdi.

Pedaqoji şuranın qərarı ilə kasıblardan olan ləyaqətli uşaqlar (bütün şagirdlərin sayına nisbətən 10%-dən çox olmamaq şərtilə) təhsil haqqından azad oluna bilərdi. Əvvəllər 10 il maarif sahəsində işləyənlər və ya işləməkdə davam edənlərin uşaqları yoxsul olmalarına aid arayış təqdim etməklə təhsil haqqından azad ola bilərdilər.

[1] Üirkulər KUO, 1874, № 3, str. 19–20.

Təhsil və davranışlarında fərqlənən yoxsul şagirdlərə pedaqoji şuranın qərarı ilə bir dəfəlik maddi yardım və ya illik təqaüd verilirdi. 2 ildən artıq bir sinifdə qalanlar məktəbdən azad edilirdi. Buraxılış imtahanları direktorun, inspektorun, fənn müəllimi və 2 assistentin iştirakı ilə, "imtahan qaydaları"na[1] ciddi riayət etməklə aparılırdı.

Real məktəblərin 1872-ci il nizamnaməsi Qafqazda, o cümlədən Azərbaycanda 1874-cü ildən həyata keçirildi.

1874-cü il fevralın 27-də Qafqaz realnı məktəblərinin yeni tədris planı təsdiq edildi (bax: əlavə № 8). 1874-cü ildə Bakı realnı gimnaziyası realnı məktəbə çevrildi. Realnı gimnaziyadakı 7 illik ümumi təhsil müddəti əvəzinə, 6 illik təhsil müddəti müəyyən edildi (müəllimlərin bə'zi e'tirazına baxmayaraq), 7-ci sinif əvəzinə bir illik təhsil müddəti olan xüsusi kimya-texniki şö'bə açıldı.[2] Gimnaziyanın son kurs şagirdlərini təcrübi fəaliyyətə hazırlamaq üçün bə'zi həyati biliklər verilməsi lazım bilindi.

Bütün bunlar realnı məktəblərin 1872-ci il nizamnaməsinə müvafiq olaraq, bu məktəbləri bitirənlərin universitetlərə qəbul olunmasının qarşısını almaq haqqında Tolstoy tədbirlərinin nəticəsi idi. Bu yenidən qurulma, həm də Azərbaycandakı orta təhsili Rusiya sistemilə eyniləşdirmək siyasətinin nəticəsi idi.

Hökumət orta məktəbləri ciddi nəzarət altında saxlayır, 1871 və 1872-ci illər nizamnamələrinin həyata keçirilməsinə, şagirdlərin siyasi dərnəklərdə iştirak edib-etməməsinə ciddi diqqət yetirirdi. Şagirdlərin "materializmdən və bu kimi zərərli" tə'sirlərdən qorumaq orta məktəbin birinci dərəcəli vəzifəsi idi.

Çarizmin bu siyasətini Qafqazda həyata keçirən Qafqaz canişini özü şəxsən məktəbləri gəzir, yuxarıda dediklərimizə şəxsən nəzər yetirirdi.

Qafqaz canişininin 1874-cü il aprelin 18-də Bakı realnı məktəbini gəzməsinə aid olan sənədlərdən birində deyilir:

"Sərdar 7-ci sinfə daxil olarkən, riyaziyyat dərsi idi və şagird paralelepipedin sahəsinin ölçülməsinə aid teoremi izah edirdi. Sərdar bütün şagirdlərin adlarını və məktəbi bitirdikdən sonra hara qəbul olunmalarını soruşduqda, 2 şagirddən "Mixaylovski artilleriya

[1] Real məktəblərin imtahan qaydaları haqda bax: Sirkulyar KUO, 1875, № 7–8, s. 1–48.

[2] Sirkulyar KUO, 1874, № 2, s. 24; 1875, № 5–6, əlavə QTD-nin 1874-cü ilə aid hesabatı, s. 2.

məktəbində təhsili davam etdirmək" cavabını aldı. Sərdar:"Sizin məktəbin bizə artilleristlər hazırlaması yaxşıdır"-deyə qeyd etdi.

6-cı sinifdə şagird yazı taxtasında domna peçini çəkirdi. Sərdarın əmri ilə şagird domna peçinin quruluşu, çuqunun hazırlanma prosesini, onun dəmirdən fərqlənən xüsusiyyətlərini izah etdi. Hazırlıq sinfində Sərdar kiçik şö'bənin şagirdlərini oxutdu və sözlərin mə'nasını soruşdu.

5-ci sinifdə fransız dili dərsinə daxil olarkən, direktor mə'lumat verdi ki, bu fənnin tədrisi məktəbdə ümumiyyətlə qeyri-müvəffəqdir. Sərdar bunun hər yerdə belə olmasını bildirdi.

Dördüncü sinifdə Sərdar şagirdlərin rəsmxət işlərilə tanış oldu.

Üçüncü sinifdə şagird yazı taxtasında Fransanın xəritəsini cızırdı. Sərdar ondan və digər şagirdlərdən Fransanın və digər Avropa dövlətlərinin coğrafiyasına aid suallar verdi. İkinci sinifdə rus dili, birinci sinifdə isə şəriət dərsi idi. Siniflərin hər birində şagirdlər mehriban və şən idilər..."[1]

Sərdar həmçinin fizika, təbiət, tarix dərslərində olmuş, tikilməkdə olan qaz aparatına, laboratoriyaya və s. baxdıqdan sonra, bütün gördüklərinin xoş tə'sir bağışladığını, uşaqların gümrah və şən olduğunu qeyd etmişdir.

Bütün bunlarla bərabər Sərdar, "şagirdləri səfih istiqamətdən, materializmdən və bu kimi zərərli tə'limlərdən qorxmağı xüsusilə tapşırdı."[2]

Sərdarın bu məktəblərə baş çəkməkdə məqsədi, yuxarıda deyildiyi kimi, onun tə'limi keyfiyyəti ilə maraqlanmaq, xalq maarifinə və məktəbə canyandırmağı deyil, bu məktəblərdə "materializmin" və digər "səfeh tə'limlərin" yayılmasına diqqət yetirmək, Tolstoy tədbirlərini həyata keçirməkdən ibarət idi.

70–80-ci illərin irticasına baxmayaraq, bə'zi şəhər ictimaiyyəti natamam orta və orta təhsil müəssisələrinin təşkilinə ciddi cəhd edirdilər. Bu cəhd Şuşa şəhərində daha qüvvətli idi. Şuşa cammatı 1874-cü il mart ayının 20-də Şuşada progimnaziya və ya realnı məktəb açmağı və bunun üçün şəhər vəsaitindən ildə 5.000 man. ayırmağı qərara aldılar. Camaat tərəfindən nümayəndə seçilən

[1] Sirkulyar KUO, 1874, № 4, s. 76
[2] Yenə orada, s. 77.

Hacı Abbas Quliyev şəhər əhalisinin qərarı ilə Gəncə qubernatoruna müraciət etdi.[1] Şəhər ictimaiyyətinin müraciətində deyilirdi:

"Vaxtı ilə müsəlman əyalətlərinin əqli mərkəzi olan Şuşa şəhəri son vaxtlar təhsil sahəsində digər şəhərlərdən geri qalır. Bunun səbəbi mə'lum olduğu kimi, maddi rifahi və çiçəklənməsi üçün zəruri olan təhsilə xalqın biganə qalması olmayıb, ondan ibarətdir ki, Şuşada məktəb[2] olmadığından xalq öz uşaqlarına elm-təhsil verə bilmir. Uşaqları təhsil üçün başqa şəhərlərə göndərmək isə bir sıra çətinliklərlə əlaqədardır."[3]

Şuşalıların bu tələbi Gəncə qubernatoru tərəfindən QTD-nin popeçitelinə göndərildi. QTD-nin popeçiteli şuşalıların tələb və xahişinə nəinki kömək etmədi, əksinə, bu təşəbbüsü hələ rüşeym halında ikən boğdu. QTD popeçitelinin 1874-cü ilə aid hesabatında oxuyuruq:

"...Şuşa şəhəri qərar qəbul edərək orada progimnaziya açmağı xahiş etmiş və onu saxlamaq üçün hər il 5.000 man. vəsait verməyi öhdəsinə götürmüşdür. Lakin Şuşa əsasən, sənaye şəhəri olduğundan, həm də nisbətən çətin olmayan və əsasən təcrübi əhəmiyyət kəsb edən biliklərə daha çox ehtiyac hiss etdiklərindən müsəlmanlar, nə də ermənilərin çoxu çox çətin ki, qədim dilləri həvəslə öyrənməklə məşğul olsunlar."[4]

Bir tərəfdən özünün subyektiv mülahizələrinə əsaslanan, digər tərəfdən isə açılacaq məktəbə əlavə olaraq xəzinədən vəsait xərcləmək lazım gələcəyini nəzərə alan QTD-nin popeçiteli şuşalıların məktəb tələbini rədd etməklə toplanan vəsaiti iki məqsədə: yarısını ianə sifətilə kasıblardan olan şuşalıların Şuşa şəhərinin təqaüdçüsü kimi klassik təhsil almaları üçün Gəncə klassik progimnaziyası nəzdində olan pansiona vermək, digər yarısını isə Şuşada yenicə açılmış şəhər üçsinifli məktəbində əlavə 4-cü sinfi açmağı və Bakı realnı məktəbinin pansionunda Şuşa təqaüdçüləri tə'sisinə sərf etməyi təklif etdi.[5]

Orta təhsilə böyük ehtiyac hiss edən şuşalılar, bu təklifi qəbul etmədilər, şəhərdə natamam orta və ya orta məktəb açmaq cəhdini davam etdirdilər.

[1] Gürc. Resp. MDA, f.422, s.1, iş № 620, v.35.
[2] Natamam orta və orta məktəb nəzərdə tutulur.
[3] Gürc. Resp. MDA, f.416, s.3, iş № 517, v.1 arx.
[4] Üirkulər... KUO, 1875, № 5–6, Otçet KUO, za 1874 q. s. 7.
[5] Üirkulər... KUO, 1875, № 5–6, Otçet KUO, za 1874, s.7.

QTD-nin popeçitelinin 1875-ci ilə aid hesabatında deyilir: "Şuşa şəhəri hələ 1874-cü ildə progimnaziya tə'sis etməyi xahiş etmiş və bu məqsəd üçün hər il 5.000 man. verməyi öhdəsinə götürmüşdür."[1] QTD-nin popeçiteli Şuşanın Gəncəyə yaxın olması və şəhərin ticarətçi əhalisinə real təhsilin vacibliyi mülahizələrini əsas götürərək, Şuşa əhalisinin öhdəsinə götürdüyü 5.000 manatın bir hissəsinin Gəncə progimnaziyası nəzdində şuşalılar üçün pansion təşkil etməyi, digər hissəsini isə Bakı realnı məktəbi nəzdindəki şəhər vakansiyalarının tə'sisinə sərf etməyi bir daha təklif etdi. Lakin şuşalılar bununla yenə də razılaşmadı. Qafqaz canişini qarşısında xüsusi məsələ qaldıracaqlarını bildirdilər.[2]

Şuşalıların orta məktəb tələbi Azərbaycan maarifçiləri tərəfindən müdafiə edilirdi. H.Zərdabi "Əkinçi" qəzetində Qarabağ əhalisinin "öz şəhərlərində" gimnaziya açmaq qəsdinə düşdüyünü xəbər verməklə "açılan məktəbxanalarda öz dilimizi oxumağı" nəinki lazım bilir, hətta vacib hesab edirdi.[3]

Şuşalıların orta məktəb tələbi və bunun üçün müvafiq bina və pul vəsaiti ayırmaq qərarı get-gedə güclənirdi. Əhalinin orta təhsilə ciddi sə'y göstərməsi cəmi Zaqafqaziyada diqqətəlayiq hadisə idi. Gəncə qubernatoru 1878-ci ilə aid hesabatında şuşalıların bu cəhdini yüksək qiymətləndirməyə məcbur olmuşdur.[4]

Bütün bunlara baxmayaraq, 70-80-ci illərin irtica dövründə şuşalıların orta məktəb tələbi və xahişi nəticəsiz qaldı. Çarizmin mürtəce siyasəti nəticəsində mövcud orta məktəblərdə təhsilin məzmununda klassizmin gücləndirildiyi, onların hüquqlarının məhdudlaşdırıldığı kimi, əhalinin yeni məktəb tələbi də rədd edildi.

Beləliklə, 1863-cü ildən 1876-cı ilə qədər olan müddətdə QTD-i üzrə cəmi 18 orta məktəb tə'sis edildi ki, bunun da yalnız 2-si Azərbaycanda idi. Ümumiyyətlə, orta məktəb şəbəkəsi Zaqafqaziyanın Azərbaycan və Ermənistan vilayətlərinə nisbətən Tiflis şəhərində daha çox inkişaf edirdi ki, bu da onun inzibati mövqeyindən irəli gəlirdi.

[1] Üirkulər... 1876, № 9, Otçet KUO za 1875 q., s.7.
[2] Yenə orada; bu haqda həmçinin bax: Gürc. Resp. MDA, f.422, s.1, iş № 620, v. 35
[3] Bax: "Əkinçi" qəzeti, № 17 və № 19, 1876-cı il, H. Zərdabi. Seçilmiş əsərləri, Bakı, 1960, s. 102–103.
[4] Gürc. Resp., MDA, f.5, s.1, iş № 5756, v. 12.

§ 3. ORTA MƏKTƏBLƏRİN SONRAKI İNKİŞAFI

(1880-1900-cı illər)

XIX əsrin 80-ci illərində Azərbaycanda cəmi 1 realnı məktəb (Bakı) və bir klassik progimnaziya (Gəncədə) fəaliyyət göstərirdi. Bu isə bir tərəfdən əhalinin orta təhsilə olan ehtiyacını, digər tərəfdən isə sənayenin və ticarətin artmaqda olan tələbini qətiyyən ödəmirdi. Bu tələb və ehtiyac Şuşada özünü xüsusilə büruzə verirdi. Burada orta məktəbə olan tələb get-gedə artırdı. Şuşada progimnaziya tə'sisi sahəsindəki tələbin nəticəsiz qalmasını görən şəhər əhalisi 1880-ci ildə öz tələblərini dəyişdirərərk realnı məktəb açmağı xahiş etdi. Əhalinin tə'kidi və tələbi nəticəsində Gəncə qubernatoru və Qafqaz canişini Şuşada real məktəb açmaq tələbini ödəmək məcburiyyəti qarşısında qaldı. Qafqaz canişini 1880-ci il iyunun 30-da Peterburqa-Qafqaz komitəsinə yazırdı:

"Şuşa şəhər sakinlərinin təhsilə olan ciddi cəhdinə, (şəhər məktəbində 400-dən artıq şagirdin oxuması bu cəhdi bir daha təsdiq edir) və şəhər ictimaiyyətinin arzusuna əsaslanan Gəncə qubernatoru Şuşa şəhərində 6 sinifli realnı məktəb açmağı mümkün hesab edir. Şəhər ictimaiyyəti həmin məktəbi məktəbi müvafiq bina ilə tə'min etməyi və ildə 7500 man. pul ilə kömək etməyi öhdəsinə götürür."[1]

Canişinliyin nəzdində olan Şura, həmin məsələni müzakirə edərək Şuşa şəhərində əsas şö'bəsi və əlavə sinifdən ibarət olan kimya-texnika şö'bəsi olan 6 sinifli realnı məktəb açmağın yerli əhalinin sənaye məşğuliyyətinə təmamilə uyğun olduğunu lazım bilmişdir. Həmin ilin dekabrında Dövlət Şurası Şuşada 6 sinifli realnı məktəbin açılmasını qərara aldı.[2] Dövlət şurasının qərarı dekabrın 23-də imperator tərəfindən təsdiq edildi.[3]

Şuşa realnı məktəbi RXMN-nin realnı məktəblərinin 1872-ci il 15 may və Qafqaz təhsil dairəsinin gimnaziya, progimnaziya və realnı məktəblərin 22 noyabr 1873-cü il tarixli nizamnamələrinə əsaslanırdı. Kimya və texnika şö'bəsi ilə birlikdə məktəbin illik xərci 29.075 manat idi ki, bunun 7.500 manatı şəhər idarəsindən, qalanı isə ölkənin yerli mədaxilindən ödənilirdi.

[1] SPMDTA, f. 1152, s. IX, iş № 505, v. 2.
[2] Yenə orada, f. 565, s. 2, iş № 5304, v. 6.
[3] Bax: Sirkulyar... KUO, 1881, № 11, s. 560.

1880-ci ildə həmçinin Gəncə progimnaziyasını tam gimnaziyaya çevirmək məsələsi qaldırıldı. Qafqaz canişini 1880-ci il avqustun 31-də Qafqaz komitəsinə yazırdı ki, Gəncə progimnaziyasın Zaqafqaziyada olan gimnaziyalardan (Tiflis və Kutaisidə) xeyli uzaq olduğundan buranı bitirənlər həmin gimnaziyalarda təhsillərini davam etdirə bilmirlər. Yalnız vəsaiti olan bə'zi az miqdar şagirdlər buna nail ola bilirlər. Tiflisdəki bahalıq da buna müəyyən qədər tə'sir edir. Bundan başqa, Tiflis gimnaziyasının V sinfi şagirdlə dolu olduğundan, kənar şagirdləri qəbul edə bilmirdi. Gəncə progimnaziyasının tam gimnaziyaya çevrilməsi yerli şagirdlərə oradaca orta təhsili başa çatdırmağa imkan verərdi. Lakin şəhər idarəsi vəsait azlığı üzündən gimnaziya xərcinin RXMN tərəfindən ödənilməsini xahiş edirdi.

Qafqaz canişini şəhər idarəsinin xahişinin "ödənilməsini ədalətli" hesab edərək onu, vəsait əldə edildikcə tədricən yuxarı sinifləri açmaq şərtilə Qafqaz komitəsinin mülahizəsinə təqdim etdi.[1]

RXMN 1880-ci il oktyabrın 8-də bu məsələyə razılıq verdi.[2] Həmin ilin dekabrında isə Dövlət Şurası Gəncə 4 sinifli progimnaziyanın tam 8 sinifli gimnaziyaya çevrilməsini qərara aldı. 1881-ci il martın 16-da həmin qərar imperator tərəfindən təsdiq edildi.[3] 1881-ci ildə Gəncə 4 sinifli progimnaziya 8 sinifli tam gimnaziyaya çevrildi.

Beləliklə, XIX əsrin sonlarında Azərbaycanda cəmi 3 orta məktəb (2 realnı məktəb və bir gimnaziya) var idi. Buna baxmayaraq orta təhsil sahəsindəki qıtlıq Bakıda özünü daha çox göstərirdi.

XIX əsrin 80–90-cı illərində Bakı şəhərində kapitalist münasibətləri böyük sür'ətlə inkişaf edirdi. Şəhər əhalisinin sayı da durmadan artırdı. Otra təhsil müəssisəsi kimi yalnız bir realnı məktəb mövcud idi ki, bu da şagirdlə dolu idi.

Bakıda ikinci bir orta məktəbə böyük ehtiyac hiss edilirdi. Bakı qubernatoru 1884-cü ilə aid hesabatında yazırdı ki, xalq maarifi yenə də əvvəlki kimi xoşagəlməz vəziyyətdə qalmaqdadır. Orta məktəb sahəsindəki qıtlıq özünü daha çox göstərir və Bakı şəhərinin sür'ətli inkişafı heç olmazsa bir klassik progimnaziya açmağı və onu tədricən genişləndirməyi tələb edir.[4]

[1] LMDTA, f. 1152, s. IX, iş 621, v. 15.
[2] LMDTA, f. 1152, s. IX, iş 621, v. 22.
[3] LMDTA, f. 1268, s. 25, iş 190, v. 13.

[4] SPMDTA, f. B-ka. os, s. I, iş № 6, v. 4

XIX əsrin sonlarında Bakıda orta məktəb tə'sisi məsələsində 2 fikir hökm sürürdü, klassik gimnaziyanı açmaq, yoxsa orta texniki məktəbi tə'sis etmək. Şəhərin müxtəlif idarə rəhbərləri-çinovniklər öz uşaqlarına universitet təhsili vermək üçün ilk növbədə klassik gimnaziyanı lazım bilir və bunu möhkəm müdafiə edirdilər. Fabrik-zavod və neft-mə'dən sahibkarları isə sənayenin artmaqda olan tələbatını əsas götürərək, sənaye rəhbərləri ilə qara fəhlə arasında vasitəçi olan orta texniki məktəb açmağı tələb edirdilər. Bakı şəhər bələdiyyə idarəsində bu məsələnin müzakirəsində Bakı sahibkarları böyük üstünlük təşkil edirdi. Beləliklə, hər iki məktəbin tərəfdarları bu və ya digər məktəb tipinə üstünlük verməklə, şübhəsiz ki, öz xüsusi mənafelərini güdürdü, öz sinfinin və mənsub olduğu silkin nöqteyi-nəzərini müdafiə edirdilər.

Orta təhsil sahəsindəki tələb onunla nəticələndi ki, Bakı şəhər idarəsi 1886-cı ildə QTD-yə müraciət edərək Bakıda kişi gimnaziyası tə'sis etməyi xahiş etdi. Şəhər idarəsi gimnaziya üçün tədris binası, direktor üçün mənzil və işdə 5000 man. vasaitlə kömək etməyi öhdəsinə götürürdü.[1]

Sənaye sahibkarının orta texniki məktəb açmaq tələbi isə daha da güclənirdi. Hər dəfə orta məktəb məsələsi müzakirə olunanda gimnaziya lazım bilinirdisə də, orta texniki məktəb daha zəruri hesab edilirdi.

Şəhər məktəb komissiyasının tərkibində Abramoviç, Dikov, Aslanov, Doluxanov, Jiqlov, İretski, Karasov, H.Z.Tağıyev kimi sahibkarların və çinovniklərin olması nəticəsində texniki məktəbin zəruriliyinə üstünlük veridi. Dövlət şurası da özünün 7/III-1888-ci il qərarı ilə bu fikri müdafiə edirdi.

Beləliklə, şəhər bələdiyyə idarəsi və şəhər duması üç şö'bədən (mexanika, kimya və ticarət) ibarət dövlət hesabına orta texniki məktəb açmağa RXMN-dən xahiş etməyi qərara aldı.

1889-cu il yanvarın 4-də[2] Bakı şəhər bələdiyyə rəisi tərəfindən keçirilmiş şəhər məktəb komissiyası üzvlərinin iclasında deyilirdi:

"Bakı şəhəri sənayecə sür'ətlə inkişaf etməsinə baxmayaraq, hətta orta təhsil sahəsində belə 1859-cu ildən in Statu şəklində qalır. Bakı təhsil müəssisələri, ümumiyyətlə, şəhər vəsaiti hesabına idarə olunur". Xəzinə hesabına isə yalnız bir realnı məktəb var idi ki, ona da şəhər öz vəsaiti ilə kömək edir. Realnı məktəb həddindən artıq

[1] SPMDTA, f. 733, s. 165, iş № 369, v. 2
[2] SPMDTA, f. 733, s. 160, iş № 323, v. 6 arx.

şagirdlə dolu olmasına baxmayaraq, şəhərin orta təhsilə olan tələbini ödəmirdi. Bütün bunları nəzərə alan Bakı şəhər bələdiyyə rəisi Rusiya XMN qraf Delyonovun xidmət etməsinin (fəaliyyətinin) 50 illik yubileyi münasibətilə ona müraciət edərək Bakıda bir orta məktəb açmağı xahiş etdi. Bakı şəhər bələdiyyə şurasının 4/I-1889-cu il tarixli iclasının protokolunda deyilirdi;

Bakı şəhər bələdiyyə rəisi arzu edir ki, qoy bu təntənəli yubiley günü həm bütün Xəzər ətrafındakı ucqarların təhsili üçün, həm də müəyyən dərəcədə Orta Asiya üçün təhsil şitilliyi olan dövlət hesabına orta məktəb tə'sis edilməsi işində yeni era olsun.[1]

Şəhərdə bu vaxt az-çox ali-texniki təhsilli mütəxəssislər olduğu halda, orta təhsilli texniki müəssisələrə böyük ehtiyac var idi. Sənayedə rəhbərlik edən texniklər, mühəndislərlə fəhlələr arasında vasitəçi olan xüsusi orta təhsilli mütəxəssislər çatışmırdı. Sənaye belə mütəxəssislərdən korluq çəkirdi, həm də bu sahədə çalışanlar əsasən xaricdən: İsveçrədən, Finlandiyadan və b. ölkələrdən gələnlər idi. Buna baxmayaraq Rusiya XMN Bakı şəhərində orta məktəb açmaq xahişini rədd etdi. XMN qraf Delyonov 1889-cu il mayın 24-də yazırdı: "XMN-nin imperiya daxilində sənaye məktəbləri açmaq üzrə komissiyası digər şəhərlər içərisində Bakını nəzərdə tutmadığından, Bakıda orta texniki məktəb açmaq mümkün deyil". Qraf Delyonov həm də belə bir məktəbi Bakı deyil, özünün inzibati vəziyyətilə fərqlənən Tiflisdə açmağa tərəfdar oldu.

LMDTA-da saxlanılan bir çox rəsmi sənədlər, yazışmalar göstərir ki, qraf Delyonov və onun rəhbərlik etdiyi XMN Azərbaycanda xalq maarifi və məktəb məsələsinə laqeyd yanaşır, əhalinin ən zəruri tələblərini belə ödəməyə təşəbbüs etmirdi.

Bakı şəhəri bələdiyyə rəisinin qraf Delyonova göndərdiyi bir məktubu (15/VI-1899) bu cəhətdən xarakterikdir. Orada deyilir: "Bakı ictimai idarələrinə belə gəlirdi ki, daim unudulan bizim ucqara da, indi heç olmazsa, az miqdar belə ödənər... Lakin mənə mə'lum olduğu kimi orta texniki məktəbin Bakıda deyil, Tiflisdə tə'sisi lazım bilinir. Beləliklə də, Bakı şəhəri bir daha Tiflisin mənafeyi ilə kifayətlənməyə məcbur olur".

Bakı şəhər bələdiyyə rəisi sözünə davam edərək yazırdı: "Bununla belə Bakı Ümumdünya neft sənaye mərkəzidir, burada 200-

[1] SPMDTA f. 733, s. 160, iş. № 323, v. 6 arx.

dən artıq fabrik və zavodun olması texniki təhsilin zəruriliyini son dərəcə artırır. Burada dövlət hesabına köhnə, darısqal, eybəcər və natəmiz bir binada yerləşən yalnız bir realnı məktəb olduğu halda, yalnız inzibati mərkəz olan və sənaye cəhətincə qətiyyən heç bir əhəmiyyəti olmayan Tiflis isə dövlət tədris müəssisələri ilə doludur.

XMN-nin məktəb komissiyasının qərarı və Sizin də bu qərarla razılaşmağınız şəhər ictimaiyyətinə və əhalisinə son dərəcə pis tə'sir etmişdir. Mən bunu Sizin nəzərinizə çatdırmağı özümə mə'nəvi borc bilirəm".[1]

Bakı şəhər bələdiyyə rəisi, şəhərin son dərəcə təhsilə olan ehtiyacını və ona az fikir verildiyini qeyd edir və bunu öz gözləri ilə görüb inanmaq üçün qraf Delyonovu Bakıya də'vət edirdi. Lakin qraf Delyonov Bakıda orta texniki təhsil məsələsində tamamilə başqa mövqedə dururdu. O, Bakının Zaqafqaziyada neft sənaye mərkəzi və dəniz limanı, ticarət şəhəri kimi orta texniki təhsilli mütəxəssislərə böyük ehtiyac hiss etdiyini qeyd edirdi. Bununla belə o, bu ehtiyacı Rusiya daxilindən gətirilən kadrlar hesabına ödəmək siyasəti yeridirdi. Belə adamların gətirilməsində əsas məqsəd yerli sənaye və ticarəti inkişaf etdirmək deyil, onun e'tiraf etdiyi kimi "Zaqafqaziyaya tamamilə mə'dəni və tə'siredici əsl rus elementi gətirmək" idi. Qraf Delyonov məhz məsələnin bu cəhətinə əhəmiyyət verir, çarizmin ruslaşdırma siyasətini praktik olaraq həyata keçirirdi. O, açıqcasına yazırdı:

"Ruslardan olan dağ mühəndisləri, mexanik və texnoloqlar, Rusiyada təhsil alan yerlilər, xüsusi bilik tələb edən vəzifələrdə işləyirlər. Lakin Rusiyadan, əsasən isə Povoljyedən gələn rus ustaları şəhərə elə bir rus bəzəyi (rəngi) verir ki, bu bəzək bu ölkə üçün çox zəruridir."[2]

1890-cı ildə Bakıda istər gimnaziya, istərsə də orta texniki məktəb açmaq məsələsi yenidən həyati məsələ kimi irəli sürüldü. Lakin gimnaziya tə'sisinə ayrıca əhəmiyyət verilirdi.

Arxiv sənədlərindən birində deyilirdi: "Bakı şəhərində gimnaziyanın olmaması əhalini həddindən artıq ağır vəziyyətə salır. Bə'zən belə olur ki, uşağın təhsili xatirinə ata Bakıda qalır, ailə isə Gəncədə, Tiflisdə və ya gimnaziya olan digər şəhərdə yaşamalı olur".

Bütün bu çətinliklər şəhər idarəsini və ictimaiyyətini məcbur edir ki, şəhərdə gimnaziya açılmasını qət'i və tə'kidlə həll etsin.

[1] SPMDTA, f. 733, s. 160, iş № 323, v. 21.
[2] SPMDTA, f. 733, s. 165, iş № 1244, v. 51.

Bakıda gimnaziya açılmasını şəhər əhalisindən başqa, gimnaziyadan məhrum olan qonşu Dağıstan və Zakaspi vilayətləri də müdafiə edirdi. Heç də təəccüblü deyil ki, Zakaspi və Dağıstan vilayətlərindən, Bakı quberniyasından və Gəncə quberniyasının şərq hissəsindən gələn külli miqdarda ərizələr Bakıda gimnaziya açmağın zəruriliyini israrla tələb edirdi.

Lakin dövlət nə gimnaziya açmaq fikrində idi, nə də şəhər hesabına gimnaziya açmaq mümkün idi. Ona görə də realnı məktəbin müəllimlərinin birindən müvəqqəti olaraq bir məktəb açmağı xahiş etdi ki, heç olmazsa uşaqlar gimnaziyanın yuxarı siniflərinə qəbul olmağa hazırlaşsınlar. Bunun nəticəsində 1891-ci il sentyabrın 14-də Bakı realnı məktəbinin müəllimi A.N.Pobedonostsev tərəfindən şəhər vəsaitinin köməyilə 6 sinifli klassik progimnaziya kursu birinci dərəcəli xüsusi məktəb açıldı.[1] İlk dəfə 2 hazırlıq və bir əsas sinifdən ibarət olan bu məktəbə 110 şagird qəbul olundu.

Bu məktəbin açılması ilə Bakı şəhərinin və ətraf vilayətlərin çoxdan bəri gözlədiyi zəruri klassik təhsil tələbatı xüsusi təşəbbüs yolu ilə olsa da, müəyyən dərəcədə ödənildi. Məktəbin tədris planı XMN-nin gimnaziya və progimnaziyalar üçün təsdiq etdiyi plana əsasən müvafiq olub, bə'zi dəyişikliklər edilmişdi. Məs: 1) I sinfin proqramı real məktəbin proqramı ilə uzlaşdırılmışdı (bu şagirdlərin real məktəbə keçməsi arzusu olardısa, onlara maneə törətmək məqsədilə edilmişdi); 2) fransız dilinin təcrübi tədrisi yuxarı hazırlıq sinfindən, alman dilinin təcrübi öyrədilməsi isə I sinifdən başlanırdı; 3) erməni və Azərbaycan dillərinin tədrisi əlavə edilmişdi.

Belə məktəbə olan ehtiyacın nəticəsi idi ki, bu məktəbə birinci il 110 şagird qəbul olunmuş, dərs ilinin sonunda isə 121 nəfərə çatmışdı. İkinci il şagirdlərin sayı artıq 166 idi. Hətta yer olmadığından 15 nəfər məktəbə qəbul edilməmişdir.[2]

Pobedonostsevin məktəbi silki xarakter daşıyırdı. Məktəbdə yüksək təhsil haqqı qoyulmuşdu; hazırlıq sinif şagirdlərinin hər birindən 90, əsas sinif şagirdlərindən isə ildə 100 man. təhsil haqqı alınırdı ki, bunu da ancaq varlılar verə bilərdilər. Bakı qubernatoru 1892-ci ildə yazırdı: «Əgər təhsil haqqı nisbətən azaldılardısa, bu məktəbə daxil olmaq istəyənlərin sayı daha da artıq olardı».[3]

[1] Bax: Sirkulyar... KUO, № 11, 1891, s. 786.
[2] Bax: LMDTA, f. B-ka çz s. 1, iş № 6, v. 109 arx.
[3] Bax: LMDTA, f. B-ka, çz, s. 1, iş № 6, v. 109 arx.

1893-cü ildə bu məktəbin üç şö'bədən ibarət hazırlıq sinfində və ilk üç sinfində 228 oğlan oxuyurdu. Bakı qubernatorunun 1893-cü ilə aid hesabatında deyilirdi:

"Pobedonostsevin 6 sinifli klassik gimnaziya kurslu progimnaziya məktəbi, həqiqətən, diqqətəlayiqdir."[1] Lakin məktəbin mövcudiyyəti və gələcəyi bir çox təsadüflərdən asılı idi. Belə ki, məktəb dövlət hesabına keçmədiyindən o, sahibkarın və ianəçilərin iradəsindən asılı olaraq bağlanmaq təhlükəsi qarşısında idi. Bu məktəbin bağlanması isə 300-ə qədər şagirdin çöldə qalmasına səbəb olardı. Çünki nəinki Bakıda, bütöv Bakı quberniyasında və qonşu vilayətlərdə belə məktəb tipi yox idi. Ən yaxın olan Gəncə və Tiflis gimnaziyaları isə şagirdlə dolu idi. Bu məktəb bağlanardısa, burada oxuyan şagirdlərin hamısını qəbul edə bilməzdi.

Onu da qeyd edək ki, Bakıda gimnaziya olmadığından 1895-ci ildə Bakı sakinlərindən 79 şagird Tiflis gimnaziyalarında oxuyurdu. Bundan başqa, Həştərxan, Gəncə, Kutaisi və Vladiqafqaz gimnaziyalarına gedənlər də var idi. Beləliklə, Pobedonostsevin xüsusi məktəbində şagirdlərin çoxluğu və bakılıların gimnaziya təhsili üçün digər şəhərlərə getmələri Bakıda xüsusi gimnaziya açmaq zəruriyyətini sübut edirdi.

Eyni zamanda Bakı qubernatorunun 1893-cü ilə aid hesabatında da Pobedonostsevin məktəbinin üstünlüyü və onun dövlət hesabına tam gimnaziyaya çevrilməsi zəruriliyi göstərilir, onu dövlət hesabına tam klassik gimnaziyaya çevrilməsi təklif edilirdi.

Qubernatorun hesabatının kənarında imperator yazmışdı: "diqqət yetirmək."[2] Bütün bunlar Bakıda klassik gimnaziya açmağı dönə-dönə tələb edirdi. Lakin imperatorun qeydi də Bakıda oğlan gimnaziyası açmağa kömək etmədi. Şəhərin orta təhsilə, orta təhsil vasitəsilə ali təhsilə olan tələbatı get-gedə artırdı. Şəhər əhalisi də sür'ətlə çoxalırdı: 1895-ci ildə Bakı şəhər əhalisi 100.000 nəfəri ötüb keçmişdi. Bunun müqabilində şəhərdə yeganə orta məktəb — bir realnı məktəb var idi ki, burada 550 nəfər şagird oxuyurdu.

Bakıda gimnaziya açmaq məsələsində QTD-nin mövqeyi də maraqlıdır. QTD-nin popeçiteli bir sıra hesabatlarında və raportlarında Bakıda hökumət tərəfindən gimnaziya açılmasını zəruri hesab edirdi.[3]

[1] SPMDTA, f. k-na (ob) s. 1, iş 6, v. 48
[2] SPMDTA, f. 733, s. 165, iş № 1244, v. 55
[3] Bax: "Kavkaz" qəzeti, № 91, 1986-cı il.

Bakıda gimnaziya açılmasına Rusiya maliyyə nazirliyi ciddi e'tiraz edirdi. Maliyyə nazirliyi şəhərdə klassik gimnaziya deyil, realnı məktəb və ya sənaye məktəbinin olmasını daha üstün tuturdu. Maliyyə nazirliyi həm də "dövlət xəzinəsinin vəziyyətinin çətinliyi"ni əsas götürərək bu məsələni rədd etdi. Beləliklə, təxminən 10 il (1886-1896) ərzində Bakı şəhər idarəsi, Bakı qubernatoru, QTD, Rusiya XMN və Rusiya MN arasında gedən yazışmalar nəticəsiz qaldı.

Şəhərin gimnaziya sarıdan böhran keçirdiyini dərk edən Bakı şəhər duması və onun məktəb komissiyası, nəhayət, 1896-cı ildə aprelin 2-də gimnaziyanın bütün xərcini öhdəsinə götürmək və onu III Aleksandrın adı ilə adlandırmaq şərtilə Pobedonostsevin xüsusi məktəbini gimnaziyaya çevirməyi qərara aldı[1]. Şəhər dumasının məktəb komissiyasında H.Zərdabi kimi maarifçinin iştirakı bu məsələnin həllinə tə'sir etməyə bilməzdi.

Nəhayət, 1896-cı il mayın 28-də QTD-nin popeçiteli, iyulun 2-də isə mərkəzi hökumət Bakı şəhər dumasının qərarını təsdiq etməyi məcbur oldu. Beləliklə də, 1896-cı il sentyabrın 1-də A.İ.Pobedonostsevin xüsusi məktəbi əsasında imperator III Aleksandr adına Bakı oğlan klassik gimnaziyası təşkil edildi (Pobedonostsev yenə də gimnaziyanın direktoru tə'yin edildi).

Yenicə təşkil olunmuş gimnaziyaya elə ilk gündən şagird axını başlandı. 1896-cı ildə buraya qəbul olunmaq üçün ərizə verənlərin sayı 600 nəfərdən çox idi.[2] Orta təhsilə olan tələbat nəticəsində 1897-ci ildə Bakıda müəllim İ.A.Lavrov tərəfindən progimnaziya kursuna malik 4 sinifli daha bir xüsusi məktəb açıldı.[3]

Əhalinin orta təhsilə olan tələbi nəticəsində 1902-ci ildə Bakıda yeni progimnaziya açıldı. Nəticə e'tibarı ilə XX əsrin ilk əvvəllərində Azərbaycanda oğlanlar üçün natamam orta və orta təhsil müəssisələri olmaq e'tibarı ilə cəmi 7 məktəb fəaliyyət göstərirdi. Bunların ikisi realnı məktəb (Bakıda və Şuşada), ikisi klassik gimnaziya (Gəncədə və Bakıda), ikisi progimnaziya və biri ticarət məktəbindən (Bakıda) ibarət idi.

[1] Bax: "Kafkaz" qəzeti, № 91, 1986-cı il.
[2] Bax: Sirkulyar... KUO, 1896, № 10, s. 866
[3] SPMDTA, f. k-na (os) s. 1, iş № 6, v. 186.

§ 4. ORTA MƏKTƏB ŞAGİRDLƏRİNİN SAYI, MİLLİ VƏ SİLKİ TƏRKİBİ

XIX əsrin 60-70-ci illərində Azərbaycanda orta təhsil müəssisələrinin meydana gəlməsi ilə orta təhsilə meyl get-gedə artırdı. Azərbaycanda ilk orta təhsil müəssisəsi olan Bakı realnı məktəbində və Gəncə klassik progimnaziyasında şagirdlərin sayı get-gedə sür'ətlə artırdı. Əgər 1868-ci ildə Bakı realnı məktəbində cəmi 193 nəfər[1] təhsil alırdısa, 1871-ci ildə onların sayı 293 nəfər idi.[2] Yenicə təşkil edilmiş Gəncə progimnaziyasında isə 125 nəfər oxuyurdu.[3]

Çox keçmədən istər Bakı realnı məktəbi, istərsə də Gəncə klassik progimnaziyası şagirdlərin sayına görə cəmi Qafqazdakı orta və natamam orta məktəbləri ötüb keçdi. 1876-cı ilin mə'lumatına görə 432 şagirdə malik olan Bakı realnı məktəbi Tiflis və Vladiqafqaz realnı məktəblərindən, 228 şagirdə malik olan Gəncə progimnaziyası isə İrəvan, Tiflis, Kutaisi, Pyatiqorski, Teymurxan-Şura progimnaziyalarından irəli idi. Binanın darısqallığı üzündən rədd edilən ərizələrin sayını da bura əlavə etsək, əhalinin orta təhsilə meyl və marağının xeyli üstün olduğunu görmək olar.

Əhalinin orta təhsilə meyli və şagirdlərin sayı artdıqca, hökumət də təhsil haqqını artırırdı. 1873-cü il yanvarın 1-dən Bakı realnı məktəbində hazırlıq sinfi şagirdinin hər birindən ildə 10, progimnaziya sinif şagirdlərinin hər birindən ildə 15, üç yuxarı sinif şagirdlərinin hər birindən isə ildə 20 man. təhsil haqqı tələb edildi.[4] Sənədlərdən birində oxuyuruq: "Bakı qubernatoru belə hesab edir ki, təhsil haqqının artırılması Bakı quberniya sakinlərinin öz uşaqlarını gimnaziyaya qoymaq cəhdinə tə'sir etməz".[5]

1874-cü ildən Gəncə progimnaziyasında da təhsil haqqı artırılaraq 3 manatdan 5 manata qaldırıldı. Sənədlərdə təhsil haqqının artırılmasının guya "məktəbin maddi bazasının möhkəmləndirilməsi" məqsədilə edildiyi göstərilir.[6] Əslində isə bu tədbir orta təhsili məhdudlaşdırmaq siyasətindən irəli gəlirdi.

---

[1] Sirkulyar... KUO, 1868, № 4, s. 16.
[2] Kavkazskiy kalendar na 1872 q. Tiflis, 1871 q. s.126–127.
[3] Yenə orada, s. 128–129.
[4] Sirkulyar... KUO, № 1, 1873, s. 7.
[5] Yenə orada.
[6] Bax: Sirkulyar... KUO, 1873, № 9, s. 150.

Çar çinovnikləri ildən-ilə təhsil haqqını artırır, əhalinin orta təhsilə olan meylinin qarşısını almağa çalışırdı. 1875-ci ildə Gəncə progimnaziyasında təhsil haqqı yenidən artırıldı. Dairə inspektoru F.İlyaşenkonun bir raportunda deyilir:

"Yelizavetpol progimnaziyasının hazırlıq və birinci siniflərində şagirdlərin sayının xeyli çoxluğunu, hal-hazırda birində 120-dən çox, digərində isə 50-dən artıq olduğunu nəzərə alaraq.... 1876-cı il yanvarın 1-dən e'tibarən şagirdlərdən alınan təhsil haqqı aşağıdakı kimi: hazırlıq sinfinin şagirdlərindən 5 man. əvəzinə 10 man., progimnaziya siniflərinin şagirdlərindən isə 10 man. əvəzinə 15 man. müəyyən edilsin".[1]

Dairə inspektoru təhsil haqqının artırılmasını 1 və 2 paralel şö'bələr (siniflər) açmaq zəruriyyəti ilə izah edirdi. Lakin bunlar qəbulu mümkün qədər məhdudlaşdırmaq siyasətinin nəticəsi idi.

80-ci illərdə istər Bakı realnı məktəbində, istərsə də Gəncə progimnaziyasında təhsil haqqı yenidən artırıldı. Bakı realnı məktəbinin hazırlıq sinfində təhsil haqqı 10 man. əvəzinə 24, I-IV siniflərdə 15, V-VII siniflərdə isə 20 əvəzinə 30 manata qaldırıldı. Gəncə klassik progimnaziyasının hazırlıq sinfində 15, əsas siniflərdə isə 20 man. təhsil haqqı tətbiq edildi.[2]

Rusiya maarif naziri qraf Tolstoyun mürtəce siyasətini Qafqazda həyata keçirən çar mə'murlarının hər cür məhdudlaşdırıcı tədbirlərinə baxmayaraq, Azərbaycanda na-tamam orta və orta təhsilə meyl get-gedə artırdı. Bunu aşağıdakı rəqəmlərdən daha aydın görmək olar. 1868-ci ildə hazırlıq və 4 əsas sinfə malik olan Bakı realnı məktəbində cəmi 193 şagird[3] olduğu halda, 1871-ci ildə siniflərin sayı ilə bərabər şagirdlərin sayı da artaraq 293 nəfər[4], 1872-ci ildə isə 334 nəfər[5] olmuşdur. 1871-ci ildə Gəncə klassik progimnaziyasında cəmi 125 şagird[6] oxuyurdusa, beş il sonra, 1876-cı ildə şagirdlərin sayı 210 nəfərə çatırdı.[7] 1882-ci ildə Azərbaycanda mövcud olan 3 oğlan və bir qız orta məktəbində cəmi 1090 (o cümlədən 184 qız) nəfər[8], 1890-cı il

[1] Bax: Sirkulyar... KUO, 1875, № 10, s. 155.
[2] Bax: Sirkulyar... KUO, 1880, № 4, s. 252; № 7, s. 300.
[3] Sirkulyar... KUO, 1869, № 4, s. 16.
[4] Kavkazskiy kalendar na 1872 q., Tiflis, 1871, s. 126.
[5] SPMDTA, f. 733, s.202, iş № 702, v. 13.
[6] Yenə orada, s. 128.
[7] Gürc. Resp. MDA, f. 422, s. 1, iş № 894, v. 5.
[8] Sirkulyar... KUO, № 11, 1883 q., s. 581.

yanvarın 1-nə olan mə'lumata görə isə 1313 nəfər (o cümlədən 324 qız)[1] təhsil alırdı. 1895-ci ildə orta məktəb şagirdlərinin ümumi sayı 1666 nəfər (o cümlədən 447 qız) idi[2].

Orta məktəb şagirdlərinin sayı Bakıda daha sür'ətlə artırdı. 1896-cı ildə burada yenicə təşkil olunmuş klassik gimnaziya ilk gündən şagird çoxluğu ilə fərqləndi. Az vaxt içərisində Bakı klassik gimnaziyası şagirdlərin sayına görə çoxdan bəri mövcud olan Gəncə (251 şagird), İrəvan (280 şagird) və Kutaisi (557 şagird) gimnaziyalarını belə ötüb keçdi.

Açılmasından bir il keçməmiş Bakı gimnaziyası təkcə Qafqazda deyil, bütün Rusiya gimnaziyaları içərisində ən çox şagirdli olub, 9-cu yeri tuturdu. 1897-ci ildə isə Bakı gimnaziyası şagirdlərinin sayına görə Rusiyanın ən qabaqcıl gimnaziyaları ilə bir sırada dururdu (800-dən çox şagirdə malik idi).[3]

Göstərilən məktəblərdə şagird çoxluğu bir tərəfdən şəhər əhalisinin sür'ətlə artımı (1899-cu ildə şəhər əhalisi 120.000 nəfər idi) ilə, digər tərəfdən də əhalinin orta təhsilə olan ehtiyac və tələbi ilə əlaqədar idi. Göstərilən məktəblərə daxil olmaq üçün rədd edilən ərizələrin sayını da bura əlavə etsək, fikrimizi sübut etməyə ehtiyac qalmır.

Şagirdlərin ümumi sayı ilə bərabər, azərbaycanlılardan olan şagirdlərin sayı da get-gedə artırdı. Bunu çar mə'murlarının özləri də e'tiraf etməyə məcbur olurdular. QTD popeçitelinin 1876-cı ilə aid hesabatında deyilir:

"Ümumiyyətlə, ümumtəhsil məktəblərində müsəlmanlardan olan şagirdlərin sayı ildən-ilə artmaqdadır və 1876-cı ildə 1122 nəfərə çatmışdır ki, onlardan 541 nəfəri gimnaziya, real, şəhər, qəza məktəblərində, həmçinin hərbi məktəblərdəndir".[4] Həmin hesabatdaca müsəlmanların "Son vaxtlar uşaqlarını hətta öz xərclərilə gimnaziya pansionlarına qoymaq" sahəsində xeyli dönüş olduğu ayrıca qeyd edilirdi.[5]

Azərbaycanlı şagirlərin get-gedə artımı Bakı realnı məktəbində özünü daha çox göstərirdi. Bu işdə həmin məktəbin müəllimi, məşhur

[1] QTD popeçitelinin 1889-cu ilə aid hesabatı. Tiflis, 1890, s. 15, 39, 61 (rusca).
[2] QTD popeçitelinin 1895-ci ilə aid hesabatı. Tiflis, 1896, əlavə № 1, səh.51, 105, 210 (rusca).
[3] Bax: SPMDTA, f. k-na (os) s. 1, iş № 6, v. 186.
[4] Bax: Kavkazskiy kalendar na 1878 q., Tiflis, 1877 q., s. 317.
[5] Yenə orada, s. 318.

maarifçi və pedaqoq H.Zərdabinin xüsusi xidməti olmuşdur. Mə'lum olduğu kimi o, 1871-ci ildə "cəmiyyəti-xeyriyyə təşkil edərək azərbaycanlı uşaqlarının oxumasına kömək etmək işində unudulmaz fəaliyyət göstərmişdir.

Yeri gəlmişkən qeyd edək ki, cəmi Zaqafqaziyada kasıblardan olan uşaqların dövlət məktəblərində oxumasına maddi kömək etmək məqsədilə "cəmiyyəti-xeyriyyə" təşkil etmək fikri ilə ilk dəfə Azərbaycanda-Bakıda meydana gəlmişdir. Bu sahədə ilk təşəbbüs H.Zərdabiyə aiddir. Onun bu fikri dərhal QTD tərəfindən bəyənilmiş və təqdirə layiq hesab edilmişdi. Dairə popeçiteli 1871-ci ildə Qafqaz canişininə yazırdı:

"Zaqafqaziya ölkəsində ilk dəfə Bakıda, müsəlman mühitində belə bir fikir meydana gəlmişdir ki, gənc oğlanların tə'lim və tərbiyəsinə qayğı göstərmək yalnız hökumətin işi olmayıb, həm də cəmiyyətin vəzifəsinə aiddir".[1] Belə ki, cəmiyyət də öz növbəsində ondan asılı olan vasitə ilə bu işdə hökumətə kömək etməyi özünə borc bilmişdir. Dairə popeçiteli yazırdı:

"Həmin cəmiyyətin planı mənim yanımdakı popeçitel şurasında baxılmış və ehtimal ki, tezliklə Siz əlahəzrətlərin baxmasına və imperator əliahəzrətlərinin təsdiqinə veriləcəkdir".[2]

Beləliklə, ilk dəfə 1871-ci ildə Bakı realnı məktəbində azərbaycanlılardan yeganə elm-fənn müəllimi olan H.Zərdabi tərəfindən "Cəmiyyəti-xeyriyyə"nin bünövrəsi qoyuldu. Doğrudur, sonralar H.Zərdabinin dediyi kimi, Bakı varlıları bu xeyir işə kömək etmədilərsə, Şamaxı, Şuşa, Quba, Tiflis, İrəvan şəhərlərinin bə'zi qabaqcıl adamları Həsən bəyin çağırışına qoşularaq onun təşkil etdiyi "müsəlman şagirdlərinə yardım cəmiyyətinə" daxil olaraq xeyli pul vəsaiti ilə kömək edirdilər. H.Zərdabi tərəfindən göndərilən və "Kafkaz" qəzetinin 1872-ci il 134-cü nömrəsində dərc edilən bir xəbərdə sentyabr və oktyabr aylarında cəmiyyətin nəfinə cəmi 1305 man. daxil olduğu göstərilir. Bunlar aşağıdakılar idi: Quba mülkədarları olan general-mayor Abdulla-ağa Bakıxanov (300 man.), qvardiya polkovniki Həsən ağa ilə Əhməd ağa Bakıxanovlar (hərəsi 75 man.), Şamaxı mülkədarlarından Kərim bəy Şirvanski (12 man.), Şuşadan Cəfərbəy Vəzirovla Seyid Hüseyn Seyid Məmməd oğlu (hər biri 75

[1] Sirkulyar... KUO, 1872, № 5–6, əlavə. QTD popeçitelinin 1871-ci ilə aid hesabatı, s. 25.
[2] Yenə orada.

man.), Tiflisdən general-mayor İsrafilbəy Yadigarov (75 man.), İrəvandan Mehdi bəy Sultanov (12 man.), Qədimbəy (5 man.), Bakıdan Həsənbəy Məlikov (300 man.) və Borodino (1 man.).[1]

Həsənbəy Zərdabinin bu təqdirəlayiq təşəbbüsü Bakı realnı məktəbində azərbaycanlılardan olan şagirdlərin xeyli artmasına kömək etməklə bərabər, tədris dairəsi rəhbər-lərinin də nəzərini cəlb etdi. QTD-nin popeçiteli 1872-ci ilə aid hesabatında bu cəhəti ayrıca qeyd edərək yazırdı ki, keçən il dövlət məktəblərində oxuyan müsəlman şagirdlərinin sayı 140 nəfərdən çox artmışdır və şübhəsiz ki, daha çox artacaqdır. Belə ki, Bakı gimnaziyasında hatta kasıb müsəlmanlardan olub dövlət məktəblərində oxuyan şagirdlərə kömək cəmiyyəti təşkil edilmişdir və bu cəmiyyətin banisi yerli real gimnaziyanın təbiyyat elmləri müəllimi Həsən bəy Məlikovdur.[2]

Popeçitelin sonrakı fikri də maraqlıdır. O, sözünə davam edərək yazırdı: "Bu hadisənin ("cəmiyyəti-xeyriyyə nəzərdə tutulur-H.Ə.") əhmiyyətini bir də ona görə qeyd etmək lazımdır ki, yerli əhalinin təhsili işində hökumətə kömək edən cəmiyyət təşkilinin ilk cəhdi, xristianlar arasında deyil, məhz müsəlmanlar arasında meydana gəlmişdir".[3]

Popeçitel daha sonra isə yazırdı: "Bakıda həmçinin tatar (Azərbaycan-H.Ə.) dilində qəzet nəşr etmək nəzərdə tutulur ki, hal-hazırda bu haqda yazışmalar gedir. Həmin fikir də yeniə də gimnaziyada meydana gəlmiş və həmin müəllimə –Həsənbəy Məlikova məxsusdur".

Ümumiyyətlə, yerli əhalinin və müəllimlərin köməyi cəhətincə Zaqafqaziya gimnaziyaları içərisində Bakı realnı məktəbi xüsusilə fərqlənirdi. Sənədlərdən birində deyilirdi ki, 1871-ci ildə Kutaisi gimnaziyası nəzdində açılan "Konvinkt" yerli əhalinin heç bir köməyi olmadığından bağlandığı halda, Bakıda realnı məktəbə köməkçi müəs-sisələrin tə'sisi "müqayisə edilməz dərəcədə yaxşı idi".[4] Burada müəllimlərdən ikisi öz evlərində ümumi şagird mənzili təşkil etmişdir ki, orada 14 nəfər gimnazist yaşayırdı. Bundan əlavə gimnaziya müəllimlərindən ikisi evlərində 12 gimnazist saxlayırdı.[5]

[1] Bax: "Kafkaz" qəzeti, № 134, 1872-ci il.
[2] Sirkulyar... KUO, № 7, 1873, əlavə. QTD popeçitelinin 1872-ci ilə aid hesabatı, s. 180.
[3] Yenə orada.
[4] Sirkulyar... KUO, 1872, № 5-6, əlavə QTD popeçitelinin 1871-ci ilə aid hesabatı, s. 24.
[5] Yenə orada, s. 24–25.

Pansiona nisbətən müəllimlərin evlərində yaşamağın çox xərc tələb etməsinə baxmayaraq, əhalinin öz uşaqlarına orta təhsil vermək cəhdi, bir tərəfdən Bakı realnı məktəbinin, həqiqətən, əhalinin təhsil tələblərinə cavab verməsi ilə, digər tərəfdən isə oxumaq istəyənlərin çox olması ilə izah olunur. Paralel siniflərin açılması da bununla əlaqədar idi.

Sonralar mə'lum səbəblərə görə H.Zərdabinin Bakı realnı məktəbindən uzaqlaşdırılması, 70-80-cı illərin irticaçı siyasəti və ümumiyyətlə, çarizmin ucqar xalqların maarifinə e'tinasız münasibəti, digər tərəfdən də orta təhsilin rus dilində olduğuna və təhsil haqqının çoxluğuna, əhalinin geniş hissəsi içərisində dini-fanatizmin möhkəm kök salmasına və s. səbəblərə görə geniş əhali kütləsi orta təhsildən, demək olar ki, kənarda qalırdı. Orta məktəblər Azərbaycanın yalnız üç şəhərində olduğundan digər şəhərlərin (hələ kəndlər bir yana qalsın) sakinləri öz uşaqlarına orta təhsil verməkdən məhrum idi. Bütün bunlara görə mövcud orta məktəblərdə təhsil alan azərbaycanlıların sayı şagirdlərin ümumi sayının 10—15%-ni təşkil edirdi. Məs., 1890-cı il yanvarın 1-nə olan mə'lumata görə Bakı realnı məktəbində azərbaycanlılar 12,1%, Şuşa realnı məktəbində 16,6%, Gəncə gimnaziyasında isə 11,5% təşkil edirdi.

Şagirdlərin silki tərkibinə görə dvoryanlar, şəhər sakinləri böyük üstünlük təşkil edirdi. 1890-cı ilin mə'lumatına görə Azərbaycandakı orta məktəblərdə oxuyan kəndli uşaqları Gəncə gimnaziyasında 1,9%, Bakı realnı məktəbində 4,6%, Şuşa relnı məktəbində isə 6,2% təşkil edirdi. Əsrin sonlarında kəndli uşaqlarının sayının Şuşa realnı məktəbində nisbətən artdığı müşahidə olunur (1895-ci ildə 15,1%).[1]

Bütün bunlara baxmayaraq, orta məktəbdə təhsil almaları nəticəsində azərbaycanlıların bir dəstəsi Rusiyanın bir sıra ali məktəblərinə daxil olmuş və oranı bitirdikdən sonra Azərbaycanda xalq maarifi, elm və mədəniyyətin müxtəlif sahələrində unudulmaz xidmətlər göstərmişlər.

[1] Bax: QTD popeçitelinin 1895-ci ilə aid hesabatı, Tiflis, 1896, əlavə №1, s. 135 (rusca).

§ 5. NATAMAM ORTA VƏ ORTA MƏKTƏBLƏRİN DAXİLİ İQTİZAM QAYDALARI

Natamam orta və orta məktəblərdə şagirdlərin davranışı üzərində ciddi nəzarət hökm sürürdü. Onların hər bir hərəkəti ayrıca hesaba alınırdı. Pansionda olan şagirdin hər birinin xüsusi konduit vərəqəsi var idi. Bu vərəqədə onların gündəlik hərəkəti və davranışı qeyd edilirdi. Lazım gələrsə şagirdin valideynində yazılı mə'lumat verilirdi. Bir sözlə, hər bir şagirdin tam və müfəssəl salnaməsi tərtib və təsvir edilirdi.

Qoyulmuş qaydaların-cəza tədbirlərinin sözsüz yerinə yetirilməsi intizam tərbiyəsində mühüm amil hesab edilirdi. Bakı realnı gimnaziyasının inspektoru Qeorqizonun cəza tədbirlərinin hökmən yerinə yetirilməsi üçün göstərdiyi inadkarlıqdan bəhs edən dairə inspektoru yazırdı: "Bu sonuncu hamısından vacibdir. Qoyulmuş hər hansı bir qaydanın yerinə yetirilməsinə ciddi yanaşmaqdansa, heç bir qayda qoymamaq daha yaxşıdır: Qayda və intizam məktəbin canıdır".[1]

Şagirdlərin ciddi nəzarət altında saxlanılması, onların materializm və digər mütərəqqi nəzəriyyələrin tə'siri altına düşməsinə imkan verməmək siyasətinin nəticəsi idi.

Onsuz da sərt olan daxili nizam-intizam qaydaları 70-80-ci illərin irtica dövründə daha da sərtləşdi. Gimnaziyaların 1871-ci il nizamnaməsi məktəbin daxili nizam-intizam qaydalarını da ciddi nəzarət altına aldı. Hökumət və onun arxalandığı hakim dairələr klassik təhsilə üstünlük verməklə gənclər arasında materialist dünyagörüşün yayılmasının qarşısını almağa çalışırdılar. Bu işdə mürtəce nazirlərdən Tolstoy ilə Delyonov xüsusi sə'y göstərirdi.

1871-ci il nizamnaməsi ilə şagirdlər üzərində nəzarəti gücləndirmək məqsədilə xüsusi sinif mürəbbiləri və onlara köməkçi sifətilə nəzarətçi vəzifəsi müəyyən edildi. Sinif mürəbbisi ilə nəzarətçi şagirdlərin davranışı üçün məs'uliyyət daşıyırdı.

1871-ci il nizamnaməsinin ardınca RXMN tərəfindən 1874-cü il mayın 4-də gimnaziya və progimnaziya şagirdləri üçün xüsusi "Qaydalar" təsdiq edildi.[2]

---

[1] Bax: Sirkulyar... KUO, 1869, № 4, s. 17.

[2] Bax: Pravila dlə uçenikov qimnazii i proqimnazii vedomostva. Ministerstva narodnoqo proeveşeniə. Üirkulər... KUO, 1875 q., № 9, Əlavə s. 1–48.

Bu "Qaydalar" əsasən dini ruhda olub, gəncləri Allaha, çara itaət etmək ruhunda, məktəb rəhbərlərinə mütilik ruhunda tərbiyə etmək məqsədini güdürdü. Şagirdlərin tədris vəsaitindən başqa mətbu əsərləri oxuması, dərslərə aid olmayan kitabların sinfə və ya yataq otağına gətirilməsi, şagirdlərin bu və ya digər cəmiyyətlərə qoşulması, həmçinin ictimai yerlərə getməsi qət'i qadağan idi.

"Qaydalar"da şagirdlərin fiziki və estetik tərbiyəsinə və hifz-səhiyyəsinə aid bə'zi faydalı cəhətlərin olmasına baxmayaraq, o əsasən mürtəce xarakter daşıyırdı.

"Qaydalar" şagirdlərin dərsdən əvvəl və sonra küçədə dəstə şəklində getməsini qadağan edirdi. Şagirdlər istər məktəb daxilində, istərsə də kənarda mütləq məktəbli forması geyinməli idilər.[1]

Müəyyən edilmiş "qaydalar"ı pozan şagirdlərə dörd növ cəza tədbirləri tətbiq edilirdi: 1) məzəmmət etmək; 2) töhmət vermək; 3) yalnız çörək və su verməklə karsa salmaq və 4) məktəbdən xaric etmək.

Orta məktəbdə cəza tədbirləri öz mahiyyətinə görə 2 xarakterdə olurdu: 1) söz ilə, 2) iş ilə. Birinci növ cəzaya ayrı-ayrı hərəkətlər üçün məzəmmət etmək daxil idi. (İrad tutmaq, inandırmaq, nəsihət vermək, hətta bütün sinif qarşısında edilsə belə cəza hesab edilmirdi).

İkinci növ cəza tədbirləri daha geniş olub aşağıdakılardan ibarət idi:

1. Müəllimin təklikdə və ya bütün sinif qarşısında töhmət e'lan etməsi; gələcəkdə təhlükə törədə biləcək töhmət verməsi;
2. Şagirdi az və ya çox müddət yerində-stolun arxasında, yanında və ya qapı yanında ayaq üstə saxlamaq; bir neçə dərs müddətində sinif skamyalarından birində tək otuzdurmaq. Bu növ cəza ən çox boş boğazlıq etdiqdə, yoldaşları ilə bədrəftar etdikdə, pinti, natəmiz olduqda və dərsi pıçıldadıqda edilirdi;
3. Şagirdin hərəkəti və səliqəsizliyi haqda sinif mürəbbisinə, inspektora mə'lumat verməklə, cərimə jurnalına daxil etmək və ya etməməklə, dərsdən sonra bir saat məktəbdə saxlamaq. Şagirdin bu hərəkətinin valideynin nəzərinə çatdırmaq üçün onun gündəliyinə

[1] Canişinin 1868-ci il 10 və 19 dekabr əmrilə gimnaziya şagirdləri xüsusi forma geyinirdi. Məktəbli forması qəza məktəb şagirdlərinə aid deyildi. Yalnız Zaqatala qəza məktəbi şagirdlərinə yerli qara mahuddan (nisbətən ucuz başa gəldiyinə görə) məktəbli forması geyinməsinə icazə verilmişdi.

qeyd edilirdi. Bu tədbir əsasən şagirdin uğursuz olaraq dərsə gecikdikdə təkrar gəlmədikdə və s. hallarda tətbiq edilirdi. Dərsdən sonra saxlanılan şagird nəzarət altında müvafiq tapşırıqları yerinə yetirməli idi.

Ümumiyyətlə, tə'limə can yandırmaq müşahidə edildikdə bazar və ya bayram günləri məktəbdə saxlamaqla (həmçinin evdə valideynin nəzarəti altında) tapşırıqlar icra edilirdi. Bütün bunlardan sonra daha ciddi cəza tədbirləri, o cümlədən yoldaşlarından təcrid etmək, birincidə 1 saatdan 6 saatadək, sonra isə 4 saatdan 8 saatadək karsa salmaq tətbiq edilirdi (bu vaxt yalnız qara çörək və su verilir). Hətta bayram günləri bir sutkaya qədər karsda saxlamağa yol verilirdi.

Nəhayət, pedaqoji şuranın qərarı ilə yarım il ərzində təhsil haqqından azad olmaq və ya təqaüd, yaxud yardım almaq hüququnu ləğv edilir, əxlaqdan rüblük qiymətini aşağı salmaqla töhmət verilirdi.

Sonuncu tədbir şagirdin məktəbdən qovulmasından ibarət idi. Bu tədbir üç növ tətbiq edilirdi: 1)Həmin şəhərdəki başqa məktəbə daxil olmaq hüququnu saxlamaqla; 2)Həmin şəhərdəki digər məktəblərə daxil olmaq hüququndan məhrum etməklə və 3)Ölkədəki digər məktəblərə daxil olmaq hüququndan məhrum etməklə.

Bunlardan əlavə pansionçu və ya yarımpansionçulara aşağıdakı xüsusi cəza tədbirləri tətbiq edilirdi:

1. Şam yeməyindən məhrum etmək;
2. Nahar və ya şam yeməyi zamanı stolun yanında ayaq üstündə saxlamaq;
3. Yeməkdən məhrum edib-etməməklə yemək vaxtı yoldaşlarından təcrid edib, ayrıca stolda otuzdurmaq;
4. Səhər, günorta və axşam yeməyindən məhrum etmək, yalnız qara çörək və su verəmk;
5. Bir neçə saat, bütün gün və ya bir neçə istirahət və bayram günü mə'zuniyyətdən məhrum etmək;
6. Müvəqqəti və ya həmişəlik olaraq pansiondan xaric etmək.

"Qaydalar"a əsasən ayrı-ayrı şagirdlərdən əlavə, bütün sinfə də cəza verilə bilər.

Göründüyü kimi orta məktəblərin daxili nizam-intizam qaydalarında aclıq və bədən cəzası əsas yeri tuturdu.

Orta məktəblərin intizam qaydaları aclığa əsaslanır, quru itaətçilikdə ifadə olunurdu ki, bu da kapitalist cəmiyyətinin ümumi

ictimai və siyasi quruluşundan irəli gəlirdi. Köhnə məktəbdə tə'lim-tərbiyə işi ilə bərabər intizam qaydaları da burjuaziyanın mənafeyinə xidmət edirdi. Köhnə məktəbin bu cəhətini kəskin tənqid edən V.İ.Lenin deyirdi: "Bu məktəblərdə gənc fəhlə və kəndli nəslinə tərbiyə verməkdən artıq onu həmin burjuaziyanın mənafeyi üçün işləməyə alışdırırdılar. Onları elə tərbiyə edirdilər ki, onlardan burjuaziya üçün mənfəət gətirmək bacarığı olan və eyni zamanda burjuaziyanın istirahətini və zəhmətsiz yaşayışını pozmayacaq əlverişli nökərlər yaratsınlar".[1]

Orta məktəblərdə nizam-intizam qaydalarının yerinə yetirilməsində müəllim və tərbiyəçinin şəxsiyyətinə, onun şəxsi nümunəsinə üstünlük verilirdi. Şagirdin hörmət və e'tibarını qazanmaq, həmçinin öz fənninə hörmət və sevgi yaratmaq üçün müəllimin öz işinə və vəzifəsinə məs'luliyyətlə yanaşmasına, fənlərin tərbiyəedici xarakterinə xüsusi əhəmiyyət verilirdi. Tələblərdə ciddilik və vahidlik tələb edilirdi.

Orta məktəb şagirdlərinin intizam tərbiyəsində cəza ilə yanaşı rəğbətləndirmə tərbiyələrindən də istifadə edilirdi. "Qaydalar"a görə tə'lim-tərbiyə sahəsində fərqlənən şagirdlər dərəcələrə bölünürdü. Birinci dərəcəyə o şagirdlər daxil edilirdi ki, onlar əxlaqdan 5, sə'y və ya diqqətdən 5, hər fəndən ən azı 4 qiymət almış olsunlar (qədim dillər və riyaziyyatdan orta hnsabla $4^1/2$ və ya $4^1/3$).

İkinci dərəcəyə əxlaqdan 4, sə'y və ya diqqətdən 4, fənlərin hər birindən ən azı 3 (yuxarıda göstərilən əsas fənlərdən $3^1/2$ və ya $3^1/3$) qiymət daxil edilirdi.

Digər şagirdlər üçüncü dərəcəyə aid edilirdi.

Birinci dərəcəyə aid edilən şagirdlərin adları əvvəlcə sinfin qızıl taxtasına yazılırdı. Əgər şagird bütöv dərs ili bu dərəcəni saxlasa idi, onun adı məktəbin müvəqqəti qızıl taxtasına yazılırdı.

Orta məktəbi qızıl medal ilə bitirənlər və VI-VII siniflərdə oxuyarkən hərəkətində heç bir qüsura yol verməyən şagirdin adı həmişəlik olaraq məktəbin daimi qızıl taxtasına yazılırdı.

Hökumətin bütün tədbiri gəncləri çarizmə sadiqlik ruhunda tərbiyə etməkdən, onları inqilabi əhval-ruhiyyədən yayındırmaqdan ibarət idi.

[1] V.İ. Lenin. Tə'lim və tərbiyə haqqında, Bakı, 1965, s. 219.

Lakin çarizmin siyasətinə nizam-intizam "qaydalar"ının, xüsusilə tədbirlərinin mürtəce və sərtliyinə baxmayaraq, şagirdlər arasında inqilabi hərəkat yayılırdı. Leninqrad şəhərindəki MDTA-da saxlanılan bir sıra sənədlərdə, 1880-ci illərdə Bakı realnı məktəb şagirdləri içərisində inqilabi və marksist ədəbiyyatın yayıldığı göstərilir. Göstərilən ədəbiyyat içərisində "Kommunist partiyasının manifesti", "İnqilabçılar və hadisələrin təbii inkişafı", "Azad mətbuatın biblioqrafiyası", "Xalturinin qış sarayına gəlməsi", "Partiyanın hazırlıq işləri", "Narodnaya Volya" qəzetinin nüsxələri var idi.[1]

§ 6. ORTA MƏKTƏBLƏRİN MÜƏLLİM HEY'ƏTİ

İbtidai məktəblərdə olduğu kimi, orta məktəblərin işindəki ən başlıca qüsurlarndan biri yenə də müəllim kadrlarının çatışmaması idi. Mə'lum olduğu kimi təkcə Azərbaycanda deyil, cəmi Zaqafqaziyada orta məktəb müəllimi hazırlayan xüsusi məktəb yox idi. Orta və natamam orta məktəbin elm-fənn müəllimləri əsasən Rusiyadan göndərilirdi. Bunların arasında öz zəhmətləri ilə fərqlənən bə'zi müəllimlər var idi.

Bakı realnı məktəbinin müəllimlərindən: rəsm və rəsmxət müəllimi Xodoroviç, riyaziyyat müəllimi Çerntsov, tarix və coğrafiya müəllimi Kaşevski, kimya müəllimi Novitski və başqalarının müvəffəqiyyəti və işə can yandırmalarına aid bir sıra sənədlər vardır.

QTD-nin popeçiteli Bakı realnı məktəbinin birinci buraxılışının müvəffəqiyyətilə əlaqədar olaraq 1871-ci il iyunun 13-də Bakı məktəblər direksiyasının direktoruna yazırdı.

"Siz zati-alilərinə tapşırılmış Bakı realnı gimnaziyasının imtahanlarında iki həftə ərzində daim iştirak edərək böyük məmnuniyyətlə gördüm ki, orada tədris işi çox əsaslı aparılır və indi gimnaziyanın tam kursunu bitirən gənclərin ilk buraxılışı tamamilə ümid etməyə əsas verir ki, dövlət və cəmiyyət onlardan faydalı xadimlər əldə edəcəkdir. Gimnaziyanın təşkilində çəkdiyimiz zəhmətə, həmçinin ona verdiyiniz istiqamətə görə sizə səmimi minnətdarlığımı bildirməyi özümə xoş hesab edirəm. Tamamilə əmin oluram ki, siz nəinki artıq əldə edilmiş fərəhli nəticələri saxlayacaqsınız, həm də

[1] Həmin ədəbiyyat Bakı realnı məktəbinin keçmiş şagirdlərindən biri tərəfindən Moskvadan Bakıya öz yoldaşlarına göndərilmişdi (Bax: LMDTA, f.1410, s.1, iş № 518).

gimnaziyada əsası qoyulmuş tədris işinin bu xoş başlanğıcını gələcəkdə də inkişaf etdirəcəksiniz".[1]

Buraxılış imtahanlarının müvəffəqiyyəti üçün dairə popeçiteli gimnaziyanın inspektoruna, müəllimlərinə, xüsusilə, gimnaziya müəllimi – Novitskiyə, riyaziyyat müəllimi Çerntsova və Kojevskiyə, tarix müəllimi Levitskiyə özünün səmimi təşəkkürünü bildirmişdir.

Popeçitel, Novitskinin xidmətlərini xüsusilə qeyd edirdi. O, yazırdı: "Novitski özünün tədris etdiyi fənnə şagirdlərdə sevgi təlqin etməsi və onların kimyadan ə'la müvəffəqiyyətli, bununla bərabər laboratoriyanın gözəl təşkili və şagirdlərin işlərində qayda qoyulması və s. cb. Novitskini mənim tabeliyimdə olan tə'lim dairəsinin ən yaxşı müəllimləri sırasından hesab etməyə əsas verir".[2]

Bakı realnı məktəbi müəllimlərinin ictimai mədəni fəaliyyət dairəsi daha geniş idi. Məktəbin alman dili müəllimi Xristian Tsink Bakıda "Bakinski listok" adında həftəlik qəzet nəşr etdirirdi.

X.Tsinsk həm də Bakı realnı məktəbinin pansionunda yerləşə bilməyən şagərdlərdən bir neçəsini özünün ev pansionunda saxlayırdı.

Orta məktəb müəllimlərinin qabaqcıl hissəsi, həqiqətən, Azərbaycanda xalq maarifi və məktəbinin tərəqqisi uğrunda əllərindən gələni edirdilər. Bununla bərabər ibtidai məktəblərdə olduğu kimi, orta məktəb üçün də elm-fənn müəllimləri axtarıb tapmaq hər dəfə böyük çətinliklərə səbəb olurdu. "Ölkə müəllim çatışmazlığına mə'ruz idi.[3] Zaqafqaziya tədris müəssisələri baş inspektoru 1869-cu ilə aid hesabatında yazırdı ki, istər qəza məktəblərində, istərsə də gimnaziyalarda müəllim çatışmazlığı hər dəfə qarşıda durur. Demək olar ki, ginaziyaların heç birində rus ədəbiyyatı, qədim dillər və tarix müəllimi yoxdur".

Rusiyanın daxili quberniyalarından göndərilən müəllimlərlə ehtiyacı ödəmək mümkün olmurdu.

Keçən əsrin 70-ci illərindəki orta məktəblərin elm-fənn müəllimləri içərisində azərbaycanlılara rast gəlmirik. Azərbaycanlılardan olan müəllimlər yalnız şəriət və Azərbaycan dilinin tədrisi ilə məşğul olurdular.

---

[1] Sirkulyar... KUO, 1971, iş № 5-6, s. 12.

[2] Yenə orada, s. 12-13.

[3] Üirkulər po upravleniö qlavnoqo inspektora uçebnıx zavedeniy na Kavkaze i za Kavkazom, Tiflis, 1987, № 5–6, s. 4.

70-ci illərdən başlayaraq orta məktəbin elm-fənn müəllimi vəzifəsində azərbaycanlıların da işləməsini görürük.

Azərbaycanlılardan olan ilk ali təhsilli müəllimlərdən biri və birincisi, gələcəyin məşhur pedaqoqu H.Zərdabi idi.

1865-ci ildə Moskva Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiətşünaslıq şö'bəsini ə'la müvəffəqiyyətlə bitirən Həsən bəy Məlikov Zərdabi 1869-cu il noyabrın 18-də QTD popeçitelinin əmrilə Bakı realnı gimnaziyasına təbiyyat tarixi müəllimi vəzifəsinə tə'yin edildi.[1]

H.Zərdabi cəmi Zaqafqaziyada azərbaycanlılar arasında ilk ali təhsilli elm-fənn müəllimi idi.

QTD-nin popeçiteli Qafqaz mə'zunlarından olub Rusiyanın müxtəlif ali məktəblərində təhsil alaraq orta məktəblərdə müəllimliyə göndərilənlərdən bəhs edərkən, 1869-cu ilə aid hesabatında Qafqaz canişininə yazırdı:

"Belə müəllimlərdən biri müsəlman dininə mənsub olan Həsən Məlikov bu il Bakı realnı gimnaziyasına təbiyyat müəllimi tə'yin edilmişdir və o öz öhdəsinə düşən vəzifəni böyük şərəflə yerinə yetirir. O, gimnaziyada müsəlmanlardan olan yeganə elm-fənn müəlliminin ilk nümayəndəsidir".[2]

Bakı realnı məktəbinin ən nümunəvi müəllimlərindən biri, bəlkə də, birincisi olan H.Zərdabi səmərəli fəaliyyətinə görə 1874-cü il dekabrın 20-də imperatorun fərmanı ilə müsəlmanlar üçün müəyyən edilmiş III dərəcəli müqəddəs Anna Ordeni ilə təltif edildi.[3] O, realnı məktəbin, həqiqətən, nümunəvi müəllimlərindən biri idi. 1876-cı ilin mə'lumatında deyilir ki, o, tədris ili ərzində 607 saat dərs demiş, lakin bir dəfə də olsun nə dərsə gecikməsi, nə də dərs buraxması qeydə alınmışdır.[4]

H.Zərdabinin fəaliyyəti, ciddi-cəhdi Bakı realnı məktəbində və dövlət məktəblərində oxuyan azərbaycanlıların sayının xeyli artmasına böyük tə'sir etmişdir. O, özünün geniş elmi-pedaqoji və ictimai fəaliyyəti nəticəsində məktəbə, elm və təhsilə marağı artırmış, onun əhəmiyyətini xalqa dönə-dönə izah etmiş, M.F.Axundovun xalq

[1] Bax: Sirkulyar... KUO, 1869, № 12, s. 29.
[2] Bax: Sirkulyar... KUO, 1870, № 4, əlavə 1869-cu ilə aid hesabat, s. 29.
[3] Yenə orada, 1874, № 12, s. 245.
[4] Yenə orada, 1876, № 5-6, s. 279.

maarifi, ana dili tə'limi ideyasını inkişaf etdirmişdir. Onun "Əkinçi" qəzeti XIX əsrdə Azərbaycanda xalq maarifinin carçısı olmuşdur. H.Zərdabi özünün "Əkinçi"si ilə geniş xalq kütlələrinin gözünü açmağa, xalqı cəhalət yuxusundan oyatmağa, tərəqqi etməyə çalışırdısa, təcrübi müəllimlik fəaliyyəti ilə azərbaycanlı balalarını təhsil almağa, elm öyrənməyə, rus dilini mənimsəməyə yönəldir, ona maddi kömək, mə'nəvi ruh verirdi.

XIX əsrin sonuncu 10 ilində Bakı realnı məktəbində azərbaycanlılardan olan digər bir müəllimə də rast gəlirik. Bu dövrünün görkəmli müəllimi, gələcəyin böyük inqilabçısı N.Nərimanov idi.

1891-ci ildə Borçalı mahalından Bakıya gələn N.Nərimanov Pobedonostsevin xüsusi məktəbində, sonra isə 1896-cı ildə, Bakı realnı məktəbi direktorunun təqdimi ilə həmin məktəbin sinif mürəbbisi, köməkçisi və Azərbaycan dili müəllimi vəzifəsində işləmiş, özünün "bacarığı, xeyirxahlığı və ümumiyyətlə, ləyaqəti ilə fərqlənmişdir".[1]

Yeri gəlmişkən qeyd edək ki, RXMN-nin 6 oktyabr 1885-ci il 15.003 №-li sərəncamına görə Məhəmməd dininə mənsub olanlar orta məktəb müəllimliyinə çox nadir hallarda qəbul olunurdu. N.Nərimanovun Bakı realnı məktəbinə müəllim tə'yin edilməsi onun bacarıqlı müəllim olmasının nəticəsi idi.

Məqalə akad. H.M. Əhmədovun məxsi arxivində saxlanılan əlyazmasından ilk dəfədir çap olunur.

[1] Gürc. Resp. MDA, f. 422, s. 1, iş № 5693, v. 2.

Q A D I N T Ə H S İ L İ

§ 1. XIX əsrin əvvəlləri və ortalarında Azərbaycanda qadın təhsilinin ümumi səciyyəsi

XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifinin ümumi və vahid sistemi olmadığı kimi, qadın təhsili sistemi də yox idi. Dövlət tərəfindən təşkil edilmiş istər xüsusi, istərsə də qarışıq qız məktəbləri olmadığından, qızların təhsili ayrı-ayrı şəxslər tərəfindən evlərdə həyata keçirilirdi. Bir sıra arxiv sənədlərində və mətbu əsərlərdə evlərdə qadın müəllimlərinin (mollaların) yanında və ya məscid nəzdindəki məktəblərdə (oğlanlarla birlikdə) qızların elementar təhsil almalarına aid az-çox mə'lumat vardır.

1830-cu illərə aid olan mənbələrdən birində Bakıda qala şəhərində iki qadın müəllimin (mollanın) yanında 25 qızın oxuması göstərilir[1]. Nisbətən sonraya — XIX əsrin ortalarına aid olan mənbələrdə həmin məktəbdarların və tədris edilən fənlərin adları da qeyd edilir və daha ətraflı mə'lumat verilir. Bu mənbələrdən birində Bakıda Məşədi Səkinə və Xırdaxanım adlı iki qadının öz evlərində xüsusi qız məktəbi açması, burada dini kitablarla bərabər, dünyəvi elmlərin tədris edilməsi, ipək saplarla tikiş tikmək öyrədilməsi qeyd edilir[2]. Xırdaxanımın evində olmuş N.S.Stepanova adlı başqa bir müəllif isə «İki il Qafqazda» əsərində yazır:

«Bakıda ikən Xardaxanım adlı bir qadının öz evində təşkil etdiyi məktəbə getdim. Çox gözəl, zərif, gənc bir qadındır. 5 qıza dərs verir. Dediyinə görə ana dili, hesab, fars dili, tarix, nəğmə, rəsm, Qur'an və şəriət dərsləri keçir. Mən Şərq musiqisini başa düşməsəm də, deyə bilərəm ki, müəllimə xanım qabil xanəndədir, şagirdləri də gözəl oxuyurlar. Sonra qızların çəkdikləri şəkillərə, tikdikləri tikmələrə baxdım, oxularına qulaq asdım. Adam inana bilmir ki, bu qızları öyrədən xanım müəllim deyil, adi ev qadınıdır.»[3]

XIX əsrin ortalarında Bakıda ruhani təhsili almış qadınların sayına aid mə'lumat da çox xarakterikdir. 1851-ci ilin mə'lumatına görə Bakıda ruhani kişilərə nisbətən ruhani qadınların sayı daha çox

[1] Bax: Obozrenie Rossiyskix vladeniy Zakavkazğem, S.Peterburq, 1836 q., ç. IV, s. 46
[2] Y.A.Qaqemeystr. Şamaxı quberniyasının statistik təsviri,... «Zakavkazskiy kray», SP9, 1857, s. 16.
[3] N.S.Stepanova. İki il Qafqazda, Qazan, 1858.

idi. (Birincilər 82, ikincilər isə 91 nəfər idi. Əhalinin ümumi sayı içərisində qadınların sayı da kişilərdən çox idi. Cəmi 7.125 nəfər azərbaycanlıların 3585 nəfərini qadınlar təşkil edirdi.)[1] Göstərilən 91 nəfər ruhani qadının da öz evində məktəb saxlamasını və yaxud ayrı-ayrı qızlara fərdi təhsil verməsini güman etmək çətin deyildir.

Mütəşəkkil olmasa da, bu məktəblərdə qızlar ruhani təhsildən əlavə, həm də az-çox dünyəvi bilik əldə edir, əsasən isə oxu və yazı öləcədə, əl işləri öyrənirdilər.

Belə məktəblər Şuşa, Şamaxı, Gəncə, Nuxa və b. şəhərlərdə də var idi. Belə məktəblərdən biri dövrünün maarifpərvər qadınlarından biri olan Güllübəyim xanım tərəfindən 1850-ci ildə Şamaxı şəhərində açılmışdır. Dövrünün sırf ruhani məktəblərindən fərqli olan bu məktəbdə şəriət ilə yanaşı ana dili, hesab, fars dili, tarix, nəğmə və rəsm tədris edilirdi. Bundan əlavə, əl işi - gülabətin sapla tikiş tikmək öyrədilirdi.

Güllübəyim xanımın məktəbi özünün orijinallığı və mütərəqqiliyi ilə diqqəti cəlb edirdi. Şamaxıda olmuş N.S.Stepanova bu məktəb haqda aşağıdakı mə'lumatı verir:

«Mənə dedilər ki, Güllübəyim adlı bir tatar (azərbaycanlı — H.Ə.) xanımı evində xüsusi məktəb açmışdır. Müəllim olmaq e'tibarı ilə bu məni çox maraqlandırdı. Güllübəyim xanımın əri Hacı İsmayılı axtarıb tapdım və evinə getməyə icazə istədim. Ertəsi gün səhər rus və tatar (Azərbaycan — H.Ə.) dtllərini bilən bir erməni xanımı ilə Güllübəyim xanımgilə getdik. Bu, 25–28 yaşlarında, ucaboylu, qaraqaşlı, qara gözlü, uzun hörüklü, olduqca gözəl bir xanım idi. Şagirdlər gözəl xətlə yazır, rəvan oxuyurdular. Onların çəkdiyi şəkillər, tikdiyi tikmələr xoşuma gəldi. Qızlar nəğmə dərsində 3–4 mahnı oxudular. Şərq musiqisini bilməsəm də, deyə bilərəm ki, gözəl səsləri var idi. Gözəl oxuyurdular, xüsusilə müəllimə xanım özü. Mən belə bir müəllimənin adi ev xanımı olduğuna inana bilmədim...»[2]

Güllübəyim xanımın evində oxuyan qızlr şe'r dəftəri düzəldir, Azərbaycan və Şərq klassik şairlərinin şe'rlərini oraya köçürüb əzbərləyirdilər, bir-birilə deyişirdilər. Bu qızların bə'zisi şe'r də yazırdı.

[1] Bax: Snasskiy-Avtonomov, Bakı şəhərinin statistik təsviri, Kavkazskiy kalendar na 1852 q. Tiflis, 1851, otd. 3, s. 305.
[2] N.S. Stepanova. «İki il Qafqazda», Qazan, 1858.

Güllübəyim xanım nəğmə dərsləri üçün mahnıları özü bəstələyir, şe'rləri özü yazırdı. O, ərəb, fars, gürcü və ləzgi dillərini başa düşürdü.

Güllübəyim xanımın şəxsiyyəti və təhsili haqqında olan bir mə'lumat da xarakterikdir. Orada deyilir:

«Güllübəyim Mir Mahmudun qızıdır. Təhsilini evdə atasından almışdır. Şamaxıda doğulmuş, uşaq ikən ailəsi ilə birlikdə Tabasarana köçmüş, 16 yaşında ikən yenidən Şamaxıya qayıtmış və ömrünün sonuna kimi orada yaşamışdır. Güllübəyim maarifpərvər qadın olmuş, 1850-ci ildə öz evində dünyəvi biliklər verən xüsusi qız məktəbi açmışdır. Məktəb 1862-1863-cü illərə kimi fəaliyyət göstərmişdir.»

Şamaxı şəhərinin qocaman sakinləri Güllübəyim xanımın özünü və məktəbini indi də xatırlayır və maraqlı xatirələr söyləyirlər.[1]

Göstərilən məktəblər qadın təhsili sahəsində xeyli rol oynamaqla, onun sonrakı inkişafında da tə'sirsiz qalmamışdır.

XIX əsrin 60-cı illərinə aid arxiv sənədlərində Gəncədə 2 qadın müəllimin (mollanın) evdə qız təhsili ilə məşğul olmaları göstərilirdi. Burada cəmi 55 qız oxuyurdu. Onların ikisi xan, 4 nəfəri dvoryan, 3 nəfəri ruhani, 40 nəfəri şəhərli, 6 nəfəri isə kəndli qızları idi.[2]

Qız məktəbləri bir qayda olaraq, əsasən, evlərdə, həm də yalnız qızlar üçün təşkil edilirdi. Bə'zi məktəblərdə qızlarla birlikdə oğlanların da oxumasına rast gəlinirdi.[3] Oğlan məktəblərində olduğu kimi, qız məktəblərində də təhsil haqqı əsasən pullu idi. Təhsil haqqı valideynin varidatından asılı idi. Bə'zi məktəblərdə təhsil haqqı yox idi.

Qız təhsili, əsasən şəhərlərdə az-çox həyata keçirilirdi. Kəndli qızlarının təhsili ilə, demək olar ki, heç kəs maraqlanmırdı.

Çarizmin Azərbaycanda və həmçinin bütün Zaqafqaziyada möhkəmlənməsi, bununla əlaqədar olaraq burada qulluq edən hərbi və mülki mə'mur ailələrinin sakin olması rus qız məktəblərinin meydana gəlməsi ilə nəticələndi.

[1] Bax: Ə. Cəfərzadə. «Güllübəyimin məktəbi», «Azərbaycan qadını» jurnalı, 1969, №12, s. 9

[2] Gürc. Resp. MDA, f. 425, s. 1, iş № 502, v. 88 arx.

[3] Bax: «Qafqaz» qəzeti, № 24, 1846, s. 96.

§ 2. ŞAMAXI «MÜQƏDDƏS NİNA» QIZ MƏKTƏBİ

Cəmi Zaqafqaziyada ilk qız rus məktəbi keçən əsrin 40-cı illərində Tiflisdə açıldı. «Nəcib qızlar» məktəbi adlandırılan bu məktəbdə əsasən Tiflisdə qulluq edən dövlət mə'murlarının və gürcü zadəganlarının qızları oxuyurdu.

Göstərilən məktəbin təşkili, sonralar Zaqafqaziyanın digər quberniyalarında da belə məktəblər açılması zəruriyyətini meydana gətirdi. Bu işdə Qafqazın o zamankı canişini M.S.Vorontstovun həyat knyaginya Y.K.Vorontsovanın yoldaşı xeyli xidməti oldu. Onun təşəbbüsü ilə yerli dvoryanların və Qafqazda qulluğa göndərilən mə'murların qızlarına təhsil vermək ehtiyacını qismən ödəmək məqsədilə 1846-cı ildə Tiflisdə «Müqəddəs Nina» adlı bir xeyriyyə cəmiyyəti tə'sis edildi.

Bu cəmiyyətin məqsədi xəzinəyə zərər vurmadan, əhalidən toplanan ianələr və üzvlük haqqından əldə edilən vəsait hesabına qız məktəbləri açmaq idi. Cəmiyyətin 1846-cı ildə təsdiq edilmiş nizamnaməsində deyilirdi:

«Cəmiyyətin başlıca və birinci məqsədi kifayət qədər varı olmayan valideynlərin qızlarının tərbiyə və zəruri təhsili üçün məktəblər tə'sis etməkdən və zaman keçdikcə Zaqafqaziya ölkəsinin digər şəhərlərində də belə məktəblər açmaqdan, həmçinin digər təbəqələrdən olanların uşaqları üçün Tiflisdə priyut açmaqdan ibarətdir.»[1]

Cəmiyyətin idarə hey'ətinin bütün tərkibi təmənnasız işləyirdi. İlk əvvəl cəmiyyətin maliyyə vəsaiti çox az idi. Lakin ildən-ilə onun vəsaiti çoxalırdı. Cəmiyyətin vəsaiti könüllü toplanan ianələrin faizindən, illik üzvlük haqqından, təhsil haqqından və lotareya vasitəsilə toplanan puldan ibarət idi.[2]

Çox keçmədən bu xeyirxah iş öz nəticəsini verməyə başladı. Y.K.Vorontsovanın təşəbbüsü ilə 1846-cı il mayın 5-də Tiflisdə, 1847-ci il mayın 14-də isə Kutaisidə «Müqəddəs Nina» xeyriyyə cəmiyyətinin məktəbləri açıldı. Azərbaycanda da belə məktəblərin təşkili zəruriyyəti meydana gəldi.

Şamaxı qubernatoru baron Vrangel, onun idarə etdiyi quberniyada heç bir qız məktəbinin olmadığını və bu quberniyada qulluq edən çinovniklərin qızlarına gələcək həyat üçün zəruri olan elementar bilik vermək və bu sahədəki çatışmazlığı aradan qaldırmaq

[1] SPMDTA, f. 1268, iş № 258, v. 17.
[2] Bax: Aktlar, XI cild, s. 736.

məqsədilə Şamaxı şəhərində bir qız məktəbi açmağı xahiş etdi. Baron Vrangelin xahişi Qafqaz canişini və onun arvadı tərəfindən rəğbətlə qarşılandı.Onlar öz şəxsi vəsaitlərindən 1000 man. (gümüş pul ilə) verərək Şamaxıda qız məktəbinin tə'sis edilməsinə kömək etdilər.[1]

Şamaxıda qız məktəbi açılması xəbəri təkcə Şamaxı şəhərində deyil, bütün Şamaxı quberniyasında rəğbətlə qarşılandı və yerli əhalinin yuxarı təbəqələrinin qabaqcıl dəstəsinin hüsn-rəğbətini qazandı. «Müqəddəs Nina» qadın xeyriyyə cəmiyyətinin Şamaxı şö'bəsi yaradıldı. Milliyyətcə müxtəlif olan bu şö'bənin tərkibində azərbaycanlı qadınlar da az deyildi. General-leytenant Mehdiqulu xanın dul arvadı Bədir Cahan Bəyim,[2] Fatma xanım Əsədbəyova, Xədicə xanım Haqverdiyeva, Gövhər xanım (general-leytenant İbrahimxanın qızı), Hürü xanım (podpolkovnik Süleyman xanın arvadı), Balaxanım Xandəmirova[3], Abıhəyat Ağasarova, Tütu xanım Mehmandarova[4] və b. bu cəmiyyətin üzvləri arasında idilər.

Az müddət ərzində bu məktəbin nəfinə xeyli vəsait daxil olmağa başladı. Bu işdə Şamaxı, Nuxa və Bakı sakinləri daha çox fərqlənirdi. İlk dəfə Şamaxı, Nuxa və Bakı qadınlarından 539 man., Lənkəran qadınlarından 126 man, XIV çinovnik sinfinə aid olan Afanasi Lalayevdən 1000 man., şuşalı Axundovdan 1100 man., Əhmədxan İbrahimxanovdan 1000 man., general-leytenant Mehdiqulu xanın dul arvadı Bədir Cahan Bəyimdən 1000 man., Cavadquluağa Cavanşirskidən 1500 man., Karapet Şahmuradovdan 500 man., dəftərxana çinovniki Rozovdan 500 man. və s. ümumiyyətlə, gümüş pul ilə 9000-ə qədər pul toplandı.[5]

Toplanan vəsaitin xeyli olması Şamaxıda qız məktəbini açmağa imkan verirdi. Beləliklə, 1848-ci il aprelin 30-da «Müqəddəs Nina» qadın cəmiyyətinin Şamaxı qız məktəbi tə'sis edildi. Bu, Azərbaycanda ilk rus qız məktəbi idi. Məktəb şamaxılı Rza bəy Hacı Rəhimbəyin daşdan tikilmiş xüsusi binasında yerləşirdi. Ayrıca bağı ilə birlikdə bu bina Rza bəy tərəfindən pulsuz olaraq məktəbin istifadəsinə verilmişdi. Birinci il məktəbə 16 şagird cəlb edildi.[6]

---

[1] Bax: Бакинское учебное заведение...св. Нина. Очерк его развития и современного состояния. Составитель... Б. Абрамович, Баку, 1896 г., с. 3

[2] Bax: Kavkazskiy kalendarğ na 1850, u otd. s. 53

[3] Bax: Kavkazskiy kalendarğ na 1851 q., s. 602

[4] Bax: Kavkazskiy kalendarğ na 1854 q., s. 643, na 1856, s. 560

[5] Bax: Бакинское учебное заведение, св. Нины, очерк его развития и современного состояния, составител Б.Абрамович, Баку, 1986, с. 4

[6] Bax: Кавказский календарь на 1849 г., Тифлис, 1848 г., IV отдел, с. 64

Məktəbin tə'sisi ilə ianələr də get-gedə artır, məktəbə kömək etməyi öhdələrinə götürənlərin sayı çoxalırdı. Elə həmin il Şamaxı sakini Kaspar bəy Kaliyev hər il məktəbin nəfinə gümüş pul ilə 200 man. verməyi öhdəsinə götürdü. Polkovnik Polu Bikə Qaşqalinskaya bu məqsəd üçün 5 il ərzində hər il 100 man. verməyi, Şamaxı sakini Hacıyev birinci il ərzində məktəbi çörəklə pulsuz tə'min etməyi və nəhayət, baron Vrangel özü Şamaxıda qulluq edəcəyi müddət ərzində hər il məktəbin nəfinə 220 man. verməyi öhdəsinə götürdü.

1849-cu ildə Şamaxıya gələn knyaginya Y.K.Vorontsova hər cəhətdən məktəbin işilə tanış olmuş və məktəbə 300 man. ianə etmişdi.[1] Beləliklə, Şamaxı qız məktəbi əsasən iki mənbə: daimi və təsadüfi mənbələrdən əldə edilən vəsait hesabına idarə edilirdi. Daimi mənbə şagirdlərdən toplanan təhsil haqqından, tərpənməz gəlirdən və yığılan kapitalın faizindən ibarət idi. Təsadüfi mənbəyə isə cəmiyyət üzvlərindən toplanan üzvlük haqqı, ayrı-ayrı adamların verdiyi ianələr, lotareyadan əldə edilən gəlir daxil idi.

Bu məktəb üçün iki-üç biletli lotareya buraxılmaşdı. Şamaxı qız məktəbinin saxlanılmasında Şuşa sakinləri xüsusilə fərqlənirdi. O dövrün mənbələrindən birində deyilir ki, Şamaxı qız məktəbi «Şamaxı quberniyasının, əsasən isə Şuşa qəzası yerli sakinlərinin ianəsi hesabına idarə olunur.[2] Şuşalılar ianələrdən əlavə bu məktəbin nəfinə müsamirələr, həvəskarlar tamaşası və lotareya-alleqralar təşkil edirdilər.»[3]

Məktəbin saxlanmasında yerli teatr tamaşalarından əldə edilən vəsaitin də böyük köməyi olmuşdur. «Qafqaz» qəzetində dərc edilmiş bir mə'lumatda deyilir:

«Müqəddəs Nina» qız məktəbinin nəfinə bizim teatrımız (Şamaxı teatrı — H.Ə.) 4 dəfə tamaşa verə bilmişdir.»[4]

Təşkil edilmiş bu tamaşaların hazırlıqsız olmasına və az bir məbləğə başa gəlməsinə baxmayaraq, verilmiş 4 tamaşa nəticəsində 500 man. gümüş pul toplanmış və həm də teatrın əhəmiyyəti dərk edilərək, teatr üçün ayrıca bina tikmək həvəsi meydana gəlmişdi.[5]

[1] «Qafqaz» qəzeti, 11–VI, 1849, № 24, s. 95
[2] Кавказский календарь на 1851, отд. III, с. 429
[3] Bax: Бакинское учебное заведение, св. Нины, очерк его развития и современного состояния, составитель Б. Абрамович, Баку, 1986, с. 5.
[4] «Qafqaz» qəzeti, 1848-ci il, № 74.
[5] «Qafqaz» qəzeti, 1848-ci il, № 74.

«Müqəddəs Nina» xeyriyyə cəmiyyətinin idarəsi də qadın əl işləri və digər şeylərdən ibarət lotareya düzəldirdi ki, buradan əldə edilən gəlir də məktəbin saxlanmasına xərclənirdi.[1]

Şamaxı «Müqəddəs Nina» qız məktəbinin saxlanmasına xəzinədən heç bir vəsait buraxılmır, məktəb quberniyanın yerli əhalisi tərəfindən toplanan vəasit ilə idarə olunurdu.

1850-ci illərdə Şamaxı qız məktəbi bütöv Zaqafqaziyada olan qız məktəbləri içərisində ən çox vəsaitə malik idi. P.Çerepanov «Şamaxının təsviri» adlı məqaləsində yazırdı: «Şamaxı «Müqəddəs Nina» xeyriyyə cəmiyyətinin qız məktəbi ilbəil öz vəziyyətini yaxşılaşdırır və hal-hazırda ə'la vəziyyətdə olmaqla bərabər xeyli miqdar kapitala malikdir.»[2]

1855-ci ildə məktəbin qalıqda 2.900 man. pulu var idi. «Əgər ianə verən xeyirxah Şamaxı bəyləri rəislər tərəfindən rəğbətləndirilsə idi, bu məbləğ daha da artıq olardı.»[3]

Şamaxı qız məktəbində təhsil pullu idi. Əvvəllər təhsil haqqı ildə gümüş pul ilə 80 man. idi. Yarımpansionçular isə təhsil haqqının yarısını verirdilər. Sonralar təhsil haqqı 100 manata qaldırıldı.Bundan əlavə daxil olarkən ağ, paltar, qab, qacaq və s. almaq üçün hər şagirddən bir dəfəlik 30 man. alınırdı.

«Müqəddəs Nina» qız məktəbində rus dili, hesab, əl işləri tədris edilirdi. İstər pansionda yaşayan, istərsə də davam edən qızların sayı get-gedə artırdı.» 1850-ci ildə şagirdlərin sayı cəmi 24 nəfər idi. Pansionçuların sayı getdikcə artırdı. Əvvəllər 10 pansionçu qız olduğu halda, 50-ci illərdə onların sayı 3-4 dəfə artmışdı. Pansionda yaşayanların sayının artmasına ayrı-ayrı ianə və təqaüdlər də az kömək etmirdi. Pansionçuların bir hissəsi ayrı-ayrı ianə, müsamirə və lotareyalardan əldə edilən vəsait hesabına oxuyur və yaşayırdı.

Öz vəsaiti ilə qızların təhsilinə kömək edənlərdən biri Şuşanın sabiq komendantı polkovnik İşşenko idi. O, vəfat edərkən (17/VIII-1852-ci il) Moskva qəyyumluq şurasının kassasında saxlanılan 6500 man. pulun faizini Qafqazda hərbi işdə xidmət edənlərin yetim uşaqlarının oxuması üçün hökumətin tə'yini ilə qız məktəblərindən birinə verilməsini vəsiyyət etmişdi. Həmin vəsait 1853-cü ildə Qafqaz canişini tərəfindən Şamaxı qız məktəbinə verildi.

[1] «Qafqaz» qəzeti, 26 fevral 1849, № 9, s. 35.
[2] Bax: «Кавказский календарь» на 1852 г., Тифлис 1851, отд. III, с. 429
[3] Aktlar, XI cild, s. 735.

Həmin vəsait hesabına 2 təqaüd tə'sis edildi. Bu təqaüdün 4-ü yerli, 2-si isə rus mənşəyindən olan qızlara verilirdi. Bu təqaüdlər knyaginya Vorontsovanın Şamaxı qız məktəbinə göndərdiyi 900 man. pulun faizi hesabına olub, onun adını daşıyırdı.

XIX əsrin ortalarında «Müqəddəs Nina» cəmiyyətinin Şamaxı qız məktəbi təkcə Azərbaycanda deyil, Zaqafqaziyanın Şərq hissəsində və Xəzər ətrafı vilayətlərində mövcud olan yeganə qız məktəbi idi. Tə'limin rus dilində aparıldığı bu məktəb yerli dvoryanlardan olan yeniyetmələrə və burada qulluq edən dövlət mə'murlarının qızlarına bə'zi ictimai tərbiyə verirdi.

Dövlət xəzinəsindən heç bir vəsait buraxılmadan xüsusi şəxslərin təşəbbüsü ilə xeyriyyə hesabına açılmasına və burada oxuyanların silki tərkibinə baxmayaraq, Şamaxı qız məktəbi Azərbaycanda qadın təhsilinin gələcək inkişafına mütərəqqi tə'sir etdi. «Müqəddəs Nina» xeyriyyə cəmiyyətinin işində yuxarı təbəqələrdən olan mütərəqqi azərbaycan qadınlarının iştirakı, azərbaycan qızlarının da təhsilə, rus dilini öyrənməsinə cəlb edirdi. Mütərəqqi azərbaycanlı qadınları təkcə Şamaxıda deyil, digər şəhərlərdə də meydana gələn cəmiyyət məktəblərinin işində də fəal iştirak edirdilər.

Azərbaycanlı qadınlarının 1850-ci ildə İrəvanda təşkil etdiyi müqəddəs Ripsimi xeyriyyə cəmiyyətində iştirak etməsi bu cəhətdən xarakterikdir.

Müqəddəs Ripsimi xeyriyyə cəmiyyətinin İrəvan şö'bəsində Tükəzban, Güllü, Xanım, Xanımcan, Kiçik Xədicə, Zibirə[1]və s. kimi azərbaycan qadınları fəaliyyət göstərir, qadınlar arasında maarifin yayılmasına kömək edirdilər.

Doğrudur, bu qadınların hamısı yuxarı silklərə, imtiyazlı təbəqələrə mənsub idilər. Onların vəsaiti hesabına tə'sis edilən məktəb də imtiyazlı təbəqələrin qızları üçün idi. Bununla belə bu məktəblərin tə'sisi, qadın təhsilinin gələcək inkşafı nöqteyi-nəzərindən faydalı idi.

Bu cəmiyyətin İrəvan şö'bəsi tərəfindən 1850-ci il yanvarın 1-də açılan qız məktəbində rus və ermənilərlə bərabər azərbaycan qızları da təhsil alırdı. 1851-ci ildə bu məktəbdə cəmi 21 qız oxuyurdu ki, onlardan 5-i rus, 13-ü erməni, 3-ü isə azərbaycan qızları idi.[2]

[1] Bax: Кавказский календарь, на 1857, с. 561.

[2] SPMDTA, f.1281,s.5, iş № 115,v.78, və ya «Кавказский календар на 1852», с. 445.

Bə'zi illərdə azərbaycan qızlarının sayının artması müşahidə olunur. Məs: 1856-cı ildə burada təhsil alan 28 şagirddən 7 nəfəri azərbaycanlı qızları idilər.[1]

İrəvan «Müqəddəs Ripsimi» qız məktəbində Azərbaycan dili də tədris edilirdi (həftədə 4 saat). Azərbaycan dili Mir Mehdi tərəfindən tədris edilirdi.[2] İrəvandakı azərbaycan qadınların xeyriyyə cəmiyyətinin bə'zi üzvüləri sadəcə olaraq cəmiyyətin formal üzvü qalmır, onlardan bə'ziləri öz şəxsi vəsaitləri hesabına qız məktəbində xüsusi təqaüdçülər saxlayırdılar. İrəvanlı qadınlardan olan Xanım Tahirova adlı biri məktəbli qızlara xüsusi təqaüd verənlərdən idi.[3]

Beləliklə, XIX əsrin 50-60-cı illərində Şamaxı, Bakı və İrəvan mühitində islam dininin dərin kök saldığı bir şəraitdə azərbaycan qadınlarının digər millətlərlə bərabər qadın xeyriyyə cəmiyyətlərində iştirak etməsi, azərbaycan qadınlarının erməni və rus qadınları ilə birlikdə rus dilində təhsil alması o zamankı dini görüşlərin əleyhinə olub, böyük mütərəqqi hadisə idi.

«Müqəddəs Nina» qadın xeyriyyə cəmiyyətinin Şamaxı qız məktəbi cəmi 11 il yaşadı. 1859-cu il mayın 30-da gecə yarısı Şamaxıda baş verən zəlzələ nəticəsində şəhərin böyük bir hissəsi dağıldı. 32 nəfər şagird yatan məktəb binasının bir hissəsi uçdu, qızlardan zərər çəkənlər oldu (Sultanova adlı bir şagird zədələnmişdi). Şamaxı zəlzələsi qız məktəbinin fəaliyyətini dayandırdı. Şəhərdə məktəb üçün müvafiq bina olmadığından bir müddət bayırda, alaçıqda yaşayan qızlar evlərinə qayıtmalı oldular.[4] Həm də bu vaxt quberniya mərkəzini Şamaxıdan Bakıya köçürmək mülahizələrinin meydana gəlməsi Şamaxı qız məktəbinin müvəqqəti olaraq bağlamaq və onu Bakıya köçürmək fikrinə səbəb oldu.

Məktəbin binası və əşyaları satılaraq pullar Tiflisdə cəmiyyətin mərkəzi şurasına göndərildi. Beləliklə də, Zaqafqaziyanın şərq hissəsində mövcud olan yeganə qız məktəbinin taleyi başa çatdı. 1859-cu ildən 1861-ci ilə qədər Şamaxı «Müqəddəs Nina» qız məktəbinin fəaliyyətində, təbii tənəffüs, əmələ gəldi.

[1] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 51, v. 45.
[2] Yenə orada, v. 39.
[3] Bax: Кавказский календарь на 1871 г. с. 371.
[4] Yalnız daha çox ehtiyacı olan 4 qız knyaqinya Vorontsovanın təqaüdü hesabına Tiflis «Müqəddəs Nina» məktəbinə göndərildi.

§ 3. BAKI «MÜQƏDDƏS NİNA» QIZ MƏKTƏBİ

Quberniya mərkəzinin Şamaxıdan Bakı şəhərinə köçürülməsi Bakıda qız məktəbi tə'sisini sür'ətləndirdi. 1861-ci ilin oktyabrında Bakının general-qubernatoru Tarxanovun xahişilə Şamaxı qız məktəbinin bütün vəsaitinin verilməsi ilə «Müqəddəs Nina» qadın cəmiyyətinin Bakı şö'bəsi tə'sis edildi və Şamaxı qız məktəbi Bakı şəhərinə köçürüldü.[1] Şamaxıda olduğu kimi Bakı «Müqəddəs Nina» qız məktəbi də eyni adlı xeyriyyə cəmiyyəti tərəfindən idarə edilirdi.

Bakı «Müqəddəs Nina» qız məktəbinin təşkili ilə buruda da xeyriyyə cəmiyyətinin şö'bəsi yaradıldı. Şamaxıda olduğu kimi, cəmiyyətin Bakı şö'bəsinin üzvləri arasında xeyli azərbaycan qadınları da var idi.

Xonça xanım Vəzirova, Xədicə xanım Haqverdiyeva, Çimnaz xanım və Balaxanım Bakıxanovalar, Bədirə Məmmedova, Şəhrəbanı xanım Ağabəyova, Fatma Əsədbəyova, Asyabəyim Həsənbəyova, Hacıxanım Haqverdiyeva, Saraybəyim Kərbəlayıxanova, Səadətnisəbəyim Kərimova-İsmayılxanova, Anaxanım Mehmandarova, Surəbəyim Əlixanova, Dostuxanım Məmədikazımbəyova və b. bu cəmiyyətin fəal üzvləri idilər.[2]

Qadın xeyriyyə cəmiyyəti kasıblardn olanların təhsil haqqını ödəməkdən əlavə, onlara geyim və tədris vəsaitilə kömək edir. Səhhəti zəif olan qızların yayda kənd yerlərində dincəlməsinə maddi yardım edirdi.[3]

Şamaxıda olduğu kimi, Bakıda da qız məktəbinin tə'sis edilməsinə təkcə yerli əhali deyil, digər şəhərlərin qabaqcıl adamları da maddi kömək edirdilər.

---

[1] Бакинское учебное заведение, св. Нины, очерк его развития и современного состояния, составитель Б. Абрамович, Баку, 1986, с. 9. «Azərbaycan tarixi»nin 2-ci cildində Bakıda «Müqəddəs Nina» qız məktəbinin 1848-ci ildə açılması göstərir ki, bu yanlışdır (s. 356). Bu yanlış fikir digər tədqiqatçıları da çaşdırmış və onlar da öz məqalələrində həmin müddəanı təkrar etmişlər. Məs: Pedaqoji elmlər namizədi Ə.Cəfərzadə «Bakıda məktəblər» adlı məqaləsində bu səhvi bir daha da dərinləşdirərək yazmışdır: 1848-ci ildə Qafqaz Təhsil Dairəsinin (KUO) əmri ilə şəhərdə «Müqəddəs Nina» adlı qapalı qız məktəbi təşkil edildi» («Bakı» qəzeti, 1969, № 228). Arxiv sənədləri və ilk mənbələr bunları rədd edir. Əvvəl yuxarıda göstərildiyi kimi «Müqəddəs Nina» qız məktəbi heç də QTD-nin (KUO deyil, QTD olmalıdır) əmrilə deyil, eyni adlı xeyriyyə cəmiyyətinin təşəbbüsü ilə açılmışdı. İkincisi, 1848-ci ildə ildə belə məktəb Bakıda deyil, məhz Şamaxıda açılmışdır. Üçüncüsü, həmin məktəb Şamaxıda tə'sis edilərkən (30 aprel 1848-ci il) QTD hələ yaradılmamışdı (həmin dairə 1848-ci ilin dekabrında tə'sis edilmişdir).

[2] Bax: Kavkazskiy kalendarğ na 1864 q., Tiflis, 1863 q., s. 351

[3] SPMDTA, f. k-na (os), s. 1, iş № 6, v. 164.

Şamaxı sakinlərindən Haca Qulu ilə Məşədi Abbas Bakı qız məktəbinin nəfinə 4.000 man., Xəlil ağa ilə Ağabəy Mehdibəyov hərəsi 100 man., Bakı sakini Terqukasov 1000 man. (gümüş pul ilə) vermiş, sonuncu, həmçinin öz binasını pulsuz olaraq 6 ay müddətində məktəbin istifadəsinə vermişdi.

Bakı «Müqəddəs Nina» qız məktəbinin nəfinə həvəskarlar tərəfindən teatr tamaşaları təşkil edilirdi. 1865-ci ildə təşkil edilmiş teatr tamaşalarından birindən 187, digərindən isə 478 man. nəğd pul əldə edilmişdi.[1]

Bakı «Müqəddəs Nina» qız məktəbində ilk dəfə 23 qız cəm oldu ki, onlardan 17 nəfəri öz hesabına oxuyanlar idilər. Bundan başqa, knyaginya Vorontsovanın 6 və polkovnik İşşenkonun 2 təqaüdçüsü var idi. Şagirdlərin sayı az da olsa get-gedə çoxalır, məktəbin nüfuzu artırdı.

XIX əsrin 60-cı illərində Zaqafqaziyanın Şərq hissəsində yeganə məktəb olan Bakı «Müqəddəs Nina» qız məktəbində təkcə Bakı şəhərindən deyil, ətraf yerlərdən olanlar da oxuyurdu. Məktəbin tədris planına şəriət, hesab, rus dili, coğrafiya, tarix, fransız dili, musiqi, hüsnxət və əl işi daxil idi.[2] Məktəbin maddi vəsaiti artdıqca tədris proqramları genişləndirilir, sinif müəllimləri olan qadınlardan əlavə, xüsusi fənn müəllimləri cəlb edilirdi. Təhsil haqqı pullu olub ildə hər şagirddən 100 man. alınırdı.

1860-cı ildə «Müqəddəs Nina» qadın xeyriyyə cəmiyyətinin həyatında bəzi dəyişikliklər edildi. Belə ki, həmin il dekabrın 10-da cəmiyyətin nizamnaməsi qəbul olundu.[3] Bu nizamnamə qız məktəblərinin məqsəd və vəzifəsini, onun idarə edilməsini bir daha dəqiqləşdirdi. Bu məktəblərə bir sıra hüquq və üstünlüklür verildi. Yeni Nizamnamə bu cəmiyyəti daha möhkəm əsaslar üzrə qoydu və cəmiyyət imperatriça Mariya Aleksandrovnanın himayəsinə keçdi ki, bu da onun gələcək fəaliyyətinin tam müvəffəqiyyətinə əsas verirdi. Bununla belə 1860-cı il nizamnaməsindəki bir prinsipial fərqi də qeyd etmək lazımdır. Bu fərq ondan ibarət idi ki, əgər 1846-cı ıl nizamnaməsində cəmiyyətin məqsədi kifayət qədər varı olmayan valideynlərin uşaqlarına zəruri təhsil və tərbiyə verməkdən ibarət olub bu və ya digər təbəqəyə malik olanlara hər hansı bir üstünlük və ya güzəşt haqqında heç bir söz deyilmədiyi halda, 1860-cı il nizamnaməsi dvoryan qızlarının məktəbə qəbul olunmasına üstünlük verirdi.

[1] «Qafqaz» qəzeti, № 36, 1865, s. 202.
[2] Кавказский календарь на 1864 г., Тифлис, 1863 г., с. 351.
[3] SPMDTA, f. 733, s. 191, iş № 15723, v. 45–47.

§ 4. 60-CI İLLƏRİN KƏNDLİ İSLAHATI VƏ QADIN TƏHSİLİNİN BƏ'Zİ MƏSƏLƏLƏRİ

XIX ortalarında cəmi Qafqazda olduğu kimi, Azərbaycanda da qadın təhsili ağır vəziyyətdə idi. Düzgün təşkil edilmiş yeganə «Müqəddəs Nina» qız məktəbi nəzərə alınmazsa, qızların təhsili, ümumiyyətlə unudulmuşdu. Göstərilən məktəbdə əsasən digər millətlərdən olan yuxarı təbəqələrin, dövlət mə'murlarının qızları oxuyurdu. Azərbaycanlı qızları demək olar ki, təhsildən mərhum idi. Tək-tək yerlərdə xüsusi adamlar öz qızlarına təhsil verirdilər ki, bu da bir çox halda dini xarakter daşıyırdı. Əhalinin nəinki aşağı təbəqələri, hətta orta təbəqələri belə düzgün təşkil edilmiş qadın təhsilindən məhrum idi. Bu cəhəti e'tiraf edən Rusiya XMN 1856-cı ildə açıqcasına yazırdı:

«Bu vaxtadək xeyriyyə cəmiyyətləri hesabına olan yeganə qız məktəbləri yalnız dvoryan və çinovnik uşaqları üçündür. Quberniya və qəza şəhərlərində yaşayan orta təbəqələr öz qızlarına müvafiq təhsil verməkdən mərhumdurlar.»[1]

Geniş əhali kütləsinin təhsili isə hökuməti maraqlandırmırdı. Bu vaxt şəhərlərdə əhalinin xeyli hissəsini qadınlar təşkil etməsinə baxmayaraq, qadın təhsilinin vəziyyəti çox-çox aşağı idi.

50-ci illərdə qadın təhsili sahəsində bə'zi layihələr meydana gəldi. Lakin onlar nəticəsiz qaldı. Qadın təhsili (şübhəsiz ki, orta və yuxarı təbəqələrin) məsələsi hökuməti bu məsələ ilə az-çox məşğul olmağa vadar edirdi.

Nəhayət, bu vaxtadək qadın təhsili sahəsində hökumət tədbirlərinin həyati tələblərdən çox-çox uzaq olmasını» dərk edən Rusiya XMN çarın 1856-cı il 5 mart tərixli əmrilə «ilk dəfə quberniya şəhərlərində olmaqla gimnaziya kursuna yaxın qız məktəblərinin təşkilinə aid mülahizələr»[2] toplamağa başladı.

Bununla əlaqədar RXM naziri Norov quberniya şəhərlərindən hansına daha əlverişli qız məktəbləri açmağa ehtiyac var və bunun üçün nə qədər vəsait tələb edilir, bu məktəblərdə hansı fənlər tədris edilməli və onların idarə edilməsi necə olmalıdır və s. aid bütün tədris dairələrinə xüsusi sərəncam göndərdi. QTD-nin popeçiteli baron A.Nikolay, göstərilən sərəncam ilə əlaqədar olaraq Zaqafqaziya

[1] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 82, v. 2.
[2] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 82, v. 2.

qubernatorları və xalq məktəbləri direktorlarından sorğu edərək, onların qadın təhsilinə münasibətlərini xarakterizə edən bir sıra maraqlı mə'lumat topladı.

Şamaxı hərbi qubernatoru o vaxtlar Şamaxıda mövcud olan «Müqəddəs Nina» qız məktəbi bazası əsasında dövlət vəsaitilə belə bir məktəb açmağı faydalı hesab edirdi. O yazırdı ki, bu məktəb yerli əhalidən olan kasıb dvoryan qızlarını tədricən cəlb edər, müsəlmanlarda təhsilin əhəmiyyətinə[1] aid fikir oyadar, həm də qız institutları olan şəhərlərdən aralı düşüb, rəsmi dövlət qulluğunda olan rus çinovnik və zabitlərinin təhsilinə şərait yaradar.[2] Lakin göstərilən məktəb üçün dövlətin vəsait buraxmaması, tələb edilən xərcin əhalinin üzərinə qoyulması buna imkan vermirdi. Şamaxı qubernatoru yazırdı:

«Təəssüf ki, xəzinəyə toxunmadan, qız məktəbi açmaq üçün mən heç bir mənbə nəzərə gətirmirəm. Mənim tabeliyimdə olan quberniya şəhərlərinin gəliri zəif olduğundan, onlar yerli polis idarəsinin və digər zəruri ehtiyacların xərcini belə çox çətinliklə ödəyirlər, öz gəlirlərinin hər hansı bir hissəsini məktəbin saxlanmasına sərf etməyə təmamilə heç bir imkanları yoxdur.»[3]

Qubernator bu işdə Şamaxı şəhərinin və bütöv quberniyanın köməyinə bel bağlamağı əsassız hesab edərək 1849-cu ildə burada ianələr hesabına açılan müsəlman məktəblərinin aqibətini və təcrübəsini xatırladaraq göstərirdi ki, burada «belə əsaslar üzrə meydana gələn məktəb uzun zaman davam gətirə bilməz, çünki belə ianələr az sonra azalır və kəsilir.»[4]

Qadın təhsilinin inkşafını ləngidən əsas səbəblərdən biri də təklif edilən məktəbin rus dilində olması, yuxarı təbəqələr, xüsusilə də dövlət qulluqçularının uşaqları üçün nəzərdə tutulması idi. Dini fanatizmin kök salması da yerli əhalinin rus dilində qız təhsilinə biganə qalmasına səbəb olurdu.

Şamaxı qubernatorunun cavabında deyilirdi: «Burada əhalinin əsas hissəsini təşkil edən müsəlmanlar qadın təhsilinin faydasını hələlik dərk etmir, onlarda qızların kütləvi təhsilinə aid hələlik anlayış yoxdur.»[5]

[1] Rus dili və rus dilində təhsil nəzərdə tutulur.
[2] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 82, v. 11, arx.
[3] Yenə orada., v. 10 arx.
[4] Gürc. Resp., MDA, f.422, s.1, iş № 82, v.10 arx.
[5] Yenə orada.

Onu da qeyd edək ki, qızların kütləvi təhsili dedikdə, qubernator rus təhsilini nəzərdə tuturdu. Bu isə təbii idi. Çünki silah gücü ilə tabe edilən xalqın, hakim xalqın dili, adət və ən'ənəsi kimi, təhsilinə də müəyyən mə'nada , müəyyən müddət xor baxması, biganə qalması qanunauyğun hal idi.

Digər xalqlar kimi, Azərbaycan xalqı da özünün ana dili, adət və ən'ənəsi ilə bərabər əsrlərdən bəri davam edən təhsil «sistemi»nə də alışmışdı. Bu təhsil «sistemi» mahiyyət e'tibarı ilə nə qədər köhnə və həyatdan uzaq olmasına baxmayaraq, xalqın şüuruna möhkəm həkk olunduğundan onu yenisi ilə əvəz etmək uzun vaxt tələb edirdi. Bir çox Əsrlər boyu Şərq təhsili sisteminin möhkəm kök saldığı Zaqafqaziya müsəlmanları içərisində rus dilində qız təhsilinin çox zəif yayılmasının əsas səbəbləri də məhz bu idi. Məktəb üçün tələb edilən vəsaitin xəzinədən deyil, ianələrdən ödənilməsinin təklif edilməsi də hökumət sərəncamları və mülahizələrin kağız üzərində qalması ilə nəticələnməli idi. İrəvan qubernatoru yazırdı ki, mənim şəxsən qəza məktəblərinin müdirləri vasitəsilə orta təbəqədən olanlar üçün qız məktəbləri açmağın mümkün olmasına aid topladığım mə'lumat belə inam yaradır ki, nəinki müsəlmanlar, hətta ermənilər də öz qızlarını təhsil üçün belə məktəblərə göndərmək qərarına gəlmirlər və ona görə də mövcud olan Müqəddəs Ripsimi adına qız məktəbi İrəvan quberniyası üçün hələlik kifayətdir.[1]

Qubernatorların ardınca Şamaxı quberniyasının daxil olduğu Tiflis məktəblər direksiyası da qəza məktəb müdirlərinin mə'lumatlarına əsaslanaraq, Nuxa, Şuşa və Bakı şəhərlərində qız məktəblərinin təşkilini faydasız hesab etdi. Orada deyilirdi: «Göstərilən şəhərlərin əhalisi əsasən müsəlmanlardır. Qızları üçün məktəb nəzərdə tutulan fəxri və varlı müsəlmanlar hər yerdə qızların ictimai tədris müəssisələrinə qoyulmasını öz adət və ən'ənələrinə zidd hesab etdilər.»[2]

Yuxarıdakı mülahizələrə görə 1856-cı ildə orta və yuxarı təbəqələr üçün olsa da qız məktəbləri açmaq baş tutmadı. Lakin bununla belə qadın təhsilinə diqqət artır, XMN tabeliyində olan qız məktəblərinin ilk nizamnaməsinin tərtib edilməsini sür'ətləndirdi. 1858-ci il mayın 30-da hökumət qız məktəblərinin nizamnaməsini təsdiq etdi.

[1] Yenə orada, v.84 arx. və 85.
[2] Aktlar, 12-ci cild, s. 1375

Nizamnaməyə görə qız məktəbləri 2 dərəcəyə bölünürdü: I dərəcəli qız məktəblərində təhsil müddəti 6 il, II dərəcəli qız məktəbində isə 3 il idi. Hər iki məktəb dərəcəsinin məqsədi eyni olub gələcək hər bir qadına dini, əxlaqi və əqli təhsil vermək idi. Bu dərəcələrin fərqi ancaq verilən biliklərin həcmində idi.

Təhsilin məzmununa gəldikcə bu XMN tərəfindən təsdiq edilmiş proqram və dərsliklərlə müəyyən edilirdi. Bu məktəblərin maliyyə vəsaiti dövlət hesabına olmaqdan əlavə ayrı-ayrı təşkilat, idarə və xüsusi yardımlardan ibarət idi. Bu nizamnamə ancaq 2 il qüvvədə qaldı. 1860-cı il mayın 10-da qız məktəblərinin yeni nizamnaməsi qəbul olundu. Bu nizamnamə də mahiyyət e'tibarı ilə əvvəlkindən o qədər də fərqlənmirdi, yalnız bu məktəblərin xərci dövlət tərəfindən deyil, ayrı-ayrı cəmiyyətlər və xüsusi yardımlar hesabına aid edildi. 1860-cı il Nizamnaməsi yerli şəraiti, imperiyaya daxil olan müxtəlif xalqların ən'ənəsi və mədəni tələblərini nəzərə almırdı.

§ 5. ZAQATALA QIZ MƏKTƏBİ

1860-cı illərin ictimai hərəkatı qadın təhsilinin inkşafına tə'sirsiz qalmadı. 1864-cü il aprelin 11-də Tiflisdə bütün dərəcələr və təbəqələrdən olan qızlar üçün birinci dərəcəli qız məktəbi açıldı. Bu məktəb Zaqafqaziyanın digər yerlərində də bu tipli qız məktəblərinin açılmasına nümunə oldu. Bu vaxt Teymur xan Şura, Pyatiqorsk, Dərbənd ilə bərabər Zaqatalada da aşağı qız məktəbi meydana gəldi.

1864-cü il oktyabrın 1-də Zaqatala qalasında ayrı-ayrı xeyriyyəçilərin hesabına bütün dinlərə və təbəqələrə məxsus olanlar üçün 2 sinifli qız məktəbi açıldı.[1]

Zaqatala qız məktəbi ümumi Rusiya qız məktəblərinin 10 may 1860-cı il nizamnaməsinə əsaslanırdı. Məktəb Alazan çayının sol sahilindəki hərbi hissənin komandiri, general Karmalinin təşəbbüsü ilə açıldı. Onun arvadı Karmalina da bu işdə fəal iştirak edir, bu məqsəd üçün ordu zabitlərindən ayrı-ayrı varlılardan ianə toplayırdı. Məktəbə vəsaitlə kömək edənlər içərsində Qafqaz canişini Mixail Nikolayeviç və onun arvadı Olqa Fyodorovna da var idi.[2]

[1] Кавказский календарь на 1866 г., Тифлис, 1865, VI отд., с. 42. SPMDTA, f. 1268, s.10, iş № 153, v. 1 Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 6930, v.10; f.423, s. 1, iş № 38, v. 7.
[2] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 6930, v. 10.

Zaqatala qız məktəbi ilk dəfə hazırlıq sinfindən ibarət (2 şö'bədən) təşkil edildi. Məktəbə ilk dəfə 33 nəfər qız qəbul olundu (15 nəfəri yuxarı, 18 nəfəri aşağı şö'bəyə). Məktəbin nəzdində pansion var idi. Pansiona əsasən, ləzgilərdən və inqiloylardan olan fəxri sakinlərin qızları qəbul olunurdu. Təhsil pullu idi. Pansionda qalanlardan ildə 50, davam edənlərdən isə 12 man. təhsil haqqı alınırdı. Tədris planına daxil olan fənlər bunlar idi: şəriət (pravoslav və müsəlman), rus dili və qrammatikası (təcrübi çalışmalarla), hesab, hüsnxət, əl və təsərrüfat işləri.[1]

Pravoslav şəriəti, rus dili, hesab və hüsnxətt təmənnasız olaraq Zaqatala ibtidai məktəbinin müəllimi tərəfindən tədris edilirdi. Məktəb ayrı-ayrı şəxslərin könüllü ianəsi və təhsil haqqından toplanan vəsaitlə idarə olunurdu. Birinci il könüllü ianələrdən 2.506 man. 58 qəp. toplanmışdı.

Məktəbin xeyirxah məqsədini nəzərə alan İlisu naibliyindən olan mayor Mahmud ağa Həsən ağa oğlu özünün iki evini pulsuz olaraq məktəbin istifadəsinə vermişdi. Yerli sakinlərdən N.Mahmudoğlu isə məktəb üçün iki mərtəbəli tədris binası tikmək üçün öz torpağından pulsuz olarq müvafiq sahə ayırmışdı. Ümumiyyətlə, yerli əhali məktəbə hər cür kömək edirdi.

«Rusiyada nadir və faydalı olan Zaqatala qız məktəbi»[2] az müddət içərisində əhalinin hörmətini qazandı. Bu məktəbin artıq mövcud olduğunu və xəzinədən heç bir vəsait tələb etmədiyini, həmçinin onun faydasını və yerli ehtiyaca müvafiq olduğunu nəzərə alan Qafqaz canişini 1865-ci il noyabrın 3-də həmin məktəbin nizamnamə layihəsini — «Qaydaları» təsdiq etdi.[3]

«Qaydalar»a görə hazırlıq və əsas iki sinifdən ibarət nəzərdə tutulan bu məktəbin məqsədi «Zaqatala şəhərində yaşayan bütün dinlərə və təbəqələrə mənsub olanların qızlarına elementar tə'lim və tərbiyə verməkdən ibarət idi.»[4] Təhsilin müddəti bir il idi.

Bir neçə il fəaliyyət göstərdikdən sonra, 1869-cu ildə vəsaitsizlik üzündən məktəb müvəqqəti olaraq bağlandı. 1871-ci ildə əhalinin maddi köməyi nəticəsində məktəb yenidən fəaliyyətə başladı. Az müddət ərzində məktəbə 8.747man. ianə toplandı.[5]

[1] Gürc. Resp., MDA, f. 423, s. 1, iş № 38, v. 11
[2] Кавказский календарь на 1866 г., Тифлис, 1865, VI отд., с. 42.
[3] SPMDTA, f. 1268, s. 10, iş № 153, v. 2.
[4] Gürc. Resp., MDA, f. 423, s. 1, iş № 38, v. 11.
[5] Yenə orada.

Əsrin sonuna qədər fəaliyyətini davam etdirən Zaqatala qız məktəbində əvvəllər şagirdlərin sayı çox az idi (məs: 1875-ci ildə 30, 1877-ci ildə 17 nəfər). Bununla belə burada tə'lim, xüsusilə rus dili daha müvəffəqiyyətlə tədris edilirdi. Məktəbdə təşkil edilən səhnəciklər, musiqi gecələri, ədəbi-bədii tədbirlər xüsusilə diqqəti cəlb edirdi.[1]

1895-ci ildə məktəbin nəzdində bazar günü məktəbi təşkil edildi.[2]

Əsrin sonlarında şagirdlərin sayı xeyli artıq idi (1890-cu ildə 80 nəfər).[3] Əhalinin qadın təhsili tələbinin artması ilə əlaqədar olaraq Zaqatala qız məktəbi 1904-cü ildə 4 sinifli Marinski qız məktəbinə çevrildi.

XIX əsrin 60-70-ci illərin ictimai-siyasi və pedaqoji hərəkatı Azərbaycanda qadın təhsilinin canlanmasına xeyli kömək edirdi. Bu hərəkatın tə'siri nəticəsində Azərbaycanın bə'zi şəhərlərində xüsusi qız məktəbləri tə'sis edilirdi ki, tavanasız təbəqələr xeyli aşağı təhsil haqqı verməklə qızlarına ibtidai savad və rus dili öyrədirdilər.

Belə məktəblərdən biri 1867-ci ildə Gəncədə M.Yengibarova tərəfindən açıldı.[4] Maddi cəhətdən sıxıntı içərisində olmasına və tədris vəsaitinin çatışmamasına mə'ruz qalmasına baxmayaraq şagirdlərin tə'lim müvəffəqiyyəti nəzəri cəlb edirdi.

Bu dövrdə də hələ azərbaycanlı qızlar üçün ayrıca təşkil edilmiş mütəşəkkil qız məktəbləri yox idi. Bu vaxt Dərbənddə mövcud olan yeganə müsəlman qız məktəbi isə ağır vəziyyətdə olub, şagirdlərinin sayı get-gedə azalırdı. 1869-cu ildə burada cəmisi 20 qız oxuyurdu. Müsəlmanlar arasında qızların dünyəvi təhsili məsələsinə hələ də fikir verilmirdi. Mövcud olan rus qız məktəblərində oxuyan azərbaycanlı qızlarının sayı tək-tük idi.

Ümumiyyətlə, qadın təhsilinin təşkili yenə də mövcud məktəblər içərisində Bakı «Müqəddəs Nina» qız məktəbi daha əlverişli şəraitdə idi. Tədris işinin qoyuluşuna və məktəbin müvəffəqiyyətinə görə Bakı qız məktəbi Tiflis, İrəvan və Vladiqafqaz qız məktəblərindən irəlidə gedirdi.

QTD popeçiteli 1869-cu ilə aid hesabında yazırdı: «Hesabat ilində Tiflisdən başqa, Vladiqafqaz, İrəvan və Bakı qız məktəblərində

[1] Bax: «Тифлисский листок» qəzeti, 1897, № 4.
[2] Sirkulyar... KUO, 1895, № 12, s. 1203.
[3] Gürc.Resp., MDA, f.12, s.7, iş № 2687, v.14
[4] Bax: Sirkulyar... KUO, 1867, № 4, s. 4

şəxsən olmuşam. Bu məktəblər içərisinlə Bakı «Müqəddəs Nina» məktəbi mənə xüsusilə xoş tə'sir bağışladı».[1]

Popeçitel yazırdı ki, burada digər fənlərlə bərabər, rus dili elə əsaslı şəkildə tədris edilirdi ki, bundan gələcəkdə məktəb üçün xeyirli nəticələr gözləmək olar.

Bu vaxt 4 sinifdən ibarət olan Bakı qız məktəbi artıq progimnaziya kursuna malik idi. Bu məktəbi bitirənlərdən bir neçəsi elə həmin məktəbdə və kənar yerlərdə müəllimlik edirdi.

1870-ci illərdə Bakıda göstərilən məktəbdən əlavə, həm də nahardan sonra qız məktəbi var idi ki, burada əl işləri və ibtidai savad öyrədilirdi.[2]

Keçən əsrin 70-ci illlərində qız təhsilinə tələb və ehtiyac Bakıda daha çox özünü göstərirdi. Bakı qubernatoru M.P.Kolyubakin Bakıda ibtidai xalq məktəbi tə'sis etməyə aid layihə təqdim edərkən, qızların, xüsusilə müsəlman qızlarının oğlanlarla birlikdə oxumasına valideynlərin razı olmayacağını nəzərə alaraq «Müqəddəs Nina» məktəbinin priyutunu genişləndərməyi, priyut nəzdində məhəllə qız məktəbi şəklində ayrıca şö'bə açmağı təklif etdi. O, bu məqsəd üçün şəhərin gəlirindən ildə 600 man. vəsait verməyi öhdəsinə götürdü.[3] Lakin meydana gəlməkdə olan yeni nizamnamə ilə əlaqədar olaraq bu məsələ nəticəsiz qaldı.

1870-ci il mayın 24-də hökumət qız gimnaziya və progimnaziyalarının yeni nizamnaməsini təsdiq etdi. Bu nizamnamə ilə I və II dərəcə əvəzinə, progimnaziya və gimnaziya kursu təsdiq edildi.

Nizamnaməyə görə qız progimnaziya və gimnaziyalarına dinindən və silkindən asılı olmayaraq, davam edən şagirdlər qəbul olunurdu. Bu cəhət nizamnamənin müsbət cəhəti idi. Nizamnamə silki məhdudluğu aradan qaldırmalı idi. Əslində isə istər gimnaziyalar və istərsə də progimnaziyalar da aşağı təbəqələrin üzünə bağlı idi.

Nizamnaməyə görə qız gimnaziyaları 7 sinifdən ibarət olub, təhsil müddəti 7 il idi. Bundan əlavə VI pedaqoji sinif də açıla bilərdi ki, burada təhsil müddəti bir və ya iki il ola bilərdi.

Progimnaziya 3 sinifdən ibarət olub təhsil müddəti də hər sinifdə bir il idi. Siniflərin sayını artırmağa da icazə verilirdi.

[1] Sirkulyar... 1870 q., № 4, əlavə Qtd popeçitelinin 1869-cu il hesabatı, s. 24
[2] Bax: Sirkulyar... KUO, 1868, № 6, əlavə Qtd popeçitelinin 1867-cu ilə aid hesabatı, s. 18.
[3] Gürc. Resp., MDA, f. 423, s. 1, iş № 393, v. 6 və arx.

Nizamnaməyə görə qız gimnaziya və progimnaziyaları o şəhərlərdə açıla bilərdi ki, orda ictimai və şəxsi ianələr hesabına məktəb maddi cəhətdən tə'min edilsin.

Göstərilən nizamnamənin qəbulu əhalinin qadın təhsilinə ehtiyacına müəyyən qədər kömək etməli idi. Bu ehtiyac digər şəhərlərə nisbətən Bakıda daha çox hiss edilirdi.

1870-ci illərdə Bakıda neft sənayesi sür'ətlə inkişaf edirdi. Neft səxayəsinin inkişafı əhalinin də sür'ətli artımına səbəb olurdu. Bundan başqa Rusiya və Avropanın müxtəlif yerlərindən bu və ya digər təhsil dərəcəli ziyalılar da Bakıya gəlirdi. Bakıda bir sıra yeni dövlət idarə və müəssisələri yarandı. Bu da şəhərdə rus çinovniklərindən olan əhali kontingentinin 2 dəfə artmasına şərait yaradırdı. Yeni şəhər əhalisinin meydana gəlməsi ilə daha geniş qadın təhsilinə tələb və ehtiyac duyulurdu.

Bu vaxt şəhərdə mövcud olan yeganə «Müqəddəs Nina» qız məktəbi ümumi təhsil proqramının nisbətən genişliyinə, xüsusi təhsil haqqı ilə xarici dil və musiqi tədrisinə baxmayaraq, ümumi ehtiyac və xalq maarifi sahəsindəki islahat tələblərinə cavab vermirdi. Şəhər əhalisinin sayının 20 min nəfərdən artıq olması, mövcud qız məktəbini bitirənlərə heç bir hüquq verilməməsi Bakıda qız gimnaziyası tə'sisini tələb edirdi.

§ 6. BAKIDA QIZ GİMNAZİYASININ TƏŞKİLİ

1874-cü ildə «Müqəddəs Nina» qız məktəbi əsasında müstəqil ginaziya tə'sis edildi. Gimnaziyanın birinci sinfinə 9 yaşı tamam olanlar qəbul olunurdu. Hazırlıq sinfinə isə 8 yaşdan az olmayanlar qəbul olunurdu. Gimnaziyanın tədris planına məcburi fənn kimi şəriət, rus dili və ədəbiyyatı, riyaziyyat, coğrafiya, tarix, fizika, hüsnxətt və əl işi daxil idi. Qeyri-məcburi fənn kimi alman və fransız dilləri, rəsm və pedoqogika və yaxud yeni xarici dillərdən biri, latın və yunan dilinin keçilməsi təsdiq edilmişdi.

Qeyri-məcburi fənlər valideynlərin razılığı ilə keçirilirdi. Nəğmə, bədən tərbiyəsi və oyun sinifdənkənar məşğələ şəklində aparılırdı. 1895-ci ildən arzu edənlərə latın dili də tədris edilirdi. Gimnaziyanın tam kursunu müvəffəqiyyətlə bitirənlər qızıl və gümüş medal ilə təltif edilirdilər.

Bakı qız gimnaziyası əvvəllər yerli mədaxildən əldə edilən gəlir, təhsil haqqından toplanan vəsait, ianə və yardımlar hesabına idarə olunurdu. Gimnaziyada məcburi fənlər üzrə təhsil haqqı ildə 40 man., qeyri-məcburi fənnlərdən: fransız dili üçün ildə 5, alman dili üçün isə ildə 9 man. idi.[1]

1878-ci ildən e'tibarən gimnaziyanı saxlamaq üçün Zaqafqaziya ölkəsinin yerli mədaxilindən ildə 2.000 man. vəsait buraxılırdı.[2]

Bakı qız gimnaziyası, sonralar şəhər şurası tərəfindən ayrılan vəsaitlə idarə olunurdu (ildə 19.740 man).[3] Bakı qız gimnaziyası sür'ətlə inkişaf edirid. Birinci ilin içərisində şagirdlərin sayına görə bütün Zaqafqaziyadakı bir sıra qız gimnaziyalarını ötüb keçdi. 1875-ci ildə yalnız 537 şagirdi olan Stavropol gimnaziyası geri qalırdı.[4]

1880-ci ildə gimnaziyada əlavə VIII sinif-pedaqoji sinifdə açıldı.[5]

Əsrin sonlarında, 1896/97-ci dərs ilində burada 576 şagird təhsil alırdı. Milli tərkibinə görə şagirdlərin 313 nəfərini (54%) ruslar, 134 nəfərini ermənilər (23,1%) təşkil edirdi. Şagirdlərin arasında cəmi bir azərbaycanlı qız var idi.[6] 1900-cu il yanvarın 1-də şagirdlərin sayı 744 nəfər idi.[7]

Bakıda qız gimnaziyasının təşkili ilə əlaqədar olaraq «Müqəddəs Nina» qız məktəbinin bir təhsil müəssisəsi kimi əhəmiyyəti azaldı. 1876-cı ilə qədər hər iki məktəb birlikdə fəaliyyət göstərirdir. 1876-cı ildə gimnaziyanın təzə binaya köçməsi ilə əlaqədar olaraq «Müqəddəs Nina» qız məktəbi nisbətən müstəqil qaldı. Lakin artıq özünün siniflərindən məhrum olduğundan gimnaziyanın bir növ pansionuna çevrildi. Belə ki, şagirdlər pansionda yaşayır, gimnaziyada isə oxuyurdular.

Beləliklə, gimnaziya kimi daha nüfuzlu bir təhsil müəssisəsinin fəaliyyət göstərməsi və sür'ətlə inkişaf etməsi «Müqəddəs Nina» qız məktəbinin zəifləməsinə səbəb oldu. Şagirdlərin sayı və maddi yardımlar get-gedə azalırdı. 1878-ci ildə məktəbin cəmi 62 şagirdi (pansionçusu) var idi.

---

[1] Кавказский календарь на 1880 г., Тифлис, 1879, стр.114.
[2] SPMDTA, f.565, s.1, iş № 5207, v.3.
[3] SPMDTA, f.565, s.2, iş № 5361, v.6.
[4] Bax: QTD popeçitelinin 1875-ci ilə aid hesabatı, s. 30.
[5] Кавказский календарь на 1880 г., Тифлис, 1879, с. 114.
[6] Sirkulyar... 1897 q., № 2, s. 110.
[7] SPMDTA, f.k-na (os), s.1, iş № 66, v.224 arx.

«Müqəddəs Nina» qız məktəbi yalnız 1888-ci ildə bərpa olundu. Qafqazın mülki işlər üzrə o zamankı baş rəisi knyaz Dandukov-Korsakov «Müqəddəs Nina» qadın xeyriyyə cəmiyyətinin əsasını qoyan knyaginya Vorontsovanın arzusunu, bu məktəbin müstəqil vəzifəsini və əsasnamə tələblərini yerinə yetirərək göstərilən məktəbin bərpa edilməsinə xeyli kömək etdi. 1889-cu ildən yeni siniflər açıldı və şagirdlərin sayı get-gedə artdı.

1888-ci ildə cəmi 53 şagirdə malik olan «Müqəddəs Nina» qız məktəbi, 1895-ci ildə artıq 228 şagirdə malik idi.[1] Məktəbin idarə edilməsinə H.Z.Tağıyev və başqaları maddi vəsaitlə kömək edirdi.

1895-ci ildə «Müqəddəs Nina» qadın xeyriyyə cəmiyyətinin yeni — sayca üçüncü nizamnaməsi meydana gəldi. Nizamnamədə deyilirdi: «Müqəddəs Nina» qadın xeyriyyə cəmiyyətnin məqsədi varı olmayan dvoryanları, əsasən yerlilərin, həmçinin Zaqafqaziya ölkəsindəki hərbi və mülki qulluqçuların qızlarına tərbiyə və zəruri təhsil vermək üçün Zaqafqaziya ölkəsi şəhərlərində vəsait imkanı və ehtiyac daxilində məktəblər açmaqdan ibarətdir.»[2]

«Müqəddəs Nina» xeyriyyə cəmiyyətinin yeni nizamnaməsinə görə qız məktəblərində tərbiyənin məqsədi qızlara - gələcək analara öz vəzifələrini ciddi və vicdanla icra etməyə hazırlamaqdan ibarət idi:

Uşağı məktəbə daxil olmağa hazırlamağı bacarmaq

Kənd təsərrüfatı haqda elementar təsəvvürə malik olmaq; təsərrüfatın müxtəlif sahələrinə daxil olmaq;

Məişətdə faydalı olan əl işləri ilə tanış olmaq.

Cəmiyyətin qız məktəbləri ölkədə qadın təhsilini yaymaq üçün ailə və ictimai məişət şəraitinə uyğun dini əxlaqi başlanğıca əsaslanırdı. Bu cəmiyyətin ilk valisi knyaginya Vorontsova qız məktəblərinə belə bir vəsiyyət etmişdi: «Простоту и полезность» (utilite et Simplicite).[3]

Cəmiyyətin açdığı məktəblər açıq məktəblər idi. Lakin burada davam edən pansionçular da təhsil alırdı.

Nizamnaməyə görə cəmiyyət məktəbləri 3 dərəcəyə bölünürdü: birinci dərəcəyə hazırlıq, 7 əsas və əlavə 8-ci pedaqoji sinfi olan məktəblər daxil idi. Bu məktəblərin tədris planında əsas yeri rus,

[1] Bakinskoe uçebnoe zavedenie, sv. Ninı, oçerk eqo razvitiə i sovremennoqo sostoəniə, sostavitel B.Abramoviç, Baku, 1986, s. 24; SPMDTA, f. 733, s. 191, iş № 1573, v. 8, arx.
[2] Yenə orada, v. 57.
[3] Yenə orada, v. 61.

fransız və alman dilləri, əl işi və rəsm tuturdu. Yerli dillərə həftədə 8 saat ayrılmışdı ki, bu da fransız dilinə verilən vaxtdan 3 dəfə az idi.

Birinci dərəcəli məktəblərin nəzdində əlavə olaraq təşkil edilən 8-ci sinifdə evdarlıq, hesabdarlıq, hifz-səhiyyə öyrədilir. Rəsm, nəğmə və pianoda çalmaq, əl işləri təkmilləşdirilir, aşağı siniflərdə sınaq dərsləri təşkil edilir, pedaqoji bilik verilirdi. Əlavə sinfi bitirənlərə müəllimlik hüququ verilirdi.

İkincə dərəcəli məktəblər hazırlıq və 7 əsas sinfə malik idi. Buranı bitirənlər müvafiq məktəblərə daxil ola bilərdilər.

Üçüncü dərəcəli məktəblər hazırlıq və 5 əsas sinifdən ibarət idi. Təhsil müddəti il yarım olan son sinifdə kənd təsərrüfatına aid elementar bilik verilir, əl işi və hazırlıq sinfində sınaq dərsləri keçirməklə pedaqogikadan bə'zi mə'lumat verilirdi. Həmçinin ailə hifz-səhiyyəsi, nəğmə, rəsm və fortepianoda çalmaq öyrədilirdi. Buranı bitirənlərə hazırlıq sinfi müəllimi hüququ verilirdi.

Bakı «Müqəddəs Nina» qız məktəbi 1896-cı ildə birinci dərəcəli məktəbə 7 sinifli qız gimnaziyasına, mütəşəkkil təşkil edilmiş tədris müəssisəsinə çevrildi. «Müqəddəs Nina» qız məktəbinin müəllim hey'əti ixtisasçılarla genişlənirdi. Onun rəisi Smolnı Qızlar institunu bitirmiş M.Y.Nikiforski idi. Müəllimlərin bir hissəsi Nikolayevsk institutunu bitirənlər idi.

Bakı «Müqəddəs Nina» qadın xeyriyyə cəmiyyəti idrə hey'ətinin üzvləri arasında H.Z. Tağıyevin arvadı N.V.Tağıyeva da var idi. Get-gedə məktəbin nüfuzu və bununla yanaşı şagirdlərin sayı da artırdı. Əgər 1887-ci ildə Bakı «Müqəddəs Nina» qız məktəbi özünün xüsusi sinifləri olmadığından, faktik olaraq qız gimnaziyasının yataqxanasına çevrildiyi halda, 10 il sonra 1897-ci ildə müstəqil məktəb kimi yenə özünün əvvəlki mövqeyinə qalxdı. XMN-nin qız gimnaziyası hüququna malik tədris müəssisəsi kimi fəaliyyətini daha da genişləndirdi. Bu vaxt burada 382 qız təhsil alırdı ki, bu da 1887-ci ilə nisbətən 7 dəfə çox idi.[1] Şagildərin sayı sür'ətlə artırdı. 1900-cü ildə burada 428, 1901-ci ildə isə 501 şagird var idi.[2]

Bakı «Müqəddəs Nina» qız məktəbi Zaqafqaziyanın şərq hissəsində nəzdində internatı olan yeganə məktəb idi. Bakı «Müqəddəs Nina» qız məktəbində Zakaspi vilayətindən olanlar da oxuyurdular.

[1] SPMDTA, f. 1284, s. 233, iş № 68, v. 28 arx.
[2] SPMDTA, f. k-na, (os). s.1, iş № 6, v. 241.

Məktəbin internata malik olması şəhərin 3/4 hissəsini təşkil edən azərbaycanlı qızların da bu məktəbə cəlb edilməsinə imkan verirdi. Mə'lum olduğu kimi dini cəhalətin hökm sürdüyü müsəlman aləmində nadan adamlar qızların xristianlarla təhsilinə xor baxır, hətta məktəbli qız və ya üzü açıq qadın gördükdə onu ölümlə hədələyirdilər.

Məktəbin nəzdində internatın olması bunun qarşısını nisbətən alırdı. Bə'zi qabaqcıl müsəlman ailələri öz qızlarını məktəbin internatına qoyurdu. Yalnız bu yol ilə Bakı və Zaqafqaziya qapalı qız məktəblərində oxuyan azərbaycan qızlarının sayı az-çox artırdı. Rus məktəblərində təhsil görmüş azərbaycan qadınları qızların təhsilə cəlb edilməsinə böyük tə'sir edir, ümumiyyətlə, müsəlman mühitində qadın təhsilinin əhəmiyyətini təbliğ edirdilər.

§ 7. ŞUŞA QIZ MƏKTƏBİ

XIX əsrin 70-ci illərinə qədər Şuşada qadın təhsili əsasən ayrı-ayrı evlərdə təşkil edilmiş ruhani məktəblərdə və ya ailədə valideynlər tərəfindən həyata keçirilirdi. Bu məktəblərdə və ailədə verilən təhsil əsasən ruhani xarakter daşımasına baxmayaraq, orada oxuyanların içərisindən bütün Qarabağda «Xan qızı» adı ilə məşhur olan Xurşid banu Natəvan (1830-1897) kimi şairə, Şuşadakı «Məclisi-fəramuşan» adlı ədəbi məclisin fəal iştirakçılarından olan Fatmaxanım Kəminə (1840-1888) kimi ədəbiyyat və şer həvəskarı və b. savadlı qadınlar çıxmışdır.

Ümumiyyətlə, şuşalılar qızların ana dilində təhsili ilə bərabər, həm də rus dilində oxumasına xüsusi sə'y göstərirdilər. Onlar qadın təhsilinə xüsusi əhəmiyyət verir, Azərbaycanın bu və ya digər şəhərində xeyriyyə cəmiyyəti vasitəsilə açılan qız məktəblərinə kömək etmək işində daha çox fərqlənirdilər.

Sənədlərdən birində deyilir ki, 1860-cı ildə Bakıda «Müqəddəs Nina» qız məktəbi açılması xəbərini eşidən Şuşa sakinlərindən 2 qardaş Hacı Qulu ilə Məşədi Abbas Məşədi Əli oğlu bu xeyirli işə 4 min man. pul ilə kömək etməyə hazır olduqlarını bildirdilər. Onların bu hərəkəti istər müdiriyyətin, istərsə də Qafqaz canişini tərəfindən böyük rəğbətlə qarşılandı.[1]

[1] Gürc. Resp., MDA, f. 8, s. 1, iş № 1634, v. 5

Qadın təhsilinə xüsusi əhəmiyyət verən Şuşa əhalisi 1875-ci ildə xeyriyyə cəmiyyəti təşkil etməyi və bu cəmiyyət vasitəsilə şəhərdə xüsusi qız məktəbi açmağı qərara aldı. Cəmiyyətin təsdiq edilmiş nizamnaməsi var idi. Orada deyilirdi:

«Cəmiyyətin məqsədi dini e'tiqadından və mənşəyindən asılı olmayaraq, qızlara ibtidai təhsil verməkdir. Bu məqsədlə, cəmiyyət yoxsulların da təhsil hüququ saxlamaqla Şuşada qız məktəbi açır.»[1]

Cəmiyyətin üzvləri verdikləri vəsaitin miqdarına görə 4 dərəcəyə-qrupa bölünürdü: Birinci dərəcəyə həqiqi üzvlər daxil idi. Onlar hər il 10 manatdan az olmayaraq üzvlük haqqı verirdilər. Üzvlük haqqından başqa, bir dəfəlik 100 man. verənlər ikincə dərəcəyə daxil olur və fəxri popeçitel adını daşıyırdılar. İldə 10 manatdan az verənlər üçüncü dərəcəyə daxil olub yarışan üzvlər hesab olunurdu. Nəhayət, şəxsi zəhmətləri ilə cəmiyyətə kömək edənlər əməkdaş sayılır və dördüncü dərəcəni təşkil edirdilər.

Cəmiyyətin əsas vəsaiti, əsasən, üzvlük haqqından əldə edilən vəsaitdən ibarət idi. Bundan başqa cəmiyyət tərəfindən təşkil edilən lotoreya, alleqra (uduşu dərhal verilən lotoreya), tamaşa, konsert, bal, ədəbi gecələr və s. kimi tədbirlərdən və təhsil haqqından toplanan vəsait də cəmiyyətin kassasına daxil olurdu.

Beləliklə, 1875-ci il oktyabrın 26-da Şuşada xeyriyyə cəmiyyəti tərəfindən qız məktəbinin əsası qoyuldu.[2] Məktəb Ananevlərin ikimərtəbəli evində yerləşirdi. Məktəbin tədris planına təcrübi əhəmiyyəti olan fənnlər, o cümlədən rus dili, hesab, ana dilində oxu və yazı, hüsnxətt, rəsm və rəsmxət, ümumi coğrafiya, tarix, Şuşa qəzasının, Qafqazın və Rusiya imperiyasının xəritəsini çəkməklə ölkəşünaslıq daxil idi.[3] Bundan əlavə milli mahnılar oxudulur (xorla), təbiət, tarix və fizikadan mə'lumat verilirdi.

Təhsil pullu idi. Hər şagirddən ildə 1 man. təhsil haqqı alınırdı. Kasıblardan olanlar təhsil haqqından azad idi. Əlavə təhsil haqqı verənlərə həmçinin fransız və alman dilləri keçilir, musiqi öyrədilirdi. Xarici dilləri öyrənənlər ildə 10 man., musiqi öyrənənlər isə ildə əlavə

[1] Кавказский календарь на 1876 г., Тифлис, 1875, с. 53.
[2] Gürc. Resp., MDA, f.422, s.4, iş № 136, v.59,arx; Sirkulyar... KUO, 1876 q., № 9, QTD popeçitelinin 1875-ci ilə aid hesabatı, s. 6.
[3] Кавказский календарь на 1876 г., Тифлис, 1875, с. 53.

olaraq 50 man. təhsil haqqı verirdi. Gimnastika valideynlərin arzusundan asılı olub pulsuz keçilirdi.

Rus dili K.D.Uşinskinin «Vətən dili», hesab isə Yevtuşevskinin «Hesab» kitabı əsasında tədris edilirdi. Məktəbə 7 yaşından yuxarı olan qızlar qəbul olunurdu. 1887-ci ildə məktəbdə 48 şagird oxuyurdu. Onlardan 41 nəfəri erməni, 2 nəfəri rus, yalnız bir nəfəri azərbaycanlı idi. Silki tərkibinə görə 20 nəfəri dvoryan və çinovnik, 24 nəfəri isə şəhər sakinlərindən idi.[1]

Şagirdlərin sayı artdıqca III və IV siniflər də açıldı. 1893-cü ildə 4 sinfə malik olan bu məktəbdə cəmisi 72 qız təhsil alırdı.[2]

32 mindən artıq əhaliyə malik olan şəhərdə qızların təhsilinə diqqəti artırmaq və xərcin bir qismini xəzinədən ödəmək şərti ilə Şuşa qız məktəbi 1894-cü ildən 4 sinifli Marinski qız məktəbinə çevrildi.[3]

Məktəbin illik xərci cəmisi 3910 manatdan ibarət olub, 1000 manatı şəhər idarəsindən, 1500 manatı məktəbin xüsusi vəsaitindən, 610 manatı isə xeyriyyə cəmiyyətindən ödənilirdi.

Məktəbin tədris planında əsas yeri rus dili, əl işi (hər biri həftədə 18 saat), hesab və elementar həndəsə (17 saat), rəsm (16 saat) tuturdu. (Bax: cədvəl № 4).

Marinski qız məktəbinin təşkili Şuşa şəhərində və cəmi qəzada mühüm mədəni hadisə idi. Məktəbin ilk təşkili günü 1894-cü il sentyabrın 25-də oraya rəsmi şəxslərdən əlavə 300-ə qədər valideyn toplaşmışdı. Məktəb 120 şagirdlə işə başladı və onların sayı get-gedə artdı. 1895-96-cı dərs ilində şagirdlərin sayı 147 nəfər idi.[4]

1896-cı ildə bu məktəbdə olmuş İrəvan-Gəncə quberniyaları xalq məktəbləri direktoru D.Orlov yazırdı: «Şuşa Marinski qız məktəbi fəaliyyətə başladığı vaxtdan e'tibarən yerli əhalinin tam rəğbətini qazanmışdır. Məktəbin müdiri və müəllimləri işə ürəklə, həvəslə yanaşır, öz vəzifələrini bacarıqla icra edirlər. Bütün siniflərdə şagirdlərin tə'lim və əl işlərindən müvəffəqiyyəti çox yaxşıdır.»[5]

[1] Gürc. Resp., MDA, f. 422, s. 4, iş № 136, v. 59, arx.
[2] SPMDTA, f. 1152, s. XI, iş № 472 v. 2.
[3] Yenə orada, v. 22; Sirkulyar... KUO, 1894, № 11, s. 850, «Qafqaz» qəzeti, № 260, 1894-cü il.
[4] SPMDTA, f. 733, s. 203, iş № 2839, v. 9.
[5] SPMDTA, f. 733, s. 203, iş № 2839, v. 8.

Cədvəl № 4

Şuşa Marinski qız məktəbinin tədris planı[1]
(1894-cü il)

Fənlər	**s i n i f l ə r**				**Cəmi**
	I	*II*	**III**	**IV**	
1. Şəriət	3	3	3	3	12
2. Rus dili	5	5	4	4	18
3. Hesab	4	4	4	5	17
4. Elementar həndəsə	-	-	-	-	-
5. Coğrafiya	-	2	2	2	6
6. Tarix	-	2	2	2	6
7. Hüsnxətt	3	3	2	1	9
8. Rəsm	4	4	4	4	16
9. Əl işi	4	4	5	5	18
10. Nəğmə	2	2	2	2	8
Cəmi:	25	29	28	28	110

Bu məktəbin təşkili azərbaycanlı qızların da rus təhsilinə cəlb edilməsinə şərait yaratdı. 1901-ci ildə buradakı şagirdlərdən 7 nəfərini azərbaycan qızları təşkil edirdi.[2]

§ 8. GƏNCƏ «MÜQƏDDƏS NİNA» QIZ MƏKTƏBİ

Bakı və Şuşa şəhərləri nəzərə alınmazsa, keçən əsrin 80-ci illərinə qədər, Azərbaycanın digər şəhərləri kimi Gəncədə də qadın təhsili az-çox ruhanilər tərəfindən həyata keçirilirdi. Rus qız məktəblərinə gəldikdə burada nə xəzinə, nə də cəmiyyət vəsaiti ilə heç bir məktəb yox idi. Bu cəhətdən quberniya mərkəzi olan Gəncə şəhəri cəmi Zaqafqaziyada müstəsnalıq təşkil edirdi. M.Yengibarovanın xüsusi erməni qız məktəbinin fəaliyyəti məhdud idi.

1870-ci illərdə oğlan gimnaziyası nəzdində təcrübə üçün təşkil edilən nahardan sonra qız məktəbləri də bir elə nəticə vermirdi. Əhalinin, xüsusilə quberniya idarələrində çalışan mə'mur qızlarının

[1] SPDMTA, f. 1152, s. XI, iş № 472, v. 7 və arx.
[2] Gürc. Resp., MDA, f. 422, s. 1 iş № 7150, v. 13

təhsilə olan ehtiyacı Gəncədə xeyriyyəçilik vəsaitilə mütəşəkkil qız məktəbinin təşkil edilməsini tələb edirdi. Nəhayət, 1884-cü ildə Gəncə qubernatoru Nakaşidzenin arvadının təşəbbüsü və Zaqafqaziya ölkəsi mülki işlər rəisi knyaz Dondukov-Korsakovun arvadının köməyi ilə Gəncədə «Müqəddəs Nina» qadın xeyriyyə cəmiyyətinin şö'bəsi təşkil edildi ki, bu şö'bə şəhərdə eyni adlı qız məktəbi açmağa nail oldu. 1885-ci il yanvarın 14-də açılmış Gəncə «Müqəddəs Nina» qız məktəbi ilk dəfə 6 şagirdlə işə başladı. Şagirdlərin hamısı ruslar idi.[1] Məktəb ilk dəfə yalnız hazırlıq sinfindən ibarət idi. Təhsil müddəti 3 il idi.

1894-cü ildə Gəncə «Müqəddəs Nina» qız məktəbinin Şuşadakı kimi Marinski qız məktəbinə çevrilməsi onun quberniya Zemstvo vəsaiti ilə idarə edilməsi, bu məktəbə kəndli qızlarının da cəlb edilməsi fikri meydana gəldi.[2] Lakin dövlət Şurası tərəfindən qəbul olunmadı. Yalnız 1889-cu ildə Gəncə «Müqəddəs Nina» qız məktəbi progimnaziyaya çevrildi.[3] Bu vaxt orada cəmisi 132 qız təhsil alırdı ki, onlar da yalnız rus, erməni, gürcü, yəhudi və başqa millətlərdən idi. Yalnız 1901-ci ildə burada bir nəfər azərbaycanlı qız oxuyurdu.[4] Gəncə qız progimnaziyası yalnız 1902-ci ildə tam gimnaziyaya çevrildi.[5]

Yuxarıda göründüyü kimi, tədqiq etdiyimiz dövrdə Azərbaycanda qadın təhsili iki istiqamətdə inkişaf edirdi. Əhalinin əsas hissəsini təşkil edən azərbaycanlı qızlarının çox az hissəsi ruhani məktəblərə davam edirdi. Cüz'i bir hissəsi isə ata-analarının yanında bu və ya digər kitabları oxumağı öyrənməklə «təhsillərini» başa vururdular. Qızların böyük əksəriyyəti, ümumiyyətlə, təhsildən kənarda idi. Əsasən əhalinin digər millətlərdən olan hissəsi üçün təşkil edilən rus qız məktəbləri daha mütəşəkkil məktəb olub, yalnız rus mə'murlarının uşaqları üçün idi. Əsrin sonlarına qədər bu məktəblərin sayı cəmi 5 idi. Dərəcə e'tibarı ilə onlardan üçü orta, ikisi isə aşağı dərəcəli məktəb idi.

Əsrin sonlarında qız məktəblərində şagird kontingentinin xeyli olmasına baxmayaraq, bu məktəblər qadın təhsili sahəsindəki geriliyi aradan qaldıra bilmədi. Azərbaycanın

[1] Sirkulyar... KUO, 1885, № 2, s. 65; Gürc. Resp. MDA, f. 422, s. 1, iş № 2055, v. 4-7.
[2] Bax: SPDMTA, f. 733, s. 191, iş № 1558, v. 8.
[3] Gürc. Resp., MDA, f. 422, s. 1 iş № 6292, v. 10.
[4] Yenə orada, iş № 7150, v. 13.
[5] Yenə orada, iş № 7645, v. 1.

Şamaxı, Nuxa, Naxçıvan, Quba və başqa şəhərlərində belə mütəşəkkil təşkil edilmiş qız məktəbləri yox idi. Mövcud məktəblərdə oxuyanların hamısı yuxarı təbəqələrə mənsub idi. Kəndli qızlarının təhsili təmamilə unudulmuşdu. Şagirdlərin milli tərkibi müxtəlif olsa da, azərbaycanlı qızlar tək-tük idi.

Rus qız məktəblərinin maddi bazası da qeyri-qənaətbəxş idi. Onlar, əsasən, ianə yolu ilə ayrılan və pedaqoji tələblərə cavab verməyən xüsusi evlərdə yerləşir, əhalidən toplanan maddi yardım və təhsil haqqından əldə edilən vəsait hesabına idarə olunurdu. Xəzinədən qız məktəbləri üçün heç bir vəsait buraxılmırdı. Yalnız əsrin sonlarında şəhər vəsaitindən cü'zi kömək edilirdi.

Qız məktəbləri müxtəlif cəmiyyət və müəssisələrə tabe edildiyindən hər biri özünə məxsus tədris planı və proqrama malik idi. Yalnız qız gimnaziyaları RXMN-nin 1874-cü ildə təsdiq etdiyi vahid tədris planı və proqramları üzrə işləyirdi. Ümumiyyətlə, tədris planlarında rus dili əsas yeri tuturdu.

Mövcud rus qız məktəblərində tərbiyənin əsas məqsədi şagirdlərə dini əxlaqi ruhda tərbiyə verməkdən ibarət idi. Qızların fiziki tərbiyəsinə fikir verilmirdi. Bədii tərbiyə məqsədilə az-çox ədəbi-bədii tədbirlər təşkil edilirdi. Belə tədbirlərin təşkilində məqsəd həm də, vəsait toplamaq idi. Belə tədbirlər Şuşada daha çox təşkil edilirdi.

Qız məktəblərini müvafiq müəllim hey'əti ilə, əsasən qadın müəllimlərlə tə'min etmək işi son dərəcə çətin idi. Orta məktəblərin fənn müəllimləri əsasən Rusiyadan göndərilənlər idi ki, onlar həm çatışmır, həm də özlərinin az hazırlığı olmaları ilə bu işə fayda vermirdilər. Bir çox hallarda qız məktəblərinə yerli oğlan gimnaziyaları və realnı məktəblərin müəllimləri cəlb edilirdi ki, bu da onlar üçün əlavə iş olduğundan tə'limin keyfiyyətinə mənfi tə'sir edirdi.

Qız məktəblərində çalışan müəllimlər maddi cəhətdən pis tə'min edilir, hüquq e'tibarı ilə başqalarından aşağıda dururdu. Çar hökuməti Azərbaycanda qadın təhsilinə lazımi fikir və əhəmiyyət vermirdi. Rus qız məktəblərində təhsil alanların sayı əhalinin ümumi sayına nisbətən heç dərəcəsində idi.

§ 9. MÜSƏLMAN QIZ ÜMUMİ TƏHSİL MƏKTƏBİNİN TƏŞKİLİNDƏ İLK ADDIM

Azərbaycanın Şamaxı, Bakı və Şuşa şəhərlərində və Zaqafqaziyanın digər şəhərlərində fəaliyyət göstərən rus qız məktəbləri, qadın təhsili sahəsində əmələ gələn az-çox ümumi canlanma azərbaycan qızların dünyəvi təhsilini də irəli sürürdü.

Əsrin ikinci yarısında mövcud qız məktəblərində şagirdlərin ümumi sayı ilə bərabər azərbaycanlı qızların sayı az da olsa artmaqda idi. Azərbaycanlı olan oğlanlarla bərabər, qızların da rus dilində olan dünyəvi təhsilə maraq göstərməsi və bu marağın get-gedə artması müşahidə olunurdu.

QTD popeçiteli 1875-ci ilə aid hesabatında bu «sevindirici hadisəni» xüsusi nəzərə çarpdıraraq yazırdı ki, 1874-cü ildə təhsil dairəsi tabeliyində olan tədris müəssisələrində oxuyan müsəlman uşaqlarının ümumi sayı 324 olduğu halda, 1875-ci ildə 762 olmuşdur ki, onlardan cəmi 15 nəfəri qızlardar.[1]

Azərbaycan qızları bu vaxt aşağı məktəblərə deyil, natamam orta və orta məktəblərdə də təhsil almağa cəhd edirdilər. Sənədlərdən birində deyilirdi ki, «müsəlmanların hətta qızları da ümumi təhsilə cəhd edir və qadın gimnaziyaları və progimnaziyalarında, hətta institutda da müsəlman qızları görünməkdədir.»[2] Doğrudur, onların sayı çox cüz'i idi (cəmi 8 nəfər). Lakin bununla belə o dövrdə azərbaycan qızlarının digər millətlərin nümayəndələri ilə birlikdə rus dilində təhsil alması qadın təhsili sahəsində irəliyə atılmış bir addım idi.

Azərbaycan qızlarının sayı xüsusi məktəblərdə də artmaqda idi. 1876-cı ilin mə'lumatına görə İrəvan-Gəncə quberniyaları xalq məktəblər direksiyası üzrə 647, Bakı-Dağıstan direktoriyası üzrə isə 376 azərbaycanlı qız təhsil alırdı.

Azərbaycan maarifçiləri də qadın təhsilini irəli sürür, qızların təhsilini qızğın müdafiə edirdilər. Dövrünün məşhur pedaqoqu H.Zərdabi məqalələrindən birində yazırdı: «Kişilər üçün nə qədər məktəb açsaq da, arzu etdiyimiz məqsədə çata bilməyəcəyik. Qadınlar elmdən və təhsildən kənarda qalırlar, halbuki gənc nəslin tərbiyəsində qadın böyük rol oynayır.»[3]

---

[1] Bax: Sirkulyar... KUO, № 9, 1876, Əlavə QTD popeçitelinin 1875-ci ilə aid hesabatı, s. 22 (rusca).

[2] Bax: Kavkazskiy kalendarğ na 1878 q., Tiflis 1877 q., s. 318.

[3] «Əkinçi» qəzeti, № 11, 1876-cı il.

H.Zərdabi və onun ideya ardıcılları azərbaycan qızlarının maariflənməsini, həm onların cəmiyyətdə öz hüquqları uğrunda mübarizəsi, həm də gənc nəslin tə'lim və tərbiyəsinin yaxşılaşmasına ciddi tə'sir göstərən mühüm amil hesab edirdi.

Azərbaycan maarifçilərinin və mütərəqqi ziyalıların qadın təhsili uğrunda mübarizəsi və mövcud rus qız məktəblərinin mütərəqqi tə'siri azərbaycan qızları üçün ayrıca ümumi təhsil məktəbinin təşkilini həyatın zəruri tələbi kimi irəli sürürdü.

Azərbaycan qızları üçün ayrıca məktəb açmaq sahəsində ilk təşəbbüs H.Zərdabinin arvadı Hənifə xanıma məxsusdur. Tiflisdə «Müqəddəs Nina» qız məktəbini bitirən Hənifə xanım hələ 1872-ci ildə Bakıda azərbaycan qızları üçün xüsusi pansion açmağa təşəbbüs etdi. Bu haqda mə'lumat verən «Qafqaz» qəzeti belə yazırdı:

«Bakıdan yazırlar ki, cənab Həsənbəy Məlikovun arvadı, Tiflis «Müqəddəs Nina» qız məktəbini bitirmiş Hənifə xanım, müsəlman qızları üçün xüsusi pansion açmağa hazırlaşır.»[1]

Hənifə xanımın nəzərdə tutduğu qız pansionunun açılıb-açılmaması haqda əlimizdə hələlik e'tibarlı sənədlər yoxdur. Lakin təkcə bu fakt Zərdabinin və onun məslək yoldaşı olan Hənifə xanımın hələ 1870-ci illərdə azərbaycan qızlarının təhsili sahəsində ciddi cəhd göstərdiklərini təsdiq edir.

H.Zərdabi və hənifə xanım Məlikovların göstərilən təşəbbüsü və cəhdi nəticəsiz qalmadı. Onların bu cəhdi Zaqafqaziyanın digər şəhərlərində də azərbaycan qızları üçün ümumtəhsil məktəbi təşkil etmək fikrini gücləndirdi. Hökumət idarələri də bu məsələyə diqqət yetirməyə məcbur oldu. Qafqaz canişini vəzifəsini ifa edən knyaz Məlikov 1882-ci ildə Tiflis şəhərində Qafqaz müsəlmanları üçün ayrıca qız məktəbi açmağı hökumətdən xahiş etdi. O yazırdı ki, cəmi müsəlman əhalisi belə məktəbin açılmasını səbirsizliklə gözləyir. Knyaz Melikov məktəbin xərcini Zaqafqaziya ölkəsinin yerli gəlirindən ödənilməsini təklif edirdi. O, siniflərin sayının artmasını nəzərə almaqla məktəbin illik xərcini 1882-ci ildə 7.800; 1883-cü ildə 20.000; 1884-cü ildə 25.000; 1885-ci ildə 28.000; 1886-cı ildə 32.890 və 1887-ci ildən 33.970 man. nəzərdə tuturdu.

[1] «Qafqaz» qəzeti, 1872-ci il, № 134.

Məktəbin ilk tə'sisi zamanı isə birdəfəlik 5000 man. verilməsini təklif edirdi.[1] Cəmi Qafqaz ölkəsi üçün faydalı olan Tiflis qız məktəbinin açılması səbirsizliklə gözlənildiyi bir zamanda Rusiya maliyyə naziri «bir sıra digər yeni xərcləri» bəhanə gətirərək onun açılmasını rədd etdi.[2] Məxfi müşavir Bunqe əlavə edirdi ki, «müsəlman qız təhsilinə dövlət xəzinəsindən vəsait ayırmaq münasib deyildir», çünki «belə hərəkət etmək, ancaq özgə xalqlardan olan elementlərin çoxalmasına və ucqarlarda Rusiyanın siyasi qüvvəsinin azalmasına kömək edə bilər.»[3]

Tiflis müsəlman qız məktəbinin tə'sisi məsələsində paytaxt mə'murlarına nisbətən Qafqaz inzibati idarə rəhbərləri başqa mövqedə dururdu. Mülki işlər üzrə Baş idarə rəisi knyaz Dondukov-Korsakov 1883-cü ilin martında RXM naziri İ.D. Delyanova göndərdiyi məxfi məktubunda yazırdı ki, «göstərilən məktəbin açılmasında məqsəd, əsasən müsəlman təhsilinə tərəfdar çıxmaq olmayıb, əksinə müsəlman qadınlarının ümumi təhsil çarəsinə imkan verməkdir. Məsələnin siyasi cəhətinə gəldikdə isə... müsəlman qadınları arasında ümumi təhsilin yayılması bizə ancaq, həqiqətən, xeyir verə bilər, zira, onların öz arxamızla aparılmaması, müsəlman ayrılığının zəifləşdirilməməsi ölkədə mülki işlərin inkişafına zərərli tə'sir edər.»[4]

Knyaz Dondukov-Korsakov göstərirdi ki, bu məktəb üçün dövlət xəzinəsindən tələb edilən xərc o qədər də çox olmadığından, əgər bu ilin ikinci yarısında olmasa da, heç olmazsa, gələn 1884-cü ildə ödəmək mümkündür. Baş rəis RXM nazirindən xahiş edirdi ki, bu məsələ ilə əlaqədar ondan asılı olan köməkliyi etsin və bunu Dövlət Şurasının müzakirəsinə versin.

Knyaz Dondukov-Korsakov qız məktəbinin əsasnaməsini də Rusiya XMN-yə göndərdi. Keçən əsrin 80-ci illərində Tiflis müsəlman qız məktəbi məsələsində biri-birinə əks olan iki nöqteyi-nəzər var idi. Birinci fikrin tərəfdarları müsəlman qız məktəbinə pul xərcləməyi yersiz hesab edirdi. Bu fikrin tərəfdarları bütün Rusiya müsəlmanları kimi Zaqafqaziya müsəlmanlarının da 8 yaşlı qızlarının qapalı məktəbə buraxmayacaqlarını göstərir və bunu müsəlmanların ictimai həyatı-dini görüşləri ilə əlaqələndirirdilər.

[1] Gürc. Resp., MDA, f. 12, s. 7, iş № 1091, v. 8.
[2] Yenə orada, f. 422, s. 1, iş № 1576, v. 1 arx.
[3] Yenə orada.
[4] Yenə orada, Gürc. Resp. MDA, f. 422, s. 1, iş № 1576, v. 1 arx. v. 6.

İkinci fikrin tərəfdarları isə qız məktəbinin hökumət üçün faydalı olduğunu israr edir və Qafqaz müsəlmanlarının rus təhsilinə maraq göstərmələrini qeyd edirdilər. Bu məsələ ilə əlaqədar olaraq hökumətə təqdim edilmiş bir izahatda deyilir:

«Qafqaz müsəlmanları, bizim Qazan tatarlarına nisbətən o qədər də fanatik deyillər, onların özləri rus ictimai mühiti ilə yaxınlaşmağı arzu edir və öz uşaqlarını həvəslə bizim orta məktəblərə qoyurlar».[1]

Bu fikrin tərəfdarları göstərirdilər ki, rus müəllimlərindən tərbiyə alıb, müsəlman qız məktəblərini bitirənlər «müsəlman cəmiyyətinə» (dini-əxlaqi-ictimai mə'nada) yad olacaqlar. Onlar zahiri görünüşcə deyil, daxilən dəyişiləcək, onların adət və fikir tərzi, həyata və cəmiyyətə baxışı təmamilə qeyri-müsəlman baxışı olacaqdır.[2]

Zaqafqaziya şeyxülislamı Mirzə Mustafa Axundov dəxi öz növbəsində RXMN-yə müraciət edərək qız məktəbinin tə'sisinə kömək göstərilməsini rica edirdi.[3]

Bütün bunlar heç bir nəticə vermədi. Maliyyə naziri müsəlman qız məktəbinə vəsait ayırmaqdan imtina etdi və cəmi Qafqazda yeganə müsəlman qız məktəbi açmaq cəhdi nəticəsiz qaldı.

Qeyd etmək lazımdır ki, bu vaxt Tiflisdə 2 qız məktəbi var idi (1880-ci ildə açılmışdı) ki, burada rus dili də tədris edilirdi.[4] Lakin bunlar ibtidai məktəb idi. Müsəlman qızları üçün orta məktəb yox idi. Əhalinin qabaqcıl nümayəndələri öz qızlarını açılması nəzərdə tutulan məktəbə qoymağa hazırlaşırdı. Mülki işlər üzrə baş rəis knyaz Dondukov-Korsakov Delyanova yazırdı:

«Mən Şuşada olarkən Qarabağ xanının arvadı Usmiyeva (O Avropa təhsili almamışdır) öz uşaqlarını mənə təqdim edərək, Tiflisdə açılması nəzərdə tutulan məktəbə qoymaq arzusunda olduğunu bildirdi».[5] Ümumiyyətlə, azərbaycanlıların məktəb açmaq üçün kollektiv xahişnamələrinə, vəsait toplamalarına, dövlət məktəblərində oxuyan azərbaycanlıların sayının get-gedə artmasına və s. istinad edən baş rəisin Tiflisdə qız məktəbi açmaq cəhdi çoxlu yazışmaları, mülahizələri nəticəsiz qaldı. Bu məktəbi ancaq ictimaiyyətdən və ayrı-ayrı ianələrdən toplanan vəsait hesabına açmaq təklif edildi. Mərkəzi

[1] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 1576, v. 14.
[2] Yenə orada, v. 15.
[3] Yenə orada, v. 35–36.
[4] Yenə orada, v. 41, arx.
[5] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 1576, v. 42 arx.

hökumətin göstərişi üzrə qraf Delyanova knyaz Dondukov-Korsakov qız məktəbi açılmasını tələb edənləri vəsait axtarmağa yönəltdi. Hökumət isə ancaq məktəbin nizamnaməsini tərtib və təsdiq etməyi öhdəsinə götürdü. Bu tədbir də nəticə verməldi.

Beləliklə, arxiv sənədlərinin birində deyildiyi kimi, 1883-cü ildən 1895-ci ilədək «keçən 12 il ərzində rus hökuməti tatar (azərbaycanlı – H.Ə.) qadın əhalisi arasında təhsili yaymaq işində heç bir tədbir görmədi.»[1] Yalnız 1893-cü ildə İrəvan qubernatoru bu məsələni yenidən hökumətin nəzərinə çatdırdı. Qubernatorun həmin ilə aid hesabatında quberniyada qadın təhsilinin, ümumiyyətlə pis vəziyyətdə olduğu göstərilirdi. Bu sözlərin qarşısında imperatorun «acınacaqlıdır» yazması[2] yerli başçıları bu sahədə bə'zi tədbirlər görməyə təhrik etdi.

90-cı illərdə Tiflisdə müsəlman qız məktəbi açılması fikri yenidən irəli sürüldü. Bu vaxt təkcə Azərbaycanda deyil, cəmi Zaqafqaziyada yaşayan 800 min azərbaycanlı qadın, hətta elementar təhsildən kənar idi.

QTD-nin popeçiteli müsəlmanlar üçün rus dilində ibtidai qız məktəbi açmağı faydalı hesab edirdi. O, yazırdı ki, bu məktəbin açılması ilə hökumət uşaqların həyatının lap ilk dövründən ailənin daxili həyatına bilavasitə tə'sir etmək imkanına malik olar, rus təhsili görmüş ana Rusiyanın xeyirxahlığını dərk edər və öz uşaqlarını Rusiyaya məhəbbət ruhunda tərbiyə edər.[3] Popeçitel qız progimnaziyası kursu həcmində olan müsəlman qız məktəbinin tədris planına şəriətdən əlavə rus dili, rus tarixi və coğrafiyası, hesab və rəsmxət, əl işi daxil etməyi təklif edirdi.[4]

Məktəbin açılması üçün lazım olan pul vəsaitini yenə də xəzinədən deyil, ianələrdən və məscidlərin vəqf pullarından ödəmək təklif edildi. İanə toplamaq üçün Bakı, Tiflis, Gəncə, İrəvan və başqa şəhərlərə xüsusi məktublar yazıldı, sərəncamlar göndərildi. Zaqafqaziya şeyxülisla-mı və müftisi dəxi öz növbəsində cəmi Zaqafqaziyadakı ruhani idarələrinə sərəncam göndərərək qız məktəbi üçün vəsait toplamağa çağırdı.

[1] Gürc. Resp. MDA, f. 12, s. 7, iş № 1091, v. 3 arx.
[2] Yenə orada, v. 2.
[3] Yenə orada.
[4] Yenə orda, v. 4 arx.

Bütün bunlar onunla nəticələndi ki, İrəvan və Gəncə quberniyası, həmçinin Kuban vilayəti Labinski okruqunun müsəlmanlardan olan əhalisi Tiflis müsəlman qız məktəbinin açılmasına vəsait topladılar. Bu işdə İrəvan quberniyası daha irəlidə gedirdi. Gürc. Resp. MDA-da saxlanılan sənədlər içərisində İrəvan şəhəri, Şərur-Dərələyəz, Naxçıvan və Eçmiadzin qəzalarının sakinlərinin Tiflis müsəlman qız məktəbinin nəfinə vəsait toplanmasına aid 7 siyahı və 2 öhdəçilik vardır.[1] Yüzlərlə adamların imza etdiyi bu sənədlər əhalinin rus dilində olsa da, qız təhsilinə xüsusi maraq göstərdiyini söyləməyə əsas verir.

Tiflisdə məsəlman qız məktəbi açmaq təşəbbüsü cəmi Qafqaz müsəlmanlarının ictimai və mədəni həyatında çox mühüm hadisə idi. Dövrün məşhur maarifçisi və pedaqoqu F.Köçərli 1895-ci ildə «Novoe obozrenie» qəzetində dərc etdirdiyi «Qadınların vəziyyəti və müsəlman uşaqlarının tərbiyəsi» adlı məqaləsində yazırdı: «Müsəlman qız məktəbinin açılması Qafqaz müsəlmanlarının tarixində yeni dövrün başlanğıcı olacaqdır.»[2]

F. Köçərli qız məktəbinin əhəmiyyətini qadınların özlərinin köləlikdən azad olmasından başqa, həm də ailənin ümumi həyat tərzinin yaxşılaşması nöqteyi-nəzərindən qiymətləndirirdi. O yazırdı ki, müsəlman qızlarının məktəbi bitirməsi ilə müsəlman ailələrində öz vəzifəsini yaxşı başa düşəcək təhsilli evdar qadınlar və analar meydana gələcək və tədricən bütün müsəlman həyat tərzi, istər ailədə, istərsə də kənarda — yaxşılığa doğru yenidən qurulacaqdır. Qız məktəbinin təşkilini müxtəlif cəhətdən qiymətləndirən uzaq görən maarifçi ailə tərbiyəsinin yaxşılaşacağını ayrıca qeyd edirdi. O yazırdı ki, qız məktəbinin mə'zunları ilə bir tərəfdən atalar öz uşaqlarının təhsilli və təcrübəli analardan tərbiyə aldığını görüb özlərini xoşbəxt hesab edəcəklər, digər tərəfdən də indiyə qədər nökərlərin və mehtərlərin himayəsində böyüyən uşaqların özləri də xoşbəxt olacaqlar. Sonuncu cəhətə xüsusi fikir verən F. Köçərli yazırdı:

«Bizim məktəbəqədər yaşlı uşaqların taleyi nökərlərin və cürbəcür qulluqçuların əlindədir. Onlar öz vəziyyətləri ilə inkişafın aşağı dərəcəsində durduqlarına görə, aydındır ki, onlar tərbiyə kimi xüsusi hazırlıq və geniş mə'lumat tələb edən çətin vəzifənin öhdəsindən gələ bilmirlər.»[3]

[1] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 5122, v. 15–27.
[2] Bax: «Новое обозрение» qəzeti, № 4115, 1895-ci il.
[3] «Новое обозрение» qəzeti, № 4115, 1895-ci il.

F.Köçərli göstərirdi ki, tərbiyəçi-nökərlərin himayəsində böyüyən uşaq onların tə'sirinə qapılır. Onlar uşaqlara o keyfiyyətləri aşılayır ki, hansılar ki, özləri o ruhda tərbiyə almış və böyümüşlər. Qadın təhsilinin böyük həyati əhəmiyyətini yüksək qiymətləndirən F.Köçərli özünün məqalə və çıxışları ilə Tiflisdə müsəlman qız məktəbinin tə'sisini alqışlayır və xalqı məktəbə maddi kömək etməyə çağırırdı.

Tiflis müsəlman qız məktəbinin layihəsi geniş müzakirəyə səbəb olmaqla, ictimaiyyətin nəzər-diqqətini cəlb edirdi. Nəzərdə tutulan məktəbin əhəmiyyətindən bəhs edən «Qafqaz» qəzeti 1896-cı ildə yazırdı: «Nəinki təkcə Bakı müsəlman aləmi, həm də göndərilən sorğulardan göründüyü kimi, cəmi Qafqaz bu yeni və orijinal tədris müəssisəsinin taleyi ilə maraqlanır.»[1]

Tiflis müsəlman qız məktəbinin tə'sisi məsələsində Zaqafqaziya şeyxülislamı və müftisi Hüseyn Əfəndi Qaibovun mövqeyi də maraqlıdır.

«Qafqaz» qəzetində dərc edilmiş «Tiflisdə müsəlman qız məktəbi açılmasına dair» adlı bir məqalədə hər iki ruhani başçısının göstərilən qız məktəblərinə həm maddi, həm də mə'nəvi kömək göstərmələri qeyd edilir. Onların yerlərə göndərdikləri sərəncamlarda göstərilirdi ki, bu vaxtadək müsəlman ictimaiyyətinin qaranlıqda qalan təbəqəsi içərisində belə bir nadan e'tiqad hökm sürürdü ki, qeyri-müsəlman dillərinin öyrənilməsi, guya şəriətə görə müsəlman mö'minliyi ilə bir araya sığmır. Hüseyn Əfəndi Qur'andan və müqəddəs müsəlman ən'ənələrindən çoxlu iqtibaslar gətirərək bu yalan tə'limi ciddiyyətlə rədd edir və göstərirdi ki, şəriət öz pərəstişkarlarını müsəlman dininə yad olanların dillərini, elmini və biliyini öyrənməyi nəinki qadağan edir, əksinə bütün bunları vacib bilir.[2] Qaibov bütün bunları eyni dərəcədə, həm də qadın təhsilinə aid edirdi. O göstərirdi ki, hal-hazırda müsəlmanlar az deyildir. Onların sayı getdikcə daha da artır. Təhsilli şəxs təbii ki, təhsilli qız ilə evlənmək istəyəcəkdir. Bunun üçün də qızların savadlı olması vacibdir.

İstər şeyxülislam, istərsə də müfti açılması nəzərdə tutulan Tiflis müsəlman qız məktəbini faydalı və zəruri hesab etməklə, xalqı ona kömək etməyə çağırırdı. Həmin məqalədə deyilir ki, onlar bu sahədə təkcə fikirlər söyləməklə kifayətlənmir, həm də özləri ibrətli nümunə göstərirlər.

[1] «Qafqaz» qəzeti, № 291, 1896-cı il.
[2] «Qafqaz» qəzeti, 1896-cı il, № 52.

Qaibovun oğul və qızlarının hamısı rus orta və ali məktəblərində təhsil almış və alır. Onun böyük qızı üç il bundan əvvəl Zaqafqaziya Qızlar İnsitutunda elm-təhsilini bitirmişdir.

Zaqafqaziyanın sünni və şiə məscidi də vəqf gəlirindən ildə 8 min man. ayıraraq qız məktəbinə xərcləməyi öhdəsinə götürdü. Lakin Zaqafqaziya mülki işlər üzrə Baş rəisin dəftərxanası məscid vəqf vəsaitini qız məktəbi açmağa sərf etməyi qanunsuz hesab edirdi. Guya müsəlman ruhaniliyinə aid əsasnaməyə görə vəqf pulu məscidə yaxın olan işə sərf edilməli idi. Nəzərdə tutulan məktəbin də dini məktəb olmadığına görə həmin vəsaiti sərf etmək olmaz idi. Dəftərxana yazırdı:

«Bundan başqa ayrı-ayrı məscidlərin gəlirini bütün müsəlman əhalisinin ehtiyacına sərf etməyə də şəriət yol vermir.»[1]

Beləliklə, özünü müsəlman şəriətinin «mahir bilicisi» və müdafiəçisi kimi qələmə verən dəftərxana rəisi, müsəlman ruhani idarəsinin əleyhinə olaraq, qız məktəbinin açılması üçün ayrılan vəsaitin verilməsinə ciddi mane oldu. Xəzinədən isə vəsait buraxılmadığından və yeni ianələrdən toplanan vəsait isə azlıq etdiyindən Tiflisdə müsəlman qız məktəbinin tə'sisi bir daha baş tutmadı.

Zaqafqaziyanın inzibati və mədəni mərkəzi olan Tiflis şəhərində azərbaycan qız məktəbinin tə'sisi baş tutmadısa, nəticəsiz də qalmadı. Qız məktəbi açmağa aid edilən təşəbbüs, ayrı-ayrı quberniya və məktəb rəhbərlərinə göndərilən məktublar, mətbuatdakı çıxışlar, qız məktəbinin zəruriyyətini bir daha nümayiş etdirirdi. Qadın təhsilinin əhəmiyyətini dərindən dərk edən bir sıra mütərəqqi müəllimlər qızların da məktəbə cəlb edilməsinə çalışırdılar. Belə cəhdlərin biri görkəmli yazıçımız C.Məmmədquluzadəyə aiddir.

1890-1897-ci illərdə Nehrəm kəndindəki iki sinifli məktəbin müdiri vəzifəsində işləyən xalq maarifi və məktəbin inkişafında unudulmaz xidmətlər göstərən C.Məmmədquluzadə, oğlanlarla bərabər, qızların da məktəbə cəlb edilməsinə ciddi sə'y etmiş və buna müvəffəq olmuşdur. Dini fanatizmin möhkəm kök saldığı kəndlərdən biri olan Nehrəmə qızların məktəbə, həm də oğlanlarla birlikdə, rus dilində təhsilə cəlb edilməsi çox mühüm hadisə olub, yalnız C. Məmmədquluzadənin sə'y və ciddi cəhdinin nəticəsi idi. Nehrəm kəndində 8 qız cəlb edilmişdi. Həmin məktəbə qızların da cəlb edilməsini xəbər verən C.Məmmədquluzadə 1893-cü il yanvarın 18-də

[1] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 5122, v. 5.

İrəvan, Gəncə quberniyaları və Qars vilayəti xalq məktəblər direktoruna göndərdiyi 10 №-li raportunda yazırdı:

«Zati-alilərinə bunu hörmətlə bildirməyi özümə şərəf hesab edirəm ki, mənə tapşırılmış məktəbə bu il yanvarın 15-nə qədər oxumaq üçün 8 azərbaycanlı qız daxil olmuşdur.»[1]

C. Məmmədquluzadə qızların adlarını da qeyd edirdi. Onlar aşağıdakılar idilər: 1)Adıgözəlova Şəhrəbanı, 2)Cahangirova Səkinə, 3)Qazıyeva Ümbül, 4)Məmmədquliyeva Səkinə, 5)Mehdixanova Xədicə, 6)Mehdiyeva Zəhra, 7)Mirzəmmədova Səkinə və 8)Mirzəməmmədova Mina.

C. Məmmədquluzadə həmin raportun sonunda yazırdı: «Bununla birlikdə acizanə surətdə əlavə edib bildirirəm ki, həmin qızlardan xüsusi bir hazırlıq sinfi təşkil etdim və bu siniflə mən özüm dərs keçirəm.»[2]

Kənd camaatının əhval-ruhiyyəsini yaxşı bilən C.Məmmədquluzadə onların bu işə mane olmaması üçün məktəbə əvvəlcə öz bacısı Səkinəni, məktəbin fəxri nəzarətçisi Adıgözəlovun qızı Şəhrəbanı və şəriət müəllimi Qazıyevin qızı Ümbülü cəlb etmişdi.

Bu cəmi İrəvan mahalında böyük hadisə idi. Onun bu sə'yi xalq məktəblər direktoru tərəfindən yüksək qiymətləndirildi. Xalq məktəblər direktoru 1893-cü il fevralın 2-də C.Məmmədquluzadəyə göndərdiyi 172 №-li xüsusi məktubunda yazırdı:

«Sizə tapşırılmış məktəbə oxumaq üçün 8 qızın daxil olduğuna dair bu il yanvar ayının 18-də yazdığınız 10 №-li raportla əlaqədar olaraq, hörmətli cənab, müsəlman qızların arasında savadı yaymaq üçün göstərdiyiniz qayğıkeşlik üçün Sizə səmimi təşəkkürlərimi bildirməyi özüm üçün vəzifə hesab edirəm.»[3]

C. Məmmədquluzadənin xalq maarifi, o cümlədən qadın təhsili sahəsindəki xidmətlərindən bəhs edən onun müəllim yoldaşı T.S.Simbatyans sonralar özünün xatirələrində yazırdı:

«... Mirzə Cəlil imkan daxilində öz vəsaiti ilə uşaqlara dərs ləvazimatı, geyim, ayaqqabı və şirniyyat alırdı. O, hamının təəccübünə baxmayaraq, məktəbə 8 nəfər qız cəlb edə bilmişdi. Buna görə də xalq məktəbləri müdiriyyəti ona təşəkkür e'lan etmişdi.»

Keçən əsrin 90-cı illərində oğlan məktəbləri yanında xüsusi siniflər açılması təşəbbüsü get-gedə genişlənirdi. Bu siniflərdən biri

[1] Erm. Resp. MDTA, f. 19, s. 2, iş № 698, v. 18.
[2] Yenə orada.
[3] Erm. Resp. MDTA, f. 19, s. 2, iş № 698, v. 17.

görkəmli müəllim və maarifçi Məmməd Şeyxzadə tərəfindən 1894-cü ildə Nuxada, onun dərs dediyi «Darüssüəda» məktəbinin nəzdində təşkil edildi. Qızların tə'limi ilə Şeyxzadənin qızı Şəfiqə xanım məşğul olurdu. Tə'lim yeni üsulla aparılırdı.

Qocaman maarif işçisi Əhməd Nəbiyev öz xatirələrində yazır ki, 1894-cü ildə müəllim Şeyxzadənin zövcəsi Əsmə Soltan xanım və qızı Şəfiqə xanımla kirayə ilə yaşadığı Bazar meydanındakı Hacı Cumayın evində yeni üsullu məktəb tipində bir qız məktəbi açmışdı. Xırda oğlan uşaqları da bu məktəbə qəbul olunurdu. Buranın III şö'bəsini bitirən uşaqları üsuli-sövtiyə məktəbinə köçürdülər. Dərs haqqı ayda 1 man. idi. Bu məktəb üç il davam etdi. Şeyxzadə məktəb açmaq üçün Şamaxıya də'vət olunduğundan ailəsi ilə oraya köçdü.[1]

Əsrin sonlarına doğru digər şəhər və kəndlərdə də qız məktəbləri təşkil edilirdi. Belə məktəblərdən biri də 90-cı illərdə Naxçıvanda M.T.Sidqi tərəfindən açılmışdı. Bu vaxt rus dili olan oğlan məktəblərində də oğlanlarla birlikdə qızların oxuması müşahidə olunur. Nuxa qəzasının Vartaşen və Qarabulaq, Cəbrayıl qəzasının Qarğabazar kənd məktəblərində, Quba ibtidai məktəbinə qızlar da cəlb edilmişdi. 1895-ci ildə Quba ikisinifli ibtidai məktəbi nəzdində qızlar üçün paralel şö'bə açılmışdır.[2]

1898-ci ildə Qarabulaq kənd məktəbində oxuyan 60 nəfərdən 16 nəfəri qızlar idi.[3] Qarağabazar məktəbində olmuş Gəncə quberniyası xalq məktəblər direksiyasının inspektoru Şulgin 1895-ci ildə yazırdı ki, «Qarğabazar məktəbində oxuyan 17 tatar (azərbaycan - H.Ə.) qızlarından 10 nəfəri o qədər böyükdürlər ki, onlar barama qurdlarını bəsləməkdə müəllimə kömək edirlər.»[4]

Ayrı-ayrı məktəblərdə qızların təhsili ayrıca qız məktəblərinin tə'sisini tələb edirdi. 1898-ci ildə Vartaşen ikisinifli məktəbini yoxlayan Gəncə quberniyası xalq məktəblər direktoru yazırdı ki, «Mən məktəbin müəllimi ilə bərabər məktəbə baxarkən 80-ə qədər şagird var idi ki, onlardan ancaq 5 nəfəri qız idi.»[5]

---

[1] Bax: müəllim Əhməd Nəbiyevin xatirələri, s. 56–57, Azərb. Resp. Maarif Nazirliyi, Xalq Maarif muzeyi, inv. № 1122; Sabir Məmmədov, İlk Azərb. qız məktəbləri, «Azərb. məktəbi» jurnalı, 1968, № 8, s. 51.

[2] Bax: Sirkulyar... KUO, 1895, № 12, s. 1202.

[3] Bax: Sirkulyar... KUO, 1898, № 3, s. 193.

[4] Gürc. Resp., MDA, f.422, s.1, iş № 5156, v.16 arx.

[5] Gürc. Resp., MDA, f.422, s.1, iş № 6315, v.26 arx.

Direktor qızların azlıq təşkil etməsinin səbəbini bir tərəfdən qızların oğlanlarla bir yerdə oxumasına valideynlərin narazı olması ilə, digər tərəfdən də qadın müəllimin (Çernılazovanın) təcrübəsizliyi ilə izah edirdi. Xalq məktəblər direktoru qızların sayını artırmaq üçün Vartaşendə (Oğuz – red.) müstəqil qız məktəbi açmağı təklif etmişdi.

Əsrin sonlarında məktəb və mədrəsələrin yenidən qurulması, oraya rus dilinin daxil edilməsi, «Rus-Azərbaycan» məktəblərinin genişlənməsi qadın təhsilinin tərəqqisinə də müsbət tə'sir edirdi. Bə'zi «rus-Azərbaycan» məktəblərinin nəzdində ayrıca qız məktəbləri də təşkil edilirdi. Qız şö'bələrinin biri 1901-ci ildə Bağmanlar «rus-Azərbaycan» məktəbi nəzdində meydana gəldi. Burada 20 nəfər qız rus və Azərbaycan dillərində dünyəvi təhsilə cəlb edilmişdi.[1] Burada Azərbaycan dilini Baxşıyeva Ruqiyyə Avdı qızı, rus dilini isə Z.Levitskaya tədris edirdi.

Bu vaxtlar Gəncə məscidi nəzdindəki «rus-Azərbaycan» məktəbi yanında da qız məktəbi təşkil edilmişdi. İki şö'bədən ibarət olan bu məktəbə 85 qız cəlb edilmişdi.[2] (başqa bir mənbədə 94).[3] Birinci növbədə Şahsuvarov, ikinci şö'bədə isə məktəbin müdiri Saniyev məşğul olurdu. Hər iki müəllimin gərgin əməyi qızların təhsil müvəffəqiyyətinə səbəb olmaqla, dairə inspektoru L.Lopatinskinin diqqətini cəlb etmişdi. 1904-cü ildə bu məktəbi təftiş edən Lopatinski Şahsuvarov haqqında yazırdı:

«Bu gözəl müəllim zirək və bacarıqlıdır. Onun işi necə deyərlər başından aşır». Ən əsası isə «əvvəllər rus dilində bir kəlmə bilməyən azərbaycanlı qızları indi rus dilində çox yaxşı danışırlar». Dairə inspektoru Saniyevi «çox gözəl müəllim» adlandırır, şagirdlərin cavabının çox qənaətbəxş olmasını qeyd edir, ən başlıcası isə buraya 85 qızın cəlb edilməsini məktəbin və müəllimlərin böyük nailiyyəti hesab edirdi.[4]

1901-ci ildə Göyçayda azərbaycanlı qızları üçün ayrıca məktəb açmaq nəzərdə tuturlurdu.[5]

[1] Gürc. Rosp. MDA, f. 422, iş № 7150, v. 13; iş № 6910, v. 66; iş № 7163, v. 4.
[2] Yenə orada, iş № 8703, v. 140.
[3] Yenə orada, v. 227.
[4] Yenə orada, v. 140.
[5] Yenə orada, iş № 7150, v. 13.

§ 10. BAKIDA İLK MÜSƏLMAN QIZ ÜMUMTƏHSİL MƏKTƏBİ

XIX əsrin sonlarında Azərbaycan ziyalılarının qadın təhsili uğrunda mübarizəsi get-gedə genişlənirdi. Onların bir hissəsi öz həmvətənlərinin dini görüşlərini nəzərə alaraq və ona hörmət əlaməti olaraq, qız məktəblərini, orada yalnız qadın müəllimlərinin dərs deməsi şərtilə açmağı məqsədə daha müvafiq hesab edirdilər. Ziyalıların bir dəstəsi isə bu sahədə praktik addım atmağa çalışır, imkan daxilində qızların düzgün təşkil edilmiş dünyəvi məktəblərə cəlb edilməsinə cəhd edirdilər.

Maarif və mədəniyyət sahəsində atılan yeni və müvəffəqiyyətli addımlar, Azərbaycan maarifçilərini bir o qədər də cəsarətləndirirdi. Onlar necə olursa, olsun Azərbaycanda gözə görünən bir qız məktəbini açmağın lüzümunu daha çox hiss edirdilər. Bu işdə yenə də unudulmaz maarifçimiz H. Zərdabi xüsusilə fərqlənirdi. Bu vaxt Bakıda yaşayan və şəhər idarəsində məktəb komissiyasının üzvü olan H. Zərdabi oğlan məktəbləri kimi qadın təhsili uğrunda da gərgin mübarizə aparmışdır.

1896-cı il yanvarın 19-da Bakı qubernatoruna ərizə ilə müraciət edən H. Zərdabi, Bakıda azərbaycan qızları üçün təhsil müddəti üç il olan birsinifli məktəb açmağa icazə istədi. Zərdabi azərbaycan qız məktəbinin tədris planına aşağıdakı fənləri daxil etməyi nəzərdə tuturdu: 1)şəriət 2)Azərbaycan dili 3)rus dili 6)hesab 5)hüsnxətt və rəsmxət və 6) əl işləri.[1] Zərdabinin təklif etdiyi tədris planı mövcud rus-Azərbaycan məktəblərinin tədris planına uyğun idi.

H. Zərdabinin Bakıda qız məktəbi tə'sis etməyə hazırlaşması xəbəri tez bir zamanda cəmi Qafqaza yayıldı. Qəzetlər bu haqda xəbərlər dərc edirdilər. «Kaspi» qəzetinin verdiyi mə'lumata istinad edən «Qafqaz» qəzeti 1896-cı ildəki 44-cü nömrəsində yazırdı: «Moskva Universitetini bitirmiş müsəlman Həsən bəy Məlikov Zərdabski Bakıda qızlar üçün rus-Azərbaycan məktəbi açmağa icazə istəməkdən ötrü Bakı qubernatoruna müraciət etmişdir».

Qəzet məktəbi xarakterizə edərək göstərirdi ki, qız məktəbi quruluş e'tibarı ilə Nazirlik məktəbi olacaqdır. Üç illik tədris müddətinə malik olan bu məktəbdə ümumtəhsil fənnləri ilə bərabər həyatına faydalı olan əl işləri də öyrədəcəkdir. Məktəbin nəzdində o

[1] Azərb. Resp, f. 45, s. 2, iş № 257, v. 1–5.

qədər də böyük olmayan pansion nəzərdə tutulurdu ki, burada təhsil haqqı o qədər də yüksək deyildir. Məktəb hazır binaya və kifayət qədər azuqəyə malik olacaqdır. Bakı şəhərindən kənarda yaşayan azərbaycan qızları da bu məktəbə daxil olmağa imkan tapacaqlar. Qəzet yazırdı ki, məktəbin müəllimliyinə Tiflisdə «Müqəddəs Nina» qız məktəbinin keçmiş mə'zunlarından birinin (Hənifə xanımın) tə'yin edilməsi nəzərdə tutulur.

Lakin Zərdabinin ərizəsinə müsbət cavab verilmədi. Zərdabinin dövlətə «Siyasi cəhətcə e'tibarlı olmasını» yoxlamaq üçün onun ərizəsi quberniya jandarma idarəsinə göndərildi. Göyçay qəza rəisi 1896-cı il fevralın 29-da Bakı general-qubernatoruna göndərdiyi xüsusi məxfi məktubunda Zərdabiyə şiddətli hücum edərək, onun «öz məqalələri və şifahi çıxışları ilə kəndliləri müntəzəm surətdə həyəcana gətirdiyini və bütün maddələr üzrə siyasi cəhətdən e'tibarsız və dövlət üçün təhlükəli» olduğunu qeyd edirdi. Bundan sonra Bakı qubernatoru heç bir səbəb göstərmədən H. Zərdabinin xahişini rədd etdi.

Xalq maarifi uğrunda mərd mübariz olan Zərdabinin qız məktəbi açmaq kimi mütərəqqi ideyası o vaxt həyata keçmədisə də, onun bu cəhdi və təşəbbüsü Bakıda azərbaycan qız məktəbi tə'sisinin zəruriliyini sür'ətləndirdi.

Onu da əlavə edək ki, o dövrdə hökumət xalq maarifinə, onun tərəqqisinə lazımi vəsait buraxmadığından yerli ziyalılar, bə'zən varlılara pənah gətirir, ümidlərini onlara bağlayır və onları mədəniyyətin, maarifin inkişaf etdirilməsi işinə sövq və təşviq edirdilər. Varlılar, milli burjuaziyanın bə'zi nümayəndələri də xalq arasında şöhrət və nüfuz qazanmaq üçün xeyriyyə işlərində fəal iştirak edirdilər.

Azərbaycan milli burjuaziyasının görkəmli nümayandəsi olan H.Z. Tağıyev bu işdə xüsusilə fərqlənirdi. O bir çox məktəblərə maddi yardım etdiyinə görə dəfələrlə imperatordan mükafat, Qafqaz Təhsil Dairəsindən təşəkkürnamə almışdır.

Azərbaycanda dünyəvi elmləri öyrədən ilk qız məktəbinin yaradılması da məhz yuxarıda göstərilən yol ilə meydana gəldi.

H.Z. Tağıyev 1896-cı il aprelin 24-də QTD-nə müraciət edərək, Bakıda onun vəsaitilə rus-Azərbaycan qız məktəbi açılmasına icazə istədi. 20 nəfərlik pansionu olan bu məktəbə növbəsiz və səsə qoyulmadan yalnız kasıb müsəlman qızları qəbul olunmalı idi ki, bunlar təhsil haqqından azad idilər.

Bakı milyonçusunun «təqlidə layiq olan bu hərəkəti» mülki işlər üzrə Qafqazın baş rəisi tərəfindən rəğbətlə qarşılandı. Tağıyev dövlətdən heç bir vəsait tələb etmədən azərbaycan qızlarına dünyəvi təhsil verən məktəb açmağa sə'y etməsi, məşhur kapitalist olmasına baxmayaraq, mühüm hadisə idi.

1897-ci ilin yanvarında QTD-nin popeçiteli, 1898-ci il aprelin 24-də isə Rusiya XMN-i məktəbin açılmasına rəsmi icazə verdi. Məktəb 1867-ci il nizamnaməsinə əsaslanırdı. Bundan əlavə özünün 1898-ci il mayın 16-da Rusiya XMN tərəfindən təsdiq edilmiş xüsusi nizamnaməsi var idi. Nizamnaməyə görə məktəb Tağıyevin bu məqsəd üçün dövlət xəzinəsinə qoyduğu 185 min man. pulun ianə faizləri hesabına idarə olunurdu. Məktəbin illik xərci 5 min man. idi. Nizamnamə layihəsində məktəbin gələcəkdə progimnaziyaya çevrilməsi nəzərdə tutulurdu. Lakin Rusiya XMN-i bir tərəfdən 1867-ci il ümumi nizamnaməsinə əsaslandığını və əvvəlcə ibtidai məktəb şəklində təşkil edildiyini, digər tərəfdən isə progimnaziyanın orta məktəb sisteminə aid olduğunu bəhanə gətirərək, onun gələcəkdə progimnaziyaya çevrilməsinə aid maddəni layihədən çıxartdı.

Nizamnaməyə görə qız məktəbi qapalı idi. Lakin davam edənlərə də icazə verilirdi. Qız məktəbi mövcud qayda üzrə yerli xalq məktəblər direktoruna və QTD-yə tabe idi. Nizamnaməyə görə məktəbə yalnız azərbaycanlılardan olan 7 yaşı tamam olmuş qızlar qəbul olunurdu (§ 5). Tədris planı və proqramı cəhətincə birsinifli məktəbə bərabər idi. Lakin təhsil müddəti 4 il idi. 4-cü sinif - əlavə sinif hesab edilirdi. Bu sinif sənət şö'bəsi adlanırdı. Məktəbin pansionu var idi. Buraya silkindən asılı olmayaraq ancaq kasıblardan olanlar qəbul olunurdu (20 nəfər). Pansionda öz vəsaitləri ilə yaşayanlar, bundan başqa, evlərdə davam edənlər də var idi ki, onlardan təhsil haqqı alınırdı.

Məktəbə Tağıyev tərəfindən pedaqoji və hifz-səhiyyə tələblərinə cavab verən xüsusi bina tikilmişdi. Məktəbin binası keçmiş Nikolayev — indiki İstiqlaliyyət küçəsində yerləşirdi (hal-hazırda Azərb. resp. EA əlyazmaları İnstitutunun binası).

Nizamnaməyə görə məktəbin müdiri və müəllimləri mütləq azərbaycanlı qadınlardan ibarət olmalı idi (§ 12). Bu maddənin nizamnaməyə daxil edilməsi, xalqın o zamankı fanatik görüşlərindən irəli gəlib, məktəbin müvəffəqiyyətini tə'min etmək üçün idi.

Məktəbin popeçitel şurası aşağıdakılardan: sədr (Tağıyev); üzvlər: şəhər bələdiyyə rəisi, quberniya qazısı, Tağıyevin arvadı, Bakı

qız gimnaziyasının müdiri, Bakı kişi gimnaziyasının direktoru, Bakı şəhər duması tərəfindən seçilən üç nəfər fəxri müsəlmanlardan ibarət idi. Göstərilən üç nəfər fəxri müsəlmandan biri şəhər dumasının üzvü, məşhur pedaqoq və ictimai xadim H.Zərdabi idi. Digərləri, ikisi isə «Kaspi» qəzetinin naşiri və redaktoru Ə.Topçubaşov və dağ mühəndisi Fərrux bəy Vəzirov idi.

Cəmi Qafqazda ilk dəfə olaraq müsəlman qızlarının Azərbaycan və rus dillərində təhsil alması, Azərbaycan və Rusiya mədəniyyəti ilə tanış olması məqsədilə tə'sis edilən və ilk şitillikdən ibarət olan bu məktəb 1901-ci il oktyabrın 7-də saat 12-də təntənəli surətdə açıldı.[1] Məktəbin açılışında şəhər ictimaiyyəti, valideynlər yaxından iştirak edirdi. «Kaspi» qəzeti bu haqda dərc etdiyi bir məqalədə yazır ki, məktəbin açılışı günü məktəb binası bayraqlarla bəzədilmişdi. Məktəbin salonu adamlarla dolu idi. Məktəbin tə'sisi haqda mə'lumat verildikdən sonra çıxışlar oldu. Hamı məktəbin açılışını böyük bir hadisə kimi qiymətləndirdi. Məktəbdə təhsil alacaq qızlardan düzəldilmiş xor dəstəsi bir neçə Azərbaycan mahnısını oxudu. Azərbaycanda bu ilk uşaq xorunu Bakı «rus-Azərbaycan» məktəbinin müəllimi Mirzə Yaqub Əlizadə təşkil etmişdi.[2]

XIX əsrin sonlarında Bakıda xalq maarifi və məktəb sahəsində baş verən canlanma, «rus-Azərbaycan» məktəblərinin müvəffəqiyyətli davamı, çar III Aleksandrın tac qoyması şərəfinə Bakı varlılarının şəhər və quberniya məktəblərinə az-çox ianə verməsi, kapitalist münasibətlərinin sür'ətli inkişafı və əhalinin dünyəvi təhsilə olan tələbatının artması və s. müstəqil dünyəvi qız məktəbinin yaranmasına şərait yaratdı. Bu faydalı işdə H.Z.Tağıyevin ianələri mühüm rol oynadı. Azərbaycanlı qızları üçün müstəqil məktəb tə'sisi və Tağıyevin bu işdə xeyirxah köməyi o vaxtkı dövri mətbuatda böyük rəğbətlə qarşılandı.

Azərbaycanın qabaqcıl ziyalılarından olan M. Şaxtaxtlı hələ 1896-cı ildə «Qafqaz» qəzetində dərc etdirdiyi «Müsəlman qız məktəbinin mədəni əhəmiyyəti» adlı məqaləsində yazırdı ki, əgər Tağıyev xalq maarifi nəfinə 185 min man. kimi böyük məbləğdə ianə verməkdən başqa heç bir şey etməsə idi belə, yenə də o cəmi Rusiyada xalq maarifi dostlarının hüsn-rəğbətini qazanardı. Lakin Tağıyev bu böyük məbləğdən əlavə, bundan daha vacib və faydalı iş

[1] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 5421, v. 49.
[2] «Kaspi» qəzeti, № 219, 1901-ci il.

görmüşdür. O, ianə etdiyi vəsaitlə azərbaycanlılar üçün ayrıca proqrama malik xüsusi qız məktəbinin bünövrəsini qoyur və əgər bu proqram həyata keçirilərsə, həmin məktəb qadın təhsili sahəsində müsəlman ictimaiyyətinin böyük hüsn-rəğbətini qazanacaq və digər yerlərdə də müsəlmanlar yeni-yeni qız məktəbləri açacaqlar.[1]

Qadın təhsilinin zəruriliyi o dövrdə özünün həllini gözləyən mühüm ictimai problemlərdən biri idi. Ona görə də bu məsələ bütün ictimaiyyəti, qabaqcıl ziyalıları narahat edirdi. Qız məktəbinin vacibliyi bir də onda idi ki, o nəinki azərbaycanlıların ailəsinə ümumi təhsilə aid ibtidai mə'lumat daxil edəcək, həm də müsəlmanları «əsas ictimai bəladan» (M.Şaxtaxtlı) xilas edəcək idi. O, bəladan ki, o həm bədənə, həm də ruha əziyyət verir, insanları həm cismani, həm də mə'nəvi cəhətdən şikəst edir, onun fiziki cəhətdən inkişaf etməsinə, əqli cəhətdən təkmilləşməsinə mane olurdu. Bu bəla fanatizm, nadanlıq idi.

Bakıda «rus-Azərbaycan» məktəbinin təşkili bu bəlanın aradan qaldırılması yolunda irəliyə atılmış ilk addım oldu.

Bakı qız məktəbinin təşkili Azərbaycanın bütün ziyalılarını sevindirdi. Onlar hər vəchlə əsrlərdən bəri həsrəti çəkilən bu maarif ocağının meydana gəlməsini alqışlayır, ona mə'nəvi kömək edirdilər. Məktəbin açılışı ilə əlaqədar olaraq göndərilən teleqramlar, ünvanlar onun böyük həyati əhəmiyyətinə əyani sübut idi. Müsəlman ziyalı qadınları məktəbin açılışını öz həyatlarının mədəni bayramı, bütün bayramlardan və şənliklərdən ən əzizi sayırdılar. Teleqramlardan birində deyilirdi: «Biz nəslimizin və gələcəyimizin yaxşı olacağını görüb sevinirik və şadlığımızdan coşuruq».[2]

Azərbaycan ziyalıları tərəfindən tərtib edilən təbrik məktubunun altından ilk imzanı Azərbaycan ziyalılarının veteranı H. Zərdabi çəkmişdir.

Məktəbin açılması münasibətilə Tiflis ziyalı azərbaycanlı qadınlarından, azərbaycanlı şagirdlərindən və hətta Qazan müsəlmanlarından da təbriklər göndərilmişdi. Qazan müsəlmanlarının təbrikində Bakı qız məktəbinin Rusiyanın digər ucqarlarında yaşayan müsəlman qadınlarının həyat yolunu işıqlandıracağı, bu məktəbin digər məktəblər üçün ana rolu oynayacağı ayrıca qeyd edilirdi.

[1] «Qafqaz» qəzeti, № 190, 1896-cı il.
[2] Bax: «Kaspi» qəzeti, № 219, 1901-ci il.

Təkcə Azərbaycanda deyil, cəmi Qafqazda və Rusiyada nəşr edilən dövri mətbuat Bakı qız məktəbinin açılışını böyük hərarətlə qarşıladı. Xarici ölkələrdə nəşr edilən kitablar belə Bakıda qız məktəbinin açılışını xəbər verirdi. O vaxtlar Bakıda olmuş fransız səyyahı Baron-de-Bay Parisdə nəşr etdirdiyi «Rusiyanın icmalı» adlı əsərinin «Dərbənddən-Yelizavetpoladək» fəslində ilk «rus-Azərbaycan» qız məktəbinin açılışını yüksək qiymətləndirərək yazırdı ki, bu ideya müasirdir, maraqlıdır, tə'sirləndiricidir. O, böyük çətinliklər hesabına başa gəlmişdir.

İlk «rus-Azərbaycan» qız məktəbinin müdiri H. Zərdabinin arvadı Hənifə xanım Məlikova (Abbasova), rus dili və hesab müəllimi Mariya Mustafayevna, Azərbaycan dili və şəriət müəllimi isə Əsmə xanım Hafiz Məmməd Əmin Əfəndi qızı olmuşdur.[1] Sonralar, Azərbaycan qadın ziyalılarının ən qabaqcıl dəstəsi bu məktəbdə çalışmışlar.

Məktəb ilk dəfə 34 nəfər şagirdlə işə bişlamışdı. Az müddət ərzində şagirdlərin sayı artaraq 58 nəfərə çatmışdır. 1902-ci ildə onların sayı artıq 71 nəfər idi. Onlardan 35 nəfəri pulsuz oxuyurdu. Qəbul olunan şagirdlər içərisində Şuşa və Tiflisdən, Zaqafqaziya və Qafqazın digər yerlərindən olanlar da var idi. Şagirdlər xüsusi məktəbli forması geyinirdi.

Qısa müddət ərzində məktəb geniş əhali kütləsinin hüsn-rəğbətini qazandı. Bakı «rus-Azərbaycan» qız məktəbi digər yerlərdə də qız məktəblərinin meydana gəlməsinə qüvvətli tə'sir etdi. Onun mə'zunları isə xalq maarifinin, qadın təhsilinin carçıları, yeni məktəblərin açılmasında, gənc nəslin, ilk növbədə isə qızların təhsili sahəsində fəal mübarizlər oldular. İnqilabdan əvvəlki qadın ziyalılarının əsas dəstəsi Bakı qız məktəbinin yetişdirmələri olmuşlar.

Bakıda ilk azərbaycan qız məktəbinin təşkili cəmi Qafqaz ictimai həyatında bir canlanmaya səbəb oldu. Bu məktəbin müvəffəqiyyəti az sonra Tiflisdə, İrəvanda, Naxçıvanda və başqa yerlərdə də yeni-yeni qız məktəblərinin meydana gəlməsinə təkan verdi.

Məqalə akad. H.M. Əhmədovun şəxsi arxivində saxlanılan əlyazmasından ilk dəfədir çap olunmuşdur.

[1] Gürc. Resp., MDA, f. 422, s. 1, iş № 6780, v. 1–2.

ÇOXCİLDLİKDƏ İXTİSARLA VERİLMİŞ SÖZLƏR

"Azərbaycan müəllimi" qəz., – «Azərbaycan müəllimi» qəzeti
"Azərbaycan məkt." jurn. – "Azərbaycan məktəbi" jurnalı
АКАК – Акты собранные Кавказской Археографической Комиссией. Архив Главного Управления наместника Кавказа, т.т. I-XII, Под редакцией А. Берже, Тифлис, 1866-1904 гг.
Azərb. Resp. MDTA – Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi
Azərb. Resp. EA RƏİ – Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmaları İnstitutu
QTD – Qafqaz Tədris Dairəsi
DİN – Daxili İşlər Nazirliyi
ETPEİ – Elmi tədqiqat Pedaqoji Elmlər İnstitutu
Erm. Resp. MDTA – Ermənistan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi
ЖМНП – Журнал Министерства Народного Просвещения
ZMS – Zaqafqaziya Müəllimlər Seminariyası
Gürc. Resp. MDA – Gürcüstan Respublikası Mərkəzi Dövlət Arxivi
LMDTA – Leninqrad Mərkəzi Dövlət Tarix Arxivi
MDK – Mərkəzi Dövlət Kitabxanası
МНП – Министерство Народного Просвещения
M.y. – Mə'lumat yoxdur
/O//S/ – Oxu salonu
RXMN – Rusiya Xalq Maarif Nazirliyi
SPB – Sankt-Peterburq
СМОМ и ПК – Сборник материалов по описании местностей племен Кавказа
Циркуляр… КУО – Циркуляр по управлению Кавказским учебным округом
XMN – Xalq Maarif Nazirliyi
HMM – Həqiqi Mülki Müşavir

MÜNDƏRİCAT

		Səh.
1.	Görkəmli alim, tanınmış elm təşkilatçısı	3
2.	Ön söz	7
3.	XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi və məktəb.....	9
4.	Azərbaycanda ilk qəza məktəbləri.....	24
5.	XIX əsrin 40-cı illərində Azərbaycanda xalq maarifi və məktəb.....	32
6.	Azərbaycanda kənd ümumtəhsil məktəbləri tarixindən.	47
7.	Şamaxı məclis məktəbi.....	57
8.	Azərbaycanda orta təhsil müəssisələrinin meydana gəlməsi tarixinə dair (XIX əsr).....	69
9.	XIX əsr Azərbaycanda qadın təhsili tarixinə dair.	84
10.	XIX əsrdə Azərbaycan dilində dərslik və tədris vəsaitləri tərtibi tarixindən.....	99
11.	Azərbaycan məktəbləri XIX əsrin ortalarında.....	108
12.	Azərbaycanda sənət məktəblərinin təşkili tarixinə dair.....	124
13.	Ana dili tə'limi ideyasının meydana gəlməsi və inkişafı.....	134
14.	XIX əsrin 60-cı illərində Rusiyada məktəb islahatı və Azərbaycanda məktəb təhsilinin yenidən qurulmasının bə'zi məsələləri.....	144
15.	Bakıda «Rus-Azərbaycan» məktəblərinin təşkili tarixinə dair (XIX əsr).....	167
16.	«Rus-Azərbaycan» məktəblərinin yayılması tarixinə dair (XIX əsr).....	177
17.	Azərbaycanda ibtidai məktəblərin meydana gəlməsi tarixindən.....	176
18.	Azərbaycanda bazar günü məktəblərinin təşkili tarixindən.....	181
19.	XIX əsrin birinci yarısında Azərbaycanda xalq maarifi və məktəb təhsilinin bə'zi məsələlərinə dair.....	185
20.	Kənddə dünyəvi məktəblərin müjdəçisi.....	196

21. Maarif ocağının işıqları 200
22. Ana dili dərsliyi problemində ilk addım 207
23. Zaqafqaziya Müəlimlər Seminariyası Azərbaycan şö'bəsinin təşkilini şərtləndirən tarixi zəmin..... 215
24. Şəkidə ilk dünyəvi təhsil məktəbi..... 227
25. Azərbaycan məktəblərində şagirdlərin peşə təhsili tarixinə dair (XIX əsr)..... 237
26. Qocaman maarif ocaqlarımız..... 242
27. XIX əsrin birinci yarısında Azərbaycanda xalq maarifinin inkişafı..... 251
28. XIX əsrin ortalarında Azərbaycanda xalq maarifinin inkişafı..... 257
29. Pedaqogika tarixi və müasirlik..... 266
30. Məktəb və maarifimizin tarixini dərindən öyrənək 272
31. Şuşada ilk qəza məktəbi..... 276
32. Nuxada ilk qəza məktəbi..... 279
33. Bakı ilk qəza məktəbi 282
34. Gəncədə ilk qəza məktəbi..... 285
35. Salyanda ilk məktəb..... 288
36. 50 ildə Azərbaycanda xalq maarifinin inkişafı..... 291
37. 50 ildə Azərbaycanda xalq maarifinin tərəqqisi..... 293
38. Qutqaşen məktəbinin 90 yaşı var..... 296
39. 100 yaşlı məktəb..... 301
40. Kənd məktəblərinin tarixindən..... 305
41. Keçmişi vərəqlərkən..... 309
42. Şamaxıda ilk qəza məktəbi..... 312
43. Dağkəsəmən məktəbinin yaşı yüzdür..... 316
44. Naxçıvanda dünyəvi təhsil məktəbi..... 320
45. Görkəmli tədris ocağı..... 325
46. Görkəmli təhsil ocağının yubileyi..... 330
47. Qori seminariyası..... 332
48. İlk savad məktəblərindən biri..... 335
49. Lənkəranda ilk dünyəvi təhsil məktəbi..... 337
50. 100 yaşlı Qarğabazar məktəbi..... 343
51. Yüz yaşlı Vəndam məktəbi..... 347
52. Qubadlıda 100 yaşlı məktəb..... 352
53. Azərbaycanda orta təhsil müəssisələrinin meydana gəlməsi və inkişafı tarixi (1865-1990)..... 356
54. V.İ.Lenin adına APİ-nin ümumi pedaqogika kafed-

rası — Zaqafqaziya, orta Asiya respublikaları və Şimali Qafqaz üçün elmi-pedaqoji kadr hazırlığında mühüm elmi mərkəzdir..... 358
55. Azərbaycan pedaqoji terminlər lüğəti və onun tərtibi prinsipləri..... 360
56. Məşhur təhsil ocağının yubileyi ərəfəsində..... 361
57. Azərbaycanda orta təhsil müəssisələrinin meydana gəlməsi və inkişaf tarixinə dair (XIXəsr)..... 364
58. Qadın təhsili 407
59. Çoxcildlikdə ixtisarla verilmiş sözlər..... 452
60 Mündəricat 453

Akademik
Hüseyn Mustafa oğlu Əhmədov

SEÇİLMİŞ PEDAQOJİ ƏSƏRLƏRİ

Otuz ciliddə

I cild

Hümeyir Hüseyn oğlu Əhmədovun
ümumi rəhbərliyi ilə hazırlanmışdır.

İdeya müəllifi:
YAŞAR

Maliyyə dəstəyi:
II Hüseyn Mustafa oğlu Əhmədov

Texniki redaktor:
Ruhiyyə Eyvazova

Qrafik dizayn:
ƏZİZƏ

(təkrar elektron nəşr)
Çapa imzalanmışdır: 10.10.2001
Kağız formatı: 60x84 1/16
Şərti çap vərəqi: 28,5
Tiraj: 500